AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU

NAZİM MƏMMƏDOV

5226

# AZƏRBAYCAN SSR-İN DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNDƏ İCTİMAİ-SİYASİ HƏYAT, İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAF (1923-1991)

BAKI-2008

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

63.3(5Aze-6)6+65.04(5Aze-6)
M 51

Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnsitutu Elmi Şurasının **17.03.2008-ci il** tarixli qərarı ilə çap olunur.

**Elmi redaktru:** t.e.d. **Q.Ə.Hacıyev**

**Rəyçilər:** tarix elmləri doktoru, professor **O.B.Sultanov,** t.e..d., professor **S.A.Məmmədov,** t.e.d., professor **A.B.Baxşəliyev,** t.e.d., professor **İ.X.Zeynalov,** t.e.d. **Ə.M.Məmmədov,** t.e.n., dos. **R.C.İmanov,** t.e.n., a.e.i. **A.İ.Ələkbərov**

Texniki redaktor: **Ə.X.Mustafayev**

Korrektor: **B.K.Həsənov**

Kompüter dizayn və tərtibatı: **R.R.Baxışova**

**Məmmədov Nazim Rəhbər oğlu. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində ictimai-siyasi həyat iqtisadi və mədəni inkişaf (1923-1991).** Bakı, Təhsil NPM, 2008, 568 səh.

Kitabda Azərbaycanın DQMV-nin 1923-1991-ci illər tarixi tədqiq edilmişdir. Əsərdə Dağlıq Qarabağda sovet rejiminin qurulması, kommunst ideologiyası və inzibati-amirlik sisteminin formalaşdırılması, ermənilərin müxtəlif dövrlərdə Azərbaycana qarşı torpaq iddiaları və təcavüzü, 1970-1985-ci illərdə Azərbaycanda idarəçiliyin gücləndirilməsi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi şərh olunur.

$M\frac{0033175}{700122}2008.$

© Məmmədov N.R.
© «Təhsil» NPM, 2008.

## GİRİŞ

1991-ci ildə Şimali Azərbaycan dövləti öz müstəqilliyini yenidən bərpa etdikdən sonra başqa sahələrdə olduğu kimi cəmiyyətin mədəni və mənəvi həyatında da mühüm dəyişikliklər baş verdi. Erməni işğalçıları tərəfindən minlərlə sosial-mədəni obyektlərin məhv edilməsinə, postsovet respublikaları ilə mədəni əlaqələrin zəifləməsinə və bir çox sahələrdə tam qırılmasına, vəsait çatışmamazlıqlarına, təxribatçıların törətdiyi çətinliklərə baxmayaraq elm, təhsil, ədəbiyyat, incəsənət, kütləvi informasiya vasitələri inkişaf etməyə başladı.

Xüsusilə, XX yüzilliyin 90-cı illərinin ikinci yarısından Azərbaycanda yaradıcı ziyalılarımız üçün sərbəst düşüncə və iş şəraiti yaradılmış, milli-mənəvi sərvətlərimizin tədqiqi və təbliği, tarixi araşdırmalar geniş vüsət almışdır.

Azərbaycanın 70 illik sovet dövrünə çox düzgün qiymət verən tanınmış dünya siyasətçisi H.Ə.Əliyev «Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti»ndə böyük uzaqgörənliklə tarixçi alimlərimiz qarşısında mühüm vəzifələr durduğunu qeyd edərək göstərmişdir ki, «1922-1991-ci illər Azərbaycanda sovet hakimiyyətinin qurulması və 70 il ərzində Azərbaycanın sovet hakimiyyəti, sovet dövləti çərçivəsində yaşaması dövrünü əhatə edir. Bu illərdə Azərbaycanda çox zəngin iqtisadi və intellektual potensial yaranmışdı.... 1920-1991-ci illərdə Azərbaycanın iqtisadiyyatı ilə yanaşı təhsil, elmi, və mədəniyyəti də böyük inkişaf yolu keçmişdir... Azərbaycan xalqının keçib getdiyi yol yenilməz, zəngin, mərdanə bir qəhrəmanlıq tarixidir... Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi, tariximizin bir çox qaranlıq səhifələrini dərindən tədqiq edib açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir». Bu baxımdan

Azərbaycan tarixinin tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin zəngin, unudulmuş, təhrif olunmuş, ziddiyyətlərlə dolu olan 1923-1991-ci illər tarixinin tədqiqi bu gün son dərəcə əhəmiyyətli və olduqca zəruridir. Dağlıq Qarabağın tarixini zəruriləşdirən ilkin amil Azərbaycanın bu qədim diyarının müvəqqəti olaraq erməni vandalları tərəfindən ələ keçirilməsi və erməni diasporu tərəfindən şantaj, şovinizm, saxta siyasətinə məruz qalması ilə bağlıdır. Son dövrlər isə bu siyasətə bir terror da əlavə edilmiş və bütün dünya üçün təhlükəyə çevrilmişdir. Mövcud vəziyyəti obyektiv tədqiq etməklə «qonşularımız»ın kimliyini dünya ictimaiyyətinə çatdırmalı və bütün dünyanı təhlükəli erməni terrorundan xilas etməliyik. DQMV-nin 1923-1991-ci illər tarixinin tədqiqini zəruriləşdirən amillərdən biri də, sovet hakimiyyəti illərində mərkəzin planı əsasında erməni separatçılarının Dağlıq Qarabağı Azərbaycandan qoparmaq cəhdləri və bunun xalqımız üçün törətdiyi ağır nəticələrini, Vilayətdə sosial iqtisadi və mədəni inkişafın mərhələlərini öyrənmək, bu istiqamətdə Azərbaycan dövlətinin humanist siyasətinin ermənilər tərəfindən saxtalaşdırılması cəhdlərinin açılması, DQMV-nin sosial-iqtisadi geriliyi barədə ortaya atılan tezisin əsassız olduğunu arxiv sənədləri, tarixi mənbələr, faktlar, dövrü mətbuat və digər materiallar əsasında sübut etməkdən ibarətdir. Ümumiyyətlə, monoqrafiyanı işlərkən müəllif aşağıdakı konkret vəzifələri həll etməyə cəhd göstərmişdir;

- DQMV-də XI Qırmızı Ordunun özbaşınalığına və erməni separatizminə qarşı milli müqavimət hərəkatının baş verməsi, onun digər regionlarından fərqli xüsusiyyətləri, məqlubiyyət səbəbləri və əhəmiyyətini təhlil etmək;

- Mərkəzin diqtəsilə Azərbaycan SSR-in tərkibində qondarma DQMV-nin yaradılması prosesini izləmək. Bu qondarma qurumu yaradanların məqsədlərinə aydınlıq gətirmək və DQMV-nin yaradılmasını Azərbaycana qarşı «parçala və hökm sür» imperiya siyasətinin davamı kimi səciyyələndirmək;

- DQMV-də sosialist təsərrüfat sisteminin formalaşmasının xüsusiyyətlərini və doğurduğu nəticələri şərh etmək, sənayeləşmənin və zorakı kollektivləşmənin SSRİ-nin mənafeyinə uyğun bir siyasət olduğunu faktlarla sübut etmək;

- Sovet rejimi şəraitində DQMV-də elmin inkişafının əsas mahiyyət, məqsəd və nəticələrini aydınlaşdırmaq. «Mədəni inqilab» adı altında Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə vurulan ağır zərbəni açmaq;

- Azərbaycanın sosial-iqtisadi və mədəni inkişaf tarixində DQMV-nin sosial-iqtisadi və mədəni inkişaf mərhələlərini müstəqil tədqiqat obyekti kimi araşdırmaq;

- Dağlıq Qarabağda fəaliyyət göstərən bütün sənaye, nəqliyyat, tikinti, səhiyyə, mədəniyyət və digər müəssisələrin məhz Azərbaycan dövləti tərəfindən yaradılıb inkişaf etdirilməsini tarixi sənədlər və faktlar əsasında sübuta yetirmək;

- Qərəzsiz statistikanın dili ilə DQMV-dəki sosial-iqtisadi durumun Azərbaycanın digər regionlarına nisbətən yüksəkdə dayandığını göstərməklə, erməni ideoloqlarının «DQMV-də yaşayan erməni əhalisinin sosial-iqtisadi vəziyyətlərinin geriliyi» tezisinin ağ yalan olduğunu sübut etmək;

- Tariximizi saxtalaşdıran erməni müəlliflərinin «DQMV iqtisadiyyatının Ermənistanla sıx bağlılığı» qeyri-obyektiv fikirlərinin əsassız olduğunu faktlarla açıqlamağa çalışmaq;

- Bəhs olunan xronoloji çərçivədə Azərbaycan hökumətinin DQMV-də xalq təsərrüfatının, mədəniyyətin, əhalinin sosial vəziyyəti və məişətinin yaxşılaşması üçün həyata keçirdiyi tədbirlərin xronologiyasını

izləmək və görülən tədbirlər nəticəsində vilayətdə baş verən sosial-iqtisadi, mədəni yüksəlişi səciyyələndirmək;

- Azərbaycanın başqa regionları ilə müqayisədə DQMV-nə böyük həcmdə maliyyə vəsaitinin ayrılması, lakin həmin kapitalın erməni icmasının daha çox cəmləşdiyi yaşayış məntəqələrinə istiqamətlənməsi, erməni rəhbərliyi tərəfindən azərbaycanlılar yaşayan kəndlərə ögey münasibətin məqsədlərini aşkarlamaq;

- İkinci dünya müharibəsi dövründə DQMV-nin oğul və qızlarının, ön və arxa cəbhədə göstərdikləri fədakarlıqları izləmək;

- XX yüzilliyin 70-ci illərindən 80-cı illərin ortalarınadək DQMV-nin xalq təsərrüfatının bütün sahələrinin irimiqyaslı inkişaf etməsinin səbəbini açıqlamaq;

- DQMV-də «yenidənqurma»nın tətbiqi, onun ictimai, siyasi və iqtisadi nəticələrini təhlil etmək;

- SSRİ rəhbərliyinin antiazərbaycan siyasətinin davamı, Dağlıq Qarabağda milli-münaqişə ocağının alovlandırılması və onun xalqımız üçün törətdiyi ağır nəticələri göstərmək;

- Azərbaycanın suveren hüquqlarının pozulması, DQMV-də Xüsusi İdarə Komitəsinin, Təşkilat Komitəsinin və qondarma «Dağlıq Qarabağ Respublikası»nın yaradılmasında Mərkəzi məqsədlərinə aydınlıq gətirmək;

- 1924-cü il noyabrın 26-da «DQMV-i haqqında Əsasnamə»nin qəbul edilməsi, sonrakı dövrlərdə ali hakimiyyət orqanlarının mənafeyinə uyğun həmin «Qanun»a əlavələr edilməsi, DQMV XDS-nin deputatlarının həmin «Qanun»da yazılan səlahiyyətlərindən çox məharətlə istifadə edərək bölgədə yaşayan azərbaycanlılar əleyhinə yönəldilməsi kimi acı həqiqətləri açıqlamaq;

- DQMV-nin, Qarabağ regionunun, Naxçıvan Muxtar Respublikasının və bütün Azərbaycanın inkişafının, siyasi, iqtisadi, sosial,



milli və digər məsələlərin kompleks həlli milli dövlət quruculuğu prinsiplərinin toxunulmazlığının təmin edilməsindən, şovinist meyllərin və milli məhdudiyyətlərin aradan qalldırılmasından, Azərbaycanda yaşayan bütün millətlərin və xalqların nümayəndələrinin əməkdaşlığının inkişaf etdirilməsindən asılı olduğunu, yeri gəldikcə vurğulamaq.

Monoqrafiyada, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları «Böyük Ermənistan» yaratmaq məqsədilə xalqımızın başına gətirilən müsibətlər, xüsusilə XX yüzilliyin 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində erməni vandalları tərəfindən törədilən vəhşiliklər, soyqırım hadisələri mötəbər tarixi mənbələrə əsaslanaraq təhlil edilmiş və erməni millətçiləri, onların xaricdəki havadarları tərəfindən Azərbaycan əhalisinin başına gətirilən qanlı faciələrin dünya ictimaiyyətinə və gələcək nəsillərə çatdırılması baxımından çox böyük əhəmiyyətə malikdir.

# I FƏSİL

## Dağlıq Qarabağda Sovet rejiminin bərqərar olması və Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması (1920-1923)

### 1. Dağlıq Qarabağda sovet rejiminin qurulması və ona qarşı milli müqavimət hərəkatı (1920-ci il)

Azərbaycanın tarixində, təsərrüfat və mədəniyyətində onun ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın özünəməxsus rolu və yeri vardır. Dağlıq Qarabağ sivilizasiyanın ən qədim ocaqlarından biridir. Eyni zamanda burada qədim insanların məskən salması, yaşaması üçün hər cür əlverişli şərait – isti və rütubətli iqlim, zəngin flora və fauna mövcud olmuşdur.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsi Kiçik Qafqazın cənub-şərq *hissəsini əhatə edir.* Onun cənub və şərq sərhədləri Kür-Araz ovalığına çatır. Qərb və şimaldan isə Murovdağ və Qarabağ silsilələri ilə əhatə olunmuşdur. Həmin dağ silsilələrindən Kür və Araza istiqamətlənən çaylar axır. Dağlıq Qarabağ ərazisinin şimaldan cənuba eni 120 kilometr, qərbdən şərqə 35-60 kilometrdir. Sahəsi 4,4 min kvadrat kilometrdir[1].

Dağlıq Qarabağda yeraltı və yerüstü su ehtiyatları boldur. Azərbaycanın orta illik su ehtiyatlarının 18 faizi burada cəmləşmişdir. Dağlıq Qarabağın çay şəbəkəsi çox mürəkkəb dağ relyefi içərisində yerləşərək uzunluğu 10 kilometrdən artıq olan 56 çayı və uzunluğu 10 kilometrdən az olan 77 çayı əhatə edir. Buradakı 133 çayın hamısı kiçik çaylardır və öz sularını qarışıq mənbələrdən, xüsusilə yağışlardan alır[2]

Dağlıq Qarabağda qrunt suları çox yerdə bulaq suları şəklində səthə çıxır və həmin sulardan həm içmək üçün, həm də məişətdə istifadə olunur.



cərəyan edir. Orta yanvar temperatur +2 dərəcədə -13 dərəcə arasında, iyulda +14 dərəcədən +26 dərəcə arasında dəyişir. Yağıntı 400-900 mm düşür[5].

Dağlıq Qarabağ zəngin və tayı bərabəri olmayan kurort-turizm ehtiyatlarına malikdir. Onların əsasını şəfalı, təmiz dağ havası, meşələr, müalicəvi əhəmiyyətli mineral sular, bulaqlar, mənzərəli alp çəmənliklər, tarixi abidələr və sair təşkil edir.

Dağlıq Qarabağın relyefi və iqlimi müxtəlif olduğu kimi torpaq tipləri də müxtəlifdir. Dağlıq Qarabağın torpaqları qurşaqlar üzrə yerləşir. Vilayətin şərq hissəsində alçaq sahələrdə bozumtul-qəhvəyi torpaqlar; şimal-qərb və cənub-şərqdə dağ-qəhvəyi torpaqlar; yüksək dağlıq ərazilərdə isə qonur dağ-meşə torpaqları və dağ-qara torpaqları vardır[6].

Dağlıq Qarabağın bitki örtüyü çox müxtəlifdir. Belə ki, torpaq örtüyündəki şaquli dəyişkənlik bitkilərə də təsir etmişdir. Dağlıq Qarabağın 114 min hektar sahəsini meşələr, 57 min hektar sahəsini isə kolluqlar tutur. Dağlıq Qarabağın meşələrində bitən əsas ağac növləri bunlardır: palıd, fısdıq, saqqızağacı, cökə, vələs, çinar, göyrüş, qaraçöhrə, kol bitkiləri, qoz, alma, armud, alça, zoğal, göyüm və sair. Burada yaşı 150-200 ilə, hündürlüyü 25-30 metrə, gövdəsinin dövrəsi 2,5 metrə çatan nadır ağaclar vardır. Dağlıq Qarabağda 2 minə qədər bitgi növü məlumdur[7].

Dağlıq Qarabağda çox böyük əhəmiyyətə malik olan faydalı qazıntı ehtiyatları vardır. Belə ki, ərazidə Mezozoy və Kaynozoy erasına aid əhəng daşları, gillər və şistlər geniş yayılmışdır. Tər-Tər və Xaçınçay arasında Ağdərənin Mehmanə yatağında qalay, mis, sink, gips, əhəngdaşı, Hadrudda qranit yataqları, dağlarda xromit, qurğuşun, polimetal filizləri, tikinti materialları, mərmər, gibs, üzlükdaşı, mergellər, sement üçün əhəmiyyətli mergell əhəng daşları, oda davamlı gil, təbaşir mövcuddur[8]. Ağdərənin Dovşanlı kəndində bülöv daşı, dəyirman daşı vardır. Dağlıq Qarabağ ərazisində dünya miqyasında tanınmış, müalicəvi əhəmiyyətli hidrokarbonatlı Turşsu mineral bulağı daha çox məşhurdur. Bununla yanaşı ərazidə 11 növ müxtəlif tərkibli su

çeşmələrinə malik 120-dən çox mineral bulaq var[9]. Bütün bu cəlbedici gözəlliklər və təbii sərvətlər xain qonşularımızın diqqətindən yayınmamışdır.

Vilayətdə 40-dan artıq millətin nümayəndəsi, o cümlədən azərbaycanlı, erməni, rus, ukraynalı, belarus, gürcü, yahudi, latış, yunan, ləzgi və başqaları yaşayırdılar. Lakin «etnik təmizləmə» siyasətini yeridən erməni cəlladları vilayətdə azərbaycanlıları güllələmiş, girov götürmüş və məcburi şəkildə qaçqına, köçkünə, didərginə çevirərək "Türksüz Dağlıq Qarabağ" yaratmışdılar. Bu isə "Türksüz və Böyük Ermənistan" yaratmaq siyasətinin məntiqi davamı demək idi. Ərazidə istehsal edilən məhsulların 57 faizi bitkiçiliyin, 43 faizi isə heyvandarlığın payına düşür[10]. Vilayətdə aqrar sahənin inkişafı sənayenin də genişlənməsinə şərait yaratmışdır. Dağlıq Qarabağda əhalinin sosial, mədəni-məişət sahəsindəki göstəricilər ümumrespublika səviyyəsindən çox yüksəkdə dayanmışdır. Dağlıq Qarabağın əlverişli coğrafi mövqeyə malik olması, iqtisadi cəhətdən güclü inkişafı və ticarət yolları ayrıcında yerləşməsi həmişə xain qonşularımızın diqqətini cəlb etmişdir. Dağlıq Qarabağ Azərbaycanın ən gözəl və bərəkətli guşələrindən biridir.

Azərbaycanda işqalçılıq siyasətini həyata keçirən bolşeviklər keçmiş Rusiya imperiyasını bərpa etmək məqsədilə 1920-ci il aprelin 28-də Bakıda Azərbaycan Sovet Sosialist Respublikasının yarandığını elan etdilər[11]. Doğrudur, xalqın narazı olacağından qorxan balşeviklər öz işğalçılıq siyasətini pərdələmək üçün Azərbaycanı «müstəqil» Sovet Sosialist Respublikası elan etsələrdə, əslində aprel çevrilişindən sonra Azərbaycan öz dövlət müstəqilliyini itirdi. «Müstəqil Azərbaycan Respublikası» şüarı altında bolşeviklərin XI Qırmızı Ordu hissələri qısa bir müddətdə ciddi müqavimətə rast gəlmədən Azərbaycanın əksər ərazilərini öz nəzarəti altına aldılar[12]. Bolşeviklərin təsiri güclü olan Dağlıq Qarabağda Sovet ordu hissələri hələ özünü yetirməmiş hakimiyyət onların əlinə keçmişdi. 1919-cu ilin sonu 1920-ci ilin əvvəllərində Dağlıq Qarabağda vəziyyət son dərəcə gərgin idi. Çünki, XI Qırmızı Ordunun hücumu ərəfəsində Azərbaycan Milli Ordusunu cəbhə xəttindən uzaqlaşdırmaq məqsədilə Rusiyanın



«sifarişi» ilə Dağlıq Qarabağda ermənilərin qiyamı baş vermiş, Ermənistanın əsassız ərazi iddiaları və hərbi təcavüzü miqyaslı xarakter almışdır[13].

1920-ci ilin martında A.İ.Mikayan Moskvada bir qrup Ermənistan nümayəndəsini qəbul etdi. A.İ.Mikayan bildirdi ki, əgər Sovet qoşunları Bakıya daxil ola bilərsə, onda Ermənistan dövləti də öz məqsədinə çatacaqdır. Bakının asan yolla ələ keçirilməsi üçün burada yerləşən Milli Ordunun çıxarılması tələb olunurdu. Ona görə də Dağlıq Qarabağda şovinist erməni cəlladının göstərişi ilə erməni müdaxiləsi yenidən başlandı. Erməni daşnak hökuməti bildirirdi: «Qafqazda Gürcüstan və Azərbaycan ola bilməz. Burada ancaq Ermənistan olmalıdır»[14]. 1920-ci il 22 martda başdan-ayağa silahlanmış güclü, təlim görmüş nizami erməni ordusu Şuşaya daxil olub amansız qırğınlar törətdilər. Həmin gün minlərlə dinc əhali daşnak quldurları tərəfindən öldürüldü. Həmin gün təkcə Şuşa şəhərində 1700 bina yandırılmışdı. Şərəf və ləyaqətin tapdalanması, qadına, qocaya, uşaqa aman verilmədən qırılması adi hala çevrilmişdi[15]. Dağlıq Qarabağda baş verən bu qırğının qarşısını almaq üçün Azərbaycan Milli Ordu hissələri 1920-ci il aprelin 26-da Dağlıq Qarabağa daxil oldu16. Təcavüzkar erməni quldur dəstələri müvəqqəti olaraq ərazidən uzaqlaşdı. Lakin Şimal sərhədlərimizdəki yaranmış boşluqdan istifadə edən XI Ordu hissələri Azərbaycan sərhədlərini keçdi[17].

Beləliklə, 1920-ci il aprel çevrilişi ərəfəsində Dağlıq Qarabağda erməni daşnaklarının məkirli ərazi iddiaları kütləvi xarakter aldı və onların yerli dinc müsəlmanlara qarşı təcavüzü, zorakılığı, qarəti daha da genişləndi. AK (b)P Qarabağ Komitəsi Dağlıq Qarabağda yaranmış vəziyyətdən istifadə edərək öz təbliğatlarını genişləndirdilər. Bəhs etdiyimiz dövrdə Şuşa gizli bolşevik komitəsinə milliyətcə erməni olan Akop Kamari rəhbərlik edirdi. Dağlıq Qarabağda xalqımızın iqtisadi və siyasi böhranla üzləşməsi, onların milli çəkişmə və qarşıdurmadan təngə gəlməsi əhalinin müəyyən təbəqəsinin bolşevik təbliqatına inanmasına səbəb olmuşdur. Dağlıq Qarabağda Akop Kamari başda olmaqla Ş.Şahnazaryan, B.Vəlibəyov, B.Qaragözyan, A.Qevelyan, A.Tataryan

və başqaları xalqı «ədalətli və dinc quruluş» yaratmağ üçün birliyə səsləyən yığıncaqlar keçirirdilər[18].

1920-ci il aprelin 29-da Dağlıq Qarabağ inqilab komitəsinin xalqa müraciəti qəbul edildi. Həmin müraciətdə deyilirdi: «Yoldaşlar daşnakların zülmünə dözdüyünüz bəsdir, sizin ayılmaq vaxtınız gəlib çatıb. Məgər siz açıq aşkar görmürsünüzmü ki, bütün qanlı qırqınları daşnaklar törədir. Daşnak terroruna əməkçilərin qırmızı terroru ilə cavab verin. Bu işdə bütün Azərbaycan kəndliləri və proletariatı sizinlə birlikdə döyüşəcəklər. Qırmızı Ordu hissələri sizə bu uğurlu yolda yaxın köməkçi olacaqdır»[19].

Mərkəzdə hakimiyyəti ələ keçirən XI Qırmızı Ordu Azərbaycanın bütün ərazisini zəbt etmək üçün 1920-ci il mayın 1-dən respublikanın daxili əyalətlərinə «Zəfər yürüşü»nə başladılar. 1920-ci il mayın 2-3-də XI Qırmızı Ordunun silahlı qüvvələri Yevlax stansiyasında qərarlaşdılar[20]. XI Ordunun Qarabağ istiqamətində gələcəyi xəbərini eşidən Qarabağ bolşevikləri 1920-ci il mayın 4-də Qarabağ general-qubernatoru X.Sultanovu hakimiyyətdən uzaqlaşdıraraq hakimiyyətin Qəza İnqilab Komitəsinin əlinə keçdiyini elan etdilər. İnqilab Komitəsinin tərkibinə B.Vəlibəyov, S.A.Ambarsumyan, K.Şahnazarov, Q.İbrahimov daxil oldular. Mayın 10-da Hadrudda, mayın 11-də Qaryagində İnqilab Komitələri təşkil olundu[21].

1920-ci il mayın 12-də Q.Orcangidzenin başçılığı ilə XI Ordu Şuşaya daxil oldu[22]. XI Qırmızı Ordu hissələri Dağlıq Qarabağa daxil olarkən heç bir müqavimətə rast gəlmədi. Ona görəki, burada əhalinin xeyli hissəsini erməni və ruslar təşkil edirdi. Onlar Qırmızı Ordunu səbirsizliklə gözləyirdilər. Dağlıq Qarabağdakı çoxsaylı rus və erməni əhalisi Qırmızı Ordunun timsalında Rusiyanın hakimiyyətini görür və ona yerli, milli hakimiyyətlə müqayisədə üstünlük verirdilər. Dağlıq Qarabağda yaşayan azərbaycanlıların bir qismi uzun illər boyu uzanan erməni qanlı savaşına son qoyulacağını ümid edir, bəziləri isə bolşevik təbliğatına uyub, yeni hökumətin gəlişi ilə xalq kütlələri tərəfindən tarixən arzulanan, ədalətli və xoşbəxt cəmiyyətin yaradılacağını gözləyirdilər. Müqavimət göstərməyə qadir olan qüvvələrin böyük bir hissəsi dərk edirdilər ki,



yaranmış qüvvələr nisbətində müqavimət mənasızdır və ancaq saysız qurbanlara gətirib çıxara bilər. Bütün bunlarla yanaşı bolşeviklər əvvəlcədən bəyan etmişdilər ki, əgər yerlərdə XI Qızıl Orduya müqavimət göstərilərsə terrora əl atılacaqdır.

Bütün bu səbəblərə görə XI Qırmızı Ordu hissələri heç bir müqavimətə rast gəlmədən Dağlıq Qarabağa daxil oldu. 1920-ci il mayın 13-də bolşeviklərin «Qarabağın erməni və müsəlman xalqına müraciəti» qəbul edildi. Həmin müraciətdə yerlərdə dərhal sovet idarə orqanlarının yaradılması və möhkəmləndirilməsi işinə çağırış var idi[23].

Moskvanın göstərişi ilə Dağlıq Qarabağın partiya təşkilatı kütlələr arasında geniş təbliğat və təşviqat işləri aparmağa başladı. Dağlıq Qarabağın bir çox kəndlərində silahlı dəstələr yaradıldı. Azərbaycan Kommunist Partiyası Dağlıq Qarabağ Mahal Komitəsinin buraxıldığını elan etdi. Bu barədə qəbul olunmuş bəyannamədə qeyd olunurdu ki, «...Kommunist Partiyası başda olmaqla müstəqil Sovet Respublikası bu gün sizi... ümumi düşmənə qarşı birgə mübarizəyə çağırır. Öz inqilab komitənizi təşkil edin, buraya yalnız əsl kommunistləri seçin»[24].

Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi yerli partiya təşkilatlarına kömək göstərməkdən ötrü Dağlıq Qarabağa onlarca təcrübəli partiya işçisi, sınanmış şəxslər göndərdi. 1920-ci il mayın 25-də əksəriyyəti erməni millətindən ibarət olan silahlı dəstələr XI Ordunun hissələrinin köməyi ilə yerli müdafiə qüvvələrinə qarşı mübarizəyə başladılar.

1920-ci il mayın 26-da Tağverd kəndində Qarabağ kəndlilərinin X qurultayı çağırıldı. Qurultayda hakimiyyətin Dağlıq Qarabağ İnqilab Komitəsinin əlinə keçdiyi elan edildi. Dağlıq Qarabağ İnqilab Komitəsinin sədri vəzifəsinə Sako Ambarsumyan seçildi[25].

Rus, erməni silahlı dəstələrinin və bolşevik təbliğatına uyan bir qrup azərbaycanlının köməyi ilə Qarabağın bütün şəhər və kəndlərində qısa bir müddətdə hakimiyyət İnqilab Komitəsinin əlinə keçdi. İnqilab Komitəsi Şuşanın yaxınlığında yerləşən Daşaltı, Turşsu, Xaçın, Çartaz, Xanabert, Qarabağ və

Quşçular kəndində toplaşan kiçik silahlı dəstələrin müqavimətini qırdılar. İnqilab Komitəsi bölgədə yerləşən Müsavat silahlı qüvvələrinin ləğv olunması işinə başladı[26].

Yerli dinc əhali tərəfindən xilaskar kimi qarşılanan Qırmızı Ordu döyüşçülərinin soyğunçu, quldur, işğalçı hərəkətləri, hakimiyyətdə olanların qarətçilik siyasəti, varlı adamların, o cümlədən ziyalıların evlərində kütləvi şəkildə axtarışlar aparılması, əmlakların müsadirə edilməsi, insan ləyaqətinin tapdalanması və təhqirlər xalqımızın yeni yaranmış hakimiyyətə qarşı narazılığını artırırdı. Dağlıq Qarabağ ərazisində bu hal daha kütləvi xarakter almışdı. Çünki bütün bunlarla yanaşı Qırmızı Ordunun timsalında mənfur niyyətlərinin böyük qüvvəsini duyan ermənilər 1920-ci ilin mayında torpaq iddiası ilə daha da azğınlaşmış və kəndlərin yandırılması, dinc əhalinin güllələnməsi adi hala çevrilmişdir. Qəzəb dalğası xalqın müqavimət hərəkatını yetişdirmişdi. 1920-ci ilin mayından Azərbaycan milli ordusu, erməni təcavüzkarlığının, erməni basqınlarının qarşısını almaq məqsədilə Qarabağ bölgəsində yerləşdirilmişdi. Milli Ordu hissələrindəki əsgərlərimiz, Qırmızı Ordunun xalqımızın adət-ənənəsinə, milli xüsusiyyətlərinə toxunan hərəkətləri ilə barışmır, hətta yeni hakimiyyətin özbaşınalığına qarşı biganə qalmır və onların qarşısını almağa cəhd göstərirdilər.

1920-ci il mayın 12-də Azərbaycan İnqilab Komitəsinin əmri ilə əksinqilabçılara, təxribatçılar və alverçiliyə qarşı Fövqəladə Komissiya (FK) yaradıldı. FK tərəfindən görülən tədbirlərə hökm verilməsi Ali İnqilabi Tribunala həvalə olundu. FK təşkil olunduğu ilk gündən Sovet Rusiyasında olduğu kimi terrorçu bir orqan kimi fəaliyyətə başladı. Respublikanın bir çox qəzalarında və o cümlədən Dağlıq Qarabağ bölgəsində də FK təşkil olundu. Dağlıq Qarabağda FK-nın sədri vəzifəsinə Armenak Mkrtiçeviç Qaragözov təyin edildi. O «şübhəli ünsür» adı altında azərbaycanlı imkanlı şəxslərin, mədəniyyət xadimlərinin həbslərinə başlandı. 1920-ci ilin sonu və 1921-ci ilin birinci rübündə təkcə Şuşadan 75 nəfər, Xocavənd və Ağdərə bölgəsindən 112 nəfər, 1921-ci ilin fevral-mart aylarında Çeraber kəndində 13 nəfər, İmarət-Qərvənd kəndində 9



nəfər, Qarakənddən 5 nəfər, Sığnaq, Daşaltı kəndlərindən 20 nəfərdən çox adam məsulliyyətə cəlb olunmuşdular[27]. Məsuliyyətə cəlb olunanların böyük əksəriyyəti azərbaycanlılar idi. 1920-1921-ci illərdə yayında Xankəndi, Xocacavənd, Qaryagin və Hadrutda həbs olunmuş 200 nəfərdən çox adam Şuşa və Qıraxtin (Cəbrayıl) həbsxanasında saxlanılmış, qaçaq düşən və ya İrana baş götürüb gedən qohumları və ya yerliləri ilə gizli əlaqə saxladıqlarını bəhanə edərək şahidsiz, sübutsuz ən ağır cəzaya məhkum olmuşlar[28]. Dağlıq Qarabağda təqib olunanların, həbs edilənlərin çoxsu milli ayrı-seçkiliklə, milli ədavətlə bağlı məsələlər üstündə mühakimə edilmişlər. FK yerlərdə əhali arasında vahimə yaratmaq məqsədi güdürdü.

Respublikanın kəndlərində və xüsusi ilə sərhəd rayonlarında Dağlıq Qarabağda FK ilə XI Ordunun xüsusi şöbələri geniş fəaliyyət göstərirdi. FK kimi XI Ordunun xüsusi şöbəsi də qəzalara, kəndlərə gedərkən ilk növbədə varlı adamların siyahısını tələb edir, qaçaqçılıqla məşğul olanları arayıb-axtarır, hər bir ailənin keçmişi ilə maraqlanır, təqib olunmaları üçün tədbirlər görürdülər. İstər FK-nın və istərsə də XI Ordunun siyasi şöbəsinin qeyri-məhdud səlahiyyətləri var idi[29]. Məhz buna görə xalq təsərrüfatının bərpasına keçid dövründə respublikanın hər yerində və xüsusilə Dağlıq Qarabağda siyasi vəziyyət son dərəcədə gərgin bir halda idi. Əhalinin qarət olunması, təqiblər, insan ləyaqətinin tapdalanması adi bir hala çevrilmişdir. Buna görə Şuşadan, Qaryagindən və digər ərazilərdən xeyli imkanlı ailələr İrana, bir qismi isə Türkiyəyə çıxıb getməli oldular. XI Ordunun 8-ci diviziyasının siyasi şöbəsinin əməkdaşları Şuşaya, Xankəndinə, Hadrut və Qaryaginə daxil olarkən keçmiş qəza rəislərini, pristavları, kəndxudaları, bir çox din xidmətlərini, varlı hampaları, onların ailə üzvlərini, hətta qadınlarını həbs edib, Şuşa və Qıraxtında saxlanmış, bir çox bəylər əhalinin gözü qarşısında güllələnmişlər[30]. Cavanşir qəzası İnqilab Komitəsinin fəaliyyəti ilə bağlı 1920-ci il 17 oktyabr məlumatında bildirilirdi ki, Tərtərə gələn komissiya inqilab düşmənlərinin güllələnməsini həyata keçirdi. Cəbrayıl qəzasından, habelə Hadrutdan İnqilab Komitəsinə göndərilən gizli məktubda göstərilirdi ki, bu bölgədə daxili «sakitliklə» bağlı bir

çox tədbirlər görülmüş, inqilab düşmənlərindən intiqam alınmışdır. Əhali böyük qorxu, ciddi təlaş içərisində idi. Dağlıq Qarabağdan verilən xəbərlərdən aydın olur ki, son zamanlarda bölgədə yerləşən ordu hissələri əhali arasında iş apararkən əhalinin adət-ənənələrinə, dininə, dilinə hörmət etmir, onlarla vəhşicəsinə rəftar edirlər. Şuşada, Ağdərədə, Qaryagində kütləvi həbslər aparılmışdır[31].

1920-ci ilin sonlarında Dağlıq Qarabağdan AK(b)P MK-nə daxil olan məlumatda göstərilirdi ki, Şuşada vəziyyət son vaxtlar daha da ağırlaşıb. Müsəlmanlar keçmişə daha çox meyllidirlər. Bunun əsas səbəbi heç bir qaydaya sığmayan mal-qaranın, taxılın ot-ələfin müsadirəsi, kəndlilərə qarşı FK-nın repressiyalar tətbiq etməsidir. Ona görə də xalq yenə hakimiyyətə inanmır[32].

1920-ci ilin əvvəllərində özlərinin ən «müqəddəs arzu»larını «Böyük Ermənistan» yaratmaq kimi bəd, ədalətsiz niyyəti – praktiki olaraq həyata keçirməyə çalışan erməni daşnakları Dağlıq Qarabağın müsəlmanlar yaşayan kəndlərində dinc əhaliyə qarşı təcavüzkarlıq edir, vahimə salır, qarətçilik və zorakılıqla məşğul olur, onlara ən ağır cəza verməkdən çəkinmir, bütün kəndləri yandıraraq əhalinin yaşadıqları əraziləri tərk etməyə məcbur edirdilər[33]. Aprel faciəsindən sonra özlərinə güclü arxa tapan təcavüzkarların bəd əməlləri daha da artmış, Dağlıq Qarabağda milliyyətcə ermənəilərdən ibarət ali hakimiyyət orqanı yaradılmış, onların «sosializm quruculuğu» adı altında apardıqları siyasət, həm mahiyyət cəhətdən, həm də üsul etibarilə yuxarıdan, zorakılıq yolu ilə, şovinist mövqedən yanaşma və bu və ya buna bənzər hallar istər-istəməz xalqımızın kütləvi narazılığma səbəb olurdu. Bu narazılıqlar isə özünü milli müqavimət hərəkatı və xalq üsyanları şəklində göstərirdi. O dövrdə M.Ə.Rəsulzadə yazırdı: «İstiqlaldan bir ay sonra artıq bütün Azərbaycan məmləkətinin müdhiş bir istilaya məruz qaldığını acı bir surətdə dərk etmişdi... Xalq təhəmmül etmədi, üsyan etdi»[34]. Həmin vaxt Azərbaycanda olan general Veysəl bəy yazırdı ki, «Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ruslar ikiüzlü siyasət yeridirdilər. Ermənilərə hərtərəfli kömək göstərilirdi. Şüurlu xalq bolşeviklərin şüarları ilə əməlləri arasındakı fərqi tezliklə dərk etməyə başladılar. Xalq hər şeyi



dərk etdiyindən müqavimətə başladı»[35]. Dağlıq Qarabağda milli müqavimət hərəkatının və xalq üsyanlarının baş vermə səbəblərini müəyyənləşdirərkən aşağıdakıları xüsusilə qeyd etmək lazımdır:

- XX əsrin əvvəllərində ərazi iddiaları məqsədilə xalqımıza qarşı erməni cəlladlarının – Dro, Nijde və Andranikin törətdiyi cinayətlər[36]. Günahsız azərbaycanlıların güllələnməsi, kəndlərin yandırılıb xarabalığa çevrilməsi, kütləvi qarətlər xalqımızın səbir kasasını daşdırmış və Dağlıq Qarabağda milli müqavimət hərəkatını doğuran əsas səbəblərdən birincisi idi.

- Torpaqların müsadirəsi haqqında dekretdən sonra mülkədarlar xalq içərisində Qarabağda ciddi-cəhdlə şayələr yaymağa başladılar ki, «Qırmızı Ordu müsəlmanları bütövlükdə qırmaq üçün dəlirlər». Onlar xalq içərisində «müsəlman kommunistlərin xəyanətkarlığı», «ümummilli fəlakət» və sair fikirlər yayırdılar. Deməli mülkiyyəti müsadirə edilənlər xalq içərisində yeni hakimiyyətə qarşı güclü təbliğat aparır və bu hal istər-istəməz üsyanlara səbəb olurdu.

- XI Qırmızı Ordunun Azərbaycana daxil olmasından qabaq əhalinin böyük bir hissəsində belə bir fikir yaranmışdı ki, məhz ruslar Azərbaycanı erməni təcavüzündən və daşnaq dəstələrinin təhlükəsindən xilas edəcəkdir. Lakin XI Ordunun dəstələri Azərbaycan sərhədlərini möhkəmlətməyə tələsmirdilər. Eyni zamanda Azərbaycandakı erməni silahlı dəstələrini tərkisilah etmək üçün ciddi addımlar atmırdılar. Əksinə azərbaycanlıların ilk üsyanlarından sonra Qırmızı Ordu hissələri müsəlman əhalisinin tərki-silah edilməsini özlərinə vəzifə bildilər. Azərbaycan Ordusunun dağıldığı, əhalinin böyük əksəriyyətinin silahdan məhrum edildiyi bir şəraitdə azərbaycanlılar ermənilərin hücumları qarşısında aciz qalırdılar. 1920-ci ilin ortalarında erməni quldurları Qarabağda Xankəndini, Quşçuları, Malıbəylini və başqa azərbaycanlılar yaşayan kəndləri darmadağın etdilər. Tərkisilah edilmiş əhali çox ağır məhrumiyyətlərlə üzləşdi. B.Şahtaxtinski həmin dövrü təhlil edərək yazırdı ki, erməni vəhşilikləri o dərəcəyə çatmışdır ki, bəzi qəzalarda, xüsusilə Dağlıq Qarabağ ərazisində məsələ artıq «müsəlman əhalisinin fiziki mövcudluğundan» gedirdi. Sözsüz ki, Dağlıq Qarabağda

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

azərbaycanlıların qayğılarına bolşeviklərin belə münasibəti haqlı olaraq etiraz dalğasının güclənməsinə gətirib çıxartdı[37].

- Dağlıq Qarabağda Sovet hakimiyyəti qurulduqdan sonra onun rəhbərliyinin ermənilər tərəfindən ələ keçirilməsi və onların «sovet hakimiyyəti» adı altında şovenist mövqe tutaraq antiazərbaycan siyasəti yeritməsi, xalqımızın milli mənafelərinin nəzərə alınmaması, xüsusilə onların var-dövlətlərinin müsadirə edilməsi, mülkiyyətdən məhrumetmə və torpaq məsələsinin həllində bu şovinist siyasət özünü qabarıq şəkildə göstərirdi. Şübhəsiz, bütün bu ayrıseçkilik isə xalq üsyanlarına zəmin yaradırdı.

- Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Cümhuriyyəti dövründə Dağlıq Qarabağda hakimiyyətdə olan bəylər və xanlar, xalqımızın görkəmli şəxsiyyətləri, dövlət məmurları, ictimai-siyasi xadimlər və elm adamları, ordu başçıları (sözsüz ki, bunlar azərbaycanlılar idi) həbs edilir, sürgün edilir, çox hallarda isə sorğusuz-sualsız güllələnirdilər. Həmin dövrün mənbələrindən birində göstərilirdi ki, «Ziyalılar və burjuaziya nümayəndələri həbs olunur və güllələnirdilər. Onlar demək olar ki, yalnız müsəlmanlar idilər. Azərbaycan KP MK-nın başı üzərində dayanan güclü erməni qrupu Azərbaycan xalqını başsız qoymaq üçün onun ən yaxşı nümayəndələrini məhv edirdilər[38]. Bütün bunlar isə həmin şəxslərin, onların yaxınlarının etirazlarına – xalq hərəkatının canlanmasına təkan verdi.

- Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə münasibətdə müstəmləkəçilik siyasətinin, ordunun mərkəzi və yerli ərzaq orqanlarının kənddən bütün ərzaq ehtiyatlarını daşıyıb aparması nəticəsində sovet hakimiyyətinə qarşı çox böyük narazılıq doğurmuş, yerlərdə kəndlilərin narazılığının artmasına və üsyanlara səbəb olurdu[39].

- XI Ordunu iqtisadi cəhətdən təmin edilməsi xalqın çiynində ağır bir yükə çevrilmişdi. Öz ailəsini yarıac dolandıran kəndli üçün – daşnak hücumları ilə əlaqədar torpağın becərilməsi çətin olduğu bir vaxtda, belə bir ödənci vermək olduqca acınacaqlı idi. Hələ bu az imiş kimi XI Qırmızı Ordu özünü müstəmləkəçi kimi aparır, heç kəslə hesablaşmış, müsadirəçiliklə məşğul olur,



xalqımızın milli adət-ənənəsini təhqir edirdi[40]. Ona görə də Azərbaycan İnqilab Komitəsinin icazəsi olmadan XI Ordunun başçıları olan millətçi rus şovinistləri və erməni daşnaklarının özbaşınalıqları xalqımızının etirazlarına gətirib çıxarırdı.

- Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra, qərb dövlətləri sosializm quruluşunu məhv etmək və Bakı neftinə yiyələnmək üçün vaxtilə sınaqdan çıxardıqları «parçala və hökm sür» siyasətindən istifadə edərək Azərbaycanda yaşayan xalqları bir-birinə qarşı qoydular. Bu işdə ermənəilər onların «karına» gəldilər. «Böyük Ermənistan» yaratmaq fikrində olan erməniləri ərzaqla silah və sursatla təmin edib, Azərbaycana qarşı yönəltdilər[41]. Qızışdırılan və hər cür şəraitlə təmin edilən ermənilər Dağlıq Qarabağda ağlasığmaz fəlakətlər törətdilər. Bu isə xalq üsyanlarına səbəb oldu.

- Dağlıq Qarabağda özlərinə daha çox tərəf toplamaq, ərazidə yaşayan erməniləri öz dəstələrində birləşdirmək məqsədilə erməni daşnakları xüsusi hazırlanmış təbliğatçı dəstələr hazırlayıb Dağlıq Qarabağa göndərdilər. Armenak Ter-Daneliyan, Arsen Ter-Mikelyan, polkovnik Qazaryan, rotmister K.Martirosyan, A.Tumanyan, A.Avenesyan, Keton Arzumanyan, Baxış Xoznavodski və başqaları «Yeni quruluşun gələcəyinə inamsızlıq», «XI Ordunun tərkibinin Denikin ordusu olması», «Əgər Dağlıq Qarabağ Ermənistana birləşərsə ərzaq bolluğu olacaq» və sair boş cəfəng xulyalarla çıxışlar edirdilər[42]. Çox hallarda isə onlar öz məqsədlərinə nail olurdular, bu isə qarşıdurma yaradırdı.

- Rus imperiyası diktaturanın hakimiyyətini möhkəmləndirmək üçün özlərinin tarixi təcrübəsindən istifadə etdilər. Onlar bu dövrdə xalqı qorxu içərisində saxlamaq üçün terrorun tətbiqinə başladılar. Qayda-qanunu «pozanları» ağır cəza gözləyirdi. Terroru həyata keçirən FK üzvləri milliyyətcə erməni olduqlarından «şübhəli ünsür» adı altında keçmiş azərbaycanlı sahibkarlar, bəylər, tacirlər, ziyalılar həbs edilir və istintaqsız güllələnirdilər[43], v.18]. Bütün bunlar isə keçmiş mənsəb sahiblərinin etirazlarına səbəb olurdu.

- Dağlıq Qarabağın erməni kommunistləri Dağlıq Qarabağın Azərbaycandan ayrılmaması uğrunda xalq içərisində təbliğat aparırdılar.

Vaxtaşırı edilən bu çıxışlar erməni daşnaklarının törətdiyi daşnak terroruna qarşı qırmızı terrorla cavab verilməsi təbliğ edilirdi. Bu isə üsyanın baş verməsi üçün zəmin hazırlayırdı.

- Yeni hakimiyyətin din əleyhinə davakar hərəkətləri – məscidlərin dağıdılması, din xadimlərinin təhqir edilməsi mollaların, axundların heç bir əsas olmadan ittiham olunaraq kütləvi şəkildə güllələnməsi və sair hallar – dindarların antisovet təbliğatına səbəb oldu. Onlar hər yerdə əhalini yeni quruluşa qarşı üsyana çağırırdılar[44].

- Bol suyu, münbit torpaqları, əlverişli iqlim şəraiti, tükənməz sərvəti olan Dağlıq Qarabağda xalqımızın ehtiyac içərisində yaşamasına onlar dözə bilmədilər. Aprel faciəsindən keçən qısa bir müddətdə bütün Azərbaycan xalqı müdhiş bir istilaya məruz qaldığını acı bir surətdə dərk etdiyindən üsyana qalxdı.

- Kommunistlərin keçirdikləri uğursuz təcrübələr, ordu hissələrinin səhvləri, torpaq və vergi siyasətindəki əyintilər, xalqımızın dini mərasimlərinə qayğı ilə yanaşılmaması - Dağlıq Qarabağda üsyana səbəb oldu.

Aparılan araşdırmalardan məlum olur ki, Azərbaycanın başqa ərazilərindən fərqli olaraq Dağlıq Qarabağda milli müqavimət hərəkatı təkcə antisovet xarakteri daşımırdı. Buradakı hərəkat həm də erməni daşnaklarının törətdiyi faciələrə, günahsız qırğınlara qarşı yönəldilmişdi. Eyni zamanda Zaqatala, Naxçıvan və digər üsyanlarda üsyanın əsas qüvvəsini dinc əhalidən ibarət müqavimət dəstələri təşkil edirdisə, Dağlıq Qarabağdakı üsyançıların əsas qüvvəsi hərbçilərdən ibarət idi. Dağlıq Qarabağ üsyançıları digər bölgələrin üsyançılarından daha yaxşı silahlanmışdılar və üstün döyüş təcrübəsinə malik olmuşdular.

Aprel çevrilişinin ən mühüm nəticəsi Azərbaycanın dövlət müstəqilliyinin itirilməsi oldu. Azərbaycan yenidən Rusiyanın müstəmləkəsinə çevrildi. Bu hadisə isə Qərb dövlətlərini qane etmədi. Həmin dövlətlər «parçala və hökm sür» imperiya siyasəti işlədib Qafqazda müxtəlif fitnə-fəsaddan istifadə edərək burada yaşayan xalqları bir-birinə qarşı qoyurdular. Onlar, «buyruq qulu» olan erməni agentlərinin gücündən istifadə etdilər. Böyük Britaniya, Fransa, Amerika hakim



dairələrinin birinci məqsədi yeni ictimai quruluşu məhv etmək idisə, ən başlıca məqsəd Bakı neftini ələ keçirmək olmuşdur. 1920-ci ilin mayında Bakıda 53 nəfər Böyük Britaniya hərbi qulluqçusunun antisovet təbliğatı aparması aşkar edilmişdir. Onlar yeni quruluşu «ümummilli fəlakət» adlandırırdılar. Dağlıq Qarabağda isə belə şayə yayırdılar ki, Qızıl Ordu «müsəlmanları bütövlükdə qırmaq üçün gəlir». Ona görə də onları əraziyə buraxmaq olmaz. Digər tərəfdən isə Qərb dövlətləri erməni daşnaklarına «Böyük Ermənistan» yaradılmasına müdafiəçi olacaqlarını vəd etmişdilər. Bu məqsədlə onları ərzaq, silah və sursatla təmin etdilər[45]. Dağlıq Qarabağda daşnak erməni dəstələrinin azğınlıqları yenidən başladı.

Bununla yanaşı yuxarıda göstərdiyimiz kimi, Qırmızı Ordu hissələrinin işğalçılıq hərəkətləri, FK-nın terrorçuluq siyasəti, kütləvi qarətlər, əhalinin milli adət-ənənəsinə, dininə qarşı təhqiramiz hərəkətlər və sair hallar Dağlıq Qarabağda xalq üsyanlarına, milli müqavimət hərəkatına səbəb oldu.

Dağlıq Qarabağda yeni yaradılmış erməni və ruslardan ibarət bolşevik hakimiyyətinə, həm də erməni özbaşınalıqlarına, təcavüzkarlıqlarına qarşı xalqın milli azadlıq mübarizəsi başladı. 1920-ci ilin mayında Azərbaycan Milli Ordusunun əsas hissələri Qarabağ bölgəsində yerləşdirildi. Əvvəlcə ərazi bütövlüyümüzün qorunması uğrunda mübarizə məqsədilə, Dro, Nijde və Andranikin çirkin əməllərinin qarşısını almaq üçün Dağlıq Qarabağa daxil olan Milli Ordu hissələri, Qırmızı Ordu hissələrinin və yeni hakimiyyətin özbaşınalığına qarşı da biganə qalmadı. Azərbaycanın Milli Ordu hissələrinə polkovnik Zeynalov başçılıq edirdi. Azərbaycan xalqının çətin günündə onun dadına çatan Türk generalı Nuru paşa da öz dəstəsi ilə Qarabağ istiqamətində hərəkət etdi. 1920-ci il mayın axırlarında Qarabağın müxtəlif yerlərində Şəki, Tatar, Cavanşir, Ağdam süvari alayları, Bakı piyada alayı və Bakının 2 topçu diviziyası yerləşdirilmişdi[46]. Xalq, Milli Ordu hissələrini çox böyük sevinclə qarşıladı. Dağlıq Qarabağa nəzarət Milli Ordu hissələri və onun tərkibində vuruşan xalqın əlinə keçmişdi. Milli Ordu hissələrinin tərkibində 6 min döyüşçü var idi. 1920-ci il mayın 25-də Nuru Paşanın dəstəsi Yevlaxdan Əskarana,

oradan da Şuşaya daxil oldu. Zeynalovun Milli Ordu hissələri ilə birləşən hər iki ordu hissələri Dağlıq Qarabağı XI Ordu hissələrindən və daşnak ermənilərindən təmizlədilər[47]. Ərazinin daşnaklarından təmizlənməsində yerli bəylərdə fəal iştirak etdilər. Bəhs etdiyimiz dövrdə Cavanşir qəzasında İnqilab Komitəsinin sədri Adil Sultanovda azərbaycanlılardan ibarət hərbi hissələrilə üsyançıların tərəfinə keçmişdi. XI Ordunun 2-ci süvari korpusunun 32-ci atıcı diviziyası güclü bombardmançı təyyarələrdən istifadə edərək iyunun 15-də Dağlıq Qarabağda baş vermiş üsyanı yatırdı. Bombardman zamanı yüzlərlə ev dağıldıqı və dinc əhali qırıldı. Bu vaxt Nuru Paşa müqavimət göstərməyin mənasız olduğunu görüb Şuşanı tərk etdi. Lakin Dağlıq Qarabağda Sultanbəy Sultanov hələ də müqavimət göstərirdi. General C.Şıxlinski, Sultanbəy Sultanova kömək üçün 8 min adam, 24 ədəd plamyot, 10 ədəd top və külli miqdarda ləvazimat göndərdi. S.Sultanovun dəstəsi Andranikin, Dronun ən güclü qoşun hissələrinə böyük itgilər vermiş və ermənilərin «Böyük Ermənistan» yaratmaq planlarını yarımçıq qoymuşdur. Güclü müqavimətə baxmayaraq, S.Sultanov da güclü, nizami XI Ordunun hücumu qarşısında aciz qaldı. Çünki, xalqının qədirbilən, qeyrətli oğlu başa düşürdü ki, bombardmançı təyyarələrə müqavimət göstərmək ağılsızlıqdır. Bu döyüş minlərlə evin dağılmasına, günahsız insanların məhvinə səbəb ola bilər. Odur ki, S.Sultanov 1920-ci il iyunun 14-də müqaviməti dayandırdı[48]. Lakin Mikoyanın məxvi tapşırığı ilə S.Sultanova qəsd təşkil edildi. Xoşbəxtlikdən atılan güllə onun başına yox, çənəsinə dəydi. S.Sultanov onu salamat buraxmayacaqlarını başa düşüb Türkiyəyə mühacirət etməli olur.

Xalqımızın erməni daşnaklarına və yeni yaradılmış quruluşa qarşı mübarizə tarixində Qarabağ Fədailəri xüsusi yer tutmuşlar. Güclü, hərbi təlim görmüş, təpədən-dırnaqadək silahlanmış erməni-rus birləşmiş nizami ordusu 1920-ci il iyunun 15-də hücum edib Dağlıq Qarabağdakı xalq üsyanlarını yatırdı. Həmin vaxt Q.G.Orcankidze V.İ.Leninə teleqramm vurdu ki, «Qarabağda qiyam ləğv edilib. Nuru Paşa başda olmaqla qiyam rəhbərləri qaçıblar»[49].

Beləliklə, Dağlıq Qarabağda xalqımızm ərazi bütövlüyü, azadlıq uğrunda apardığı milli-azadlıq mübarizəsi qan içində boğuldu. Azərbaycanlılar yaşayan



kəndlər cəhənnəmi xatırladırdı. Bütün evlər yandırılmış və dağıdılmışdır. Milli müqavimət hərəkatının məğlub olması səbəblərini araşdırarkən Azərbaycanın başqa bölgələrindən fərqli olaraq Dağlıq Qarabağda özünəməxsus xüsusiyyətlərinin olmasını aşkar edirik. Başqa ərazilərdən fərqli olaraq Dağlıq Qarabağ üsyançıları həm ermənilərə qarşı ərazi bütövlüyü uğurnda, həm də Qırmızı Ordu hissələrinə qarşı azadlıq uğrunda döyüşməli idilər. Bu isə qüvvələr nisbətini zəiflədirdi.

- Üsyanın gedişində milliyyətcə erməni olan kommunistlərin öz silahları ilə birlikdə daşnakların tərəfinə keçməsi faktları aşkar edilmişdir. Məsələn, 1920-ci ilin maymda 1200 erməni kommunisti onlara verilmiş tüfəng və patronlari ilə birlikdə Nijdenin dəstəsinə qoşulmuşlar[50]. Bu da qüvvələr nisbətinin erməni və ruslar tərəfdə olmasına şərait yaratmışdır.

- Həm XI Qırmızı Ordu hissələri, həm də Dro, Nijde və Andranikin dəstələri uzun müddətli müharibələr apardıqları üçün böyük döyüş təcrübəsinə malik idilər. Bu isə müharibənin gedişində özünü büruzə verirdi.

- Ordunun texniki cəhətdən təchiz edilməsində də fərqlər müşahidə edilirdi. Adicə Qızıl Ordu hissələrinin bombardmançı təyyarələrdən istifadə etməsi, döyüşən Milli Ordunu psixaloji cəhətdən ruhdan saldı və məğlub olmasına şərait yaratdı.

- Bəhs edilən dövrdə erməni daşnakları Dağlıq Qarabağ bölgəsinə özlərinin xüsusi hazırladıqları «təbliğatçı dəstələr» göndərdilər. Onlar ərazidə yaşayan erməniləri öz tərəflərinə çəkə bildilər ki, bu da daşnakların qüvvələrini artırırdı. Eyni zamanda 1828-ci ildən Dağlıq Qarabağa köçürülərək burada yaşayan ermənilər yerli şəraiti yaxşı bilir və daşnaklara bələdçilik edirdilər.

- Özlərinin gizli məqsədləri olan Qərb dövlətləri erməni daşnaklarından bir alət kimi istifadə etməyə başladılar və onları ərzaq, döyüş sursatı və silahla təmin etdilər. Həm də erməni daşnakları həmin dövlətlər tərəfindən beynəlxalq aləmdə dəstəklənirdilər.

- Azərbaycanlılar içərisində də, «yeni quruluşun ədalətli gələcəyi»nə inanan qüvvələr var idi ki, onların üsyançıların tərəfində olmaması qüvvələr nisbətini azaldırdı.

- Dağlıq Qarabağda baş vermiş üsyanın Gəncə, Zaqatala, Lənkəran, Naxçıvan üsyanları ilə əlaqənin olmaması bu üsyanların müxtəlif vaxtlarda baş verməsinə, ayrı-ayrılıqda onların hər birisinin Qırmızı Ordu hissələri tərəfindən asanlıqla məğlub edilməsinə səbəb oldu.

- Üsyanı idarə etmək üçün vahid mərkəz yaradılmamışdı. Bu isə öz növbəsində üsyanın müxtəlif vaxtlarda, plansız keçirilməsinə və kortəbiiliyin baş verməsinə, son nəticədə isə ümumxalq üsyanına çevrilməməsinə və məğlub olmasına gətirib çıxarmışdır.

Dağlıq Qarabağda baş vermiş olan 1920-ci il milli müqavimət hərəkatı və xalq üsyanlarının qan içində boğulmasına baxmayaraq, çox böyük əhəmiyyəti olmuşdur. Belə ki, bu üsyan Dağlıq Qarabağda yeni hakimiyyətə qarşı milli-azadlıq hərəkatının başlanğıcını qoyaraq onun ilk parlaq səhifəsini təşkil etdi. Eyni zamanda Dağlıq Qarabağı işğal edən qüvvələr – erməni daşnaklarına və XI Ordu hissələrinə əyani sübut olundu ki, xalqımız öz azadlıq və ləyaqəti uğrunda mübarizə iqtibarına malikdir. Üsyan yeni yaranmış hakimiyyəti sarsıdaraq, xalq hərəkatının gələcəkdə inkişafına təkan verdi. Üsyan nəticəsində bolşevik hakimiyyətinin siyasi böhranı daha da dərinləşdi. Xalqın qəzəbi aşıb daşırdı. Ermənilərin bolşevik hakimiyyəti ciddi təhlükə altında olduğundan, onlar ardıcıl olaraq müsəlmanlara qarşı repressiyalara əl atdılar. Minlərlə dövlət məmurlarımız, ictimai-siyasi xadimlərimiz, nüfuzlu elm adamlarımız, ümumiyyətlə, bütün namuslu və qeyrətli görkəmli şəxsiyyətlərimizin bir hissəsi həbs edildi, sürgün edildi, istintaqsız və məhkəməsiz güllələndi, digər qismi isə vətənini tərk edib mühacir həyatı keçirməyə məcbur edildilər.

Azərbaycanı bütövlükdə öz müstəmləkəsinə çevirən Rusiya, artıq daşnakların Dağlıq Qarabağdakı qarətləri, dağıntıları ilə barışmaq istəmirdi. Odur ki, Qızıl Ordunun 1-ci, 2-ci, 3-cü, 4-cü, 177-ci, 178-ci polkları və 1-ci Qafqaz korpusu 1921-ci il iyulun 3-də general Nijdenin qoşunlarını məğlub



etdilər. Nijde Qafan dağlarına çəkilib Miqridən İrana qaçdı[51]. Daşnak qoşunları məğlub olsa da, ermənilərin məkirli ərazi iddiaları hələ də davam edirdi. Dağlıq Qarabağda vəziyyət əvvəlki kimi böhranlı olaraq qalırdı.

## 2. Azərbaycan SSR-in ərazi bütövlüyünə yeni qəsd və qondarma Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması (1920-1923-cü illər)

Ermənilərin dünyanın müxtəlif bölgələrindən Qafqaza köçürülməsi ilə burada yaşayan xalqların çətin və məşəqqətli günləri başlamışdır. Azərbaycanın qədim tarixə malik torpaqlarını zaman-zaman, hissə-hissə qoparıb «Erməni Vilayəti» yaradan ermənilər təəssüflər olsun ki, bununla kifyətlənmədilər. Onlar dənizdən-dənizə «Böyük Ermənistan dövləti» yaratmaq niyyətinə düşdülər. Erməni daşnaklarının bu mənfur, bəd və ədalətsiz niyyəti 1905-ci ildən başlamış 1914-1915-ci, 1918-1920-ci illərdə davam edərək Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra çox ciddi və kəskin şəkildə yenidən ortaya atılmışdır. Ermənilər açıq elan edirdilər ki, «Qafqazda Gürcüstan və Azərbaycan ola bilməz, burada ancaq təkcə Ermənistan qalmalıdır. Qafqazın hamısı ya gərək Ermənistan ola, ya da Ermənistana tabe kimi bir şey (yəni müstəmləkə – M.N.) olmalıdır[52].

Azərbaycanın tarixi torpaqlarını «mübahisəli ərazi»yə çevirən erməni daşnakları Respublikamızda ağır milli problem yarada bilmişdilər. Bir məsələni xüsusi qeyd etməliyik ki, bu problemin inkişafı və «həlli»ndə Azərbaycanda ilk növbədə özünün hakim millətçilik niyyətlərini ardıcıl güdən Rusiyanın böyük rolu var idi. 1920-1923-cü illərdə Azərbaycan və Ermənistan arasında mübahisəli ərazilər kimi əsasən Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın adları çəkilirdi. Azərbaycandakı «ərazi mübahisələri» təkcə Rusiya və Ermənistanın deyil həm də böyük Qərb dövlətlərinin «parçala və hökm et» əsiyasətini əldə tutaraq müəyyən məqsədləri var idi və öz mənafelərini güdürdülər.

Azərbaycanda çox mürəkkəb və gərgin siyasi ziddiyyətlər şəraitində «Dağlıq Qarabağ məsələsi» gündəmə gətirilmişdi. Azərbaycan ərazisinə müxtəlif vaxt-

larda köçürülmüş ermənilər ölkədəki milli azlıqlar arasında faiz etibarilə çoxluq təşkil edirdilər. Onların böyük əksəriyyəti Dağlıq Qarabağda yığcam şəkildə azərbaycanlılarla qonşuluqda yaşayırdılar. Bir məsələni xüsusi olaraq qeyd etmək lazımdır ki, Dağlıq Qarabağda yaşayan əməkçi erməni icması daşnakların fitnəkar antiazərbaycan siyasətinə baxmayaraq Qarabağın bölünməzliyinə qətiyyətlə tərəfdar çıxırdılar. Məsələn, A.İ.Mikoyan RK (b) PMK-ya V.İ.Leninə yazdığı 22 may 1919-cu il tarixli məktubunda qeyd edirdi ki, «daşnaklar Qarabağı Ermənistana birləşdirməyə nail olmaq istəyirlər, lakin Qarabağ əhalisi üçün bu, özlərinin həyat mənbəyi olan Bakıdan məhrum olmaq və heç vaxt, heç nə ilə bağlı olmadıqları İrəvanla bağlamaq demək olardı. Qarabağın erməni əhalisi beşinci qurultayda sovet Azərbaycanını tanımağı və onunla birləşməyi qərara almışdır»[53]. Bundan əlavə, 1919-cu ilin aprelində general Tomsonun nümayəndəsi Şatelvord Bakıdan Şuşaya gələrək ermənilərdən Azərbaycan Respublikası hakimiyyətini qəbul etməyi,[54] yaxud general A.İ.Denikinin yazdığına görə, «Sultanovun qanunu hakimiyyətini» tanımağı tələb etdi[55]. Şuşada ingilis hərbi missiyasının razılığı ilə general qubernator X.Sultanov erməni milli şurasının başçılarını tutub Şuşadan qovdu[56]. 1919-cu il iyunun 6-da Yepsikop Şahnazarov və erməni icmasının nümayəndələri X.Sultanovla görüşərək, Azərbaycan respublikasının hakimiyyətini qəbul etdiklərini bildirdilər. İyulun 30-da Şuşaya gələn baş nazir N.Yusifbəyov və hərbi nazir S.Mehmandarov erməni kilsəsində duz-çörəklə qarşılandı. Yepiskop onları Azərbaycan dilində salamladı. Müttəfiq dövlətlərin Zaqafqaziyada Ali Komissarı Amerika polkovniki Haskel Bakıda N.Yusifbəyova bildirdi ki, o, «Qarabağın qəti olaraq Azərbaycana keçməsini zəruri hesab edir»[57].

1919-cu il mətbuat səhifələrində yazılırdı: «Qarabağda ermənilərlə azərbaycanlıların münasibəti çox yaxşıdır. Siyasətdən uzaq dinc kəndlilər səmimi etiraf edirlər ki, Qarabağın əsasən ermənilər yaşayan dağlıq hissəsinin güzaranı büsbütün onun düzən hissəsindən asılıdır, bu səbəbdən də onlar Qarabağın bu şəkildə bölünməsini təsəvvür edə bilmirlər, onlar iqtisadi və siyasi əlaqləri olmayan İrəvanı heç vaxt görməmişlər»[58].



1919-cu il vaqustun 15-də Şuşada keçirilən Dağlıq Qarabağ ermənilərinin qurultayı «Dağlıq Qarabağ ermənilərinin Azərbaycan hökuməti ilə müvəqqəti sazişi»ni qəbul etdi. Həmin sazişdə göstərilirdi ki, «Qarabağın dağlıq hissəsi», ermənilər yaşayan Dizax, Vərənd, Xaçın Carabet rayonları özünü müvəqqəti olaraq Azərbaycan Respublikasının hüdudlarında hesab edir»[59]. Saziş, məsələnin Paris Sülh Konfransında həll edəcəyi vaxta qədər qüvvədə qalmalı idi. 15 avqust sazişinin qəbul olunması Ermənistanm Dağlıq Qarabağı «Ermənistan ərazisi» elan etmək siyasətinin müəyyən mənada iflası idi[60]. Bu sazişin əldə edilməsində Qarabağ general-qubernatoru X.Sultanovun böyük xidmətləri olmuşdur və bu sazişə çox yüksək qiymət vermişdir.

1919-cu il noyabrın 23-də Tiflisdə Azərbaycan ilə Ermənistanın baş nazirləri Yusifbəyov və Xatisov Gürcüstan xarici işlər naziri Gekeçkorinin və Amerika polkovniki Ceymis Reyin şahidliyi ilə sülh sazişi imzaladılar C.Rey hər iki tərəfin razılığı ilə «neytral şəxs» kimi müəyyənləşdirildi. Bütün mübahisəli məsələləri onun iştirakı ilə həll etməli idilər. Sülhə görə «mübahisəli sərhəd məsələsi»ni silah gücünə yox danışıqlar yolu ilə həll olunmalı, həmçinin qoşunlar ərazidən çıxarılmalı, heç bir halda silahdan istifadə edilməməli idi[61]. Lakin daşnaklar Qarabağ sazişini hər vasitə ilə gözdən salmağa, heçə endirməyə cəhd göstərirdilər. Türk millətinə vəhşicəsinə nifrət bəsləyən azğın millətçilik partiyası regionda sülhün bərqərar olmasını qəbul edə bilmirdi.

Azərbaycan tərəfi sülhün şərtlərinə əməl edərək qoşun hissələrini Şuşadan və digər ərazilərdən çıxartdı. Ermənistan isə sazişi pozaraq Qarabağa qoşun hissələri göndərdi. O zaman Şuşa və Zəngəzurda olmuş ingilis jurnalisti Skotland-Liddel Londona məlumat verərək bildirirdi ki, «23 noyabr sazişinin ardınca, ermənilər Azərbaycan qoşunlarının getməsindən istifadə edərək xaincəsinə Qarabağda müsəlmanlar üzərinə hücuma keçdilər və qırxa qədər müsəlman kəndini dağıtdılar. Londanda erməni bürosu var. Buna bənzər təşkilatlar Fransada da, ABŞ-da da var. Ermənilərin ən çox sevdiyi metod ən alçaq reklam üçün «Xzistian» sözündən istifadə etməkdir. Zaqafqaziyada həqiqəti bilirlər, əgər ingilis ictimaiyyəti bilmirsə də, ingilis nazirlikləri həqiqəti bilməlidirlər»[62].

Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə əlaqədar olaraq 1919-cu il dekabrın 30-da Azərbaycan hökuməti Zaqafqaziya Ali Komissarı Haskeldən erməni təcavüzünü dayandırmaq üçün təcili tədbirlər görməyi tələb etdi. Xarici İşlər Naziri F.X.Xoyski xüsusi nota ilə Ermənistan hökumətini xəbərdar etdi ki, dinc əhaliyə qarşı hərbi əməliyyatlar dayandırılmazsa, Azərbaycan hökuməti öz vətəndaşlarının həyatını və əmlakını qurmaq üçün təxirəsalınmaz tədbirlər görməyə məcbur olacaqdır. Lakin Ermənistan bu xəbərdarlıqlara məhəl qoymadı, əksinə Dağlıq Qarabağda Ermənistanın təxribatı daha da gücləndi[63].

Məsələyə Ermənistanın Tiflisdəki nümayəndəsi belə bəyanat verdi ki, «həm general Andranik həm də onun dəstəsi xüsusi erməni korpusunun əmri ilə artıq çoxdan erməni qoşunlarının tərkibindən və siyahısından çıxarılmışdır. Onlar Ermənistan hökumətini tanımaqdan imtina ediblər. Beləliklə, Ermənistan hökuməti general Andranik və digərlərinin məsuliyyətsiz fəaliyyətinə cavab verə bilməz»[64]. Lakin bəhs edilən dövrdə general Andranikin yazdığı məktub yuxarıda deyilənlərə tamamilə ziddir və Ermənistanın məkrli niyyəti bir daha səmimi etiraf edilmişdir. Həmin məktubdan oxuyuruq: «Zat-aliləri general Biçerakova. Zəngəzur erməni milli şurasının üzvləri Arşak Şirinyan və Nikolay Osipov Bakıdan gələrək mənə 1.000 000 manat pul verdilər. Bu haqda onlar Sizə iltizamnamə veriblər. Adı çəkilən Şura üzvləri mənə dedilər ki, bu pula Siz general Baqrationun xahişi ilə vermisiniz. Mənim dəstəmi və bədbəxt qaçğınları unutmadığınız üçün Sizə dərin və səmimi təşəkkürümü bildirirəm. General-mayor Andranik»[65]. Ermənistan hökuməti Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün belə bir mübarizə taktikası seçmişdi: Dağlıq Qarabağ separatçılarını maliyyə cəhətdən tam təmin etmək, bölgədə ermənilərin tam hakimiyyətini yaratmaq, Dağlıq Qarabağda təxribat işini tam məxvi aparmaqla Ermənistanın adını dilə gətirməməli və Dağlıq Qarabağda gedən prosesləri Qarabağın əhalisinin adı ilə bağlamalı. Ermənistan hökuməti 1919-cu ilin sonlarında Dağlıq Qarabağı «azad etmək üçün» 19 milyon manat pul ayırmışdı[66]. Ermənistandan və xarici dövlətlərdən güclü dəstək alan erməni quldur dəstələri 1919-cu ilin sonu 1920-ci ilin əvvəllərində emissarların və separatçıların təhriki ilə Dağlıq Qarabağda çox



böyük qırqınlar törətdilər. 1920-ci il martın 22-də Dəli Qazarın 4 minlik qoşunu Əskəranı ələ keçirdi. Şuşa və Xankəndini ələ almaq üçün həmin istiqamətdə irəlilədi[67]. Lakin 1920-ci il aprelin 2-də Milli Ordu hissələrimiz general Səlimovun rəhbərliyi altında əks hücuma keçərək Dəli Qazarın qoşunlarını məğlub etdi. Nəticə etibarilə bəhs edilən dövrdə Dağlıq Qarabağı hərbi yolla Azərbaycandan qoparıb Ermənistana birləşdirmək cəhdi boşa çıxdı[68]. Lakin Azərbaycanda sovet rejimi yarandıqdan sonra Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdləri yenidən baş qaldırdı. Bunun üçün erməni daşnakları siyasi, diplomatik və hətta hərbi yolla öz mənfur niyyətlərinə çatmaq istəyirdilər. 1920-ci illərdə «mübahisəli ərazi» kimi Dağlıq Qarabağ məsələsi çox ciddi və kəskin xarakter aldı. Aprel çevrilişindən sonra «beynəlmiləlçilik» bayrağı altında Azərbaycana göndərəilən «kadrlar» milli kadrlarımızı məhv etməklə, ölkəni daxildən parçalamaq və istəklərinə maneəsiz nail olmaq niyyətində idilər. Başğa bir tərəfdən isə erməni daşnakları XI Ordu sıralarına daxil olub əsgərləri «təlimatlandırır», onlardan məqsədli şəkildə istifadə edərək müsəlman əhalisini asıb-kəsir və kəndləri amansızcasına dağıdırdılar[69]. Bununla yanaşı, Moskvada ərazi məsələlərini həll edən Stalin, Çiçerin, Qaraxan, Mirzoyan, Dövlətov və başqaları erməniləri dəstəkləyirdilər. Eyni zamanda bütün insanları düzlüyə, doğruluğa səsləyən kilsələr silah anbarları rolunu oynayır və kilsə xidmətləri silahlı dəstələri təlimatlandırırdılar[70].

Hətta erməni daşnak hökuməti, yuxarı Zəngəzurda fəaliyyət göstərən qondarma «Azad Sünik hökuməti» ilə birlikdə öz məqsədlərinə çatmaq üçün əvvəlcə Sultan bəy və Xosrov paşa Sultanovlardan istifadə etməyə cəhd göstərdilər. Erməni emissarları və separatçıları daşnak qüvvələrini Dağlıq Qarabağa buraxmayan Sultanovlara Sovet rejiminə qarşı birgə mübarizə etməyi təklif etdilər. Lakin rədd cavabı aldıqdan sonra onlara qarşı fitnəkarlığa başladılar.

Güclü dəstək alan və silahlanan general Dronun başçılığı altında erməni daşnakları 1920-ci ilin aprelində Qarabağda onlarla azərbaycanlılar yaşayan kəndləri məhv etmiş, yerli dinc əhalini güllələmişdir.

Həmin vaxt erməni vandalları tərəfindən Şuşa, Qaryagin, Cavanşir, Zəngəzur qəzalarında 150-dən yaxın müsəlman kəndi dağıdılmış və qarət olunmuş, külli miqdarda qaçqın arası kəsilmədən Ağdama və başqa rayonlara getmişdilər[71]. Vəziyyətin çətin olduğunu görən Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov Çeçerinə və Orconigidzeyə Azərbaycanın Qarabağ və Zəngəzur bölgələrində ermənilərin törətdikləri cinayətləri açıqlamış və əgər xalqımıza qarşı törədəilən faciələr bu cür davam edərsə, Azərbaycan Respublikasının Ermənistan hökuməti ilə müharibə vəziyyətində sayılacağı bildirilmişdir. 1920-ci ilin aprelin 30-da Azərbaycan SSR Xalq xarici işlər komissarı M.Hüseynov Ermənistan daşnak hökumətinə nota göndərdi. Həmin notada Zəngəzur və Qarabağdan erməni silahlı dəstələrinin çıxarılması, milli qırğına son qoyulması tələb olunurdu. Əks halda Azərbaycan Sovet hökuməti dərhal tədbirlər görəcəyi bildirilirdi. Daşnak hökuməti Azərbaycan hökumətinin tələblərinə cavab vermədi. Əksinə, erməni daşnakları müsəlmanlara qarşı sərt və amansız hərəkət edərək, azərbaycanlılar yaşayan kəndləri qəddarcasına dağıtmışdılar. Ermənilərin törətdikləri vəhşiliklər o dərəcəyə çatmışdır ki, onların yanında orta əsrin kədərli dəhşətləri solğun görünürdü. Adam inana bilmir ki, XX əsrdə bütün Avropada öz mədəniyyətindən dəm vuran bir xalq, köməksiz dinc əhaliyə qarşı vəhşiliklərin bütün üsullarını tətbiq etmiş olsunlar. Vəziyyətin çətin olduğunu görən Mərkəz 1920-ci il mayın 1-də Orcanigidze, Kirov və Levondovskinin imzaları ilə Ermənistan hökumətinə Azərbaycan ərazilərindən qoşunlarının çıxarılması radioqramı göndərmişdir[72]. Buna cavab olaraq Ermənistan Xarici İşlər Nazirliyi 1920-ci il mayın 3-də Leninə və Çeçerinə teleqram göndərərək Dağlıq Qarabağda baş vermiş bu irimiqyaslı hərbi münaqişə üçün təqsiri artıq devrilmiş Azərbaycan Cümhuriyyəti hökumətinin boynuna atmağa çalışdı. Guya Ermənistan yox, Azərbaycan hökuməti Dağlıq Qarabağ erməniləri ilə 1919-cu il avqustun 15-də bağlanan müvəqqəti sazişi pozublar[73]. Lakin bu iddianın heç bir əsası yox idi. Məhz Ermənistan Dağlıq Qarabağı Azərbaycandan iddia etməklə məsələni hərbi yolla həll etməyə girişmiş və qanlı faciəyə bais olmuşdur. Erməni və rus müəlliflərinin əksəriyyəti Dağlıq Qarabağda baş verən faciələrin başlıca səbəbkarı və



təşkilatçısı Ermənistan hökuməti və daşnak partiyası olmasını səmimi etiraf etmişdilər. Məsələn, 1920-ci il aprelin sonlarında Qarabağ təhsil müəssisəsinin inspektoru R.Şaxnazaryan Bakıya, erməni yepiskopu Baqrata yazmışdı: «Qarabağın səadəti Araratın agentlərinin əməlləri ilə məhv edilmişdir. Yuxarı Qarabağ ermənilərinin bədbəxtliyi üçün bütün məsuliyyət daşnak hökumətinin üzərinə düşür. Daşnak vandallarının hərbi kazarmalara və məntəqələr alçaq və xain basqını Şuşada, Xankəndində və bütün xətt boyu eyni vaxtda baş vermişdi. Yepiskop həzrətləri, bunu bütün həmyerlilərimizə bildirmək Sizin borcunuzdur. Bədbəxtliyin qarşısını almaq üçün gördüyümüz bütün işlər daşnakların alçaqlığı və siyasi idiotazmi ilə puç oldu. Erməni xalqı bizim dinc yaşayışımızı pozub məhv edənləri tanımalıdır. Qarabağ qanlı hadisələr dairəsindən kənarda qalmalıydı, qala bilərdi və əgər daşnakların avantürası olmasaydı şübhəsiz qalardı... Erməni xalqının düşmənlərinə – gözəl və dinc Qarabağı məhv edən daşnaklara lənət olsun». Tarixçi V.Qurko-Kryajin 1926-cı ildə nəşr edilmiş «Böyük Sovet Ensiklopediyası» nda, 1983-cü ildə Moskvada nəşr olunmuş «Ensiklopediya»da və digər əsərlərdə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və bu məqsədlə Azərbaycana qarşı qanlı hərbi əməliyyata başlaması açıq etiraf olunmuşdu[74].

1920-ci ilin mayında Qarabağda yerləşən Azərbaycan qoşun hissələrinə hücumu dayandırmaq, əlverişli mövqe tutaraq müdafiə vəziyyətinə keçmək əmri verildi. Əmrdə bildirilirdi ki, Ermənistan ultimatumda göstərilən şərtləri yerinə yetirməsə, Qırmızı Ordu Azərbaycan hissələrinə köməyə göndəriləcəkdi[75].

1920-ci il mayın 9-da Bakıda yaşayan qarabağlı və zəngəzurlu azərbaycanlıların və ermənilərin həmrəylik mitinqi keçirildi. Mitinqdə, mübahisəli ərazi məsələlərinin dinc yolla, qan axıdılmadan nizamlanması qərara alındı[76].

1920-ci il iyunun əvvəllərində N.Nərimanov Moskvaya göndərdiyi məlumatda bildirmişdir ki, «Qarabağ və Zəngəzur Sovet Azərbaycanının tərkibinə daxil olmuşdur. Qəti bildiririk ki, bu yerlər mübahisəsiz olaraq Azərbaycanın tərkibində olmalıdır»[77].

1920-ci il iyunun ilk günlərində Qarabağda olan Q.K.Orcanigidze Bakıya qayıtdıqdan sonra iyunun 10-da V.İ.Leninə, İ.A.Stalinə, G.V.Çiçerinə göndərdiyi teleqramda onuda bildirdi ki, «Qarabağın həm erməni, həm də müsəlman əhalisi rus qoşunlarım sevinclə qarşılayırlar»[78]. Q.K.Orcanigidze 1920-ci il iyunun 19-da Vladiqafqazdan teleqrafla xəbər verərək bilbirdi ki, «Qarabağ və Zəngəzurda sovet hakimiyyəti elan olunub və adı çəkilən ərazilər özlərini Azərbaycan Sovet Respublikasının bir hissəsi hesab edir. Azərbaycan heç bir halda Qarabağ və Zəngəzursuz keçinə bilməz. Ermənistanla müqavilə imzalanana qədər Azərbaycan nümayəndəsini Moskvaya dəvət edərək Azərbaycan və Ermənistana aid bütün məsələləri həmin nümayəndə ilə birlikdə həll etməli[79]. Bunu da əlavə etmək maraqlıdır ki, Qırımızı Ordu Dağlıq Qarabağı daşnaklardan təmizləyib qurtardıqdan sonra daşnak dəstəbaşçılarından biri özlərinin İrəvandakı hökumətinə xəbər vermişdir ki, Dağlıq Qarabağın erməni kəndləri bizim hökuməti («Daşnak» hökuməti – N.M.) tanımaqdan imtina etdilər[80].

1920-ci il iyunun 20-də RSFSR-in diplomatik nümayəndələrinin iştirakı ilə Azərbaycan respublikası hökuməti ilə Erməni Daşnak hökuməti arasında rəsmi saziş bağlandı[81]. Lakin Erməni Daşnak hökuməti bağladığı müqavilənin şərtlərinə əməl etmədi. Azərbaycanın şəhər və kənədlərinə basqın edərək əhalini qarət edir, evləri, təsərrüfat sahələrini dağıdıb yandırırdılar. Ona görə də M.D.Hüseynov iyunun 25-də Azərbaycan dövləti adından Daşnak hökumətinə xəbərdarlıq edərək bağlanmış müqavilənin şərtlərinə əməl edilməsini tələb etdi[82].

1920-ci ilin yay və payız aylarında Ermənistanda baş verən iqtisadi və siyasi böhran daha da kəskinləşdi. Əhalinin böyük bir hissəsi öz yaşayış yerlərini tərk etməyə məcbur oldular. Onların bir hissəsi Azərbaycana pənah gətirdilər. Eyni zamanda erməni bolşevikləri də Azərbaycana və o cümlədən Dağlıq Qarabağa gəlməyə başladılar. 1920-ci ilin oktyabr ayında olan məlumata görə cəmisi son iki-üç ya ərzində Ermənistandan Azərbaycana 20 min nəfərdən çox adam gəlmişdi. Azərbaycanda fəaliyyət göstərən rus məmurları, partiya, sovet və təsərrüfat orqanlarında çalışan erməni nümayəndələri gələn həmin erməni



ailələrini Dağlıq Qarabağda, Gəncədə, Şamaxıda və xüsusilə Bakıda işlə, mənzillə təmin edilməsi üçün tədbirlər gördülər. Köçürmədə məqsəd həm də Dağlıq Qarabağda ermənilərin say çoxluğunu yaratmaq olmuşdu və oldu. Belə bir dövrdə Dro və Nijdenin başçılığı altında erməni quldur dəstələri Qafan, Gorus istiqamətindən Azərbaycanın şəhər və kəndlərinə basqın etdilər. Erməni silahlı dəstələri quldurluqla məşğul olur, kəndliləri çapıb talayır, onların mal-qaralarını, qoyun sürülərini qarət edirlər[83]. Ermənistandan köçürülən ermənilər Dağlıq Qarabağda əhali içərisində böyük təbliğat işi aparırdılar. «Azərbaycan» qəzeti 8 iyul 1920-ci il tarixli sayında yazırdı ki, köçürülənlərin hesabına Dağlıq Qarabağda ermənilərin sayı bir qədər də artdı. Burada həmin ermənilərə xüsusi şərait yaradaraq səlahiyyətli vəzifələr verilirdi. Hazırda Dağlıq Qarabağda bütün hakimiyyət ermənilərin əlindədir. M.D.Hüseynov N.Nərimanovun həmin teleqramını aldığını 1920-ci il iyunun 21-də Q.K.Orcanigidze və K.V.Çiçerinə bildirərək Qarabağ və Zəngəzurun Azərbaycana birləşdirilməsi haqqında teleqramda deyilən fikrin qüvvədə qalıb-qalmadığı xəbər alırdı. Məlum olduğu kimi Q.K.Orcanigidze fikrini dəyişmişdi. N.Nərimanovun qəti etirazlarına baxmayaraq Azərbaycanla bağlı «mübahisəli ərazi məsələsini» Azərbaycan nümayəndəsinin iştirakı olmadan mərkəz təkbaşına həll etdi[84].

Moskvanın və Qərbi Azərbaycanda yeritdiyi ikili siyasət bəhs etdiyimiz dövrdə Dağlıq Qarabağda Ermənistanın təcavüzkarlığını daha da artırdı. Yeri gəlmişkən bir məsələni xüsusi olaraq qeyd etməliyik ki, Ermənistanda sovet hakimiyyəti qurulanadək Daşnak hökumətinin tərkibində RSFSR-in səlahiyyətli nümayəndəsi B.V.Leqran da var idi. Ermənistan hökuməti istər XI Orduya, istərsədə daşnaklara silah və sursat verməyi öz üzərinə götürmüşdü[85]. Əlbəttə həmin silah və sursat bəhs edilən dövrdə erməni vandallarının karına çatdı.

1920-ci il iyulun 10-da AK(b)P MK bürosu XI Qırmızı Ordunun siyasi şöbəsinin nümayəndələrinin və RSFSR-in Ermənistandakı nümayəndəsi B.V.Lerqanm iştirakı ilə Qarabağ Partiya Təşkilatının FK-nin rəhbəri A.N.Karakozovun məruzəsi dinlənildi. O çıxışında göstərdi ki, ingilislər regionda ikili siyasət yeridirlər... Qarabağ kommunistləri «Qarabağın Azərbaycana birləş-

dirilməsini» zəruri sayır. Qarabağın ermənəilər yaşayan kəndləri Ermənistanın tərkibinə daxil olmaq istəmirlər. Hazırda müsəlman və erməni hissələrinin birləşməsi prosesi baş verir[86].

1920-ci il iyulun 10-da Azərbaycan inqilab komitəsinin sədri N.Nərimanov, RK (b) P Qafqaz bürosunun üzvü B.Midvani, AK(b)P MK üzvləri A.İ.Mikoyan, V.Naneyşvili, XI Ordunun HİŞ-nin üzvləri Vesnik, Levondovski, Mixayılovun iştirakı ilə RK(b)P MK-ya müraciət göndərdilər. Müraciətdə göstərilirdi: «Zəngəzur və Qarabağ» məsələsi barəsində vahid rəyimizi biz MK-ya çatdırmağı özümüzə borc bilirik. Bu məsələnin həlli Ermənistanla danışıqlarda aralıq məsələ kimi nəzərdə tutulur və bu hal Qafqazda inqilabın mənafeyinə ziddir.... Əgər erməni və gürcüləri məzluma çevirmək istəmiriksə Qarabağ, Zəngəzur məsələsində Mərkəzi tərəddüd etməkdən çəkindirməliyik. Qarabağla Zəngəzur Azərbaycana birləşdirilməlidir»[87].

1920-ci il iyulun 15-də AK(b)P MK N.N.Nərimanovun, Q.X.Orcanigidzenin, Y.D.Stasovanın, M.D.Hüseynovun, D.X.Bünyadzadənin, A.İ.Mikoyanın, XI Ordunun hərbi-inqilab şurası nümayəndələrinin və B.V.Leqranın iştirakı ilə Ermənistanla sülh haqqında məsələni müzakirə edərək qərara aldı ki, «Qarabağ və Zəngəzur Azərbaycana birləşdirilməlidir»[88].

1920-ci il iyulun 19-da RSFSR Xarici İşlər Komissarı G.V.Çiçerin Ermənistanın Xarici İşlər Nazirinə xüsusi teleqram göndərdi ki, «Ermənistan ilə Azərbaycan arasında «mübahisəli ərazilər» Rusiya tərəfindən tutulubdur». «Dinc dostluq münasibətləri haqqında müqavilə» bağlamaq üçün B.V.Leqranı Yerevana göndərirəm»[89]. Əlbəttə, B.V.Leqra Moskvanın inandığı və ermənilərin ümid bağladığı şəxs idi.

1920-ci ilin iyulunda ermənilər Qarabağda «sifarişli» daşnak qiyamı qaldırdılar. Məqsəd Qarabağı Ermənistana birləşdirmək idi. Həmin vaxt erməni quldurları azərbaycanlılar yaşayan bir neçə kəndi, o cümlədən Xankəndini, Quşçuları, Malıbəylini, Xocalını və başqa kəndləri dağıtmış, yerli sakinlərin bir hissəsini qətlə yetirmiş, kəndləri qarət etmişdilər.



1920-ci il iyulun 20-də, Qarabağ ermənilərinin XI qurultayında bir qrup erməni Qarabağın Dağlıq hissəsinin Ermənistana birləşdirilməsi haqqında qərar çıxardı. Lakin bu qərar Qarabağ əhalisinin böyük əksəriyyətinin iradəsini ifadə etmədiyindən qəbul edilmədi. Hətta, həmin ilin 26 iyulunda Qarabağın mərkəzi olan Şuşa şəhərində əhali arasında keçirilən rəy sorğusu zamanı Qarabağ əhalisinin hər iki millətə mənsub olunların hamısı Azərbaycanın tərkibində qalmaq arzularını qəti şəkildə birləşdirmişdilər[90].

1920-ci il avqustun 10-da Yerevanda RSFSR ilə Ermənistan daşnak hökuməti arasında müqavilə bağlandı. Həmin müqaviləyə görə Sovet Rusiyası Ermənistanın istiqlaliyyətini və müstəqilliyini tanıdı. Həmçinin Qarabağ, Zəngəzur, Naxçıvan «mübahisəli vilayətlər» elan olundu. Göstərildi ki, həmin ərazilər Rusiya tərəfindən tutulduğu üçün Ermənistan Respublikası və Azərbaycan SSR-in həmin ərazilərin hüquqları haqqında məsələyə baxa bilməzlər[91].

1920-ci ilin avqustun 15-də Sovet Rusiyanını təzyiqi ilə Azərbaycanla Ermənistan arasında yenidən saziş bağlandı, erməni basqınlarına son qoyulacağı barədə razılıq əldə edildi. Sazişə görə Dağlıq Qarabağa, Zəngəzura və Naxçıvan ərazisinə «nəzarət» etmək üçün bu yerlərə rus qoşunları yeridildi. Lakin bu sazişin də ömrü uzun çəkmədi. Belə ki, Daşnaq hökumətinin başçısı Oqançanyanın bilavasitə göstərişi ilə avqustun 19-da ermənəi silahlı dəstələri Bazarçayı deyilən ərazidən Naxçıvan üzərinə basqın etdilər. Erməni silahlı qüvvələrinin güclü basqınlarına məruz qalan 70 min nəfər silahsız azərbaycanlılar İrana qaçmağa məcbur oldular. Daşnaq quldur dəstələri Zəngəzur bölgəsində 8 kəndi, Dərələyəzdə 74 kəndi, Şərurda isə 76 kəndi dağıtmış və yandırmışdılar. Qatı şovinist Sərkiz Mikoyanın başçılığı altında erməni quldur dəstələri Qarabağın azərbaycanlı kəndlərinə soxulmuş, mal-qara, paltar-palazla bərabər qızıl, gümüş və başqa qiymətli əşyalar qarət etmişdilər. 1920-ci il avqustun 18-də «Kommunist» qəzetində yazırdı: «Qarabağın Qoçəhmədli kəndində daşnaqlar 70 nəfər azərbaycanlını güllələmişlər. Tağ, Tuğ, Qaradağlı, Sirik, Qışlaq, Qarğabazarı kəndlərində çoxlu ölən və yaralananlar olmuşdur. Erməni silahlı birləşmə-

ləri Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün hər cür vasitələrə əl atırlar[92].

Beləliklə, XX yüzilliyin əvvəllərində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi müxtəlif partiyaların və siyasi qüvvələrin mübarizə meydanına çevrildi. Yuxarıda qeyd etdiyimiz kimi Qarabağın dinc, əməkçi erməni əhalisi Azərbaycanda qalmağa daha çox üstünlük verirdi, nəinki heç bir təsərrüfat iqtisadi əlaqələri olmayan Ermənistana birləşmək.

1920-ci il noyabrın 29-da Ermənistanda «inqilab» baş verdi. Həmin il noyabrın 30-da AK(b)P MK Təşkilat bürosu və Siyasi büronun birgə iclası keçirildi. İclasda Ermənistanda Sovet hakimiyyəti elan olunması Ermənistan İnqilab Komitəsinin teleqramı nəzərdən keçirilmiş və sovet Ermənistanına «Bəyannamə» ilə müraciət etmək qərara alınmışdı. Qərarada göstərilirdi: «a) Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir;... b) Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir; c) Sovet Azərbaycanını Sovet Ermənistanı ilə sıx hərbi və təsərrüfat ittifaqı bağlayır»[93].

Çox təəssüflər olsun ki, «qərar»ın birinci bəndinə xüsusi don geyindirərək «mübahisəli ərazilərin» Ermənistana verilməsi kimi qiymətləndirmişlər. Lakin Azərbaycan hökuməti həmin bəndi «ictimai quruluşu eyni olan dövlətlərin sərhədlərinin biri-birinin üzünə açıq olması» baxımından vurğulamışdır. «Bəyannamə»nin müzakirəsində N.Nərimanovla birlikdə Q.Kaminski və Q.K.Orcanigidze də iştirak etmişlər. «Bəyannamə» Azərbaycan hökumətinin başçısı N.Nərimanov tərəfindən 1920-ci il dekabrın 1-də Bakı Sovetinin təntənəli iclasında elan edilmişdir[94]. Orcanigidze «Bəyannamə»ni A.M.Nazaretsyana göndərmiş və Ermənistanda da müzakirə etməyi tövsiyyə etmişdir[95].

Zaqafqaziyada Sovet hakimiyyəti qurulduqdan sonra 3 sovet respublikasının ərazi məsələləri ilə yaxından məşğul olmaq mümkün oldu. Lakin 1921-ci ilin əvvəllərində Qarabağın dağlıq hissəsində hələ də vəziyyət gərgin olaraq qalırdı. Nijde, Ruben kimi cəlladlar Qarabağda günahsız azərbaycanlıların qanını axıdaraq çox ciddi qarşıdurma yaratmışdılar. N.Nərimanov AK(b)P MK-nın



1921-ci il 5 fevral tarixli iclasında qeyd edirdi ki, 1200 kommunist onlara verilmiş tüfəng və patronlarını da götürüb daşnakların tərəfinə keçmiş və inqilab komitələri ləğv edilmişdir[96]. Daşnak erməniləri zəhmətkeşlər arasında qırğınlar törətmişlər. N.Nərimanov Azərbaycan İnqilab Komitəsinin 7 mart 1921-ci il plenumunda «Qarabağ məsələsi»ni həll etmək üçün belə bir təklif irəli sürür: Azərbaycanla Ermənistan şəhərlərində cəbhə ləğv edilsin, silahlı qarşıdurma dayandırılsın, Hərbi Komissarlıq bu sahədə təcili tədbirlər görsün[97]. 1921-ci ilin mayında RK(b)P MK-nın Qafqaz bürosu Zaqafqaziya Respublikaları arasında sərhədləri müəyyənləşdirmək üçün S.M.Kirovun sədirliyi ilə Azərbaycan, Gürcüstan və Ermənistanın nümayəndələrindən ibarət komissiya yaratmağı qərara aldı. Belə bir şəraitdə Dağlıq Qarabağa sahib olmaq uğrunda Ermənistan yeni genişmiqyaslı mübarizəyə başladı.

1921-ci il iyunun 3-də RK(b) P MK Qafqaz bürosunun plenumu keçirildi. Plenumda daşnak qurplaşmasının tezliklə ləğv olması və saxta «dəlillər»ə əsaslanaraq Ermənistan hökumətinə tapşırdı ki, öz bəyyannaməsində Dağlıq Qarabağın Ermənistana məxsus olduğunu göstərsin[98]. Əlbəttə Qafqaz bürosunun yuxarıdakı «qərarı» siyasi oyun olmaqla qərar qəbul edənlərin qeyri-ciddilik əlamətlərini göstərirdi. Ermənistan SSR hökuməti XKS-nin sədri A.Myasnikov və XKS-nin bütün üzvləri 1921-ci il iyunun 19-da bəyannamə imzaladılar. Həmin bəyannaməyə görə «Dağlıq Qarabağ Ermənistana yenidən birləşdirildi». Bununla əlaqədar dekret çap olundu. Dekretdə deyilirdi: «Azərbaycan SSR İnqilab Komitəsinin bəyanatı, Ermənistan və Azərbaycan SSR hökumətələrinin sazişi əsasında elan edilir ki, bu gündən etibarən Dağlıq Qarabağ Sovet Ermənistanının ayrılmaz hissəsidir»[99].

1920-ci il iyunun 20-də Ermənistan hökuməti A.Maravyanı Ermənistanın Dağlıq Qarabağda fövqəladə müvəkkili təyin etdi.

Ermənistan hökumətinin yuxarıda adı gedən «dekreti» («yenidən» birləşmə və Azərbaycan hökuməti ilə «razılaşma») yalan və uydurmadan başqa bir şey deyildir. Çünki bütün tarix boyu, bir gündə olsun Dağlıq Qarabağ Ermənistanın tərkibində olmamış və həmin ərazinin Ermənistana verilməsinə Azərbaycan

hökuməti heç vaxt razılaşmamışdır. N.Nərimanov Ermənistan hökumətinin qərəzli «dekreti»nə öz etirazını bildirmiş və bu barədə Tiflisdə olan Xarici İşlər Komissarı M.D.Hüseynova bəzi tapşırıqlar vermişdir.

1921-ci il iyunun 25-27-də Tiflisdə «Mübahisəli ərazi» məsələləri üzrə komissiyanın iclası keçirilir. İclasda Ermənistan nümayəndəsi Bekzadyan bildirdi ki, «Zaqafqaziyanın inzibati bölgüsü ədalətsiz aparılmışdır. Əgər dostcasına yaşamaq istəyiriksə erməni əhalisinin yığcam şəkildə yaşadığı ərazilər Ermənistana güzəşt edilməlidir». O eyni zamanda bildirdi ki, Stalin Moskvada onunla və Myasnikovla söhbət zamanı «bu fikrə tamamilə şərik çıxmışdır»[100]. Azərbaycan və Gürcüstan nümayəndələri əksinə, hər hansı ərazi güzəştlərinin yolverməzliyini bildirdilər. Komissiyanın sədri S.M.Kirov da onları dəstəklədi. İclasda müzakirə olunan məsələ həll edilməmiş qaldı və PK(b)R MK-nın Qafqaz bürosunun müzakirəsinə verildi.

1921-ci il iyunun 25-də A.Maravyan Qarabağa getmək üçün Tiflisə yola düşdü. Bu zaman N.Nərimanov Ə.H.Qarayev vasitəsilə A.Maravyanı müəyyən məsələlərə aydınlıq gətirmək üçün Bakıya dəvət etdi. A.Maravyan bu dəvətə məhəl qoymadı və qasid vasitəsilə Q.K.Orcanigidzeyə məktub göndərdi ki, «Dağlıq Qarabağ məsələsinin həllini sürətləndirsin».

1921-ci il iyunun 26-da Q.K.Orcanigidze və S.M.Kirov Tiflisdən N.Nərimanova təcili teleqram göndərərək «Qarabağ haqqında məsələ»ni dərhal AK(b)P siyasi burosunda və Azərbaycan SSR XKS-də baxmağı xahiş etdilər. Onlar həm də belə bir prinsip irəli sürdülər ki, «məsələ müzakirə edilərək heç bir erməni kəndi Azərbaycana birləşdirilməməli və heç bir müsəlman kəndi Ermənistana birləşdirilə bilməz»[101].

1921-ci il iyunun 27-də N.Nərimanovun Q.K.Orcanigidze və A.F.Myasnikova ünvanladığı teleqram nəzərə almaraq A.Maravyan Qarabağdan geri çağırıldı[102].

AK(b)P MK-nın Siyasi və Təşkilat büroları 1921-ci il iyunun 27-dəki birgə iclasında «Qarabağ məsələsi»ni müzakirə etdi. İclasda N.Nərimanov başda olmaqla milliyyətcə azərbaycanlı olan büro üzvləri birləşərək yekdilliklə obyektiv



qərar – Ermənistanın, Qarabağın yuxarı hissəsinə iddialarını rədd etmək qərarını çıxardılar[103].

1921-ci il iyunun 27-də RK(b)P MK-nın Qafqaz bürosunun plenumu keçirildi. Plenumda M.D.Hüseynovun məlumatları dinlənildi. Plenum belə qərar qəbul etdi ki, «respublikaların sərhədlərini müəyyənləşdirmək üçün PK(b)P MK Qafqaz bürosunun təcili plenumu çağırılsın; N.Nərimanov və M.Myasnikov dərhal Tiflisə yola düşsünlər».

4 iyun 1921-ci il RK(b)P-nin Qafqaz bürosunun plenumunda Qarabağ məsələsinə yenidən baxıldı. Həmin plenumda N.Nərimanov, F.Maxaradze, S.Orcanigidze, S.M.Kirov, A.F.Myasnikov, M.Orxolaşvili, V.Nazaretyan, Fiqner, Stalinin katibi Breytman və Gürcüstan KP MK-nın üç üzvü iştirak edirdi. Moskvanın himayəsi nəticəsində «Qarabağ məsələsi» Ermənistanın xeyrinə həll edildi. Belə ki, N.Nərimanovun etirazına baxmayaraq plenum «Dağlıq Qarabağı Ermənistan SSR-ə daxil etdi»[104]. Belə bir ədalətsiz qərarla razılaşmayan N.Nərimanov bəyanatla çıxış edib bildirdi ki, «Qarabağ məsələsi Azərbaycan üçün böyük əhəmiyyət kəsb etdiyindən, onun haqqında daha obyektiv qərar çıxarmaq üçün həmin məsələnin RK(b)P MK-da keçirilməsini zəruri hesab edirəm»[105].

Nərimanovun ciddi müqaviməti və prinsipial qəti mövqeyi nəticəsində 1921-ci il iyulun 5-də RK(b)P MK-nın Qafqaz bürosunda «Qarabağ məsələsi»nə yenidən baxıldı. Həmin plenumda Stalin və Azərbaycan xarici işlər komissarı Hüseynov da iştirak edirdilər. Plenumda qəbul edilmiş qərarda göstərilirdi ki, «azərbaycanlılar və ermənilər arasında milli barışığın zəruriliyini, Qarabağın yuxarı və aşağı hissələri arasında iqtisadi əlaqələri, onun daim Azərbaycanla bağlı olduğunu nəzərə alaraq, Dağlıq Qarabağ Azərbaycan SSR-in tərkibində saxlanılsın, inzibati mərkəz muxtar vilayətə daxil olan Şuşa şəhəri olmaqla, ona geniş vilayət muxtariyyatı verilsin»[106]. AK(b)P MK-ya tapşırıldı ki, «muxtar vilayətin sərhədlərini müəyyənləşdirsin və təsdiq olunmaq üçün RK(b)P MK-nın Qafqaz bürosuna təqdim etsin». Muxtar vilayətin yaranması qərarı da Azərbaycan ictimaiyyəti tərəfindən razılıqla qarşılanmadı. Ona görə də, Azərbaycan MİK Rəyasət Heyətinin 19 iyul 1921-ci ildə keçirilən iclasında

«Dağlıq Qarabağa daxili özünüidarə hüququ verilməklə Azərbaycanın tərkibində saxlanılmasını zəruri hesab etdi»[107].

AK(b)P rəhbər işçilərindən Ə.Qarayev və L.Mirzoyan vəziyyəti öyrənmək üçün Qarabağa göndərildi. L.Mirzoyan Bakıya qayıdarkən Ə.Qarayevlə razılaşdırılmış məruzə gətirdi. Həmin məruzədə deyilirdi. «Hiss olunurdu ki, kənddə Qarabağ məsələsi mövcud deyildi. Yalnız düzgün həll olunmayan tam bir sıra praktik məsələlər vardır. Mənim dərin əqidəm belədir ki, həmin xırda narazılıqlar bir tərəfdən bizim yuxarı partiya və sovet rəhbər dairələrimiz tərəfindən, digər tərəfdən bir sıra millətçi əhvali-ruhiyyəli ziyalı ermənilər tərəfindən yaradılmışdır və yaradılmaqdadır... Xalis şəkildə Qarabağ məsələsi yoxdur. Erməni kəndlisi deyir ki, o Bakı ilə Ağdamla sıx əlaqəsiz yaşaya bilməz. Ona yalnız düzənlik hissəyə gedən yolu təhlükəsiz etmək və mədəni cəhətdən inkişaf etməyə imkan vermək lazımdır. Azərbaycanın tabeçiliyində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması əhalinin çox əksəriyyətinin fikridir»[108].

1921-ci il avqustun 1-də Şuşada keçirilən fövqəladə Sovetlər qurultayında Azərbaycan SSR tərkibində muxtar vilayətin yaradılması məsələsi müzakirə olunub qərarın düzgün olması qeyd edildi[109]. Lakin Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılması haqqında qərar Azərbaycanın heç də hər yerində və ictimaiyyətin nümayəndələrinin hamısı tərəfindən razılıqla, birmənalı qarşılanmadı. Odur ki, 1921-ci il avqustun 8-də AK(b)P MK-nın Siyasi və Təşkilat bürosu «Qarabağda vəziyyət haqqında» L.İ.Mirzoyan və Ə.H.Qarayevin məruzələrini dinləyərək Şuşa qəza partiya Komitəsinin yeni tərkibini, habelə Ə.H.Qarayevi Qarabağ üzrə fövqəladə müvəkkil təsdiq etdi.

AK(b)P MK-nın Siyasi və Təşkilat bürosu 26 sentyabr 1921-ci il iclasında Qarabağ məsələsi müzakirə edilərkən belə bir qərar qəbul olundu: «Qafqaz bürosundan xahiş olunsun ki, Dağlıq Qarabağın muxtariyyat vahidə ayrılması haqqında öz qərarına yenidən baxsın, buna qədər muxtariyyat elan etməməli»[110].

Qarabağ məsələsinə dair yeni materialları cəlb etməklə məsələni bundan sonra da öyrənmək üçün Ə.H.Qarayev, S.M.Əfəndiyev və D.X.Bünyadzadədən



ibarət xüsusi komissiya yaratmaq qərara alındı. Komissiya dərhal Qarabağa yola düşməklə oradakı partiya və sovet işçilərinə rəhbərlik etməli idilər.

Bəhs etdiyimiz dövrdə Azərbaycanın hər yerində, o cümlədən Dağlıq Qarabağda aclıq baş verdi. Azərbaycan hökuməti Qarabağın hər qəzası üçün bir milyard manat pul, paltar, avadanlıq dava-dərman ayırdı. Bu zaman partiya işçiləri Qarabağa ezam olundu. Eyni zamanda Azərbaycan hökuməti oraya 6 min pud taxıl, düyü, alma, 23 min arşın parça yolladı[111].

1922-ci il oktyabrın 30-da Azərbaycan K(b)P MK Rəyasət Heyəti Qarabağa Muxtariyyat verilməsi üzrə, Ağamalıoğlu, Karakazov və Siviridovdan ibarət komissiya yaratdı. Eyni zamanda Azərbaycan XKS nəzdində Dağlıq Qarabağ işləri üzrə xüsusi komitə təşkil etdi[112].

1922-ci ilin noyabrında AK(b)P Bakı Komitəsinin Plenumu keçirildi. Plenumda Dağlıq Qarabağın muxtariyyat məsələsi müzakirə edildi. Plenum AK(b)P Rəyasət Heyətinə tapşırdı ki, Dağlıq Qarabağın Muxtariyyat haqqında məsələnin işlənib hazırlanmasına dair komissiyanın qəti tərkibini təsdiq etsin.

1922-ci il dekabrın 5-də RK(b)P Zaqafqaziya Ölkə Komitəsində (ZÖK) Dağlıq Qarabağ haqqında məsələ müzakirə edildi[113]. Qərara alındı ki, Dağlıq Qarabağ məsələsi ilə bağlı ZÖK-nin sədri, 7 üzvü və Şuşa, Cavanşir, Cəbrayıl qəzalarından 3 nəfər daxil olmaqla Dağlıq Qarabağ işləri üzrə Mərkəzi Komissiya yaradılsın. Həmin qərara uyğun olaraq 1922-ci il dekabrın 15-də AK(b)P MK-nın Rəyasət Heyəti S.M.Kirov başda olmaqla Azərbaycan SSR XKS yanında Dağlıq Qarabağ işləri üzrə Mərkəzi Komissiyanın və A.Karakozovun sədirliyi ilə Dağlıq Qarabağ işləri üzrə komitənin tərkibini təsdiq etdi. Komissiyaya Şuşa, Cəbrayıl, Cavanşir qəzaları icraiyyə komitələrinin sədrləri də daxil idilər. Komitə həm də torpaq, təhsil və səhiyyə işlərinə rəhbərlik edirdi[114].

1922-ci il dekabrın 17-də AK(b)P MK-nın Rəyasət Heyəti və XKS «Dağlıq Qarabağ haqqında Azərbaycan MİK və XKS-nin layihəsi»ni təsdiq etdilər[115]. Dağlıq Qarabağ işləri üzrə komissiya Karakozovun sədrliyi ilə yerlərdə vəziyyəti hərtərəfli öyrəndikdən sonra Qarabağ məsələsinin həlli layihəsini təsdiq etdi.

AK(b)P MK-nın Rəyasət Heyəti Kirovun sədrliyi ilə təqdim olunmuş sənədləri nəzərdən keçirərək 20 iyun 1923-cü ildə qərara aldı ki, Qarabağın bir inzibati vahid şəkildə ayrılması zəruridir»[116].

1923-cü il iyunun 30-da RK(b)P ZÖK-nin plenumunda Dağlıq Qarabağ işləri üzrə komissiyanın rəyi əsasında Qarabağ məsələsi yenidən müzakirə olundu və Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) ayrılması haqqında qərar qəbul edildi[117]. Azərbaycan K(b)P MK Rəyasət Heyətinin 1 iyul 1923-cü il qərarı bunu təsdiq etdi[118]. DQMV-nin yaradılması haqqnıda Azərbaycan MİK-nin 7 iyul dekreti verildi. Dekretdə Vilayətin mərkəzi Xankəndi göstərilirdi[119].

Ermənistan hökuməti Dağlıq Qarabağın ali hakimiyyət orqanlarında möhkəmlənmək üçün Dağlıq Qarabağda «kadr çatışmamazlığı»nı bəhanə edərək 1923-cü il yanvarın 22-də S.Kirovun və A.Karakozovun məktubu ilə Ermənistandan milliyyətcə erməni olan 6 nəfər rəhbər işçini həmin bölgəyə göndərdi[120]. Bu «proses» sonrakı dövrlərdə də davam etdirildi.

DQMV-nin yaradılması haqqında layihə hazır olsa da məsələnin qəti həlli xeyli uzandı. Çünki Azərbaycan dövləti daxilində belə bir üzdəniraq qurumun yaradılması Azərbaycan rəhbərliyini, ilk növbədə N.Nərimanovu qane etmirdi. Onlar başa düşürdülər ki, bu qondarma qurum Azərbaycan üçün gələcəəkdə böyük fəlakətlər gətirəcəkdir. Eyni zamanda partiya və sovet orqanları məsələni dəfələrlə müzakirə edir və cürəbəcür təkliflər irəli sürürdülər. Məsələn, 1923-cü ilin mayında Karakozov başda olmaqla 4 ermənin iştirak etdiyi Qarabağ Komitəsi tam öz mənafelərinə uyğun belə bir layihə hazırladılar: «Qarabağ 2 hissəyə bölünsün: a) Şuşa şəhəri mərkəz olmaqla, Kürdüstanda daxil olmaqla Dağlıq Qarabağ; b) Mərkəzi Ağdam olmaqla Düzən Qarabağ»[121].

1923-cü il iyulun 1-də AK(b)P MK-nın Rəyasət Heyəti Qarabağa Muxtariyyat barədə dekret verməyi qərarlaşdırdı[122]. Həmin il iyunun 20-də isə Mərkəzi Komissiyanın təqdim etdiyi layihəni nəzərdən keçirən Rəyasət Heyəti Dağlıq Qarabağı inzibati vahid kimi yaratmağı qərara aldı. Lakin Ə.H.Qarayevə tapşırıldı ki, yaradılmış komissiya vasitəsilə məsələni ətraflı öyrənib təqdim etsin[123].



1923-cü il iyunun 27-də RK(b)P ZÖK-nin plenumunda «Dağlıq Qarabağ məsələsi» ilə əlaqədar Qarabağ Komitəsinin məruzəsi dinlənildi. Plenumda «DQMV-nin yaradılması haqqında» rəy təsdiq olundu[124]. RK(b)P MK Rəyasət Heyətinin 1 iyul 1923-cü il qərarı da bunu təsdiq etmişdir. Qrarda göstərirdi ki, «AMİK-ə təklif olunsun ki, Dağlıq Qarabağa muxtariyyat verilməsi barədə dekret versin. Xankəndi mərkəzi olmaqla Qarabağ Muxtar Vilayəti yaradılsın. İcraiyyə Komitəsi yaradılanadək Vilayəti idarə etmək üçün 5 nəfər üzvdən ibarət İnqilab Komitəsi və 5 nəfər üzvündən ibarət Vilayət Partiya Komitəsi yaradılsın»[125].

Dağlıq Qarabağ muxtariyyatının sərhədlərini və düzən Qarabağın hüdudlarını müəyyən etmək üçün Ə.H.Qarayev, A.N.Karakozov, Ç.İ.İldırım, D.X.Bünyadzadə və Svirdovdan ibarət Xüsusi Komissiya yaradıldı.

1923-cü il iyulun 7-də Azərbaycan SSR MİK «Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili haqqında» dekret verdi. MİK-nin qərarında göstərilirdi: «Dağlıq Qarabağın ermənilər yaşayan hissəsində Xankəndi mərkəzi olmaqla, Azərbaycan SSR tərkib hissəsi kimi Muxtar Vilayət təşkil edilsin. Muxtar Vilayətin idarəetmə orqanları Vilayət İcraiyyə Komitəsi və yeni yerli sovetlərdir. İcraiyyə komitələri yaradılanadək müvəqqəti inqilab komitəsi yaradılsın». Muxtar Vilayətin Əsasnaməsini hazırlamaq və inzibati vahidləri ona faktiki surətdə vermək, sərhədlərini müəyyənləşdirmək üçün Dağlıq Qarabağın, Düzən Qarabağın, Kürdüstanın və Azərbaycan SSR-in mərkəzi hökumətinin nümayəndələrində ibarət qarışıq komissiya təşkil edildi[126].

Beləliklə, 1923-cü il iyulun 7-də Azərbaycan MİK-nin dekreti ilə Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradıldığı elan edildi[127].

1923-cü il iyulun 14-də AK(b)P MK-nın Rəyasət Heyəti Dağlıq Qarabağ muxtariyyatı konstitusiyasının (Əsasnaməsinin) hazırlanmasına dair komissiyanın fəaliyyətini müzakirə etdi. Komissiyaya sədirlik D.X.Bünyadzadəyə həvalə olundu[128].

1923-cü il iyulun 16-da D.X.Bünyadzadə RK(b)P MK-nın Rəyasət Heyətində komissiyanın məruzəsi ilə çıxış etdi. O bildirdi ki, Şuşa şəhəri və Skobelov icmasına daxil olan boş qalmış rus torpaqları DQMV-nin tərkibinə qatmaq, 5 nəfərdən ibarət DQMV inqilab komitəsi və 9 nəfərdən ibarət Vilayət Partiya Komitəsi yaratmaq lazımdır[129]. D.X.Bünyadzadənin irəli sürdüyü müddəaları Azərbaycan MİK və Azərbaycan SSR XKS 1923-cü il iyulun 21-də birgə keçirdiyi iclasda təsdiq etdilər[130].

Azərbaycan XKS yanında Dağlıq Qarabağ işləri üzrə Komissiya «DQMV-i haqqında Əsasnamə»nin son variantını işləyib hazırladı və RK(b)P MK-nın Rəyasət Heyəti 1923-cü il iyulun 23-də həmin «Əsasnamə»də bəzi dəyişikliklər aparıb təsdiq etdi[131]. DQMV-də Birinci Sovetlər Qurultayı çağırılanadək Vilayətin idarəçiliyi, 1923-ci il iyulun 24-də Azərbaycan SSR MİK və XKS-nin birgə qərarı ilə, A.N.Karakozov (sədr), B.N.Bünyadov, K.Kafiyev, S.V.Manukyan və M.Çalyandan ibarət müvəqqəti İnqilab Komitəsinə həvalə olundu[132].

1923-cü il noyabrın 6-7-də DQMV-nin birinci sovetlər qurultayı kesirildi. Qurultayda iştirak edən 132 nümayəndədən 116-sı erməni, 16-sı azərbaycanlı, 12 -si qadın və 80 faizi kommunist idi. Qurultayda H.H.Sultanov, Ç.İ.İldırım və İ.İ.Dövlətov da iştirak edirdi. Qurultayda A.N.Karakozov Qarabağ İnqilab Komitəsinin fəaliyyəti haqda məruzə etdi. 25 nəfərdən ibarət DQMV MİK-nin tərkibi seçildi. DQMV MİK-nin Rəyasət Heyətinin tərkibi A.Karakozov (sədr), M.Çalayan, B.Bünyadov, S.Manukyan, A.Ketkiyan (katib), M.Arzanyan və başqalarından ibarət təsdiq edildi[133].

1923-cü il dekabrın 11-də «DQMV-i haqqında Əsasnamə»sinin yenidən işlənməsi üçün AK(b)P MK-nın Rəyasət Heyəti tərəfindən Komissiya yaradıldı. 1924-cü il iyulun 3-də xüsusi komissiyanın hazırladığı «DQMV haqqında Əsasnamə» RK(b)P MK-nın Rəyasət Heyəti və Azərbaycan MİK-nin Rəyasət Heyəti tərəfindən bəyənildi və 1924-cü il noyabrın 26-da Azərbaycan, erməni və rus dillərində mətbuatda dərc edildi. «Əsasnamədə» göstərilirdi ki, «DQMV-i Azərbaycan SSR-in tərkib hissəsidir. DQMV-də bütün kərgüzarlıq, məhkəmə və məktəblərdə tədris ana dilində aparılır». Əsasnamədə DQMV-nə daxil olan



ərazilər göstərilmiş, yerli hakimiyyət orqanlarının təşkili formaları, hüquq və vəzifələri göstərilmişdir[134]. Eyni zamanda «Əsasnaməyə» görə Şuşa qəzasından Şuşa, Xankəndi və 115 kənd, Cavanşir qəzasında 52 kənd, Qaryagin qəzasında 30 kənd, Qubadlı qəzasından isə Qaladərəsi DQMV-yə verildi[135].

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın dağlıq hissəsinin muxtariyyətləşməsi və onun ətrafında yaranan məsələlərə münasibət AK(b)P MK-nın birinci katibi S.M.Kirov AK(b)P-nın VI qurultayındakı çıxışında yekunlaşdırmışdır: «Bizim bu sahədə ən böyük, nəzəri cəlb edən nailiyyətimiz budur ki, «Qarabağ məsələsi» deyilən məsələni o qədər tam olmasa da xeyli dərəcədə... axır ki, nəhayət həll edə bildik, şübhəsiz, tamamilə düzgün iş gördük. Bu məsələni, əsasən, yenidən həll etməyə qayıtmayacağımıza heç bir şübhə yoxdur»[136].

Doğrudanda, Azərbaycanda dövrünün «birinci şəxsiyyəti» kimi tanınan S.M.Kirovun yuxarıdakı nitqini nəzərdən keçirərkən Azərbaycan xalqına qarşı əsil xəyanəti, fitnəkarlığı, namərdliyi, cinayəti görürük.

Kirov, Mirzoyan, Dövlətov və digər obyektivlik hissini itirən, simasız erməni millətçiləri özlərinin alcaq məharətlərindən layiqincə istifadə edərək qondarma DQMV-nin yaradılmasına nail olmaqla Azərbaycan millətinin mənafeyinə, Vətənimizin gələcəyinə ciddi, ağır ziyan vurdular və bu saxta qurumdan sonrakı dövrlərdə müsəlmanlara qarşı bir «qaba silah» kimi istifadə etdilər.

Beləliklə, DQMV-nin yaranması ilə o illərin Qarabağ problemi yekunlaşdı. Qərbin və Rusiyanın havadarlığı ilə Azərbaycan əraziləri hissə-hissə itirildi. Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması Azərbaycanın öz torpaqlarının qorunması uğrunda müvəffəqiyyəti kimi qiymətləndirilsədə, vilayət statusunun yaradılması gələcəkdə ermənilərin Azərbaycana qarşı məkrli ərazi iddiası siyasətinin mənbəyi, xəyanətkarlıq və nankor qonşuluq nümunəsi olmuşdur. DQMV-nin yaranması uzun illər boyu erməni millətçilərinin, milli təşkilatlarınm, Ermənistan hökumətinin planı və vahid xətt əsasında apardığı siyasətin həyata keçirilməsinin nəticəsi, Azərbaycana qarşı «parçala və hökm sür» imperiya siya-

sətinin davamı idi. XX əsrin əvvəllərində başlanan bu siyasət yüksələn xətt üzrə davam edərək, əsrin sonlarına yaxın ərazilərimizin 20 faizinin işğalı ilə nəticələndi. Xalqımız öz doğma torpağından didərginə, qaçqına, köçkünə çevrildi.



# II FƏSİL

## Azərbaycan SSR-in DQMV-də sosialist təsərrüfat sisteminin formalaşdırılması və onun doğurduğu nəticələr (1920-1930-cu illər)

### 1. Sovet dövlətinin sənayeləşdirmə siyasətinin DQMV-də həyata keçirilməsi

Sovet imperiyasını quran bir ölkə üçün təkcə təsərrüfat dağınıqlığını aradan qaldırılması əlbəttə kifayət deyildir. Bunun üçün ilk növbədə mövcud sənaye müəssisələrinin bərpa olunmasını başa çatdırmaq, onun maddi-texniki bazasını möhkəmləndirmək və ölkə üçün lazım olan yeni sənaye sahələrinin yaradılması tələb olunurdu. Bunsuz ölkənin iqtisadi geriliyini aradan qaldırmaq, müstəmləkəçilik rejimini möhkəmləndirmək olmazdı. Sovet rejimini qoruyub saxlamaq, ölkənin iqtisadi müstəqilliyinə nail olmaq, müdafiə qabiliyyətini möhkəmləndirmək, imperiyanın cənub bölgələrində ən etibarlı dayaqlarını yaratmaq, möhkəmləndirmək, Azərbaycanı qonşu cənub ölkələrindən, soy qardaşlarından uzaqlaşdırmaq üçün sənayeni inkişaf etdirmək son dərəcədə vacib idi. Belə bir tədbir Dağlıq Qarabağ kimi bir bölgədə yerli milli və dini ənənələri sarsıtmaq, xristianlıq ənənələrinə söykənən rus-erməniləşdirmə siyasətini həyata keçirmək üçün lazım idi. Bütün bu zəruriyyəti nəzərə alaraq bolşeviklər partiyası öz milli, müstəmləkəçilik siyasətini həyata keçirməyə başladı. Onlar öz proqramlarını inkişaf etdirərək iqtisadiyyatı Rusiya şablomu əsasında yenidən qurdular.

Dağlıq Qarabağda dinc quruculuğa keçid olduqca mürəkkəb beynəlxalq və daxili şəraitdə davam edirdi. 1920-ci il may çevrilişindən sonra Dağlıq Qarabağ sənayesində çox acınacaqlı vəziyyət yaranmışdı. Bütün sənaye obyektlərinin fəaliyyəti demək olar ki, dayandırılmışdı. Bunun ən başlıca səbəbləri aşağıdakılardan ibarət idi: Dağlıq Qarabağda daşnak quldur dəstələrinin törətdikləri qanlı qırğınlar-günahsız dinc əhalinin öldürülməsi, evlərin, emalatxanaların, sənaye obyektlərinin yandırılması, texnikanın Ermənistana daşınması;[1]. Dağıntı və çətin ərzaq qıtlığı ilə əlaqədar fəhlələr acından ölməmək üçün kəndə üz tutur və bu isə ixtisaslı kadrların saymı azaldırdı;[2] 1920-ci ildən Dağlıq Qarabağda

idxal, ixrac əməliyyatları dayandırılmışdı; «Şübhəli ünsür» adı altında Dağlıq Qarabağdakı azərbaycanlı iş adamları, bəylər, sahibkarlar həbs edilmiş, güllələnmiş və ya qaçmağa məcbur edilmişdir; Sənayedə çalışanların əmək haqqı və sənaye məhsullarının qiyməti dəfələrlə aşağı düşmüş və bu hal fəhlənin maddi marağını azaltmışdı; Sovet hakimiyyəti yarandığı ilk günlərdə Dağlıq Qarabağda vahid iqtisadi planın olmaması, iqtisadi sahədə atılan səhv addımlar, siyasi vəziyyətdəki böhranlı hal sənayeyə ağır təsir etdi; Dağlıq Qarabağda kənd təsərrüfatında olan ciddi böhran, xüsusilə müsadirəçilik kompaniyası sənayenin xammala olan tələbatını çətinləşdirdi; Eyni zamanda, fəhlələrlə kəndlilər arasında iqtisadi və mədəni əlaqələr yaratmaq, xırda burjuaziya və milli ziyalılara münasibət və sair məsələlərin həllində səhvlər mövcud idi. Bütün bunlar Dağlıq Qarabağ sənayesində böhranlı vəziyyətin yaranmasını şərtləndirmişdi[3].

1920-ci ilin əvvəllərində Dağlıq Qarabağda bir neçə baramaaçma və ipəksarıma fabriki, dəyirman daşı hazırlayan karxanalar var idi. İpəkburma fabrikində 2 min fəhlə işləyirdi və il ərzində 3 milyon pud ip əyirirdi. Yuxarıda qeyd etdiyimiz səbəblərə görə Dağlıq Qarabağda fəaliyyət göstərən bütün müəssisələr öz işini dayandırmışdı[4].

XX yüzilliyin 20-30-cu illərində Dağlıq Qarabağ sənayesinin inkişafındakı spesifik xüsusiyyətlərə görə şərti olaraq 3 hissəyə bölmək olar: Birincisi sənayenin bərpası (1920-1925), ikincisi sənayenin yenidən qurulması (1926-1933), üçüncüsü sənayenin yenidən qurulmasının başa çatdırılması (1934-1940) dövrləri.

1920-ci illərin çətin şəraitində – ziddiyyətlərin daha çox kəskin cərəyan etdiyi, diktaturanın və terrorun hakimiyyətdə olduğu Dağlıq Qarabağda sənayenin bərpasına başlandı. Sənayenin bərpası üçün İnqilab Komitəsi mühüm tədbirlər həyata keçirdi. İlk növbədə 1920-ci il mayın 12-də verilən dekretlə meşələr, sular, yeraltı sərvətlər dövlət mülkiyyəti elan edildi. Mayın 12-də zavodlar, fabriklər, başqa sənaye müəssisələri, banklar milliləşdirildi və mayın 16-da verilən dekretlə istehsal, xammal materialları üzərində fəhlə nəzarəti tətbiq olundu[5]. Bundan əlavə, 1920-ci il iyunun 3-də ticarət azadlığı haqqında xüsusi qərar verildi. İyunun 9-da isə Fəhlə-Kəndli müfəttişliyi təsis edildi, sapataj və



möhtəkirliyə qarşı mübarizə aparmaq üçün FK yaradıldı[6]. Sənayeni işçi qüvvəsi ilə təmin etmək üçün 1920-ci il avqustun 8-də Azərbaycan Xalq Hərbi Dəniz Komissarlığı «Ümumi əmək mükəlləfiyyətləri haqqında» əmr verdi. 1920-ci ilin oktyabrından sovet təsərrüfat orqanlarının nümayəndələrindən ibarət «Azərbaycan SSR Ərzaq Müşavirəsi» işə başladı[7]. Verilən dekretləri Dağlıq Qarabağın əhalisi arasında yaymaq üçün Mərkəz özlərinin inandıqları adamları göndərdilər. Dağlıq Qarabağ sənayesinin bərpa edilməsində KP, Həmkar və Komsomol təşkilatlarının fəaliyyəti genişləndi. Lakin bu təşkilatlarda erməni daşnaklarının təsiri böyük idi və onlar müsəlmanlara qarşı diktatorluq siyasəti yeridirdilər.

Dağlıq Qarabağda sənayenin bərpası üçün Mərkəzin həyata keçirdiyi iqtisadi siyasət çox çətin, spesifik və mürəkkəb şəraitdə cərəyan edirdi. Çünki Dağlıq Qarabağ Azərbaycanın aqrar - kəndli regionu olmaqla, kapitalist və yarımfeodal münasibətləri də mövcud idi. Burada iqtisadiyyat çoxukladlı xarakter daşıyırdı. Ən əsası isə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları özünün ən yüksək zirvəsinə çatmışdı.

Sovet hakimiyyətinin «Hərbi kommunizm» və «Ərzaq Sapalağı» siyasətindən Dağlıq Qarabağın bir qrup ermənilərdən ibarət ərzaq agentləri, tədarük komissiyaları, vəzifəli şəxsləri öz səlahiyyətlərindən sui-istifadə edərək qanunsuz hərəkətlərə yol vermiş, azərbaycanlılardan müsadirəsi nəzərdə tutulmayan ev əşyaları raltar-ralaz, zinnət əşyaları və sair əllərindən alınmışdır[8]. «Hərbi Kommunizm» siyasəti Dağlıq Qarabağda qısa bir müddət ərzində, daha məhdud formada həyata keçirilirdi. Tədarükü yalnız Xalq Ərzaq Komissarlığı aparırdı. Bütün əsas sənaye məhsulları dövlət hakimiyyət orqanları tərəfindən bölüşdürülür, qalan məhsullar isə sərbəst dövriyyədə idi[9]. 1920-ci il oktyabrında Dağlıq Qarabağda yaranmış «Ərzaq Müşavirəsi», 1921-ci ilin yanvarında təşkil edilən «Ali İqtisad Şurası» sənayenin inkişafında əsaslı irəliləyiş etmədiyindən, Azərbaycan İnqilab Komitəsi «Bütün növ ərzaq inhisarının ləğv edilməsi haqqında» 1921-ci il 17 may tarixli dekreti ilə ərzaq sapalağını ləğv etdi. Bu qərar Azərbaycanda Yeni İqtisadi Siyasətə (YİS) keçilməsində ilk addım oldu[10]. Onun əvəzində rəsmən könüllü məhsul rusumu «çanaq» vergisi qoyuldu. 1922-ci ilin

yazından etibarən Dağlıq Qarabağda ərzaq vergisi tətbiq olunmağa başlandı. Həmin vaxtdan YİS-ə keçid prosesi baş verdi[11]. YİS hakim mövqelərin dövlətin əlində olması şərtilə ərzaq vergisi tətbiq olunmasını, ticarət azadlığına yol verilməsini, icarə sisteminin yaradılmasını, xarici ticarətə yol verilməsini, kooperasiya, bank və kredit şəbəkəsinin yaradılmasını və başqa iqtisadi tədbirləri tətbiq etməyi nəzərdə tuturdu. Bütün bunlar isə təsərrüfatın və istehsalçıların maddi marağının artırılmasına, onların azad iqtisadi fəaliyyətinə imkan verirdi. YİS dövründə xırda istehsal və ticarət müəssisələri icarəyə verildi. Bütün bunlar isə sənayenin dirçəlməsinə, ticarətin inkişafına, maliyyə sahəsində böhranlı vəziyyətin aradan qaldırılmasına səbəb oldu. YİS-in tətbiqi nəticəsində Dağlıq Qarabağda bazar iqtisadiyyatının inkişafına şərait yarandı, şəhərlə kənd arasında əlaqələr genişləndi və sahibkarlıq inkişaf etməyə başladı[12].

1922-ci il martın 11-də Şuşada ikinci Fövqəladə Sovetlər Qurultayı keçirildi. Qurultayda Dağlıq Qarabağ sənaye müəssisələrinə rəhbərlik İcraiyyə Komitəsinə həvalə olundu[13]. Həmin vaxt Azərbaycan hökumətinin sərəncamı ilə Dağlıq Qarabağda sənayeni inkişaf etdirmək məqsədilə Bakıdan Dağlıq Qarabağa 25 min pud taxıl, 5 milyon manat pul, xammal və avadanlıqlar göndərildi[14].

Dağlıq Qarabağda YİS-ə keçid nəticəsində müəssisələrin icarəyə verilməsi siyasətindən real hakimiyyətdə olan qüvvələr məharətlə istifadə edərək, vaxtilə azərbaycanlılara məxsus olan müəssisələri məqsədli şəkildə əraziyə köçürülən ermənilərə icarəyə verdilər.

1921-1925-ci illərdə Dağlıq Qarabağ sənayesində başlıca diqqət ipəkçiliyin inkişafına istiqamətlənmişdi. Xınzırıstan ipək fabrikinin bərpası üçün Bakı neftçiləri 500 pud xammal, xeyli avadanlıq və texnika göndərdi. Nəticədə, 1922-ci ilin sonlarında müəssisə öz fəaliyyətini bərpa etdi. Azneft fəhlələrinin yaxından köməyi ilə 5 ipəkçilik müəssisəsində iş öz əvvəlki ahənginə düşdü[15]. Artıq 1923-ci ildə Dağlıq Qarabağın ipəkçilik müəssisələrində 5,2 ton xam ipək, 1000 kq ipək sapı istehsal olundu[16].

Dağlıq Qarabağın bol yeraltı təbii sərvətlərindən tikinti materialları üstünlük təşkil edir. 1921-1923-cü illərdə Dağlıq Qarabağda sement və əhəng istehsalını



genişləndirmək üçün Rusiyadan avadanlıqlar göndərildi. Xankəndi, Xocavənd və Hadrud sement zavodu və mərmər sexi işə düşdü[17]. 1923-cü ildə Dağlıq Qarabağ sənayesi öz əvvəlki ahəngini bərpa edə bilmədi. Çünki, kadrlara, xammalda, texniki avadanlıqlara hələ də böyük ehtiyac var idi.

1923-cü il iyulun 24-də Azərbaycan SSR MİK və XKS-nin Bakıda keçirilən birgə konfransında Azərbaycan MİK-nin sədr müavini M.B.Qasımovun «Dağlıq Qarabağın inkişaf prespektivləri haqqında» məruzəsi dinlənildi. Konfransda, Dağlıq Qarabağda sənayenin bərpa və inkişafı üçün Azərbaycan Mərkəzi Bankından 1 milyon manat kredit, 480 min manatlıq ərzaq, parça, şəkər, şüşə, neft məhsulları, 200 nəfər ixtisaslı kadr verilməsi qərarlaşdırıldı. Eyni zamanda 1923-cü ildə Zaqafqaziya Xalq Rabitə Komissarlığı, Dağlıq Qarabağ sənayesinin inkişafı üçün 5 milyon manat pul tərxis etdi[18].

1923-cü ildən başlayaraq Dağlıq Qarabağda elektrik xətlərinin çəkilişinə başlandı. İlk günlər burada 2 mühərrik işləyirdisə, 2 il ərzində DQMV-də daha 4 mühərrik işə düşdü[19].

1923-cü ilin noyabrında Azərbaycan hökuməti DQMV-nin sənayesinin bərpa və inkişafı üçün 15 min manatlıq tikinti materialları, 20 min arşın bez, 20 min pud ağ neft və müxtəlif avadanlıqlar göndərdi. 1924-cü ilin fevralında isə DQMV-də bazar qiymətlərini qaydaya salmaq üçün vahid vergi sistemi müəyyən edildi və ticarəti tənzim edən komissiya yaradıldı[20].

Sovet Rusiyasının göstərişi ilə Azərbaycan hökuməti 1924-cü ildən DQMV-də spirt-şərab istehsalına xüsusi diqqət yetirməyə başladı. Həmin vaxtdan Gürcüstandan alınan avadanhqlar, xammal və Bakı neftçilərinin ayırdığı 15 min manatlıq vəsait spirt-şərab zavodlarının tikintisinə sərf edildi. Zavodların xammala olan tələbatını ödəmək üçün yeni tut və üzüm bağları əkildi. 1924-1925-ci illərdə DQMV-də bir neçə spirt-şərab zavodları tikilib istifadəyə verildi. Beləki, 1924-cü ilin iyulunda Xankəndində «Qarabağ spirt istehsalı» koperativi, «Tuğ ittifaqı» koperativi, 1925-ci ildə Vərənddə «Saflaşdırma Spirt Zavodu, Əskəranda şərab zavodu tikilib istifadəyə verildi[21].

1925-ci il fevralın 12-də Xankəndində konfrans keçirildi. Konfransda DQMV-də sənayedə əldə edilən müvəffəqiyyətlər və qarşıdakı vəzifələr müəyyən olundu. Nəzərdə tutuldu ki, ipək toxuma müəssisələrinin bərpası davam etdirilsin. Ağac materialları və spirt sənayesinin inkişafı, elektrik enerjisi istehsalının yüksəldilməsi üçün ayrılan vəsaitin miqdarı artırılsın[22].

Azərbaycan SSR Ali İqtisad Şurası, DQMV-də elektrikləşmə işini həyata keçirmək üçün daimi komissiya yaratdı. Komissiya layihə işləyib hazırladı. Plana görə Tərtər çayı üzərində 200 min klovat at gücündə SES tikmək və gücü 700 klovata çatan Ağa Körpüsü üzərindəki SES-i qısa müddətdə istifadəyə vermək, bölgədə elektirik xətlərinin çəkilişini davam etdirmək nəzərdə tutulmuşdu. 1924-cü ilin sonlarında ümumi gücü 245 klovata çatan, Aqa Körpüsü üzərindəki SES istifadəyə verildi. DQMV-də 86 min manatlıq elektrik xətti çəkildi. Bunun 19 min manatı təkcə Xankəndinə sərf edilmişdi[23].

1921-1925-ci illərdə DQMV-də Şuşa-Yevlax və Xankəndi-Gəncə yolları çəkilib istifadəyə verildi. Eyni zamanda Xanbulağı, Xankəndi, Malıbəyli, Qaladərəsi körpüləri tikildi[24].

Bəhs olunan dövrdə DQMV-də yüngül sənayenin, xüsusilə ipəkçiliyin inkişafına xüsusi diqqət yetirildi. Bu məqsədlə 1925-ci ilin fevralında 50 min manat vəsait ayrıldı. 1925-ci ildə DQMV-də xalçaçılıq fabriki tikilib istifadəyə verildi. 1925-ci ildə xam ipək 12,3 tona, hazır burulmuş ipək 1,5 tona çatdı ki, bu da 1923-cü illə müqayisədə təxminən 60 faiz artım demək idi[25]. Bütün bu müvəffəqiyyətlər isə YİS-in bəhrəsi hesab olunurdu. 1921-1925-ci illərdə Dağlıq Qarabağda sənaye sahəsində qazanılan nailiyyətlər ilk növbədə sənaye müəssisələrinə verilən sərbəstliklə bağlı idi. Belə ki, bəhs edilən dövrdə müəssisələrin özünüidarə, özünümaliyyələşdirmə sisteminə keçməsi fəhlələrin maddi marağının, ruh yüksəkliyinin artmasına, bu da öz növbəsində əmək məhsuldarlığının inkişafına, istehsalın genişlənməsinə səbəb oldu.

Beləliklə, YİS-in tətbiq olunması sayəsində 1925-ci ildə Dağlıq Qarabağın iqtisadiyyatında canlanma baş verdi. Sənaye məhsulu istehsalının həcmi müharibədən əvvəlki səviyyəyə yaxınlaşdı[26]. Əhalinin sosial vəziyyətində müəyyən irəliləyişlər baş verdi. Lakin aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1921-1925-ci illərdə DQMV-də yaşayan azərbaycanlılara, erməni rəhbərliyi tərəfindən ögey münasibət göstərilmişdir. İstər mədəni-məişət və sənaye obyektlərinin tikintisində, istərsədə müəssisələrdə işləyən fəhlələrə münasibətdə azərbaycanlılar həmişə biganəlik və ədalətsizliklə rastlaşmışlar. Mərkəzdən dəstək alan DQMV hakimiyyət orqanları öz məkirli niyyətlərini həyata keçirərkən heç kimdən və heç nədən ehtiyat etmirdilər. Sovet Rusiyasının 1921-1925-ci illərdə Dağlıq Qarabağda həyata keçirdiyi iqtisadi və siyasi tədbirlərdə güddüyü başlıca məqsəd yerli əhalinin (azərbaycanlıların) milli mənlik şüurunu öldürmək, ərazidə ermənilərin hesabına öz dayaqlarını möhkəmləndirmək və müstəmləkəçilik rejimini əbədiləşdirərək ölkəmizin təbii sərvətlərini yeni rejimin tələblərinə uyğun şəkildə istifadə etməkdən ibarət olumşdur. 1920-ci ilin ortalarında YİS-ə keçid nəticəsində DQMV-nin iqtisadi həyatında nisbi iqtisadi sabitlik yarandı. YİS-in həyata keçirilməsi prosesində üstün cəhətlərlə yanaşı, zəif cəhətlər də üzə çıxmağa başladı. Belə ki, ali hakimiyyət orqanlarına arxalanan ermənilər, onlara məxsus olmayan sənaye müəssisələrini icarəyə götürüb sahibkara çevrildilər və müəssisədə işləyən azərbaycanlılara ögey münasibət göstərdilər. Bütün bunlar sənaye müəssisələrində çalışan zəhmətkeş, əliqabarlı, haqqı tapdalanan fəhlələrin narazılığına səbəb olurdu. Enyi zamanda, DQMV-də YİS-in iqtisadi imkanlarından istifadə edən fırıldaqçı ermənilər iri birlikləri (trestləri) ələ keçirib min bir saxtalıqla daha çox varlanırdılar. Varlı təbəqəyə qarşı isə narazılıq gündən-günə artırdı. Həm də əhalinin təbəqələşməsi kapitalist ünsürləri yaratdığından bu hal yeni cəmiyyətin prinsiplərinə zidd hesab olunurdu. Bütün bunlarla yanaşı, YİS sərbəst ticarətə şərait yaratdığından şəhərlə kənd arasında əlaqələr pozulurdu. Məhz belə bir şəraitdə, YİS prinsiplərindən əl çəkməyə, iqtisadiyyatda inzibati amirlik metodları tətbiq olunmağa başlandı. Mərkəzin yalnız bir məqsədi var idi. Hansı yolla olur-olsun sənayeni inkişaf etdirmək, ölkənin müdafiə qabiliyyətini möhkəmləndirmək, onu idxalçı ölkədən ixrac edən ölkəyə çevirmək. Azərbaycanda sənayeləşdirmənin həyata keçirilməsi üçün 1926-cı ilin fevralında

sənayeləşdirmə üzrə xüsusi komissiya yaradıldı. 1926-1930-cu illər üçün inkişaf planı hazırlandı.

1926-cı il fevralın 29-da Xankəndində keçirilmiş konfransda sənayeləşdirmə planının müzakirəsi keçirildi. Qarşıdakı vəzifələr müəyyənləşdirildi[27].

Azərbaycan hökuməti DQMV-də sənayenin inkişaf üçün 457000 manat, elektrikləşmə üçün 23630 manat, rabitə və telefonlaşmaya 32335 manat büdcədən pul ayırdı[28]. Vergilər artırıldı və zay məhsula görə cərimə müəyyən edildi. Müəssisələrə xammal, avadanlıqlar və ixtisaslı kadrlar göndərildi[29].

Bəhs etdiyimiz dövrdə Dağlıq Qarabağ sənayesində spirt-şərab zavodları əsas aparıcı rol oynayırdı. 1926-cı ildə üzüm yığımı 96 faiz yerinə yetirilmişdir. Vərənddə yeni spirt zavodunun tikintisi üçün 4000 manat pul ayrılmış, Taqverd spirt zavodu 2-ci spirt zavodunun inşasına başlanmışdır[30]. DQMV-də spirt-şərab zavodları 1926-cı ildə yüksək məhsuldarlığa nail olmuş və sənayenin başqa sahələri ilə müqayisədə birinci yerdə dayanmışdır.

Azərbaycan hökuməti 1926-cı ildən başlayaraq DQMV-də ipək sənayesinin inkişaf etdirmək üçün ciddi tədbirlər həyata keçirməyə başladı. Lakin 1926-cı ildə 1925-ci illə müqayisədə ipək istehsalında elə bir əsaslı fərq olmadı[31].

140 min desyatin meşə zolağı ilə əhatə olunmuş DQMV-də ağac emalı sənayesi də, inkişaf etmişdi. 1920-ci ildə burada 1 ağac emalı zavodu var idisə, 1926-cı ildə Ağdərə, Əsgəran və Xankəndində yeni zavodlar açıldı. Bu zavodlarda müxtəlif avadanlıqlar və mebel istehsal olunurdu[32].

1926-cı ildə DQMV-də 14 kooperativ, 65 satış nöqtəsi var idi ki, onların xüsusi kapitalı 194971 manata çatırdı. DQMV-də 1926-cı ildə 23630 manat dəyərində elektrik xətti çəkilmiş, 50 yaşayış evi istifadəyə verilmiş, Xankəndi-Talış-Ağdərə yolu bərpa edilmiş, telefon, teleqraf çəkilişində xeyli işlər görülmüşdür[33].

1927-ci ildə DQMV-nin sənayesinə kapital qoyuluşu 1926-cı ildəkindən 75 faiz artıq olmuşdur. Ümumi məhsuldarlıqda isə 23 faiz artım müşahidə edilmişdir. 1927-ci ildə Xankəndi ipək fabrikinin tikintisinə başlanmış və 1929-cu ildə istifadəyə verilmişdir. Fabrikdə 134 dəzgah quraşdırılmışdır[34].



1927-1928-ci illərdə DQMV-nin Marquşavan kəndində ipək fabriki, Qışlaqkənddə baramasarıyıcı fabrik, Taqverd kəndində təmiz spirt zavodu, Xankəndində mexaniki emalatxana, Madaqız və Çıldıranda ağac emalı zavodları, Əskəranda şərab-spirt zavodu tikilib istifadə verildi. Bu vaxt 33 bina inşa edilmiş, 52-si təmir olunmuş 174 kilometr uzunluğunda yol çəkilmişdir[35].

Aparılan araşdırmalardan məlum olur ki, sənayeləşdirmənin ilk illərində DQMV-i sənayesində bir sıra məhdud cəhətlər ortaya çıxmışdır. Belə ki, kadr azlığı, planlaşdırmadakı səhflər, xammal çatışmamazlığı, sənaye obyektlərinə rəhbərlik edən ermənilərin azərbaycanlılara qarşı şovinist mövqeyi və sair hallar sənayeləşdirmənin tempinə və əhalinin həyat səviyyəsinə ağır zərbə vururdu. Lakin 1926-1928-ci illərdə DQMV-də sənayeləşdirmənin həyata keçirilməsinin əhəmiyyətli cəhətləri də olmuşdur. Belə ki, DQMV-də köhnə müəssisələr bərpa edilərək yeniləri işə düşmüş və işsizliyə son qoyulmuşdur. Dağlıq Qarabağ geridə qalmış aqrar regiondan, aqrar-sənaye vilayətinə çevrilmişdir. Fəhlələrin sayı isə 5 dəfə artmışdır[36].

Sənayeləşdirmənin ilk illərində əldə edilmiş nailiyyətlər imkan yaratdı ki, Mərkəz uzunmüddətli inkişaf planı hazırlasın. SSRİ hökuməti, Azərbaycanın iqtisadi inkişafını tənzimləmək, onu nəzarətdə saxlamaq üçün birinci beşillik plan (1928/29-1932/33) qəbul etdi[37].

Birinci beşillik dövründə DQMV-də sənayeyə kapital qoyuluşu 2 dəfə artdı[38]. Ağac emalı sənayesinin, toxuculuq sənayesinin, xalçaçılıq və corab fabriklərinin inkişafı, tikilməsi və yenidən qurulması planlaşdırıldı. Xankəndi SES-in tikilib yekunlaşması, Madağız SES-in tikintisinə başlanması müəyyən edildi. Kəndlərin elektrikləşməsi, yeni spirt-şərab zavodlarının tikilməsi, yeyinti və kərpic-kirəmid zavodlarının şəbəkəsinin genişlənməsi, xalqın maddi rifah halının yaxşılaşdırılması birinci beşillikdə DQMV-də nəzərdə tutulan əsas vəzifələr idi[39].

Birinci beşillik dövründə DQMV-də yeni sənaye sahələri yaradıldı. Yüngül sənaye Dağlıq Qarabağ sənayesinin 57,1 faizini təşkil edirdi[40]. 1929-cu ildə Xankəndində baramaaçma fabriki işə düşdü. Qarabağ İpək Kombinatının

məhsulları xarici dövlətlər ixrac olunurudu. Hər il, təkcə Çerkasski şəhərinə 10 ton süni ipək göndərilirdi. 1929-cu ildə işə düşən müəssisələrdən biri də Xankəndi xalça fabriki idi. Burada istehsal olunan xalçalar orjinal və gözəl rəsmləri, əla keyfiyyəti, müstəsna möhkəmliyi ilə dünyada tanınmışdır. 1930-cu ildən Qarabağ xalçaları İngiltərə, İtaliya, İsveç, Danimarka, İran, Misir Ərəb Respublikasına ixrac edilməyə başlanmışdır[41].

1930-1931-ci illərdə Şuşada ipəkçilik kominatı, Xocavənddə əyirici fabriki, barama qəbulu məntəqəsi, Ağdərədə gön-dəri sexləri istifadəyə verildi[42].

DQMV-də ümumi sənaye məhsulları içərisində istehsal həcmi 21,8 təşkil edən əsas sənaye sahələrindən biri də, şərab-konyak istehsal edən sənayedir. 1929-cu ildə DQMV-də şərab-spirt istehsal edən müəssisələr Qarabağ Şərabçılıq Trestində birləşdirildi. Burada istehsal olunan məhsullar Gürcüstan, Orta Asiya və Rusiyanın Mərkəzi vilayətlərinə ixrac edilirdi. Birinci beşillik ərzində Qarabağ Şərab Trestinin məhsulları hər il orta hesabla 20-25 faiz artmışdır. 1930-cu DQMV *spirt-şərab zavodlarında 10* növ spirtli içkilər, 4 növ konyak 9 növ quru şərab, 3 növ yeməkxana şərabı *istehsal olunurdu*[43].

Birinci beşillik dövründə DQMV-də inşaat materialları istehsalı xeyli artdı. Xankəndi kombinatının istehsal etdiyi mərmər bloklar Moskva, Kiyev, Leninqrad, Daşkənd şəhərlərində də, istifadə olunurdu. Kombinat həm də mişar daşı, kərpic, üzlük tavalar istehsal edirdi.

Tikintisinə beşilliyin əvvəllərində başlanan Araçazor Dəyirman Daşı Kombinatı 1930-cu ildə istifadəyə verildi. Kombinat çirkli suların duruldulmasında istifadə olunan daş da, buraxırdı. Kombinatın buraxdığı məhsullar İran və Türkiyə bazarlarında çox böyük həvəslə alınırdı. Kombinatın məhsulları hesabına 1928-1932-ci illərdə Vilayətdə 40 dəyirman tikilib istifadəyə verilmişdi. Artıq 1933-cü ildə DQMV-də 259 dəyirman işləyirdi Dəyirmanlarda 280 fəhlə çalışırdı. Dəiyrmanların illik gəliri 508 min manat idi. Bəhs etdiyimiz dövrdə Yevlaxda 1 dəyirman, Tərtərdə 12, Ağcabədidə 10 dəyirman olduğu halda, Ağdərədə 72, Hadrudda 60, Xocavənddə 55, Xankəndində 57, Şuşada 15 dəyirman fəaliyyət göstərirdi[44].



Birinci beşillik dövründə DQMV-də energetika sənayesi də inkişaf etdi. 1930-cu ildə 350 at gücündə olan Xankəndi SES tikilib istifadəyə verildi. 1933-cü ildə DQMV-də gücü 408 klovata çatan 4 elektrik stansiyası fəaliyyət göstərirdi. Bu vaxt Naxçıvan Muxtar Respublikasında gücü 181 kilovata çatana 1 stansiya, Yevlaxda 50 kilovathq 1 stansiya işləyirdi. Birinci beşillik ərzində DQMV-də elektrik enerjisi istehsalı 75 faiz artdı[45]. Bu ümumi respublika göstəricilərindən 11 faiz çox idi.

Beşillik dövründə DQMV-nin 21 kəndində dəmirçi emalatxanaları, dərzi, corab, sabunbişirmə, yəhər, nalbənəd, mebel, ayaqqabı, duluz və başqa artellər, kərpic, əhəng, yağ-pendir, çörəkbişirmə, limonad və digər zavodlar tikilib istifadəyə verildi.

Magistral yol nəqliyyatı da bu dövrdə əhəmiyyətli dərəcədə inkişaf etdi. Azərbaycan dövləti bu məqsədlə 300 min manat pul ayırmış və 20 mütəxəssis göndərmişdi. Nəticədə, Xankəndi-Ağdərə, Qaryagin-Talış-Domı, Xankəndi-Talış, Vetka-Vəng, Tərtər-Marquşavan yolları çəkilmiş, Xankəndi-Ağdərə, Tərtər-Marquşavan, Xankəndi-Talış körpüləri tikilib istifadəyə verilmişdir. Yük dövriyyəsinin həcmi 1928-ci illə müqayisədə 1933-cü ildə 2 dəfə artdı.

1928-1932-ci illərdə DQMV-də ticarət mal dövriyyəsi 5 dəfə artaraq 346 min manatdan 1 milyon 732 min manata çatdı. Adambaşına istehlak 70 faiz çoxaldı. 1933-cü ildə DQMV-də 250 nəfərin işlədiyi 29 ticarət mərkəzi fəaliyyət göstərirdi[46].

Birinci beşillik dövründə sənayenin inkişafı fəhlə sinifinin tərkibinin kəmiyyət artımı və keyfiyyət dəyişikliyinə şərait yaratdı. DQMV-də fəhlələrin sayı 1928-ci illə müqayisədə 2 dəfə artaraq (1106 nəfərdən) 2270 nəfərə çatdı. Aparılan araşdırmalardan məlum olar ki, fəhlə və qulluqçuların milli tərkibində qeyri-aəzrbaycanlılar üstün olmuşdur[47]. Dağlıq Qarabağda inzibati amirlik metodunu tətbiq etməklə, xalqımızın gərgin əməyinin istismarı hesabına birinci beşillik plan yerinə yetirildi. Beşillik plan ipək sənayesində 171,1 faiz, ağac emalı sənayesində 187,5 faiz, spirt-şərab istehsalında 79, 5 faiz, elektrik enerjisi istehsah 70 faiz yerinə yetirilmişdir. Beşillikdə 7 saatlıq iş gününə keçməklə əmək haqqı 2

dəfə artdı. 1928-1933-cü illərdə DQMV büdcəsinin mədaxil və məxaricində böyük irəliləyiş oldu. Belə ki, 1931-ci ildə DQMV-də büdcənin gəliri 2795 min manat, məxaric 3837 min manat ikən, 1933-cü ildə gəlir 4629 min manat məxaric 8495 min manata çatdı. Vəsait qoyuluşunun həcmində də artım müşahidə edilmişdir. Beləki, 1926-cı illə müqayisədə 1933-cü ildə qoyulan vəsaitin həcmi 8 dəfə artmışdı[48].

Beləliklə, birinci beşillikdə DQMV-də sənaye potensialı güclənmiş, fəhlə sinifi və qulluqçuların sayı artmış, yeni sənaye müəssisələri meydana gəlmiş və işsizlik aradan qaldırılmışdır.

Azərbaycanda inzibati amirlik metodunun tətbiqi ilə bütün iqtisadiyyat milliləşdirilirdi. İqtisadiyyatda isə partiya ideologiyası hakim mövqe tuturdu. Bu hal birinci növbədə mərkəzin hazırladığı perespektiv və cari planlarda öz əksini tapırdı. Belə sərt, amiranə tədbirlərdən biri də, ikinci beşillik plan (1933/34-1937/38) oldu. İkinci beşillik planında mərkəz, kapitalist ünsürlərini məhv etməklə yanaşı, Azərbaycanın tükənməz sərvətlərindən tam bəhrələnmək məqsədilə onun sənaye, xammal və enerji mərkəzlərini yaxşılaşdırmaqla Azərbaycan iqtisadiyyatını sürətələ inkişaf etdirməyi qarşıya vəzifə qoydu[49].

1933-cü il dekabrın 21-də AK(b)P MK-nın və XKS-nin birgə keçirdiyi konfransda, DQMV-nin xalq təsərrüfatının ikinci beşillikdə inkişaf planının (1933-1937) tərtib edilməsi üçün direktivlərini təsdiq etdi [686]. İkinci beşilliyin ən çətin və mürəkkəb vəzifələrindən biri, DQMV-də birinci beşillikdə yaradılmış sənaye obyektlərinin genişləndirilməsini davam etdirmək və yeni sənaye müəssisələrini qabaqcıl texnika ilə təchizi işini yerinə yetirməkdən ibarət idi. Beşilliyi müvəffəqiyyətlə yerinə yetirmək üçün bütün zəhmətkeşlərin yaradıcı əməyini səfərbərliyə almaq tələb olunurdu. Bu məqsədlə 1933-cü ildə xüsusi təlimatlandırılmış 165 nəfər təlimatçı DQMV-ə gəldi. İkinci beşillikdə sənayedə və nəqliyyatda yenilikçilər, zərbəçilər hərəkatının başlanması ilə xarakterizə olunmuşdur.

Beşilliyin ilk illərində DQMV-nin sənayesində bəzi çətinliklər üzə çıxdı. Belə ki, müəssisələrdə yüksək ixtisaslı kadrlar çatışmırdı. Sənaye müəssisələrinin texniki təchizatı lazımı səviyyədə deyildi. Əmək intizamına düzgün riayət olunmur və fəhlələrə ikili mövqedən yanaşma halı mövcud idi. Bu səbəblərdən beşilliyin birinci ili kəsrlə (82,5 faiz) yerinə yetirilmişdi.



Yuxarıdakı çatışmamazlıqları aradan qaldırmaq üçün Mərkəz 1934-cü il mayın 14-də xüsusi qərar qəbul etdi. İlk növbədə fəhlələrin əməyini gərginləşdirmək üçün müəssisələr arası «yarış» təşkil edildi[50].

İkinci beşillik dövründə Azərbaycanda sənayenin bərpa və inkişafına 252 milyon manat vəsait ayrılmışdır ki, bunun 32 milyon manatı DQMV-nin sənayesinə sərf edilmişdir[51]. Azərbaycanın digər regionları ilə müqayisədə DQMV sənayesinə ayrılan vəsait dəfələrlə artıq olmuşdur.

İkinci beşillik dövründə ipək emalı sənayesini inkişaf etdirmək üçün 3 milyon manat vəsait ayrıldı. 1934-cü ildə Qarabağ ipək Tresti Qarabağ ipəkəyirmə idarəsi ilə birləşdirildi. Həmin il Xankəndi ipək emalı fabriki işə düşdü. Daşaltı ipək fabriki, Hadrud baramaaçma fabriki 1930-cu illərdə yaradılmış müəssisələrdir. Qarabağ İpək Kombinatında 12 adda məhsul istehsal olunurdu.

1933-1938-ci illərdə DQMV-nin spirt-şərab emalı sənayesi də, öz inkişafında diqqəti cəlb edirdi. 1933-cü ildə Qarabağ Şərab Tresti Sovxozlar Tresti ilə birləşdi, «Qarabağ Şərab və Sovxozlar Tresti» (QŞST) yarandı[52]. Üzümçülüyün inkişafı hesabına 1937-ci ildən DQMV spirt-şərab zavodları yerli xammalla işləməyə başladı. İkinci beşillikdə Əskəranda, Hadrutda, Qırmızı Bazarda, Daşaltıda konyak spirti istehsalı zavodları, habelə Xankəndində şərab-konyak zavodu, Hadrut, Ağdərə və Xocavənddə şərabın ilkin emalı müəssisələri istifadəyə verildi. Zavodlarda istehsal olunan «Qarabağ», «Martuni», «Hadrut», «Gişi» şərabları keçmiş ittifaq məkanında böyük şöhrət qazanmışdır.

İkinci beşillik dövründə DQMV-nin Daşbulaq və Tağlar kəndlərində xalçaçılıq müəssisələri, Ninki kəndində kərpic-kirəmid zavodu, Xankəndində ağac emalı müəssisəsi, Xankəndində sörək zavodu, ət və süd kombinatları, Qırmızı Bazarda ət, meyvə-tərəvəz və süd kombinatları tikilib istifadəyə verilmişdir[53].

İkinci beşillik dövründə DQMV-də elektrikləşmə sahəsində də xeyli nailiyyətlər əldə edilmişdir. 1933-cü ildən Tərtər çayı üzərində (Madagiz kəndi yaxın-

lığında) SES-in inşasına başlandı. Bunun üçün 60 milyon manat vəsait ayrılmışdı. 1933-cü illə müqayisədə 1938-ci ildə DQMV-də elektrik enerjisi hasilatı 2,2 dəfə artdı. Bu dövrdə DQMV-də mövcud elektrik stansiyaları genişləndirilmiş, bir sıra elektrik stansiyaları istifadəyə verilmiş, kəndlərdə elektrikləşmə işləri aparılmışdır[54].

1933-1938-ci illərdə DQMV-nin iqtisadi həyatında mühüm əhəmiyyəti olan nəqliyyatda da əsaslı irəliləyiş baş vermişdi. Təkcə Xankəndində yooların çəkilişinə 100 min manat vəsait xərclənmişdir. Bəhs olunan dövrdə Ağdərə-Tərtər, Şuşa-Şırlan, Xankəndi-Şuşa şosse yolları çəkilib istifadəyə verildi. DQMV-də 5 il ərzində yük daşınması 54 milyon ton, sərnişin daşınması 500 min nəfər olmuşdu[55].

1930-cu illərdə DQMV-də yeni poçt və teleqraf müəssisələri açıldı. Ağdaş-Şuşa teleqraf şəbəkəsi təmir olunaraq yenidən quruldu. 1935-ci ildə Xankəndində hər birinin gücü 150 vatt olan 2 qısadalğalı radioverici aparatı quraşdırılaraq işə düşdü. DQMV-nin kəndlərində poçt, teleqraf, telefon, rabitə şəbəkəsinin təkmilləşməsi və inkişafına böyük diqqət yetirilmişdi. DQMV-də poçt, telefon və rabitənin inkişafı Naxçıvan MSSR və Azərbaycanın digər regionlarından üstün olmuşdur. Təkcə ikinci beşillikdə, Xankəndində rabitənin inkişafına ayrılan vəsaitin həcmi respublikamızda birinci yerdə dayanmışdır.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra mövcud olan bütün kredit müəssisələri yenidən qurularaq sosialist istehsal üsulunun xarakterinə uyğunlaşdırıldı. Xalq təsərrüfatı, ticarət və nəqliyyatın inkişafı üçün Azərbaycan Dövlət Bankı təsis edildi. ÜİK(b)P-nın XV konfransının 15 iyun 1927-ci il tarixli «Kredit şəbəkəsinin quruluş prinsipləri haqqında» qərarının Azərbaycanda həyata keçirilməsəinə uyğun olaraq, 1928-ci ildə Xankəndində Azərbaycan Dövlət Bankının kredit agentliyi yaradıldı. 1935-ci ildə isə Azərbaycan dövlət bankının Xankəndi filialı açıldı[56]. İkinci beşillik dövründə Dağlıq Qarabağda maliyyə və kredit müəssisələrinin təşkilinə başlanmış, onların əhatə dairəsi genişlənmiş, müəssisələr təsərrüfat hesabına keçmiş və büdcənin tərtibi təkmilləşmişdir. Eyni zamanda yeni yaradılan banklar əhalidən alınan vergiləri təkmilləşdirmiş, mədaxil və məxaric əməliyyatlarında mütərəqqi irəliləmələr aparmış, sənaye, nəqliyyat və rabitənin inkişafı, xarici ticarət əlaqələrinin nizama salınmasında mühüm işlər görmüşdür. İkinci beşillik dövründə Dağlıq Qarabağda 22 yeni ticarət mərkəzi açılmışdı. 1933-1938-ci illərdə Dağlıq Qarabağda satış məhsullarının həcmi 5 milyon manata çatmışdır.



1939-cu ildə xalq gəliri 1933-cü illə müqayisədə 85 faiz artdı. 1939-cu ildə Dağlıq Qarabağda dövlət büdcəsi üzrə gəlir 1.404.687 manat məxaric isə 1.422.563 manat olmuşdur[57].

İkinci beşillik dövründə Dağlıq Qarabağda fəhlə və qulluqçuların kəmiyyətcə artması halı müşahidə edilmişdir. Belə ki, əgər 1933-cü ildə Dağlıq Qarabağda fəhlə və qulluqçuların sayı 2270 nəfər idisə, 1938-ci ildə 5406 nəfərə çatmışdır. Fəhlə və qulluqçuların milli tərkibinə gəldikdə isə 1933-cü illə müqayisədə 1938-ci ildə azərbaycanlıların xüsusi çəkisi 28 faiz azalmışdır[58]. Dağlıq Qarabağda sənaye sahəsində çalışan azərbaycanlı fəhlələrin sayının aşağı düşməsinin ən başlıca səbəbi əraziyə məqsədli şəkildə ittifaqın ayrı-ayrı regionlardan ermənilərin köçürülməsi ilə bağlı olmuşdur. Eyni zamanda arуı-ayrı regionlardan Dağlıq Qarabağa köçürülən qeyri-azərbaycanlılar şəhər əhalisi idi. Onlar isə əraziyə köçərkən şəhərdə məskunlaşır və müəssisələrdə işə götürülürdü. Torpağa çox bağlı olan Dağlıq Qarabağ müsəlmanlarının müəssisələrdə işə cəlb edilməsi zəif idi. Kənddə çətin iş olan pambıqçılığın və üzümçülüyün inkişaf etdirilməsi məqsədilə, Dağlıq Qarabağ idarə aparatına rəhbərlik edən şovinist mövqeyi erməni məmurları kənəddə yaşayan azərbaycanlıların şəhərə gəlməsini və müəssisələrdə işə düzəlməsinin qarşısını süni vasitələrlə alırdılar. Bütün bunlarla yanaşı, kənddə yaşayan müsəlmanların özlərinin miqrasiya fəallığı aşağı idi. Onların təhsil səviyyəsi, məişət xüsusiyyətləri məhdud olmaqla yanaşı, çoxuşaqlılıq, erkənkəbinlilik və sair amillər kənddə yaşayan azərbaycanlıların şəhərə axınının qarşısını alırdı. Azərbaycanlı qadınların da ictimai istehsal əməyinə cəlb olunması çox aşağı səviyyədə idi. Ümumi respublika miqyasında 1939-cu ildə fəhlə və qulluqçular arasında azərbaycanlı qadınlar 5 faiz təşkil edirdilər[59].

1938-ci ildə Dağlıq Qarabağda ümumi sənaye məhsullarının həcmi 97.452.600 manata çatmışdır. Bəhs edilən dövrdə Dağlıq Qarabağda ümumi sənaye məhsullarının artım tempi ildən-ilə artaraq 1928-ci ildəkinə nisbətən 1932-ci ildə 136 faiz, 1933-cü ildə 156 faiz, 1934-cü ildə 345 faiz, 1935-ci ildə 278 faiz, 1936-cı ildə 340 faiz, 1938-ci ildə 402 faizə çatmışdır. Zəhmətkeş xalqın səyi nəticəsində ikinci beşilliyin qarşısındakı vəzifələr 4 il 3 ayda yerinə yetirilmişdi[60].

1933-1938-ci illərdə Sovet İttifaqında sənaye məhsullarının illik artımı orta hesabla 17,1 faiz olmuşdursa, Azərbaycanda 20,3 faiz, Dağlıq Qarabağda 18,2 faizə çatmışdır[61]. 1920-1940-cı illər ərzində Dağlıq Qarabağda yeni texnika əsasında onlarca yeni sənaye müəssisəsi tikilmişdir. Ərazidə ipək sənayesi, yağ, pendir sənayesi, tikinti ləvazimatı, meşə emalı, toxuculuq, tikiş, gön-dəri, yeyinti və başqa sənaye müəssisələri yaradılmışdır. Dağlıq Qarabağda 1920-1940-cı illər ərzində sənayenin inkişafı sahəsində nə qədər böyük müvəffəqiyyətlər əldə edildiyini onda görmək olar ki, 1926-1927-ci illərin dəyişməz qiymətləri ilə götürüldükdə, sənaye məhsulunun miqdarı 1923-cü ildən 1940-cı ilədək 9 dəfə çoxalmışdır. Təkcə Dağlıq Qarabağda ipək sap istehsalı 1934-cü ildə 1922-ci illə müqayisədə 33 dəfədən çox artmışdır. Birinci iki beşillik dövründə Dağlıq Qarabağda sənaye müntəzəm surətdə inkişaf edib genişlənmişdir. Təkcə ikinci beşillikdə Qarabağ ipək sənayesinə 5,3 milyon manat vəsait qoyulmuş, üçüncü beşillikdə isə bu məbləğ daha da çoxalmışdı. 1940-cı ildə Dağlıq Qarabağda 120.000 kvadrat metr ipək parça, 98 ton xam ipək, 26 ton burulmuş ipək (sap) istehsal edilmişdir[62].

1920-1940-cı illər ərzində Dağlıq Qarabağda şərab-spirt sənayesi də inikşaf etmişdir. Konyak spirt zavodu, şərab və konyak zavodları, spirtsiz içkilər zavodu, likor zavodu və başqa zavodlar tikilib istifadəyə verilmişdir. Həmin zavodlar əsasında yaradılmış «QŞST» müəssisəsinin gücü ildən-ilə artmışdır. Müəssisənin istehsal etdiyi məhsullar ittifaq miqyasında şöhrət qazanmışdır. Dağlıq Qarabağda 1940-cı ildə 40 min dkletr şərab, 1000 dkletr konyak istehsal edilmişdir[63].



1920-1940-cı illərdə Dağlıq Qarabağda tikinti ləvazimatı sənayesi də genişlənmişdir. Həmin illərdə tikilən kərpic, kirəmit, əhəng və mexaniki təmir zavodları məhsul verməyə başlamışdır. Ağac emalı fabriki işə salınmış, ilk taxta zavodlarından məhsul buraxılmışdır. 1940-cı ildə Dağlıq Qarabağda 1,3 min kubmetr taxta-şalban, 120 ton əhəng, 26 min manatlıq mebel, 172 min ədəd kərpic istehsal edilmişdir[64]. ÜİK(b)P MK-nın yerli xammaldan çoxişlənən malları artırmaq tədbirləri haqqındakı tarixi qərarından sonra, Dağlıq Qarabağda yerli sənaye sürətlə inkişaf etməyə başladı. 40-cı illərin əvvəllərində 1925-ci illə müqayisədə yerli sənayenin ümumi məhsulu 20 dəfə artmışdı. Dağlıq Qarabağda yerli sənayenin inkişafı üçün hər cür şərait var idi. Ərazidə bir sıra mədən yataqlarının aşkar edilməsi yerli sənayenin coşğun inkişafına təkan vermişdir.

Bəhs edilən dövrdə, Dağlıq Qarabağda sənət koperasiyası da genişlənmişdir. Sənət koperasiyası yüz növdə müxtəlif məhsullar istehsal edirdi. İstehsal yerli xammala əsaslanırdı. 1940-cı ildə Dağlıq Qarabağ sənət koperasiyasının məhsulları (araba və kirəmid istehsalına görə) Azərbaycanda birinci yerdə dayanmışdır. Bünövrəsi birinci beşillikdə qoyulan parça və xalça toxuyan, mebel, ayaqqabı, qənnadı malları hazırlayan artellər 1940-cı ildə xeyli məhsul vermişdir[65].

1920-1940-cı illər ərzində Dağlıq Qarabağda xalça, yağ-pendir sənayesi, asvalt-beton istehsalı, çörək zavodu və ət kombinatının məhsulları diqqətə layiqdir. 1940-cı ildə yağ istehsalı 12,8 ton, pendir və brınza 61 ton, ət istehsalı 4 min ton, süd istehsalı 25,8 min ton olmuşdur[66].

1923-cü ildən 1940-cı ilədək Dağlıq Qarabağ ərazisində 42 sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Bəhs edilən dövründə elektrikləşmə sahəsində xeyli işlər görülmüş və elektrik enerjisi istehsalı 1940-cı ildə 1,5 milyon kilovatt saata çatmışdır[67].

1940-cı il yanvarın 29-da tikinti, abadlıq, yol çəkilişi və sair sahələrdəki yüksək göstəricilərə görə Ağdərə rayonu keçici qırmızı bayraqla mükafatlandırıldı.

1940-cı ildə Dağlıq Qarabağda qulluqçuların ümumi əmək haqqı 1926-cı illə müqayisədə 258 faiz, sənayedə 473 faiz, tikintidə 384 faiz, nəqliyyatda 548 faiz, ticarətdə 336 faiz artmışdır[68]. 1937-1940-cı illərdə Dağlıq Qarabağda sənaye, nəqliyyat və əsaslı tikinti sahəsində xeyli müvəffəqiyyətlər əldə edilmişdir. Yeni sənaye müəssisələrini tikən tikinti quraşdırma podratçı təşkilatlar yaradılaraq, tikinti işləri mexanikləşdirildi və müxtəlif ixtisaslı kadrlarla təchiz olundu. Bu, əsaslı tikinti işlərinin ildən-ilə genişləndirilməsinə kömək etdi.

1930-1940-cı illərdə Dağlıq Qarabağ sənayesi texniki cəhətdən yenidən quruldu. Bu isə fəhlələrin maddi-rifah halının yaxşılaşmasına müsbət təsir etdi. Eyni zamanda, bəhs edilən dövrdə Dağlıq Qarabağın sənaye müəssisələrində çalışan fəhlələrin yaşayış şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görülmüşdü. Belə ki, fəhlələrin əmək rejiminin yenidən qurulmasına, iş vaxtı təhlükəsizlik texnikasına əməl edilməsi və sağlamlaşdırma məsələlərinə xüsusi diqqət yetirilirdi. Fasiləsiz işləyən müəssisələr beşgünlük, başqa müəssisələr isə altıgünlük iş həftəsinə keçmişdilər. Dağlıq Qarabağın bütün sənaye müəssisələri 7 saatlıq iş gününə keçdilər. Asudə vaxt əldə edən fəhlələr öz ixtisaslarını artırırdılar

Dağlıq Qarabağ sənayesinin 1920-1940-cı illərdə inkişaf etməsi bir sıra amillərlə bağlı olmuşdur. Belə ki, bəhs edilən dövrdə mərkəzin göstərişi ilə bütün Azərbaycan ərazisinin, o cümlədən Dağlıq Qarabağ ərazisinin təbii sərvətləri daha ətraflı öyrənilmiş və ondan səmərəli istifadə edilməyə başlanmışdır. Həmin dövrdə Moskvanın göndərdiyi nümayəndələr Dağlıq Qarabağ istiqamətində ekspedisiyalar təşkil etmiş və ərazidə bir sıra cəmiyyətlər yaratmışlar. Məqsəd həmin ərazidəki təbii sərvətləri aşkarlayıb özününküləşdirmək idi. Hazır məhsul aparmaq üçün kombinləşdirmə metodu tətbiq edilməyə başlandı. Yəni aşkarlanmış təbii ehtiyatların (sərvətlərin) yaxınlığında sənaye müəssisələri tikilməyə başlandı. Bu isə Dağlıq Qarabağda sənayenin inkişafına təkan verdi. Dağlıq Qarabağ ərazisi müxtəlif və zəngin təbii ehtiyatlara malik olmaqla yanaşı, başqa əlverişlm imkanlara da malik idi. Yaxşı iqlimə, münbit torpağa, münasib suvarma sisteminə malik Dağlıq Qarabağ ərazisində kənd təsərrüfatı sürətlə inkişaf etmiş, bu isə öz növbəsində sənayenin xammala olan tələbatının



ödənilməsinə şərait yaratmışdır. Dağlıq Qarabağda xalq təsərrüfatına qoyulan vəsaitin 66,5 faizi sənayeyə sərf edilmişdir. Sənaye müəssisələrində çalışan fəhlələrin mədəni-məişət şəraitinin yaxşılaşdırılması, onların maddi marağının artırılması, fəhlələr içərisində ciddi əmək intizamının tətbiqi, zay məhsul istehsalına, işdən qalmaq və gecikməyə görə cəza tədbirləri Dağlıq Qarabağda sənayenin inkişafına təkan verdi. SSRİ məkanında vahid iqtisadi planın tətbiqi, texniki avadanlıqlarla, təcrübəli mütəxəssislərlə və ixtisaslı fəhlələrlə Dağlıq Qarabağ sənayenin təmin edilməsi, elektrikləşmə, nəqliyyat, yol tikintisi işlərinin inkişafı, sənayesinin inkişafını sürətləndirdi. Bütün bunlarla yanaşı, müxtəlif regionlardan ermənilərin məqsədli şəkildə Dağlıq Qarabağa köçürülməsi və onların sənaye müəssisələrində işə götürülməsi Dağlıq Qarabağ sənayesinin işçi qüvvəsi ilə tam təmin edilməsinə şərait yaratmış və sənayenin inkişafına səbəb olmuşdur.

Beləliklə, Sovet dövlətinin sənayeləşdirmə siyasətinin Dağlıq Qarabağda həyata keçirilməsi nəticəsində, yeni sənaye sahələrinin əmələ gəlməsi ilə işsizlik problemi aradan götürüldü və istehsal artdı. Rus imperiyası isə iqtisadi təməlini möhkəmləndirmək üçün Azərbaycanı öz xammal bazasına çevirməklə yeraltı və yerüstü sərvətlərimizin talan edilməsini daha da sürətləndirdi. 1920-1940-cı illərdə Dağlıq Qarabağda möhkəm sənaye bazası yaradıldı. Bu prosesin başlıca cəhəti ondan ibarətdir ki, gələcəkdə Dağlıq Qarabağ sənayesinin yerləşdirilməsini daha da yaxşılaşdırmaq üçün möhkəm iqtisadi zəmin yaradılmışdır ki, sonrakı tarixli inkişaf mərhələsində Dağlıq Qarabağda iqtisadiyyatın aparıcı sahəsi olan sənayenin səmərəli yerləşdirilməsi, yeni, daha güclü sənaye ocaqlarının formalaşıb kompleks yüksəlişi üçün sanballı iqtisadi zəmin yaratdı.

## 2. DQMV-də zorakı kollektivləşdirmə və onun sosial-iqtisadi nəticələri

Sovet imperiyasının *iqtisadi təməlini qurmaq* üçün *fərdi kəndli* təsərrüfatlarının kollektiv təsərrüfat halında yenidən qurulması tələb olunurdu. Kənd

təsərrüfatının sosialistcəsinə yenidən qurulması – kollektivləşmə Azərbaycanın 20-30-cu illər tarixinin ən dəhşətli səhifələrindəndir. Bu illər Azərbaycan SSR-in DQMV-nin tarixinə ən ağır, əzablı və dəhşətli dövr kimi daxil olmuşdur. Sovet dövləti bu işə sənaye, nəqliyyat və əsaslı tikinti sahələrində olduğu kimi kənd təsərürüfatı sahəsində də torpağın, kənd təsərrüfatı alətlərinin, qoşqu qüvvələrinin milliləşdirilməsi işindən başladı.

Sovet hakimiyyətinin təşkili və möhkəmləndirilməsi uğrunda mübarizə prosesində iqtisadiyyat sahəsində həyata keçirilən tədbirlər içərisində Azərbaycan İnqilab Komitəsinin torpağın milliləşdirilməsi haqqında 5 may tarixli dekreti mühüm yer tuturdu[69]. 1920-ci ilin may-iyun aylarından Dağlıq Qarabağ bölgəsində mülkədar torpaq mülkiyyəti müsadirə olunmağa başladı. 1920-ci il iyulun 26-da Şuşada birinci kəndli qurultayı, oktyabrın 18-də Xankəndində, noyabrın 4-də Ağdərədə kənd fəallarının toplanışında[70] torpağın və təsərrüfat alətlərinin milliləşdirilməsi məsələsi müzakirə edildi. 1920-ci ilin sonunda Şuşa qəzasında 1720 desyatin, Hadrut, Xocavənd bölgələrində 2800 desyatin torpaq sahələri milliləşdirildi.

Azərbaycan İnqilab Komitəsinin 1920-ci il mayın 15-də verdiyi dekretə əsasən Dağlıq Qarabağın bütün meşə zolaqları, suları dövlət mülkiyyətinə çevrildi. Torpağın, suların və s. milliləşdirilməsi sinfi, milli ziddiyyətlərin kəskinləşməsi şəraitində həyata keçirilirdi. 1920-ci ildə Dağlıq Qarabağın bütün kəndlərində milli zəmində toqquşmalar baş verirdi. Bu toqquşmalar dağıdılmış kənd təsərrüfatını bərbad bir vəziyyətə salınmasına gətirib çıxardı. 1921-ci ildə bütün kənd təsərrüfatı bitkiləri sahəsi 1913-cü ildəkinə nisbətən 38 faiz dənli və paxlalı bitkilər, 32 faiz[71], iribuynuzlu mal-qaranın sayı 1916-cı ildəkinə nisbətən 1921-ci ildə 39 faiz, xırdabaş heyvan isə, 2 dəfədən çox azalmışdır.

Sovet təsərrüfat sisteminin təşkili işinin planlı qaydada aparmaq üçün 1920-ci ilin avqustunda Azərbaycanın SSR Xalq Torpaq Komissarlığının (XTK) nəzdində kolxoz və sovxoz şöbələri yaradıldı. Kolxoz quruculuğu üçün tədbirlər həyata keçirilməsi Dağlıq Qarabağda torpaq şöbələri nəzdində xüsusi kolxozlar



bölməsi təşkil olundu. Sovet təsərrüfatı yaratmaq üçün «əsasnamə» hazırlandı. Sovet təsərrüfat quruculuğu üçün ştat vahidi müəyyən edildi və vəsait ayrıldı.

1920-ci il avqustunda Bakıda Azərbaycan XTK torpaq komitələri sədrlərinin qurultayı keçirildi. Qurultayda bəy, xan, məscid və kilsə torpaq sahələrinin tamamilə müsadirə olunması barədə qərar qəbul edildi[72].

AK (b)P 1921-ci ilin oktyabrında keçirilən II qurultayında da sovet təsərrüfatı quruculuğu məsələlərinə toxunuldu. Qurultay respublikada olan ən iri təsərrüfatlarda sovet təsərrüfatının yaradılmasını irəli sürdü. 1920-ci il iyunun 3-də Xankəndi yaxınlığında olan bağçılıq və bostançılıq sahələri sovxozlara çevrildi. 1920-ci il iyunun 4-də Şuşa qəzasında nümunəvi təsərrüfatlarda sovxoz təşkil etmək üçün tədbirlər görüldü. İyunun sonunda Xankəndində, iyul-avqust aylarında Hadrutda, Əsgəranda sovet təsərrüfatı, sentyabrın 5-də Cavanşir qəzasında Nurbəyova məxsus olan torpağın ən yaxşı hissəsində Daş-Arx maldarlıq sovxozu yaradıldı[73].

YİS-ə keçidlə əlaqədar yranmış kolxoz və sovxozların ömrü çox çəkmədi. 1922-ci il martın 1-də müvəqqəti olaraq bölüşdürülməmiş və ehtiyat fondunda qalmış torpaq sahələrinin müddəti 3 ildən yuxarı olmaq şərti lə müqavilə əsasında, xüsusi şərtlərlə icarəyə verildi. 1922-ci il iyunun 3-də Dağlıq Qarabağda olan bağların bir hissəsi keçmiş sahiblərinə qaytarıldı[74].

Dağlıq Qarabağda sovet təsərrüfatları ilə yanaşı artellər, kommunaların yaradılmasına da cəhdlər olundu. 1920-ci il avqustun 22-də kənd təsərrüfatı artelinin, avqustun 24-də isə kommunaların yaradılması barədə nizamnamə qəbul edildi[75]. Burada artelə və ya kommunaya daxil olanların hüquq və vəzifələri müəyyən olundu. Kollektiv təsərrüfat yaratmaq məqsədi ilə Bakıdan respublikanın ayrı-ayrı qəzalarına xüsusi təlimatçı qruplar göndərildi. 1921-ci ilin aprel ayında Azərbaycan SSR XTK-nın bilavasitə göstərişi ilə Dağlıq Qarabağa 26 nəfər nümayəndə göndərilmişdir. Həmin nümayəndələrin cəmisi 8 nəfəri kənd təsərrüfatı mütəxəsisləri idi[76].

1921-ci il mayın 28-də Azərbaycan SSR XTK-nın kollegiyasında komissarlığın kolxozlar şöbəsi və onun yerli orqanları haqqında «əsasnamə» qəbul olundu.

1921-ci il 17 mart tarixli dekretlə «bütün növ məhsul inhisarının ləğv edilməsi haqqında» verilmiş dekretə əsasən Dağlıq Qarabağın bütün nahiyyələrində ərzaq sapalağı ləğv olundu[77]. Dağlıq Qarabağın şəhər və kəndlərində də «Çanaq» tətbiq edildi. Kənddə artel, kommuna quruculuğu işləri genişləndirildi. Dağlıq Qarabağda ilk artel Şükürbəyli, Lisaqor, Ağdərə, Tağlar, Güney-Qaya, Xocavənd, Çartaz, Tuğ, Həsənabad, Marquşevan, Dəmirli və s. kəndlərində yaradıldı. Aparılan hesablamalara görə 1921-ci ilin yaz əkin kompaniyası zamanı Dağlıq Qarabağda olan 26 min fərdi kəndli təsərrüfatının 2,9 faizi artellərdə birləşdirilmişdi. Bu artellərin 89 xışı, 13 kotanı, 200 baş qoşqu qüvvəsi var idi.

Respublikanın bir çox bölgələrində olduğu kimi Dağlıq Qarabağda da, artellərə, kommunalara, kolxoz və sovxozlara daxil olmaqla öz mülklərini qoruyub saxlamağa cəhd edən, iri torpaq sahibləri, varlı kəndlilər də az olmamışdır. 1921-1926-cı illərdə Vilayətin Çaylı, Aşağı Orataq, Həsənqaya, Xanabad, Banazur, Tağasir, Marquşavan, Zamzur, Tağ və b. kəndlərdə 117 nəfər iri təsərrüfat sahibləri bu cür üsullardan istifadə etməyə cəhd göstərmişlər[78]. 1923-cü ilin yazında respublika XTK-nın, Vilayət partiya və təsərrüfat orqanları ilə apardıqları yoxlama zamanı məlum olmuşdur ki, 50 nəfərdən çox iri torpaq sahibləri artel, kommuna, kolxoz yaratmışdır. Xocavənddə, Ağdərədə, Xankəndində təşkil olunan artel yalnız qolçomaq və onların qohumlarından ibarət idi. Hadrut kəndində «Şəfəq», Banazurda yaradılan «Bolşevik» artelinə ancaq iri torpaq sahibləri cəlb olunmuşlar[79].

Dağlıq Qarabağda 1920-1921-ci illərdə artel, kommuna və sovxozların yaradılması işi qismən sürətlə getmişdir. 1922-ci ilin sonu və 1923-cü ilin payızında bu təsərrüfatların çoxu dağıdıldı. 1925-1926-cı təsərrüfat ilindən başlayaraq artel və sovxozlarm yaradılması işində yenidən canlanma yarandı[80].

Dağlıq Qarabağda kollektiv təsərrüfat formalarının yaradılması şərti olaraq bir neçə mərhələyə bölmək mümkündür. Onun ilk mərhələsi 1921-26-cı illər kimi



qiymətləndirmək olar. Bu vaxt yaradılmış kollektiv təsərrüfatlar içərisindən kommunalar, artellər və ilk sovet təsərrüfatları daha çox yer tuturdu. Bu illərdə respublikada 132 kommuna, 46 kənd təsərrüfatı arteli, 40-a yaxın sovet təsərrüfatları yaradılmışdır[81]. 1921-1926-cı illərdə Dağlıq Qarabağda 6 sovet təsərrüfatı, 16 artel, 7 kommuna var idi. Bunlar 270 təsərrüfatı, 890 desyatin yararlı torpaq sahələrini, 2000 baş mal-qaranı özündə birləşdirirdi. Bu təsərrüfatlar xırda təsərrüfatlar olduğundan uzun müddət fəaliyyət göstərə bilmədi. 1925-1926-cı illərdə Vilayətdə cəmisi bir neçə sovxoz və kolxoz fəaliyyət göstərirdi. 1920-ci illərin ortalarından DQMV-də tədricən kommunalar, xırda artellər ləğv olunmağa başlandı.

1926-cı ildən kolxozların və sovxozların fəaliyyətində qismən canlanma yarandı. Bu illərdə Dağlıq Qarabağın şəhər və kəndlərində ən çox yoldaşlıq cəmiyyətləri inkişaf edirdi ki, bunların sayı 12-yə çatmışdı. 1926-cı ildə Vilayətdə 6 təsərrüfat arteli, 2 bağçılıq fəaliyyət göstərirdi. Ümumi kollektiv təsərrüfatın sayı isə 21 idi[82]. 1926-cı ildə sənaye sahəsində olduğu kimi kənd təsərrüfatı sahəsində də xüsusi canlanma yarandı. 1924-1926-cı illərdə taxıl əkini sahəsi 58 faiz, mal-qaranın ümumi sayı 43 faiz, texniki bitkilərin səpini isə 32 faiz artmışdır[83]. Bu artım, DQMV-nin şəhər və kəndlərində təbəqələşməni gücləndirirdi. Vilayətin təsərrüfat həyatında və əhalinin sosial vəziyyətində yaranan nisbi canlanma, siyasi gərginliyin güclənməsinə səbəb oldu.

Azərbaycan K(b)P-nin VIII qurultayının (noyabr 1927-ci il) «Kənddə iş» haqqında qəbul etdiyi qətnamədə deyilirdi: «Kəndin kollektivləşdirilməsi bizim əməli şüarımız olmalıdır»[84].

ÜİK(b)P-nın XV qurultayının (dekabr 1927-ci il) «kənd təsərrüfatının kollektivləşdirilməsi haqqında» qərarı kolxoz quruculuğunu genişləndirilməsinə yeni bir mərhələ oldu. Bu mərhələdə başlıca diqqət kənddə kapitalist ünsürləri adlandırılan təbəqə üzərinə hücumu genişləndirmək və onları ləğv etmək xəttinin həyata keçirilməsinə yönəldildi. Qurultaydan bir qədər sonra Bakıda kollektiv təsərrüfat nümayəndələrinin ümumrespublika qurultayı (fevral-mart 1928-ci il) çağrıldı. Qurultayda kollektiv təsərrüfatların təsərrüfat sahələrini genişləndir-

mək, yer quruluşu işlərini nizama salmaq, bu məqsədlə kredit ayırmaq haqqında qərar qəbul olundu. Qurultay, eyni zamanda kolxoz quruculuğu işinə bilavasitə rəhbərlik etmək üçün mərkəzi idarə – «kolxozsentr»in yaradılması barədə də göstəriş verdi[85].

Qeyd etmək lazımdır ki, kollektivləşmə bolşevik partiyasının həyata keçirdiyi ikinci iqtisadi islahat idi. Bu islahatın əsl mahiyyəti kənddə çoxukladlılığın ləğvi, xırda kəndli təsərrüfatının ləğv edilməsi zorla kollektivləşmə idi. Kolxozlar 3 formada – kommuna, artel və tozlar formasında yaradılırdı. Kommuna – istehsalın, hətta məişətin, artel – əsasən istehsal vasitələrinin (torpaq, avadanlıq, iş heyvanlarının) ümumiləşdirilməsi, tozlar isə torpağı birgə becərmək növü idi.

XV qurultaydan sonra kollektiv təsərrüfatların genişləndirilməsinə, onların texniki bazalarının gücləndirilməsinə diqqət artırıldı. Kənddə varlı təbəqələrin üzərinə hücum gücləndirildi. Bu məqsədlə qəza partiya komitəsinin işini yoxlanılmasına da diqqət artırıldı. 1928-ci ildə Şuşa, Xankəndi, Ağdərə, Hadrut partiya komitələrinin işi Azərbaycan K(b)P MK tərəfindən yoxlanıldı. Yoxlama zamanı yerlərdə gedən sosial-siyasi proseslərə ciddi diqqət verildi[86].

1928-ci ildə kənddə aparılan vergi siyasəti kəndliləri dilənçi kökünə gətirib çıxarmışdı. 1929-cu ilin əvvəllərində respublikanın 13 qəzasında, o cümlədən DQMV üzrə fərdi kəndli təsərrüfatlarının vahid kənd təsərrüfat vergisinə cəlb olunması məsələsinə baxılan zaman məlum olmuşdur ki, yoxlanılan təsərrüfatların hər birinin üzərinə qoyulacaq vergi nəzərdə tutulduğundan iki dəfə və bəzən hətta üç dəfə artıq alınmışdır. Bu iş DQMV-nin azərbaycanlılar yaşayan kəndlərində daha kobud formada pozulmuşdur. 1928-ci ilin dekabr ayında Şuşanın Daşaltı kəndində, Hadrut bölgəsinin Banazur, Daşbaşı kəndlərində «gəlmə» adı altında kəndlilərin yarıdan çoxu vergidən azad olduğu halda, Malıbəyli, Əsgəran, Qaradağlı kəndlərində əhalinin hamısından nəzərdə tutulan vergi normasından iki dəfə çox vergi toplanmışdır[87]. 1928-ci ilin payızında Vilayətdə 256 nəfər varlı kəndli siyahıya götürülmüş, onların əmlakları əllərindən alınmışdır. Beləliklə, qolçomaqlara qarşı aparılan «sinfi mübarizə» istər şəhərdə və istərsə də kənddə sosial-siyasi vəziyyətə ağır təsir göstərdi.



Azərbaycanın hər yerində olduğu kimi Dağlıq Qarabağda da kollektivləşmə dinə, milli ənənələrə qarşı mübarizə ilə müşayət olunmuşdu. Bu prosesdə DQMV-dəki məscidlər ya dağıdılır, ya da anbara, kluba, kitabxanaya çevrilirdi. Qadınların çadraları əllərindən alınırdı. Milli-dini adət-ənənələrimiz qadağan edilirdi. Bu baxımdan DQMV-i Azərbaycanda birinci yerdə dayanırdı. Çünki DQMV-nin ali hakimiyyət orqanlarında işləyənlərin demək olar ki, hamısı qeyri-azərbaycanlılar idi.

Ölkədə yaranan belə bir vəziyyət kəndlilərin kütləvi çıxışlarına səbəb oldu. 1929-cu ildə təkcə DQMV-də 30-dan çox kəndli çıxışı, II silahlı toqquşma qeydə alınmışdır[88].

1930-cu il yanvarın 11-də «Pravda» qəzetinin «Qolçomaqları bir sinif kimi ləğv etmək günün vacib məsələsidir» adlı baş məqaləsi Azərbaycanın hər yerində olduğu kimi Dağlıq Qarabağda da qolçomaqlara qarşı mübarizə təbliğatı geniş vüsət aldı. Bütün ölkədə olduğu kimi, Dağlıq Qarabağda da qolçomaqlara qarşı mübarizə əsasən üç istiqamətdə, antisovet, antibolşevik, əksinqilabçı bayrağı altında aparılırdı. Bu qəbildən olan adamlar ailə başçısı olarsa güllələnir, ailə üzvləri Sibirə, Orta Asiyaya sürgün edilirdi. Kəndlərin digər şübhəli adamları respublikanın daxilində ayrı-ayrı regionlara köçürülürdülər. Bundan istifadə edən ermənilər Dağlıq Qarabağdan azərbaycanlıların kütləvi köçürülməsini təşkil etmişdilər.

İqtisadi cəhətdən geridə qalmış rayonlarda ən çox əyintilərə yol verildiyinə görə ÜİK(b)P MK-si 1930-cu il fevralın 20-də «İqtisadi cəhətdən geridə qalmış milli rayonlarda kollektivləşmə və qolçomaqlara qarşı mübarizə haqqında» xüsusi qərar qəbul etdi[89]. MK xəbərdarlıq etdi ki, bu rayonlarda əsas diqqət kollektivləşmənin yüksək faizi dalısınca qaçmaq deyil, kütləvi kollektivləşdirmə üçün təşkilati-siyasi və iqtisadi zəmin yaratmağa yönldilməlidir. Sosializmin bütün cəbhə boyu hücumu ilə bərabər kənddə «sinfi düşmən» hesab olunan bacarıqlı təsərrüfatçılara, «kulak» adlandırılan adamlara qarşı mübarizə genişləndirildi. Bu məqsədlə 1929-cu ilin sonu, 1930-cu ilin əvvəllərində respublikanın kəndlərinə və o cümlədən Dağlıq Qarabağa «Mərkəzdən» partiya,

*sovet işçiləri, bacarıqlı fəhlə adı altında xüsusi təlimat keçmiş 200 nəfərdən çox* nümayəndə göndərildi[90]. Bu nümayəndlərin böyük əksəriyyəti milliyyətcə ermənilər idi. Yerli partiya, sovet orqanlarının rəsmi nümayəndələri ilə Vilayətdə «yad ünsürlər» adlandırılan adamlara qarşı mübarizə aparıldı.

Sosializmin bütün cəbhə boyu hücumu düşmən adlanan sinfi qüvvələr tərəfindən kəskin müqavimətlərlə qarşılandı. DQMV-də azərbaycanlılar yaşayan kəndlilərinə qarşı kütləvi represiyalar baş verdi. Vilayətin bütün partiya, dövlət orqanları bir növ erməniləşdirildi. 1930-cu ilin sonu 1931-ci ilin əvvəllərində olan məlumatlara görə Xankəndi, Xocavənd, Ağdərə, Hadrut rayonlarında fəaliyyət göstərən partiya və sovet orqanlarında çalışan adamlar əsasən ermənilərdən ibarət idi[91]. Yerli partiya orqanları Vilayətin bütün əhalisini siyasi sayıqlığa, dövlət idarə orqanlarını bürokratik ünsürlərdən qorumağa qarşı mübarizəyə çağırırdı. Bu çağırış azərbaycanlıların kütləvi şəkildə dövlət və partiya orqanlarından qovulması ilə nəticələndi. Beynəlmiləlçilik bayrağı altında həyata keçirilən bu tədbirlər Vilayətdə qorxulu bir vəziyyətin yaranmasına səbəb oldu.

1930-cu il aprelin 3-də Stalin «Pravda» qəzetində «Kolxozçu yoldaşlara cavab» adlı məqaləsində yazırdı: «Qolçomaq Sovet hakimiyyətinin düşmənidir. Onunla bizim aramızda sülh yoxdur və ola bilməz. Qolçomaqlar barəsində bizim siyasətimiz onları bir sinif kimi ləğv etmək siyasətidir». O, qolçomaqları kənddən qovmağa, cismani məhv etməyə çağırırdı. Belə bir göstəriş nəticəsində DQMV-də 1930-cu illərin əvvəllərində varlı kəndli təsərrüfatlarının 6 min hektar torpaq sahəsi və 2 min baş mal-qarası müsadirə olundu[92]. Buna görə də orta və ya varlı təsərrüfat sahibləri mal-qaralarının müsadirə olunmaması üçün ya kəsir, ya da dəyər-dəyməzinə satırdılar. 1930-cu ilin yanvarında SSRİ MİK və XKS mal-qaralırın kəsilməsinə qarşı mübarizə aparmaq haqqında qərar qəbul etdi.

1930-cu ilin fevralında «Qolçomaq təsərrüfatlarının özbaşına köçməsinin və onlar tərəfindən əmlakın satılmasının qadağan edilməsi haqqında» qərar qəbul edildi[93]. Respublikanın yerli idarə orqanlarına tapşırıldı ki, özbaşına köçən və əmlakını satan qolçomaqların əmlakı dərhal müsadirə edilsin. Beləliklə, hər bir təqiblərə və təzyiqlərə məruz qalan kəndlilərin özbaşına yerdəyişməsi qadağan



olundu. Bu, əslində təhkimçilik hüququnun tətbiq olunması və onun yeni forması demək idi. Digər tərəfdən kənd «fəalları» tərəfindən məcbur edilən kəndlilər onların kəndlərdən qovulmasını və məhkəmə məsuliyyətinə cəlb olunmasını tələb edirdilər. Beləliklə, qolçomaq adı altında kənd varlılarına və hətta ortabablara qarşı mübarizə başlandı. Belə bir mübarizənin gedişində öz fərdi təsərrüfatlarından asanlıqla ayrılmaq istəməyən ortabab, qolçomaq adı altında məhv edilməyə başladı. Kəndli təsərrüfatının kollektivləşdirilməsi ərəfəsində «kulak» təsərrüfatının sayı 2,7 faiz göstərilsə də, ilkin hesablamalara görə həmin təsərrüfatların sayı bundan iki dəfə çox hesaba alınmışdır. Şuşada, Hadrut və Əsgəran ətrafındakı kəndlərdə qolçomaq təsərrüfatı olmadığı bir halda 1930-cu ilin yazında bu bölgələrdə 300 nəfərə qədər iri təsərrüfatçının olması qeydə alınmışdır[94]. 1931-ci ildə DQMV-də qolçomaqların sayı süni şəkildə bir neçə dəfə artıq şəkildə qeydə alındı. Bu qeydə alınan iri təsərrüfatçılarının böyük əksəriyyəti azərbaycanlılar idi.

Azərbaycan K(b)P MK bürosunun 1930-cu il 11 avqust tarixli qərarında varlı təsərrüfatlara qarşı mübarizənin genişləndirilməsi mühüm bir vəzifə kimi qoyulmuşdur[95]. Vilayət, rayon və şəhər partiya komitələrindən tələb olunurdu ki, avqustun 18-dən gec olmayaraq qolçomaq həyətləri üzərində nəzarəti ciddi şəkildə gücləndirib, onların artıq əmlakları müsadirə olunsun[96]. Dövlət taxıl tədarük planını ödəməyən, bu işdən boyun qaçıran, sabotaclıq edən varlı kəndlilərə qarşı bir həftə müddətinə inzibati aktların tətbiq olunmasını, qolçomaq təsərrüfatlarını yenidən qeydə almağı Dövlət Siyasi orqanlarına tapşırdı.

Beləliklə, 1931-ci ilin altı ayı ərzində Azərbaycanda 4642 varlı kəndli təsərrüfatı məhv edilmişdir. Bəhs olunan dövrdə DQMV-də 396 varlı təsərrüfatı dağıdılmışdır[97]. Dağlıq Qarabağda qeydiyyata alınan varlı kəndlilərin böyük əksəriyyəti öz yerlərindən Sibirə, Qazaxıstana «kulak» arxipelaqlarına sürgün edilmiş, bir hissəsi isə məhkəmə məsuliyyətinə cəlb olunmuş, qalanları isə əmlakdan məhrum edilmişlər[98].

Tədqiqatlardan məlum olur ki, Dağlıq Qarabağın şəhər və kəndlərində ət, yun tədarükü inzibati yollarla aparılmışdı. Ət, yun tədarükü aparılarkən çox

hallarda onun varlı və yaxud yoxsul olmaları belə nəzərə alınmırdı. Xocavənd rayonunun Çardaxlı, Hadrut rayonunun Banazur, Zamzur kəndlərində ət tədarükü zamanı kəndlilər bir növ qarət olunmuş, onların mal-qaraları, donuzları belə əllərindən alınmışdır. Bir çox hallarda «xalq düşməni» adı altında kəndlilərin əmlakı hərraca qoyulurdu. Bu cür represiyaya məruz qalmamaq üçün az-çox imkanlı kəndlilər mal-qaralarını tələf edir, öz əmlaklarını bir növ dağıdırdılar. İmkanlı kəndlilərin böyük bir hissəsi özlərini qolçomaq damğasından xilas etmək üçün kolxozlara girir, təsərrüfat işində fəallıq göstərməyə çalışırdılar. ÜİK(b)P MK 14 mart tarixli qərarından sonra 1930-cu il aprelin 14-də «Azərbaycanda kolxoz hərəkatındakı səhvlər və əyintilər haqqında»[99] qəbul olunmuş qərarda Respublikanın bir çox bölgələrində və habelə DQMV-də kollektivləşmənin gedişində yol verilmiş səhvlər, nöqsanlar qeyd olundu. Həmin ilin yayında kütləvi şəkildə kolxozlara girən kəndlilərin çoxu 1930-cu lin sonunda kolxozlardan çıxdılar. AK(b)P MK-nın məlum qərarında göstərilrdi ki, «rəqəmlər arxasınca qaçan bir sıra yerli təşkilatlar qolçomaqlıqdan salmaq işində çox ağır səhvlərə yol vermişlər». Aparılan elmi araşdırmalara görə 1930-cu ildə DQMV-də kəndli təsərrüfatının 10-12 faizi qolçomaq təsərrüfatı hesab olunmuş, onların çoxu seçki hüquqlarından məhrum edilmişdir[100].

1930-cu ilin sonundan başlayaraq DQMV-də kolxoz hərəkatı yenidən canlandı. 1931-ci ilin yaz əkin kompaniyası zaman kollektivləşdirmənin faizi 11,9-dan 16,2-yə çatmışdır. 1932-ci ilin sonunda Dağlıq Qarabağda kəndli təsərrüfatlarının yarıdan çoxu kolxozlara daxil olmuşdur[101]. Kollektivləşmənin faizi artdıqca kəndli əməyinin istismarı da güclənirdi.

Dağlıq Qarabağda kolxoz quruculuğunda yol verilən əyintilər və səhvlər, zorakılıq və inzibatçılıq, qolçomaqlara, varlı və ortabab kəndlərinə qarşı çevrilmiş kobud, qeyri insani tədbirlər kəndlilərin kütləvi narazılığına səbəb olurdu[102]. 1930-cu ilin birinci yarısında sovet rejiminə və kollektivləşməyə dinə milli adət-ənənələrin məhv edilməsinə qarşı kəndli üsyanları və müqavimət hərəkatı başlanmışdır[103]. 1931-ci ildə DQMV-də kollektivləşməyə qarşı bir neçə qaçaq dəstəsi mübarizə aparırdı[104]. Qaçaq dəstələrinin müqaviməti ot və saman



tayalarına od vurmaqla, mal-qara sürülərini aparmaqla, kənd təsərrüfatı maşınlarını xarab etməklə, torpağına sahib duran vəzifəli şəxsi öldürməklə davam edirdi[105]. Sovet hökumət orqanları bu hərəkatı hərbi hissələr vasitəsilə çox amansızlıqla yaratmışdılar. Aparılan hərbi əməliyyatlar zamanı ələ keçirilmiş qaçaq üzvlərinin bir hissəsi güllələnmiş, qalan hissəsi isə cəza düşərgələrinə, Sibirə və Qazaxıstana sürgün edilmişlər[106].

1933-1937-ci illərdə qolçomaqlara qarşı mübarizə «kənddə qolçomaqlara qarşı kolxozlar uğrunda» şüarı altında həyata keçirilməyə başladı. Bu dövrdə partiya, sovet və hüquq mühafizə orqanlarının başlıca hədəfi varlı kəndlilər idi. Vilayətdə kollektivləşmənin faizi artdıqca qolçomaq damğasına məruz qalan kəndlilərin də sayı artırdı. Kənddə partiya və sovet orqanlarmdan tələb edilirdi ki, «bütün cəbhə boyu qolçomaqların üzərinə hücumu gücləndirməli, bütün sahələrdə onların müqavimətini qırmalı».

Zorakılıq yolu ilə yaradılan kolxoz, sovxoz və MTS-lar Vilayətin iqtisadi tələblərinə cavab vermirdi. Bunun nəticəsi olaraq 1933-1934-cü illərdə ölkədə və o cümlədən DQMV-də güclü aclıq baş verdi. Aclığın bilavasitə təsiri ilə Ermənistan SSR-dan təkcə DQMV-nə 450 ailə köçüb gəlmişdir[107]. Dağlıq Qarabağdan isə məqsədyönlü şəkildə Cəbrayıl, Qaryagin, Şamaxı, Gəncəyə çoxlu azərbaycanlı ailələri köçürülmüşdür. Ölkədə baş verən belə bir böhranlı vəziyyətdən çıxmaq üçün bir sıra tədbirlər görüldü. Vilayətdə kolxozlara zor ilə cəlb olunan və bu təsərrüfatda ürəklə çalışmayanlara qarşı kəskin mübarizə aparıldı. Sovxozların və MTS-lərin yanında siyasi şöbələr yaradıldı. Siyasi şöbələrdə işləmək üçün kəndə çoxlu yeni qüvvələr göndərildi. Siyasi şöbələr kolxoz, sovxoz və MTS-nı möhkəmləndirmək üçün tədbirlər gördü. Elliklə kollektivləşmə yarışı nəyin bahasına olursa-olsun davam etdirildi. Dağlıq Qarabağda kollektivlşmə 45 faizdən 65 faizə çatdırıldı[108]. Təkcə 1934-1935-ci təsərrüfat ilində kollektivləşdirmənin faizi 80-ni keçmişdi. Vilayətdə həbslər, sürgünlər adi hala çevrildi. Sosializm yarışı bayrağı altında kütlələr təsərrüfat quruculuğuna cəlb olundu. MTS-lərdə iki il yarım fəaliyyət göstərən siyasi şöbələr 1934-cü il noyabr ayından ləğv olundu.

1934-1935-ci illərdə «yad ünsür» adı altında DQMV-də 166 nəfər kənd sakini məhkəmə məsuliyyətinə cəlb olunmuşdur. Vilayətin Qarakənd, İmarət Qərvənd, Seysulan, Noraguh, Çıldıran kəndlərindən 50 nəfərdən çox kolxozçu kolxozdan xaric edilmişdir. Bu cür tədbirlər fərdi təsərrüfatçıların kollektiv təsərrüfata daxil olması işinin daha da sürətlənməsinə səbəb oldu. 1936-cı ildə DQMV-də 2000 nəfərdən çox fərdi təsərrüfatçı zor ilə kolxozlara daxil olmuşlar[109].

AK(b)P MK-nın 1933-cü il sentyabr plenumunun qərarı ilə 1934-1940-cı illərdə DQMV-də xırda kolxozlar iriləşdirildi. Bəhs edilən illərdə, Vilayətdə kolxozların sayı 214-dən 199-a enmiş, kollektivləşmənin faizi 65-dən 98-ə qalxmışdır.

Bəhs olunan dövrdə, DQMV-nin kəndində əməyə sosialist münasibət «tərbiyə» olunmasında, istehsal intizamının möhkəmləndirilməsində, kolxozlarda əməyin «düzgün» təşkil olunması, texnikadan istifadə vərdişləri aşılaması, kadrların seçilməsi və düzgün yerləşdirilməsində kənd sovetlərinin rolu artdı. 1940-cı ildə Dağlıq Qarabağda 234 kəndi birləşdirən 108 kənd soveti fəaliyyət göstərirdi.

1940-cı ildə olan məlumata görə Vilayətdə 199 traktor, 33 kombayın, 27 yük maşını var idi[110].

Kənddə Sovet imperiyasının mövqelərinin möhkəmləndirilməsində kollektivləşdirmə xətti mühüm rol oynadı. Kəndli kütlələrinin sosial-iqtisadi həyatında baş vermiş hadisələr DQMV-də kapitalist münasibətlərinin yox edilməsi ilə nəticələndi. Kollektivləşmə ölkənin hər yerində olduğu kimi, DQMV-də də əhalinin əsas kütləsinin həyat tərzini imperiyanın prinsipləri əsasında dəyişdirdi. Vilayətin milli, etnik tərkibində xeyli dəyişikliklərə səbəb oldu. Bu sahədə daha güclü sosial baza yaradılması üçün zəmin hazırladı.

Beləliklə, 1920-1930-cu illər ərzində DQMV-də mərkəzin planına uyğun inzibati amirlik və zorakılıq yolu ilə kənd təsərrüfatının kollektivləşməsi başa çatdı. Kolxozlar kənd təsərrüfatı mallarının istehsalçısına çevrildi. 20-30-cu illərdə Mərkəzin maraqları əsasında DQMV-də həyata keçirilən tədbirlər, vilayətin kəndində köklü dəyişikliyə səbəb oldu. Beləki, kapitalist təsərrüfatları



tamamilə ləğv edildi. Mərkəzin «xüsusi» nəzarətilə xüsusi mülkiyyət aradan qaldırıldı və bununlada ticarət zəiflədi. Vəziyyətdən istifadə edərək Dağlıq Qarabağda hakimiyyəti ələ keçirən qeyri-azərbaycanlıların təsərrüfatsızlığı, məsuliyyətsizliyi və «əliaçıqlığı» nəticəsində xalq əmlakı Rusiyaya və Ermənistana daşınır, talan edilirdi. Kollektiv əmək, kəndlinin necə və nə qədər işlədiyini pərdələyir, bu isə əməyə marağı aşağı salırdı. Kənəddə bərabərlik psixalogiyası formalaşdırılır, əslində kəndli aslı olduğu erməni rəhbərliyinin bütün tələblərini yerinə yetirən «rabota» çevrilirdi. Xalq içərisində var-dövlətə nifrət ruhu aşılanır, yoxsulluq təbliğ edilirdi. Əslində yoxsulluğun özü yaradılırdı. Yeni cəmiyyət möhkəmləndikcə erməni rəhbərliyinin vilayətin təsərrüfat, partiya orqanlarına müdaxiləsi artmış və nəzarət etmək imkanı genişlənmişdir. DQMV-də ixtisaslı mütəxəssislərin sayı artmışdır. Respublikamız keçmiş SSRİ-nin «ikinci pambıq bazası»na çevrilmiş, kənd təsərrüfatının inkişafı nəticəsində Rusiya sənayesini canlandıra bilən xammal mənbəyi yaradılmışdır.

Ağır, əzablı və dəhşətli yollarla yaradılan kolxoz quruluşunun sosial-iqtisadi qüsurlarından biri də, o sanki çarizmin ənənəvi təhkimçilik qayda-qanunlarını bərqərar etmişdi. Belə ki, 1950-ci illərin sonunadək pasportu olmayan kolxozçu icarəsiz öz təsərrüfat hüdudlarından kənara gedə bilməzdi, eyni zamanda onun istədiyi təsərrüfata keçmək hüququ da yox idi. Əmək düşərgəsini xatırladan kolxozlar xalqımızın milli-mənəvi dəyərlərinə yad bir qurum olmaqla, dinsizlik simvolu və qadınlarımız üçün əzablı bir əmək düşərgəsi idi. Ümumilikdə isə, kolxoz üzvlərinin maddi-marağını yox edən, insan şəxsiyyətini alçaldan kolxoz quruluşu sosial-iqtisadi və inzibati sistem olmaqla Azərbaycan kəndlisinə yad bir siyasət idi.

## III FƏSİL

### Totalitar rejim şəraitində DQMV-nin mənəvi həyatında kommunist ideologiyası ağalığının təmin edilməsi və mədəni quruculuq (1920-1930-cı illər)

Şimali Azərbaycanda sovet rejimi yarandıqdan sonra Mərkəz, Sovet Azərbaycanında öz mövqeyini möhkəmləndirmək, təbii və tükənməz, yeraltı və yerüstü təbii sərvətlərimizdən, böyk iqtisadi və mənəvi potensialımızdan daha səmərəli istifadə etmək üçün bilikli, savadlı, özünə sadiq kadrlara ehtiyac duyurdu. Buna görə də, Sovet hakimimyyəti 1920-1930-cu illərdə Azərbaycanda təhsilin inkişafına xüsusi qayğı göstərməyə başladı.

1915-ci il məlumatına görə Dağlıq Qarabağ ərazisində 3 min şagirdi, 79 müəllimi olan 49 ibtidai, bir orta məktəb qeydə alınmışdı. Məlum hadisələrlə bağlı bu məktəblər də öz fəaliyyətini dayandırmışdı. Azərbaycan hökumətinin Dağlıq Qarabağda təhsilin inkişafı üçün atdığı ilk addım 1920-ci ilin mayından qəza və dairə maarif şöbələrini, Fövqəladə Komissiyalar yaratması olmuşdur. Həmçinin 1920-ci il maym 12-də «Köhnə orta məktəb tiplərinin politexnik məktəblə əvəz etmək haqqında» dekret verildi. Din dövlətdən, məktəb məsciddən və kilsədən ayrıldı. Bütün məktəb binaları, mədəni-maarif müəssisələri milliləşdirildi. Lakin, bütün bu çətinlikləri aradan qaldırmaq və bölgədə təhsili inkişaf etdirmək məqsədilə 1920-ci ilin oktyabrında N.Nərimanov bir qrup patiya və dövlət xadimləri ilə birgə Şuşaya gəldi. N.Nərimanov Dağlıq Qarabağda Xalq Maarifinin təşkil olunması sahəsində qarşıda duran vəzifələrin həyata keçirilməsi yollarını göstərmişdir. Dağlıq Qarabağda Maarif işini qurmaq üçün Bakı Şəhər Baş Siyasi Maarif İdarəsi S.S.Axundovu həmin bölgəyə ezam etdi, eyni zamanda Azərbaycan Xalq Maarif Komissarlığı xətti ilə Dağlıq Qarabağa 96 nəfər nümayəndə, kitab, dəftər, dərs vəsaitləri, paltar ayaqqabı göndərildi. Bu nümayəndələrin köməyi ilə təşviqatçı qruplar yaradıldı və savadsızlığı ləğv etmək üçün yeni məktəblərin yaradılması işinə başlandı. 1921-1922-ci illərdə təşviqatçı qruplar Dağlıq Qarabağda 22 yığıncaq keçirilmişdir ki, buraya 715 dinləyici cəlb edilmişdir.



Bəhs edilən dövrdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində təhsilin inkişafına maneə olan bir sıra çətinliklər üzə çıxdı. İlk növbədə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları davam edir, günahsız insanların qanı axıdılırdı. Müxtəlif peşə sahibli kadrlara böyük ehtiyac var idi. Məktəb binaları çatışmırdı, vəsait isə yox dərəcəsində idi.

Maraqlı cəhət ondan ibarətdir ki, Dağlıq Qarabağda sakinlər özləri yeni məktəb yaratmaq və savadsızlığı ləğv etməyi qarşılarına məqsəd qoymuşdular. Bu məqsədlə ərizələrlə Bakıya müraciətlər daxil olurdu. 1921-ci ildə məkrəzə daxil olan həmin ərizələrdən birindən oxuyuruq: «Kəndlilər məktəblərin və başqa mədəni müəssisələrin açılmasını səbirlizliklə gözləyirlər. Hər bir kənd məktəblər üçün bina düzəltməyə, partalar hazırlamağa, müəllimləri taxıl və başqa ərzaq məhsulları ilə təmin etməyə hazır olduqlarını bildirirlər[1].

Dağlıq Qarabağda məktəblərin ixtisaslı kadrlara olan ehtiyacını ödəmək üçün 1921-1922-ci illərdə Şuşada pedaqoji məktəb, Hadrudda redaqoji texnikom, Şuşada pedaqoji fəhlə fakültəsi açıldı. 1923-cü ildə Xankəndində sovet-partiya işçiləri hazırlayan xüsusi məktəb fəaliyyətə başladı. Məktəblərin şəbəkəsi xeyli genişləndi. Artıq 1922/1923-cü tədris ilində Dağlıq Qarabağda 6404 şagirdi, 222 müəllimi özündə birləşdirən 104 məktəb fəaliyyət göstərirdi. 1923-cü il iyulun 21-də Dağlıq Qarabağda Karagözovun sədrliyi altında məktəb quruculuğunu genişləndirmək savadsızlıqla mübarizə üçün Xüsusi Komitə yaradıldı. 1923-1925-ci illərdə DQMV-nin bütün kəndlərində savadsızlığı ləğv etmək üçün kurslar təşkil edildi. Azərbaycan hökuməti DQMV-də təhsilin inkişafı üçün 1923-cü ildə 168600 manat vəsait ayırdı. Bu rəqəm Naxçıvan bölgəsinə ayrılan vəsaitdən təxminən 2 dəfə artıq idi. Ayrılan vəsait hesabına DQMV-də 24 yeni məktəb açıldı. Bundan əlavə, 1923-cü ildə DQMV-də 10 savad kursu təşkil olunmuşdur ki, onun 139 nəfər üzvü var idi.

1924-cü ilin aprelində Xankəndində maarif işçilərinin konfransı keçirildi. Konfransda qəbul edilmiş qərarla DQMV-də «Savadsızlığı ləğv etmək mərkəzi» yaradıldı. 1924-cü ildə 80, 1925-ci ildə 116 savadsızlığı ləğv edən məntəqə

yaradılmışdı. Onu da qeyd edək ki, DQMV-də tədris Azərbaycan, erməni və rus dillərində aparılırdı.

1925-ci il mayın 25-də Bakıda ümumazərbaycan müəllimlərin qurultayı oldu. Qurultayda xalq maarifinin inkişaf etdirilməsi sahəsində həyata keçirilmiş tədbirlərə bir növ yekun vuruldu. Qurultayda Dağlıq Qarabağda məktəblərin şəbəkəsinin genişləndirilməsi, onun tədris bazasının yaradılması və getdikcə möhkəmləndirilməsi, ixtisaslı müəllim kadrları ilə təchiz olunması barədə qərar qəbul olundu[2].

Azərbaycan hökuməti DQMV-də xalq maarifinə 1925-ci ildə 264184 manat, 1926-cı ildə 386476 manat, 1927-ci ildə 108675 manat vəsait ayırdı. Bu vəsait Naxçıvan MSSR-na ayrılan vəsaitdən 2,5 dəfə çox demək idi. 1921-1926-cı illər ərzində DQMV-də sahibkarlardan, varlılardan müsadirə edilmiş binalar məktəblərin istifadəsinə verildi. Keçmiş ziyalı kadrlar məktəb quruculuğu işlərinə cəlb edildilər.

Azərbaycan hökuməti tərəfindən DQMV-də ümumtəhsil məktəblərin inkişafına göstərdiyi xüsusi diqqət nəticəsində burada məktəblərin şəbəkəsi genişləndi və təhsil alan şagirdlərin sayı artdı. Beləki, 1923-cü ildən 1928-ci ilə qədər DQMV-də 36 yeni məktəb istifadəyə verilmişdi. Beləliklə, 1927/1928-ci tədris ilində DQMV-də məktəblərin sayı 140-a satdı. 1922/1923-cü illə müqayisədə, bəhs olunan ildə şagirdlərin sayı 2,5 dəfə, müəllimlərin sayı 60 faiz artmışdır. 1927/1928-ci tədris ilində DQMV-nin məktəblərində 15059 şagird, 347 müəllim var idi. Təkcə 1930/1931-ci tədris ilində DQMV-nin Qarakənd, Qışlaq, Çapar, İmarət-Qərvənd, Seysulan, Noraguh, Çıldıran kəndlərində yeni nümunəvi məktəb binaları tikilib istifadəyə verilmişdir. Lakin yuxarıdakı adı çəkilən yeni tikilmiş məktəblərin hamısı erməni icmasının cəmləşdiyi kəndlərdə inşa edilmişdi.

Dağlıq Qarabağda mədəni-maarif, quruculuq işləri çox çətin bir şəraitdə davam etməkdə idi. Ziyalıların, xüsusilə müəllimlərin müəyyən bir hissəsi öz milli baxışlarından, adət və ənənələrindən uzaqlaşa bilmirdilər. Bir çox müəllimlər yeni cəmiyyətin sinfi mahiyyətini, onun gələcəyini kifayət dərəcədə başa düşmürdülər. Bütün bunlarla yanaşı beynəlmiləlçilik şüarı altında Azərbaycan



məktəblərinə, digər tədris ocaqlarına laqeyid münasibətlər müəllimlərin fəaliyyətinə ciddi təsir edirdi. Bütün bunlarla yanaşı Azərbaycanda baş verən inzibati amirlik sistemi, milli zəmindən uzaqlaşa bilməyən, elmin siyasətə çevrilməsinə uyuşmayan müəllimlərə qarşı aparılan axtarışlar, təqiblər, həbslər, sürgünlər respublikanın hər yerində olduğu kimi, Dağlıq Qarabağda da məktəb quruculuğu işlərinə mane olurdu. Bütün bunlarla yanaşı Dağlıq Qarabağda erməni, rus millətçiliyi, yerli idarə orqanlarında çalışan erməni mütəxəssislərinin şovinist siyasətləri, sovet rejiminə «sədaqətlə qulluq edən adamların» böhtançı tədbirləri məktəb quruculuğu işlərinə, mədəni-maarif müəssisələrinin fəaliyyətinə ciddi manеə olurdu. DQMV-nin partiya, sovet orqanlarında, mədəni-maarif müəssisələrində çalışan erməni, rus mütəxəssisləri proletar beynəlmiləlçiliyi şüarı altında azərbaycanlı mütəxəssislərinə qarşı gizli mübarizə aparırdılar. Bu «nəzəriyyə» ayrı-ayrı sovet orqanlarında çalışan bir qrup adamlarda, o cümlədən Dağlıq Qarabağda təhsil işlərinə bilavasitə rəhbərlik edən Ter Karapetov, Zaropyan, Baqdatiyan, Babayan, Arustamova, Baqdasarova və başqaları «Azərbaycan dilində təhsilin gələcəyinin olmadığını» iddiası ilə gördükləri tədbirlər Vilayətdə tədris işlərinə böyük zərbə vururdu[3].

Aparılan araşdırmalar nəticəsində məlum olur ki, DQMV-i ərazisində ayrılan vəsaitin böyük hissəsi erməni icmasının daha çox cəmləşdiyi kəndlərə istiqamətləndirdi. Bu məqsədlə müxtəlif vaxtlarda Xankəndinə ayrılan vəsait Şuşa şəhərinə ayrılan vəsaitdən 2-3 dəfə artıq olması təsdiq edilmişdir. Bütün bunların nəticəsində DQMV-də Azərbaycanlı uşaqlar üçün tikilən məktəblərin sayının aşağı olmasına təsir edirdi. Məsələn, 1928-ci ilin sonlarında DQMV-də 143 məktəb, 487 qrup var idi ki, burada 16332 nəfər təhsil alırdı. Tədqiqatlardan məlum olur ki, həmin məktəblərdən 21-i, qruplardan 61-i azərbaycanlılara aid idi. Təhsil alan uşaqlar arasında azərbaycanlıların sayı 1493 nəfərə çatırdı. DQMV-də azərbaycanlılara qarşı bu cür ögey münasibət sonrakı dövrlərdə də davam etmişdi.

Birinci və ikinci beşilliklər dövründə DQMV-də məktəb tikintisinə xüsusi diqqət yetirilmişdir. 1927/1928-ci tədris ilindən 1940/1941-ci tədris ilinədək

DQMV-də 56 nümunəvi məktəb binası tikilib istifadəyə verilmişdi. 1940/1941-ci tədris ilində Azərbaycanda 654902 şagirdi, 22016 müəllimi birləşdirən 3575 məktəb fəaliyyət göstərirdi ki, bundan 196 məktəb 40766 şagird, 1696 müəllim DQMV-nin, 196 məktəb, 30453 şagird, 1039 müəllim Naxçıvan MSSR-nin payına düşürdü. Maraqlı cəhət ondan ibarətdir ki, aparılan tədqiqatlar nətəicəsində məlum olur ki, DQMV-i əhalinin sayı ilə müqayisədə məktəblərin və müəllimlərin sayına görə Azərbaycanda birinci yerdə dayanmışdır. Məsələn, Ümumrespublika səviyyəsində hər məktəbə 6,1 müəllim düşürdüsə, bu göstərici Naxçıvan MSSR-də 5,3-ə, DQMV-də isə 8,6-ya bərabər idi. Eyni zamanda, Respublikamızda hər müəllimə 29 şagird düşürdüsə, Azərbaycanın DQMV-də hər müəllimə 24 şagird düşürdü. Axırıncı göstərici Naxçıvan MSSR-da ümumrespublika səviyyəsi ilə eyni idi (29 şagird). Bütün bunlar Azərbaycan hökumətinin DQMV-nə göstərdiyi dərin qayğının nəticəsi idi və sözsüz ki, bütün bunlar əhalinin savadlanmasına öz müsbət təsirini göstərirdi.

1935-ci ildə məktəblərin strukturu dəyişdirildi. İbtidai, natamam orta və orta məktəblər açıldı. 1940/1941-ci tədris ilində DQMV-də 45 ibtidai, 116 natamam orta (yeddillik)), 35 orta məktəb fəaliyyət göstərirdi. Naxçıvan MSSR-da isə 87 ibtidai, 74 natamam orta, 35 orta məktəb var idi. Yeddillik məktəblər 1924-cü ildə fəhlələr üçün, 1926-cı ildə isə kəndli-gənclər üçün açılmışdı. 1940/1941-ci ildə Bakı şəhərində cəmi 64 natamam orta (yeddiillik) məktəb var idi. DQMV-də isə həmin məktəblər daha üstünlük qazanırdı. Aparılan hesablamalara görə 1926-cı ildə DQMV-də əhalinin 25 faizi, 1933-cü ildə 51 faizi oxuyub yazmağı bacarırdı. 1939-cu ildə isə 10 yaşdan yuxarı olan hər 1000 nəfərdən 113-nün tam və natamam orta təhsili vardı. 1939-cu ildə aparılan siyahıyaalınmaya görə DQMV-də 9 yaşından 49 yaşınadək olan adamlar arasında savadlıların sayı – 84 faizə çatmışdır. 1940-1941-ci dərs ilində DQMV-də 6 texnikom var idi. Həmin texnikomlarda 818 nəfər tələbə təhsil alırdı. Bütün məktəblərdə rus dilinin tədrisinə xüsusi diqqət yetirilirdi. 1940-cı ildən başlayaraq məktəblərdə xarici dil tədris edilməyə başlandı.



1920-ci ilin aprel çevrilişindən sonra Azərbaycan hökuməti Dağlıq Qarabağda xalq maarifi işini daha da yaxşılaşdırmaq, kütlələrlə aparılan ideya siyasi tərbiyə işinin səviyyəsini yüksəltmək, mədəni-maarif ocaqlarının təşkili və onların şəbəkəsinin genişləndirilməsi kimi çox mühüm vəzifələr müəyyənləşdirdi. Bu işlərin həyata keçirilməsi üçün xalqın şüurunun yüksəldilməsi lazım idi. Bu işdə mədəni-maarif ocaqlarının kitabxanalar, klublar, qiraət komaları, siyasi savad kursları, savadsızlığı və azsavadlılığı ləğv etmək məktəbləri qarşısında vəzifələr qoyuldu. Həmin vəzifələr Azərbaycan KP 24 may 1920-ci il tarixli «Azərbaycan KP rayon komitəsinin mədəni-maarif işi üzrə təlimatı»nda öz əksini tapmışdı.

1920-ci illərdə Dağlıq Qarabağda kitabxana və qiraətxanaların açılması üçün xüsusi diqqət yetirilmişdir. Əgər 1920-ci ildə Dağlıq Qarabağda 2 kitabxana var idisə, artıq 1924-cü ildə burada 4 kitabxana və 5 qiraət koması, 1 qırmızı guşə təşkil edilmişdir[4]. Çətin şəraitə baxmayaraq, Azərbaycan hökuməti DQMV-də kitabxana və qiraətxanaların açılmasına xüsusi diqqət vermiş, artıq 1926-cı ildə ərazidə 13 kitabxana və qiraət koması fəaliyyət göstərirdi. Onların fondunda 9848 ədəbiyyata dair idi ki, bunlardan 1595 nüsxə Azərbaycan dilində, 2053 nüsxə ermənicə, 6200 nüsxə isə rus dilində olmuşdur[5]. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, kitabxanaların rəhbərlərinin hamısı milliyyətcə erməni olduqlarından, onlar Respublika nəşriyyatlarından və Baş Siyasi Maarif idarəsindən erməni dilində ədəbiyyat istəyir, Azərbaycan dilində ədəbiyyata isə etinasız yanaşırdılar.

Azərbaycan hökumətinin gördüyü tədbirlər nəticəsində artıq 1941-ci ilin əvvəllərində vilayətdə 66 müstəqil kitabxana fəaliyyət göstərirdi ki, bu kitabxanaların fondunun ümumi həcmi 540.00 nüsxəyə çatmışdır[6]. Bu zəngin mədəni irsdən isə əhalinin savadlı hissəsinin əksəriyyəti səmərəli istifadə edirdi. Mədəni-maarif müəssisələrinin geniş və etibarlı şəkildə yaradılaraq inkişaf etdirilməsi DQMV-də yaşayanlar üçün böyük əhəmiyyətə malik oldu. Bu, Vilayətdə savadsızlığın ləğvi üçün xeyli iş gördü.

DQMV-də 30-cu illərdə yaradılmış mədəni-maarif müəssisələrindən biri də klublar olmuşdur. 1933-cu ildə Talış, Ksabet, Levanarx, Umudlu kəndlərində klublar fəaliyyət göstərməyə başladı. 1933-cü ilin sonlarında isə Xankəndi rayonunda erməni icması üçün fəaliyyət göstərən 2 yeni klub istifadəyə verildi[7]. 1940-cı ildə DQMV-də klubların sayı artaraq 151-ə çatdı. Bu zaman Naxçıvan MSSR-da 105 klub fəaliyyət göstərirdi. Bəhs olunan dövrdə yaradılmış mədəni-maarif müəssisələri ermənilər tərəfindən əhalinin milli və sosial tərkibi nəzərə alınmaqla təşkil edilirdi.

DQMV-də mədəni-maarif ocaqlarının sayı artdıqca əhalinin kitaba və şəxsi təhsilə olan marağı da artır, savadsızlıq aradan qaldırılırdı. Mədəni-maarif müəssisələrinin genişlənməsi və deməli, həm də xalqımızın savadlılıq dərəcəsinin yüksəldilməsində M.Ə.Müznibin (o, haqsız olaraq, 1938-ci ildə güllələnmişdir) və uzun müddət Şuşa şəhər kitabxanasının müdiri vəzifəsində işləmiş Mirzə Xosrov Axundovun xidmətlərini xüsusilə qeyd etmək lazımdır.

1920-1930-cu illərdə DQMV-də hüquqsuz və avamlıq simvolu hesab olunan çadraya qarşı mübarizə kəskin xarakter aldı. Xüsusilə, Dağlıq Qarabağın *azərbaycanlılardan ibarət olan yaşayış* məskənlərində çadraya qarşı mübarizə böyük kompaniyaya çevrildi.

1929-cu ildə bütövlükdə Vilayətdə 5000 nəfərdən çox qadın öz çadrasını atdığını elan etmişdir. Çadraya qarşı mübarizə ilə yanaşı qadınların ictimai işlərə cəlb olunması üçün də tədbirlər görüldü. 1937-ci ildə Dağlıq Qarabağda 200 nəfərdən çox qadın kənd sovetlərinə rayon, şəhər icraiyyə komitələrinə, komsomol və həmkarlar təşkilatlarına işə cəlb olunmuşlar. Vilayətdə fəaliyyət göstərən 40-dan çox uşaq bağçaları, körpələr evinə gənc qadınlar başçılıq edirdilər. Dağlıq Qarabağda 1915-ci ildə məktəblərdə təhsil alan qızların sayı 196 nəfər idisə, 1937-ci ildə oxuyan qızların sayı 576 nəfərə çatdı. 1940-cı ildə olan məlumata görə Dağlıq Qarabağda fəaliyyət göstərən ziyalıların 14,7 faizini qadınlar təşkil edirdi. Bunların bir hissəsi müəllim, tibb işçisi, partiya və sovet orqanlarında çalışan qadınlardan ibarət idi[8]. Səneyədə çalışan işçilərin 6,3 faizini, toxuculuq müəssisələrində çalışan işçilərin üçdə iki hissəsini qadınlar təşkil edirdi. 1937-ci ildə Dağlıq Qarabağda 86 nəfər tibb işçisi qadın idi.



1930-cu illərdə, uşaq evləri və uşaq bağçalarından ibarət tərbiyə ocaqlarının təşkili və inkişafı sayəsində də xeyli irəliləyiş baş verdi. Beləliklə, 1940-cı ildə DQMV-də 95 tərbiyəçini, 1221 uşağı birləşdirən 24 uşaq bağçası, 1183 uşağa malik 33 körpələr evi fəaliyyət göstərirdi. Bu vaxt Naxçıvan MSSR-da 900 uşaqı birləşdirən 31 uşaq baqçası və körpələr evi var idi.

Siyasi, mədəni-maarif işində qiraət komalarının rolu böyük idi. Birinci beşilliyin əvvəllərində DQMV-də 152 qiraət komaları qeydə alınmışdır. Qiraət komaları Vilayətin ayrı-ayrı şəhər və kəndlərində 500-600 nəfərə xidmət edirdi[9]. 1930-1940-cı illərdə Vilayətdə qiraət komalarının sayı təxminən iki dəfədən çox artmşdır. 1936-cı ildə Vilayətin kolxozlarının 68 faizində qiraət komaları var idi.

Bolşeviklər öz hakimiyyətlərini qoruyub saxlamaq və möhkəmləndirmək üçün birinci növbədə insanların şüurlarını kommunist idealogiyasına uyğun olaraq formalaşdırmağa çalışırdılar. Lakin yüz illər boyu insanların qəlbinə hopmuş dini dəyərlər bölşeviklərin məqsədlərini həyata keçirməsinə maneə olurdu. Ona görə də bolşeviklər «mədəni inqilab» pərdəsi altında dinə qarşı mübarizəyə başladılar. 1920-ci ilin mayında məktəblərdə dini etiqadların təlimi və ayinlərin icrası qadağan edildi. Dövlətin elan etdiyi «vicdan azadlığı» isə kağız üzərində qaldı. 1924-cü ildə din əleyhinə komissiya yaradıldı. 1924-cü ildə DQMV-də «Allahsızlar cəmiyyətinin xüsusi şöbəsi» fəaliyyətə başladı. Cəmiyyətin üzvləri xüsusi təlim keçmiş adamlar idi.

Respublikada fəaliyyət göstərən muzeylərdə «ateizm» bölmələri yaradıldı. Bu bölmələr xüsusi ədəbiyyatla, əyani vasitələrlə təchiz olundu. Dinə qarşı mübarzə mərkəzi, yerli partiya orqanlarının, təhsil ocaqlarının, habelə gənclər təşkilatının əsas vəzifələrindən birinə çevrildi.

DQMV-də kənd təsərrüfatının sosialistcəsinə yenidən qurulması dinə qarşı mübarizə ilə müşahidə olunurdu. 1929-cu il aprelin 9-da Azərbaycan K(b)P MK-nın plenumu kənddə «Allahsızlar cəmiyyəti»nin işini gücləndirmək, dinə qarşı mübarizə, çadranın və papağın atılması ilə bağlı məsələləri müzakirə etdi[10].

Plenumun qəbul etdiyi qərarda göstərilirdi ki, türk kəndlilərinin «Allahsızlar cəmiyyəti»ndə iştirak etməməsi ən böyük nöqsandır, təxirə salınmadan qabaqcıl ictimaiyyətçilərdən, kolxozçu və komsomolçulardan ibarət cəmiyyətin kənddə özəyini yaratmaq lazımdır»[11].

Kənddə yaranan bu cəmiyyətlər sonralar «mübariz allahsızlar ittifaqına çevrildi»[12]. Hər yerdə belə təbliğ olundu ki, din guya sinfi düşmənin son və həm də ən güclü dayağıdır.

1929-cu ilin yazında elliklə kolektivləşdirmə ərəfəsində dinə, milli adət-ənənələrə, milli mərasimlərə və hətta milli musiqiyə qarşı mübarizə geniş xarakter aldı. Qadınlar arasında çadranın atılmasının planı müəyyən olunmuşdur.

Azərbaycan K(b)P MK-nın 1929-cu il aprelin 9-da keçirilən pelnumu kənddə «Allahsızlar cəmiyyəti»nin fəaliyyətinin genişləndirilməsinə səbəb oldu. Həmin ilin may ayının 4-də Xankəndində keçirilən Vilayət partiya komitəsinin iclasında, mayın 20-30-da Şuşada, Xocavənddə, Ağdərədə, Hadrutda keçirilən partiya yığıncaqlarında qəbul olunan qərarlar Vilayətdə dinə qarşı mübarizənin geniş vüsət almasına səbəb oldu. Vilayətin şəhər və kəndlərində partiya və komsomol təşkilatları yanında «xüsusi fəallar qruppu» təşkil edildi. Maarif şöbələri Vilayətin bütün ümumtəhsil məktəblərində ateizm təbliğatını gücləndirmək üçün xüsusi guşələr yaratdı. Eyni tədbir Vilayətin kütləvi kitabxanalarında, qiraət komalarında da yaradıldı. Beləliklə, kənddə sinfi mübarizə dinə qarşı mübarizə ilə birləşdirildi. Məscidlər kluba, kitabxanaya, anbarlara çevrildi. 1929-1931-ci illərə aid olan məlumatlara görə Vilayətdə 24 məscid, dini mərasimlər keçirilən evlər klublara və ya anbarlara çevrilmiş, bir çox dini abidələr, pirlər dağıdılmışdır. Vilayətdə məscidlərin zor ilə bağlanması azərbaycanlı əhalisinin güclü narazılığına səbəb oldu. Şuşada, Xanabadda, Ağdərədə, Daşarxda, Çaylıda məscidlərin bağlanmasına, dindarların təqib olunmasına qarşı güclü etirazlar baş verdi. 1929-cu ildə olan məlumata görə respublikada 400-dən çox məscid bağlanmışdı[13].

Dağlıq Qarabağda aparılan bolşevik təbliğatında dini ayinlər, milli bayramlara qarşı aparılan mübarizə xüsusi yer tuturdu. Xüsusilə Məhərrəmliyə, Oruclu



günlərə, Novruz bayramına qarşı mübarizə geniş xarakter almışdı. Novruz bayramı keçirmək xalqa qadağan olmuşdur. Halbuki, Azərbaycanda Sovet hakimiyyətinin ilk illərində Azərbaycan SSR XKS_nin sədri N.Nərimanovun göstərişi ilə Əmək Komissarlığının, Respublika Həmkarlar şurasının «Kommunist» qəzetinin 21 mart 1921-ci il tarixli sayında çap edilən qərarına əsasən, martın 21-də və 22-də bütün müsəlman fəhlə və qulluqçuları bayram münasibətilə işdən azad edilmişdir. Lakin, sonra Novruz bayramı da «əksinqilab» damğası ilə damğalandı. 1939-cu ildə respublikanın mərkəzi və yerli qəzetləri yazırdılar ki, «Novruz bayramı əksinqilab mahiyyəti daşıyır və ona qarşı geniş mübarizə aparılmalıdır»[14].

1920-1930-cu illərdə sovet hökuməti xalqı öz soy kökündən uzaqlaşdırmaq siyasəti yeridirdi. Bu illərdə «Rədd olsun tar», «Rədd olsun kamança», «Rədd olsun saz» şüarları altında keçirilən «mədəni yürüş» və hücumlar milli-mənəvi dəyərlərimizə qarşı çevrilmişdi.

Bütün bu təzyiqlərə, zorakı tədbirlərə baxmayaraq, əhalinin əksəriyyəti öz dini əqidəsindən, milli adət-ənələrindən dönmədilər. Xalq çox çətin və olduqca mürəkkəb şəraitdə öz milli, dini psixologiyasını qoruyub saxlaya bildi.

Beləliklə, görülən tədbirlər nəticəsində Dağlıq Qarabağda xalqımızın uzun əsrlər ərzində yaratdığı milli mənəvi dəyərlər - ilk növbədə mənəvi həyatda güclü təsirə malik islam dini ardıcıl surətdə sıxışdırılmaqla, minlərcə məscid və başqa müqəddəs ocaqlarımız dağıdıldı. Qədim kitablarımız, musiqi alətlərimiz, əlifbamız fanatizmin mənbəyi kimi damğalanaraq məhv edildi. Xalqımızın milli-mənəvi dəyərlərini öldürmək məqsədilə qədim adətlərimizin – Məhərrəmlik, Orucluq, Qurban bayramı, Novruz bayramı və s. keçirilməsi qadağan edildi. Bütün bu tədbirlər isə Sovet imperiyasının DQMV-də dayaqlarının daha da möhkəmləndirilməsinə ciddi təsir göstərdi. Eyni zamanda bölgədə mədəni-maarif müəssisələrinin yaradılması əhalinin savadlanması, onların ümumtəhsil mədəni səviyyəsinin yüksəldilməsi üçün böyük əhəmiyyətə malik oldu.

Rus imperiyası Azərbaycanın elmi potensialını artırmaqla respublikanın sərvətlərindən daha çox bəhrələnmək və buna münasib ideoloji şərait yaratmaq

üçün səmərəli istifadə etməyə çalışırdı. Bu məqsədlə 1923-cü ildə Azərbaycan Geologiya Komitəsi yarandı ki, həmin ilin noyabrında Xankəndində «Azərbaycanın tədqiqi cəmiyyəti»nin şöbəsi təsis edildi. Mərkəzin ciddi nəzarəti altında Azərbaycanın təbii sərvətlərinin, enerji ehtiyatlarının öyrənilməsi və istifadə olunması üzrə elmi-tədqiqat işləri sürətlə genişlənirdi. 1920-1940-ci illərdə Dağlıq Qarabağda təbii sərvət və ehtiyatların öyrənilməsi məqsədilə 8 istiqamətdə ekspedisiya təşkil edilmişdir. Bu dövrdə Hadrudun Dziyur kəndində İslandiya şpadı, Böyük Tağlarda mis, Arpakənddə pirit, Tsorda qalenit, Domıda qızıl, Banazurda malibdan, Tnaşendə barıt, Mehmanada qurğuşun, sink və mis yataqları aşkar edilmişdir.

1920-ci illərdə Dağlıq Qarabağda taxılçılığın inkişafı üçün yeni sahələr ayrıldı və «Arandəni», «Şirvandəni» sortlarının yetişdirilməsinə başlandı[15]. Əldə edilmiş sortlar yüksək məhsuldarlığına görə Azərbaycanın hər yerində yayıldı. 1925-ci ildən üzümçülüyün qədim diyarı olan Dağlıq Qarabağda üzümün yeni üsulla əkilməsinə başlandı. Əvvəllər böyük ağaclara dırmanan üzümün becərilməsi olduqca çətin idi. 1925-ci ildən alimlərimiz üzümü cərgə üsulu ilə əkməyə[16] və ona cərgə ilə dirəklər basdırmağa başladılar. Bu isə üzümün aqrotexniki qaydada becərilməsini asanlaşdırdı və məhsuldarlığı artırdı.

1926-cı ildə Ağdərədə, ittifaq miqyaslı Botanika İnstitutu açıldı. Həmin institutun yeni bitki sortlarının əldə edilməsində, toxumçuluğun inkişafında mühüm rolu olmuşdur. 1928-ci ildə Şuşanın Xanbağı ərazisində heyvanların müalicəsi və diaqnostikası mərkəzi yaradıldı. Bu işdə professor Firuz Sadıqovun əməyini xüsusi qiymətləndirmək lazımdır. F.Sadıqov yerli şəraitə uyğun yeni sortlar – ətlik, südlük, yunluq, yunluk və ətlik sortları yaratdı. 1928-ci ildə aqronom alim Kuznitsovun başçılığı altında Xankəndində Elmi Tədqiqat Mərkəzi yaradıldı. Mərkəz yeni ağac növlərinin yetişdirilməsi, süni yolla meşəsalma, ağaclara qulluq qaydaları və ən əsası isə demiyə üsulu ilə bitkiçiliyin inkişafı sahəsində böyük müvəffəqiyyətlər əldə etdi. Həmin ildə Ağdərənin Marquşavan kəndində Elmi tədqiqat stansiyası yaradıldı ki, həmin stansiyada yeni bir bitki – qvaula bitkisinin toxumu əldə edildi və yayıldı[17]. Elmi Tədqiqat



Mərkəzi və Elmi Tədqiqat stansiyasının birgə işi nəticəsində Dağlıq Qarabağ ərazisində yeni bir bitki – skosener bitkisinin əhəmiyyəti aşkar edildi. Həmin bitkinin kökündən saqqız düzəldilirdi. Bu bitkidən kauçuk əldə etmək planlaşdırılmışdı. Alimlərimizin birgə səyi və əməyi nəticəsində Dağlıq Qarabağda 1937-ci ildə Evkalpid bitkisinin əkilməsi və yayılması qaydalarının tətbiqinə[18], 1938-ci ildə yeni üsulla, «Dadan üsulu» ilə arıçılığı təkmilləşdirilməsinə başlandı. Bu məqsədlə «Dadan üsulu» ilə düzəldilmiş çərçivələri pətəklərdə arılara necə qulluq etməli» kitabı çap olundu və arıçılıq rayonlarında yayıldı. Həmin il Xankəndi şəhərində Arı Damazlıq Mərkəzi yarandı. Həmin Mərkəz qonşu dağ rayonlarını bal arısı ilə təmin edirdi[19].

1939-cu ildə Dağlıq Qarabağda Süncen İstinad Mərkəzi yaradılmışdı. K.K.Oqaniesovun rəhbərliyik etdiyi həmin mərkəzdə təcrübə məqsədilə günəbaxan, qarğıbalı və sarqo bitkiləri əkildi. Ən yüksək məhsuldarlıq günəbaxan bitkisindən əldə edildi – hər hektardan 316 sentiner. Qarğıdalıda məhsuldarlıq 149 sentiner, sarqoda 192 sentiner oldu. Ona görə də günəbaxan bitkisinin ərazidə daha çox əkilməsinə başlandı[20].

Azərbaycanın qədim yaşayış mərkəzi olmuş Xocalı abidələrinin tədqiqinə alimlərimiz 1920-ci ildən başlamışdılar. Arxeoloq, dilçi Meşanikov Cənubi Qafqazda aparılan arxeoloci qazıntı işlərinə başçılıq etmişdir. 1926-1927-ci illərdə Xocalıda aparılan qazıntı işləri nəticəsində burada e.ə. XIII-VII əsrlərə aid arxeoloji abidə, daş qutu və kurqanlar, müxtəlif tipli saxsı qablar, silahlar, bəzək əşyaları, tunc əmək alətləri, at əsləhləri, Yaxın Şərqlə əlaqələri sübut edən maddi-mədəniyyət əşyaları aşkar edilmişdir[21].

1938-1939-cu illərdə Xankəndi şəhəri yaxınlığında aparılan arxeoloji qazıntı işləri nəticəsində Enolit və Tunc dövrlərinə aid abidə, e.ə. V-III min illəyə aid diametri 4,5 metr olan kurqanaltı dəfn kameraları, daş güzgülər, mis xəncərlər, daş həvəng, oxucları, sümük alətlər, qızıl muncuq və asmalar, müxtəlif geramika nümunələri, heyvan sümükləri və s. aşkar edilmişdir[22]. Sonrakı dövrlərədə tədqiqat işləri davam etdirilmiş və Şuşada, Tuğda, Tağlar kəndində aparılan arxeoloji tədqiqat işləri nəticəsində respublikamızda qədim insanın meydana

çıxması və formalaşması tarixini tədqiq etmək üçün zəngin elmi məlumatlar və maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Görkəmli Azərbaycan alimi Ə.Ələkbərov Xocalı abidələri kompleksini Azərbaycanın başqa abidələrinin öyrənilməsi üçün açar adlandırmışdır.

XX ərin əvvəllərində Qarabağ musiqi məktəbi bütün Şərqdə məşhur idi. Görkəmli musiqişünas V.Vinaqradov yazırdı ki, «Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixi yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də Şərqin başqa ölkələrində təmsil etmişlər. Şuşa, Zaqafqaziyanın Konservatoriyası hesab olunurdu.

1920-1930-cu illərdə elmin inkişafı sahəsində bir sıra çətinliklər mövcud idi. Belə ki, tədqiqatlar aparmaq üçün müasir avadanlıq, hesablama texnikası, cihazlar çatışmırdı. Alimlərimizə xarici ədəbiyyatdan, arxivlərdən istifadə etmək, beynəlxalq aləmə çıxmaq qadağan edilmişdir. Həm də xalqımızın açıq və ya gizli yolla mənəvi və cismani cəzalara məruz qaldığı Dağlıq Qarabağda bütün bu işləri aparmaq olduqca çətin idi.

Bütün yuxarıda göstərilən çətinliklərə baxmayaraq, Dağlıq Qarabağda elm, ədəbiyyat və incəsənət inkişaf edirdi. Ən əsası isə ərazinin bol təbii sərvətləri imperiyanın diqqətini daha çox cəlb edirdi. 1939-cu ildə aparılan tədqiqat işləri əsasən təsərrüfat sahələrini əhatə etmişdir. Belə ki, «Dənli bitkilərin toxumluğu və onun DQMV-nin rayonlarında əkilməsi üsulları», «Meyvə verən 3 növ tut ağacının biokimyəvi xüsusiyyətləri», «Kiçik Qafqaz sıra dağlarındakı yaylaqlar və onlardan səmərəli istifadə edilməsi üsulları», «Spirt çəkildikdən sonra tut törtöküntülərindən mal-qara üçün yem hazırlanması üsulları», «Silos bitkiləri və onların saxlanması üsulları» və s. Dağlıq Qarabağ alimləri tərəfindən araşdırılan əsas mövzular idi. 1910-cu ildə A.S.Ginisburq dəstəsinin Kiçik Qafqazın faydalı qazıntılarını öyrənmək məqsədilə apardıqları tədqiqat işlərini 1912-ci ildə F.Osvald tərəfindən davam etdirilmiş, 1929-cu ildə S.G.Sarkisiyan, M.Əsgərov, A.Rakitin, A.Qavrilov, A.Solovkin və V.Barqanov tərəfindən axıra çatdırılmışdır. Tədqiqatlar nəticəsində Dağlıq Qarabağ ərazisində mis, qızıl və s. yataqlarının olması aşkar edilmişdir. 1931-ci ildə bu işə Q.Taffelhonsun dəstəsi də



qoşulmuşdur[23]. Dağlıq Qarabağın potensial imkanlarını üzə çıxarıb ondan istifadə etməyi qarşısına məqsəd qoyan imperiya, ərazidə elmi-tədqiqat işlərinin aparılmasını sürətləndirir və daha çox mənfəət götürürdü. S.Daidbəyovun ekspedisiyası ilə Dağlıq Qarabağın hidro-energetika ehtiyatlarını öyrənilmiş, çayların axımını nəzərə alınaraq SES-lərin yaradılması imkanları aşkarlanmışdır[24].

Heyvandarlığın inkişaf etdirilməsi üçün təbii yem bazasını, birinci növbədə yay otlaqlarının öyrənilməsi və yabanı çöl bitkilərdən təbabətdə istifadə edilməsi məqsədilə 1931-1940-cı illərdə L.Kreçetovun, İ.Neklepayevin, X.Pobedinanın tədqiqatlarının əhəmiyyəti böyük olmuşdur. Tədqiqatlar nəticəsində Dağlıq Qarabağda zəhərli, zərərli, əhəmiyyətli və dərman bitkiləri aşkar edilmişdir.

Bu dövrdə Həsənli Qaradağinin (1848-1928) Dağlıq Qarabağdakı çoxcəhətli fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Öz ana dili ilə yanaşı, rus, ərəb və fars dillərini də yaxşı bilən Qaradaği çoxlu şerlər, tərcümələr və kitablar məllifidir. Böyük həcmli «Vətən dili» kitabının müəllifi olan Qarabaği M.M.Nəvvabla dostluq edərək, Şuşadakı «Məclisi fəramüşan» yığıncağının fəal iştirakçısı olmuşdur. O, Şuşada müəllimlik edərkən Qarabağın tarixinə maraq göstərmiş və «Qarabağ vilayətnin qədim və cədid keyfiyyət və əvzaları, Pənah xan, İbrahim xan, Mehdiqulu xan əyyami hökumətlərinin əksər vaqeyi hekayətləri» əsərini yazmışdır. Təəssüf ki, əsər məhv edilmiş, ona görə də tam halda bizə çatmamışdır. Ancaq H.Qaradağinin oğlu Məhəmməd Qaradaği 1936-cı ildə atasının əlyazmalarını toplayıb həmin əsərin qısa şərhini oxuculara təqdim etmişdir. H.Qaradaği Dağlıq Qarabağın ədibi, şairi və mətbuat işçisi olmuşdur.

1940-cı ildə Dağlıq Qarabağ Yazıçılar İttifaqı təşkil edildi. 1920-ci ilin noyabr ayında Şuşada, 1923-cü ildə Ağdamda, Qaryagində, 1924-cü ildə Xankəndində həvəskar bəstəkar və səhnə ustaları fəaliyyətə başladı[25]. 1932-ci ildə Bakıda fəaliyyət göstərən erməni teatrının aktyoru K.Alvazyan M.Qorqi adına Xankəndi Dövlət Dram Teatrını (XDDT) təşkil etdi. Həmin teatrın açılışı 1932-ci ilin sentyabrında V.Vaqarşyanın «Mühasirə» ryesi ilə olmuşdur[26]. 1933-cü ildən isə XDDT-na V.Papaziyan rəhbərlik etmişdir. Maraqlı fakt burasındadır

ki, Xankəndində yaranmış olan bu teatrın truppasında bir nəfərdə olsun azərbayjanlı yox idi. İkinci diqqəti cəlb edən maraqlı fakt ondan ibarətdir ki, teatrın repertuarında daha çox erməni dramaturqlarının pyesləri oynanıldı. 1920-1940-cı illərdə XDDT-nın ən yaxşı tamaşaları isə Q.Sundukyanın «Pepo», A.Paronyanın «Baqdasar dayı», Q.Boryanın «Bir dam altında» və başqaları idi[27].

XX yüzilliyin 20-30-cu illərində DQMV-də musiqinin inkişafı üçün bir sıra tədbirlər həyata keçirildi. Beləki, 1923-1924-cü ildə Şuşada musiqi məktəbi fəaliyyətə başladı. 1936-cı ildə xor dərnəyi yaradıldı.

Azərbaycanda milli mədəniyyətin inkişafında kino sənəti də mühüm rol oynamışdır. Kino sənəti vasitəsilə xalqın məişət və düşüncələrinə, həyat tərzinə təsir etmək, yeniləşdirmək, yeni sosialist məişət və mədəniyyəti yaratmaq məqsədi daşımağa başladı. Kino sənəti vasitəsilə milli mənlik şüurunun bütün istehkamlarını – din, şəriət, mövhumat, məscid, kilsə, çadra və sairəyə qarşı qəti hücuma keçmək şəraitindən istifadə olunurdu. 1940-cı ildə Azərbaycanda 426 kino-qurğu var idi ki, bundan 22-si DQMV-nin payına düşürdü.

Beləliklə, Rus imperiyası Dağlıq Qarabağın elmi potensialını artırmaqla, ərazinin bol sərvətlərindən daha çox bəhrələnmək və buna münasib ideoloji şərait yaradılmasına nail oldu. Onlar yeni cəmiyyətin ədalətli, demokratik, xəlqi və qanunauyğun proses olmasına inam yaratmaq məqsədilə elmin müxtəlif sahələrini birtərəfli inkişaf etdirdilər. Etiraz və azadfikirlilik amansızcasına boğularaq, xalqımız müstəqil dövlətçilikdən məhrum edilmiş, iqtisadiyyat, siyasət və ideologiya imperiyanın maraq dairəsinə uyğun qurularaq, ermənilərin əli ilə Dağlıq Qarabağda öz dayaqlarını daha da möhkəmləndirmişdilər.

1928-ci ildə Dağlıq Qarabağın zəhmətkeşləri Vilayətin radio verilişlərinə qulaq asmağa başladılar. 30-cu illərdə Vilayətdə radiolaşdırma işləri əsasən başa çatdırıldı[28]. Sovet rejiminin yarandığı ilk günlərdən başlayaraq kütlələri yeni imperiyanın siyasətə uyğun şəkildə tərbiyə olunmasına xüsusi diqqət verildi.

Xalq təsərrüfatının bərpasına keçid dövründə yenicə yaradılmış imperiyanın təbliğat «maşınları» işə salındı. Bu işdə mərkəzi qəzet və curnallarla birlikdə yerli



mətbuat orqanları geniş fəaliyyətə başladı. Azərbaycanda sinfi mübarizənin hələ də ən qızğın bir dövründə Dağlıq Qarabağda kütləvi qəzetlər təsis olundu. Belə ki, 1921-ci ilin aprel ayında «Qolos Karabax» (Qarabağın səsi) qəzeti, 1923-cü ilin iyun ayının 9-da Şuşada «Karabaxi İxucq» (Qarabağ kəndlisi) nəşrə başladı. Bu qəzet üçünü sayından sonra «Xoridani Karabax» (Şura Qarabağı) adı altında nəşr olundu. Həmin ilin avqust ayının 5-də Xankəndində nəşrə başlanan «Sovetakan Karabax» (Sovet Qarabağı) qəzetinin ilk nömrəsi çapdan çıxdı[29]. 1930-cu ildə Şuşada və Xankəndində yeni mətbəə yaradıldı. Bu mətbəələrin bilavasitə gücü ilə Dağlıq Qarabağda nəşr olunan qəzetlərin sayı və həm də onların tirajı xeyli çoxaldı. Bununla belə qəzetlərin keyfiyyətində də xeyli müvəffəqiyyətlər qazanıldı. 1932-ci ildə Şuşa rayonunda «Şuşa», Xocavənd rayonunda «Aşxoetosnik» («Əmək») qəzetləri, Ağdərədə «Barekamütyun» («Dostluq») 1933-cü ildə Hadrut rayonunda «Koltentesekan» («Kolxozçu») qəzetinin nəşrinə başlandı. 1938-ci ildə «Şuşa» qəzetinin adı dəyişdirilərək «Sosialist maldarlığı» adlandırıldı. Qəzetlərin təkcə sayında deyil, onların tirajlarında da xeyli artım müşahidə edilmişdir. 1937-ci ildə Dağlıq Qarabağda çap edilən 6 qəzet 15,2 min tiracla nəşr olunurdu. 1940-ci ildə qəzetlərin tirajı 18,4 minə çatdırıldı[30].

Sovet imperiyasının milli siyasətini təbliğ edən kütlələr arasında beynəlmiləlçilik bayrağı altında Marksist-Leninçi ideologiyasının təbliğ olunması işində mərkəzi və yerli mətbuat orqanları mühüm rol oynayırdı

Beləliklə, mədəni quruculuq sahəsində görülən tədbirləri yekunlaşdıraraq qeyd etməliyik ki, yenicə yaranmış dövlət, Dağlıq Qarabağda xalqın təhsil və mədəni səviyyəsinin yüksəldilməsində böyük işlər görmüşdür. Həmin irəliləyişlər yerinə yetirilərkən çətinliklərə, səhvlərə, bürokratiya və inzibati amirlik sisteminin bərqərar olmasına baxmayaraq, bütün nailiyyətlər xalqın zəhməti ilə əldə edilmişdir. Diqqəti cəlb edən mühüm məsələ ondan ibarətdir ki, 1920-1941-ci illər ərzində bölgədə yaşayan əhalinin savadsızlığı, əsasən həll edilərək, yeni təhsil sistemi yaradılmış, qadınlarımızın ictimai həyatda rolu artmış, elm, ədəbiyyat və incəsənət inkişaf etmişdir. Bəhs edilən dövrdə DQMV-də ciddi çətinliklər, səhvlər

və əyintilər – milli musiqimizlə bağlı disskusiyalar, çadra, papağın atılması haqda dekretlər, xalqımızın dilinə, dininə, milli adət-ənənəsinə qarşı verilən dekretlər – mədəni inkişafa mənfi təsir göstərsə də inkişafı dayandıra bilmədi. Artıq 1941-ci ilin əvvəllərində vilayətin təhsil, elm və mədəniyyəti öz inkişafının ən yüksək səviyyəsinə çatdı. Ana və uşaqlara qayğı, istirahət ocaqlarının, müalicə profilaktikası müəssisələrinin yaradılması, yüksək doğum, ölüm hallarının aşağı olması və başqa tədbirlər DQMV-də əhalinin çoxalmasına, onun məişət şəraitinin yaxşılaşmasına böyük təsir göstərdi. Dövlətmizin bölgəyə yaxından qayğısı nəticəsində DQMV-nin şəhər və kəndlərinin xarici görkəmi dəyişmiş, elektrik stansiyaları, məktəblər, xəstəxanalar, uşaq bağçaları, müalicə – profilaktika və başqa mədəni-məişət müəssisələri tikilib istifadəyə verilmişdir. 1920-1940-cı illər ərzində represiya və zorakılıqlara əsaslanaraq, zəhmətkeşlərin yaradıcı əməyinin nəticəsi olaraq yeni bir cəmiyyət – totalitar bürokratik rejim yaradıldı.



# IV FƏSİL

## DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİ 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİ DÖVRÜNDƏ

1939-cu ilin sentyabrında dünya tarixinə ən böyük, ən qəddar və dağıdıcı müharibə kimi daxil olan, 67 milyon insanın ölümü ilə nəticələnən İkinci Dünya müharibəsi başlandı. Dünyada ağalıq etmək məqsədini qarşıya qoyan Almaniya 1941-ci il iyunun 22-də qəfil və güclü zərbə ilə SSRİ üzərinə xaincəsinə hücum etdi[1]. Bununla da tariximizə Böyük Vətən Müharibəsi adı ilə daxil olan müharibə başlandı. Almaniyanın SSRİ üzərinə hücumu «İldırımsürətli müharibə» strategiyasına «Barbarossa planı»na əsaslanırdı. Həmin plana görə Almaniya ordusu qısa bir müddətdə Sovet Ordusunu darmadağın etməli, qışa qədər Arxangelsk-Həştərxan xəttinə çıxmalı idi[2].

Hitler Almaniyasının işğalçılıq planında Azərbaycan xüsusi yer tuturdu. Hitlerin «Edelveys» planına görə Bakı 1941-ci il sentyabrın 25-də tutulmalı, Bakı nefti Almaniyanın «Kontinental neft cəmiyyəti»nə verilməli və onların rəhbərliyi ilə emal olunub daşınmalı, satılaraq gəlir Almaniyaya çatdırılmalı idi[3]. Hitler «Mənim mübarizəm» adlı kitabında yazırdı ki, «müsəlman monqoloidlər dağıdıcı qüvvədir, onlar ali irqin (almanlar nəzərdə tutulur. M.N.) qullarına çevrilməlidirlər»[4]. Rozenberqin «Qafqazın idarə olunması» planına görə Azərbaycan istila edildikdən sonra Bakıda idarəedici orqan olan «komissarlıq»

yaratmalı, bütövlükdə dövlətimizin iqamətgahı Tiflisdə yerləşəcək Qafqaz reyxkomissarlığına tabe edilməli idi[5]. Faşist Almaniyasının işğalçılıq planında türkdilli xalqları (Şimali və Cənubi Azərbaycanı, Orta Asiyanı, Qazaxıstanı, Başqırdıstanı, Tatarıstanı, Krımı, Şimali Qafqazı, Qərbi Çin və Əfqanıstan) «Böyük Türkmənistan» dövlətində birləşdirib özünün müstəmləkəsinə çevirmək də var idi. Faşist Almaniyasının diqqətini cəlb edən təkcə ölkəmizin tükənməz və qiymətli yeraltı və yerüstü sərvətləri deyildi. Azərbaycan həm də Şərqlə Qərb rasında əlverişli strateji-coğrafi mövqeyə malik idi və almanlar bu mövqedən məharətlə istifadə etməyi qərarlaşdırmışdılar.

Bəhs etdiyimiz dövrdə Azərbaycanın təbii sərvətləri ABŞ və Böyük Britaniya dövlətlərinin də diqqətini cəlb edirdi. Onlar Qafqazın, xüsusilə Azərbaycanın ələ keçirilməsi üçün məxvi «Vilvet» planı işləyib hazırlamışdılar.

SSRİ rəhbərliyi isə tükənməz sərvətlər diyarı Azərbaycanı hansı hesaba olursa olsun əldə saxlamaq, burada yaşayan azərbaycanlıları zorla Mərkəzi Asiya və Qazaxıstana köçürmək, öz dayaqlarını möhkəmləndirmək üçün rusların və ermənilərin sayını artırmaq kimi gizli və mənfur bir planı var idi.

Almaniyanın dünya ağalığı iddiası ABŞ, Böyük Britaniya və SSRİ dövlətlərinin 1941-ci ilin sentyabrında «Atlantik xartiyası» adlı ittifaq yaratmağa vadar etdi. Bu antifaşist kolisiyası idi və sonralar 50 dövlət həmin ittifaqa daxil olmuşdur[6].

1941-ci il iyunun 30-da İ.V.Stalinin başçılığı ilə ölkədə bütün hakimiyyəti öz əlində cəmləşdirən Dövlət Müdafiə Komitəsi (DMK) yaradıldı[7]. DMK-nın əsas diqqəti silahlı qüvvələrin möhkəmləndirilməsinə və iqtisadiyyatı müharibənin tələbləri əsasında yenidən qurulmasına yönəldilmişdi. Bütün sovet xalqı kimi Azərbaycan xalqı «Hər şey cəbhə üçün, hər şey qələbə üçün» şüarı altında alman faşizminə qarşı müharibəyə qalxdı. Azərbaycanın bütün şəhər, rayon, qəsəbə və kəndləri, o cümlədən DQMV-nin əhalisi son qələbəyə qədər bu müharibədə fəal iştirak etdi.

1941-ci il iyunun 22-də Bakıda olduğu kimi Xankəndində, Şuşada, Ağdərədə qəsbkarlara qarşı izdihamla mitinq və yığıncaqlar keçirildi. DQMV-



nin bütün əhalisi mitinqlərdə çıxış edir, təcavüzkarların iyrənc hərəkətlərini pisləyir və hərbi komissarlığa ərizə ilə müraciət edərək vətənin müdafiəsinə hər vaxt hazır olduqlarını bildirirdilər. Müharibənin ilk günlərində Azərbaycanın şəhər və kəndlərindən 40 min nəfər könüllü olaraq cəbhəyə getmək üçün Respublika Hərbi Komissarlığına müraciət etdi ki, bundan 1917 nəfəri Dağlıq Qarabağın gənc oğlan və qızları idi[8].1941-ci il iyunun 26-da SSRİ Ali Sovetinin Rəyasət heyətinin fərmanı ilə ölkəmizdə iş günü uzadıldı və məzuniyyətlər ləğv edildi. Respublikamızın bütün əhalisi o cümlədən DQMV-nin zəhmətkeşləri ordunun təşkilində, onun maddi bazasının möhkəmlənməsində və silahla təchizində müharibə fondunun yaradılmasında fəal iştirak edirdilər. 1941-ci ildə 15000 tibb işçisi, 750 nəfər rabitəçi, 1500 nəfər sürücü xüsusi hazırlanıb cəbhəyə göndərildi. 1941-1942-ci illərdə respublikamızın xalq təsərrüfatından orduya 6220 yük və minik maşını, 476 traktor, 50 min at səfərlər edilmişdir. DMK-nin 18 sentyabr tarixli qərarına əsasən 16 yaşdan 50 yaşa qədər bütün SSRİ vətəndaşlarının məcburi hərbi təlimi təşkil edildi. 1941-ci il və 1942-ci ilin əvvəllərində Azərbaycan SSR-dən 700.000-dən çox adam ümumi icbari təlim proqramını keçib qurtarmış, 400000 isə keçməkdə davam etmişdir. Təkcə 402-ci atıcı diviziyada 9900 nəfər adam xalq qoşunu sıralarından gəlmişdi.

1941-1942-ci illərdə Respublikada təşkil edilən hərbi birləşmələrə Azərbaycandan 5.000 kommunist və komsomolçu daxil olmuşdur ki, bundan 457 nəfəri DQMV-dən idi[9]. Ümumiyyətlə, 1941-1945-ci illərdə Azərbaycandan orduya 700 minə qədər adam, o cümlədən DQMV-dən 45 min qarabağlı səfərbər olunmuşdu[10]. Beləliklə, müharibə başlanan andan Dağlıq Qarabağda cəbhəyə xidmət, arxada qüvvələri səfərbər etmək sahəsində çoxlu iş görüldü. Xalqımızın fədakarlıq, mətnlik, dözümlülük nümayiş etdirməsini aşağıdakı faktlardan da aydın görmək olar. 1941-1945-ci illərdə Dağlıq Qarabağ əhalisi müdafiə fonduna 42 milyon manat pul köçürmüşdülər.

1941-ci ilin sonları 1942-ci illərdə Azərbaycan xalqı cəbhəyə 1600000 keçə çəkmə, yun əlcək-corab, kurtka və sair, 40 milyon manat dəyərində 350 min fərdi pasılka və 146 vaqon kənd təsərrüfatı məhsulları göndərmişdir. Müharibə

dövründə xalqımız nəinki təqaüd və əmək haqlarını, hətta öz şəxsi zinət əşyalarını belə müdafiə fonduna verirdilər. Təkcə 1941-1942-ci illərdə Azərbaycan əhalisi öz şəxsi əmlaklarından müharibə fonduna 15,5 kq qızıl, 952,5 kq gümüş, 295000 nəğd pul 15 milyon manat istiqraz vərəqi vermişdilər. 1941-1943-cü illərdə isə ziyalılarımız, kolxozçu və fəhlələrimiz müdafiə fonduna 230 milyon manatdan çox pul köçürmüşlər. 1942-1945-ci illərdə Azərbaycan əhalisi 1,6 milyard manat dövlət istiqrazına yazılmışlar.

Müharibə başlanan vaxtdan Azərbaycan ərazisində hərbi xəstəxanalar yaradıldı. Yaralı əsgər və komandirlərə kömək məqsədilə 1942-ci ilin yanvarında Azərbaycan Respublikası Yardım Komitəsi təşkil etdi. Tibb elmlər doktoru, professor Əziz Əliyev Komitəyə sədr təyin olundu. Bu vaxt Azərbaycanda 76 hərbi xəstəxana təşkil edildi ki, bunlardan ikisi Şuşa və Xankəndində fəaliyyət göstərirdi[11].

Azərbaycan SSR Səhiyyə Komissarlığının baş cərrahı M.A.Topçubaşov cərrahiyyə elminə bir çox yeniliklər gətirdi. Donorluq respublikamızda geniş yayılmışdı. Təkcə 1941-1943-cü illərdə respublikamızda 20 min donor 28000 litr qan vermişdilər.

Müharibənin birinci dövründə Azərbaycanın kənd təsərrüfatı zəhmətkeşləri ölkəni və cəbhəni kənd təsərrüfatı məhsulları ilə təmin etmək üçün fədəkarlıq göstərdilər. 1941-ci ildə kənd təsərrüfatına aid bütün planlar yerinə yetirildi. Təkcə 1941-ci ildə 138,3 min ton pambıq toplanmışdı. Lakin 1942-ci ilin ortalarından kolxoz, sovxoz və MTS-lərdə ağır vəziyyət yarandı. Bu çətinlik hər şeydən öncə maşın və traktorların, atların müharibəyə səfərbər edilməsi, mexanizatorların öz ərizələri ilə müharibəyə getməsi ilə bağlı olmuşdur.

SSRİ üzərinə xaincəsinə basqın edən Hitler kolxoz quruluşunun zəifliyinə, kəndlilərin narazılığına bel bağlasada, mövcud iqtisadi, siyasi sistem kənd əhalisinin səfərbər olmasına şərait yaratdı. Kəndin işlək əhalisinin 3-dən 2-sinin müharibəyə səfərbər edilməsinə baxmayaraq yeniyetmələr və qadınlar kənd təsərrüfatı işlərinə cəlb olunur və məhsul istehsalını artırmağa çalışırdılar.



Dağlıq Qarabağın kənd təsərrüfatının mühüm sahələrindən biri olan heyvandarlığın inkişafına daha çox diqqət yetirilirdi. 1942-ci ilin ortalarında Vilayət rəhbərliyi Xocavənd, Şuşa və Ağdərənin kolxoz və sovxozlarında işləmək üçün 1768 komsomolçu göndərdi. 1943-cü ildə Vilayətdə əkin sahələri 15 min hektar artırılmış, məhsul toplanışı 1942 ildəkindən 20 gün tez qurtarmışdır. 1943-cü ilin sonunda DQMV-nin əməkçiləri dövlətə 90 min ton taxıl vermişdilər[12]. Dağlıq Qarabağ zəhmətkeşləri 1943-cü ildə pambıq planını 73,6 faiz yerinə yetirməyə nail oldular.

Müharibədə tütünə daha çox ehtiyac olduğundan 1942-ci ildən Dağlıq Qarabağın kolxozlarında tütün əkilməyə başlanmışdır. İlk vaxtlar 25 hektar sahədə tütün əkən əhali sonrakı illərdə əkin sahələrini daha da artıraraq 80 hektara çatdırmış və dövlətə tütün satışı plam yerinə yetirmişdir.

DQMV-nin komsomolçu gəncləri müharibə dövründə kənddə tükənməz yaradıcı qüvvə kimi çıxış edirdilər. Belə ki, təkcə 1943-cü ildə DQMV-nin 20 min gənci iməciliklərdə fəal iştirak etmiş, 42 su arxı təmizləmiş, tarlaya 9088 ton kübrə daşımış, 29 hektar üzüm bağı becərmişdi. Komsomolçular qazandıqları 2000 əmək gününü və 63325 manat pulu müdafiə fondu hesabına keçirmişdilər. 1943-cü ilin fevralında komsomolçu gənclərin texniki hissələr və alət toplanışı həftəsində 1675 mühüm kənd təsərrüfatı maşın hissələri, 39 kombayn və taxıldöyən maşın təmir edilmişdir[13].

Azərbaycanın hər yerində hərbi xəstəxanalara hamilik işi gündən-günə genişlənirdi. Dağlıq Qarabağ əhalisi suxarını, quru meyvəni, doşabı, spirti, tənbəkini, ət və süd məhsullarım qablaşdırıb hərbi xəstəxanalara göndərirdilər. 1943-cü il avqustun 11-də təkcə Hadrut rayonunun bir kolxozunda «Vətən müdafiəçilərinin hamilik günü» keçirib, həmin gün qazanılmış 500 əmək gününün pul dəyərini, 1500 kq taxıl və digər kənd təsərrüfat məhsullarını toplayıb Respublikanın hərbi xəstəxanalarına hədiyyə göndərmişdilər[14].

1944-cü ildə işğaldan azad edilmiş Rusiya ərazilərinə hamilik köməyi daha geniş xarakter aldı. DQMV Qaraçay Muxtar Vilayətini hamiliyə götürmüş və bəhs etdiyimiz dövrdə Dağlıq Qarabağ əhalisi qaraçaylılara 52 ton buğda, 8 ton

arpa, 1600 kq çovdar, 3200 kq noxud, 16 qaramal, 43 davar, 435 min manat nəğd pul göndərmişdilər[15]. Hadrud rayonu isə Oryol vilayətinə 40.000 manat nəğd pul, 500 əmək günü dəyərində müxtəlif məhsullarla kömək etmişdilər. DQMV-nin gəncləri hamilik etdikləri rayonlara 43300 manat nəğd pul və 2007 əməkgününə düşən məhsul göndərmişlər[16].

1941-1943-cü illərdə Azərbaycanın hər yerində olduğu kimi DQMV-nin vətəndaşları öz şəxsi qənaətləri hesabına tank dəstələri yaratmaq hərəkatına qoşulmuşlar. Ümumi Azərbaycan üzrə bu göstərici 230 milyon manat idisə, bunun 11 milyonu Dağlıq Qarabağ zəhmətkeşləri tərəfindən göndərilmişdir[17].

1942-1943-cü illərdə Azərbaycanda əlillərin və əsgər ailələrinin işlə təmin olunması hərəkatı genişləndi. 1942-ci ildə Şuşa şəhərində 2 əlillər evi fəaliyyətə başladı. Orada 100-dən artıq əlil işləyirdi. Ümumi Azərbaycan üzrə bu göstərici 3295 nəfərə çatırdı. 1943-cü ildə DQMV-də əsgər ailəsi olan 6 nəfər qadın Kənd Soveti sədri, 22 nəfər Kənd Soveti katibi, 10 nəfər kolxoz hesabdarı, 132 nəfər kolxoz briqadiri, 34 nəfər ferma müdiri işləyirdi. 1941-1944-cü illərdə Azərbaycanda 91 min nəfər cəbhəçi ailəsi işlə təmin olunmuşlar[18].

Əsgər ailələrinə ümumxalq qayğısında komsomolçu gənclər yaxından iştirak edirdilər. 1943-cü ildə DQMV-nin komsomolçuları 201 əsgər ailəsinin evini təmir etmiş, onların mal-qarasına 27 ton yem tədarük etmiş, 115 $m^3$ odun daşımış, döyüşçü ailələrinin uşaqlarına geyim, ayaqqabı və sair vermişlər[19].

Müharibə dövründə Bakı neftinin qələbənin əldə edilməsində rolu misilsiz olmuşdur. 1941-1945-ci illərdə SSRİ neft sənayesi 110 milyon ton neft hasil etmişdir ki, bunun 75 milyon tonu Azərbaycanın payına düşürdü. Başqa sözlə desək müharibədə ordunun döyüş texnikasının 75-80 faizi Azərbaycan neftçilərinin qəhrəman əməyi nəticəsində hərəkətə gətirilmişdir.

Müharibə başlayan ilk gündən Dağlıq Qarabağda fəaliyyət göstərən 24 müəssisə cəbhə üçün işləyirdi. Müəssisələrdə dəzgah arxasında gənclər, qızlar və qadınlar dayanırdı. Müharibə dövründə Vilayətin ən böyük müəssəsi olan Qarabağ İpək Kombinatının kollektivi xüsusilə fərqlənirdi. Ağır illərdə onlar ehtiyacı olan ailələrə 421 min kubmetr odun daşımış və 473 ton metal toplayıb



Stavropol vilayətinə göndərmişlər. Sənayedə əhəmiyyətli müvəffəqiyyətlər qazanılmışdı. Belə ki, 1944-cü ildə 1940-cı ilə nisbətən sənayenin ümumi məhsulu 9 faiz artmışdı. Əkin sahələri xeyli genişlənmiş, davarların sayı 31,2 faiz, qaramalın sayı 11,5 faiz artmışdı. Dağlıq Qarabağ zəhmətkeşləri müdafiə fonduna 11.497.000 manat köçürülmüşdür. 1944-cü ildə DQMV-nin Xocavənd rayonu, heyvandarlığı inkişaf etdirmək planını – qaramal üzrə 114,9 faiz, qoyun və keçilər üzrə 113,2 faiz, atlar üzrə 106,7 faiz yerinə yetirilmiş və yarış qalibi hesab edilərək DMK-nın Keçici Qırmızı Bayrağını və pul mükafatını almışdır[20].

Azərbaycan dəmir yolu cəbhəni yanacaq, döyüş ləvazimatı və ərzaqla təchiz edən xətlərdən idi. Müharibə illərində yeni dəmir yol xətləri çəkilib istifadəyə verilmişdir ki, belə xətlərdən biridə Yevlaxla Xankəndini birləşdirirdi. 1941-1945-ci illərdə Azərbaycan dəmiryolçuları cəbhəyə 1 milyon 600 min vaqon xalq təsərrüfatı məhsulları göndərmişlər.

1941-1945-ci illərdə DQMV-də yeni çınqıl yollar çəkilmiş, körpülər inşa edilmişdir. Bölgənin avtomobil nəqliyyatı işçiləri cəbhənin ehtiyaclarının təmin olunmasında fəal iştirak etmişdilər.

Bəhs etdiyimiz illərdə Resublikamızın hər yerində, o cümlədən DQMV-də rabitə vasitələri də təşkilatları elə ilk günlərdən işlərini müharibənin tələblərinə uyğun qurub cəbhə ilə arxanın fasiləsiz, möhkəm və etibarlı əlaqəsini təmin etməyə çalışmışlar. 1941-1945-ci illərdə Azərbaycanda 600-ə qədər rabitə müəssisəsi fəaliyyət göstərirdi ki, bunun 10-u DQMV-nin payına düşürdü. Müharibə illərində DQMV-nin bütün rayonlarının Bakı şəhəri ilə telefon rabitəsi fəaliyyət göstərirdi. DQMV-də radio rabitəsinin keyfiyyətli verilişlərlə fasiləsiz fəaliyyətinə xüsusi diqqət yetirilirdi. DQMV-də 2 radio qovşağı fəaliyyət göstərirdi. Şuşa və Xankəndində fəaliyyət göstərən hərbi xəstəxanaların radio nöqtələri Moskva, Ufa, Aşqabad, Tbilisi şəhərləri ilə yeni radio rabitə əlaqələri yaradılmışdı.

Ümumiyyətlə, 1941-1945-ci illərdə DQMV-də xalq təsərrüfatının bütün sahələri və sosial-ictimai həyat hərbin tələblərinə uyğun yenidən qurulmuş, əmək

və istehsalat intizamı güclənmişdi. Dağlıq Qarabağ əhalisi ön və arxa cəbhənin strateji mallarla təmin olunmasında öz layiqli köməyini göstərmişdir.

Azərbaycan ziyalıları müharibənin ilk günlərindən bütün səy və yaradıcılıq fəaliyyətlərini qəsbkar faşist Almaniyasına qarşı, mübarizəyə, azadlığın, sivil cəmiyyətin qorunmasına yönəltdilər. İctimai və humanitar sahədə çalışan alimlərimiz xalqın qəhrəmanlıq tarixindən, döyüş ənənələrindən bəhs edən əsərlər yaratdılar. Yazıçılar, şairlər, bəstəkarlar, rəssamlar öz əsərləri vasitəsilə insanlarda vətənə məhəbbət, düşmənə nifrət hissi aşılayır, faşist işğalçıları üzərində qələbəyə inam yaradırdılar. Böyük Vətən müharibəsində cəbhəyə və ölkə iqtisadiyyatına xidmət və qayğı göstərməklə Azərbaycan xalqı, öncə onun ziyalıları Sovet Ordusunun alman-faşizmi üzərində qələbəsinə mühüm töhfə vermişlər.

Böyük Vətən müharibəsində arxa cəbhədə olduğu kimi ön cəbhədə də xalqımızın mərd oğul və qızları böyük qəhrəmanlıqlar göstərmişdir. Müharibədə Sovet ittifaqı xalqları 27 milyon nəfərdən artıq şəhid vermişdi. Azərbaycan SSR-dən cəbhəyə getmiş 700000 nəfərə qədər döyüşçüdən 300000 nəfəri həlak olmuşdu. Böyük Vətən müharibəsi cəbhələrində H.Aslanov, S.Qəniyev, M.Əbilov, H.Hüseynov, A.Abdullayev, Y.Abdullayev, A.Abasov, Q.Zeynalov, T.Əliyarbəyov, A.Vəzirov, A.Qazızadə, B.Mehdiyev, D.Nəcəfov, N.Kərimov və başqa sərkərdə və komandirlərimiz ölkəni faşizm bəlasından qurtarmaq üçün böyük hərbi təşkilatçılıq qabiliyyəti və əsgəri rəşadət göstərdilər. Xalqımızın mərd oğullarından 121 nəfəri döyüşlərdəki rəşadətinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. 30 nəfər azərbaycanlı döyüşçü Şöhrət Orderinin hər üç dərəcəsi ilə, 176 min nəfər isə müxtəlif orden və medallarla təltif edildilər. Partizanlarımızda müqavimət hərəkatında fəal iştirak edərək mərdlik və şücaət göstərmiş, düşməndən amansız intiqam almışdılar.

Böyük Vətən müharibəsi dövründə Dağlıq Qarabağdan 45 min nəfər oğlan və qız cəbhəyə getmiş, Vətənə hədsiz sədaqət, mərdlik, fədakarlıq və igidlik nümayiş etdirmişdilər. 22 min nəfər Dağlıq Qarabağ sakini vətənin azadlıq və istiqlaliyyəti uğrunda döyüşlərdə qəhrəmanlıqla canını qurban vermişdi. Onlar Sovet Ordu hissələrində, partizan dəstələrində, müqavimət hərəkatı sıralarında hitlerçilərə qarşı vuruşmuşlar. Dağlıq Qarabağda anadan olmuş 15 min döyüşçü döyüş orden və medalları ilə təltif edilmiş, 18 nəfəri Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüşlər[21]. Onlardan bir neçəsinin döyüş yolunu xatırlatmaq yerinə düşərdi: Smolensk meşələrində fəaliyyət göstərən Partizan dəstəsində «Partizan Aliyə» adı ilə tanınan Aliyə Fətulla qızı Rüstəmbəyova Qarabağın tacı Şuşada dünyaya göz açmışdır (1907-ci ildə). Tibb İnstitutunu bitirən Aliyə Böyük Vətən müharibəsinin elə ilk günündən öz ərizəsi ilə alman faşizminə qarşı müharibəyə getdi. Müharibənin ilk günlərində böyük bacarığa malik olması aşkar edilmiş və qeyrətli azərbaycanlı qızı Tibb-sanitariya batalyonuna rəis təyin edilmişdir. Dərin zəkaya malik cərrah Aliyə minlərlə insanı ölümün pəncəsindən xilas etmişdir. 1941-ci ilin əvvəllərində yaralanaraq əsir düşən Aliyə, 1942-ci ilin əvvəllərində əsirlikdən qaçmış və Smolenskdə partizanlara qoşulmuşdur. Cəmi 35 bahar yaşayan həssas, nikbin, qeyrətli Vətən övladı 1942-ci ildə qəhrəmancasına həlak olmuşdur[22]. Təlim, tərbiyə və təhsilini Şuşada alan və ölümündən sonra «Böyük Vətən Müharibəsi Qəhrəmanı» adına layiq görülən «Partizan Aliyə» ilə bütün Azərbaycan xalqı fəxr edə bilər.

Sovet İttifaqının donanma admiralı İ.S.İsakov Böyük Vətən müharibəsi illərində qoşunlara bacarıqlı rəhbərlik etdiyinə, igidlik və qəhrəmanlıq göstərdiyinə görə Sovet İttifaqı Qəhrəmanı adı almış, 6 Lenin ordeni, 3 Qırmızı Bayraq Ordeni, 2 dəfə birinci dərəcəli Uşakov ordeni, birinci dərəcəli Vətən Müharibəsi və Qırmızı Ulduz ordenləri ilə, bir çox medallarla, habelə bir sıra xarici dövlətlərin ordenləri ilə təltif olunmuşdur[23].

Rostov şəhərinin xatirə lövhəsində bir igid şuşalının da adı həkk olub: «Qaraşov Aslan Məmməd oğlu (10.XI.1919, Şuşa – 12.02.1943, Rostov)». Aslan 1939-cü ildə ordu sıralarına çağırılmış və Böyük Vətən müharibəsində artilleriya batareyasının komandiri təyin edilmişdir. O, Şimali Qafqazın azad edilməsində böyük igidlik göstərmişdir. Rostovun Semernikova kəndində gedən döyüşlərdə cəsur döyüşçü Aslan düşmənin 8 tankını yandırmış və özü də həlak olmuşdur.

Möhkəm əqidəli şuşalı balasına Böyük Vətən Müharibəsi qəhrəmanı adı verilmiş, «Qırmızı Bayraq» ordeni və çoxlu medallarla təltif edimişdir.

Təhsilini Leninqrad və Moskva hərbi məktəbində almış A.F.Vəzirov Böyük Vətən müharibəsi illərində Zaqafqaziya cəbhəsi Şimal ordu qrupunun 5-ci dağ minaatan – mühəndis briqadasının, 3-cü Ukrayna cəbhəsinin Qırmızı Bayraq Ordenli 51-ci mühəndis-istehkam briqadasının tərkibində olmuş və sonra briqadaya komandirlik etmişdir. Polkovnik A.F.Vəzirov göstərdiyi şücaətə görə Sovet İttifaqı Qəhrəmanı, 4 Qırmızı Bayraq Ordeni, II dərəcəli Boqdan Xmelnistki ordeni və medallarla təltif olunmuşdur[25].

Xocavənd rayonunda anadan olmuş M.A.Parseqov 1940-cı ildən artilleriya diviziyasına komandirlik etmişdir. O, Mannerheym xəttinin dağıdılmasında, Kiyevin müdafiəsində, Yapon militaristlərinin darmadağın edilməsində fəal iştirak etmiş və öz əsgər borcunu şərəflə yerinə yetirmişdir. Göstərdiyi xidmətlərə görə general-polkovnik M.A.Parseqova Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir[26].

Bütün Azərbaycan xalqının fəxri sayılan Quliyev Yaqub Allahqulu oğlu 1900-cu ildə Şuşada dünyaya göz açmışdır. 1920-ci illərdə vzvod komandiri, rota komandiri, türkmən süvari polkunun qərargahının rəisi, 1938-ci ildə Türküstan dağ-süvari briqadası qərargahının rəisi, 1939-cu ildə Orta Asiya Hərbi dairə qərargahının rəis müavini, 1942-ci ildə 97-ci süvari diviziyasının komandiri vəzifələrində işləmişdir. Dərin düşüncəli Yaqub sovet hərbi xadimi adına layiq görülmüş və general mayor rütbəsi almışdır. İgid şuşalı Stalinqrad vuruşmasında qəhrəmancasına həlak olmuşdur. Xalqımız ölməz qəhrəmanı ilə fəxr edə bilər. Onun adı Mamay təpəsindəki xatirə ansamblına yazılmış, Türkmənistanda Yaqubun adına abidə qoyulmuş və bir məşhur küçəyə Y.Quliyevin adı verilmişdir. Ölümündən sonra Y.A.Quliyev Lenin ordeni, sağlığında isə 2 dəfə «Qırmızı Bayraq» ordeni ilə təltif olunmuşdur. Lenin ordenli generalın adına Şuşada da küçə vardır[27].

DQMV-nin Hadrut rayonunun Metstağlar kəndində anadan olmuş S.A.Xudyakov general və aviasiya marşalı rütbəsinədək yüksəlmişdir. O, Moskva ətrafında gedən döyüşlərdə, Kursk, Oryol, Belqrad və solsahil Ukraynasının azad olunmasında, Yassı-Kişinov əməliyyatlarında fəal iştirak etmişdir. İgidlik və mərdlik nümayiş etdirdiyinə görə S.A.Xudyakov bir sıra orden və medallarla təltif olunmuşdur.

Dərin düşüncəsi, möhkəm iradəsi, qibtə olunan vətənpərliyi ilə xalqımızın sevimlisinə çevrilmiş, həm zahirən, həm də mənən əsl azərbaycanlı və türk oğlu adına layiq olan Xəlil Məmməd oğlu Məmmədov gözəlliklər diyarı Şuşada dünyaya göz açmışdır (1916). 1940-cı ildə tank batalyonunun alay məktəbini bitirən Xəlil tank komandiri təyin edilmişdir. Böyük Vətən müharibəsində rota və batalyon komandirləri vəzifəsində işləyən X.Məmmədov Kerç, Krım, Şimali Qafqaz, Ukrayna, Moldava, Ruminiyanın azad edilməsində qəhrəmanlıqlar göstərmişdir. Göstərdikləri qəhrəmanlıqlara görə Xəlil Məmmədova 1945-ci ildə Sovet İttifaqı Qəhrəmanı adı verilmiş və general-mayor rütbəsinədək yüksəlmişdir. X.Məmmədov Qırmızı Bayraq, Aleksandr Netski, 2 Qırmızı Ulduz, Şərəf nişanı ordenləri və medallarla təltif edilmişdir. Qəhrəmanın həyatı bugünkü gəncliyimizə gözəl örnəkdir.

Bütün Taqanrok sakinləri arasında «məğlubedilməz» ləqəbi ilə tanınan Şuşa rayonunun Zarıslı kənd sakini Əli Rza oğlu Bədəlov müharibə başlayan vaxtdan öz ərizəsi ilə cəbhəyə getdi. Cəsur topçu Ə.R.Bədəlov Mozdok, Taqanrok, Melitopol, Kişinyov ətrafında, Macarıstan və Polşada gedən döyüşlərdə yüzlərlə alman tankını məhv etmişdir. Ali Baş Komandanlığının imzaladığı təşəkkür əmrində onun adı həmişə birinci çəkilmişdir.

Şuşalı Əmir Məmmədoğlu Rüstəmov müharibə dövründə, azərbaycanlılar arasında birinci texnik-mühəndis olmuşdur. 1942-ci ildə Qafqaz uğrunda gedən döyüşlərdə düşmən obyektlərinin yerini və hücum üçün planı Ə.Rüstəmov çox dəqiqliklə çəkmişdir. Kapitan Ə.Rüstəmov 1942-ci ilin yanvarında 56-cı orduya, sonra isə 25-ci minaaxtaranlar briqadasına komandirlik etmişdir. General-mayor rütbəsinədək yüksələn komandir çoxlu orden və medalların sahibidir. Böyük Vətən müharibəsi dövründə Dağlıq Qarabağdan onlarca döyüşçü – Sovet İttifaqı qəhrəmanı A.C.Qasparov, Bəylər və Əşrəf Cahangirovlar, Musa, Baxış və

Alyoşa Hüseynov qardaşları, Kamran Məmmədov və başqaları fövqəladə mərdlik göstərmişdilər.

Beləliklə, Böyük Vətən müharibəsi SSRİ-nin qələbəsi ilə başa çatdı. Qələbənin əldə edilməsində bütün Azərbaycan xalqının, o cümlədən DQMV-nin əhalisinin böyük xidmətləri olmuşdur. Alman faşizm üzərində qələbə əldə edilməsinin ən başlıca səbəbi ölkənin və xalqın bütün gücünün səfərbər edilməsində idi. Həmçinin ölkə rəhbərliyi inzibati idarəçilik metodlarını daha da möhkəmləndirib, iqtisadiyyatı qısa bir zamanda hərbin tələbləri əsasında yenidən qura bildi və xalqların iqtisadi, hərbi, mənəvi qüvvələrini birləşdirdi. Azərbaycan xalqı ikinci dünya müharibəsində SSRİ-nin qalib çıxmasına öz layiqli töhfəsini vermiş, adı XX əsrdə qəsbkarlığa və mürtəce qüvvələrə qarşı mütərəqqi qüvvələrin tarixi səlnaməsinə qızıl hərflərlə əbədi həkk olunmuşdur. Azərbaycan xalqı Böyük Vətən müharibəsinin ağır yükünü öz çiyinlərində daşımış və faşizm üzərində tarixi qələbə qazanılmasında mühüm rol oynamışdır. Ümummilli liderimiz H.Ə.Əliyev çıxışlarından birində qeyd etmişdir: «1941-1945-ci illər Azərbaycan xalqının tarixində çox görkəmli yer tutur və xalqımızın tarixində parlaq səhifələrdəndir... İkinci dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox dözümlü və qəhrəman xalqdır. Faşizm üzərində qələbədən sonra xalqımızın keçdiyi yol Azərbaycanın gələcək milli azadlığına, müstəqilliyinə gedən yol olmuşdur... Azərbaycan yüksək inkişaf yolu keçdi və böyük iqtisadi, intellektual potensial topladı. Bunların əsasında xalqımız öz müstəqilliyini əldə etdi və dünya birliyində öz yerini tutdu»[28].

# V FƏSİL

## DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNDƏ İQTİSADİ VƏ SOSİAL HƏYAT (1946-1950)

İkinci dünya müharibəsində Azərbaycan xalqı bütün iqtisadi, hərbi və mənəvi gücünü səfərbər edərək SSRİ-nin qalib çıxmasına öz layiqli töhfəsini vermiş və XX əsrdə qəsbkarlığa və mürtəce qüvvələrin tarixi səlnaməsinə öz adını qızıl hərflərlə əbədi həkk edirmişdir. Azərbaycanın oğul və qızları faşizmə qarşı mərdliklə vuruşaraq 121 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, arxada çalışan əməkçilərimiz cəbhəyə böyük köməklik göstərmişdilər. Müharibənin bütün ağırlığını öz çiynində çəkən Azərbaycan xalqı öz milli sərvətlərinin xeyli hissəsini itirmişdir.

Müharibə Azərbaycanın hər yerinə, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan DQMV-nin bütün təsərrüfatına çox ağır zərbə vurdu. 1945-ci ildə vilayət sənayesində ümumi məhsul istehsalı 1940-cı illə müqayisədə təxminən 22 faiz aşağı düşmüşdü. Müvafiq illərdə ipək parça istehsalı 120 min $m^2$-dən 93,6 min $m^2$-ə, xam ipək 98 tondan 76,4 tona, pendir istehsalı 61 tondan 48 tona, şərab istehsalı 40000 dkl-dən 3120 dkl-ə, konyak istehsalı 1000 dkl-dən 780 dekletrə, taxta şalban 1300 $m^3$-dən, 1014 $m^3$-ə, əhəng 120 tondan 94 tona, mebel istehsalı 26 min manatdan 20 min manata enmişdi[1]. Müharibə illərində DQMV-də istehlak malları istehsalı kəskin surətdə aşağı düşmüşdü. 1945-ci ildə 1940-cı ilə nisbətən pambıq istehsalı 2,4 dəfə azalmış, əkin sahəsi 4 min hektardan 1,2 min hektara enmişdi. Barama istehsalı 114 tondan 72 tona, yun istehsalı 109 tondan 85 tona qədər azalmışdı. DQMV-də 1940-cı ildən 1945-ci ilin sonunadək iribuynuzlu mal-qaranın sayı 87,6 min başdan 78,5 min başa, davarların sayı isə 160,4 min başdan 140,2 min başa enmişdi[2]. Kənd təsərrüfatının maddi texniki bazası xeyli zəiflənmişdi.

1940-cı ildə Azərbaycanda əhalinin sayı 3304,1 min nəfər, o cümlədən

edilməsi ilə bağlı əhalinin sayı 1945-ci ildə 17,65 faiz azalmışdı[3]. Müharibə dövründə Dağlıq Qarabağda fəhlə və qulluqçuların bacarıqlı və işlək hissəsinin ön cəbhəyə səfərbər edilməsi ilə əlaqədar onların sayı 15 faiz aşağı düşmüşdü. Faşizm üzərində qələbədən sonra Respublikamızda xalq təsərrüfatı bərpa olunmağa başlandı. SSRİ Dövlət Müdafiə Komitəsinin 26 may 1945-ci il «Silah istehsalının azaldılması ilə əlaqədar olaraq sənayeni yenidən qurmaq sahəsində tədbirlər haqqında»kı qərarından sonra Azərbaycanda sənayenin bərpası və inkişafı üçün mühüm tədbirlər görüldü. Belə ki, müharibə qurtardıqdan sonra müəssisələrdə 8 saatlıq iş günü və illik məzuniyyətlər bərpa edildi. Həmçinin 1945-ci il dekabrın 1-dən başlayaraq müharibə illərində istifadə edilməmiş məzuniyyətlərə görə pul kompensasiyasının ödənilməsinə başlandı[4].

Sənaye və kənd təsərrüfatını müharibədən əvvəlki səviyyəyə çatdırmaq məqsədilə Azərbaycan SSR Ali Sovetinin 1946-cı il martın 18-dək keçirilmiş birinci sessiyasında 1946-1950-ci illəri əhatə edən dördüncü beşillik plan qəbul edildi[5].

1945-ci illər sonlarında Azərbaycan XKS qərarı əsasında xalq təsərrüfatının inkişaf etdirmək məqsədilə DQMV-nin ümumi büdcəsi 41 milyon 294 min manat məbləğində təsdiq edilmişdir ki, bu da 1944-cü illə müqayisədə 12,2 faiz çox idi[6].

DQMV-də dördüncü beşillik planda sənayenin bərpa və inkişaf üçün aşağıdakı tapşırıqların yerinə yetirilməsi planlaşdırılmışdı. 1950-ci ildə DQMV-nin sənayesi: 600 min kərpic, 800 min tikinti daşı, 1300 ton əhəng, 1 milyon 200 min ədəd kirəmid, 300 min kubmetr taxta, 18500 kubmetr odun, 28 min metr pambıq parça, 548 min metr ipək parça, 3,1 min kvadrat metr xalça, 60 min cüt ayaqqabı, 200 min cüt corab, 48 min ədəd trikotaj üst paltarı, 80 min ədəd trikotaj alt paltarı, 51 min ton yağ, 100 ton qənnadı malı, 110 dekaletr üzüm şərabı, 20 ton metal qab-qacaq və 1600 ədəd araba verməli idi[7]. Planda həmçinin, mövcud mexaniki emalatxana əsasında mexaniki zavod tikilməsi nəzərdə tutulmuşdu. Dağlıq Qarabağda tikiləcək həmin zavodun 3 sexi – mexaniki, tökmə və avtomabil təmiri sexləri – 1950-ci ilin sonunda başa çatdırılmalı və



sonrakı beşilliklərdə yeni sexlər yaradılmalı idi[8]. Bünövrəsi 1945-ci ilin ortalarından qoyulan Xankəndi ağac emalı fabriki qısa bir müddətdə başa çatdırılmalı idi. Həmçinin sonralar DQMV-nin mərkəzinə çevrilmiş Xankəndi şəhərində yeni əhəng zavodu, kirəmid kərpic zavodu, faner sexi, «Qarabağ Çaxır Tresti» üçün şərab anbarı və yeni mətbəə binası tikmək planlaşdırılmışdır[9]. DQMV-nin sənaye işçiləri qarşıya qoyulan vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi üçün bütün güclərini səfərbər etməyə başladılar. Vilayətdəki rezin sənayesi, yağ pendir sənayesi, tikinti ləvazimatı, meşə emalı, toxuculuq, tikiş, gön-dəri, yeyinti və başqa sənaye müəssisələri 1946-cı ildə Bakıdan gətirilmiş avadanlıqlar hesabına yenidən qurularaq təmir olundu. Artıq 1947-ci ildə DQMV-də sənayenin ayrı-ayrı sahələrində xeyli irəliləmələr diqqəti cəlb edirdi. Bu isə öz növbəsində Azərbaycan hökümətinin bölgəyə olan xüsusi diqqətindən irəli gəlirdi.

Dağlıq Qarabağda inkişaf etmiş sənaye sahələrindən biri ipək emalı sənayesi idi. Qarabağ ipək emalı sənayesi 1947-ci ildə planı 121,3 faiz yerinə yetirmişlər[10]. 1950-ci ildə isə Dağlıq Qarabağ ipəkçiləri mərkəzə məlumat verib planı artıqlaması ilə və vaxtından əvvəl yerinə yetirməsi haqda məlumat vermişdilər. Əgər 1940-cı ildə Qarabağ ipək kombinatı dövlətə 98 ton xam ipək vermişdilərsə 1950-ci ildə bu rəqəm 120 tona çatmışdır[11]. Həmçinin müvafiq illərdə ipək parça istehsalı 120 min kvadrat metrdən 163 min kvadrat metrədək artmışdır[12].

Ümummilli liderimiz H.Ə.Əliyev çıxışlarından birində 1946-1950-ci illəri təhlil edərək belə qiymətləndirmişdir: «Müharibədən sonrakı illərdə respublikamız iqtisadiyyat və mədəniyyətin yeni yüksəliş mərhələsinə qədəm qoydu. Artıq 1948-ci ildə respublika sənayesi müharibədən əvvəlki səviyyəni ötmüş, ...energetika və su təsərrüfatı tikintiləri genişlənmiş, kənd təsərrüfatının maddi texniki bazası xeyli möhkəmlənmişdir»[13].

DQMV-nin sənayesi əsasən kənd təsərrüfatı xammalı emal edir. Vilayətin sənaye məhsulunun yarıdan çoxunu yeyinti sənayesi, əsasən şərabçılıq verir. 1946-1950-ci illərdə dövlətimizin bölgəyə ayırdığı vəsait hesabına vilayətdə şərab-

spirt sənayesi də sürətlə inkişaf edib genişlənirdi. Burada fəaliyyət göstərən konyak spirt zavodu, şərab və konyak zavodları, spirtsiz içkilər zavodu, likor zavodu və başqa zavodlar 1946-cı ildə yenidən qurularaq başa çatdırılmışdır[14]. Həmin zavodlar əsasında yaradılmış «karvintrest» müəssisələrinin gücü ildən-ilə artırılmışdır. «Karvintrest»in buraxdığı məhsulların tam olmayan siyahısı – adi şərab, şirin şərab, konyak, spirt-rektifikat, tut spirti, üzüm spirti, texniki spirt, bəhməz, meyvə suları, turşaşirin içkilər, qazlı su və sair bu kimi məhsullar DQMV-də spirt sənayesinin nə qədər güclü inkişaf etdiyini göstərir. DQMV-də 1946-1950-ci illərdə spirt-şərab sənayesinin inkişafını aşağıdakı rəqəmlərdən də görmək olar. Belə ki, 1940-cı ildə vilayətdə 40 min dkl. şərab istehsal edilmişdirsə, 1950-ci ildə şərab istehsalı 4 dəfədən çox artaraq 165 dkl. olmuşdur. Həmçinin müvafiq illərdə konyak istehsalı 1000 dkl-dən artıb 6000 dkl-ə çatmışdır[15].

1946-1950-ci illərdə DQMV-də tikinti ləvazimatı sənayesi də genişlənirdi. Kərpic, kirəmit, əhəng və mexaniki təmir zavodlarının məhsullarından təkcə vilayətin ərazisində deyil qonşu rayonlarda da istifadə olunurdu. Bəhs edilən dövrdə DQMV-də iki böyük müəssisə yaradıldı. Bunlardan biri ağac emalı fabriki idi ki, həmin fabrik vilayət əhalisinin mebelə olan ehtiyacını tam ödəyirdi. Əgər 1940-cı ildə DQMV-də 26 min manatlıq mebel istehsal edilmişdirsə, 1950-ci ildə bu göstərici 173 min manata çatmışdır[16]. Eyni zamanda taxta zavodunun da işə düşməsi tikintinin inkişafına təkan verdi. Bölgədə taxta şalban istehsalı 1940-cı ildə 1,3 min kubmetrdən, 1950-ci ildə 2 min kubmetrədək yüksəlmişdi[17].

DQMV-də yerli sənayenin daha böyük sürətlə inkişafı üçün hər cür şərait mövcud idi. Bu, ilk növbədə Azərbaycan hökümətinin bölgəni yeni texnika və ixtisaslı kadrlarla təmin etməsi, ayrılan vəsaitin miqdlarının ildən-ilə artırılması ilə bağlı idisə, digər tərəfdən bölgədə bir sıra mədən yataqlarının tapılması ilə əlaqədar idi. 1946-1950-ci illər ərzində DQMV-də çox böyük miqdarda mərmər, sement, İslandiya şpatı, litoqrafiya daşları, gil, təbaşir və sair yataqlar aşkar edilmiş və yerli sənayenin inkişafına təkan vermişdir. Dağlıq Qarabağ sənət kooperasiyası 100 çeşiddə məhsul buraxırdı. Yerli meşə materiallarından, cır



meyvələrdən və sair istifadə əsasında külli miqdarda çoxişlənən mallar istehsal olunurdu[18].

Təsadüfi deyildir ki, DQMV-nin sənət kooperasiyası ittifaqının müəssisələri araba və kirəmid istehsalı cəhətdən 1950-ci ilin göstəricilərinə görə Azərbaycanda birinci yeri tutmuşdur[19].

1946-1950-ci illər ərzində DQMV-də yeni artellər, tikinti materialları, saxsı qab, trikotaj mallar, corab, ayaqqabı, mebel, şirniyyat və sair istehsal edən emalatxanalar açılmışdır. Bəhs edilən dövr ərzində vilayətdə sənət və əlillər kooperasiyasının buraxdığı məhsullar 8,5 dəfə, fəhlələrin sayı isə 25 dəfə artmışdır. Burda fəaliyyət göstərən mexaniki zavod isə ildən ilə böyüyərək vilayətin kolxoz və müəssisələrinin ehtiyaclarını ödəyirdi. Digər sənaye sahələrindən olan xalça toxunması, yağ-pendir sənayesi, asfalt-beton istehsalı və çörək zavodunun da işində böyük irəliləyişlər diqqəti cəlb edirdi. Təkcə pendir istehsalındakı artım 1940-ci ildəki 61 tona qarşı 1950-ci ildə 113 tona çatmışdır[20].

1950-ci ildə 1940-cı illə müqayisədə DQMV-də sənayenin necə inkişaf etdiyini aşağıdakı cədvəldən də aydın görmək olar:

| Sıra №-si | Məhsulun növləri | Ölçü vahidi | 1940 | 1950 |
|---|---|---|---|---|
| 1 | İpək parça | min m² | 120 | 163 |
| 2 | Xam ipək | ton | 98 | 120 |
| 3 | Pendir və brınza | ton | 61 | 113 |
| 4 | Şərab | min dkltr. | 40 | 165 |
| 5 | Konyak | min dkltr. | 1 | 6 |
| 6 | Taxta-şalban | min m³ | 1,3 | 2,0 |
| 7 | Mebel | min manat | 26 | 173 |
| 8 | Ağac materialları | m³ | 1,3 | 2,0 |
| 9 | Əhəng | ton | 1222 | 1313 |
| 10 | Kərpic | min ədəd | 172 | 729 |
| 11 | Kirəmid | min kub metr | 43 | 49,5 |

| | | | | |
|---|---|---|---|---|
| 12 | Yonulmuş daş | min kub metr | 46,8 | 42,7 |
| 13 | Elektrik enerjisi | min kub metr | 1514 | 4669 |

Beləliklə bəhs edilən illərdə Azərbaycan hökümətinin DQMV-nə yaxından qayğısı nəticəsində sənayenin bütün sahələri inkişaf edir və qarşıya qoyulan vəzifələr vaxtında və artıqlaması ilə yerinə yetirilirdi. Nəticədə 1940-cı ilə nisbətən 1950-ci ildə DQMV-də sənaye məhsulu istehsalı 74 faiz artmışdır ki, bu da ümumi Azərbaycan üzrə olan orta göstəricidən 69 faiz, Naxçıvan Muxtar Respublikasının orta göstəricilərindən 30 faiz çox demək idi[21]. Lakin aparılan tədqiqatlar nəticəsində məlum olur ki, vilayət rəhbərliyi yeni sənaye sahələrinin yaradılmasında ikili mövqe tutmuşdular. Təəssüflə qeyd etmək lazımdır ki, uzun illər Qarabağımızın, sonralar isə DQMV-nin mərkəzi olmuş Şuşada 1946-1950-ci illər ərzində bir dənədə olsun müəssisə açılmamışdır. Xankəndində, Hadrudda, Xocavənddə, Ağdərədə, Əskəranda açılan yeni sənaye sahələri isə ermənilərin daha çox məskunlaşdıqları ərazilərdə yaradılmışdır.

1946-1950-ci illəri əhatə edən dördüncü beşillik planda sənaye ilə yanaşı kənd təsərrüfatının da inkişafı, müharibədən əvvəlki səviyyəyə yüksəldilməsi və bu səviyyəni ötüb keçmək əsas vəzifə kimi irəli sürülmüşdü. Beşillik planda DQMV-də buğda əkininin hər hektarından 80 pud buğda, hər hektardan 20 sentiner pambıq, barama qurdunun hər qutusundan 55kq barama, hər hektardan 2,8 sentiner yonca toxumu və 6 sentiner xaşa toxumu götürməyi, atların sayını 25 faiz, qaramalın sayını 10 faiz, o cümlədən inək və camışların sayını 25 faiz, davarların sayını 11 faiz artırmaq nəzərdə tutulmuşdu[22]. Eyni zamanda hər yüz doğar heyvandan 20 buzov, 80 qulun və 102 quzu əldə etmək, hər inəkdən 2300 kiloqram süd sağmaq, hər qoyundan 50 faiz artıq yün qırxmaq (1946 illə müqayisədə) Dağlıq Qarabağ kənd təsərrüfatı ilə məşğul olan əməkçilərinin mühüm vəzifələrindən idi[23].

Dağlıq Qarabağda kənd təsərrüfatının bərpa və inkişafı həmişə Azərbaycan hökümətinin diqqət mərkəzində olmuşdur. ÜİK(b)PMK-nın fevral (1947-ci il) plenumunun «Müharibədən sonrakı dövrdə kənd təsərrüfatını



yüksəltmək tədbirləri haqqında» qərarından[24] sonra Azərbaycan höküməti DQMV-də əkin sahələrinin genişləndirilməsi, dənli və texniki bitkilərin məhsuldarlığının yüksəldilməsi, heyvanlarlığın məhsuldarlığının artırılması, MTS və sovxozların işinin yaxşılaşdırılması, kənd təsərrüfatı maşınları istehsalının artırılması barədə tədbirlərin həyata keçirilməsi nəticəsində bölgədə kənd təsərrüfatının istehsalat-texniki bazası xeyli möhkəmləndirildi. 1946-1950-ci illərdə Azərbaycan höküməti bu sahəyə 109,6 milyon manat vəsait qoymuşdu. Həmin vəsait hesabına Dağlıq Qarabağa 198 traktor (15 at gücündə), 33 taxıl kombayını, 154 yük maşını və çoxlu miqdarda digər kənd təsərrüfatı maşını və çoxlu miqdarda digər kənd təsərrüfatı maşın və alətləri verildi[25]. DQMV-də 1940-ci ilə nisbətən yük avtomobillərinin sayı 1950-ci ildə 5 dəfə artmışdı. Ümumi Azərbaycan üzrə bu artım təxminən 3,5 dəfə idi[26]. 1946-1950-ci illərdə Azərbaycanın kəndlərində yaradılmış 12 MTS-dən 3-ü, 3 MHS-dən 1-i DQMV-nin payına düşürdü[27].

DQMV-də 1946-1950-ci illərdə irriqasiya tikintisi genişləndirildi. Tərtərçay, Xaçınçay, Qarqarçay, Köndələnçay və Quruçaydan təsərrüfatların suvarılması üçün yeni kanallar çəkildi.

ÜİK(b)P MK-nin 1946-cı il 19 sentyabr tarixli «Kolxozlarda kənd təsərrüfatı arteli Nizamnaməsinin pozuntularını ləğv etmək tədbirləri haqqında» qərarına[28] uyğun olaraq Azərbaycan höküməti DQMV-də kənd təsərrüfatının təşkili təsərrüfat cəhətdən möhkəmləndirilməsi üçün mühüm tədbirlər həyata keçirməyə başladı. Belə ki, DQMV-də kolxozların ictimai mülkiyyəti möhkəmləndirildi, torpaqlardan istifadə edilməsi nizama salındı, kolxozçuların əməyi səmərəli təşkil edildi. Göstərilən qərara uyğun olaraq DQMV-də kolxozlar birləşdirilməyə başlandı. Belə ki, 1946-1950-ci illər ərzində DQMV-də kolxozların sayı 195-dən 91-ə endi[29]. Nəticədə isə ixtisara düşən kolxozlardan 1600 nəfər inzibati işçi istehsalata göndərildi. Bəhs edilən dövrdə DQMV-də ümumi əkin sahəsində azalma halı müşahidə edilmişdir.

1940-1950-ci illərdə Azərbaycan SSR DQMV-də ayrı-ayrı kateqoriyalar üzrə əkin sahələrinin ümumi həcmini aşağıdakı cədvəldən də aydın görmək olar: (min hektarla):

| Sıra №-si | Əkin sahəsinin növləri | 1940 | 1950 |
|---|---|---|---|
| 1 | Ümumi əkin sahəsi | 82,0 | 79,1 |
| 2 | Dənli bitkilər | 70,6 | 67,8 |
| a. | Buğda | 41,9 | 39,7 |
| b. | Arpa | .... | 17,3 |
| 3 | Texniki bitkilər | 4,1 | 2,4 |
| | o cümlədən, | | |
| a. | Pambıq | 3,0 | 1,3 |
| b. | Tütün | .... | 0,3 |
| 4 | Kartof və tərəvəz | 2,3 | 2,2 |
| | o cümlədən, | | |
| a. | Kartof | 1,5 | 1,4 |
| b. | Tərəvəz | 0,5 | 0,6 |
| 5 | Yem bitkiləri | 5,0 | 6,7 |

DQMV-nin iqtisadiyyatında ən mühüm sahələrdən biri taxılçılıqdır. Azərbaycan hökuməti DQMV-də taxılçılığın inkişafı üçün yeni növ taxıl «Arandəni» buğdası və «Şirvandəni» arpası toxumaları verdi. «Arandəni» buğdası vilayətdə daha yüksək effekt verdiyi üçün 1949-cü ildə bütün əkin sahəsinin dörddə üçündə əkilməyə başlandı[30]. Dənli bitkilər Dağlıq Qarabağın bütün rayonlarında əkilirdi: 1940-cı ildə dənli bitkilər ümumi əkin sahəsinin 86 faizini təşkil edirdi. Yəni 81969 hektar ümumi əkin sahəsindən 70609 hektarında dənli bitkilər əkilmişdi[31]. 1950-ci ildə isə 79152 hektar ümumi əkin sahəsindən 67768 hektarında dənli bitkilər əkilmişdi[32]. Faiz hesabı ilə götürüldükdə bu ümumi əkin sahəsinin 85,6 faizini təşkil edir. Taxıl əkini sahəsinin nisbi azalmasına baxmayaraq yeni aqrotexnika üsullarının tətbiqi, becərmə işlərinin



yaxşılaşdırılması, toxumçuluq işlərinin düzgün qurulması nəticəsində DQMV-də əkin sahələrinin məhsuldarlığı xeyli artmışdı. Belə ki, 1940-cı ildə DQMV-də dövlətə 7014 ton taxıl təhvil verilmişdirsə, 1950-ci ildə bu göstərici 7668 tona çatmışdır[33]. Dağlıq Qarabağın kənd təsərrüfatında pambıqçılıq xüsusi yer tutur. DQMV-nin Ağdərə rayonunda pambıq əkini ilə daha geniş məşğul olurdular. 1913-cü ildə DQMV-də cəmi 500 hektar sahədə pambıq əkilirdisə 1946-1948-ci illərdə 1500 hektar sahədə pambıq əkilmişdi[34]. Qabaqcıl aqrotexnikadan və zəngin təcrübədən istifadə əsasında pambıq tarlalarının becərilməsi xeyli yaxşılaşdırılmış və tarlalardan yüksək məhsul götürülmüşdür. 1947-ci ildə hər hektardan 13,1 sentner əvəzinə 16,2 sentner, yəni 1913-cü illə müqayisədə 3 dəfədən artıq məhsul götürülmüşdür. DQMV-nin pambıqçıları 1940-cı ildə dövlətə 3,1 min ton pambıq təhvil vermişdilərsə 1948-ci ildə bu göstərici 4 min tonu keçmişdi[35].

Azərbaycan SSR XKS-nin 1944-cü il qərarına əsasən 1949-1950-ci illərdə DQMV-də pambıq sahələri ixtisar edilməyə, əvəzində yeni bir bitki-qvaula əkilməyə başlandı. Hələ, 1928-ci ildən Ağdərənin Marquşadan sovxozunun elmi-tədqiqat stansiyasında qvaula bitkisinin toxumçuluğu və aqrotexnikası ilə məşğul olmağa başlamışdılar. Ağdərə rayonunun iqlimi və torpağı qvaula əkini üçün yararlı olduğundan 1929-cu ildən burada həmin bitki əkilməyə başlanmışdır. DQMV-də əsas etibarilə avqustifolum «Pioner-Qarabağ» çeşidi əkilirdi. Həmin növ 9-10 faiz kauçuk veridi[36]. 1946-cı ildə Ağdərənin Talış, Madaqız, Çaylı, Marağa, Marquşavan, Həsənqaya, Levonarx, Lüləsər, Maqavuz, Seysulan, Maxrataq, Orataq, Ksabet, Gülyataq və Canyataq kəndlərində 156 hektar sahədə qvaula bitkisi əkilmişdir. 36 hektar saədə isə ştillik salınmışdır. Qvauladan təbii kauçuk əldə etməkdən ötrü və xammal bazasının təşkil edilməsi üçün DQMV-də zavod tikilməsi zərurəti ortaya çıxmışdır. Belə bir zavod 1946-cı ildə Ağdərənin Madağız kəndində tikilmişdir[37]. Sonrakı illərdə həmin bitkinin əkin sahəsi genişləndirilmiş və DQMV-də böyük həcmdə qvauladan yüksək keyfiyyətli kauçuk almaq üçün əsas baza təşkil olunmuşdur.

İpəkçilik Dağlıq Qarabağ zəhmətkeşlərinin ən çox sevdiyi peşələrdən biridir. 1946-1950-ci illərdə Azərbaycan dövləti bu sahəyə də xüsusi diqqət yetirmiş və DQMV-də tut və çəkil bağlarının sahəsini xeyli genişləndirmiş, bölgəyə yeni növ, daha məhsuldar barama qurdu vermiş və ixtisaslı mütəxəssislər göndərmişdir. 1940-cı illə müqayisədə 1950-ci ildə tut bağları 2 dəfə artırılaraq 883 hektara çatmışdır[38]. Barama qurdu becərmək texnikasını öyrənmək sahəsində barama məhsulu xeyli yüksəlmişdir. 1924-cü ildə hər qutu barama qurdundan 18,5 kiloqram barama götürüldüyü halda[39], 1950-ci ildə bu rəqəm 50,4 kiloqrama çatmışdır. DQMV-nin kumdarları 1950-ci ildə dövlətə 122 ton barama təhvil vermişdilər[40] ki, bu da 1924-cü illə müqayisədə 2 dəfə, 1940-cı illə müqayisədə isə 20 faiz artıq idi. DQMV-nin kumdarları Qarabağ ipək emalı sənayesinin əsas xammal bazası hesab olunurdu.

1946-1950-ci illərdə bağçılıq, xüsusilə üzümçülük DQMV-də kolxozların iqtisadiyyatında əsas sahələrdən birini təşkil edirdi. Azərbaycan höküməti bölgədə üzümçülüyün inkişafı üçün bir sıra tədbirlər həyata keçirdi. Belə ki, üzüm bağlarını 1940-cı ildəki 1970 hektardan 2408 hektaradək genişləndirdi (1950-ci ildə)[41]. Bağlar salınarkən mexanizasiyadan istifadə etməyi nəzərdə tutan mütərəqqi üsullar tətbiq olundu. Bütün sahələrdə cərgə ilə dəmir-beton dayaqlarla üzüm əkininə başlandı. Yeni və daha məhsuldar üzüm növləri gətirilərək DQMV-də əkilməyə başlandı. Əvvəllər üzüm bağları təkcə Xocavənd və Hadrud rayonlarında əkilirdisə, indi Xankəndi və Ağdərə rayonlarında da yeni üzüm bağları salındı. Azərbaycan hökümətinin gördüyü tədbirlər nəticəsində əmək məsrəfi azalaraq, üzümün maya dəyəri aşağı düşdü və məhsuldarlıq artdı. Bütün bunların nəticəsi idi ki, 1940-cı ildə DQMV-də 1565 ton üzüm yığımı artaraq 1950-ci ildə 3646 tona çatmışdır[42]. Tədarük edilən üzüm isə işlənmək üçün Qarabağ şərab sənayesi trestinə verilirdi.

DQMV-nin çoxillik bitkiləri içərisində şahtut ağacları görkəmli yer tutur. Çox qulluq tələb etməyən bu ağac Dağlıq Qarabağ ərzisində qədimdən becərilirdi. Şah-tut spirt istehsalında əsas xammaldır. Bundan başqa ondan bəhməz, mürəbbə hazırlanır və təzə halda yeyilir. Şah-tut digər tut növlərindən



fərqli olaraq çoxlu bar verir, dadlıdır və şəkərlilik faizi 32-yə bərabərdir[43]. Müharibənin başlanması ilə əlaqədar baxımsızlıq ucbatından şah-tut bağları 1945-ci ildə 1940-cı illə müqayisədə 2 dəfə azalmışdı. 1946-1950-ci illərdə yeni şah-tut bağları yaradılmış və 1950-ci ildə şah-tut bağlarının ümumi sahəsi 1734 hektara çatmışdır[44]. Bu isə 1940-cı illə müqayisədə 2 dəfə artıq demək idi.

1946-1950-ci illərdə DQMV-də tütün istehsalı sahəsində də xeyli irəliləyişlər əldə edildi. 1946-cı ildə əkin sahəsi artırıldı və yeni növ tütün bölgədə əkilməyə başlandı. Nəticədə tütün istehsalı 1940-cı ildə 99 ton idisə, 1950-ci ildə artaraq 164 tona çatdı[45]. Tütün DQMV-də yüksək gəlirli və prespektivli sahə olduğundan sonrakı illərdə bu sahəyə xüsusi diqqət yetirildi.

1946-1950-ci illəri əhatə edən beşillik planda DQMV-də tərəvəz, kartof və yem bitkiləri sahələrinin də inkişafı nəzərdə tutulmuşdu. 1940-cı ildə Vilayətin təsərrüfatları 1537 hektarda kartof, 543 hektarda tərəvəz və 4966 hektar sahədə yem bitkiləri əkmişdilərsə, 1950-ci ildə yem bitgiləri 6740 hektar, kartof 1431 hektar, tərəvəz 568 hektarda əkilmişdi[46]. Müvafiq illərdə DQMV-də kartof istehsalı 1137 tondan 1229 tona, tərəvəz istehsalı 503 tondan 544 tona, yem bitkiləri isə 5000 tondan 6700 tona çatdı[47]. Onu da qeyd edək ki, kartof və tərəvəz yerli əhalinin tələbatını ödəyirdi.

1940-cı illə müqayisədə 1950-ci ildə ümumi əkin sahəsinin azalmasına baxmayaraq kənd təsərrüfatı məhsulları istehsalında artım müşahidə edilmişdir ki, bunu aşağıdakı cədvəldən də aydın görmək olar:

| Sıra №-si | Məhsulun növləri | Ölçü vahidi | 1940 | 1950 |
|---|---|---|---|---|
| 1 | Taxıl | ton | 7014 | 7668 |
| 2 | Tütün | ton | 99 | 164 |
| 3 | Kartof | ton | 1137 | 1229 |
| 4 | Tərəvəz | ton | 503 | 544 |
| 5 | Üzüm | ton | 1565 | 3646 |
| 6 | Ət (diri çəkidə) | ton | 1427 | 2480 |

| | | | | |
|---|---|---|---|---|
| 7 | Süd və süd məhsulları | min tonla | 2,6 | 5,1 |
| 8 | Yumurta | min ədədlə | 289 | 1857 |
| 9 | Yun | min tonla | 109 | 206 |
| 10 | Barama | min tonla | 114 | 152 |

Heyvandarlıq DQMV-nin iqtisadiyyatında ən əsas və həlledici sahələrdən biridir. DQMV-nin bərəkətli otlaqları, geniş düzənlikləri, əlverişli iqlim şəraiti, təmiz dağ bulaqları maldarlığın inkişafına zəmin yaratmışdır. Lakin müharibə başqa sahələrdə olduğu kimi heyvandarlıq təsərrüfatına da öz mənfi təsirini göstərmişdi. Azərbaycan höküməti 1946-1950-ci illərdə DQMV-də heyvandarlığın inkişafı üçün xüsusi tədbirlər gördü. Belə ki, bölgəyə 150 aqronom göndərildi və 26 aqronom məntəqəsi yaradıldı[48]. DQMV-nin bütün kolxozlarına böyük miqdarda şvis inəklər, mernos qoyunlar, cins ayqır və donuzlar verildi. Bütün zootexnika və baytarlıq tələblərini ödəyən onlarla böyük heyvandarlıq binası tikildi və onların sayı 1948-ci ildə 746-ya çatdırıldı[49]. Hər bir kolxozda əmtəə fermalarının sayı artırılaraq 5-ə çatdırıldı[50]. Hər bir fermaya isə yüzlərlə mal-qara verildi. Yem bitkilərinin əkin sahələri genişləndirildi. Dövlətimiz bölgəyə ildən-ilə ayrılan vəsaitin miqdarını artırdı. Görülən tədbirlər nəticəsində DQMV-də bütün kateqoriyalardakı təsərrüfatlarda 1950-ci ildə mal-qaranın sayı əvvəlki illərlə müqayisədə xeyli artmışdır[51]. Bunu aşağıdakı cədvəldən də aydın görmək olar (min baş ilə)[52].

| Sıra sayı | Kateqoriyalar | 1913 | 1920 | 1940 | 1950 |
|---|---|---|---|---|---|
| 1 | Qaramal | 63,7 | 50,7 | 87,6 | 85,9 |
| 2 | Qoyunlar | 102,2 | 39,4 | 102,6 | 158,7 |
| 3 | Keçilər | 4,8 | - | 57,8 | 44,4 |
| 4 | Donuzlar | 13,8 | 5,9 | 26,1 | 31,7 |
| | Cəmi: | 184,5 | 96,0 | 274,1 | 320,2 |



Cədvəldən göründüyü kimi 1950-ci ildə mal-qaranın sayında 1940-ci ilə nisbətən 15 faiz artım olmuşdur. 1940-cı illə müqayisədə 1950-ci ildə heyvandarlıq məhsulları istehsalında da yüksək artım müşahidə edilmişdir. Belə ki, bəhs edilən illərdə mal-qara və quş əti (diri çəkidə) 1427 tondan 2480 tona, süd məhsulları 2,6 min tondan 5,1 min tona, yumurta 289 min ədəddən 1857 min ədədə, yun 109 tondan 206 tona çatmışdır[53].

Arıçılıq Dağlıq Qarabağ ərazisində yaşayan əhalinin qədim məşğuliyyətlərindən biridir. Xüsusilə subalp və dağətəyi qurşaqlarda külli miqdarda bitən şirəli bitkilər DQMV-də arıçılıq işinin inkişaf etməsi üçün əlverişli şərait yaratmışdır. Arıçılıq prespektivli və gəlirli sahə olduğundan Dağlıq Qarabağın hər yerində əhali arı saxlayırdı. Məlum hadisə ilə bağlı XX əsrin 40-cı illərinin birinci yarısında arıçılıq sahəsində geriləmə halı müşahidə edilmişdir. Azərbaycan höküməti 1946-cı ildə Xankəndi Arı Damazlıq Mərkəzinin işini yenidən qurması üçün vəsait ayırdı. Bölgəyə yeni arı ailələri gətirildi. 1946-1950-ci illərdə DQMV-də arıçılıq həm eninə, həm də dərininə inkişaf etdi. Belə ki, 1934-cü ildə vilayətin 41 kolxozunda, 1940-cı ildə 58 kolxozunda arı saxlanılırdısa, 1950-ci ildə bu rəqəm 70-ə çatmışdır[54]. Şişkinin rəhbərlik etdiyi Xankəndi Arı Damazlıq Mərkəzi vilayətdə yeni, məhsuldar növlər yetişdirməyə başladı. Nəticədə hər pətəkdən 25-35 kloqram bal əldə edildi. 1940-cı ildə müqayisədə 1950-ci ildə DQMV-də arı ailələrinin sayı 2 dəfədən çox artdı. Belə ki, müvafiq illərdə vilayətdə arı ailələri 4944-dən 9972-yə çatdı. 1950-ci ildə bal istehsalı 1927-ci illə müqayisədə 3 dəfə çoxaldı[55]. Beləliklə, 1946-1950-ci illərdə DQMV-nin xalq təsərrüfatının müvəffəqiyyətlə bərpa edilməsi, dördüncü beşilliyin əsas istehsal tapşırıqlarının yerinə yetirilməsi, sənayenin, kənd təsərrüfatının, tikintinin, nəqliyyat və rabitənin texniki səviyyəsinin daha da yüksəlməsi ilə əlamətdar oldu. Sənayedə müharibədən sonrakı birinci beşillik plan 4 il müddətində yerinə yetirildi. 1940-cı ildə nisbətən 1950-ci ildə DQMV sənayesinin ümumi məhsulu 74 faizi ötüb keçdi. Belə ki, xam ipək istehsalı 22 faiz, ipək parça istehsalı 36 faiz, şərab istehsalı 50 faiz, konyak istehsalı 5 dəfə, yağ istehsalı 4,9 dəfə, yağlı pendir istehsalı 85 faiz, mebel istehsalı 6,8 dəfə, əhəng

10 faiz, kərpic 4,5 dəfə, kirəmid 12 faiz, ağac materialları istehsalı 65 faiz, elektrik enerjisi istehsalı 3 dəfə artdı[56]. DQMV-də fəaliyyət göstərən iri müəssisələr – Qarabağ ipək emalı müəssisəsi, Qarabağ Şərab Tresti, Yağ-pendir zavodu, Mebel fabrik, Qarabağ tikiş fabriki, Çörək fabriki və başqa müəssisələr – Azərbaycan höküməti tərəfindən avadanlıqlarla təmin edilirdi. Nəticədə isə istehsalın gücü artırıldı, məhsulların çeşidləri genişləndirildi və keyfiyyəti yaxşılaşdı. DQMV-nin kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 1950-ci ildə 1945-ci ilə nisbətən 4 min hektar artaraq 79,1 min hektara çatdı və ümumi məhsul istehsalının həcmi 1940-cı illə müqayisədə 32 faiz çox oldu. Belə ki, taxıl yığımı 654 ton, üzüm 2081 ton, diri çəkidə mal-qara və quş əti 1053 ton, süd və süd məhsulları 2,5 ton, yumurta 1568 min ədəd, barama 38 ton, xırda buynuzlu heyvanlar 27 faiz, donuzların sayı 22 faiz artdı[57]. Beləliklə, Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan DQMV-də Mərkəzi hökümətin həyata keçirdiyi tədbirlər nəticəsində yeraltı və yerüstü sərvətlərimiz bir yerdə və hazır şəkildə cəmləşərək «beynəlmiləlçilik» şüarı altında Ermənistana və Rusiyaya daşınır, talan edilirdi.



# VI FƏSİL

## MÜHARIBƏDƏN SONRAKI ILLƏRDƏ DQMV-DƏ MƏDƏNİ QURUCULUQ (YANVAR 1946- DEKABR 1950).

1946-1950-ci illəri əhatə edən bərpa dövründə sənaye və kənd təsərrüfatı ilə yanaşı mədəni quruculuq sahəsində də bir sıra vəzifələr müəyyənləşdirildi. Azərbaycanın hər yerində, o cümlədən DQMV-də xalq maarifi şəbəkəsinin tədris-maddi bazasını möhkəmləndirmək, məktəbləri pedaqoji kadrlarla təmin etmək, təlim və tərbiyə sistemini yaxşılaşdırmaq, tədrisin səviyyəsini yüksəltmək üçün əməli tədbirlər həyata keçirmək və sair nəzərdə tutulmuşdu. 1946-cı ilin avqust ayında Azərbaycan müəllimlərinin III qurultayı keçirildi. Həmin qurultayda 1946-1950-ci illər üçün yeni dövrün tələblərinə uyğun xalq maarifinin vəzifələri tam müəyyən edildi. Həmin planda DQMV-də məktəblərin sayını 200-ə məktəblilərin sayını 33,5 minə, müəllimlərin sayını 2000-ə çatdırmaq, ali təhsilli müəllimlərin sayını artırmaq, yaşlı nəsil arasında savadsızlığı ləğv etmək, bütün məktəbləri texniki təlim vasitələri və dərs vəsaitləri ilə təmin etmək və sair planlaşdırılmışdı[1].

1946-cı ildə DQMV-də mədəni inkişafa 25 milyon 428 min manat vəsait ayrıldı ki, bundan 7 milyon 570 min manatı orta ixtisas məktəblərinin genişləndirilməsinə sərf edilməli idi[2].

Plana uyğun olaraq Azərbaycan hökümətinin ayırdığı vəsait hesabına 1946-1950-ci illərdə DQMV-də 10 yeni məktəb binası tikilib istifadəyə verildi[3]. Köhnə məktəblərdə isə təmir – abadlıq işləri aparıldı. 1940/1941-ci tədris ilində DQMV-də 196 məktəb var idisə, 1950/1951-ci tədris ilində bu rəqəm 206-ya çatmışdır[4]. Burada təhsil alan şagirdlərin sayı isə son 25 ildə 7 dəfədən çox artaraq 36000 nəfərə çatmışdır[5]. Həmin məktəblərdə isə dərs deyən müəllimlərin sayı 2000-i keçmişdir[6]. DQMV-də maarif sahəsindəki böyük nailiyyətlərdən biri də Xankəndində müəllimlər institutunun açılması ilə bağlıdır. 1938-ci ildə açılmış bu institut DQMV-dəki yeddillik məktəblərini hazırlıqlı müəllimlərlə təmin edir.

1940-cı ildə institutun iki (Azərbaycan və erməni) bölmələri, 15 müəllimi, 150 tələbəsi var idi[7]. Sonralar bu institutu 2 müstəqil institutа bölündü. Xankəndində Azərbaycan Müəllimlər İnstitutu yarandı. 1950-ci ildə Xankəndi Müəllimlər İnstitutu genişlənərək daha 3 şöbəsi yarandı. Artıq İnstitutun 5 şöbəsi[8]: erməni dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı, fizika riyaziyyat, tarix, təbiət və coğrafiya şöbələri fəaliyyət göstərir. 1950-ci ildə burada 450 nəfərdən artıq tələbə oxuyurdu. İnstitut hər il respublikamızın məktəbləri üçün 60-a qədər müəllim buraxırdı. 1950-ci ildə İnstitutda 6 nəfər elmlər namizədi adını almış alim var idi[9]. İnstitut DQMV-də fəaliyyət göstərən məktəbləri ali təhsilli mütəxəssislərlə təmin olunmasında xüsusi əhəmiyyətə malik idi. Belə ki, 1923/1924 tədris ilində DQMV-də 1 nəfər ali, 24 nəfər orta təhsilli müəllim var idisə 1950/1951-ci ildə məktəblərdə dərs deyən ali təhsilli müəllimlərin sayı 212-yə, orta-ali təhsilli müəllimlərin sayı isə 1949 nəfərə çatmışdır[10]. Azərbaycan hökuməti DQMV-də işləyən yaxşı müəllimlərin əməyini yüksək qiymətləndirmiş, onlardan 13 nəfəri əməkdar müəllim adına layiq görülmüş, onlarla müəllim isə orden və medallarla təltif edilmişdir[11]. Hətta DQMV-nin müəllimləri arasında «Şərəf nişanı» ordeninə layiq görülən, Azərbaycan SSR Ali Sovetinə, SSRİ Ali Sovetinə deputat seçilən müəllimlərdə vardır. Lakin çox təəssüflər olsun ki, yüksək ada layiq görülən müəllimlər arasında bir nəfərdə olsun azərbaycanlı familiyasına rast gəlmədik.

1950-ci ildə DQMV-də 4 texnikom fəaliyyət göstərirdi. Həmin texnikomlarda oxuyan tələbələrin sayı 827-yə, oranı qurtaranların sayı isə 227-yə çatırdı (1950-ci ildə)[12].

Böyük Vətən Müharibəsində əhalinin müharibəyə səfərbər edilməsi ilə əlaqədar azyaşlı uşaqlar arasında azalma halı müşahidə edilmişdir. 1940-cı illə müqayisədə 1950-ci ildə DQMV-nin uşaq bağçalarında uşaqların sayı 1221-dən 694-ə, tərbiyəçi müəllimlərin sayı 95-dən 56-ya, uşaq bağçalarının sayı isə 35-dən 24-ə enmişdir. Bəhs etdiyimiz illərdə uşaq evlərində uşaqların sayı 1183-dən 563-ə, uşaq evlərinin sayı isə 33-dən 20-dək azalmışdı[13]. Aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, DQMV-i ərazisində 1946-1950-ci illərdə



fəaliyyət göstərən 44 uşaq bağçası və evlərindən yalnız 2-si Şuşada fəaliyyət göstərirdi. Qalan 42 uşaq müəssisəsi ermənilərin daha çox cəmləşdiyi kəndlərdə yaradılmışdır.

Bəhs etdiyimiz dövrdə DQMV-də fəhlə və kəndli gənclər məktəbləri də yaradılmışdı. 1946-1950-ci illərdə burada 321 şagirdi olan 3 fəhlə gənclər məktəbi, 473 şagirdi olan 17 qiyabi yeddillik və orta yaşlılar məktəbi yaradılmışdı[14]. Bəhs etdiyimiz dövrdə Bakıda, Naxçıvan MR-da isə 6 qiyabi yeddillik və orta yaşlılar məktəbi var idi[15]. Əlbətdə axırıncı müqayisəni nəzərdən keçirərkən Azərbaycan hökümətinin DQMV-nə nə dərəcədə qayğı göstərdiyinin şahidi oluruq.

1940-1950-ci illər ərzində Azərbaycan SSR DQMV-də təhsilin və təlim-tərbiyə müəssisələrinin necə inkişaf etdiyini aşağıdakı cədvəldən də aydın görmək olar:

| Tədris ili | Ümumtəhsil məktəblərinin sayı | Şagirdlərin sayı | Müəllimlərin sayı | Fəhlə gənclər məktəblərinin sayı | Oradakı şagirdlərin sayı | Texnikomların sayı | Tələbələrin sayı | Uşaq bağçalarının sayı | Uşaqların sayı | Tərbiyəçilərin sayı | Körpələr evinin sayı | Körpələr evindəki uşaqların sayı |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1940/41 | 196 | 40766 | 1696 | 30 | 1390 | 6 | 818 | 35 | 1221 | 95 | 33 | 1183 |
| 1950/51 | 206 | 33690 | 1929 | 36 | 1003 | 4 | 827 | 24 | 694 | 56 | 20 | 563 |

Yuxarıdakı cədvəldən aydın göründüyü kimi 1940-1950-ci illərdə DQMV-də təhsilin inkişafı inkaredilməz bir həqiqətdir. Lakin bununla yanaşı DQMV-də erməni, rus millətçiliyi, yerli idarə orqanlarında çalışan erməni mütəxəssislərinin şovinist siyasətləri, sovet rejiminə «sədaqətlə qulluq edən adamlar»ın böhtançı tədbirləri məktəb quruculuğu işlərinə, mədəni-maarif müəssisələrinin fəaliyyətinə

ciddi mane olurdu. DQMV-nin partiya, sovet orqanlarında, mədəni maarif müəssisələrində çalışan erməni, rus mütəxəssisləri proletar beynəlmiləlçiliyi şuarı altında azərbaycanlı mütəxəssislərə qarşı gizli mübarizə aparırdılar. Bu «nəzəriyyə» ayrı-ayrı sovet orqanlarında çalışan bir qrup adamlarda, o cümlədən DQMV- təhsil işçilərinə bilavasitə rəhbərlik edən Ter-Karapetrov, Baqdatyan, Babayan, Arustamova və başqaları. «Azərbaycan dilində təhsilin gələcəyinin olmadığı» iddiası ilə gördükləri tədbirlər vilayətdə azərbaycanlıların yaşadıqları kəndlərdə tədris işlərinə böyük zərbə vurmuşlar.

Azərbaycan SSR Elmlər Akademiyasının 1944-cü ildə təşkil olunmuş Dağlıq Qarabağ şöbəsi DQMV-nin tarixində böyük və mühüm bir hadisə olmuşdur[16]. Xankəndində yaradılmış bu elmi mərkəzin qarşısından duran ən mühüm vəzifələrdən biri 1946-1950-ci illərdə xalq təsərrüfatının, xüsusilə vilayətin kənd təsərrüfatının yüksəldilməsi işinə kömək edə bilən elmi tövsiyələr irəli sürməli idilər. Bəhs edilən dövrdə Akademiyanın elmi işçiləri bir sıra elmi tədqiqat əsərlərini başa çatdırdılar və həmin əsərlər praktikada tətbiq olunmağa başlandı. Belə ki, həmin əsərlər sırasında «Dənli bitki toxumçuluğu və onun DQMV rayonları arasında bölüşdürülməsi», «Meyvə verən 3 növ tut ağacının biokimyəvi xüsusiyyətləri», «Kiçik Qafqaz sıra dağlarındakı yaylaqlar və bunlardan Lisaqorsk sovxozunda istifadə etmək haqqında», «Şahtut ağacları və bunların DQMV-də yetişdirilməsi», «DQMV-nin qabaqcıl kolxozlarının iqtisadiyyatı», «DQMV-də ipəkçilik sənayesinin yerləşməsi və inkişafı», «Cəkilliklərin və yay otlaqlarının yaxşılaşdırılması», «Spirt çəkildikdən sonra tut tör-töküntüsündən yem hazırlamaq üsulları» və başqa mövzular var idi[17].

Elmi işçilər təkcə elmi əsərlər yazmaqla kifayətlənmirdilər. Onlar eyni zamanda vilayət zəhmətkeşlərinə otlaqlardan yaxşı istifadə olunması, mal-qaranın otarılmasının düzgün təşkil edilməsi, əməyin təşkili və heyvandarlıq məhsullarının hesaba alınması, ot çalımı və yem basdırılması, bağ-bostanlara xidmət və sair bu kimi müxtəlif məsələlər üzrə məsləhətlər də verirdilər. Onlar təkcə 1950-ci ildə DQMV-nin müxtəlif idarə və müəssisələrində 40-a qədər mühazirə oxumuş, yerli mətbuatda və respublika qəzetlərində elmi-kütləvi



məqalələrlə çıxış etmişdilər. Vilayətin elm mərkəzinin elmi işçiləri öz işlərini DQMV-nin xalq təsərrüfatının əməli məsələləri ilə sıx əlaqələndiridilər.

DQMV-də fəaliyyət göstərən elm mərkəzinin bölgədə xalq təsərrüfatının bərpa və inkişafı üçün irəli sürdükləri elmi tövsiyyələr yüksək qiymətləndirilsə-də, burada mənfi hallarda mövcud olmuşdur. Belə ki, aparılan elmi araşdırmalar nəticəsində məlum olur ki, Xankəndində fəaliyyət göstərən Elmlər Akademiyasının bütün heyyət üzvləri (işçiləri) hamılıqla milliyyətcə ermənilərdən ibarət idi. Həmçinin Azərbaycan SSR EA-nın Xankəndi şöbəsinin elmi katibi Q.A.Mıkırtıçıyanın yazdığına görə burada tədqiq olunan əsərlər erməni dilində çap edilir, yalnız DQMV- ərazisində və Ermənistanda yayılırdı[18]. Bu fakt isə erməni alimlərinin nə dərəcədə «humanist» olduqlarını sübut edir.

1946-1950-ci illərdə DQMV-də inkişaf edən sahələrdən biridə mədəni-maarif müəssələri olmuşdur. Hələ 1945-ci ilin sonlarında Azərbaycan XKS-nin nəzdində yaradılmış Mədəni Maarif Müəssələri Komitəsi Vilayətdə mədəni-maarif işinin inkişafı üçün tədbirlər planı işləyib hazırlandı. İlk növbdə DQMV İcraiyyə Komitəsi nəzdində Mədəni Maarif İşləri şöbəsi yaradıldı[19]. Mədəni-maarif müəssələri içərisində kitabxanaların inkişafı xüsusi əhəmiyyət kəsb edirdi. 1946-1950-ci illər üçün qəbul edilmiş «Mədəni maarif müəssələrinin bərpa və inkişafına dair beşillik plan»a uyğun olaraq 1950-ci ilədək DQMV-də kütləvi kitabxanaların sayının 116-ya, bütövlükdə isə kitabxanaların sayını 265-ə çatdırmaq proqramı tərtib edilmişdi[20]. Azərbaycan höküməti DQMV-də kitabxanaların maddi-texniki bazasına əsaslı vəsait qoyuluşunu 1940-ci illə müqayisədə 2 dəfə artırdı. DQMV-də 1950-ci ildə təkcə kitabxanadarın kompleksləşməsinə qoyulan vəsait 166 min manat idi[21]. İlk növbədə DQMV-də 1946-1950-ci illərdə 117 yeni kitabxana yaradılmışdı. 1940-ci ildə vilayətdə 66 kitabxana var idisə 1950-ci ilin sonlarında bu rəqəm 183-ə çatdı. Bundan 1 vilayət kitabxanası, 3 şəhər, 5 rayon, 38 kənd, 4 uşaq, 74 klub, 55 kolxoz, 3 həmkarlar ittifaqı kitabxanaları və 47 qiraət koması idi[22]. Halbuki əhalisinin sayı DQMV-dən çox olan Naxçıvan MR-da 1 Respublika, 5 uşaq, 124 kənd kitabxanası (cəmi 130 kitabxana) 42 qiraət koması fəaliyyət göstərirdi[23]. 1950-ci

ildə DQMV-də kütləvi kitabxanaların kitab fondu 150 min nüsxəyə çatdı. Vilayətdə hər 1000 nəfərə 2 kitabxana, hər bir sakinə 18 kitab düşürdü. Kənd kitabxanalarının fondunda isə 98 min nüsxə müxtəlif ədəbiyyat var idi[25]. Lakin bütün bunlarla yanaşı vilayətin erməni rəhbərliyi yeni kitabxanaların açılmasında və kitabların komplektləşməsində azərbaycanlılar yaşayan ərazilərə ögey münasibət göstərmişdilər. Kitabxanalar yalnız erməni dilli kitablarla zənginləşdirilirdi. Belə ki, aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1951-ci ildə DQMV-nin Hadrut rayonunda 48, Xocavənd rayonunda 47, Ağdərə rayonunda 59, Xankəndi rayonunda 50 kitabxana olduğu halda, əsasən azərbaycanlılar yaşayan Şuşa rayonunda cəmi 8 müstəqil dövlət kitabxanası və 6 klub kitabxanası fəaliyyət göstərirdi[26]. Xankəndi rayonun ermənilər yaşayan bütün kəndlərində kitabxanalar olduğu halda, rayonun azərbaycanlılar yaşayan 10 kənddən yalnız Kərkicahan və Kosalarda kitabxana var idi. DQMV-nin azərbaycanlılar yaşayan kəndlərdəki kitabxanalar erməni dilində olan ədəbiyyat daha çox gətirilirdi. Məsələn, təkcə 1950-ci ildə Xocavənd rayonunun Muğanlı kənd kitabxanasına daxil olan 249 nüsxə ədəbiyyatın 200 nüsxəsi erməni, 27 nüsxəsi rus, yalnız 22 nüsxəsi Azərbaycan dilində olmuşdu. Bütün bunlara baxmayaraq Azərbaycan hökuməti DQMV-də mədəni-maarif işinin inkişafı üçün öz qayğısını davam etdirirdi.

Mədəni-maarif işinin ən kütləvi vasitələrindən biri kino idi. 1946-1950-ci illərdə Azərbaycan hökuməti DQMV-nə 16 yeni kinoqurğusu göndərdi. Bölgədəki kino qurğularının sayı 1923-cü ildə 1, 1940-cı ildə 22 ədəd idisə, 1950-ci ildə artırılaraq 38-ə çatdı[27]. Bu kinoqurğulardan 24-ü stasionar, 14-ü isə səyyari idi. Vilayətdə xalqın mariflənməsi işində kinoların rolu böyük olmuşdur. 1950-ci ildə DQMV-i ərazisində göstərilən kinoların sayı 288000-ə bərabər idiki bu da 1940-cı illə müqayisədə 35 faiz artıq demək idi[28].

Azərbaycanda 1946-1950-ci illərdə mədəni-marif işini inkişaf etdirmək məqsədilə 1947-ci ildə «Azərbaycan Siyasi və Elmi Birlikləri Yayan Cəmiyyət» yaradıldı[29]. Həmin Cəmiyyət 1947-1949-cü illərdə öz sıralarında 2,2 min ziyalını və istehsalat qabaqcılını birləşdirmişdi[30]. Cəmiyyətin DQMV-də də, filyalı



yaradılmış və əhali arasında mədəni-marif işinin aparılmasında xeyli işlər görmüşdü. Xalqın mariflənməsi işində teatrın rolunu xüsusi qeyd etmək lazımdır. 1950-ci ildə Azərbaycanda cəmi 9 teatr fəaliyyət göstərirdi ki, bunlardan biridə DQMV-nin payına düşürdü[31]. M.Qorki adına Xankəndi Dövlət Dram Teatrı XX əsrin 20-ci illərində həvəskar dram dərnəyi şəklində fəaliyyətə başlamış və 1932-ci ildən dövlət teatrı kimi təşkil edilmişdir[32]. Dram Teatrı 1946-1950-ci illərdə DQMV-nin kəndlərində səyyari tamaşalar göstərirdilər. Aparalan araşdırmalar nəticəsində məlum olur ki, tamaşalar yalnız ermənilər yaşayan kəndlərdə nümayiş etdirilirdi. Bunun əsas səbəbi, bir tərəfdən azərbaycanlılar yaşayan kəndlərdə tamaşanın göstərilməsi üçün yer problemi ilə bağlı idisə, ikinci bir tərəfdən teatr truppasının tərkibinin sırf ermənilərdən ibarət olması ilə əlaqəli olmuşdur. XX yüzilliyin 40-cı illərinin sonlarında Dağlıq Qarabağ rəhbərliyi xalqımıza qarşı öz «etibarlılığını» bir daha nümayiş etdirdi. Belə ki, əsası Ə.Haqverdiyev tərəfindən XIX əsrin sonlarında qoyulan Şuşa Teatrı namərd «gülləsinə» tuş gələrək bağlandı[33].

1946-1950-ci illərdə DQMV-də klubların sayında da 35 faiz artım müşahidə edilmişdir. Belə ki, vilayətdə 1927-ci ildə 28, 1933-cü ildə 83 (80-ni kənddə), 1940-cı ildə 151 (147-si kənddə) klub fəaliyyət göstərirdisə, 1950-ci ildə klubların sayı artaraq 204-ə (bundan 193-ü kənddə) çatmışdır[34]. Klublar yaradılarkən də azərbaycanlılar yaşayan kəndlər diqqətdən kənarda qalmışdır.

1950-ci ildə DQMV-də əhali arasında mədəni-maarif işi aparan 2 muzey fəaliyyət göstərirdi. Bu muzeylərdən biri 1946-1950-ci illərdə Xankəndində yaranmış ölkəşünaslıq muzeyi idi. 1950-ci ildə DQMV-də muzeylərə gələnləri sayı 12000 nəfər olmuşdu[35]. Muzey daxilində keçirilən elmi-kütləvi iş, habelə muzeylərin təşkil etdikləri ekskursiyalar, səyyar sərgilər, müharibə veteranları və əmək qəhrəmanları ilə görüşlər əhali arasında rəğbətlə qarşılanırdı. Lakin mədəni-maarif idarələrinin fəaliyyətində formalizm və rəsmiyyətçilik kimi ünsürlər qalmaqda idi və xalqın lazımi qaydada tərbiyələnməsində həmin müəssisələrin gücündən kifayət qədər istifadə edilmirdi.

Bəhs etdiyimiz dövrdə DQMV-də Azərbaycan Sovet Yazıçılar İttifaqının Xankəndi şöbəsi, 120 mədəniyyət evi, istirahət və mədəniyyət parkları və sair fəaliyyət göstərirdi. 1946-1950-ci illərdə DQMV-də mətbuat və radio verilişi sahəsində böyük müvəffəqiyyətlər əldə edilmişdir. Vilayətdə 6 adda qəzet nəşr olunur ki, bunlarda 4-ü erməni dilində, 1-i Azərbaycan dilində, 1-i isə rus dilində buraxılır[36]. Xankəndində buraxılan qəzet «Sovetakan Karabax» («Sovet Qarabağı») adlanır və erməni dilində nəşr edilir. Sonralar Xankəndində «Sovetskiy Karabax» qəzeti nəşr edilməyə başlanmışdır. Ağdərə rayonunda «Barekamutyun» («Dostluq»), Hadrut rayonunda «Koltntesekan» («Kolxozçu»), Şuşa rayonunda «Şuşa» qəzeti (sonralar bu qəzetin adı məqsədli şəkildə dəyişdirilib «Sosialist maldarlığı» adlandırıldı) Xocavənd rayonunda isə «Aşxatanq» («Əmək») qəzeti nəşr edilirdi. Lakin əvvəlki dövrlərlə müqayisədə DQMV-də qəzetlərin illik tirajında azalma halı müşahidə edilmişdi[37]. Məsələn, 1937-ci ildə 15,2 min tirajla, 1940-cı ildə 18,4 min tirajla buraxılırdısa, 1950-ci ildə bu rəqəm 11,8 minə enmişdi[38]. Bəhs etdiyimiz dövrdə «Sovetakan Karabax» qəzeti bütün qəzetlərdən 10 dəfə artıq tirajla nəşr edilir və yayılırdı.

1946-1950-ci illərdə DQMV-də xalq təsərrüfatı, mədəniyyət və maarifin inkişafı ilə yanaşı səhiyyənin də inkişafında irəliləyiş diqqəti cəlb edirdi. Dağlıq Qarabağda insanlara tibbi xidmət ilbəil yaxşılaşır, əhalinin sağlamlığının mühafizəsinə sərf edilən vəsait artır, müalicə-profilaktika müəssisələrin şəbəkəsi genişlənirdi. Belə ki, 1913-cü ildə Dağlıq Qarabağa daxil olan ərazilərdə 30 çarpayılıq xəstəxana, 1926-cı ildə 150 çarpayılıq 5 xəstəxana, 1940-cı ildə 372 çarpayılıq 15 xəstəxana olduğu halda, 1950-ci ildə 587 çarpayılıq 16 xəstəxana var idi[39]. Bu zaman Azərbaycanda cəmi 12 min çarpayısı olan 222 xəstəxana fəaliyyət göstərirdi[40].

Həkimlərin və orta tibb işçilərinin sayı da durmadan artırdı. Belə ki, 1913-cü ildə bölgədə cəmi 2 həkim olduğu halda, 1940-cı ildə həkimlərin sayı 86-ya (bundan 46-sı kənddə), 1950-ci ildə isə təxminən 2 dəfə artaraq 153-ə (bundan 64-ü kənddə) çatmışdı[41]. Bundan əlavə DQMV-də 42 hərbi həkim var idi. Ayrı-ayrı ixtisaslar üzrə həkimlərin sayı 1950-ci ildə aşağıdakı kimi olmuşdur.



Cərrahlar 20 nəfər can həkimi 58 nəfər, qadın həkimi 15 nəfər, uşaq həkimi 30 nəfər, göz həkimi 5 nəfər, yolxucu xəstəliklərə qarşı mübarizə həkimi 16 nəfər, burun, qulaq, boğaz həkimi 3 nəfər, əsəb xəstəlikləri həkimi 3 nəfər, vərəm həkimi 9 nəfər, Dəri-zöhrəvi xəstəlikləri həkimi 5 nəfər, rentgen şüaları ilə müalicə həkimi 6 nəfər, Ağız boşluğu, çənə ilə bağlı olan xəstəliklərə qarşı mübarizə həkimi 11 nəfər, diş həkimi 14 nəfər[42].

1932-ci ildə Xankəndində açılan tibb məktəbi DQMV-nin xəstəxanalarını ixtisaslı mütəxəssislərlə təmin etməkdə böyük işlər görmüşdü. 1940-1950-ci illər ərzində orta tibb işçilərinin sayında çox böyük irəliləyiş müşahidə edilmişdir. Belə ki, 1940-c ildə Dağlıq Qarabağ müalicə müəssisələrində 260 orta tibb işçisi var idisə (bundan 160-ı kənddə), 1950-ci ildə onların sayı 621-ə (bundan 356 nəfər kənddə) çatmışdır. 1950-ci ildə Xankəndində daha bir xəstəxana tikilib istifadəyə verilmişdir. 200 çarpayılıq bu xəstəxanada cərrahlıq, daxili xəstəliklər, əsəb xəstəlikləri, mamaçalıq, qadın xəstəlkləri, uşaq xəstəlikləri, yoluxma xəstəlikləri şöbələri təşkil olunmuşdur. Burada aptek, laboratoriya və müxtəlif kabinələr yaradılmışdır. Vilayətin bütün rayonlarında xəstəxanalar fəaliyyət göstərirdi. Şuşada 2, Ağdərədə 5, Hadrudda 3, Xocavənddə 2, Xankəndində 4 xəstəxana var idi. Bundan başqa 1950-ci ildə DQMV-də 8 polilklinika, 6 qadın və uşaq məsləhətxanası, 68 feldşer – analıq məntəqəsi və amblatoriyalar fəaliyyət göstərirdi[43].

1940-1950-ci illərdə Azərbaycan SSR-də əhalinin artım tempi aşağı düşmüşdü. Bunun ən başlıca səbəbi ikinci dünya müharibəsində xalqımızın iştirakı və yüz minlərlə insanın dünyasını dəyişməsi və müharibədən sonrakı ilk ağır illərin iqtisadi, sosial və mənəvi çətinlikləri ilə bağlı idi. 1940-cı ildə Azərbaycanda 3 milyon 205 min nəfər əhali yaşayırdısa 1950-ci ildə bu göstərici 2 mlyon 859 minə enmişdi[44]. Azərbaycanın hər yerində o cümlədən DQMV—də bu cür azalma halı müşahidə edilmişdir. Belə ki, DQMV-də 1950-ci ildə 1940-cı ilə nisbətən 22 min nəfər azalmışdı. Dağlıq Qarabağda əhalinin sayı 1940-cı ildə 150 min, 1945-ci ildə 135 min, 1950-ci ildə 128 min nəfər olmuşdur[45]. Bəhs etdiyimiz dövrdə əhalinin sosial strukturunda da dəyişikliklər müşahidə edilmişdir. Fəhlə

sinifinin və qulluqçuların sayında nisbi irəliləmə halları müşahidə edilmişdir. Məlum hadisələrlə bağlı kişilərin sayı qadınlardan aşağı idi. Səhiyyənin vilayətdə inkişafı ilə bağlı əhali arasında ölüm halları əvvəlki illərlə müqayisədə aşağı düşmüşdü. Məsələn, 1940-cı ildə hər 1000 nəfər 13,5 nəfər ölüm olmuşdursa, 1950-ci ildə bu rəqəm 9,5 nəfərə enmişdi. DQMV-də 1940-cı ildə hər 1000 nəfərə artım 35,2 nəfər idisə, 1950-ci ildə bu rəqəm 31,4 nəfər olmuşdu. Naxçıvan Muxtar Respublikasında müvafiq illərdə bu göstərici 30,9 və 30,2 arasında dəyişmişdir[46].

Dünya müharibəsi əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdu. Əhalinin ərzaq məhsullarına olan tələbatını ödəmək üçün dövlət 1944-cü ildən kommersiya ticarətinə icazə verdi. Kommersiya ticarətində mallar kartoçkalarla, lakin yüksək qiymətlərlə satılırdı. Kommersiya ticarəti kolxoz bazarında qiymətlərin aşağı düşməsinə kömək edir və azad ticarətin inkişafına təkan verirdi. 1940-cı illə müqayisədə 1950-ci ildə DQMV-də illik mal dövriyyəsində böyük irəliləmə müşahidə edilmişdir. Belə ki, müvafiq illərdə 5950000-dən 12770000-ə qalxmışdır[47]. Bundan kommersiya ticarətinin illik mal dövriyyəsi 4255000-dən 8835000-ə, dövlət ticarəti mal-dövriyyəsi isə 1695000-dən 3935000-ə çatmışdır[48].

Müharibə illərində şəhər əhalisinin mühüm ərzaq və sənaye malları ilə təchizi üçün kartoçka sistemi tətbiq edilmiş, 1947-ci ilə isə ləğv edilərək, onların vahid dövlət pərakəndə qiymətləri ilə satışına keçirilmişdir. Bəhs etdiyimiz dövrdə pul islahatı da keçirilmişdir ki, bu da kənddə pul sisteminin möhkəmlənməsinə imkan vermişdir. İstehsalın ardıcıl olaraq artması DQMV-də əhalinin gəlirlərinin çoxalmasına səbəb olmuşdur. 1945-1947-ci illər ərzində fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 3 faiz artmışdırsa, 1950-ci ildə isə 1940-cı illə müqayisədə 81 faizi ötüb keçmişdir[49]. Vilayətdə əhalinin gəlirlərinin çoxalmasını əmanət kassalarının və əmanətçilərin sayının artması faktlarında da görmək olar. Belə ki, 1950-ci ildə Vilayətdə əmanət kassalarının sayı 34, əmanətçilərin sayı isə 11237-ə çatırdı. Bu isə əvvəlki dövrlərlə müqayisədə 2 dəfə artıq demək idi. 1948-ci ildən başlayaraq ərzaq və qeyri-ərzaq məhsullarının



pərakəndə satışı qiymətlərində aşağı enmə halı müşahidə edilmişdir. 1950-ci ildə 1947-ci illə müqayisədə ümumi pərakəndə satış qiymətləri 43 faiz, ərzaq məhsulları 47 faiz, sənaye malları 35 faiz aşağı düşmüşdü[51]. Lakin əhalinin alıcılıq qabiliyyəti hələ ki, lazımi səviyyədə deyildi.

1946-1950-ci illərdə DQMV-də kənd təsərrüfatındakı irəliləmələr – istehsalın artması, heyvandarlıq məhsulları tədarükünün mütləq normalarının azaldılması, kənd təsərrüfatı məhsullarının tədarük və satınalma qiymətlərinin artırılması kolxozçuların maddi vəziyyətinin yaxşılaşmasına kömək edirdi. 1950-ci ildə DQMV-də kolxozçuların pul gəliri 1940-cı ildəkindən 1,5 dəfə çox idi[52].

1946-1950-ci illərdə DQMV-də nəqliyyat sahəsində də xeyli müvəffəqiyyətlər əldə edilmişdi. Həmin dövrdə planda nəzərdə tutulmuşdu: «Yol azlığını tamamilə aradan qaldırmaqdan, hərəkət sürəti artmış olduğu şəraitdə avtomabil nəqliyyatı vasitəsilə və yükdaşınması sahəsində artan tələbatı ödəyə biləcək təkmilləşdirilmiş möhkəm yollar yaratmaq üçün yol təsərrüfatını əsaslı surətdə dəyişib yenidən qurmaqdan ibarətdir». Azərbaycan hökümətı DQMV-də yolların uzunluğunu 2 dəfə, o cümlədən şosse yollarını 6 dəfə artırmağı, yeni dəmir yolu xəttini çəkmək və Xankəndi Yevlax təyyarə xəttini açmağı qarşıya məqsəd qoymuşdu[53]. Bütün bunların həyata keçirilməsi üçün dövlətimiz 1940-cı illə müqayisədə 1946-cı ildə DQMV-də yol tikinti abadlıq işlərinə 2,5 dəfə artıq vəsait ayırmışdı. Bəhs etdiyimiz dövrdə Hadruddan Gizləyə bərk örtüklə yol çəkildi. Eyni zamanda Tərtər-İstisu yolunun inşasında xeyli işlər görüldü. 1950-ci ildə Yevlax-Xankəndi dəmiryolu çəkilib istifadəyə verildi. Xankəndi-Yevlax təyyarə xətti açıldı. Beləliklə, 1950-ci ildə DQMV-də yolların uzunluğu 1923-cü illə müqayisədə 2,2 dəfə, o cümlədən şosse yollarının uzunluğu 7 dəfə artmışdı[54].

Beş il ərzində vilayətdə nəqliyyatın təkmilləşdirilməsi sayəsində mühüm nailiyyətlər qazanılmışdır. 1950-ci ildə avtomobil nəqliyyatının yük dövriyyəsi 1940-cı ilə nisbətən 3,5 dəfə, ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə sərnişin daşınması isə 2 dəfə artdı.

1946-1950-ci illərdə DQMV-də radiorabitə vasitələri böyük sürətlə inkişaf edirdi. 1950-ci ildə vilayətdə 3 radioverilişi nöqtəsi, 3 radioqovşağı və 2705

radioqəbuledici nöqtələri fəaliyyət göstərirdi. Ümumilikdə Azərbaycanda radioqəbuledicilərin sayı 181 minə çatırdı. Naxçıvanda isə bu göstərici 1927-yə bərabər idi[55]. Əhalinin sağlamlığının mühavizəsində sanatoriya-kurort müalicə və istirahət evləri mühüm rol oynayırdı. 1950-ci ildə Azərbaycanda 38 istirahət evi və sanatoriya fəaliyyət göstərirdi ki, bunlardan biri də Şuşa şəhərinin payına düşürdü. Şuşa şəhəri özünün təbii mənərəsi, gözəl havası, saf suyu, tərifli İsa bulağı, Turş suyu ilə hamının hörmətini qazanmışdır. Şuşa Azərbaycanın gözəl istirahət şəhəri, Sağlamlıq və gümrahlıq məskənidir. 1946-1950-ci illərdə Şuşada istirahət və müalicə ocaqlarının sayı xeyli artmışdır. Bəhs etdiyimiz dövr ərzində respublikamızın müxtəlif rayonlarından minlərlə insan Şuşaya istirahətə gəlmiş, xəstələr burada şəfa tapmışlar. 1950-ci ildə Şuşada istirahət edənlərin sayı 1940-cı illə müqayisədə 3 dəfə çox olmuşdur. 1947-ci ildə Şuşada Ümumittifaq maliyyə-bank işçilərinin sanatoriyasında 420 nəfər respublikamızın vətəndaşları istirahət etmiş və 1948-ci ildə həmin sanatoriya istirahət evinə çevrilmişdir. 1950-ci ildə həmin istirahət evində 1800 nəfər istirahət etmişlər. Ümumilikdə 1950-ci ilin yayında Şuşada 2500 nəfər insan istirahət etmişdir[56]. Havasının və suyunun təmizliyinə görə, 1946-1950-ci illərdə Azərbaycanın ayrı-ayrı rayonları Şuşa şəhərində pioner düşərgələri açmışdılar. Uşaqların sağlamlığını təmin etmək üçün Şuşada «Respublika sağlamlıq məktəbi» yaradılmışdır. Həmin məktəbdə 1948-ci ildə Azərbaycanın 3 rayonundan gələn 160 uşaq istirahət edirdi. İlbəil həmin uşaqların sayı artır. Həmin məktəbdə uşaqların təlim-tərbiyəsi və sağlamlıq işləri üçün 1947-ci ildə 1150000 manat, 1948-ci ildə 1406000 manat vəsait xərclənmişdirsə 1950-ci ildə həmin vəsait 1554000 manata çatmışdır.

Bundan əlavə 1946-1950-ci illərdə Şuşa şəhərində «Respublika Uşaq Sanatoriyası»da fəaliyyət göstərirdi. 1950-ci ildə bu sanatoriyada olan uşaqların sağlamlığı üçün 2340000 manat vəsait xərclənmişdir.

1946-1950-ci illərdə Şuşadakı «Xan qızı» və «Tətavüz» su kəmərləri əsaslı təmir edilib istifadəyə verilmişdir. Təəssüflər olsun ki, 1992-ci il mayın 8-dən basılmazlıq, əyilməzlik rəmzi olan qala divarları, igidlər oylağı Cıdır düzü, gözəllik çələngi Topxana meşəsi, həzin zümzüməli Daşaltı çayı, məşhur İsa



bulağı, min bir dərdin dərmam olan yaylaqlarımız, təbiətin möcüzəsi hesab olunan Xarı bülbül – Qala adı ilə tanınan Şuşamız yad əllərdədir.

1946-1950-ci illərdə Xankəndinin abadlaşdırılmasına xüsusi diqqət yetirilmişdir. Xankəndi şəhər zəhmətkeş deputatları Sovetinin icraiyyə komitəsinin sədri V.Stepanyanın yazdıqlarına görə, «son 20 il ərzində Xankəndinin siması əsaslı surətdə dəyişilib tanınmaz olmuşdur. 25 il bundan öncə bir neçə evdən və zirzəmilərdən ibarət olan, Qarabağ xanlığının axırıncı xanı Mehdiqulu xanın mülkü olan Xankəndi Azərbaycan dövlətinin qayğısı sayəsində respublikamızın mədəni və abad şəhərlərindən birinə çevrilmişdir»[57].

Bir həqiqəti qeyd etmək yerinə düşərdi ki, Azərbaycan dövlətinin başçısı Mir Cəfər Bağırov bəhs etdiyimiz dövrdə Xankəndinin inkişafına xüsusi diqqət yetirmişdir. Mir Cəfər Bağırovun çıxışlarından da bunu aydın görmək olar: «Keçmişdə Xankəndi adlanan bugünki Sovet Stepanakertinə bir nəzər salın. Doğrudur onun əhalisi o qədərdə çox deyil, çoxmilyonlu şəhərə çevrilməyib, cəmi 15.000 əhalisi var. ancaq mən arzu edərdim ki, İşverənin ən gözəl şəhəri bu günkü Stepanakertə bənzəsin»[58]. DQMV-nin mərkəzinə çevrilmiş Xankəndi şəhərinin necə inkişaf etdiyini aşağıdakı faktlardanda, görmək olar. Belə ki, 1929-cu ildə Xankəndində ən yeni avadanlıqlarla təchiz olunub mexanikləşdirilmiş böyük ipək sarıma fabriki tikilmiş və 40-cı illərin sonlarında burada böyük toxuculuq kombinatı da tikilmişdir. İpək sarıma fabrikinin yanında gözəl ikimərtəbəli evləri, yaşıl bağları və məktəbəqədər tərbiyə ocaqları olan böyük fəhlə qəsəbəsi tikilmişdir. 1946-1950-ci illərdə Xankəndi şəhərində yerli sənaye və sənət kooperasiyası şəbəkəsi genişlənmişdir. Burada fəaliyyət göstərən zavod ildən-ilə böyüyərək DQMV-nin kolxoz və müəssələrinin ehtiyaclarını ödəyirdi. Xankəndi yerli sənaye fabrikası özünün zərif və möhkəm mebeli ilə yalnız DQMV-də deyil bütün respublikada şöhrət qazanmışdır. Xankəndi sənət kooperasiyasının artelləri əhalinin ehtiyaclarını ödəmək üçün çoxişlənən mallar: ayaqqabı, üst və alt paltarlar trikotaj malları, qab-qacaq və sair buraxır. 1926, 1939 və 1959-cu illərdə əhalinin siyahıya alınması zamanı məlum olur ki, Xankəndi şəhərində əhalinin sayı çox sürətlə artmışdır. Belə ki,

həmin illərdə Xankəndi şəhərində əhalinin sayı 6,2 dəfə çoxalaraq 3,2 min nəfərdən 19,7 min nəfərədək yüksəlmişdir (1926-1959-cu illərdə). Bəhs edilən illərdə isə şuşa şəhərində əhalinin sayı 5,1 min nəfərdən 6,1 min nəfərədək qalxmışdır[59]. (Artım 0,2 dəfə).

1940/1941-ci tədris ilində DQMV-də 35 orta məktəb var idi ki, bunun 5-i Xankəndinin payına düşürdü. Burada 1946-1950-ci illərdə axşam məktəbləri, kənd təsərrüfatı texnikomu, tibb və musiqi məktəbləri yaradılmışdır. 1947-ci ildə həmin məktəblərdə 3500 nəfər oğlan və qız oxuyurdu. Xankəndində fəaliyyət göstərən 12 körpələr evi və uşaq bağçasında 500-ə qədər uşaq tərbiyə edilirdi. Burada müalicəxana, xəstəxana, uşaq məsləhətxanası və başqa səhiyyə müəssisələri yaradılmış, əhaliyə göstərilən tibb xidməti yaxşılaşdırılmışdır. Xankəndində fəaliyyət göstərən Maksim Qorki adına dram teatrı burada yaşayan əhalinin böyük rəğbətini qazanmışdır. Şəhərin qış və yay kinoteatrlarında əhali ölkəmizin ən yaxşı filmlərinə tamaşa edirdi. 1946-1950-ci illərdə Xankəndi şəhərinin küçələri qaydaya salınmış, ağaclar əkilmiş və başqa abadlıq işləri görülmüşdür. Burada yaradılmış xəstəxanaların ərazisində yeni parklar yaradılmışdır.

Xankəndində mövcud su-elektrik stansiyasından əlavə 400 kilovat-saat qüvvəsində yeni stansiya 1948-ci ildə işə salınmışdır[60]. Şəhərin işıqlandırılmasında həmin stansiyanın gücündən geniş istifadə edilirdi. Bütün bunlarla yanaşı Xankəndi şəhərində Azərbaycan Elmlər Akademiyasının və Yazıçılar ittifaqının Xankəndi filialı, pedaqoji institut və istirahət mərkəzi də fəaliyyət göstərirdi. Beləliklə DQMV-nin Xankəndi şəhərində 1946-1950-ci illərdə böyük dəyişikliklər baş verdi. Yeni yaşayış binaları, idman qurğuları, klub, kinoteatr binaları və sair tikilib burada yaşayanların istifadəsinə verildi. 1946-1950-ci illərdə DQMV kəndlərinin siması xeyli dəyişmişdi. Belə ki, kəndlərin əksəriyyətinə yeni yollar çəkilmiş, çoxlu evlər tikilmiş, mağazalar, xəstəxanalar, məktəblər inşa edilib yerli əhalinin istifadəsinə verilmişdir. Lakin çox təəssüflər olsun ki, DQMV-də azərbaycanlıların yaşadıqları kəndlərə biganəlik göstərilmiş və həmişə məqsədli şəkildə diqqətdən kənarda qalmışdı.



Məsələn, 1300 əhalini və 4 yaşayış məskənini özündə birləşdirən Xocalıda orta məktəb olmadığı halda, 1 yaşayış məskəni və 500 nəfər əhalisi olan erməni kəndlərində nəinki orta məktəb, hətta, kitabxana, uşaq bağçaları, müalicə profilaktika mərkəzləri, idman qurğuları, radioqovşağı və sair yaradılmışdı.

Beləliklə, 1946-1950-ci illərdə DQMV-nin erməni rəhbərliyinin həyata keçirdiyi «kompleks tədbirlər» nəticəsində vilayətdə milliyyətcə azərbaycanlı olanlar sıxışdırılmağa başlamış, erməni əhalisinin maddi rifah halının yüksəldilməsi təmin olunmuş, onların əmək və məişət şəraiti yaxşılaşmışdır. Ümumilikdə isə, sovet imperiyasının DQMV-də 1940-1950-ci illərdə mədəni quruculuq «siyasəti» öz bəhrəsini verdi. İlk növbədə DQMV-də erməni və rus dilində məktəblərin geniş şəbəkəsinin yaradılmasına nail olundu. Müxtəlif ixtisaslı erməni, rus və digər millətlərdən olan kadrların sayı xeyli artırıldı və onların yerləşdirilməsinə «beynəlmiləlçilik» pərdəsi altında xüsusi diqqət verildi. Milliyyətcə qeyri-azərbaycanlıların vilayətin dövlət idarə orqanlarında işlə təmin olunması Sovet imperiyasının bölgədə dayaqlarının daha da möhkəmləndirilməsinə ciddi təsir göstərdi.

## VII FƏSİL

# XX ƏSRİN 40-CI İLLƏRİNDƏ AZƏRBAYCAN SSR DQMV-DƏ ERMƏNİLƏRİN NÖVBƏTİ ƏRAZİ İDDİALARI VƏ NƏTİCƏLƏRİ

Azərbaycanın tarixi torpaqları hesabına özlərinə dövlət yaradan ermənilər, çox təəssüflər olsun ki, bununla kifayətlənməyərək daxili və xarici havadarlarına arxalanaraq zaman-zaman, hissə-hissə Azərbaycan ərazisini işğal etmişdilər. Belə mərhələlərdən biridə ikinci dünya müharibəsindən sonrakı dövrə təsadüf olunur. Bəhs etdiyimiz dövrdə ermənilər təkcə torpaqlarımızı işğal etməklə kifayətlənmədilər. Onlar həm də, azərbaycanlıları min illər boyu yaşadıqları öz doğma tarixi – etik torpaqlarından didərgin salaraq, kütləvi qətl və qırğınlara məruz qoymuş, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənlərini dağıdıb viran etmişdilər.

Vaxtılə dünyanın müxtəlif dövlətlərindən məqsədli şəkildə Azərbaycana köçürülərək, hər cür şəraitlə təmin olunan ermənilər, sonralar həmin torpaqların onların ata-babalarına məxsus olması fikrini irəli sürür və xalqımızı zorla, kütləvi surətdə, müxtəlif vasitələrlə öz yurdlarından köçürür və ya köçməyə məcbur edirdilər. Belə yerdə müdriklərimizdən birinin dediyi rəvayəti xatırlamaq yerinə düşərdi: «Ermənilər öz hərəkətləri ilə Qu-quşunu xatırladırlar. Bu quşlar öz yumurtalarını başqa quşların yuvasına qoyur, həmin yuva sahibi olan quş, qu-quşunun yumurtasına öz yumurtası kimi baxır, istidən, soyuqdan və müxtəlif amillərdən qoruyur. Yumurtadan çıxan qu-quşlarının balaları yuva sahibinin həqiqi balalarını hələ gözü bağlı ikən yuvadan sıxışdırıb yerə atırlar. Sadəlöv yuva sahibləri isə yem daşıyaraq qarınqulu qu quşlarının balalarını yemləyir və onlar öz balaları kimi baxıb böyüdürdülər. Bir müddətdən sonra qu quşları böyüdülər və ağzında onlara yem daşıyan yuva sahiblərini «bu yuva mənimdir» deyib onları oradan qovdular». Doğrudan da deyilmiş yuxarıdakı rəvayətdə bir hikmət var. Müxtəlif vaxtlarda, ayrı-ayrı bölgələrdən torpaqlarımıza köçən



ermənilər bu gün həmin torpaqlarımıza sahib dururlar. Onlar «Böyük Ermənistan» dövləti yaratmaq üçün müxtəlif yol və vasitələrdən istifadə edirdilər.

Bir həqiqətidə qeyd etmək yerinə düşərdi ki, Azərbaycana qarşı ermənilərin ərazi iddiaları məsələsində Moskova hakimiyyətində maraqlı idi. Vaxtılə Azərbaycanın 9 min kvadrat kilometirlik ərazisində «Erməni vilayəti» yaradan[1] Rus höküməti gələcəkdə dövlətimiz üzərində öz hakim mövqeyini saxlamaq naminə bölgədə milli münaqişə ocağını qarışdırdı. Məkirli və mənfur siyasət sahibləri XX yuzilliyin 40-cı illərində qondarma «Dağlıq Qarabağ» konfliktini suni surətdə daha da kəskinləşdirmişdilər. Moskovanın fitvası və havadarlığı ilə mərkəzdəki və xarici ölkələrdəki lobbisinə arxalanan erməni millətçiləri, kommunist – daşnaklar Azərbaycanın qədim və zəngin torpaqları olan Qarabağı ondan qoparıb Ermənistana verilməsi tələbi ilə çıxış edirdilər. Hələ 1940-cı illərdə Moskovadakı erməni lobbisinin başçısı A.Mikoyanın təşəbbüsü ilə Ermənistanda partiya xadimlərinin fəal iştirakı ilə gizli «Qarabağ hərəkatı», «Qarabağ Komitəsi» yaradılmışdı[2]. Bəhs etdiyimiz dövrdə xalqımızın üzləşdiyi ciddi və təhlükəli problemlərdən biridə, azərbaycanlıların Ermənistan SSR-dəki tarixi-etnik ərazilərindən zorla sıxışdırıb çıxarılması – deportasiyası olmuşdur. 1943-cü ildə ikinci dünya müharibəsinin gedişi dövründə üç dövlət başçılarının Tehran konfransında Sovet-İran münasibətləri müzakirə edilərkən erməni disporu əlverişli vəziyyətdən istifadə edərək «köçürülmə məsələsi»ni ortaya atmışdılar[3]. Erməni lobbisi SSRİ xarici işlər naziri V.Molotova müraciət edib xahiş etmişdir ki, İranda yaşayan ermənilərin SSRİ-yə köçməsinə icazə versinlər[4]. Molotov elə oradaca İ.Stalinlə danışıqdan sonra onların köçürülməsinə razılıq vermişdir[5]. Ermənistan K(b)PMK-nin birinci katibi Q.Hartyunov bu fürsətdən məharətlə istifadə etdi. O, xaricdəki ermənilərin Ermənistana köçürülməsi və azərbaycanlıların Ermənistandan zorla köçürülməsi barədə qərar verilməsinə nail olmuşdur.

1945-ci ilin payızında Q.Hartyunov başda olmaqla Ermənistan rəhbərliyi növbəti dəfə ÜİK(b)P MK qarşısında Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana verilməsi məsələsini qaldırır[6]. Ermənistan K(b)P MK və

XKS-nin İ.V.Stalinə ünvanlanmış müraciəti heç bir elmi, tarixi əhəmiyyəti olmayan yalan bir uydurmadan ibarət idi. Həmin əsassız müddəada göstərilirdi ki, DQMV-nin ərazisi iqtisadi cəhətdən daha çox Azərbaycan SSR-də deyil, Ermənistan SSR-lə bağlıdır. Onlar coğrafi məkan yaxınlığını əsas götürərək Dağlıq Qarabağı Ermənistana birləşdirməyi vacib məsələ kimi qaldırmışdılar. Ermənistanın dövlət başçısı guya belə bir faktı əsas gətirirdi ki, DQMV-də iqtisadi və mədəni inkişafı şərtləndirən amil Ermənistanın bölgəyə yaxından iqtisadi köməyi olmuşdur. Lakin tarixi faktlar göstərir ki, bəhs edilən dövrdə Ermənistan SSR-in nəinki başqa bölgələrə kömək etmək, özünün yardıma ehtiyacı var idi və Azərbaycandan belə bir köməyi alırdı. Həmçinin Mərkəzə ünvanlanmış müraciətdə belə bir ağ yalan da var idi ki, guya DQMV-də yaşayan erməni əhalisi həmişə Azərbaycan rəhbərliyi tərəfindən sıxışdırılır, bölgəyə baxımsızlıq və ögey münasibət göstərilir, DQMV-nin iqtisadi və mədəni inkişafı Azərbaycanın başqa bölgələri ilə müqayisədə geri qalır. Ona görə də burada yaşayan əhali Ermənistan SSR-ə birləşməyi daha üstün tutur. Bəs tarixi faktlar nə deyir? Qərəzsiz elmi araşdırmalar əsasında müəyyən edilib ki, ermənilər Qarabağın dağlıq hissəsinə köçürüldükdən sonra hər cür şəraitlə təmin olunmuşlar. Hətta car rusiyası tərəfindən verilmiş fərmana görə onların silah gəzdirmək hüququ belə var idi. Həmçinin, imperiya rəhbərliyi yerlərdə öz dayaqlarını möhkəmləndirmək məqsədilə din qardaşlarını mötəbər vəzifələrdə yerləşdirmişdilər. Sovet hakimiyyəti illərində də bu hal davam etdirilmişdir. Dağlıq Qarabağa «ögey münasibət»i isə aşağıdakı faktlardan aydın görmək olar. Hansı dövrə müraciət etsək dediklərimiz tarixi həqiqətləri bir daha sübut etmiş olarıq. Məsələn, 1926-1927 tədris ilində Azərbaycan üzrə hər 1000 nəfərə 59 müəllim düşürdüsə, DQMV-də bu rəqəm 199-a, Naxçıvanda 46-ya, qonşu Ağdam rayonunda 38-ə çatırdı[7]; 1927-1933-cü illər ərzində Azərbaycanda cəmi 11 dövlətə məxsus ipək sənayesi müəssəsi yaradılmışdır ki, bunun 7-si DQMV-nin payına düşürdü[8]; 1934-cü ildə DQMV-də sovxoz və MTS-lərdə çalışan qulluqçular 1058 nəfər idisə, bu rəqəm Naxçıvanda 383-ə çatırdı[9]; 1933-cü ildə DQMV-də gücü 408 klovata çatan 4 elektrik stansiyası fəaliyyət göstərirdisə,



Naxçıvanda gücü 181 klovata çatan 1 elektrik stansiyası fəaliyyət göstərirdi[10]; 1926-1931-ci illərdə Xankəndində əhalinin sayı 3,4 mindən 4,9 minə (artım 54%) çatmışdırsa Bakıda 454 mindən 589 minə (artım 30%) Naxçıvan MSSR-də isə artım olmamışdır (10,3 min nəfər = 10,3 min nəfər)[11]; 1927/1928-ci təsərrüfat ilində Mərkəzi Dövlət Bankından abadlaşdırmaya; Xankəndinə 60 min, Naxçıvan MR-na 57 min, Bərdəyə 20 min vəsait ayrılmışdır[12]. Yuxarıda sadaladığımız və adlarını çəkmədiyimiz yüzlərlə faktlar DQMV-i mövcud olduğu bütün dövrlərdə müşahidə edilmişdir. Məsələn, 1950-1951-ci tədris ilində Azərbaycanda hər məktəbə orta hesabla 7 müəllim, Naxçıvan MR-də 6 müəllim düşdüyü halda DQMV-də 9 müəllim düşürdü[13]. Həmin ildə Azərbaycan üzrə hər 24 nəfər şagirdə 1 müəllim, Naxçıvanda 20 nəfərə 1 müəllim, DQMV-də isə 17 nəfərə 1 müəllim düşürdü[14]. 1987-ci ildəki bəzi faktları nəzərdən keçirək: Bəhs edilən ildə Respublika üzrə hər adama düşən istehsal məhsullarının həcmi 21 manat idisə, DQMV-də bu göstərici 30 manat olmuşdu. Həmin ildə Respublika üzrə adambaşına düşən mənzil 10,9 kvadrat metr ikən, DQMV-də hər adama 15 kvadrat metr mənzil düşürdü[15]. Bu və ya buna bənzər tarixi faktlar sübut edir ki, DQMV-də əhalinin sosial-iqtisadi vəziyyəti Azərbaycanın başqa regionları ilə müqayisədə üstün olmuşdur. Bütün bunlarla yanaşı DQMV-də yaşayan müsəlmanlar həmişə namərd ermənilərin mənfur və amansız siyasətinin qurbanına çevrilmişlər. Yuxarıda bu haqda qeyd etmişik və onlardan bəzilərini bir daha xatırlamaq yerinə düşərdi. 1960-cı illərdə DQMV-nin azərbaycanlılar yaşayan kəndlərdə məktəbəqədər uşaq müəssələri 10 faiz olduğu halda, ermənilər yaşayan kəndlərdə 30 faizdən çox olmuşdur[16]. Tibb müəssələri, idman qurğuları, rabitə xidməti və başqa sahələrdə də bu cür bərabərsizlik mövcud idi. Azərbaycanlılar yaşayan kəndlərdə iş yerləri olmadığı halda, ermənilərin məskunlaşdıqları kəndlərdə sənaye müəssisələrin və fabriklərin filialları açılırdı. İş yerləri olmadığından azərbaycanlılar yaşadıqları kəndlərdən çıxıb iş dalınca başqa şəhərlərdə getməklə həmin kəndlər gündən-günə boşalırdı.

Arxiv materiallarından birindən Xınzırıstan ipək emalı fabrikinin bir briqadasının mükafatlandırma cədvəlinə rast gəldik və oradan oxuyuruq: 1.

Beqlaryan Armenak – 5229 manat; 2. Mehdi Kərbalayi oğlu – 42 manat; 3. Mextaryan Baqdarsar 906 manat; 4. Dadaş Ağalar oğlu – 45 manat; 5. Kasparyan Karapet – 300 manat; 6. Dadaş Əsgər oğlu – 5 manat[17]..... və sair.

Adicə yuxarıdakı bərabərsizlik sitilində yazılmış cədvəli nəzərdən keçirməklə erməni rəhbərliyinin xalqımıza qarşı necə qəddar mövqe tutduğunun şahidi oluruq. Həm də gətirdiyimiz bu faktlar erməni daşnaklarının Azərbaycanın qədim və bərəkətli bölgəsi olan DQMV-nin Ermənistana birləşdirmək məqsədilə ağ yalan uydurduqlarını bir daha təsdiq edir.

Q.Y.Harutyunovun Moskvaya ünvanladığı müraciətin başqa bir bəndində göstərilirdi ki, guya DQMV-nin Azərbaycan SSR-dən alınıb Ermənistan SSR-ə birləşdirilməsi fikri bölgədə yaşayan bütün əhalinin rəyidir.Bu da tamam böhtandan başqa bir şey dyildir. Ona görə ki, ilk növbədə DQMV-də əhalinin xeyli hissəsinin azərbaycanlılar təşkil etdiyini və onların heç vaxt Ermənistan SSR-ə birləşmək fikrinin olmadığını demək lazımdır. Həmçinin XX əsrin istər 20-ci illərində istərsədə 40-cı illədə əhali içərisində aparılan rəy sorğusuna görə DQMV-də yaşayan dinc zəhmətkeş erməni əhali bol təbii sərvətlərə malik olan Azərbaycan SSR-də qalmağa üstülük verdiklərini bəyan etmişdilər. Q.Harutynovun boş cəfəngiyyatla dolu olan müraciətinin mətni ilə ətraflı tanış olan İ.V.Stalin həmin məsələ ilə məşğul olmağı ÜİK(b) P MK-nin katibi G.M.Malenkova tapşırdı. ÜİK(b) P MK-nin katibi G.M.Malenkov dərhal məsələyə müsbət reaksiya verdi[17]. O da Dağlıq Qarabağ məsələsində maraqlı idi. Məlum həqiqətdir ki, XX yüzillik ərzində Azərbaycana qarşı ermənilərin əsassız ərazi iddialarında daşnaklar aysberqin görünən tərəfi rolunu oynayırdılar. Əslində bütün hadisələr dövlət səviyyəsində hazırlanıb həyata keçirilən tədbir idi. İblis libası geymiş Moskvadakı məmurlar və onların Zaqafqaziyadakı yüksək rütbəli nümayəndələri ermənilərə «Böyük Ermənistan» dövləti yaratmağa rəvac verən qüvvələr hesab olunurdular.

1945-ci il noyabrın 28 – G.M.Malenkov Ermənistan dövlətinin başçısı Q.Harutynovun yazdığı müraciətin mətnini Azərbaycan K(b) P MK-nin birinci katibi M.C.Bağırova göndərdi[18]. M.C.Bağırov məsələ ilə ətraflı tanış olduqdan



sonra 10 dekabr 1945-ci ildə G.M.Malenkova cavab məktubu göndərdi. Aparılan tədqiqatlara əsasən məlum olur ki, M.C.Bağırov, məktubu tam məxvi qriflə yazmışdır[19]. Azərbaycan dövlətinin başçısı M.C.Bağırovun cavab məktubu həm çox maraqlı, həm də əhəmiyyətli idi. Ona görə maraqlı idi ki, Sovet hakimiyyəti illərində ilk dəfə idi ki, Azərbaycan dövlətinin başçısı tarixi Azərbaycan torpaqları problemini qaldırırdı. Məktubda Dağlıq Qarabağın tarixən Azərbaycan ərazisi olduğu elmi, sənədli faktlarla sübut edilirdi. Həmçinin M.C.Bağırov göstərirdi ki, Ermənistan K(b) P MK – birinci katibi Q.Harutynovun Dağlıq Qarabağla bağlı irəli sürdüyü bütün iddiaların heç bir elmi, tarixi əsası yoxdur və orada yazılanlar şər və boş cəfəngiyyatdır. DQMV-də yaşayan əhalinin sosial-iqtisadi vəziyyəti barədə sizin məlumatınız var və onlar nəinki Azərbaycanın başqa bölgələrinin hətta Ermənistanın əhalisindən üstün yaşayış tərzinə malikdirlər. Bölgədə yşayan dinc, zəhmətkeş ermənilər Ermənistana birləşmək fikrində olmayıblar. M.C.Bağırov Moskvanın yüksək rütbəli rəhbərinə tutarlı və obyektiv tarixi faktlar yazıb göndərmişdir.

Cavab məktubunda daha sonra göstərilirdi ki, Ermənistan dövlətinin Dağlıq Qarabağla bağlı ərazi iddialarına gəldikdə isə biz aşağıdakı şərtlərlə DQMV-ni Ermənistana güzəştə gedərik ki;

1. DQMV-nin Ermənistana güzəştə gediləcəyi təqdirdə, Azərbaycanlıların daha çox yaşadığı Şuşa rayonu DQMV-nin tərkibindən çıxarılmaqla Azərbaycanın tərkibində saxlanılsın;
2. Zəngəzur bölgəsi bütövlükdə Azərbaycana qaytarılsın;
3. Müxtəlif vaxtlarda Azərbaycandan məcburi şəkildə alınıb Ermənistana, Gürcüstana və Rusiyaya verilmiş bir çox tarixi ərazilər Azərbaycan SSR-ə qaytarılsın[20].

Moskva rəhbərliyi, daşnak liderlər və erməni lobbisi Azərbaycan rəhbərliyin bu səpgidəki cəsarətli cavabını gözləmirdi. Belə qətiyyətli cavab ermənilərin «Böyük Ermənistan» dövləti yaratmaq kimi mənfur planlarının pozulması demək idi. Həmçinin SSRİ rəhbərliyi səhf addım atdığını başa düşdü. Mərkəzi hökümət anladı ki, belə bir addım SSRİ-ni həm daxildən zəiflədər, həm

də beynəlxalq aləmdə nüfuzdan salar. Türkiyə ilə Azərbaycanın əsas ərazisi arasında yaradılmış «erməni ərazisi» bununla ləğv edilirdi. Belə bir vəziyyət isə nə Sovet rəhbərliyini, nə də erməniləri qane etmədi. Çünki bu hal Sovet höküməti üçün sonsuz fəlakətlər yarada bilərdi. Rusiyanın himayəsi və köməyi ilə Azərbaycanın tarixi torpaqları hesabına yaradılmış «Ermənistan dövləti»nin varlığı sual altında qalırdı. Belə bir təhlükənin real olduğunu görən mərkəzi hökümət ermənilərin Azərbaycana qarşı ərazi iddialarını rədd edərək məsələnin «arxivə verilməsini» tövsiyə etdi. Beləliklə, Azərbaycanın tarixi torpaqları hesabına özlərinə dövlət yaradan, Türkmənçay sülhündən sonra Dağlıq Qarabağda məskunlaşan ermənilər 1905-1906 və 1918-1920-ci illərdə həmin əraziləri silahlı müdaxilə yolu ilə Ermənistana birləşdirməyə cəhd etsələrdə, məqsədlərinə nail ola bilməmiş və XX yüzilliyin 40-cı illərində Moskvadakı erməı rəhbərliyinə arxalanaraq dinc yolla «Böyük Ermənistan» dövləti yaratmaq arzusu ilə «Dağlıq Qarabağ məsələsi»ni yenidən qaldırmış, lakin Azərbaycan rəhbərliyinin qətiyyətli mövqeləri nəticəsində ərazi bütövlüyümüz qorunub saxlanılmışdır.

Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında erməni rəhbərliyinin növbəti təklifi o zaman A.Mikoyanın vasitəsilə N.Xruşşovun rəhbərliyi dövründə qaldırılmışdır. Həmin dövrdə DQMV-nin Ermənistana birləşdirilməsi məsələsinə N.Xuruşşov öz fikrini belə ifadə etmişdi: «Mən Ermənistana getmək istəyən qarabağlı ermənilər üçün kifayət qədər yük maşını ayrılması haqında sərəncam verə bilərəm». Demək olar ki, N.Xuruşşovun vicdanlı qərarı ilə «Dağlıq Qarabağ məsələsi» müvəqqəti olsada bağlanmışdır[21]. «Böyük Ermənistan» dövləti yaratmaq xülyasında olan ermənilər Dağlıq Qarabağa Azərbaycandan qopara bilmədikdə başqa bir yola əl atdılar. Belə ki, Ermənistanda qədimdən yaşayan azərbaycanlıları öz ata-baba yurdlarından çıxarmaq və həmin əraziyə dünyanın müxtəlif ölkələrinə səpələnmiş erməni köçürmək və beləliklə «Türksüz Ermənistan» dövləti yaratmaq planını işləyib hazırlamışdılar. «Daşnakstyun» partiyası bu məsələyə xüsusi hazırlıq görmüşdü: Hələ 1943-cü ildə SSRİ Xarici İşlər Naziri V.Molotova müraciət edilmiş, o isə öz



növbəsində İ.V.Stalinin razılığını almışdı. Yuxarıda qeyd olunan məsələnin ermənilərin xeyrinə həll edilməsində İ.Stalinə yaxın olan Beriya və Mikayanında rolu böyük olmuşdur. 1946-cı il oktyabrın 19-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsiilə bağlı Fərman verdi[22]. 1947-ci ilin iyununda «Daşnaksütyun» partiyasının XIV konqrensində «Azərbaycanlıların yaşadıqları Ermənistan SSR ərazisindən çıxarılması və Ermənistan SSR sərhədlərinin genişləndirilməsi haqqında» qərar çıxardı[23]. Bu işdə Qriqorian kilsəsi də öz xeyir-duasını vermişdi. Beləliklə azərbaycanlıların Ermənistan SSR ərazisindəki öz dədə-baba torpaqlarından məcburi şəkildə qovulmasının növbəti üçüncü mərhələsi başlandı. Xatırladaq ki, birinci mərhələ 1905-1906-cı illərdə, ikinci mərhələ 1918-1920-ci illərdə, üçüncü mərhələ 1948-1953-cü illərdə olmuşdur. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında 4083 saylı 10 mart 1948-ci il tarixli 754 saylı başqa bir qərarında isə konkret tədbirlər planı müəyyən edildi»[24]. Həmin plana görə 1948-1950-ci illər ərzində «könüllülük prinsipi əsasında» Ermənistan SSR-də yaşayan 100 min azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməli idi[25]. Ərazidən deportasiya edilmiş azərbaycanlıların evləri Ermənistana müxtəlif ərazilərdən gətiriləcək ermənilərin istifadəsinə verilməsi də, SSRİ Nazirlər Sovetinin diqqətindən yayınmamışdı. 1948-1950-ci ilərdə Ermənistan SSR-də yaşayan Azərbaycanlıların 150 min nəfəri doğma yurdlarından zorla çıxarıldı. Bu çıxarılmanın adı «könüllü» ifadəsi ilə işlənsədə əslində 150 min azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarında kütləvi surətdə və zorakılıqla sürgün olundular[26]. Deportasiya tədbirləri Ermənistanın 22 rayonunu əhatə edirdi, hansıki həmin rayonlarda azərbaycanlılar yığcam və ya ermənilərlə qarışıq halda yaşayırdılar. Ermənistanlı soydaşlarımız Azərbaycanın Saatlı, Göyçay, Tərtər, İmişli, Əli-Bayramlı, Zərdab, Salyan, Kürdəmir, Xaldan, Sabirabad, Beyləqan, Yevlax, Ucar, Gədəbəy və Bərdə rayonlarına köçürülmüşlər. Köçürülmə zamanı insan hüquqları kobudcasına pozulmuşdur.

Minlərlə adam, xüsusilə uşaqlar və qocalar kəskin iqlim dəyişikliyinə dözməyərək həlak olmuşlar[27].

Ermənistandan deportasiya olunanların DQMV-də yerləşdirilməsinə Azərbaycanda köçürmə komissiyasına rəhbərlik edən erməni Brretens və Sevumyan hər vasitəsi ilə maneə olmuşlar. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, 1948-ci ilin avqustunda Ermənistan SSR-dən DQMV-nin Xocavənd rayonuna 31 təsərrüfat (570 nəfər) gəlmişdir. Onlardan 86 təsərrüfat (355 nəfər) Xocavənd rayonunun Qişi kəndində, 17 təsərrüfat (82 nəfər) rayonun Xunuşnak kəndində məskunlaşmışdılar[28]. Ermənistandan köçürülənlərin DQMV-də yerləşdirilməsinə Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin nümayəndəsi Əbdürəhmanov və DQMV İcraiyyə Komitəsində işləyən Kərimov kömək etsələrdə Azərbaycanda yüksək vəzifələr tutan Markaryan, Qriqoryan, Yemelyanov, Borşov və başqaları köçən azərbaycanlıların DQMV-dən geri qaytarmışdılar. DQMV-nin rəhbərliyidə Dağlıq Qarabağa köçürülmüş erməniləri hər vasitəsi ilə sıxışdırmışlar. Deyilənləri aşağıdakı faktlardan da aydın görmək olar. Belə ki, DQMV-də yaşayan ermənilər Mərkəzə böhtan dolu məktub yazaraq, köçüb gələn azərbaycanlıların ərazidə özlərini yaxşı aparmaması, oğurluq etməsi, şuluqluş salması, dövlət siyasəti əleyhinə təbliğat aparması, millətlər arasında münaqişələr törətməsi və sair yalan xəbərlərlə onları gözdən salırdılar[29]. DQMV-nə köçürülənlər çox dözülməz şəraitdə yaşayırdılar. Elə hallar olurdu ki, bir neçə ailə bir daxmada daldalanır, çox hallarda isə mal-qara ilə bir tövlədə yaşayır, yaşadıqları «evlərin» isə tavanı, qapı-pəncərəsi çox yarıtmaz vəziyyətdə idi. «Gəlmələr» arasında xəstəlik halları aşkar edilirdisə dərhal ərazidən qovulurdular[30]. Dövlət tərəfindən köçürülənlərə ayrılan vəsait vilayət rəhbərliyi tərəfindən tamamilə mənimsənilirdi. Xocavənd rayon Xalq Maarif şöbəsinin müdiri Ulubabayan «gəlmə» azərbaycanlılara həqarətlə baxır, onların uşaqlarının təhsilə cəlb olunması üçün heç bir tədbir görmür, hətta buna maneə olurdu. Belə ki, Güney Çartaz kəndində «Azərbaycan dili» dərsi deyən müəlliməni RTŞ-nin müdiri işdən azad etmiş və onun yerinə heç bir ixtisası olmayan, sadəcə olaraq oxuyub yazmağı bacaran şəxsi müəllim təyin etmişdir[31].



Bu və ya buna bənzər faktlar arxiv sənədlərində, müxtəlif qəzet və jurnallarda öz əksini tapmışdır.

DQMV-nə köçən soydaşlarımız acınacaqlı vəziyyətdə yaşadıqlarını və təqiblərə məruz qaldıqlarını Respublika Nazirlər Sovetinin sədri İ.K.Abdullayevə ünvanladıqları məktubda bildirmişdilər. Azərbaycan hökümətinin göstərişi ilə 1949-cu ilin mayında Azərbaycan SSR Köçürmə İdarəsinin rəisi N.Allahverdiyev DQMV-də vəziyyətlə tanış olmaq üçün Xankəndinə ezam olunmuşdu. O doğrudanda Xocavənd rayonuna köçürülmüş soydaşlarımızın vəziyyətlərinin son dərəcə acınacaqlı olmasının şahidi olmuş və bu barədə mərkəzə məlumat vermişdir[32]. Məlumatda belə bir əlavə də edilmişdir ki, Xocavənddəki «köçkünlərin» adi məişət şəraiti yoxdur, aclıq və xəstəlik baş alıb gedir, yaxşı olar ki, buradakı məskunlaşan ailələri Ağdərə rayonuna köçürək. Lakin DQMV-nin erməni rəhbərliyi Azərbaycan köçürmə komissiyasının rəhbərlərindən olan ermənilərin /Brutens, Sevumyan və başqalarının/ köməyindən istifadə edərək, müxtəlif bəhanələrlə DQMV-nin bütün ərazisində məskunlaşmış «gəlmələri» çıxarıb Yevlax, Kürdəmir, Ucar, Bərdə, Beyləqan rayonlarında yerləşdirmişlər. DQMV-də azərbaycanlıların sayının çoxalması erməni rəhbərliyinin mənafeyinə uyğun deyildi. Onlar bölgədə süni surətdə ermənilərin say çoxluğunu yaratmağa çalışırdılar. Ona görə də soydaşlarımızın öz dədə-baba yurdlarından deportasiyası zamanı bir nəfərdə olsun azərbaycanlı DQMV-nin ərazisinə buraxılmamışdı. Əksinə əvvəlki dövrlərdə olduğu kimi 1948/1950-ci illərdə daxili qarışıqlıqdan istifadə edən Dağlıq Qarabağ rəhbərliyi azərbaycanlıları Vilayət ərazisindən çıxarıb köçürməyə nail olmuşlar. Təkcə 1949-cü ildə «daxili köçürmə» adı altında DQMV-dən 132 azərbaycanlı ailəsi (549 nəfər) Azərbaycan SSR Xanlar rayonuna köçürülmüşdür[33]. Sonrakı illərdə bu proses davam etdirilmişdir. DQMV-nin azərbaycanlılar yaşayan kəndlərində heç bir sosial-iqtisadi, mədəni tədbir həyata keçirilməmiş, süni surətdə aclıq, yoxsulluq, qıtlıq yaradılmış və soydaşlarımızı öz tarixi torpaqlarından köçməyə vadar etmişdilər. İstər Ermənistan SSR-dən istərsədə DQMV-dən azərbaycanlıların zorla köçürülməsi

və ya köçməyə məcbur edilməsi prosesi vaxtı xarici dövlətlərdən ermənilər bu ərazilərə gətirilmiş və boşaldılmış azərbaycanlıların evlərində yerləşdirilmişdilər. Beləliklə, planlı şəkildə həmin ərazilərdə ermənilərin sayı artdı və Mərkəzi hökümətin yeritdiyi antiazərbaycan siyasəti nəticəsində istər Ermənistanda, istərsə də DQMV-də qədim Azərbaycan toponimləri erməniləşdirilməyə, azərbaycanlılara məxsus abidələrin məhv edilməsinə rəvac verildi. Azərbaycanın yeni sənaye mərkəzlərinə – Sumqayıt, Əli Bayramlı, Mingəçevir, Daşkəsən və başqa şəhərlərinə xaricdən ermənilər köçürüldü. DQMV-də, Bakıda, Gəncədə erməni lobbisi gücləndi. Soydaşlarımıza qarşı mənəvi terror hərəkatına geniş meydan verildi[35]. 40 ildən sonra, yəni 80-cı illərin sonlarında isə Ermənistanda bir nəfərdə olsun soydaşımız qalmadı. 1991-ci il avqustun 8-də Ermənistan SSR-də sonuncu azərbaycanlı kəndi olan Nüvədi kəndinin boşaldılması ilə azərbaycanlıların dədə-baba torpaqlarından kütləvi şəkildə qovulmasının sonuncu mərhələsi başa çatdı.

Sovet rejimi şəraitində soydaşlarımızın deportasiyası adi bir dəyişiklik hesab olunmuşdu. Bu hadisələrə ilk dəfə olaraq siyasi qiyməti millət və xalqının qədrini bilən, ümummilli liderimiz H.Ə.Əliyev vermişdi. O, 1997-ci il dekabrın 18-də «1948-1953-cü illərdə azərbycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» fərman imzaladı. Həmin fərmanda deyilirdi: «Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır... 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Minlərlə insan o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti mühüm rol oynamışdır. Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət



verilməmişdir... Bu gün həmin hadisələr tədqiq edilməli və dünya ictimaiyyətinə çatdırılmalıdır»[36]. Bu fərman xalqımızın çoxdankı istəyini ifadə edən tarixi, siyasi və hüquqi sənəd oldu. Həmçinin həmin sənəd soydaşlarımıza qarşı soyqırım və departasiya siyasətinin mürtəce mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması baxımından çox böyük əhəmiyyətə malik idi.

## VIII FƏSİL

### DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNDƏ İQTİSADİ HƏYAT. SƏNAYENİN İNKİŞAFI (1950-1960-CI İLLƏR)

1950-1960-cı illərdə Azərbaycanda xalq təsərrüfatını, o cümlədən, sənayeni inkişaf etdirmək üçün V, VI, VII, VIII beşillik və yeddiillik (1959-1965) plan qəbul edilmişdir. Həmin planda sənayedə çətinliklər, onun aradan qaldırılması yolları, qarşıdakı vəzifələr müəyyən edilmişdir. Ən başlıca vəzifə elektrik enercisi istehsalının artırılması, yeni sənaye sahələrinin yaradılması və inkişafı, xalq istehlakı malları istehsal edən sənaye sahələrinin genişləndirilməsi nəzərdə tutulmuşdu.

Azərbaycan SSR DQMV-də çoxsahəli kənd təsərrüfatının inkişafı, əsasən, kənd təsərrüfatı xammalı emal edən sənayenin inkişafına şərait yaratmışdır. XX yüzilliyin 50-60-cı illərində bölgədə yüngül və yeyinti sənayesi, ipəkçilik, şərabçılıq, ağac emalı, mebel, süd emalı müəssisələri, elektrotexnika, tikinti materialları kombinatı, istehsalat kombinatı, şərq musiqi alətləri fabriki və başqa müəssisələr fəaliyyət göstərirdi.[1]

İpəkçilik Qarabağ əhalisinin qədim sənəti olmuşdur. İstər Çar Rusiyası dövründə, istərsə də sovet hakimiyyəti illərində Mərkəz, Azərbaycanda ipəkçiliyin inkişafına xüsusi diqqət yetirirdi. Çünki, ipək parça həm xarici bazarlarda baha qiymətə satılırdı, həm də Rusiya ərazisində ipəyə böyük tələbat var idi. Bütün bunları nəzərə alan Azərbaycan hökuməti, mərkəzin göstərişi ilə "ipəkçiliyin inkişafı üçün tədbirlər planı" işləyib hazırladı. Həmin planda göstərilirdi ki, XX-əsrin 50-60-cı illərində Azərbaycan ərazisində ipəkçiliyi inkişaf etdirmək məqsədilə əvvəlki dövrlə müqayisədə qoyulan vəsaitin miqdarını 2 dəfə artırmaq, müəssisələrin xammala olan tələbatını ödəmək, ipək emalı müəssisələrinin texniki səviyyəsini yüksəltmək, yeni toxuculuq kombinatları yaratmaq, idarə sistemini təkmilləşdirmək və məhsulun maya dəyərini aşağı salmaq məqsədilə elmin son nailiyyətlərindənistifadə etmək, məhsulların



keyfiyyətini və növlərin təkmilləşdirməklə məhsulun istehsalını artırmaq qarşıya məqsəd olaraq qoyulmuşdu.

Azərbaycan SSR DQMV-də ipək emalı müəssisələrinin xammala olan tələbatını ödəmək üçün 1950-1960-cı illərdə barama istehsalı 1940-cı illə müqayisədə təxminən 70 faiz artdı. Belə ki, 1940-cı ildə 114 ton idisə, 1960-cı ildə 186 tona çatdı.[2] Lakin bu artım Qarabağ ipək kombinatının xammala olan tələbatını ödəmirdi. Odur ki, Azərbaycanın ayrı-ayrı rayonlarından, Gürcüstandan, Ukraynadan, Özbəkistandan, Tacikistandan barama və ya iplik alınırdı.[3]

Azərbaycan SSR DQMV-də 1950-ci ildə Kiyev mütəxəssislərinin layihəsi əsasında ipək emalı fabriki tikilməyə başlamış və 1953-cü ildə başa çatdırılmışdır. 1954-cü ilin yanvarından həmin müəssisə məhsul istehsal etməyə başladı.[4] 1959-1965-ci illərdə DQMV-nin ipək emalı müəssisələrinin sexləri yenidən qurularaq modernləşdirilmiş, onların mükəmməl avadanlıq və cihazlarla təchiz olunması işi davam etdirilmişdir. Sexlərdə Bakı, Moskva, Leninqrad, Kuybışev, Tbilisi müəssisələrinin buraxdıqları ən yeni dəzgahlar quraşdırılmışdır. Toxuculuq sənayesinin yeni korpusunda isə Çexoslovakiyada istehsal edilmiş "jakkard" dəzgahları işləyirdi.[5] Həmçinin, bəhs etdiyimiz dövrdə, Şəki ipək kombinatının və Ordubad baramaaçma fabrikinin qabaqcıl iş təcrübəsi Dağlıq Qarabağda tətbiq olunurdu.

1950-1960-cı illərdə Dağlıq Qarabağın İpək emalı müəssisələrində ixtisaslı kadrların sayında artım müşahidə edilmişdir. Belə ki, 1945-ci ildə burada 1 mühəndis, 16 texnik və texnoloq mütəxəssis işləyirdisə, 1970-ci ildə mühəndislərin sayı 100-ə çatırdı.[6] Həmin mütəxəssislər ipək sənayesini inkişaf etdirmək məqsədilə yeni səmərələşdirici təkliflər irəli sürür, avtomatlaşdırma, mexanikləşdirmə, yeni avadanlıqların mənimsənilməsi işini uğurla davam etdirirdilər. Məsələn, 1960-cı ildə müəssisələrdə 48 baramaaçma avtomatı (SKE-4 BU) quraşdırıldı ki, bu qurğu məhsuldarlığı 25 faiz yüksəltdi.[7] Həmçinin, yeni

tətbiq edilmiş dəzgahlar nəticəsində barama tullantılarınıntəkrar istehsalı ilə itgisiz və yüksək keyfiyyətli məhsul əldə etmək mümkün oldu.

1960-cı ildə Qarabağ İpək Kombinatının ipəkburma sexində əlavə olaraq yeni 28 ipəkeşmə, 25 ipəksarıyan dəzgah quraşdırıldı. "Yuri Qaqarin" adına sexdə quraşdırılan dəzgahlar əmək məhsuldarlığını 30 faiz yüksəltdi.[8] Ona görə də, həmin yeni dəzgahlar Dağlıq Qarabağ ərazisindəki bütün ipək emalı müəssisələrində tətbiq olundu. 1965-ci ildə ipək parça istehsal olunan sexdə isə 72 mexaniki (ÇQSP-50), 123 avtomatik (AT-100-5M) dəzgahlar, 8 makara və 11 çillə maşınları quraşdırılıb işə salındı. Yeni yaradılmış fabrikdə isə 569 müxtəlif nişanlı parça dəzgahı (AT-2-120-MI5, AT-140-MI5, AT-100-5 M), 25 çillə və makara, 2 şlixtləmə (sap yapışdıran) maşın quraşdırıldı.[9] Yeni avadanlıq və dəzgahların işə salınması böyük səmərə vermiş, xam ipək istehsalında iri həcmli artım müşahidə edilmişdir. Belə ki, 1970-ci ildə 1 kombinatda istehsal edilən məhsulun həcmi 1914-cü ildə Qarabağın 36 fabrikində istehsal olunan məhsulun həcminə bərabər idi.[10] 1970-ci ildə yeni dəzgahların quraşdırılması hesabına parça istehsalı artaraq 1 gündə 36 min metrə çatdı. Parçalar müxtəlif adlarla krepdeşin, zeps, atlas, şotlandka, damasse, alpak və başqa ad altında istehsal olunurdu.

İpək sap istehsal edən sexdə 58 ipəksarıyan maşın, 11136 fırlama deşici və 50 burucu maşın işləyirdi. Həmin sexdə bir gündə 300 kq burulmuş ipək sap istehsal olunurdu ki, bu da, 1916-cı illə müqayisədə 4 dəfə artıq demək idi.[11] Başqa sözlə desək, həmin dövrdə 10 ipək sap istehsal edən müəssisənin işini 1970-ci ildə 1 sex yerinə yetirirdi.

Azərbaycan hökuməti DQMV ipək emalı müəssisəsini həmişə yeni texnika ilə təmin edirdi. Maşın və dəzgahlar Tbilisi, Kamenski, Moskva, Şuiski, Vicuqi, Klima, Kuybışev zavodlarından, kiçik hissələr və köməkçi materiallar Pavlovo-Posada şəhərindən, bəzi avadanlıqlar isə Gəncə, Mingəçevir, Tbilisi, Çerkasov, Mogilyov şəhərlərindən alınaraq DQMV-yə göndərilirdi.



XX yüzilliyin 50-60-cı illərində DQMV-də ipək emalı müəssisəsi xam ipək, rənglənmiş parça, ipək sap istehsal edirdi. İstehsal olunmuş xam ipəyin bir hissəsi Moskvaya - "Proletar əməyi" adlı fabrikə göndərilir və istehsal prosesi axıra çatdırılaraq xarici dövlətlərə, o cümlədən, Yaponiya, İtaliya, Macarıstan və başqa dövlətlərə ixrac edilirdi. Xam ipəyin bir hissəsi isə xarici dövlətlərə birbaşa göndərilirdi. Qarabağ İpək Kombinatında istehsal olunan rəngsiz xam parça isə Şəki ipək emalı müəssisəsinə gətirilərək rənglənir və satışa buraxılırdı. Bəhs etdiyimiz dövrdə, Qarabağ İpək Kombinatında 120 nəfər fəhlədən ibarət baramanın növlərə ayrılması sexi, çeşidlərə ayırma, yükləmə, mexaniki təmir, qablaşdırma, tökmə və ştamplama şöbələri fəaliyyət göstərirdi.[12] 1930-cu ildən Kombinatda nəqliyyat şöbəsi yaradılmışdır. Burada 25 yük avtomobili və 3 avtobus işləyirdi. Bu nəqliyyat vasitələri xammalı, hazır məhsulları və fəhlələri daşıyırdı. Qarabağ İpək sənayesinin elektrik enercisinə olan tələbatı Mingəçevir SES-nın hesabına ödənilirdi. Kombinat istiliyə olan tələbatı isə su qızdırıcı katyollar vasitəsilə su buxarı ilə qızdırılırdı. Kombinatın işığa, istiliyə, suya, elektrikə olan tələbatı lazımi səviyyədə ödənilirdi.

Bir neçə il əvvəl kombinatda 32 kiloqramlıq baramanı fəhlələr əllərində ikinci mərtəbəyə və başqa ərazilərə daşıyırdılarsa, 1950-1960-cı illərdə burada 4 qaldırıcı maşın (lift) və 2 reislə hərəkət edən bucurqad (telfer) işə salındı.[13] Həmin mexaniki nəqliyyat vasitələri bir dəfəyə 100-150 kiloqram yükü lazım olan yerə çatdırırdı. Təsadüfi deyildir ki, 1960-cı illərin sonlarında Qarabağ İpək Kombinatı qabaqcıl texniki yeniliklərin tətbiqinə və yüksək əmək məhsuldarlığına görə SSRİ Yüngül Sənaye Nazirliyinin və Həmkarlar İttifaqı Komitəsinin fəxri-fərmanı ilə təltif olunmuşdur.[14] XX yüzilliyin 60-cı illərində istehsalın avadanlıqlarla təchizini təkmilləşdirmək məqsədilə səmərələşdiricilik və ixtiraçılıq işi uğurla davam etdirilirdi. 1966-1970-ci illər ərzində Qarabağ İpək Kombinatında 175 nəfər işçi 250 ixtira etmiş və bununla da ipək emalı sənayesinə 330 min manat gəlir gətirmişdir.[15] 1950-1960-cı illərdə qabaqcıl iş təcrübəsinin tətbiqi nəticəsində İpək Kombinatında ehtiyat hissələrinin

dəyişdirilməsində böyük irəliləyiş əldə edilmişdir. Nəticədə, boş dayanma halları minimuma endirilmiş və məhsuldarlıq artmışdır. Bunu aşağıdakı cədvəldən də aydın görmək olar (saniyədə):[16]

| Sıra№ | İşin məzmunu | 1952-ci il | 1958-ci il | 1968-ci il |
|---|---|---|---|---|
| 1. | Toxucu məkiyin doldurulması (san.) | 28 | 19 | 14 |
| 2. | Toxucu qayığın dəyişdirilməsi (san.) | 20 | 12 | 7 |
| 3. | İp sarınan qurğunun təmizlənməsi (san.) | 30 | 22 | 16 |
| 4. | Ərişin dəyişdirilməsi və təmizlənməsi (san.) | 152 | 78 | 50 |
| 5. | Qırılmış sapın yerinə bərpası (san.) | 58 | 39 | 23 |
| 6. | Cəmi (saniyə ilə) | 28 8 | 170 | 110 |

Cədvəldən göründüyü kimi, DQMV-nin ipək emalı sənayesinin texniki səviyyəsinin təkmilləşdirilməsi və avtomatlaşdırılması nəticəsində 1952-ci ilə nisbətən 1968-ci ildə boş dayanma halları 2,6 dəfə təxirə salınmışdı. Lakin bu son hədd deyildi. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 70-ci illərin ortalarında yuxarıdakı göstərici 3,3 dəfəyə çatmışdı. Nəticədə, hər bir fəhlənin orta aylıq istehsal həcmində sıçrayışlı inkişafı baş vermişdi. Belə ki, 1913-cü ildə bu göstərici 200 manat, 1940-cı ildə 381 manat, 1958-ci ildə 852 manat olmuşdursa, 1968-ci ildə təxminən 2 dəfə artaraq 1718 manata çatmışdır.[16] Vilayətin ipək emalı müəssisələrində çoxdəzgahçılıq hərəkatı genişlənmiş, məhsul istehsalının həcmi artmışdır. Ona görə də, hər bir fəhlənin orta aylıq əmək haqqı 1958-ci ildə artaraq 200 manatı keçmişdir. 1968-ci ildə isə istehsalın həcmində 115 faiz artım müşahidə edilmişdir ki, bunun da nəticəsində fəhlələrin əmək



haqqı 1958-ci ilə nisbətən 112 faiz qalxmışdır. Sənayenin avadanlıqlarla lazımi səviyyədə təchiz edilməsi ardıcıl olaraq istehsalın həcmində artımla müşahidə edilmişdir ki, bunu aşağıdakı cədvəldən də aydın görmək olar:[16]

| Sıra№ | İstehsalın növu | Ölçü vahidi | 1940-cı il | 1958-ci il | 1968-ci il |
|---|---|---|---|---|---|
| 1. | Barama açma (hər 10 alət 1 saatda) | Qramla | 78 | 123 | 143 |
| 2. | İpək sarıma (hər 1000 iy 1 saatda) | Kiloqramla | 1,9 | 2,6 | 3,7 |
| 3. | Parça toxuma (hər 1 dəzgah 1 saata) | metrlə | 1,24 | 2,26 | 2,89 |

Cədvəldən aydın göründüyü kimi, dövlətimizin bölgəyə dərin qayğısının nəticəsi olaraq, Qarabağ ipək emalı sənayesinin texnikaya, xammal və avadanlıqlara olan tələbatı tamamilə ödənilmiş və məhsulun istehsalı artaraq keyfiyyət yaxşılaşmışdır. Təkcə 1966-1967-ci illərdə Qarabağ İpək Kombinatında 1 milyon 765 min manatlıq məhsul istehsal edilmişdir. 1961-ci ildə hazır məhsul istehsalının həcmi 1913-cü ildəkindən 6 dəfə, 1940-cı ildəkindən 7 dəfə çox artmışdır. İldən-ilə ayrı-ayrı sahələr üzrə məhsul istehsalındakı sıçrayışlı inkişafı aşağıdakı cədvəldən də aydın görmək olar:[17]

| Sıra№ | Məhsulun növləri | Ölçü vahidi | 19 13 | 1926 | 1940 | 1950 | 1958 | 1960 | 1968 | 1970 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Xam ipək | Ton | 12 0 | 12,3 | 99 | 120 | 117 | 121 | 116 | 124 |
| 2. | İpək sap | Ton | 22 | 1,2 | 26 | 75 | 88 | 93 | 103 | 114 |
| 3. | İpək parça | Min $m^2$ | - | - | 120 | 163 | 2079 | 2259 | 8297 | 9773 |

Cədvəldən aydın göründüyü kimi, 60-cı illərdə DQMV-nin ipək emalı sənayesində ipək parça istehsalı 4 dəfə artmışdır. Ümumrespublika üzrə isə sənaye məhsulu istehsalında 94 faiz artım müşahidə edilmişdir.

1960-cı ildə ipək emalı müəssəsində məhsulun keyfiyyətini yaxşılaşdırmaq və maya dəyərini aşağı salmaq məqsədilə "ümumi tədbirlər planı" işlənib hazırlandı. Həmin "planda" nəzərdə tutulmuşdur: əmək məhsuldarlığını və məhsul istehsalını yüksəltmək, xammala, materiala, istiliyə, elektrik enercisinə qənaət etmək, sexlərdə və ümumi fabrikdə vəsait məsrəfini qismən azaltmaq. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1968-ci ildə DQMV-nin ipəkçilik sənayesində xammal və materialların maya dəyəri 60 faiz, ipək emalı müəssələrində isə bu göstərici 83 faiz olmuşdur. 1959-1965-ci illər ərzində Qarabağ İpək emalı müəssəsi 1 milyon 44 min manata qənaət etmiş və 273 min manatlıq gəlirlə işləmişdir.[18]

1964-cü ildən Qarabağ İpək Kombinatında yeni məhsul növü, süni lifdən ipək parça istehsalı mənimsənilmiş və 1965-ci ildə 5 milyon metr parça istehsal edilmişdir.[19]

1970-ci ilin məlumatına görə, Dağlıq Qarabağın İpək emalı müəssisələrində 3 min nəfər fəhlə və qulluqçu işləyirdi ki, bundan 360 nəfəri Kommunist Partiyasının, 800 nəfəri isə gənclər ittifaqının üzvü idi. Kombinatda 60 təbliğatçı fəaliyyət göstərirdi.

Kombinat həmişə qəbul edilmiş prespektiv və cari planları qısa müddətdə yerinə yetirirdi. Təkcə 1966-1968-ci il planını 5 ay tez, beşillik planı isə 4 il 2 aya yerinə yetirmişlər. Sözsüz ki, bütün bunlar əmək haqqına öz müsbət təsirini göstərirdi. Belə ki,1970-ci ildə fəhlə və qulluqçuların əmək haqqı 1940-cı illə müqayisədə 2,7 dəfə, 1958-ci illə müqayisədə isə 84 faiz artmışdır. 1969-cu ildə Qarabağ İpək Kombinatının fəhlələri 337 min manat (bundan günəmuzduçular 105 min manat) mükafat almışdır.[20]

Kombinatın işçilərindən 30 faizi orta və ali təhsilli idilər və yenə də təhsillərini davam etdirirdilər. Kombinatın işçilərinin yaşayışı üçün Xankəndi



şəhərində 5 mərtəbəli 400 evdən ibarət 14 yaşayış binası tikilib istifadəyə verilmişdir. Kombinatın öz daxili vəsaiti hesabına Xankəndinə içməli su xətti çəkilmişdir. Kombinatın işçilərindən 80-85 faizi qadınlar olduğundan sənaye müəssisəsinin yaxınlığında 400 nəfərlik körpələr evi fəaliyyət göstərirdi. Burada, həmçinin, hər cür avadanlıqlarla təmin olunmuş klub, kitabxana, 25 nəfərlik xəstəxana, mədəniyyət sarayı, istirahət mərkəzi, Ballıcada yay pioner düşərgəsi (400 nəfərlik) ipək kombinatı işçilərinin istifadəsində idi. Kombinatda məişət xidməti lazımi səviyyədə idi. Yeməkxana, ayaqqabı və paltar təmiri emalatxanaları, hamam və sair fəhlələrə xidmət göstərirdi.

Azərbaycan hökuməti və Yüngül Sənaye Nazirliyi, Qarabağ İpək Sənayesinin gələcəkdə daha geniş inkişaf etdirmək üçün xammala olan tələbatı ödəmək məqsədilə Özbəkistan dövləti ilə müqavilə imzalamış və yeni boyaqçı sexin tikilməsini qərara almışdı. Həmçinin, dövlətimizin dərin qayğısı nəticəsində işçilərin məişət şəraitini yaxşılaşdırmaq məqsədilə 16 yeni yaşayış binası tikmək planlaşdırılmışdı. Kombinatın yeni texnikaya olan tələbatını ödəmək üçün dövlətimiz Tbilisi, Çerkassov, Mogilyov, Klima, Kuybışev, Moskva şəhərlərinin sənaye müəssisələri ilə müqavilələr imzalamışlar. Respublikamızın Ali Təhsil müəssisələrində təhsil almış kadrların Dağlıq Qarabağ ipək emalı müəssisələrinə göndərilməsi qərara alınmışdır.

Dövlətimizin bölgəyə dərin qayğısını, yuxarıdakı faktları nəzərdən keçirməklə, aydın görmək olur. Bütün bunlar yaxşı haldır və məsələnin zahiri görünüşüdür. Gəlin bir anlığa məsələnin inkişafını dərindən nəzərdən keçirək və görünməyən məqamları izləyək: DQMV-də işləyən ipək emalı müəssisələri və onların filiallarının yerləşdiyi ərazilərin adlarını nəzərdən keçirərkən məlum olur ki, həmin sənaye mərkəzləri ermənilərin daha çox cəmləşdiyi ərazilərdə tikilmişdir. Dağlıq Qarabağın erməni rəhbərliyinin məqsədi ermənilərin yaşadıqları ərazinin sosial-iqtisadi inkişafını təmin etmək və əhalinin süni artımına nail olmaq olmuşdursa, digər məqsədləri azərbaycanlıların yaşadıqları ərazilərə baxımsızlıq göstərməklə əhalinin süni sürətlə köçürülməsinə nail olmaq

və ermənilərin say çoxluğunu yaratmağa nail olmaq kimi mənfur niyyətləri var idi. Ermənilər bu məsələni əvvəlcədən planlaşdırılmış şəkildə "DQMV-nin Qanunu"na daxil edərək hazırlamışlar. Beləki həmin "Qanun"un 19 və 20-ci maddələrinin 1-ci bəndində göstərilir ki, "DQMV Xalq Deputatları Soveti Vilayət tabeliyindəki sənaye müəssisələri və birliklərə rəhbərlik etməklə onların yerləşdirilməsi və tikintisinə nəzarət edir."[21] Əlbəttə belə bir "nəzarətin" necə aparılması göz qabağındadır.

Başqa bir fakt "Qarabağ İpək emalı sənayesi işçilərinin əmək qabaqcılları, onların təltif və mükafatlandırılması" ilə bağlıdır. Qarabağ İpək Kombinatının cari arxivindəki sənədlər nəzərdən keçirilərkən məlum olur ki, XX yüzilliyin 50-60-cı illərində kombinatda əmək fəaliyyəti nəzərə alınaraq 4 nəfər əmək qabaqcılı SSRİ Ali Sovetinə deputat, 4 nəfər Azərbaycan SSR Ali Sovetinə deputat, 1 nəfər Azərbaycan KP MK-nın üzvü, 1 nəfər Qırmızı əmək bayrağı ordeni, 9 nəfər Xankəndi şəhər sovetinin deputatı, Vilayət Xalq Deputatları Sovetinin deputatı, 1000 nəfər orden və medal, fəxri fərman və "yarış qabaqcılı" kimi yüksək fəxri adlara layiq görülmüşlər. Lakin, təəccüb doğuran bir məsələni təəssüflə qeyd etməliyik ki, sadalanan bu yüksək adlara layiq görülən əmək qabaqcılları arasında 1 nəfər də olsun azərbaycanlı familiyası yox idi. Bəlkə bu fabrikdə azərbaycanlı işləmirdi? Əlbəttə, kombinatda milliyyətcə azərbaycanlıların işləməsini arxivdə rastlaşdığımız 13-cü əmək haqqı cədvəlində izlədik. Cədvəldə elə bir bərabərsizliyə rast gəldik ki, erməni rəhbərliyinin millətimizə qarşı düşmən, şovinist mövqeyini sözlə ifadə etmək çətindir. Eyni fabrikdə, bərabər saatda, recimdə işləyən azərbaycanlıya 500 manat, erməniyə 5000 manat mükafat verilmişdir.[22] Bütün dünyada "əzabkeş erməni" obrazı yaratmağa çalışan separatçı erməni rəhbərlərinin görünür ağıllarına gəlməyib ki, bu cür tarixi həqiqətlərlə nə vaxtsa rastlaşıb mətbuatda çap etdirə bilərik. Əks halda həmin tarixi faktları da məhv edərdilər. Əlbəttə erməni ideoloqlarının "Dağlıq Qarabağda əzilirik, sıxışdırılırıq, dayaqsız, köməksiz, zəif və kasıbıq" sözlərinin ağ yalan olmasını, bu sözlərin bölgədə qədimdən yaşayan milliyyətcə



azərbaycanlılara aid olmasını görürük. Bundan əlavə, 1970-ci ildə ümumi Respublika üzrə fəhlə və qulluqçuların əmək haqqı 109,6 manat idisə, DQMV-də bu göstərici 200-350 manata çatırdı.[23]

Azərbaycan SSR DQMV çoxsahəli sənayeyə malikdir. Bölgədə sənayenin 15 növü xüsusi olaraq inkişaf etmişdir.[24] Vilayətdə ümumi sənaye məhsullarının 60 faizini yeyinti sənayesi verir. Dağlıq Qarabağda yeyinti məhsulları sənayesinə xas olan cəhətlərdən biri yüksək mıhsuldarlıqdır. Yeyinti sənayesi istehsal həcminə görə vilayətdə birinci yerdə dayanırdı. DQMV-nin yeyinti sənayesi əsas etibarilə yerli xammalla işləyir. Burada yeyinti sənayesinin aparıcı sahəsi şərabçılıq olmuşdur. Şərabçılığın inkişaf səviyyəsinə görə 1950-1960-cı illərində DQMV ümumrespublika üzrə əhəmiyyətli yer tutmuşdur. Azərbaycan hökuməti DQMV-də şərabçılığı sənaye əsasında qurmuşdur. Dövlətimiz vilayətdə şərabçılıq sənayesinin inkişaf etdirmək üçün, ilk növbədə, zavodların texniki səviyyəsini yüksəltməyi qərara almışdı. 1955-ci ildə xarici dövlətlərdən alınan yeni dəzgahlar Dağlıq Qarabağ şərab emalı zavodlarında quraşdırılırdı. Ötən illər ərzində Əskəranda və Qırmızı Bazarda konyak spirti istehsalı üçün bir sıra zavodlar, habelə Xankəndində şərab-konyak zavodu, Hadrud, Metistağlar, Ağdərə, Leninavan və Xocavənddə şərabın ilkin emalı müəssisələri və başa şərab-spirt zavodları tikilib istifadəyə verilmişdir. XX yüzilliyin 50-60-cı illərində DQMV-nin Ağdərə rayonunun Partiyanın XXII qurultayı adına sovxozunda gündə 200 ton üzüm emal edən ilkin şərab zavodu və Hadrud rayonun Hadrud sovxozunda konyak-spirti istehsal edən zavod tikilib istifadəyə verildi.[25]

Xammala olan tələbatı ödəmək məqsədilə üzüm əkini sahəsi genişləndirildi və üzüm istehsalında yüksək artım müşahidə edildi. Belə ki, DQMV ərazisində 1940-cı ildə 1565 ton, 1950-ci ildə 3646 ton, 1960-cı ildə 8040 ton üzüm yığılaraq dövlətə təhvil verilmişdirsə, 1970-ci ildə isə axırıncı rəqəm təxminən 6 dəfə artaraq 54022 tona çatmışdır.[26] Bu artım, ilk növbədə, Azərbaycan hökumətinin bölgəyə yeni növ daha məhsuldar üzüm tənəkləri verməsi, becərmə işinin vaxtında aparılması üçün maşın və traktorlarla təmin edilməsi, zərərvericilərə

qarşı mübarizə məqsədilə gübrələrlə təmin olunması, ixtisaslı kadr çatışmamazlığının aradan qaldırılması ilə əlaqədar olmuşdur. Bütün bunların nəticəsi idi ki, Azərbaycan SSR DQMV-də 1950-1960-cı illərdə 1940-cı illə müqayisədə sıçrayışlı inkişaf baş vermişdir ki bunu aşağıdakı cədvəldən də aydın görmək olar:[27]

| Sıra sayı | Məhsulun növü | Ölçü vahidi | 1940 | 1950 | 1958 | 1960 | | 1970 |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Şərab istehsalı | Min.dkl. | 105 | 165 | 361 | 471 | | 539 |
| 2 | Konyak istehsalı | Min.dkl. | 1,2 | 6 | 6,7 | 11 | | 11,4 |
| 3 | Cəmi | Min.dkl. | 106,2 | 171 | 367,7 | 482 | | 550,4 |

Cədvəldən göründüyü kimi, 1940-cı illə müqayisədə 1970-ci ildə şərab və konyak istehsalı təxminən 5,2 dəfə artmışdır. 1970-ci ildə Qarabağ Şərabçılıq Tresi ümumi sənaye məhsullarının 34 faizini verirdi. DQMV-də fəaliyyət göstərən şərabın ilkin emalı, şərab-konyak, spirt və digər müəssisələri birləşdirən Qarabağ Şərabçılıq Tresti Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Üzümçülük və Şərabçılıq İstehsalat Komitəsinin sisteminə daxil edilmişdir.

Qarabağ Şərab Trestinin məhsullarına təkcə keçmiş SSRİ məkanında deyil, xarici dövlətlərdə də böyük tələbat vardır. 1958-ci ildə Budapeşt ümumdünya sərgisində "Qırmızı Martuni" süfrə şərabı gümüş medala layiq görülmüşdür. DQMV-də istehsal olunan "Qarabağ", "Qırmızı Martuni", "Xindoqni", "Çəhrayi Qişi", "Qarakənd", "Ağ Martuni", "Cartar" markalı yüksək keyfiyyətli şərablar, habelə müxtəlif növ konyaklar hər yerdə şöhrət qazanmışdır. Macarıstanla imzalanmış müqaviləyə əsasən, hər il Qarabağ Şərab Trestindən 120 min dekalitr məhsul ixrac olunurdu.[28] Həmçinin, Trestin məhsulları Çexslovakiya dövlətinə də göndərilirdi. Onu da qeyd edək ki, 1968-ci ildə Qarabağ Şərab Trestinin ehtiyat pul vəsaiti 1965-ci ilə nisbətən 36 faiz



artmışdı. Bu artım Qarabağ İpək Kombinatında 20 faiz, Yağ-pendir zavodunda 6 faiz, Tikiş fabrikində 9 faiz, Elektro zavodda 16 faiz olmuşdur. Bəhs etdiyimiz illərdə, əmək məhsuldarlığı isə Qarabağ Şərab Trestində 150 faizə çatmışdır.[29]

Qarabağın bol xammala (pambığa, ipəyə, yuna) malik olması burada xalçaçılığın inkişafı üçün şərait yaratmışdır. Gəbə, kilim, xalı toxumaq Qarabağ qadınlarının qədim sənəti olmuş və həmin sənətin sirləri qorunub saxlanılaraq XX yüzillik ərzində inkişaf etmişdir. Keçmiş SSRİ məkanında və dünyada Qarabağ xalçasına olan tələbatı nəzərə alaraq Azərbaycan hökuməti 1929-cu ildə Dağlıq Qarabağda xalçaçılıq fabrikini tikib istifadəyə vermişdir.[30]

Sonrakı dövrlərdə, həmin fabrikin Daşbulaq və Tağlar kəndlərində 2 filialı yaradıldı. Həmin müəssisələri hər birində 60 nəfər qadın işləyirdi. Dövlətimizin bölgəyə dərin qayğısı nəticəsində burada istehsal gündən-günə təkmilləşir və genişlənirdi. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-ci ildə Qarabağ Xalçaçılıq fabrikinin buraxdığı məhsulların 85 faizi keyfiyyət nişanına layiq görülmüşdür. Oricinal və gözəl naxışları, əla yaradıcılıq üslubu, müstəsna dərəcədə davamlılığı, naxış incəliyi, zənginliyi, süjetli kompozisiyası Vilayətdə istehsal olunan xalçalara dünya bazarında, müxtəlif beynəlxalq sərgilərdə böyük müvəffəqiyyət qazandırmışdır. Azərbaycan SSR DQMV-də istehsal olunan xalçalara keçmiş SSRİ məkanında, İngiltərədə, İtaliyada, İsveçdə, Danimarkada, Misir Ərəb Respublikasında böyük maraq göstərilir və bazarlarda həvəslə alınırdı. DQMV xalçaçıları 1970-ci ildə 2000 kvadrat metrlik xalça toxumuşdular. Dövlətə nəzərdə tutulduğundan 10 min manatdan artıq məhsul satılmışdır. Xalçaçılıq sənayesini gələcəkdə daha da inkişaf etdirmək nəzərdə tutulmuşdu.

Dağlıq Qarabağda yerli xammala əsaslanan və inkişaf etmiş sənaye sahələrindən biri də tikinti materialları sənayesidir. Buraya ağackəsən (meşədoğrayan), ağac emalı (taxta-şalban), kərpic, kirəmid, əhəng daşı, daş yonan sexlər daxil idi. Ağac emalı, tikinti materialları istehsalı sənayesi DQMV-nin iqtisadiyyatında mühüm yer tuturdu. Ağac emalı materialları sənayesinin

əsas mərkəzi Xankəndi şəhəri və ona bitişik kəndlərdə yerləşmişdi. Beləki burada meşə təsərrüfatları, meşə kombinatı, tikinti materialları kombinatı, istehsalat kombinatları, mebel fabriki yerləşirdi. Ağdərə və Hadrud ərazilərində də belə kombinatlar var idi.[31]

1950-1960-cı illər ərzində Azərbaycan hökuməti DQMV-də tikinti materialları sənayesini inkişaf etdirmək məqsədilə bölgəyə 12 mütəxəssis göndərdi. Həmçinin xarici dövlətlərdən alınan kəsici və yonucu dəzgahlar, alətlər, yük maşınları verildi. Ayrılan vəsaitin həcmi artırıldı. Nəticədə, asfalt-beton zavodu 1966-cı ildə 25 min manatlıq, meşə sənayesi 104 min manatlıq gəlirlə işləmişdir.[32] Əmək məhsuldarlığının inkişaf tempi 1962-ci illə müqayisədə *1963-cü ildə 120, 1964-cü ildə 141, 1965*-ci ildə 150 faiz artmışdır.[33] Bəhs etdiyimiz illərdə, Xankəndində yaradılmış beton zavodu ildə tənəkləri qaldırmaq üçün 3000 kubmetr dəmir-beton sütunlar hazırlayırdı.[34] 1970-ci ildə isə həmin göstərici 3 dəfədən çox artdı, Xankəndi kombinatının buraxdığı mərmər bloklarından təkcə DQMV-nin ərazilərində deyil Bakı, Moskva, Kiyev, Daşkənd və başqa şəhərlərdə də geniş istifadə olunurdu. Kombinatın daş karxanalarında 5-6 çeşiddə əla növ mərmər məmulatı buraxılırdı ki, bu da keçmiş SSRİ-nin 160-dan çox şəhər və rayonlarına göndərilirdi.[35] Kombinat mişar daşı, kərpic, üzlük tavalar da istehsal edirdi. Ağdərə rayonunun Vənkli sənaye kombinatının istehsal etdiyi dəyirman daşları Sovet İttifaqının bir çox respublikalarına göndərilirdi. Ninki kəndində istehsal olunan kərpic-kirəmit məhsullarına isə dünya bazarında böyük ehtiyac var idi. Araçazorda fəaliyyət göstərən kombinatda isə çirkli suları təmizləyən daşlar hazırlayırdılar. Kombinatın hazırladığı materiallar təkcə ittifaq ərazisində deyil İran və Türkiyə bazarlarında da satılırdı. Yerli xammala əsaslanaraq gəlirlə işləyən tikinti materialları sənayesində istehsalın həcmi ildən-ilə artırdı. Bunu aşağıdakı cədvəldən də görmək olar:[36]



| Sıra sayı | Məhsulun növləri | Ölçü vahidi | 1950 | 1958 | 1960 | 1965 | 1966 | 1967 | 1970 |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Taxta-şalban | Min $m^3$ | 2 | 6,9 | 11,7 | 10,1 | 13,5 | 14,5 | 15,9 |
| 2 | Əhəng | Ton | 1313 | 6274 | 7118 | 4160 | 5566 | 5244 | 7200 |
| 3 | Kərpic | Min ədəd | 72 | 240 | 325 | 1365 | 1265 | 476 | 1413 |
| 4 | Kirəmit | Min $m^2$ | 49,5 | 240 | 32,5 | 40,3 | 50,9 | 24,4 | 61,8 |
| 5 | Yonulmuş daş | Min $m^3$ | 42,7 | 40 | 31,6 | 24,2 | 50,9 | 24,8 | 54,5 |
| 6 | Mebel | Min man. | 173 | 669 | 876 | 1499 | 1543 | 1654 | 1891 |

Cədvəldən göründüyü kimi, 1950-ci illə müqayisədə 1970-ci ildə taxta-şalban istehsalı 9 dəfə, əhəng istehsalı 5 dəfədən artıq, kərpic 2 dəfəyə yaxın, kirəmit təxminən 25 faiz, yonulmuş daş 30 faiz, mebel istehsalı 10 dəfədən çox artdı.

Azərbaycan hökuməti DQMV-də sənayenin daha da inkişaf etdirilməsi üçün 50-ci illərin əvvəllərində daha bir sənaye sahəsi olan tikiş fabrikinin tikintisinə başladı. Qısa bir müddətdə istifadəyə verilən həmin müəssisəyə Məşədi Əzizbəyovun adı verildi və məhsul istehsalı ildən-ilə artdı. Belə ki, 1958-ci illə müqayisədə istehsalın həcmi 1959-cu ildə 143,8 %, 1960-cı ildə 124,6%, 1961-ci ildə 136,5%, 1962-ci ildə 184,2%, 1963-cü ildə 229,8%, 1967-ci ildə 335,9%, 1970-ci ildə 402,4% yerinə yetirilmişdir.[37] Fabrikdə istehsal olunan çoxçeşidli məhsullar nəinki respublikamızda, hətta ittifaq miqyasında tanınır və bazarlarda böyük həvəslə alınırdı. Xüsusi olaraq, fabrikdə tikilən uşaq geyimləri özünün keyfiyyətinə və yaraşığına görə həmişə alıcıların diqqətini cəlb edirdi. Onu da qeyd etmək yerinə düşərdi ki, 1965-ci ildə fabrikin istehsal etdiyi məhsullar 1 milyon 377 min manata satılmışdırsa, 1966-cı ildə 1 milyon 654 min manat,

1970-ci ildə isə 2 milyon manatlıq məhsul satılmışdır.[38] Xankəndi şəhərində fəaliyyət göstərən tikiş fabrikinin əməkdaşları yüksək əmək göstəricilərinə nail olduqları üçün dəfələrlə Azərbaycan hökumətinin və həmkarlar təşkilatlarının fəxri mükafatlarına layiq görülmüşlər. DQMV-də tikiş fabriki ilə yanaşı fərdi paltarların tikişi, təmiri emalatxanaları da fəaliyyət göstərir və yerli əhalinin tələbatını ödəyirdi. Dağlıq Qarabağ tikiş fabrikinin bölgədəki ümumi sənaye məhsulları istehsalında yeri 1965-ci ildə 2,5 faiz, 1967-ci ildə 2,6 faiz, 1970-ci ildə isə 3,1 faiz təşkil edirdi.[39] Faktlardan göründüyü kimi, tikiş fabrikinin istehsal tempi ildən-ilə artırdı.

XX yüzilliyin 50-60-cı illərində Dağlıq Qarabağın iqtisadiyyatında Xankəndi elektrotexnika zavodu mühüm yer tuturdu. Həmin zavod əvvəlcə Bakı elektrik maşınqayırma zavodunun filialı kimi fəaliyyət göstərirdi. Bakı elektrik maşınqayırma zavodunun vəsaiti hesabına 50-ci illərin sonlarında tikilməyə başlayan zavod 1962-ci ildə istifadəyə verilmişdi.[40] İlk illərdə zavod 212 min manatlıq məhsul buraxmış və sonrakı dövrlərdə bu rəqəm bir neçə dəfə artmışdır. Məsələn, 1965-ci ildə zavodda 1 milyon 416 min manatlıq, 1966-cı ildə 4 milyon 148 min manatlıq, 1967-ci ildə 6 milyon 134 min manatlıq məhsul istehsal olunmuşdursa, 1970-ci ildə istehsal həcmi 7 milyon 550 min manata çatmışdır.[41] Xankəndi Elektrotexnika zavodunun DQMV-nin ümumi sənaye məhsulları istehsalında yeri 1965-ci ildə 3,6%, 1966-cı ildə 8,1%, 1967-ci ildə 10,9% olmuşdursa 1970-ci ildə 14,5%-ə qədər qalxmışdır.[42] Zavodda əmək məhsuldarlığı 60-cı illərdə 4 dəfədən çox artmışdır. Xankəndi Elektrotexnika məmulatları zavodu lampa istehsalı sahəsində ixtisaslaşdırılmışdır. Lüminissent lampaları ictimai binaların konstruktor bürolarının və məktəblərdə sinif otaqlarını işıqlandırmaq üçün nəzərdə tutulmuşdur. Zavodun istehsal etdiyi məhsullar, təkcə Azərbaycan ərazisində deyil, o cümlədən, ittifaq miqyasında və xarici dövlətlərdə istifadə edilirdi. Belə ki, Bratiski və Voljskin yeni tikintilərində, Rustavi, Surqut, Kama zavodlarının tikinti meydançalarında, Manqışlağın təzə salınmış qəsəbələrində və ittifaqın digər şəhərlərində, Xankəndində istehsal



olunan yüksək keyfiyyətli lampalar ətrafı işıqlandırırdı. Misir Ərəb Respublikası və Əfqanıstan Demokratik Respublikasında zavodun buraxdığı məhsullar böyük həvəslə alınırdı.[43] Bakı elektrik maşınqayıranları vaxtaşırı olaraq Dağlıq Qarabağa ixtisaslı fəhlə və ustalar göndərirdilər. Paytaxtımızın ali təhsil müəssisələri isə zavoda mütəxəssislər göndərirdilər ki, onlar yeni qabaqcıl metodları, səmərələşdirici təklifləri istehsalata tətbiq edib yüksək keyfiyyətli məhsul əldə edirdilər. Təsadüfi deyildir ki, Xankəndində istehsal olunan yüksək keyfiyyətli lüminissent lampaları Leypsik yarmarkasında böyük müvəffəqiyyətlə nümayiş etdirilmişdir. Müəssisənin inkişafı çox sürətlə getmişdir. Təkcə 1970-ci ildə 477000 ədəd lampa istehsal olunmuşdur. Bu əvvəlki ildən 35% çox idi.[44] Zavod 1970-ci ildə Azərbaycan KP MK-nın, Respublika Ali Soveti Rəyasət Heyətinin, Nazirlər Sovetinin və AHİŞ-nın fəxri fərmanı ilə təltif olunmuşdur.

Dağlıq Qarabağda əsas sənaye sahələrindən olan yağ-pendir və çörək zavodları da yerli xammala əsaslanırdı. Bölgədə mal-qaranın sayının artması və cinsinin yaxşılaşması, dövlətə taxıl tədarükü satışının ildən-ilə genişlənməsi müxtəlif çeşidli un məmulatlarının, mal-qara yağının, pendir və yağlı brınza istehsalının da artmasına şərait yaratdı. Həmin artımı aşağıdakı cədvəldən də görmək olar:[45]

| Sıra sayı | Məhsulun növləri | Ölçü vahidi | 1950 | 1958 | 1960 | 1965 | 1966 | 1967 | 1970 |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Mal-qara yağı | Ton | 62,3 | 262,2 | 345,6 | 496,9 | 512 | 530 | 550 |
| 2 | Pendir və yağlı brınza | Ton | 113,3 | 199,9 | 268,3 | 280 | 302 | 391 | 557 |
| 3 | Çörək məmulatları | Ton | 12,4 | 15,3 | 16,5 | 20 | 18,3 | 20 | 22 |

Yuxarıdakı cədvəldəki rəqəmlər yalnız zavodlarda istehsal olunan məhsullar idi. Vətəndaşların şəxsi istehsal etdiyi yağ pendir və çörək məmulatları buraya daxil deyildi. Aparılan hesablamalar nəticəsində məlum olur ki, 1970-ci ildə Dağlıq Qarabağ Yağ-pendir zavodunun istehsal etdiyi məhsullar ümumi sənaye məhsullarının 4 faizini, çörək zavodu isə 2 faizini təşkil edirdi.[46]

1950-1960-cı illərdə Azərbaycan SSR DQMV-də sənayenin başqa sahələri Məişət xidməti idarəsi, Yerli sənaye müəssisəsi, nəşriyyat, Ərzaq məhsulları müəssisəsi, Asfalt-beton zavodu, 9 saylı Tikinti tresti də fəaliyyət göstərirdi. Dağlıq Qarabağda yerli sənaye müəssisəsi 4 kombinat – Şuşa, Vənkli, Ağdərə və Hadrut kombinatlarını birləşdirirdi.[47] Həmin sənaye müəssisələri, sırf yerli sənayeyə əsaslanaraq, getdikcə inkişaf edib daha da möhkəmlənirdi. Burada yerli materiallarından müxtəlif musiqi alətləri, pambıq parça, tikinti məmulatları və başqa məhsullar buraxılırdı. Yerli sənaye DQMV-nin ümumi sənaye məhsulları istehsalında yeri 1966-cı ildə 1,4 faiz, 1968-ci ildə isə 1,6 faiz təşkil edirdi.[48]

1965-1970-ci illərdə DQMV-nin 17 savxozunda 9 sənaye müəssisəsi yaradıldı ki, bunlardan 6-sı müstəqil, 2-si isə filial kimi fəaliyyət göstərirdi. Azərbaycan dövləti bu zavodları, kombinləşdirmə metodunu əldə rəhbər tutaraq, daha çox üzümçülüklə məşğul olan kəndlərdə yaratmışdı.[49]

XX yüzilliyin 50-60-ci illərdə Azərbaycanda energetika sənayesi sahəsində çox böyük nailiyyətlər əldə edildi. Belə Ki, 150 min kilovat gücündə "Şimal" elektrik stansiyası, 600 min kilovat gücündə açıq tipli Əli Bayramlı elektrik stansiyası, 75 min kilovat gücündə 1 saylı Gəncə elektrik stansiyası istifadəyə verildi və Azərbaycan, Ermənistan, Gürcüstanın enerci sistemləri birləşdirildi.[50] Bütün bünlar, DQMV-də elektrik enercisinə olan tələbatın ödənilməsinə təsir etdi. 50-ci illərin ortalarında Ağdam-Xankəndi yüksək voltlu elektrik xətti çəkilib qurtardı. Mingəçevir SES-nın trubinlərində istehsal edilən elektrik enercisi bu magistral xətlə Dağlıq Qarabağın şəhər və kəndlərinə, sənaye müəssisələrinə və tikintilərinə, kolxoz və sovxozlarına verildi. Bundan əlavə, Azərbaycan hökuməti 1928-1946-cı illərdə DQMV ərazisində bir neçə stansiya, o



cümlədən, Madagiz, Əskəran, Sacan, Xankəndi və başqa elektrik stansiyaları tikib istifadəyə vermişdi.[51] 1950-1960-cı illərdə Dağlıq Qarabağda elektrik enercisi istehlakı təxminən 15 dəfə artmışdı. Belə ki, 1950-ci ildə bölgədə elektrik enercisi istehlakı 4 milyon 669 min kilovat, 1960-cı ildə 13 milyon 880 min kilovat idisə, 1972-ci ildə 70 milyon kilovata çatmışdı.[52] Onu da qeyd edək ki, 1971-ci ildə Naxçıvan MR-da 5 milyon kilovat elektrik enercisindən istifadə edilmişdir.[53] 1970-ci ildə, demək olar ki, DQMV-nin bütün ərazisində elektrikləşmə işi başa çatmışdır. Belə ki, 1950-ci ildə ərazinin yalnız 12%-i, 1960-cı ildə 55%-i, 1965-ci ildə 80%-i elektrik enercisindən istifadə edirdisə, 1970-ci ildə ərazinin 99,5%-i elektrikdən istifadə etməyə başladı.[54] Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, elektrikləşməyən ərazi həmin 0,5% azərbaycanlılar yaşayan kəndlərin payına düşmüşdür. Eyni zamanda, azərbaycanlılar yaşayan kəndlərə işıq fasilələrlə verilir, sıradan çıxan elektrik nizamlayıcıları, dəyişən elektrik cərəyanının artırıb-azaldan aparatlar süni sürətdələngidilir və aylarla verilmirdi.

1950-1960-cı illərdə Dağlıq Qarabağ sənayesi 4,2 dəfə, 1923-cu illə müqayisədə 1950-ci ildə 75%, 1960-cı ildə 135%, 1970-ci ildə 316% artmışdır.[55] Bəhs etdiyimiz illərdə, vilayətin bütün sənaye müəssisələri gəlirlə işləmişdi. Bölgənin müəssisə və təşkilatlarının 2 illik maliyyə təsərrüfat fəaliyyətinin başhca yekunlarını nəzərdən keçirməklə bir daha yuxarıda dediklərimizin şahidi olarıq (qazanc+; itgi-; min manat hesabı ilə).[56]

| Sıra sayı | Müəssisə və təşkilatların adı | 1966 (min man.) | 1967 (min man.) |
|---|---|---|---|
| 1 | Qarabağ İpək Kombinatı | 337 | 112 |
| 2 | Qarabağ Spirt-Şərab Tresti | 2922 | 3672 |
| 3 | Elektrik məmulatları zavodu | 801 | 1804 |
| 4 | Mebel fabriki | 289 | 262 |
| 5 | Qarabağ Yağ-pendir zavodu | 308 | 262 |

| | | | |
|---|---|---|---|
| 6 | Tikiş fabriki | 103 | 130 |
| 7 | Məişət xidməti müəssisəsi | 83 | 119 |
| 8 | 16 saylı Çörək bişirmə zavodu | 228 | 182 |
| 9 | Yerli Sənaye müəssisəsi | 26 | 55 |
| 10 | Taxta-Şalban təsərrüfatı | 191 | 143 |
| 11 | 5 saylı sənaye kombinatı | 12 | 50 |
| 12 | Nəşriyyat | 36 | 36 |
| 13 | Tikinti materialları kombinatı | -8 | 9 |
| 14 | Ərzaq sənaye idarəsi | 21 | 16 |
| 15 | Xalçaçılıq fabriki | -10 | -8 |
| 16 | Kino verilişi idarəsi | 16 | 19 |
| 17 | Asfalt-beton zavodu | 25 | 16 |
| 18 | 9 saylı Tikinti tresti | -221 | 71 |
| 19 | Avtobaza | 386 | 344 |
| 20 | Vilayət Kommunal Xidməti idarəsi | 203 | 183 |
| 21 | Vilayət Təchizat idarəsi | 62 | 29 |
| 22 | Vilayət Satış müəssisəsi | 541 | 638 |
| 23 | Cəmi DQMV-i üzrə | 6339 | 8144 |

Cədvəldən göründüyü kimi, təkcə bir il ərzində DQMV idarə və müəssisələrinin qazanc fərqi 1 milyon 805 min manata bərabər olmuşdur. Sonrakı illərdə bu artım sürətlə davam etmişdir.

Bəhs etdiyimiz illərdə, DQMV-də sənayenin bir qolunu təşkil edən sənətkarlıq da mövcud olmuşdur. Burada yun emalı, boyaqçılıq, xalçaçılıq, keçəçilik, şərabçılıq, dəriçilik, dərziçilik, papaqçılıq, kürkçülük, səfraclıq, nalbəndlik, daşişləmə kimi qədim sənət sahələri fəaliyyət göstərirdi. Qədim yaşayış məskəni olan Şuşa şəhərində sənətkarlıq xüsusi olaraq inkişaf etmiş və keçmiş ənənəvi xüsusiyyətlərini qoruyub saxlamışdır. Təsadüfi deyildir ki, son dövrlərə qədər Qarabağımızın cənnət məkanı olan Şuşa şəhəri özünün keçmiş



sənətkarlıq adlarını – dəmirçi, boyaqçı, misgər, dərzi, papaqçı, başmaqçı və başqa məhəllə adlarını qoruyub saxlamışdı.

Ümumiyyətlə, 60-cı illərdə Azərbaycanda ümumi sənaye məhsulu istehsalı 94 faiz artmışdır. Həmin dövrdə, bu göstərici DQMV-də 181 faizə çatırdı. Bu yüksək göstəricinin ən başlıca amili Azərbaycan rəhbərliyinin Vilayətə göstərdiyi qayğının nəticəsi idi. Təkcə 1950-1960-cı illərdə Azərbaycan hökumətinin DQMV-də xalq təsərrüfatının inkişafına qoyduğu vəsait 20 dəfə artmışdı (1 milyondan 20 milyona qədər).[57] Bölgə ixtisaslı kadr, dəzgah və avadanlıqlarla, xammalla tam təmin edilmişdir.

Dağlıq Qarabağ sənayesi özünün çoxsahəliliyi ilə fərqlənirdi. Burada istehsal olunan sənaye məhsulları dünyanın bir çox ölkələrinə ixrac edilirdi. Lakin 50-60-cı illərdə Dağlıq Qarabağda sənayenin inkişafına baxmayaraq ziddiyyətli anlar da mövcud olmuşdur. Belə ki, müəssisələrdə dövlət intizamının pozulması, köhnə sahələrin yenidən qurulması prosesinin ləngiməsi, Dağlıq Qarabağın erməni rəhbərlərinin ciddi nöqsanları, onların məhsulun keyfiyyətinə yox kəmiyyətinə fikir verməsi rəhbərliyin inzibati amirlik metodları, müəssisələrdə işləyən az-çox azərbaycanlı fəhlələrə ögey münasibət, sənaye müəssisələrinin yerləşdirilməsində hökm sürən valyuntarizm və azərbaycanlılar yaşayan kəndlərin bu siyahıdan çıxarılması və başqa bu kimi mənfi hallar müşahidə edilmişdir. Həmin dövrə obyektiv qiymət verən ümummilli liderimiz H.Ə.Əliyev çıxışlarından birində göstərmişdir ki, 1960-cı ildə Azərbaycan sənayesi müharibədən əvvəlki səviyyəni ötmüş, 40-cı ildəki sənayeni 2,8 dəfə üstələyən məhsul buraxılışına nail olunmuşdur. 1950-1960-cı illərdə yeni sənaye sahələri əmələ gəlmiş, energetika və su təsərrüfatı tikintiləri genişlənmişdir. Müharibədən sonrakı beşilliklər ərzində Sovet Azərbaycanın keçdiyi tarixi yolun əhəmiyyətini azaltmadan onu da qeyd etmək vacibdir ki, 60-cı illərdə respublika iqtisadiyyatının inkişafında mənfi meyllər də özünü göstərməyə başlamışdı. Azərbaycan milli gəlirin inkişaf tempinə, sənaye və kənd təsərrüfatında istehsalın həcminə, elmi-texniki tərəqqinin nailiyyətlərinin mənimsənilməsinə, ictimai

məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geri qalırdı. Bu dövrdə, istehsal qüvvələrinin yerləşdirilməsi işində kobud yanlışlıqlara yol verilmişdi. Odur ki, yaranmış vəziyyətdən çıxış yolu tapmalı, gələcəkdə iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişikliklər aparmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi.[58]

Beləliklə, 1950-1960-cı illərdə ziddiyyətli, tərəddüdlərə və qeyri sabit olsa da, Dağlıq Qarabağda yeni sənaye sahələri əmələ gəldi və bununla da, işsizlik problemi aradan götürülməklə istehsal xeyli artdı. Mərkəz isə öz iqtisadi təməlini möhkəmləndirmək üçün Azərbaycanı öz xammal bazasına çevirməklə yeraltı və yerüstü sərvətlərimizin talan edilməsini daha da sürətləndirdi. İstehsal olunan sənaye məhsulları Rusiyaya və Ermənistana daşınırdı.



# IX FƏSİL

## DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNDƏ KƏND TƏSƏRRÜFATI (1950-1960-CI İLLƏR).

XX yüzilliyin 50-60-cı illərində Azərbaycan SSR DQMV-nin çoxsahəli kənd təsərrüfatında üzümçülük, bağçılıq, taxılçılıq, tütünçülük, həmçinin baramaçılıq və arıçılıq əsas yer tuturdu. 50-ci illərin əvvəllərində Vilayətin kənd təsərrüfatında bəzi problemlər mövcud idi. Belə ki, təsərrüfatlara rəhbərlik edən ermənilər çox hallarda təşkilati tədbirlərin işlənməsinə formal yanaşır, idarəçilikdə subyektivizmə yol verirdilər. Rəhbərlikdə inzibati amirlik metodu hökm sürürdü. Dağlıq Qarabağın sovxoz, kolxoz və MTS rəhbərləri planlaşdırmada bürokratik üsula əl ataraq öz şovinist mövqelərini tətbiq edirdilər. Kənddə əsas fəhlə işçi qüvvəsi kimi çıxış edən azərbaycanlı zəhmət adamlarına laqeyd münasibət göstərilirdi. Kənd təsərrüfatının kreditləşmə və maliyyələşməsində ciddi səhflərə yol verilmişdir. Belə ki, bəzi kənd təsərrüfatı məhsullarının, o cümlədən, ət, süd, taxıl, kartof və başqa strateci məhsulların dövlət tərəfindən satınalınma qiymətləri çox aşağı səviyyədə idi. Bu isə məhsulun istehsalçılarının maddi marağının aşağı düşməsinə səbəb olurdu. Vəzifəyə kadrlar təyin edilərkən onların iş qabiliyyəti, düşüncəsi savadı deyil, xüsusi olaraq milliyyəti nəzərə alınırdı. Vilayətin ali və icraedici strukturlarında çalışan erməni rəhbərləri kadrları şəxsi sədaqət, dostluq, qohumluq prinsiplərinə görə seçirdilər. Texnikadan lazımi səviyyədə istifadə olunmurdu.

Mövcud vəziyyət, yəni kənd təsərrüfatında nöqsanlar və istehsaldakı gerilik imperiyanın mənafeyinə uyğun deyildi. Mərkəz, Azərbaycanın yerüstü sərvətlərindən daha çox bəhrələnmək məqsədilə, 1953-cı ilin sentyabrında plenum çağıraraq mövcud vəziyyəti təhlil etdi: kənd təsərrüfatını daha da inkişaf etdirmək haqqında qərar qəbul olundu. Həmin qərara görə kənd təsərrüfatı əməkçilərinin maddi marağını artırmaq məqsədilə kənd təsərrüfatı məhsullarının satınalınma qiymətləri artırıldı; kolxozçulara əməyə görə avans verilməyə

başlandı; taxılçılığı inkişaf etdirmək məqsədilə xam və dincə qoyulmuş torpaqlar mənimsənildi; heyvandarlığı inkişaf etdirmək məqsədilə həvəsləndirmə prinsipi tətbiq edildi;[1] kolxoz və sovxozlara torpaqdan istifadə, mal-qaranın sayını, əkilən bitkilərin növünü müəyyən etmək hüquqları verildi. Kolxoz və sovxozlardan alınan məhsulun həcmini, planı yenədə vahid konsepsiya əsasında dövlət müəyyən edirdi.

Sov. İKP MK 1965-ci il mart plenumunda kənd təsərrüfatına dair öz iqtisadi siyasətində mərkəz bəzi dəyişikliklər apardı.[2] Belə ki, kənd təsərrüfatı məhsullarının satınalma qiymətləri qaldırıldı, idarəetmə sistemi xeyli təkmilləşdi, əsaslı vəsait qoyuluşu artdı. Lakin işdəki inzibati amirlik üsuli- idarəsi, mərkəzdən asılılıq, vahid idarəetmə sistemi, ictimai mülkiyyət və başqa amillərin mövcudluğu hələ də qalmaqda davam edirdi.

Azərbaycandakı aqrar nəticələr imperiyanı tam qane etmədiyəndən SSRİ Nazirlər Soveti və Sov. İKP MK Azərbaycanın kənd təsərrüfatı ilə bağlı 2 mühüm qərar qəbul etdi. Bunlardan birincisi, 1954-cü il iyulun 31-də səviyyədə "1955-1960-cı illərdə Azərbaycan SSR-in kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında", ikincisi isə 1957-ci ilin iyulunda "Azərbaycan SSR-in dağlıq, dağətəyi və sərhəd rayonları kolxozlarına kömək göstərmək haqqında"[3] qəbul olunan qərarlar idi. Dövlət, kolxozların maddi texniki bazasını möhkəmləndirmək məqsədilə 1957-ci ildən zəif inkişaf edən kolxozların hesabından kənd təsərrüfatı məhsullarının məcburi tədarükü üzrə olan borclarını sildi və əsaslı vəsait qoyuluşunu artırdı.

Azərbaycan hökuməti 1950-1960-cı illərdə DQMV kənd təsərrüfatını inkişaf etdirmək məqsədilə uzunmüddətli kredit verdi və həmin məbləğ ildən-ilə artırıldı. Təkcə 60-cı illərin kredit məbləğini nəzərdən keçirəriksə 6 dəfə artım olduğunu görərik. Belə ki, DQMV kolxozlarına 1962-ci ildə 271 min, 1962-ci ildə 345 min, 1963-cü ildə 700 min, 1965-ci ildə 817 min, 1966-cı ildə 1 milyon 147 manat, 1967-ci ildə 1 milyon 620 manat uzunmüddətli kredit verilmişdi.[4] Həmin vəsait, xüsusi olaraq, heyvandarlıq fermalarının tikintisinə, kənd təsərrüfatı



texnikasının əldə olunmasına, elektrikləşmə işinə, toxum almağa, kənd təsərrüfatı mütəxəssislərinin əmək haqqını ödəməyə, kolxozçuların şəxsi təsərrüfatlarının saxlanılmasına, kolxozçuların əmək haqlarının ödənilməsinə yönəldilmişdi.

1951-1961-ci illərdə DQMV-nin xalq təsərrüfatına 15 milyon 997 min manat vəsait ayrılmışdı. Təkcə 1967-ci ildə isə, 1951-ci illə müqayisədə, ayrılan dövlət vəsaitinin həcmi 15,9 dəfə artaraq 716 mindən 11 milyon 397 min manata çatmışdı.[5]

1951-1961-ci illərdə Respublikamızın kənd təsərrüfatına dövlət və kolxozlar tərəfindən qoyulan vəsait 750 milyon manat, 60-cı illərdə isə 1 milyard 763 milyon manat olmuşdur.[6] 60-cı illərdə Azərbaycan SSR kənd təsərrüfatına 30 min traktor, 4,5 min taxılyığan kombayn, 2,6 min pambıqyuyan maşın və başqa kənd təsərrüfatı maşınları verdi ki, bundan DQMV payına 977 traktor, 227 taxılyığan və 703 yük avtomobili düşürdü. 1957-ci ildə Azərbaycanda 105 Maşın - Traktor Stansiyası (MTS) var idi ki, bundan 12-si DQMV payına düşürdü.[7] Lakin MTS-lər kolxozlara lazımi şəraitdə istehsal-texniki xidmət göstərə bilmirdi. Texnikanın kolxozlardan uzaqda yerləşməsi həmin təsərrüfatların texnikanın gücündən lazımınca istifadə edilməsini çətinləşdirirdi. Həm də uzaq məsafədən kolxozlara gedən texnika xeyli yanacaq sərf edir, bu xərc isə kolxozların üzərinə düşürdü. Bütün bunları nəzərə alan SSRİ Ali Soveti 1958-ci il martın 31-də "Kolxoz quruluşunu daha da inkişaf etdirmək və MTS-ləri yenidən təşkil etmək haqqında" qanun qəbul etdi. Qanunda MTS-lərin tədriclə ayrı-ayrı kolxozların iqtisadiyyatını və rayonların xüsusiyyətlərini nəzərə almaqla yenidən təşkili zəruri hesab edilmişdir.

Həmin qərara uyğun olaraq, Azərbaycanın hər yerində, o cümlədən, DQMV-də 1958-ci ilin sonunadək MTS-lər ləğv edildi. MTS-lərin əvəzində Vilayətdə 4 Təmir Texniki Stansiyası (TTS) yaradıldı. Həmin vaxt MTS-lərə məxsus 531 traktor, 215 kombayn, 506 yük avtomobili, 1 milyon 216 min manatlıq digər texnika Dağlıq Qarabağın kolxozlarına paylandı.[8] 1961-ci ildə

Azərbaycan hökümətinin qərarı ilə DQMV-də Azərbaycan Kənd Təsərrüfatı Texnikasının Dağlıq Qarabağ Birliyi yarandı. Yaranan vaxt həmin Birliyin sayı 4, 1970-ci ildə isə 5 oldu. Dağlıq Qarabağın kolxoz və sovxozlarının texniki təchizatı ilə Azərbaycan Kənd Təsərrüfatı Texnikası Birliyinin 5 müəssisəsi məşğul olurdu.[9] Həmin müəssisələr Dağlıq Qarabağda istifadə olunan ibtidai kənd təsərrüfatı alətlərini kənd təsərrüfatı maşınları – traktorlar, kombaynlar, avtomaşınlar, dörd və səkkiz korpuslu kotanları ilə əvəz etdi. Nəticədə, DQMV-nin kolxoz və sovxozlarında 1950-ci illə müqayisədə 1860-cı ildə traktorların sayı 207-dən 1713-ə, taxılyığan kombaynların sayı 33-dən 440-a, yük avtomobillərinin sayı 287-dən 1317-yə çatdı.[10]

1950-ci illərdə kolxoz və sovxozlarda kənd təsərrüfatı üzrə ixtisaslı mütəxəssislərin kolxoz təsərrüfatlarında işləməyə 13 min mütəxəssis, o cümlədən, 300 mühəndis texnik, 10 min traktorçu, 2 min kombaynçı göndərildi. Bundan 2156 mütəxəssis, 54 mühəndis texnik, 150 traktorçu və başqa mütəxəssislər Dağlıq Qarabağın kolxozlarında işləməyə göndərildilər.[11] 1960-cı ildə DQMV-nin kolxozlarında ayrı-ayrı ixtisaslar üzrə işləyən ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı barədə aşağıdakı cədvəldən də məlumat əldə etmək olar: (Nəfərlə)[12]

| Sıra sayı | İxtisarların adları | 1960 | | | 1967 | | |
|---|---|---|---|---|---|---|---|
| | | O cümlədən | | | o cümlədən | | |
| | | Cəmi | Ali təhsilli | Orta ixtisas | Cəmi | Ali təhsilli | Orta ixtisas |
| 1. | Kolxoz sədrləri | 84 | 47 | 37 | 69 | 30 | 39 |
| 2. | Kolxoz sədrinin müavini | 26 | 16 | 10 | 6 | 5 | 1 |
| 3. | Aqronomlar | 96 | 15 | 81 | 68 | 19 | 49 |
| 4. | Zotexniklər | 92 | 34 | 58 | 69 | 27 | 42 |
| 5. | Baytar, mal həkimi | 117 | 26 | 91 | 89 | 15 | 74 |
| 6. | Mühəndis texnik | 54 | 38 | 16 | 56 | 38 | 18 |
| 7. | Briqada bahçısı | 331 | 270 | 61 | 233 | 3 | 230 |
| 8. | Ferma müdrləri | 278 | 219 | 59 | 209 | 3 | 206 |
| 9. | Ümumi hesablama xidmətçiləri | 1078 | 668 | 410 | 838 | 112 | 716 |
| 10. | Tikinti rəhbərləri | - | - | - | 21 | - | 21 |
| 11. | İqtisadçı, planlaşdırıcı | - | - | - | 18 | 8 | 10 |



Cədvəldən göründüyü kimi, DQMV-də ixtisaslı mütəxəssislərin sayı 1960-cı illə müqayisədə 1967-ci ildə 580 nəfər azalmışdı (2156-dan 1676-ya enmişdir). Aparılan tədqiqatlara əsasən müəyyən edilib ki, bölgənin kolxozlarında mütəxəssislərin sayının azalmasının 2 başlıca səbəbi olmuşdur. Kiçik kolxozların birləşərək böyüdülməsi və kolxozların sovxozlara çevrilməsi. 1966-cı ilin dekabr məlumatına görə, ümumilikdə DQMV-nin xalq təsərrüfatında 3097 ali və orta ixtisas təhsilli mütəxəssi işləyirdi ki, bundan 1151-i sovxozların, 1676-sı kolxozların payına düşürdü. Sovxozların təsərrüfatlarında 459 aqranom, 358 zootexnik, 108 baytar həkim, 226 feldşer həkim çalışırdı.[13] Yeri gəlmişkən onu

da qeyd edək ki, DQMV-nin bütün xalq təsərrüfatında işləyən ali və orta ixtisas təhsilli mütəxəssislərin 40,5 faizini qadınlar təşkil edirdi.[14]

Azərbaycan dövləti DQMV-ni mütəxəssis kadrlarla tam təmin etmək üçün bölgədə 1920-1960-cı illər ərzində 5 texnikomun açılmasını qərarlaşdırmışdır. Bu texnikomlardan 2-si, Şuşa və Xankəndi Kənd Təsərrüfatı Texnikomları sırf kənd təsərrüfatı mütəxəssisləri hazırlamaqla məşğul olurdu.[15]

Ümumiyyətlə, Azərbaycan dövləti Dağlıq Qarabağın təsərrüfatlarını ixtisaslı mütəxəssislərlə tam təmin etmək üçün bütün vasitələrdən istifadə edirdi. Tədqiqatlar nəticəsində məlum olur ki, bəhs etdiyimiz illərdə, Naxçıvan MR-da çalışan mütəxəssislərin sayı DQMV-də işləyən kadrlardan 30 faiz aşağı idi.

Aparılan araşdırmalar nəticəsində məlum olur ki, DQMV ərazisində ixtisaslı mütəxəssislərin yerləşdirilməsində də Vilayətin erməni rəhbərliyi "DQMV haqqında qanun"un 21-ci maddəsini əldə rəhbər tutaraq ikili siyasət yeritmişlər. 1966-cı ildə Vilayətin kolxoz və sovxozlarında çalışan 2827 mütəxəssisdən *yalnız* 23-ü Şuşa rayonunun payına düşmüşdü. Burada çalışan mütəxəssislərdən yalnız 2-si ali təhsilli idi. Ağdərə, Xankəndi, Xocavənd və Hadrut rayonlarında azərbaycanlılar yaşayan kəndlərin kolxozlarında da yuxarıda deyilən hallar mövcud olmuşdur.[16]

*Azərbaycan SSR DQMV-nin* kənd təsərrüfatının inkişaf etdirməyin mühüm şərtlərindən biri də kolxoz və sovxozların tam elektrik enercisinə olan tələbatının ödənilməsi idi.

50-ci illərdə DQMV-də Madagiz, Əsgəran, Sacan, Xankəndi SES-ları və digər stansiyalar işləyirdi. Bəhs etdiyimiz dövrdə, DQMV-nin bütün energetika obyektləri ildə orta hesabla 19 milyon kilovat – saat elektrik enercisi istehsal edirdi.[17] 1950-ci ildə Dağlıq Qarabağın kolxozlarının yalnız 12 faizi elektrik enercisindən istifadə edirdi. Azərbaycan SSR dövlət büdcəsindən ayrılmış vəsait hesabına 1960-cı illərdə Ağdamdan Xankəndinə yüksək gərginlikli elektrik xətti çəkildi. Görülən işin nəticəsi idi ki, 1960-cı ildə Dağlıq Qarabağın kolxozlarının 55 faizi, 1970-ci ildə isə 99,5 faizi elektrik enercisindən istifadə edirdi.[18]



Ümumrespublika üzrə bu göstərici 99,3 faiz idi. Vilayətin sovxozları 100 faiz elektrikləşdirilmişdir.[19]

1950-1960-cı illərdə DQMV-də, kənd təsərrüfatını inkişaf etdirmək məqsədilə, Azərbaycan hökümətinin gördüyü tədbirlərdən biri də su təsərrüfatı tikintisində vacib obyektlərin inşa edilməsi idi. Yuxarı Qarabağ kanalının istifadəyə verilməsi bölgədə suvarılan torpaq sahələrinin genişlənməsinə və bu da öz növbəsində məhsuldarlığın yüksəldilməsinə təsir etdi.

130-dan artıq çaydan ibarət olan Dağlıq Qarabağın çaylar sistemi aşağıdakı su axarlarının: İncəçay, Tər-tərçay, Xaçınçay, Qarqarçay, Kürçay və Köndələnçay hövzəsinə aiddir.

Bu çayların suyundan da istifadə etmək günün vacib məsələlərindən idi. Tər-tər çayının Sərsəng dərəsində (Ağdərə rayonu ərazisində) səthi 35 kvadrat kilometr, sututarı 500 milyon kubmetr su anbarının tikintisi böyük əhəmiyyətə malikdir. 120-140 min hektar torpaq sahəsini suvarmaq qabliyyəti olan Sərsəng su anbarından 2 kanal – 75 kilometr uzunluğunda sağ və 24 kilometr uzunluğunda sol kanallar axır.[21]

Köndələnçay (uzunluğu 89 km, hövzəsinin sahəsi 594 $km^2$, illik həcmi 50 milyon $m^3$) su anbarının da tikintisi 1950-ci ilə təsadüf olunur. Həmin çayın 2-ci anbarı 1962-ci ildə istifadəyə verilmişdir. Anbarın ümumi həcmi 15 milyon kubmetrdir. Təxminən 10 min hektar torpağı suvarır.[22]

60-cı illərdə su anbarlarından, çaylardan böyük arxlar, kanallar çəkilib, Dağlıq Qarabağın kənd təsərrüfatı bitkilərinin suvarılmasında istifadə olunurdu. Nəticədə 1970-ci ildə DQMV-də suvarılan torpaqların sahəsi genişləndirilərək 22 min hektara çatdı.[23]

"Kolxoz quruluşunu daha da inkişaf etdirmək və kolxozların maddi texniki bazasını möhkəmləndirmək" məqsədilə DQMV-də bir sıra tədbirlər həyata keçirildi. Belə ki, kiçik kolxozlar birləşərək xeyli möhkəmləndi və iri çoxsahəli təsərrufatlara çevrildi. 1950-1960-cı illərdə DQMV-də kolxozların birləşməsi prosesini aşağıdakı cədvəldən də izləmək olar:[24]

| Sıra sayı | Məzmunu | illər | | | | |
|---|---|---|---|---|---|---|
| | | 1940 | 1950 | 1958 | 1960 | 1970 |
| 1. | Kolxozların sayı (ədədlə) | 199 | 91 | 88 | 81 | 70 |
| 2. | Kolxozlara birləşən təsərrüfatlar (min ədəd) | 23 | 21 | 19 | 19 | 15 |
| 3. | Hər bir kolxozda evlərin sayı (ədədlə) | 115 | 234 | 211 | 230 | 119 |

1950-ci ildə Azərbaycanda 1615 kolxoz var idi. 1970-ci ildə onların sayı 992-yə endi. Müvafiq illərdə DQMV-də kolxozlar 91-dən 70-ə enmişdi.[25] Bu azalmaya səbəb kolxozların birləşməsi və bəzi kolxozların sovxozlara çevrilməsi olmuşdur. Kolxozların birləşdirilməsi bir sıra ştat ixtisarlarına bu isə öz növbəsində kolxozların mənfəət və büdcə mədaxilinin artmasına səbəb oldu.

Təkcə 60-cı illərdə DQMV-nin kolxozlarında kolxoz sədrləri 84-dən 69-a, sədrlərin köməkçiləri 26-dan 6-ya, aqranomlar 96-dan 68-ə, zootexniklər 92-dən 69-a, baytarlar 117-dən 89-a, briqada başçıları 331-dən 233-ə, ferma müdirləri 278-dən 209-a, hesabdarlar 1078-dən 838-ə endi.[26]

Bəhs etdiyimiz illərdə, Azərbaycanda sovxoz quruculuğu müvəffəqiyyətlə inkişaf edirdi. Sovxozların sayı 1950-ci ildə 46-dan 1970-ci ildə 406-ya çatmışdı. Yəni 9 dəfədən çox artım müşahidə edilmişdir. 1960-1970-ci illərdə Azərbaycan SSR-in DQMV bölgəsində isə bu göstərici aşağı səviyyədə idi.

XX yüzilliyin 30-cu illərində DQMV-də sovxoz quruculuğu sürətlə getmişdir. Azərbaycandakı 114 sovxozun 12-si, başqa sözlə desək, 9,5 faizi DQMV payına düşürdü.[27] Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar həmin sövxozların birləşməsi və ixtisaslaşması prosesi baş vermişdir. Təkcə Qarabağ Şərab Tresti öz tərkibində 4 sovxozu – 1 saylı Xocavənd, 2 saylı Həsənabad, Əskərandakı (Qırmızı Qazar)



spirt və şərab zavodlarını birləşdirdi. Eyni zamanda, torpaq sahəsi az olan sovxozlar da həmin rayonda fəaliyyət göstərən digər soxvozlarla və ya digər rayonlarda fəaliyyət göstərən eyni istehsal sahələri ilə birləşdirildi. Məsələn, Ağdərədəki 8 saylı Arıçılıq sovxozunun 7 hektar, Hadrutdakı Arıçılıq sovxozunun 3 hektar, Novadxanı Arıçılıq sovxozunun 205 hektar, 1 saylı Xankəndi Arıçılıq sovxozunun 222 hektar torpaq sahəsi var idi.[28] Həmin sovxozların ixtisaslaşma və təmərküzləşmə ilə əlaqədar birləşməsi prosesi baş vermişdir. Beləliklə, 1941-ci ildə DQMV-də 551 hektar əkin sahəsinə 1025 baş iri buynuzlu mal qaraya, 1943 qoyun və keçiyə, 271 donuza malik 3 sovxoz fəaliyyət göstərirdi. 1950-ci illərdən başlayaraq, DQMV-də sovxozların sayı artmağa başladı. 1950-ci illərin ortalarında Ağdərə rayonunda 3 saylı şərabçılıq zavodu yaradıldı. 1963-cü ildə DQMV-də daha 3 sovxoz-Ağdərə, Əsgəran və Hadrut şərab Emalı sovxozları yaradıldı.[29]

Beləliklə, 1970-ci ildə DQMV-də sovxozların sayı 11-ə çatdı. Yəni 1950-ci illə müqayisədə 1970-ci ildə artım 3,6 dəfə olmuşdur. Həmin 11 sovxozdan 7-də şərab zavodu yaradılmışdı: bundan 4-ü Qarabağ şərab Trestinin nəzdində, 3-ü müstəqil sənaye müəssisəsi idi. Sovxozların sayında artım olduğu kimi onların əkin sahəsində də artım müşahidə edilmişdir. Həmin artım aşağıdakı cədvəldən də aydın görmək olar: (hektarla)[30]

| Sıra sayı | Məhsulun növü | İllər və əkin sahələri (hektarla) | | |
|---|---|---|---|---|
| | | 1940 | 1950 | 1960 |
| 1. | Ümumi əkin sahəsi | 1670 | 1447 | 17670 |
| 2. | Dənli bitkilər | 551 | 452 | 6381 |
| 3. | Texniki bitkilər | 850 | 620 | 52 |
| 4. | Kartof | - | 10 | 33 |
| 5. | Tərəvəz | 6 | 17 | 106 |
| 6. | Yem bitkiləri | 140 | 247 | 4940 |
| 7. | Üzüm əkin sahəsi | 123 | 106 | 6158 |

Cədvəldən göründüyü kimi, 1950-ci illə müqayisədə 1968-ci ildə DQMV-nin sovxozlarında əkin sahələri 12 dəfə artmışdır. Artımın xüsusi çəkisi üzüm əkini (58 dəfə), dənli bitkilər əkini (11,5 dəfə), yem bitkiləri (20 dəfə) üzərinə düşmüşdür. Texniki bitkilərin əkini 12 dəfə azalmışdır. Tütün əkini Dağlıq Qarabağın sovxozlarından tamam yığışdırılması, pambıq əkini isə yalnız Ağdərə rayonunun düzən ərazilərində əkilmişdir. Tərəvəz əkini isə 2,2 dəfə aşağı düşmüşdür.[31]

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1968-ci ildə DQMV-nin 11 sovxozundan yalnız biri Şuşa rayonunun üzərinə düşürdü. Ümumi əkin sahəsi isə 1950-ci ildəki 234 hektara qarşı 1960-cı ildə 8 hektara enmişdi. Bundan 4 hektarında dənli bitkilər, 2 hektarına tərəvəz, 2 hektarında yem bitkiləri əkilmişdi. 1950-1960-cı illərdə Mərkəz, öz mənafeyinə uyğun olaraq, Azərbaycanda kənd təsərrüfatını inkişaf etdirmək məqsədilə bir sıra aqrar islahatlar həyata keçirdi ki, bunlardan biri də "Kolxozçuların şəxsi təsərrüfatlarından alınan kənd təsərrüfatı vergilərinin azaldılması, kənd təsərrüfatı məhsullarının satınalınma qiymətlərinin artırılması, kəndlilərin quş, mal-qara saxlaması üçün həvəsləndirmə prinsipinin tətbiq edilməsi haqqında" sentyabr 1953-cü il qərarı idi.[32] Azərbaycanın hər yerində, o cümlədən, onun ayrılmaz tərkib hissəsi olan DQMV-də də, 50-ci illərdən həmin qərar tətbiq olundu. Nəticədə, 1940-cı illə müqayisədə DQMV-nin kəndli, fəhlə və digər xidməti işlə məşğul olan əhalisinin şəxsi təsərrüfatlarında əkin sahəsi 1959-cu ildə 824 hektardan 1178 hektara çatdı. Başqa sözlə desək, 42 faiz artdı. 1950-ci illə müqayisədə mal-qaranın sayı 1960-cı ildə 11507 başdan 16125 başa, donuzların sayı 4226 başdan 7829 başa, qoyun və keçilərin sayı 37546 başdan 74854 başa, inək və camışların sayı 5985 başdan 7615 başa çatdı.[33]

1960-cı ildə bütövlükdə Respublikamızda kolxozçuların şəxsi mülkiyyətinə iribuynuzlu mal-qaranın sayı 444,2 min baş, qoyun və keçilərin sayı 1127,4 min baş, donuzların sayı 11,9 min baş idi.[34]



DQMV-də şəxsi təsərrüfatların 10 illik inkişaf göstəricilərini (1950-1960) nəzərdən keçirərkən ümumi heyvanların sayının 59264 başdan 106423 başa çatdığını və 1,8 dəfə artım olduğunu görürük.[35] Sosializm cəmiyyətində şəxsi təsərrüfatlarının inkişafı hakim dairələri qane etmirdi. 60-cı illərin əvvəllərində mövcud şərait (inkişaf) düzgün qiymətləndirilmir, şəxsi təsərrüfatlara ehtiyac olmaması, hətta onların ictimai təsərrüfatlarının inkişafına maneəçilik törətməsi haqqında qeyri elmi fikirlər əsasında tələsik tədbirlər həyata keçirilirdi. 60-cı illərdə şəxsi həyətyanı təsərrüfatlar haqqında Azərbaycan dövlətinin 2 qərarı olmuşdur. Bunlardan biri Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 12 may 1962-ci il qərarı idi. Həmin qərarda göstərilirdi ki, kənd yerlərində yaşayıb işləyən fəhlə və qulluqçuların həyətyanı təsərrüfatları tikintilərinin sahəsi də daxil olmaqla 0,15 hektara çatdırılsın.[36] Azərbaycan dövlətinin 1963-cü il noyabr tarixli 2-ci qərarı isə kolxozçuların həyətyanı təsərrüfatları üçün (tikililərin də sahəsi daxil olmaqla) 0,25 hektar torpaq sahəsi müəyyən olundu.[37] Nəticədə, DQMV-də, 1959-cu illə müqayisədə, 1968-ci ildə ümumi əkin sahəsi 1178 hektardan 1153 hektara endi. Vilayət üzrə fəhlə, kəndli və qulluqçuların şəxsi təsərrüfatlarından ümumi torpaq sahəsi üzrə azalma halı 5 rayon üzrə 25 hektar olmuşdur. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, həmin 25 hektarın 21 hektarı (94 hektardan 73 hektara) azərbaycanlıların daha çox yaşadığı Şuşa rayonunun payına düşmüşdür.[38]

1960-cı illərdə şəxsi təsərrüfatlarda olan mal-qaranın ümumi sayında böyük artım müşahidə edilmişdir. Belə ki, 1960-cı illə müqayisədə 1968-ci ildə iribuynuzlu mal-qaranın sayı 16 125 başdan 32 707 başa, inək və camışlar 7615 başdan 14184 başa, donuzlar 7829 başdan 14181 başa, qoyun və keçilər 74854 başdan 120070 başa çatmışdır.[38] 60-cı illərdə, bütövlükdə, DQMV-nin fəhlə, qulluqçu və kolxozçularının təsərrüfatlarında mal-qaranın sayı 106 423 başdan 181 152 başa çatmışdır, başqa sözlə, təxminən 70 faiz artım müşahidə edilmişdir.[39] Lakin sonrakı dövrlərdə, DQMV-də əhalinin yem, toxum, əmək alətləri əldə etmək çətinlikləri, həyətyanı təsərrüfatlarına qayğının olmaması,

mal-qaranı çox saxlayanlar haqqında haqsız olaraq "xüsusi mülkiyyətçi", "möhtəkir", "alverçi" kimi ictimai rəy yaradılması ucbatından fəhlə, qulluqçu və kəndlilərin şəxsi təsərrüfata marağı getdikcə azalmağa başlamışdır.

XX yüzilliyin 50-60-cı illərində kolxoz təsərrüfatlarının inkişafı dövlətin xüsusi diqqət mərkəzində idi. Bu məqsədlə müxtəlif tədbirlər həyata keçirilir və nəzarət gücləndirilirdi. Bəhs etdiyimiz illərdə, ayrı-ayrı təsərrüfatlar üzrə istifadə olunan torpaq bölgüsü aşağıdakı qaydada aparılmışdır: (min hektarla)[40]

| Sıra sayı | İllər | Bütün torpaqlar | O cümlədən | | | |
|---|---|---|---|---|---|---|
| | | | Kolxozların torpağı | Sovxoz və digər dövlət təsərrüfat torpaqları | Dövlət meşə fondunun və torpaq fondunun torpaqları | Digər istifadə olunan torpaqlar |
| 1. | 1940 | 468,8 | 339,4 | 7,9 | 115,4 | 6,1 |
| 2. | 1950 | 480,3 | 340,6 | 8,1 | 115,9 | 16,7 |
| 3. | 1960 | 496,7 | 371,4 | 9,9 | 111,7 | 3,7 |
| 4. | 1965 | 504,7 | 313,8 | 74,8 | 112,2 | 3,9 |
| 5. | 1968 | 501,5 | 309,0 | 73,1 | 111,8 | 7,6 |

XX yüzilliyin 50-60-cı illərində Azərbaycan hökuməti DQMV-nin kənd təsərrüfatında əkin sahələrinin məhsuldarlığını artırmaq məqsədilə mədən gübrələrinin, bitkiləri xəstəlikdən və ziyanvericilərdən qoruyan kimyəvi vasitələrin tətbiqini genişləndirdi. Bölgənin kənd təsərrüfatında irriqasiya və melorasiya, mexanikləşdirmə və elektrikləşdirmə işlərini həmişə diqqət mərkəzində saxlayan Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti Dağlıq Qarabağın təsərrüfatlarını mədən gübrələrlə də təmin olunmasını öz üzərinə götürmüşdür. Bu məqsədlə, Azərbaycan hökuməti Respublikamızın kəndlərinə 1966-cı ildə 285 min ton, 1970-ci ildə isə 434 min ton mineral gübrə və



ziyanvericilərə qarşı müxtəlif kimyəvi maddələr göndərmişdi.[41] Bundan DQMV-nin kənd təsərrüfatında istifadə olunmaq üçün 1966-cı ildə 8,5 min ton, 1970-ci ildə isə 12,3 min ton verilmişdi.[42] Hətta DQMV-nin kənd təsərrüfatının inkişafında Azərbaycan hökumətinin verdiyi gübrələrin əhəmiyyətini erməni müəllifləri öz əsərlərində etiraf edərək yazmışlar: "DQMV-nin kənd təsərrüfatında taxıl, pambıq, üzüm məhsullarının taleyi həm də Sumqayıt superfosfat zavodunun sexslərində, Sumqayıt kimya zavodunun qurğularında, Gəncə alüminum zavodunda, RSFSR-nın, Ukraynanın, Belorusiyanın, Qazaxıstanın, Orta Asiyanın kimya müəssisələrində həll olunur. Bakı, DQMV-nin kəndlərinə fasiləsiz olaraq mineral gübrələr göndərir. Həmin gübrələr möcüzələr yaradır. Əgər superfosfatdan, azot selitrasından və digər kimyəvi maddələrdən ağıllı surətdə istifadə etsək istənilən nəticəni əldə etmək olar".[43]

Dövlətimiz, həm də Dağlıq Qarabağa təyyarələr vermişdir ki, bu təyyarələr vasitəsilə əkinlərin becərilməsində, kənd təsərrüfatı ziyanvericilərinə qarşı kimyəvi mühafizə vasitələrinin və mineral gübrələrin səpilməsində istifadə olunurdu.

Azərbaycanın ən gözəl və bərəkətli güşələrindən biri olan DQMV-nin münbit torpaqlara, əlverişli iqlimə, bol su ehtiyatlarına malik olması, eyni zamanda dövlətimizin dərin qayğısı nəticəsində burada çoxşaxəli kənd təsərrüfatının inkişafına zəmin yaratmışdır. 1950-1960-cı illərdə DQMV-də bütün kateqoriyalar üzrə ayrı-ayrı kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsi aşağıdakı kimi olmuşdur: (hektarla)[44]

| Sıra sayı | Əkilən bitkilərin adı | İLLƏR | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 1940 | 1950 | 1955 | 1960 | 1965 | 1970 |
| | Ümumi əkin sahəsi: O cümlədən, | 81969 | 79152 | 93915 | 88225 | 54611 | 69996 |
| 1. | Dənli bitkilər | 70609 | 67768 | 73272 | 60187 | 31996 | 42112 |
| 2. | Texniki bitkilər | 4110 | 2441 | 3479 | 3718 | 2549 | 1613 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 3. | Kartof, tərəvəz və bostan bitkiləri | 2284 | 2203 | 2649 | 1778 | 1799 | 1637 |
| | O cümlədən, kartof əkini | 1537 | 1431 | 1865 | 1001 | 886 | 897 |
| 4. | Yem bitkiləri | 4966 | 6740 | 14515 | 22442 | 18267 | 24634 |

Cədvəldən göründüyü kimi, 1950-ci ilə nisbətən 1960-cı ildə DQMV-nin bütün təsərrüfatlarında əkin sahəsi 9073 hektar artmışdır. Bu artımın xüsusi çəkisi yem bitkilərinin üzərinə düşmüşdür. 1950-ci illə müqayisədə isə 1970-ci ildə əkin sahəsi 9156 hektar azalmışdır. Həmin azalma texniki bitkilərdə daha çox müşahidə edilmişdir. 1970-ci ildə DQMV-nin ümumi əkin sahəsindən 22660 (32 faizi) suvarılan torpaqlar idi. Bundan 1024 hektarı illik və mövsümü əkin sahəsinə, 8417 hektarı çoxillik bitkilərin əkin sahəsi, 9633 hektarı bağçılıq əkini sahələrinə, 1272 hektarı şəxsi həyətyanı sahələrinə düşürdü.[45] Sonrakı dövrlərdə suvarılan əkin sahələrinin həcmi xeyli genişlənmişdi. Çünki suvarılan bitkilərin məhsuldarlığı dəmiyə əkin sahələrindəkindən 2-3 dəfə artıq olurdu.

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1968-ci ildə DQMV-nin kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsindən (75 559 hektardan) təxminən 26 faizi (20073 hektarı) Xankəndinin kolxoz və sovxozlarına, 27 faizi (20 832 hektarı) Ağdərə rayonuna, 30 faizi (22074 hektarı) Xocavənd rayonuna, 12 faizi (7780 hektarı) Hadrut rayonuna, 5 faizi (3641 hektarı) Şuşa rayonunun payına düşürdü.[46]

DQMV-də istehsal olunan kənd təsərrüfatı məhsullarının 57 faizi bitkiçiliyin 43 faizi isə heyvandarlığın üzərinə düşür.[47]

Taxılçılıq Dağlıq Qarabağ əhalisinin qədim peşələrindən biridir. Ayrı-ayrı dövrlərdə ümumi kənd təsərrüfatı bitkilərinin əkin sahələri nəzərdən keçirilərkən dənli bitkilər əkininin daha üstün olmasını görürük. Belə ki, 1950-ci ildə ümumi əkin sahəsinin (79152 hektarın) 85 faizini (67768 hektarını), 1960-cı ildə (88225 hektarın) 68 faizini (60287 hektarını), 1970-ci ildə isə (69996 hektarın) 66 faizini



(42112 hektarını) dənli bitkilər təşkil etmişdir.[48] DQMV-də buğda və arpa həm payızda həm də yazda əkilirdi. Buğda əkinin 45 faizi payızlıq buğda əkini idi. Dağlıq Qarabağ şəraitində "Qılçıqsız–1" buğda sortu özünü daha yaxşı göstərmişdir. Bu sort DQMV-nin təsərrüfatlarında yetişdirilən bütün sortlar arasında birinci yerə çıxmışdır. Təbiətin hər cür şıltaqlıqlarına davamlı və məhsuldar olan "Qılçıqsız–1" sortu 60-cı illərdə vilayətin bütün ərazisində əkilməyə başlandı. Bu sortdan ən çox payızlıq buğda əkini vaxtı istifadə edilirdi. DQMV-də həmişə taxıl əkini arpa əkinindən üstün olmuşdur. Məsələn, Dağlıq Qarabağın kolxoz və sovxozlarında 1950-ci ildə 39,7 min hektar sahədə buğda, 17,3 min hektar sahədə arpa, 1960-cı ildə 39,4 min hektara qarşı 18,1 min hektar, 1970-ci ildə isə 26,1 min hektar buğda əkinə qarşı 14,2 min hektar arpa əkilmişdir.[43] Aparılan hesablamalar nəticəsində məlum olur ki, 1950-1960-cı illərdə DQMV-də dənli bitkilər əkini sovxozlara nisbətən kolxozlarda daha çox olmuşdur. Təkcə 60-cı illərin sonlarında DQMV-nin sovxozlarında arpa əkini kolxozları üstələmişdir (3947 hektara qarşı 3652 hektar).

Azərbaycan dövləti 50-60-cı illərdə DQMV-də taxılçılıq mədəniyyətinin yüksəldilməsinə, dənli bitkilərin sort tərkibinin dəyişdirilməsinə, əkin və biçin texnologiyasının yaxşılaşdırılmasına diqqətini artırır və yüksək məhsuldar buğda sortları ilə təsərrüfatları təmin edirdi. Dövlətimiz bölgənin kənd təsərrüfatı texnikasına olan tələbatı ödəmək üçün bütün imkanlardan istifadə edir və ərazinin kolxoz və sovxozlarmda işləyən texnikanın tam tələbatını ödəyirdi. Azərbaycan Kənd Təsərrüfatı Texnikası Birliyinin 5 müəssisəsi DQMV-nin kolxoz və sovxoz tarlalarında, bağ və bostanlarında işləyən yüzlərlə traktor, kombayn və digər maşınların texniki təchizatını təmin edirdi. Azərbaycan alimləri tərəfindən DQMV-nin enerci ehtiyatları aşkara çıxarılır, onlardan düzgün istifadə edilməsi şərtləri müəyyənləşdirilir, mövcud enerci sistemlərinin səmərələşdirilməsi üsulları işlənib hazırlanırdı. Dövlətimizin daxili vəsaiti hesabına DQMV-də 60-cı illərin sonlarında 28 SES və İES-ları fəaliyyət göstərirdi. Bu stansiyalar Mingəçevir və Tərtər Su Elektrik Stansiyalarının gücü

hesabına işləyirdi. Həmçinin, bölgənin özündəki Madagiz SES-nın gücündən də istifadə olunurdu. DQMV-nin kolxoz və sovxozlarında su vurulmasında və müxtəlif əməliyyatların yerinə yetirilməsində 183 elektrik mühərriki işləyirdi.[50] *Azərbaycanın nəbatatçı alimləri* DQMV-nin florasını öyrənir, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını artırmağın həllinə köməklə əlaqədar, xüsusi olaraq dənli bitkilərin yeni növlərini almaq və mövcud növlərini dəyişdirmək prosesinin öyrənilməsi sahəsində səmərəli işlər aparırdılar.

Azərbaycan hökumətinin gördüyü müsbətyönümlü tədbirlərin nəticəsi idi ki, 1970-ci ildə dənli bitkilərin əkin sahəsi 1950-ci ildəkinə nisbətən 15656 hektar (25 faiz) *azalmasına baxmayaraq taxıl yığımı 1108 ton* artmışdır.[51] DQMV-də 1950-1960-cı illərdə ayrı-ayrı kateqoriyalar üzrə dövlətə satılan dənli bitkilər əsas göstəriciləri aşağıdakı cədvəldəki kimi olmuşdur: (tonlar).[52]

| Sıra sayı | Kateqoriyaların adı | İllər | | | |
|---|---|---|---|---|---|
| | | 1950 | 1960 | 1965 | 1970 |
| | Ümumi yığım. O cümlədən, | 7668 | 8660 | 2340 | 8776 |
| 1. | Kolxozlardan | 6778 | 8648 | 1115 | 7330 |
| 2. | Sovxozlar və digər dövlət müəssisələrindən | 890 | 12 | 1225 | 1446 |

Cədvəldən göründüyü kimi, sovxozlar dənli bitkilərin əkini ilə az məşğul olmuşlar. Sovxozlar əsasən üzümçülük, donuzçuluq, qoyunçuluq və quşçuluq sahələri üzrə ixtisaslaşmışlar. DQMV-nin kolxoz və sovxozlarında dənli bitkilərin məhsuldarlığı 1960-cı ildə hər hektardan 11-13 sentiner, 1965-ci ildə 8-10 sentiner, 1970-ci ildə 11-12 sentiner, 1975-ci ildə isə 1960-cı il səviyyəsini keçərək hər hektardan 13,5 sentiner buğda və arpa yığılmışdır.[53]



Ağdərə rayonundakı "Puşkin" və "Nizami" adına, Xocavənd rayonundakı "Kirov" və "K.Marks" adına kolxozların, Xankəndi rayonundakı "Oktyabr" kolxozunun taxılçıları ildə hər hektardan orta hesabla 18-20 sentiner taxıl yığmışlar.[54] Bütün bu müvəffəqiyyətin əsas səbəbi qabaqcıl aqrotexniki üsulların kolxoz və sovxozların təsərrüfatlarında tətbiqi nəticəsində olmuşdur.

1950-1960-cı illərdə Dağlıq Qarabağın kənd təsərrüfatının əsas sahələrindən biri üzümçülük olmuşdur. Bölgənin əlverişli təbii coğrafi mövqeyi təsərrüfatın bu sahəsinin inkişafına şərait yaratmışdır. 1940-cı ildən başlayaraq, DQMV-də üzümçülük sahələrinin genişləndirilməsi üçün qəti tədbirlər görüldü. Təsərrüfatların iqtisadiyyatında üzümçülüyə daha geniş yer verildi. Üzüm plantasiyaları 1940-cı ildəki 1970 hektara qarşı, 1950-ci ildə 2408 hektara çatmışdır. 1957-ci il Dağlıq Qarabağda üzümçülüyün inkişafında mühüm mərhələnin başlanğıcı olmuşdur. Həmin ildən başlayaraq, DQMV-nin kolxoz və sovxoz təsərrüfatlarının böyük sahələrində mexanikləşdirilmiş üsulla üzüm plantasiyaları salınmağa başlandı. Məsələn, 1958-ci ildə 646 hektar sahədə, 1959-cu ildə 1024 hektar sahədə, 1965-ci ildə 2394 hektar sahədə yeni üzüm bağları əkilmişdir.[55] 1962-ci ildə DQMV üzümçülük təsərrüfatlarının gəliri 4,5 milyon manat olmuşdur ki, bu da Vilayətin kolxozlarının bütün pul gəlirlərinin 33,5 faizini təşkil edirdi. 50-ci illərin sonlarında üzümçülük təsərrüfatlarının əsas bağlarının yerləşdiyi Xocavənd rayonunda üzümlüklərdən götürülən gəlirlər kolxoz və sovxozların bütün gəlirlərinin 35 faizini təşkil etmişdir. Hətta Xocavənd rayonunun Qarakənd kəndinin «Kirov» kolxozunda həmin gəlir 41 faiz, Çartaz kəndinin "Kommunizm"kolxozunda 57 faiz olmuşdur. Gəlirli sahə olduğunu nəzərə alan DQMV-nin kolxoz və sovxozları üzüm əkini sahələrinin xeyli genişləndirmişlər. Məsələn, Qarabağ Şərab Tresti sistemində 1958-ci ildə təşkil edilmiş 3 saylı Ağdərə Şərab Üzümçülüyü Sovxozu dincə qoyulmuş torpaqlarda 4 il ərzində (1958-1962-ci illərdə) 335 hektarlıq üzüm bağları salmışlar.[55] Həmin sovxoz üzümçülüyün inkişafında başlıca mövqe tutaraq bütün üzümçülük təsərrüfatlarına nümunə olmuşdur. 1950-1960-cı illərdə DQMV-nin

kolxoz və sovxozlarında üzüm əkini sahələrinin necə inkişaf etdiyini aşağıdakı cədvəldən də aydın görmək olar (hektarla):[56]

| İllər | Ümumi üzüm əkini sahəsi | O cümlədən | |
|---|---|---|---|
| | | Kolxozlarda | Sovxozlarda |
| 1940 | 1970 | 1847 | 123 |
| 1950 | 2408 | 2302 | 106 |
| 1958 | 3836 | 3463 | 373 |
| 1959 | 4482 | 4052 | 430 |
| 1960 | 5406 | 4796 | 610 |
| 1965 | 9194 | 4391 | 4803 |
| 1970 | 10690 | 4440 | 6250 |

Cədvəldən göründüyü kimi, DQMV-nin kolxoz və sovxozlarında 1950-ci illə müqayisədə, 1970-ci ildə üzüm əkini plantasiyaları 8282 hektar, başqa sözlə 4,4 dəfə artmışdır. Müvafiq illərdə kolxozların üzüm sahələri 1,9 dəfə (1138 hektar) artdığı halda, sovxozlarda bu artım 58 dəfəyə (6144 hektara) qalxmışdır. Məhsuldarlığı artırmaq üçün DQMV-nin kolxoz və sovxozlarında qabaqcıl təcrübədən və aqrotexnikanın nailiyyətlərindən istehsalda geniş istifadə edilirdi. Xankəndi Qarabağ Zona Təcrübə Stansiyası, Leninavan Qarabağ Elmi-eksperimental bazası, habelə Daşbulaq və Harov sortluq məntəqələri bu işdə kolxoz və sovxozlara böyük yardım göstərirdilər.

1950-1960-cı illərdə DQMV-nin təsərrüfatlarında yerli üzüm sortları "Xidoqin", "Bayan Şirey", "Marandəni", "İzabella", "Gəncə ağ süfrəsi", "Tavakvari" və başqa məhsuldar sortlar əkilmişdir.

Azərbaycan dövləti DQMV-üzüm sahələrini gübrələrlə təmin etmək üçün 10 min tonlarla fasiləsiz olaraq mineral gübrələr və ziyanvericilərə qarşı kimyəvi maddələr göndərilmişdir. Eyni zamanda, həmin gübrələr və ziyanvericilərə qarşı kimyəvi maddələr üzüm plantasiyalarına səpilməsində Bakıdan göndərilən



təyyarələrdən geniş istifadə edilirdi. Plantasiyalarda işlərin mexanikləşdirilməsi, aqrotexniki qaydalara ciddi riayət olunması istənilən nəticələri verirdi. 1950-1960-cı illərdə DQMV-də üzüm istehsalı 10 dəfə artmışdır. 1970-ci ildə Dağlıq Qarabağın təsərrüfatları 58,4 min ton üzüm əldə etmiş və dövlətə 54 min ton üzüm satılmışdır.[57] Həmin vaxt DQMV-də adambaşına orta hesabla 380 kiloqram üzüm istehsal edilmişdir. Üzümdən alınan pul gəlirləri kolxozların bütün pul gəlirinin üçdən bir hissəsini, bitkiçilikdən alınan gəlirin 68 faizini təşkil etmişdir.[58] Əmək məhsuldarlığı isə ildən ilə artmışdır. Belə ki, 1950-ci illə müqayisədə 1960-cı ildə əmək məhsuldarlığı 2,5 dəfə, 1965-ci ildə 3,7 dəfə, 1970-ci ildə isə 7,3 dəfə artmışdır. 1950-1960-cı illərdə DQMV-nin kolxoz və sovxozlarında hər hektardan götürülən məhsulun həcmi təxminən 3 dəfə artmışdır. 1950-ci ildə hər hektardan 27,5 sentiner məhsul götürülmüşdürsə, 1960-cı ildə bu göstərici 44,6 sentinerə, 1965-ci ildə 56,7 sentinerə, 1970-ci ildə isə 70,8 sentinerə çatmışdır.[59] Sonrakı dövrlərdə, bu artım sürətlə davam etmişdir. Dağlıq Qarabağda elə sovxozlar vardır ki, onlar yüksək aqrotexniki qaydalara əməl etməklə daha yüksək məhsuldarlığa nail olmuşlar. Məsələn, Xocavənd rayonunda 1 №-li üzümçülük sovxozu 1962-ci ildə hər hektardan 156,3 sentiner məhsul götürərək, 4032,6 ton üzüm yığmış və üzərinə düşən tapşırığı artıqlaması ilə yerinə yetirmişlər. Həmin sovxozun 52 nəfər üzümçüsü öz fədakar əməyinə görə Sovet İttifaqının müxtəlif orden və medallarına layiq görülmüşlər. Həmin rayonun "Kurapatkin" sovxozu hər hektardan məhsuldarlığı 162 sentinerdən 373 sentinerə çatdırmışlar. Sovxozun üzümçüləri dövlətə 3091 ton üzüm təhvil vermişlər. Ağdərə rayonunun "XII qurultay adına üzümçülük sovxozu" 1970-ci ildə dövlətə 9 min ton üzüm təhvil vermişlər. Bu, DQMV üzrə yığılan ümumi məhsulun 8,6 faizi demək idi. Həmin sovxozda əmək məhsuldarlığı, hər hektardan orta hesabla 96 sentinerdən 182 sentinerə qalxmışdır. Sovxozda çalışan 140 nəfər üzümçüyə müxtəlif mükafatlar verilmişdir. Hətta həmin sovxozun başçısı S.V.Mamuns SSRİ Ali Sovetinə deputat seçilmişdir.

1950-1960-cı illərdə DQMV kolxoz və sovxozlarında üzümçülüyün inkişaf *dinamikasını aşağıdakı cədvəldən də* görmək olar (tonla):[61]

| İllər | DQMV-də ümumi üzüm *yığımı* (tonla) | O cümlədən, | | Əmək məhsuldarlığı. 1 hektara sentinerlə |
|---|---|---|---|---|
| | | Kolxozlarda | Sovxozlarda | |
| 1950 | 8400 | 5826 | 2574 | 22,3 |
| 1960 | 11000 | 9549 | 1451 | 44,6 |
| 1965 | 21100 | 13158 | 7942 | 56,7 |
| 1970 | 58400 | 22400 | 36000 | 70,8 |

Cədvəldən göründüyü kimi, DQMV-də 1950-ci ildən 1970-ci ilədək üzüm yetişdirilməsi 7 dəfə artmışdır (50 min ton). Müvafiq illərdə, Dağlıq Qarabağın sovxozlarında məhsul artımı ümumi göstəricilərdən 2 dəfə çox, yəni 14 dəfə, kolxozlarda isə 3,9 dəfə artıq artım müşahidə edilmişdir. DQMV-nin üzümçüləri əldə etdikləri yüksək göstəricilərə görə dəfələrlə Sov. İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin, SSRİ Nazirlər Sovetinin, UİHİMŞ-nın, Azərbaycan KP MK-nın mükafatlarına, orden və medallarına layiq görülmüşlər. Təsadüfi deyildir ki, 1969-cu ildə DQMV-nin 26 nəfər üzümçüsü o dövr üçün ən yüksək ad olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.[62] Gələcəkdə üzüm əkin sahələrini daha da artırmaq nəzərdə tutulmuşdur.

1950-1960-cı illərdə DQMV-nin kənd təsərrüfatının kiçik bir hissəsini pambıqçılıq və tütünçülük tuturdu. Dağlıq Qarabağ ərazisinin təbii coğrafi mövqeyi pambıqçılıq üçün çox da əlverişli deyildir. DQMV-nin 5 rayonundan yalnız birində (Ağdərə rayonunda) pambıq əkilirdi. Xüsusi olaraq, Ağdərə rayonuna qonşu olan Ağdam və Tərtər rayonları əhatəsində olan kəndlərdə pambıq əkilirdi. Pambıq əkinində yalnız 1958-1963-cü illərdə artım müşahidə edilmişdir. Belə ki, həmin illərdə Ağdərə rayonunda pambıq əkin sahəsi artaraq



3345 hektardan 3764 hektara çatmışdır. 1950-1960-cı illərdə ən aşağı göstərici 1950-ci ildə müşahidə edilmişdir (1302 hektar). 1964-cü ildən başlayaraq, Dağlıq Qarabağda pambıq əkinində tənəzzül dövrü başlamış və 70-ci illərin ortalarından tamamilə əkin dayandırılmışdır. Belə ki, 1965-ci ildə 2268 hektardan 1970-ci ildə 1503 hektara enmişdir.[63] Bölgədə pambıq əkini, xüsusi olaraq, kolxozların üzərinə düşürdü. Belə ki, Çaylı, Aşağı Orataq, Marağa, Talış, Ağdərə, Marquşavan və Seysulan kənd sovetləri daha çox pambıq əkirdilər. Ümumiyyətlə, pambıq Ağdərə rayonunun şərq yarısında becərilirdi. 1958-1962-ci illərdə Dağlıq Qarabağın sovxozlarında cəmi 2 hektardan 5 hektaradək sahədə pambıq əkilmişdir. Yalnız 1964-cü ildə Ağdərə rayonunun sovxozlarında əkin sahəsi çox olmuşdur (1564 hektar). 1967-ci ildə isə bu göstərici 52 hektara enmişdir.[64]

1950-1960-cı illərdə DQMV-nin təsərrüfatlarında tütün əkinində azalma halı müşahidə edilmişdir. DQMV-nin bütün rayonları bitkiçiliyin bu sahəsi ilə məşğul olurdular. DQMV-də 1950-ci ildə 297 hektar, 1960-cı ildə 310 hektar, 1965-ci ildə 246 hektar, 1970-ci ildə isə 100 hektar sahədə tütün əkilmişdir.[65] Ağdərə və Xankəndi rayonları Dağlıq Qarabağın başqa rayonları ilə müqayisədə daha çox tütün əkirdilər. Xankəndi rayonunda tütün əkinində azalma (1950-ci ildəki 44 hektara qarşı, 1967-ci ildə 30 hektara enmə), Xocavənd, Hadrud və Şuşa rayonlarında isə tamamilə tütün əkinini dayandırma halı müşahidə edilmişdir. Xankəndi və Hadrut rayonlarının sovxozlarında yalnız 2 il – 1962-ci ildə cəmi 21 hektarda, 1964-cü ildə 22 hektarda tütün əkilmişdir.[66] Baxmayaraq ki, DQMV-nin kolxoz və sovxozlarında 1950-1960-cı illərdə pambıq və tütün əkini sahəsi azalmışdı. Azərbaycan hökumətinin göstərdiyi dərin qayğısının nəticəsində ildən-ilə məhsul istehsalında və əmək məhsuldarlığında artım müşahidə edilmişdir. Bu artımı aşağıdakı cədvəldən də görmək olar:[67]

| İllər | Pambıq yığımı (tonla) | Pambığın məhsuldarlığı | Tütün yığımı (tonla) | Tütünün məhsuldarlığı |
|---|---|---|---|---|

| | | (hər hektara sentinerlə) | | (hər hektara sentinerlə) |
|---|---|---|---|---|
| 1950 | - | - | 293 | 9,9 |
| 1960 | 6602 | 19,4 | 367 | 8,7 |
| 1965 | 4582 | 19,2 | 216 | 7,2 |
| 1970 | 2774 | 16,3 | 317 | 10,6 |

Cədvəldən göründüyü kimi, 1950-1960-cı illərdə DQMV-də dövlətə pambıq satışı ildən-ilə azalmışdır. Belə ki, 1960-cı illə müqayisədə 1965-ci ildə 1,4 dəfə və ya 30 vaiz, 1970-ci ildə isə 2,3 dəfə və ya 60 faiz aşağı enmə halı olmuşdur. Bəhs etdiyimiz illərdə, tütün istehsalında isə az da olsa artım müşahidə edilmişdir. İstər dövlətə tütün satışında, istərsə də hər hektardan götürülən məhsulların həcmində, 1950-ci illə müqayisədə, 1970-ci ildə xeyli artım var idi. Onu da qeyd edək ki, DQMV-nin kolxoz və sovxozlarında, bitkiçiliyin başqa sahələri ilə müqayisədə, tütünçülük daha "cavan" sahə hesab olunurdu. Lakin DQMV ərazisində tütünçülüyün sirlərinə yiyələnən ustalar yetişmişdir. Umudlu, Çıldıran, Aterk kəndlərində tütünçülərin müvəffəqiyyətləri, xüsusilə, böyük olmuşdur. Adları çəkilən kəndlərin tütünçüləri kompleks aqrotexniki tədbirləri həyata keçirməklə, tütün plantasiyalarına qayğı və torpağa qulluq etməklə hər hektardan 20-25 sentiner məhsul götürərək yüksək nəticələr əldə etmişlər. Tütün əkən kolxozların pul gəlirləri ildən-ilə artırılırdı ki, bu da maddi marağın yüksəlməsinə və məhsulun keyfiyyətinin ildən-ilə yaxşılaşmasına gətirib çıxarırdı. Belə ki, 1950-ci ildə DQMV-nin tütünçülərinin illik pul gəlirləri 125 min manat idisə, 1965-ci ildə 2 dəfə artaraq 252 min manata, 1970-ci ildə isə 300 faiz artaraq 336 min manata çatmışdır. Sonrakı illərdə bu artım davam etmişdir.

Azərbaycan SSR DQMV-də əhalinin qədimdən məşğul olduğu təsərrüfat sahələrindən biri də kartofçuluq və tərəvəzçilikdir. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1950-1960-cı illərdə təsərrüfatın bu sahəsi ilə bölgənin bütün rayonları məşğul olurdu. Hətta burada yaşayan əhali öz şəxsi



təsərrüfatlarında kartof, bağ və bostan bitkiləri əkirdilər. Bəhs etdiyimiz 20 il ərzində, DQMV-nin bütün təsərrüfatlarında kartof əkinində 40 faiz (1431 hektardan 859 hektara) azalma halı müşahidə edilmişdir.[68] Kartof əkini sahəsində DQMV üzrə ən yüksək göstərici Xankəndi rayonunun payına düşürdü. Belə ki, 1950-ci ildə ümumi kartof əkin sahəsinin 30 faizi, 1970-ci ildə 39 faizi Xankəndi rayonu kolxoz, sovxoz və başqa dövlət müəssisələrinin üzərinə düşmüşdü.[69] DQMV-nin sövxozları əkinin bu sahəsinə az diqqət yetirirdilər. Xüsusilə, ən aşağı göstərici Şuşa və Xocavənd rayonlarının sovxozlarının üzərinə düşürdü (orta hesabla 1 hektardan 3 hektaradək).

XX yüzilliyin 50-60-cı illərində DQMV-nin bütün rayonları tərəvəzçiliklə məşğul olmuşlar. Bəhs etdiyimiz illərdə, bölgənin kolxoz, sovxoz və digər dövlət müəssisələrində tərəvəz əkin sahəsində cüzi də olsa artım müşahidə edilmişdir. Yəni 1950-ci ildəki 568 hektara qarşı 1970-ci ildə 626 hektar.[70] Ümumi DQMV-nin rayonlarının kolxoz və sovxozlarının tərəvəz əkini sahəsi üzrə ən yüksək göstərici, kartofçuluqda olduğu kimi, Xankəndi rayonunun üzərinə düşmüşdür (təxminən 30 faiz). Kartof əkin sahəsi ilə müqayisədə Dağlıq Qarabağın sovxoz və təsərrüfatlarında ümumi tərəvəz əkininin 17 faizi müqabilində bostan bitkiləri əkmişdilər (106 hektarda).

1950-1960-cı illərdə, DQMV-nin bütün kateqoriyalarından olan təsərrüfatlarında kartof və tərəvəz bitkilərinin əkin sahələri, ümumi məhsul yığımı, hər hektardan götürülən kartof və tərəvəzin məhsuldarlığı haqqında aşağıdakı cədvəldən məlumat əldə etmək olar.[71]

| Məhsulun növləri | Ölçü vahidi | İllər | | | |
|---|---|---|---|---|---|
| | | 1950 | 1960 | 1965 | 1970 |
| Kartof (bütün kateqoriyalar üzrə) | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1. Əkin sahəsi<br>2. Yığılan məhsul<br>3.Məhsuldarlığı | Hektarla<br>Min ton<br>Hər hektardan sentinerlə | 1431<br>9,8<br>56 | 1001<br>8,5<br>44,6 | 886<br>9,5<br>88,9 | 859<br>6,8<br>5,2 |
| Tərəvəz (bütün kateqoriyalar üzrə) | | | | | |
| 1. Əkin sahəsi<br>2. Yığılan məhsul<br>Məhsuldarlıq | Hektarla<br>Min ton<br>Hər hektardan sentinerlə | 568<br>3,2<br>62,8 | 594<br>5,2<br>78,3 | 619<br>6,4<br>100,2 | 626<br>6,6<br>105,8 |

Cədvəldən göründüyü kimi, DQMV-də 1950-1960-cı illər ərzində, kartof əkini sahəsində olduğu kimi, yığılan məhsulun ümumi həcmində də, hər hektardan götürülən məhsuldarlıqda da azalma halı müşahidə edilmişdir. Bölgədə kartofun məhsuldarlığının azalması hər şeydən öncə aqrotexniki qulluğun düzgün aparılmaması ilə bağlı olmuşdur. Kartof əkini sahələrindən yığılan məhsulların çoxu yerli əhalinin tələbatının ödənilməsinə sərf olunurdu. Az bir hissə isə dövlətə satılırdı. Məsələn, 1950-ci ildə Dağlıq Qarabağın təsərrüfatlarından yığılan 9,8 min ton kartofdan dövlətə yalnız 564 ton kartof, 1960-cı ildə 8,5 min tondan 2,4 min tonu, 1965-ci ildə isə 6,8 min tondan 328 tonu satılmışdır. Təsərrüfatlardan yığılan kartof yerli əhalinin tələbatını ödəyirdi.

Tərəvəzçilikdə isə kartofçuluqdan fərqli olaraq, əkin sahələrində də yığılan məhsulun həcmində də (100 faiz), hər hektardan götürülən tərəvəzin məhsuldarlığında da (40 faiz) artım müşahidə edilmişdir. DQMV-nin tərəvəzçilik təsərrüfatları, ilk növbədə, yerli əhalinin tələbatını ödəyir, qalan hissəni isə dövlətə satırdı. Məsələn, 1950-ci ildə dövlətə 544 ton, 1960-cı ildə 1050 ton, 1970-ci ildə 1707 ton tərəvəz satılmışdır.[72] Ümumi tərəvəz məhsulunun həcmi ilə müqayisədə müvafiq illərdə əhalinin istifadə etdiyi məhsulu faizlə hesabladıqda 70-80 faiz olduğunu müşahidə edirik.



DQMV-nin mənzərəsi üçün ən səciyyəvi cəhət yaraşıqlı meyvə bağlarının bolluğudur. Bağçılıq Qarabağ əhalisinin qədim, ənənəvi məşğuliyyəti olmuş və burada yaşayanların iqtisadi həyatında mühüm rol oynamışdır. Dağlıq Qarabağın hər yerində bağçılıqla məşğul olmuşlar. Bağlarda üzüm, alma, armud, qoz, fındıq, nar, əncil, qaragilə, zoğal, şahtut və başqa ağaclar əkilirdi. Üzüm və tut (çəkil) bağları müstəsna olmaqla, 60-cı illərdə Dağlıq Qarabağın kolxoz və sovxozlarındakı meyvə bağlarının əkin sahəsində, məhsuldarlıqda və məhsul yığımında azalma halı müşahidə edilmişdir. Belə ki, 1965-ci ildə əkin sahəsi 1146 hektardan 988 hektara, hər hektardan götürülən məhsuldarlıq 29,8 sentinerdən 9,5 sentinerə, ümumi yığılan məhsul 3403 tondan 1020 tona, tədarük olunan məhsul isə 86 tondan 27 tona enmişdir.[73]

Bəhs etdiyimiz dövrdə, DQMV-də kənd təsərrüfatında bağçılıqda ümumi əkin sahəsinin 15 faiz, məhsuldarlığın 3,1 dəfə, ümumi məhsul yığımının 3,3 dəfə azalması səbəblərini araşdırarkən məlum olur ki, 60-cı illərdə köhnə bağlar yeniləri ilə əvəzləndirmək üçün məhv edilmişdir. Yeni bağları yaratmaq işi isə ləngiyirdi. Qoz, fındıq və digər qiymətli oduncağa malik ağaclar ağac emalı müəssisələrinin işçiləri tərəfindən doğranırdı. Bəzi yaşlı ağaclar isə qanunsuz olaraq yanacaq məqsədilə kəsilirdi. Eyni zamanda, meyvə bağlarına qarşı DQMV rəhbəri tərəfindən laqeyidlik, biganəlik göstərilirdi. Təsərrüfat başçıları aqrotexniki qaydalara əməl etmirdilər. Bütün bunlar isə 1960-cı illərdə DQMV meyvə bağlarının 157 hektar ixtisarma səbəb olmuşdu.

DQMV-də bitkiçiliyin mühüm sahələrindən birini tutçuluq tuturdu. Bölgədə tutçuluq 2 istiqamətdə inkişaf edirdi. Bunlardan biri meyvə verən misilsiz dada və müalicəvi əhəmiyyətə malik tut bağları idi. İkincisi isə, DQMV-də İpək Emalı Sənayesini xammalla təmin edən çəkil bağları hesab olunurdu.

Dağlıq Qarabağda yaşayan əhali şah tut ağacını qədimdən əkirdilər. Ecazkar qüvvəyə malik olan şahtutu «ömür ağacı» adlandırırdılar. Şəkərliliyin miqdarı 37 faizə çatan şahtutun bəhrəsi misilsiz dada və müalicəvi əhəmiyyətə malikdir. Şahtutdan bəhməz və irçal hazırlanır, qurudularaq ilin bütün

fəsillərində yeyilir. Müalicəvi əhəmiyyətə malik olan tutu adi halda yedikdə insanda gumrahlıq, dinclik yaranır. Tutdan istehsal olunan spirt isə tibbı nöqteyi-nəzərdən böyük əhəmiyyətə malikdir. Oduncağından ağac emalı sənayesində qiymətli material kimi istifadə edilir. Dözümlü və quraqlığa davamlı olan şahtutun bəhrəsi ildə 8 dəfə yığılır. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, Dağlıq Qarabağdakı şahtut ağaclarının bəzilərinin ömrü 150-200 ilə çatır. Bütün yuxarıda dediklərimiz müsbət cəhətləri nəzərə alan Dağlıq Qarabağ əhalisi tut əkini sahələrini ilbəil genişləndirirdilər. Məsələn, Dağlıq Qarabağın kolxoz və sovxozlarında 1950-ci ildə 1794 hektar (bundan 598 hektarı çəkil 1196 hektarı şahtut tut bağı var isə, 1955-ci ildə bu rəqəm 1838 hektara (bundan 613 hektarı çəkil, 1226 hektarı şah tut), 1971-ci ildə isə təxminən 2 dəfə artaraq 2400 hektara (bundan 800 hektarı çəkillik, 1600 hektarı şah tut) çatmışdır. 1971-ci ildə Datlıq Qarabağın təsərrüfatlarında əkilən 2400 hektar çəkil və tut bağlarından 1139 hektarı kolxozların 1261 hektarı sovxozların payına düşürdü.[74] 1965-1970-ci illərdə DQMV-nin sovxozlarında yeni tut bağları salınmış, lakin həmin ağaclar balaca olduğundan lazımi səviyyədə məhsul verə bilməmiş, bu isə öz növbəsində hər hektardan götürülən məhsuldarlığın aşağı düşməsinə səbəb olmuşdur. Belə ki, 1955-ci ildə hər hektardan götürülən məhsuldarlıq 61,2 sentiner olmuşdursa, 1965-ci ildə 54,7 sentinerə, 1970-ci ildə isə 41,8 sentinerə enmişdir. Bəhs etdiyimiz dövrdə, şəxsi həyətyanı təsərrüfatlarda da, şah tut ağacı əkilirdi. Şəxsi təsərrüfatlardan yığılan məhsullar istisna olmaqla, Dağlıq Qarabağın kolxoz və sovxozlarındakı tut bağlarından 1953-cü ildə 11800 ton, 1960-cı ildə 15600 ton, 1970-ci ildə isə 23400 ton tut yığılmışdır. 1970-ci ildə yığılan ümumi tut məhsulundan 3758 tonu kolxozların, 19642 tonu sovxozların payına düşürdü.[75] Məhsul yığımı 1950-ci ilə nisbətən 1960-cı ildə 25 faiz artmışdırsa, 1960-cı illə müqayisədə 1970-ci ildə 50 faiz artım müşahidə edilmişdir. DQMV-nin Xocavənd və Xankəndi rayonları tutçuluqla daha geniş məşğul olurdular. Bölgədəki ümumi tut bağlarının təxminən 80-90 faizi bu 2 rayonun payına düşürdü.



1950-1960-cı illərdə DQMV-də heyvandarlığı inkişaf etdirmək məqsədilə onun yem bazasının inkişafı ön planda dayanmışdır. Çünki aparılan tədqiqatlar nəticəsində məlum olur ki, XX yüzilliyin əvvəllərində heyvandarlıq məhsullarının aşağı səviyyədə olmasının əsas səbəbi yem bazasının zəifliyi ilə bağlı olmuşdur. Yəni həmin dövrdə əsas yem təbii biçənəklərdən yığılan ot, saman və ləmbədən ibarət idi. Azərbaycan hökuməti DQMV-də heyvandarlığı inkişaf etdirmək məqsədilə onun yem bazasının təkmilləşdirilməsi üçün 1939-cu ildən Sünjen İstinad Məntəqəsini yaratdı. 50-60-cı illərdə həmin Məntəqəyə ayrılan vəsait 40-cı illə müqayisədə 2,5 dəfə artırıldı.[77] Günəbaxan, Sarqo və qarğıdalı bitkilərdən daha çox məhsuldar olan qarğıdalı bitkisi (hər hektardan 316 sentiner) DQMV-nin təsərrüfatlarında geniş sahələrdə əkilməyə başlandı.

1950-1960-cı illərdə DQMV-nin ayrı-ayrı rayonlarının kolxoz və sovxozlarında yem bitkilərinin əkin sahələrinin necə artdığını aşağıdakı cədvəldən də görmək olar (hektarla):[78]

| İllər | Bütün DQMV-üzrə | O cümlədən, rayonlarda | | | | |
|---|---|---|---|---|---|---|
| | | Xankəndi | Ağdərə | Xocavənd | Hadrud | Şuşa |
| 1940 | 4966 | 1491 | 1842 | 762 | 646 | 225 |
| 1950 | 6740 | 1349 | 3410 | 1028 | 782 | 171 |
| 1960 | 22442 | 4901 | 6993 | 6050 | 3650 | 848 |
| 1970 | 24680 | 8100 | 7450 | 5930 | 2440 | 460 |

Cədvəldən göründüyü kimi, 1970-ci ildə Xankəndi və Ağdərə rayonlarında əkilən yem bitkiləri bütün DQMV-də əkilən ümumi yem bitkilərinin 61 faizini təşkil edirdi. Əkilən yem bitkilərinin 75 faizi kolxozların üzərinə düşürdü.

1970-ci ildə DQMV-nin kolxoz və sovxozlarında yem əkin sahəsi 1950-ci illə müqayisədə 3,6 dəfə artmışdır. Qış yem bazası hazırlığında isə orta hesabla 38,5 faiz artım müşahidə edilmişdir. Bu artım quru ot yığımında 50 faizdən çox

idisə, küləş və saman toplanışında 12,5 faiz, silos hazırlığında 10 faiz və sair. DQMV-də yığılan yem, yerli tələbatın yalnız 70 faizini verirdi. Qalan 30 faizi isə kəpək, çiyid, müxtəlif qatışıqlı yem şəkilində Azərbaycan hökuməti tərəfindən göndərilmişdir. Yem bitkilərinin isə hər hektarından əldə edilən məhsuldarlıq da, qənaətbəxş deyildir. Otlaqların hər hektarından 28 sentiner quru ot, qarğıdalının hər hesktarından 63 sentiner qarğıdalı silosu, hər hektardan 100 sentiner meyvə köklü bitgilər (çuğundur və s.), 15 sentiner arpa yığılmışdır.[79] DQMV-də yem əkini sahələrinin dəfələrlə genişlənməsinə baxmayaraq, məhsuldarlığın aşağı düşmə səbəbləri araşdırılarkən məlum olur ki, yem əkini sahələrinin adi şumlanması tələbata uyğun deyildi. Məhsul yetişdirilərkən aqrotexniki qaydalara düzgün əməl edilmirdi. Məhsul yığımında, saxlanılmasında təsərrüfat qaydaları pozulurdu. Bütün bunlara baxmayaraq, Azərbaycan hökuməti bölgədə saxlanılan heyvanların tələbatı müqabilində DQMV-nin təsərrüfatlarını yem məhsulları ilə təmin edirdi.

Heyvandarlıq DQMV-nin qabaqcıl kənd təsərrüfatı sahələrindən biridir. Bölgənin zəngin biçənəkləri və yaylaqları, ümumiyyətlə təbii şəraiti heyvandarlığın bütün sahələrinin inkişafına əlverişli şərait yaratmışdır. 1941-1945-ci illəri əhatə edən müharibə, başqa sahələrdə olduğu kimi, heyvandarlığa da, ağır zərbə vurmuşdur. 1946-1950-ci illərdə Azərbaycan hökumətinin gördüyü tədbirlər nəticəsində mal-qaranın ümumi sayında 15 faiz artım müşahidə edilsə də, 1940-cı illə müqayisədə 1950-ci ildə qoyunların sayı 1,5 dəfə, keçilərin sayı 1,3 dəfə azalmışdır[80]. Mal-qaranın cins tərkibi pis olduğuna görə heyvandarlıqda məhsuldarlıq yüksək deyildir. Heyvandarlıq məhsullarının satınalma qiymətlərinin aşağı səviyyədə olması, rəhbərliyin azərbaycanlı zəhmət adamlarına laqeyid münasibəti, maliyyələşmə və kreditləşmə əməliyyatında Dağlıq Qarabağ azərbaycanlı kəndlərinə qarşı mənfur siyasət və başqa obyektiv və subyektiv amillər DQMV-nin heyvandarlıq sektorunda ciddi problemlər yaratmışdı. Bütün bunlar isə Mərkəzi qane etmirdi. Odur ki, Sov. İKP MK 1953-cü ilin sentyabrında plenum keçirdi və mövcud vəziyyəti təhlil etdi. Həmin



plenumda kənd təsərrüfatının, xüsusilə, onun aparıcı sahələrindən biri olan heyvandarlığın inkişafı haqqında qərar qəbul olundu. Qərara əsasən kəndlilərin quş, xırdabuynuzlu mal-qara saxlaması üçün onlara həvəsləndirmə prinsipləri tətbiq edildi. Kolxoz və sovxozlara mal-qaranın sayını planlaşdırmaq, torpaqdan səmərəli istifadə üçün becərilən bitkinin növünü müəyyənləşdirmək hüquqları verildi. Həmçinin, dövlət tərəfindən heyvandarlıq məhsullarının satınalma qiymətləri artırıldı.

SSRİ Nazirlər Sovetinin və Sov. İKP MK-nın 31 iyul 1954-cü il "1955-1960-cı illərdə Azərbaycan SSR-nin kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında"[81] və 1957-ci il iyulunda "Azərbaycan SSR-in dağlıq, dağətəyi və sərhəd rayonları kolxozlarına kömək göstərmək haqqında" qərarları[82] da, heyvandarlığın inkişafına təkan verdi. Çünki həmin qərara əsasən, Azərbaycanın iqtisadi cəhətdən zəif olan kolxozlarının hesabından heyvandarlıq məhsullarının məcburi tədarükü üzrə olan borcları silindi. Həmin kolxozlar 5 il müddətinə gəlir vergisi ödəməkdən azad edildi.

Azərbaycan hökuməti, DQMV-də maldarlığı daha da inkişaf etdirmək məqsədilə, 1960-cı illərdə əsaslı vəsait sərfini artırdı. Belə ki, 1961-1964-cü illərdə DQMV mal-qara tövlələrinin tikintisi üçün 443 min manat vəsait ayrılmışdırsa, 1965-1967-ci illərdə bu rəqəm 2,5 dəfə artırılaraq 1 milyon 119 min manata çatmışdır[83]. 1960-cı illərdə mal-qaranın cins tərkibini yaxşılaşdırmaq və yeni, məhsuldar heyvanlar almaq üçün 419 min manat, yem bitkilərinin əkini üçün 679 min manat, əmtəəlik fermalarının təşkili, onların mexanikləşdirilməsi, texniki avadanlıq və maşınların alınması üçün Azərbaycan hökuməti tərəfindən 3 milyon 125 min manat vəsait ayrıldı. 1950-1960-cı illərdə Azərbaycan hökuməti DQMV-də ictimai fermaların tikintisini genişləndirdi. Belə ki, 1953-1971-ci illərdə iribuynuzlu mal-qara üçün 56,5 min yerlik, donuzçuluq üçün 29 min yerlik, qoyunçuluq üçün 173,3 min yerlik, quşçuluq üçün 364,2 min yerlik əmtəəlik heyvandarlıq fermaları tikildi[84]. Həmin fermalarda mexanikləşdirmə işləri həyata keçirildi. Yemin hazırlanması və mal-qaraya verilməsi, mal-qaranın su ilə təmin

edilməsi və pəyələrin təmizlənməsi kimi çox əmək tələb edən işlər avtomat qurğular vasitəsilə yerinə yetirilirdi. Heyvandarlıq fermaları işini yaxşı bilən mütəxəssislərlə təmin olundu. Hansı ki, bu mütəxəssislər mal-qaranın düzgün yedizdirilməsində, xəstəliklərə qarşı mübarizədə maşın, aqriqat və elektirik avadanlıqlarının qaydasında işləməsində, heyvanların cins tərkibinin yaxşılaşdırılmasında xeyli işlər görmüşdülər.

Hələ, 1920-1940-cı illərdə Azərbaycan hökuməti tərəfindən DQMV-nin Şuşa ərazisində baytarlıq məntəqəsi, Xankəndində Mərkəzi Aqroməntəqə, "Turşsu" damazlıq sovxozunda Diaqnoz Kabinəsi və başqa baytarlıq müalicəxanalarının təşkili mal-qara arasında xəstəliklərin aradan qaldırılmasına böyük təsir göstərmişdir. 1958-ci ildə isə DQMV ərazisində Rayonlararası Dövlət Damazlıq Stansiyası yaradılmışdır[85]. Bu stansiyada inəklərin süni sürətdə mayalanması işi həyata keçirildi. Bu tədbir, Vilayətdə mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına imkan vermişdir.

Bəhs etdiyimiz dövrdə, DQMV-dəki mal-qara sürülərində yerli cinslər üstünlük təşkil edirdi. Qaramal içərisində "Şits", "Lebedinski", "Qonur Karpat", "Qonur Latviya" cinsləri üstünlüyə malikdir. Qoyunlarda isə "Sovet merinosu", "Azərbaycan dağ merinosu", "Qroznı merinosu", "Qafqaz" və "!Salski" merinosları geniş yayılmışdır.

Eyni zamanda, yay dövründə yaylaqlardan səmərəli istifadə olunması məsələsi də qaydaya salındı. Belə ki, qonşu Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan rayonlarının otlaq sahələrindən DQMV-nin qoyunçuluqla məşğul olan təsərrüfatları istədikləri kimi istifadə edirdilər.

Azərbaycan hökumətinin, DQMV-ə göstərdiyi qayğının nəticəsi olaraq, 1950-1960-cı illərdə bölgədə bütün kateqoriyalardan olan təsərrüfatlarda mal-aranın və quşların sayı xeyli artdı. Həmin artımı aşağıdakı cədvəldən də aydın görmək olar (bütün kateqoriyalar üzrə; dekabr məlumatı; min baş ilə)[86].

| İllər | İri buynuzlu mal-qara | Qoyun və keçilər | Donuzlar | Quşlar (şəxsi təsərrüfatlarsız) |
|---|---|---|---|---|
| 1950 | 85,9 | 203,1 | 31,7 | 62,3 |
| 1960 | 84,2 | 300,7 | 48,0 | 85,4 |
| 1965 | 88,0 | 291,0 | 43,9 | 89,9 |
| 1970 | 86,4 | 266,3 | 60,4 | 162,2 |



Cədvəldən göründüyü kimi, 1950-1960-cı illərdə DQMV-nin bütün kateqoriyalardan olan təsərrüfatlarında iribuynuzlu mal-qaranın sayında təxminən 0,5 faiz, qoyun və keçiləri sayında 31 faiz, donuzların sayında 93 faiz, quşların sayında 160 faiz artım müşahidə edilmişdir. 1970-ci il məlumatına görə, DQMV ərazisində saxlanılan iribuynuzlu mal-qaranın 32 faizi Ağdərə rayonunun, 23 faizi Xankəndi rayonunun, 22 faizi Xocavənd rayonunun, 14 faizi Hadrud rayonunun, 9 faizi Şuşa rayonunun payına düşürdü. İribuynuzlu mal-qaranın 54 faizi (47 min başı) kolxozlarda, 14 faizi (12 min başı) sovxozlarda, 32 faizi (27 min başı) şəxsi təsərrüfatlarda saxlanılırdı[87].

Azərbaycan KP MK -nın və Azərbaycan SSRİ Nazirlər Sovetinin "şəxsi təsərrüfatlardan alınan kənd təsərrüfatı vergilərinin azaldılması" və "kənddə yaşayan fəhlə və qulluqçuların həyətyanı təsərrüfatların artırılması" haqqında qərarlarının DQMV-də tətbiq edilməsi nəticəsində 1950-1960-cı illər ərzində bölgədə fərdi təsərrüfatlardakı iribuynuzlu mal-qaranın sayı 2,8 dəfə artmışdır.

1950-1960-cı illərdə, Azərbaycanın digər rayonları ilə müqayisədə, Dağlıq Qarabağda donuzçuluq daha çox inkişaf etmişdir. DQMV-də donuzçuluq, heyvandarlığının ən məhsuldar sahəsinə çevrilmişdir və ümumi məhsulun həcminə görə heyvandarlığın bütün sahələri arasında ikinci yeri tuturdu. Burada 84 təsərrüfatdan 70-i donuzçuluqla məşğul olurdu[88]. 1960-cı illərdə donuzçuluğun məhsuldarlığı 56 faizədək yüksəlmişdir. Donuzların cins tərkibinin yaxşılaşdırılması ilə fermalarda ağır çəkili, çox məhsuldar və daha çox bala verən donuzlar əldə edilmişdir. Hətta çox hallarda hər 100 doğar donuz 1500-2200 çoşka vermişdir. Nəticədə, 1950-1960-cı illərdə donuzların sayında

böyük artım müşahidə edilmişdir. 1950-ci ildəki 31749-a qarşı 1970-ci ildə 60383 başa çatmışdır. 1970-ci ildə kolxozlarda 37394 baş, sovxozlar və digər dövlət müəssisələrində 10487 baş, şəxsi təsərrüfailarda isə 12502 baş donuz saxlanılırdı[89]. DQMV-nin 5 rayon arasında Ağdərə rayonu təsərrüfatlarında donuzçuluqla daha çox məşğul olurdular. Dekabr 1970-ci il məlumatına görə, Dağlıq Qarabağın donuzçuluq üzrə ümumi göstəricilərin 31 faizi (19 min başı) Ağdərə rayonunun payına düşmüşdür. 70-ci illərdə donuzçuluğun inkişafına xüsusi diqqət yetirilmiş və DQMV-də mexanikləşdirilmiş kökəltmə donuzçuluq məntəqələri yaradılmışdır.

Qarabağ əhalisi qoyunçuluqla qədimdən məşğul olmuşlar. XX yüzilliyin birinci yarısında DQMV-də qoyunçuluğun inkişafına Azərbaycan hökumətinin diqqəti daha da artmışdır. Qoyunların cins tərkibi yaxşılaşdırılmış, mexanikləşdirilmiş iri Qoyunçuluq Əmtəə Fermaları yaradılmışdı. 1950-1960-cı illərdə DQMV-də qoyunçuluq təsərrüfatı sənaye əsasında inkişaf etmişdir. Burada saxlanılan heyvanlardan yarısı sırf zərifyunlu heyvanlardır. Bölgədə xəstəliyə, soyuğa, istiyə, aclığa və sair çətin vəziyyətə davamlı, yağlılığı və çəkisi çox olan ətlik-südlük növlər də vardır. Fermaların əksəriyyətində hər 100 qoyundan 110 quzu əldə edilmişdir. Görülən tədbirlərin nəticəsində, DQMV bütün kateqoriyalardan olan təsərrüfatlarında qoyun və keçilərin sayı 1950-ci illə müqayisədə 1970-ci ildə təxminən 24 faiz artaraq 203148 başdan 266281 başa çatmışdır. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, iribuynuzlu mal-qara və donuz saxlanılmasında olduğu kimi, qoyunçuluğun da inkişafında Ağdərə rayonu yenədə birinciliyi əldə saxlamışdır. Belə ki, 1970-ci il statistik məlumatları nəzərdən keçirilərkən məlum olur ki, DQMV-nin bütün təsərrüfatlarında saxlanılan qoyun və keçilərin 31 faizi və ya 85853 başı Ağdərə rayonunun payına düşmüşdür. 1970-ci ildə DQMV-də qoyun və keçilərin 129449 başı kolxozlarda, 36148 başı sovxozlarda, 100684 şəxsi təsərrüfatlarında saxlanılırdı[90].



DQMV-də başqa təsərrüfat sahələrinə nisbətən daha cavan təsərrüfat sahəsi olan quşçuluq 1950-ci ildən sürətlə inkişaf etməyə başladı. Belə ki, 1940-cı ildəki 19532 quşa qarşı 1950-ci ildə 3,7 dəfə artaraq 62350-yə çatmışdır.[91]

Azərbaycan hökuməti tərəfindən ildən-ilə quş fermalarının tikintisinin genişləndirilmişdir. 1953-1955-ci illərdə 68,1 min yerlik quş ferması, 1956-1960-cı illərdə 105,9 min yerlik, 1961-1965-ci illərdə 113,2 min yerlik, 1966-1970-ci illərdə isə 76,7 min yerlik quş fermaları tikilmiş – quş fermaları lazımi avadanlıqla zootexnik xidmətilə, elektriklə, istiliklə, tələb olunan səviyyədə yemlə təmin olunmuş və quşların cins tərkibi yaxşılaşdırılmışdır.[92] Bütün bunlar isə öz müsbət nəticələrini vermişdir. Belə ki,1970-ci ildə DQMV-nin kolxoz və sovxozlarında quşların sayı 1940-cı illə müqayisədə 8,3 dəfə, 1950-ci illə müqayisədə isə 160 faiz artmışdı.

Arıçılıq Dağlıq Qarabağ əhalisinin qədim məşğuliyyətlərindən biri olmuşdur. Buradakı məhsuldar torpaq, əlverişli iqlim şəraiti və havanın xoşluğu arıçılığı inkişaf etdirmək üçün gözəl şərait yaradırdı. Ona görə də Dağlıq Qarabağın təsərrüfatlarında bu sahəyə daha yaxından fikir verilirdi. Artıq 60-cı illərdə arıçılıq Dağlıq Qarabağın kolxoz və sovxozlarının gəlirli sahələrindən birinə çevrilmişdi. Burada arıçılıq sürətlə inkişaf edirdi. 1963-cü ildə DQMV-də 78 Əmtəə Arıçılıq Ferması fəaliyyət göstərirdi. Burada az təsərrüfat tapılardı ki, arıçılıqla məşğul olmasın. Arıçılığın ən böyük təsərrüfatları Kərkər, Ballıca, Zamzur, Qazançı və başqa kəndlərdə yerləşirdi. Vilayətdə hər 100 hektar sahəyə 27 arı ailəsi düşürdü. Vilayətdəki arı fermalarından 50-si orta hesabla hər pətəkdən 25-35 kq əmtəəlik bal verirdi.[93] Azərbaycan hökümətinin apardığı tədbirlər nəticəsində, DQMV-də 1941-1961-ci illərdə arı ailələrinin sayında artma halı müşahidə edilmişdir. 1961-1971-ci illərdə isə müəyyən obyektiv və subyektiv səbəblər ucbatından arı ailələrinin sayı xeyli azalmışdır. Bu azalmaya səbəb bir tərəfdən hava şəraiti ilə bağlı olmuşdursa, ikinci bir tərəfdən həmin sahəyə baxımsızlıq halları müşahidə edilmişdir. 1940-1960-cı illərdə DQMV-də bütün kateqoriyalardan, ayrı-ayrı rayonlar üzrə arı ailələrinin inkişaf tempi

barədə məlumatı aşağıdakı cədvəldən əldə etmək olar (arı ailələri: 1 yanvar məlumatı)[94].

| Rayonlar | İLLƏR | | | | |
|---|---|---|---|---|---|
| | 1941 | 1951 | 1961 | 1966 | 1971 |
| DQMV-i üzrə cəmi: O cümlədən, | 4944 | 9972 | 9964 | 6565 | 6559 |
| Xankəndi | 1908 | 3097 | 2374 | 1842 | 3406 |
| Ağdərə | 943 | 2372 | 2078 | 1446 | 1050 |
| Xocavənd | 939 | 2433 | 2644 | 1301 | 889 |
| Hadrud | 140 | 1475 | 2225 | 1533 | 903 |
| Şuşa | 414 | 595 | 643 | 443 | 311 |

Cədvəldən göründüyü kimi, 1941-ci illə müqayisədə 1951-ci ildə arı ailələrinin sayı 101 faiz artmışdır. 1952-1959-cu illərdə arı ailələrinin sayında çoxalma tempi müşahidə edilmişdir. Belə ki, dekabr 1959-cu il məlumatına görə, DQMV-nin təsərrüfatlarında 11182 arı ailəsi var idi. 1960-cı ildən başlayaraq, arı ailələri azalmışdır. 1961-ci illə müqayisədə 1971-ci ildə arı ailələri 34 faiz aşağı düşmüşdür. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, Dağlıq Qarabağın sovxozlarında 1960-cı illərin ortalarından arı saxlanılmağa başlanmışdır. Şuşa rayonu sovxozlarında arı saxlanılmırdı. Ağdərə rayonu sovxozlarında isə arı ailələrinin sayı çox cüzi idi (1971-ci ildə 46 arı ailəsi).

Beləliklə, 1950-1960-cı illərdə Azərbaycan hökumətinin DQMV-də kənd təsərrüfatlarını inkişaf etdirmək sahəsində həyata keçirdiyi tədbirlər nəticəsində bütün kateqoriyalardan olan təsərrüfatlarda heyvanların sayı çoxaldı və onların cins tərkibi yaxşılaşdırıldı. Heyvandarlıq məhsullarının istehsalı və tədarükü artdı. Dağlıq Qarabağda 1950-1960-cı illərdə dövlətə heyvandarlıq məhsullarının satışı vəziyyətini aşağıdakı cədvəldən görmək olar:[95]



| Məhsulun növləri | Ölçü vahidi | İLLƏR | | | |
|---|---|---|---|---|---|
| | | 1940 | 1950 | 1960 | 1970 |
| Mal-qara və quş əti (dizi çəkidə) | Ton | 1427 | 2480 | 4794 | 7157 |
| Süd və süd məhsulları | Min ton | 2,6 | 5,1 | 10,3 | 16,2 |
| Yumurta | Min ədəd | 289 | 1857 | 4326 | 7767 |
| Yun | Ton | 109 | 206 | 610 | 494 |

Cədvəldən göründüyü kimi, DQMV-də 1940-cı illə müqayisədə 1970-ci ildə ət istehsalı 5 dəfə, süd və süd məhsulları istehsalı 6,2 dəfə, yumurta 26,8 dəfə, yun istehsalı 4,5 dəfə artmışdı. Dövlətə ət satışı göstəricilərinə görə Xocavənd rayonunun kolxoz və sovxozları daha üstün mövqeyə malik olmuşdur. Belə ki, DQMV-də 1970-ci ildə dövlətə satılan ümumi mal-qara və quş ətinin 1108 tonu Xocavənd rayonunun kolxoz və sovxozlarının payına düşmüşdür.Ət istehsalında qaramalın xüsusi çəkisi 45 faiz təşkil edirdi.[96]

1950-1960-cı illərdə DQMV heyvandarlığında satlıq süd istehsalı başlıca yer tuturdu. Pul gəlirinə görə, o yalnız üzümçülükdən geridə qalırdı. Aparılan araşdırmalara əsasən məlum olmuşdur ki, Dağlıq Qarabağın bütün kolxozları və 12 sovxozu satlıq süd istehsalı ilə məşğul olmuşlar. 1958-ci ildə DQMV-də Rayonlararası Dövlət Damazlıq Stansiyasının açılması mal-qaranın cinsinin yaxşılaşmasına və məhsuldarlığın artmasına kömək etmişdir. 1953-cü ildə hər inəkdən ildə orta hesabla 498 kiloqram süd sağılmışdırsa, 1965-ci ildə təxminən 2 dəfə artaraq 1032 kiloqrama, 1970-ci ildə isə 3 dəfə artaraq 1497 kiloqrama çatmışdır. 1970-ci ildə Xocavənd rayonunda il ərzində hər inəkdən 2119 kiloqram süd sağılmışdır. Şuşa rayonunun "Turşsu" sovxozunda isə bu göstərici 2618 kiloqrama çatmışdır. Nəticədə, 1940-1960-cı illərdə DQMV-nin kolxoz və sovxozlarında dövlətə süd satışı dəfələrlə artmışdır. Belə ki, 1940-cı illə

müqayisədə 1950-ci ildə 1,5 dəfə, 1960-cı ildə 3,9 dəfə, 1970-ci ildə isə 6,2 dəfə artım müşahidə edilmişdir.[97]

Dağlıq Qarabağın təbii coğrafi mövqeyi qoyunçuluğun inkişafına şərait yaratmışdır. Ərazidə saxlanılan qoyunlar ətlik-südlük və yunluq cins idi. Burada bəslənən qoyunlar boz, qumral və sarımtıl rəngdə olduğundan yunu boyamaq asan idi. Dünya bazarında, Rusiya sənayesində və yerli bazarlarda yuna böyük tələbat var idi. Çünki yun xalça istehsalı üçün başlıca xammal mənbəyi hesab olunurdu. Odur ki, bu sahəyə dövlətimiz xüsusi diqqət yetirir və qoyunçuluq fermalarının sayını artırırdı. Belə ki, 1953-1955-ci illərdə 46,3 yerlik, 1956-1960-cı illərdə 58,1 min yerlik, 1961-1965-ci illərdə 37,5 min yerlik Qoyunçuluq Əmtəə Fermaları (QƏF) tikilmişdi.[98] Azərbaycan hökuməti yaratdığı bu fermalarda mexanikləşmə, elektrikləşmə işlərini həyata keçirmiş, qoyunçuluğun yem bazasını yaxşılaşdırmışdır. 1950 – 1960-cı illərdə Dağlıq Qarabağda qoyunçuluğun inkişafı sahəsində Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər öz müsbət nəticəsini verdi. Belə ki, 1940-cı illə müqayisədə 1950-ci ildə qoyunların sayı 1,5 dəfə, 1960-cı ildə 2,7 dəfə, 1970-ci ildə 2,4 dəfə artdı. Qoyunların sayındakı çoxalma dövlətə yun satışında da artıma səbəb olmuşdur. 1950-1960-cı illərdə DQMV-nin müxtəlif kateqoriyalarından olan təsərrüfatlarından dövlətə yun satışının artım tempini aşağıdakı cədvəldən də görmək olar (tonla):[99]

| Kateqoriyalar | İLLƏR | | | | |
|---|---|---|---|---|---|
| | 1940 | 1950 | 1960 | 1965 | 1970 |
| DQMV-nin bütün təsərrüfatlarından: O cümlədən | 109 | 206 | 610 | 487 | 494 |
| Kolxozlarda | 109 | 189 | 580 | 298 | 285 |
| Sovxozlarda | - | - | - | 61 | 60 |
| Şəxsi təsərrüfatlarda | - | 17 | 30 | 128 | 179 |



Cədvəldən göründüyü kimi, DQMV-də 1970-ci ildə dövlətə təhvil verilən yunun 52 faizi kolxozların, 12 faizi sovxozların, 36 faizi şəxsi təsərrüfatların payına düşürdü. Şəxsi təsərrüfatlardan əldə edilən yunun bir hissəsi Şuşa, Ağdam, Bərdə bazarlarında satılır və ya yerli əhali tərəfindən xalça toxunması işinə sərf edilirdi.

1950-1960-cı illər DQMV ərazisində quşçuluqda sürətlə inkişaf etmişdi. Bölgədə quşların sayı 8,5 dəfə artmışdı. Bu artımın səbəbləri hər şeydən öncə Azərbaycan hökuməti tərəfindən Quşçuluq Əmtəə Fermalarının yaradılması, Dağlıq Qarabağa yeni daha məhsuldar quş növlərinin verilməsi, quşçuluqda tələb olunan yem bazası ilə təmin olunması, quşçuluq fermalarının mexanikləşdirilməsi və elektrikləşməsi ilə əlaqədar olmuşdur. 1953-1955-ci illərdə DQMV-nin kolxoz və sovxozlarında 68,4 min yerlik, 1956-1960-cı illərdə 105,9 min yerlik, 1961-1966-cı illərdə 113,2 min yerlik, 1966-1970-ci illərdə 76,7 min yerlik quş fermaları tikilmişdir.[100] 1950-1960-cı illərdə Dağlıq Qarabağın kolxoz, sovxoz və digər dövlət təsərrüfatlarında bütün növlərdən olan quşların sayının necə artdığını aşağıdakı cədvəldən aydın görmək olar:[101]

| Rayonlar | İLLƏR | | | | |
|---|---|---|---|---|---|
| | 1940 | 1950 | 1960 | 1965 | 1970 |
| DQMV üzrə cəmi: O cümlədən | 19532 | 62350 | 85034 | 89912 | 162173 |
| Hadrudda | 3824 | 12626 | 8997 | 7701 | 15897 |
| Ağdərədə | 6581 | 24921 | 22300 | 21066 | 40777 |
| Xocavənddə | 3411 | 11775 | 27855 | 25307 | 44856 |
| Xankəndində | 4881 | 10856 | 20405 | 32725 | 57137 |
| Şuşada | 835 | 2172 | 5477 | 3115 | 3506 |

1961-ci ilə qədər Dağlıq Qarabağın sovxozlarında quş saxlanılmırdı. 1961-ci ildə isə DQMV-nin sovxozlarında cəmi 453 quş saxlanılmışdı. Dekabr 1970-ci il məlumatlarına görə, DQMV-nin sovxozlarında quşçuluq əmtəə fermalarının

yaradılması ilə əlaqədar, quşların sayı 39807-yə çatmışdı. Şəxsi təsərrüfatlarda da quş saxlanılırdı ki, bu yerli əhalinin tələbatının ödənilməsinə istiqamətlənmişdi. Dağlıq Qarabağda saxlanan quşlar həm ətlik üçün istifadə edilirdi, həm də yumurta vermək qabiliyyətinə malik idi. Bəhs etdiyimiz dövrdə, toyuqların illik yumurta verməsində artım müşahidə edilmişdir. Belə ki, 1960-cı ildə orta hesabla hər toyuq 60 yumurta verirdisə, 1965-ci ildə 66-ya, 1970-ci ildə isə 73-ə qalxmışdı. 1950-1960-cı illərdə dövlətə ümumi yumurta satışında böyük artım müşahidə edilmişdir. 1940-cı illə müqayisədə, 1970-ci ildə yumurtanın sayı 13 dəfə artmışdı. Dövlətə yumurta satışı 1940-cı ildə 589 min, 1950-ci ildə 1 milyon 857 min, 1960-cı ildə 4 milyon 326 mi, 1965-ci ildə 5 milyon 749 min, 1970-ci ildə isə artaraq 7 milyon 767 minə çatmışdır.[102]

XX yüzilliyin 50-60-cı illərində DQMV-nin kənd təsərrüfatlarında yüksək gəlirli sahələrdən biri ipəkçilik olmuşdur. Qarabağ İpək emalı sənayesinin xammala olan tələbatını ödəmək məqsədilə barama istehsalını artırmaq tələb olunurdu. 1950-1960-cı illər ərzində Dağlıq Qarabağda barama qurdunun yem bazasının bərpası və genişləndirilməsi məqsədilə Azərbaycan hökuməti mühüm tədbirlər həyata keçirdi. İlk növbədə, kumxana (barama qurdu saxlanan yer) tikintisinin genişləndirdi. Barama qurdu xəstəliklərini vaxtında aradan qaldırmaq məqsədilə Bakıdan mütəxəssislər göndərildi. 1950-1960-cı illər ərzində çəkil bağlarının əkini 5 dəfədən çox artdı. Əkilən yeni çəkil bağlarında əsasən yüksək keyfiyyətli enli yarpaqlı sortlar becərilməyə başlandı. Nümunəvi barama qurdu məntəqələri yaradıldı. Qabaqcıl iş təcrübəsi bölgədə tətbiq edildi. Nəticədə, 1950-1960-cı illərdə DQMV-nin bütün kateqoriyalardan olan təsərrüfatlarından dövlətə quru barama satışı xeyli artdı. Belə ki, 1940-cı ildə dövlətə 114 ton barama satılmışdırsa, 1950-ci ildə 152 ton, 1960-cı ildə 185 ton, 1970-ci ildə isə 188 ton barama istehsal olunmuşdur.[103] 1924-cü illə müqayisədə hər barama qutusundan götürülən məhsuldarlıq 2,5 dəfə artmışdır.[104]

Beləliklə, 1950-1960-cı illərdə Azərbaycan hökumətinin Dağlıq Qarabağ Muxtar Vilayətinin kənd təsərrüfatını inkişaf etdirmək sahəsində həyata



keçirdiyi tədbirlər kolxoz və sovxozların maddi texniki bazasını nisbətən möhkəmləndirdi. Kolxozlar iri çoxsahəli təsərrüfatlara çevrildi. Sovxozların sayı və onların təsərrüfatları genişləndi. Dövlətimizin dərin qayğısı nəticəsində Dağlıq Qarabağda kənd təsərrüfatı məhsullarının istehsalı və tədarükü artdı. 1950-1960-cı illərdə bütövlükdə Azərbaycan üzrə kənd təsərrüfatının ümumi məhsulu 1,9 dəfə çoxalmışdırsa, Respublikamızın məhsuldar torpağa, əlverişli iqlim şəraitinə və bol su ehtiyatlarına malik Dağlıq Qarabağ bölgəsində bu göstərici 4,5 dəfəyə qalxmışdır.[105]

Bütün dünyada ictimai rəyi öz tərəflərinə çəkmək məqsədilə tarixi faktları saxtalaşdıran erməni siyasətbazları əzabkeş obrazından çıxış edərək pis yaşadıqlarından şikayət etməyə başlamışdılar. Halbuki aşağıdakı, 1950-1960-cı illərə aid rəqəmlər erməni yalanını bir daha sübut edir. Belə ki, aparılan müqayisəli araşdırmalar nəticəsində məlum olur ki, yanvar 1970-ci ildə hər bir adam gününə düşən ümumi məhsul, Respublikamızın kolxozlarında orta hesabla 4,7 manat təşkil etmişdir. Bu göstərici Lənkəran – Astara zonasında 1,9 manat Naxçıvan MSSR-də 3,5 manat, Gəncə-Qazax zonasında 3,8 manat, Şirvan zonasında 4,8 manat idisə, DQMV-də 5,9 manata çatmışdır.[106] Ən yüksək əmək məhsuldarlığı səviyyəsinə malik olan Dağlıq Qarabağda Lənkəran-Astara zonasındakı nisbətən 3,1 dəfə artıq olmuşdur. Həmin vəziyyət hər 100 hektar kənd təsərrüfatına yararlı torpaq sahəsinə düşən ümumi məhsulun dəyərində də müşahidə olunur. Məsələn, ümumrespublika üzrə bu göstərici 13,1 min manata bərabər idisə, Naxçıvan MSSR-də 12,2 min manat, Qarabağ – Mil zonasında 12,6 min manat, Gəncə-Qazax zonasında 9,4 min manat, Lənkəran – Astara zonasında 3,9 min manata, DQMV-də isə 17,4 min manata çatırdı.[107]

1969-cu ildə Azərbaycanda hər bir kənd təsərrüfatında işləyən kolxozçuların aylıq qazancı orta hesabla 143 manat idi. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, Azərbaycanın ayrı-ayrı zonaları arasında bu göstərici DQMV-də daha üstün olmuşdur. Belə ki,Lənkəran – Astara zonasında 77 manat, Naxçıvan MSSR-də 129 manat, Gəncə-Qazax zonasında 123 manat,

Şirvan zonasında 149 manat, Muğan-Salyan zonasında 136 manat olmuşdursa, Dağlıq Qarabağ Muxtar Vilayətində 161 manata çatmışdır. Aparılan araşdırmalardan məlum olur ki, hər bir kolxozçuya düşən əsas istehsal zonalarının dəyərinə görə DQMV birinci yerdə dayanmışdır. Belə ki,bəhs etdiyimiz ildə, Naxçıvan MSSR-də bu göstərici 594,8 manat, Lənkəran – Astara zonasında 366,3 manat, Gəncə-Qazax zonasında 523,1 manat olmuşdursa, DQMV-də 1 milyon 574,2 manata çatmışdır. Eyni vəziyyət kolxoz və sovxozlarda becərilən çoxillik bitkilərin əkinində də özünü göstərmişdir. Məsələn, Naxçıvan MSSR-də bu göstərici 5,2 faiz, Qarabağ Mil zonasında 5,2 faiz, Muğan-Salyan zonasında 1,6 faiz, Lənkəran-Astara zonasında 2 faiz olmuşdursa, DQMV-də 11,1 faizə çatmışdır.[108] Əlbəttə, bu və ya buna bənzər faktlar minlərlədir. Bütün yuxarıda sadalanan yüksək iqtisadi göstəricilər hər şeydən öncə Azərbaycan hökumətinin DQMV göstərdiyi dərin qayğısının nəticəsi idi.

1950-1960-cı illər DQMV-də kənd təsərrüfatının inkişafı sahəsində Vilayət rəhbərliyinin kəndlərdə həyata keçirdiyi tədbirlər nəzərdən keçirilərkən məlum olur ki, Vilayət Partiya Komitəsi və Vilayət İcraiyyə hakimiyyəti azərbaycanlılar yaşayan kəndlərə ögey münasibət göstərmişlər. Əliqabarlı azərbaycanlı zəhmət adamlarının ağır əməyi heç vaxt qiymətləndirilməyib və həmişə diqqətdən kənarda qalıb. Azərbaycanlılar yaşayan kəndlərdəki əkin üçün yararlı torpaq sahələri vaxtaşırı qeyri kənd təsərrüfatı məqsədlər üçün istifadə edilmiş, məqsədli şəkildə müxtəlif yerlərdə qazıntı axtarış işləri aparmaqla əkin yerləri yararsız hala salınmışdır. Burada məkirli niyyət sahiblərinin yeganə mənfur siyasəti, qədimdən Dağlıq Qarabağda yaşayan azərbaycanlıları bezdirib ata-baba yurdundan çıxarmaq və süni surətdə ermənilərin say çoxluğuna nail olmaq kimi xəyanətkar məqsədləri var idi və çox təəssüflər olsun ki, bir qrup gəlmə "qonşularımız" həm də, bizim təvazökarlığımızdan, ürəyitəmizliyimizdən, eyni zamanda laqeydliyimizdən istifadə edib, iyrənc məqsədlərinə nail oldular. Zaman-zaman DQMV-də azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata



keçirilən etnik təmizləmə siyasəti nəticəsində, xalqımız ağır məhrumiyyətlərə məruz qaldı və hissə-hissə min illər boyu yaşadıqları öz doğma tarixi etnik torpaqlarından didərgin düşdülər.

Beləliklə, 1950-1960-cı illərdə Sov. İKP MK-nın Azərbaycanda aqrar sahədə həyata keçirdiyi bir sıra islahatlar nəticəsində kənd təsərrüfatı əvvəlki dövrlərlə müqayisədə inkişaf etdi və Respublikamızın kənd təsərrüfatı məhsulları vaxtaşırı olaraq Ermənistana, Rusiya və onun ucqar ərazilərinə daşınmağa başlanıldı. Lakin aqrar bölmənin inkişafına maneə olan bəzi amillər hələ də qalmaqda davam edirdi.

1950-1960-cı illər Azərbaycanda kənd təsərrüfatının ümumi inkişaf məsələlərinə qiymət verən ümummilli liderimiz H.Ə.Əliyev öz fikrini belə ifadə etmişdir: "1940-cı illə müqayisədə 1960-cı ildə Azərbaycanda kənd təsərrüfatının məcmu məhsulu 2 dəfə, bütün maliyyələşdirmə mənbələri üzrə kapital qoyuluşu 3,8 dəfə artmışdır...50-60-cı illərdə qazanılan nailiyyətlərin əhəmiyyətini azaltmadan onu da qeyd etmək vacibdir ki, həmin dövrdə Respublikamızın iqtisadi inkişafında bir sıra mənfi meyillər də özünü göstərməyə başlamışdır. Belə ki, 60-cı illərdə Azərbaycanda kənd təsərrüfatında istehsalın həcmi, ictimai əməyin məhsuldarlığı ümumittifaq göstəricilərindən geri qalırdı...Kənd təsərrüfatında meleirasiya və dəmyə torpaqların suvarılması işində nöqsanlar var idi. Kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsi aşağı səviyyədə idi. Aqrotexniki qaydaların pozulması üzündən taxılın, pambığın, tərəvəzin... və başqa bitkilərin məhsuldarlığı istənilən səviyyədə deyildi. İstehsal qüvvələrinin yerləşdirilməsi işində kobud yanlışlıqlara yol verilmişdi... struktur dəyişiklər aparmalı, yeni həvəsləndirmə metodları tətbiq etməli və kənd təsərrüfatını daha da inkişaf etdirmək lazım idi."[109]

# X FƏSİL

## DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNDƏ SOSİAL HƏYAT (1950-1960-Cİ İLLƏR).

1941-1945-ci illərdə yüz minlərlə Azərbaycan döyüşçüsünün öz dünyasını dəyişməsi və müharibədən sonrakı ilk ağır illərdəki iqtisadi, sosial və mənəvi çətinliklər Respublikamızda əhali artımının ləng getməsinə səbəb olmuşdu. 1950-ci ildə Azərbaycanda 2 milyon 859 min nəfər əhali yaşayırdı ki, bu da 1940-ci il dəkindən 415 min nəfər az idi[1]. 1950-1960-cı illərdə Azərbaycanda əhalinin sayında xeyli artım müşahidə edilmişdir. Belə ki, 1960-cı ildə Azərbaycanda əhalinin sayı 3 milyon 816 min, 1970-ci ildə isə artaraq 5 milyon 117 min nəfərə çatmışdır[2].

Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti 1950-1960-cı illərdə bəzi özünəməxsus demoqrafik inkişaf xüsusiyyətlərinə malik olmuşdur. 1950-ci illərdə DQMV-də 128 min nəfər əhali yaşayırdı ki, bu da 1940-cı ildəkindən 22 min nəfər az idi[3]. Lakin 1970-ci ilədək Dağlıq Qarabağda əhalinin sayı artaraq 1940-cı il səviyyəsinə çatmışdır. Bəhs etdiyimiz 20 il ərzində (1950-1960-cı illərdə), DQMV-də əhalinin sayı 15 faiz artaraq 150,3 min nəfərə olmuşdur[4]. Bu artımın ən başlıca amili 1950-1960-cı illərdə, Azərbaycanın hər yerində olduğu kimi, DQMV-də də əhalinin doğum, ölüm və təbii artım göstəricilərində müsbət dəyişikliklərin əldə edilməsi ilə bağlı idi. 1950-1960-cı illər ərzində, DQMV-də şəhər əhalisinin sayı artmış, kənd əhalisinin xüsusi çəkisində azalma halı müşahidə edilmişdir. Belə ki, 15 yanvar 1950-ci il siyahıyaalınmasına görə, Dağlıq Qarabağda əhalinin 79 faizi kənddə, 21 faizi şəhərdə yaşayırdısa 1970-ci ildə isə əhalinin 62 faizi kənddə, 38 faizi şəhərdə məskunlaşmışdılar[5]. Naxçıvan MSSR-da isə 1970-ci ildə əhalinin 75,2 faizi (154,7 min nəfəri) kənd yerlərində, 24,8 faizi (51 min nəfəri) şəhərdə yaşamışdır[6]. Ümumrespublika üzrə bu göstərici 1950-ci ildə 44 faiz şəhərdə, 56 faiz kənddə və 1970-ci ildə isə hər ikisində 50 faiz təşkil etmişdir[7]. Statistik məlumatlara əsaslanaraq əhalinin tərkibindəki sosial



dəyişikliklərlə bağlı şəhər əhalinin artması faktını araşdırarkən belə bir maraqlı müqayisə aşkarlanır: 1950-1960-cı illərdə Ümumrespublika üzrə şəhər əhalisinin sayının artması 6 faiz, Naxçıvan MSSR-da 0,7 faiz təşkil etmişdirsə, DQMV-də bu göstərici 18 faizə çatmışdır[8]. DQMV-də şəhər əhalisinin Azərbaycanın başqa əraziləri ilə müqayisədə çox artması səbəblərini araşdırarkən ilk öncə Azərbaycan hökümətinin bu bölgəni daim diqqət mərkəzində saxlaması və bütün sahələrə ayrılan vəsaitin dəfələrlə üstün olmasında axtarmaq lazımdır. DQMV-nin şəhərləri, rayon mərkəzləri və qəsəbələrində, xüsusilə, Xankəndində yeni fabrik, zavod və müəssisələrin tikintisi, yeni iş yerlərinin açılması, yeni mədəni-məişət obyektlərinin istifadəyə keçirilməsi, əhalinin mənzilə olan tələbatının ödənilməsi, şəhər əhalisinin maddi durumunun, güzəranının yaxşılaşması, onların ərzaq məhsulları ilə tam təmin edilməsi və sair amillər əhalinin şəhərə axınına səbəb olmuşdur. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, DQMV-nin şəhər, qəsəbə və rayon mərkəzlərində əhalinin artması tempi daha çox Xankəndi şəhərində müşahidə edilmişdir. Belə ki, 1926-cı ildə Xankəndində əhalinin sayı 3,2 min nəfər idisə 1968-ci ildə 8,9 dəfə artaraq 28,4 min nəfərə çatdı. Qədimdən Qarabağın mərkəzi olan Şuşa şəhərində isə bu artım 1,4 dəfə olmuşdur (5,1 min nəfərdən 7,3 min nəfərə qalxmışdır)[9]. Bəhs edilən dövrdə, Azərbaycanın paytaxtı Bakı şəhərində bu artım 2,4 dəfəyə, Ermənistanın mərkəzi İrəvan şəhərində isə 12 dəfəyə çatmışdır[10]. Həmçinin, bir acı həqiqəti də qeyd etməliyik ki, Xankəndində əhalinin bu cür dinamik artımı yalnız milliyyətcə ermənilərə xas olmuşdur. Bu erməni siyasətbazlarının və lobbisinin növbəti hücum dalğası idi. Bir neçə evdən ibarət Xankəndi kəndinin sonralar Vilayət mərkəzinə ÇEVRİLMƏSİ və əhalinin (xüsusi olaraq, ermənilərin) sayının süni sürətdə artırılması gələcəkdə dövlətimizə qarşı bir "mina" rolunu oynayajaqdı və oynadı. 1950-1960-cı illərdə DQMV-də əhalinin dinamik inkişafını aşağıdakı cədvəldən də aydın izləmək olar (min nəfərlə)[11].

| | DQMV | o cümlədən, | Yekuna nisbətən faizlə |
|---|---|---|---|

| İLLƏR | üzrə cəmi (minlərlə) | Şəhərdə yaşayanlar (min nəfər) | Kənddə yaşayanlar (min nəfər) | Şəhərdə yaşayanlar (faizlə) | Kənddə yaşayanlar (faizlə) |
|---|---|---|---|---|---|
| 1939 | 150,8 | 15,9 | 134,9 | 10 | 90 |
| 1950 | 128,0 | 25,6 | 102,4 | 20 | 80 |
| 1959 | 130,4 | 27,0 | 103,4 | 21 | 79 |
| 1960 | 134,6 | 28,3 | 106,3 | 21 | 79 |
| 1961 | 139,0 | 39,8 | 99,2 | 37 | 63 |
| 1962 | 141,2 | 41,5 | 100,2 | 30 | 70 |
| 1963 | 142,5 | 42,6 | 99,9 | 31 | 69 |
| 1964 | 143,8 | 47,9 | 95,9 | 34 | 66 |
| 1965 | 145,2 | 49,4 | 95,8 | 35 | 65 |
| 1968 | 149,6 | 58,9 | 90,7 | 40 | 60 |
| 1970 | 150,3 | 57,3 | 93,0 | 38 | 62 |

1950-1960-cı illərdə Dağlıq Qarabağda əhalinin sosial strukturunda olan dəyişikliklərdən biri də fəhlə sinifinin kəmiyyət və keyfiyyətcə artması idi. Ümumiyyətlə, 1940-cı illə müqayisədə 1970-ci ildə DQMV-nin xalq təsərrüfatında işləyən fəhlə və qulluqçuların sayı 157 faiz artdı[14]. Bölgədə 1940-cı ildə 13,7 min nəfər işçi var idisə, 1960-cı ildə 48 faiz artaraq 20,3 min nəfərə, 1965-ci ildə 102 faiz artıb 27,7 min nəfərə, 1970-ci ildə isə 157 faiz artıb 35,2 min nəfərə çatmaşdır. 1970-ci ildə DQMV-nin sənaye müəssisələrində 6543 fəhlə və qulluqçu işləyirdi ki, bu da 1952-ci illə müqayisədə 71 faiz çox demək idi[15].



Tikintidə çalışan fəhlə və qulluqçuların sayı 1952-ci ildəki 493 nəfərə qarşı, 1970-ci ildə 5 dəfə artaraq 2467 nəfərə çatmışdır[16].

DQMV-də əhalinin sosial strukturunda işləməyən ailə üzvüləri ilə birlikdə kolxozçuların payı 1939-cu ildə 54 faiz təşkil edirdisə, 1959-cu ildə 42 faizə, 1970-ci ildə isə 16 faizə enmişdir[17].

1965-ci ildə Dağlıq Qarabağın meşə təsərrüfatında çalışan fəhlə və qulluqçuların 159 nəfərindən 1970-ci ildə 298 nəfərə, nəqliyyat vasitələrində çalışanlar 1965-ci ilin 1002 nəfərinə qarşı 1970-ci ildə 1647 nəfərə, rabitə işçilərinin sayı müvafiq illərdə 619 nəfərdən 861 nəfərə, kommunal və məişət xidməti işçiləri 813 nəfərdən 1117 nəfərə, ticarət, iaşə, texniki təchizat, tədarük orqanlarında çalışanlar 1746 nəfərdən 2391 nəfərə çatmışdı. 1952-ci illə müqayisədə 1970-ci ildə ticarət və təchizat idarəsində işləyənlərin sayı 95,4 faiz, nəqliyyat və rabitə xidmətlərində işləyənlər 255,3 faiz artmışdır[16].

DQMV-nin müəssisələrində istehsalın həcminin, texniki səviyyəsinin artması, elm, təhsil və mədəniyyəin yüksəlməsi qulluqçuların sayının davamlı olaraq artmasına səbəb olmuşdu. Əhalinin siyahıya alınmasının nəticəsinə görə, 1970-ci ildə respublikamızda işləməyən ailə üzvləri ilə birlikdə 1 milyon 830 min nəfər qulluqçu var idi[19]. Həmin il Dağlıq Qarabağın xalq təsərrüfatında çalışan ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı 8870 nəfərə çatırdı ki, bundan 465 nəfəri sənayedə, 631 nəfəri kolxozda, 380 nəfəri sovxozlarda, 200 nəfəri kənd təsərrüfatı baytarlıq xidməti idarəsində, 67 nəfər nəqliyyatda, 51 nəfər rabitədə, 161 nəfər tikinti trestində, 239 nəfəri ticarət, iaşə, texniki təchizat, tədarük orqanlarında, 153 nəfəri idman, səhiyyə, sosial təminat müəssisələrində, 4014 nəfər maarif və mədəniyyət şöbələrində, 73 nəfər elmi idarədə, 85 nəfər kredit və sığorta idarəsində, 571 nəfər dövlət daxili işlər orqanları, kooperativ və ictimai orqanlarda işləyirdi[20]. 1970-ci ildə Dağlıq Qarabağın xalq təsərrüfatında çalışan qulluqçuların 3809 nəfəri ali təhsilli, 5061 nəfəri isə orta ixtisas təhsilli mütəxəssis idi. Aparılan tədqiqatlara əsasən müəyyən olunmuşdur ki, 1939-1959-cu illərdə DQMV-nin xalq təsərrüfatında çalışan qulluqçuların sayı 6 faiz artmışdır. 1959-

1969-cu illər ərzində ümumrespublika üzrə qulluqçuların sayında böyük artım müşahidə edilməsədə, DQMV-də 1966-1970-ci illər ərzində 1238 nəfər qulluqçu artmışdır[21].

1970-ci il statistik məlumatına görə, DQMV-də çalışan mütəxəssislərdən 47 faizini qadınlar 53 faizini kişilər təşkil edirdi. Dağlıq Qarabağın təsərrüfat, idarə və müəssisələrində çalışan qulluqçu qadınların 41 faizi ali təhsilli, 57 faizi orta ixtisas təhsilli, 2 faizi isə orta, peşə təhsilli idilər. 1959-cu ildə Dağlıq Qarabağda yaşayan əhalinin 52 faizini qadınlar, 48 faizini kişilər təşkil edirdisə, 1969-cu ildə 51 faizi qadınlar, 49 faizi kişilər təşkil etmişdir[22]. Dağlıq Qarabağda çalışan mütəxəssis qadınlar orta ixtisas təhsilli mütəxəssislər arasında elmi, pedaqoji, kitabxana sahəsində ümumi mütəxəssislərin 64,1 faizini, tibb işçiləri arasında 86,1 faizi, plan-statistika işçiləri arasmda 39,4 faizini, aqranom, zotexniklərdən 19,7 faizini, texniklərdən 17,3 faizini, ali təhsilli mütəxəssislər arasında — mühəndislərin 27,9 faizini, aqranom, zootexnik təsərrüfatı işçiləri arasında 11,3 faizini, həkimlərin (diş həkimi müstəsna olmaqla) 59,6 faizini, iqtisadçıların 33 faizini, elmi pedaqoci və kitabxana işçilərinin 45,9 faizini təşkil edirdi[23].

1950-1960-cı illərdə Azərbaycanda əhalinin milli tərkibində də dəyişikliklər baş vermişdi. 1959-1970-ci illərdə respublikamızda Azərbaycanlıların sayı 2494,4 mindən 3776,8 minə, rusların sayı 501,3 mindən 510,1 minə, ermənilərin sayı 442,1 mindən 483,5 minə, ləzgilərin sayı 98,2 mindən 137,3 minə, yəhudilərin sayı 40,2 mindən 41,2 minə çatmışdır. Bəhs etdiyimiz illərdə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda Azərbaycanlıların sayı 18 mindən 27,2 minə, ermənilərin sayı 110 mindən 121,1 minə, rusların sayı 1,8 mindən 1,3 minə, ukraynaların sayı 0,2 mindən 0,3 minə, digər millətlər 0,3 mindən 0,4 minə çatdı[24]. Yeri gəlmişkən, maraqlı bir faktı qeyd etmək yerinə düşərdi: 1959-1970-ci illərdə Yerevan şəhərində Azərbaycanlıların sayı 3,2 mindən 2,7 minə endiyi halda, Bakı şəhərində ermənilərin sayı 170 mindən 207,4 minə qalxmışdır. Ermənilərin saymın və xüsusi çəkisinin Azərbaycanda, Bakı şəhərində, Dağlıq Qarabağ bölgəsində, Ermənistan və onun paytaxtı Yeravan şəhərində artması,



əksinə Ermənistanda (0,2 faiz) və Yerevanda (0,3 faiz) azərbaycanlıların sayının azalması halları müşahidə edilmişdir[25]. Azərbaycanlılar öz əzəli torpaqları olan Ermənistandan departasiya edilmiş, sıxışdırılmış və qovulmuşdur. Ermənilər üçün isə Azərbaycanda, yaşayış üçün hər cür şərait yaradılmışdır. Bütün bunlar isə ermənilərin çoxalmasına səbəb olmuşdur.

1950-1960-cı illərdə respublikamızın Dağlıq Qarabağ bölgəsində əhalinin təbii artımı, ölüm hallarının azalması və doğulanların sayının artması halı müşahidə edilmişdir ki, deyilənləri aşağıdakı cədvəldə də izləmək olar[26]:

| İLLƏR | DQMV-də əhalinin hər 1000 nəfərinə nisbətən: (nəfərlə) | | |
|---|---|---|---|
| | Doğulanların sayı | Ölənlərin sayı | Təbii artım |
| 1940 | 35,2 | 13,5 | 21,7 |
| 1950 | 31,4 | 9,5 | 22,0 |
| 1960 | 36,5 | 7,6 | 28,9 |
| 1963 | 32,0 | 6,9 | 25,4 |
| 1965 | 34,6 | 6,6 | 28,0 |
| 1970 | 27,6 | 6,9 | 20,7 |

Yuxarıdakı cədvəldən aydın göründüyü kimi, DQMV-də 1950-1960-cı illərdə əhalinin səviyyəsi müxtəlif dövrlərdə fərqli olmaqla özünün ən yüksək nöqtəsinə 1960-cı ildə çatmışdır. DQMV-də bu göstərici 36,5 nəfərə bərabər idisə, Naxçıvan MSSR-da 54 nəfərə qalxmışdır. Əhalinin hər 1000 nəfərinə düşən ölüm halları isə Dağlıq Qarabağ 1960-ci ildə müşahidə edilmişdir (7,6 nəfər).

1967-ci il statistika məlumatlarına görə, DQMV-də əhalinin həp 1000 nəfərinə görə nigah bağlama halı boşanma halından 8 dəfə artıq olmuşdur. Ayrı-ayrı rayonlarda bu göstəricilər fərqli müşahidə edilmişdir. Bəhs olunan ildə, ən çox kəbin Xankəndi şəhərində hər 1000 nəfərə 9 nəfər, ən aşağı göstərici isə

Ağdərə rayonunda — hər 1000 nəfərə orta hesabla 6,8 nəfər kəbin düşmüşdür. Boşanma hallarında isə ən yüksək göstərici Şuşa şəhərində (hər 1000 nəfərə 2,3 nəfər), ən aşağı göstərici Şuşa rayonunda (hər 1000 nəfərə 0,1 nəfər) müşahidə edilmişdir. 1966-1967-ci illərdə DQMV-də yaşayan hər 1000 nəfər əhaliyə 0,8 nəfər boşanma düşmüşdür. Kəbinin, nigahın çox, boşanmanın aşağı olması bölgədə əhalinin sayının artmasına səbəb olmuşdur[27].

1939-cu ildə respublikamızda hər kvadrat kilometrə 37,1 nəfər, onun ayrılmaz hissəsi olan DQMV-də 34,3 nəfər, 1960-cı ildə 42,7 və 29,6, 1965-ci ildə isə Azərbaycanda 50,6 nəfər, DQMV-də 32,7 nəfər adam düşmüşdü[28].

1950-1960-cı illərdə DQMV-də istehsalın ardıcıl olaraq artması əhalinin gəlirlərinin çoxalmasına səbəb olmuşdu. 1945-1947-ci illərdə fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 32,5 faiz artmış, 1950-ci ildə isə müharibədən əvvəlki səviyyəni 80,7 faiz ötüb keçmişdir. 1948-ci ildən ərzaq və sənaye məhsullarının qiymətləri aşağı salındı. Artıq 1950-ci ildə qiymətlər 1947-ci illə müqayisədə ümumilikdə 43 faiz, o cümlədən, sənaye məhsulları üzrə 35 faiz, ərzaq məhsulları üzrə 47 faiz aşağı düşmüşdü[29]. 1950-1960-cı ərzaq məhsullarının qiyməti 3,2 faiz, qeyri-ərzaq məhsullarının qiyməti isə 22 faiz aşağı düşmüşdü. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1951-1954-cü illərdə ümumilikdə qiymətlər dörd dəfə düşmüşdür. Həmin dövrlərdə ərzaq məhsulları 30 faiz, qeyri ərzaq məhsulları 19 faiz aşağı düşdü. Vahid qimətlərin tətbiq edilməsi, kartoçka sisteminin ləğvi dövlət və bazar qiymətləri arasında fərqin azalmasına səbəb oldu. 1950-ci ildə əhalinin alıcılıq qabiliyyəti aşağı idi. Qiymətlər nə qədər aşağı salınsa da, pul islahatı keçirilsə də 1950-ci ildə 1940-cı ilə nisbətən qiymətlər 3 dəfə yüksək idi[30]. Vəziyyəti nizama salmaq üçün Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan KP MK 1956-cı il sentyabrın 8-də azmaaşlı fəhlə və qulluqçuların əmək haqqının 1957-ci il bir yanvardan qaldırılması haqqında qərar verdi[31].

Həmin qərara əsasən, azmaaşlı zəhmət adamlarının əmək haqqının artırılması ilə yanaşı ixtisas səviyyəsindən, iqtisadi əhəmiyyətindən, işin



mürəkkəbliyindən, əmək haqqından, iş şəraitindən, coğrafi və iqlim şəraitindən asılı olaraq fəhlə və qulluqçuların əmək haqqı tənzimləndi. 1958-ci ildən 1970-ci ilədək fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 1,5 dəfə artıb 109,6 manata çatmışdı. 1965-ci illə müqayisədə, 1970-ci ildə DQMV-nin xalq təsərrüfatının müxtəlif sahələrində çalışan fəhlə və qulluqçuların ümumi orta aylıq əmək haqqı artaraq 77 manatdan 99 manata çatmışdır. Həmin illərdə sənaye sahəsində işləyən fəhlə və qulluqçuların əmək haqqı 74 manatdan 111 manata, nəqliyyat işçilərinki 83 manatdan 103 manata, poçt-teleqraf işçilərininki 64 manatdan 81 manata, tikintidə işləyənlərinki 87 manatdan 123 manata, ticarət-iaşə işçilərinki 67 manatdan 83 manata, kommunal xidməti işçilərinki 52 manatdan 75 manata, səhiyyə işçilərinki 74 manatdan 79 manata, maarif və mədəniyyət işçilərinki 92 manatdan 100 manata, dövlət kredit və sığorta idarəsində işləyənlərinki 80 manatdan 90 manata, dövlət və təssərüfat idarə orqanlarında və ümumi orqanlarda işləyən işçilərin əmək haqqı 87 manatdan 105 manata qalxmışdı.

1950-1960-cı illərdən Azərbaycanın DQMV-də kənd təsərrüfatı istehsalının artması, heyvandarlıq məhsulları tədarükünün mütləq normalarının azaldılması, kənd təsərrüfatı məhsullarının tədarük və satınalma qiymətlərinin artırılması kolxoz və savxozlarda işləyən zəhmət adamlarının maddi vəziyyətinin yaxşılaşmasına kömək etdi. 1950-ci ildə DQMV-də kolxozçuların pul gəlirləri 1940-cı illə müqayisədə 1,5 dəfə çoxalmışdırsa, 1960-cı ildə 2,6 dəfə artıb 80 manata, 1970-ci ildə isə təxminən 3 dəfə artıb 90 manata çatmışdır[32]. Bəhs etdiyimiz dövrdə, DQMV-də əhalinin pul gəlirinin artmasına təsir göstərən amillərdən biri də Azərbaycan hökümətinin 1957-ci ildən əhaliyə məcburi verilən istiqrazların dayandırılması ilə bağlı olmasıdır.

Dağlıq Qarabağda fəhlə və qulluqçuların fərdi əmək haqqına, həmçinin, kolxozçu kəndlərin gəlirlərinə mühüm əlavə sosial-mədəni tədbirlərə sərf edilən Azərbaycanın dövlət xərcləri idi. 1950-1960-cı illər ərzində Azərbaycan hökümətinin DQMV-nə ayırdığı vəsaitin ildən-ilə necə artırdığını aşağıdakı cədvəldən də görmək olar (min manat hesabılə)[33]:

| İllər | Mədaxil (gəlir) | Məxaric (xərc) | o cümlədən, | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | Xalq təsərrüfatına | Maarifə | Səhiyyəyə | Sosial Təminat şöbəsinə | Dövlət idarə orqanlarına |
| 1950 | 5121 | 6404 | 393 | 4078 | 1287 | 39 | 606 |
| 1955 | 8730 | 8263 | 1254 | 4430 | 1898 | 71 | 558 |
| 1960 | 11492 | 10115 | 2174 | 4904 | 2385 | 81 | 538 |
| 1965 | 20688 | 20595 | 3614 | 8825 | 3620 | 2186 | 675 |
| 1967 | 19333 | 18279 | 3619 | 9625 | 3988 | 131 | 780 |
| 1970 | 25159 | 23251 | 20257 | 11816 | 4681 | 125 | 913 |

Cədvəldən göründüyü kimi, 1970-ci ildə Azərbaycan SSR-in dövlət büdcəsindən DQMV-də sosial-mədəni tədbirlərə ayrılan vəsait 1950-ci ildəkindən 3,6 dəfə çox idi. Aparılan tədqiqatlardan məlum olur ki, Dağlıq Qarabağda yaşayan əhalinin savadlanmasına və sağlamlığına, ayrılan ümumi vəsaitin böyük hissəsi sərf edilmişdir. Belə ki, 1924-cü ildə həmin sahəyə ümumi vəsaitin 56,3 faizi, 1940-cı ildə 67,2 faizi, 1950-ci ildə 73,8 faizi, 1960-cı ildə 72,1 faizi, 1965-ci ildə 60,5 faizi, 1970-ci ildə 70 faizi ayrılmışdır[34].

DQMV-də əhalinin maddi təminatında Azərbaycan hökümətinin ayırdığı təqaüdlərin əhəmiyyəti böyük idi. SSRİ Ali Soveti 14 iyul 1956-cı ildə "Dövlət təqaüdçüləri haqqında Qanun" qəbul etdi ki, həmin qanuna əsasən qocalığa görə təqaüdlərin həcmi 2 dəfədən çox, əlliliyə görə 50 faiz, ailə başçısını itirmiş ailələrin müavinətlərinə 60 faiz əlavələr edildi[35].

DQMV-də təqaüdçilərin sayında ilbəil xeyli artım müşahidə edilmişdir. Belə ki,1965-ci ildə burada təqaüdçülərin sayı 22048 nəfər idisə, 1968-ci ildə 24281-ə, 1970-ci ildə isə artaraq 27778-ə çatdı[36]. 1970-ci ildə bütövlükdə



Azərbaycanda cəmi 643 min təqaüdçü var idi. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, DQMV-də təqaüdçülərin təxminən 50 faizi kolxozçuların üzərinə düşürdü. Həmçinin, 1968-ci ildə Dağlıq Qarabağda yaşayan 24281 təqaütçüdən 6906 nəfəri qocalığa, əlilliyə görə, 2234 nəfəri ailə başçısını itirmişlər, 2861 nəfəri keçmiş hərbi xidmətçilərin ailələri, 12280 nəfəri kolxozçu pensiyaçılar idi[37]. Maraqlı fakt ondan ibarətdir ki, 1968-ci ildə Dağlıq Qarabağda təqaüd alanlardan 30 faizi Xankəndi rayonunun (7387 nəfəri), 29 faizi Ağdərə rayonunun (7283 nəfəri), 22 faizi Xocakənd rayonunun (4716 nəfəri), 14 faizi Hadrud rayonunun (3527 nəfəri) və yalnız 5 faizi (1368 nəfəri) Azərbaycanlıların daha çox yaşadığı Şuşa rayonunun payına düşmüşdür[38]. Bu isə təsadüf deyildi. Çünki, "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Azərbaycan SSR Qanunu"nun 33-cü maddəsinin 1-9-cu bəndlərində göstərir ki, "DQMV Xalq Deputatları Soveti Vilayətdə sosial təminat işinə, Vilayət tabeli sosial təminat idarəsi və təşkilatlarının işinə nəzarət edir, pensiya və müavinatların təyin olunması və verilməsi işini təşkil edir. Həmçinin yerli əhəmiyyətli fərdi pensiyaları müəyyən edir, respublika və ittifaq əhəmiyyəti fərdi pensiyalırın təyin edilməsi haqqında vəsatətlər qaldırır. Kolxozçuların sosial təminatı üzrə Vilayət Şurasını təşkil edir və onun fəaliyyətinə nəzarət edir. Tibb-əmək ekspertizası orqanlarının işinə rəhbərlik edir"[39]. Əlbəttə, DQMV XDS-nin ermənilərdən ibarət deputat qrupu "sosial təminat sahəsində *səlahiyyət"lərindən çox* "bacarıqla" istifadə etmiş və milliyyətcə Azərbaycanlı olanlara qarşı öz şövinist mövqelərini bir daha nümayiş etdirmişlər.

1950-1960-cı illərdə respublikamızın ictimai istehlak fondlarından DQMV-nin uşaqların məktəbəqədər tərbiyə müəssisəsində təminatına, uşaqların yay pioner düşərgələrində istirahətinin təşkilinə, çoxuşaqlı və tək analara yardım göstərilməsinə xeyli vəsait ayrıldı. Əmək qabiliyyətini müvəqqəti itirən fəhlə və qulluqçular sosial sığorta hesabına müavinat alırdılar. 1957-ci il fevralın 1-dən, əmək stacından asılı olmayaraq, həmin müavinatlar əmək haqqının 100 faizi həcmində verilirdi[40]. Azərbaycan hökümətinin ayırdığı vəsait hesabına Dağlıq

Qarabağda 1950-ci ildən 1970-ci ildək 11 yeni tipli və hər cür şəraitlə təmin olunmuş uşaq bağçaları və körpələr evi tikilib istifadəyə verildi. Bəhs etdiyimiz illərdə, Dağlıq Qarabağda məktəbəqədər tərbiyə müəssisələrinin, oradakı uşaqların və tərbiyəçilərin sayının necə artırıldığını aşağıdakı cədvəldən aydın görmək olar[41]:

| İllər | Uşaq bağçaları | | | Körpələr evi | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | Uşaqların sayı | Tərbiyəçilərin sayı | Cəmi | Bundan şəhər və qəsəbədə | Uşaqların sayı |
| 1950 | 24 | 694 | 56 | 20 | 5 | 563 |
| 1955 | 20 | 786 | 69 | 15 | 5 | 425 |
| 1960 | 21 | 905 | 71 | 17 | 9 | 500 |
| 1965 | 45 | 2434 | 176 | 12 | 5 | 360 |
| 1070 | 55 | 3495 | 224 | 9 | 5 | 173 |

Cədvəldən göründüyü kimi, 1950-1960-cı illər ərzində Dağlıq Qarabağda uşaq bağçalarının sayı 2,3 dəfə, ordakı uşaqların sayı 4 dəfə artdı. Bəhs edilən illərdə, körpələr evi və oradakı uşaqların sayında azalma halı müşahidə edilmişdir. Tədqiqatlardan məlum olur ki, həmin azalan 11 körpələr evi və oradakı azyaşlı uşaqlar yeni tikilmiş uşaq bağçalarına birləşdirilmişdir. 1950-1960-cı illərdə Dağlıq Qarabağ Muxtar Vilayəti - şəhər, qəsəbə və kəndlərində həmişəlik, yəni uşaqları birdəfəlik saxlayan uşaq evləri də fəaliyyət göstərirdi. Həmişəlik uşaq evlərinin ayrı-ayrı rayonlar üzrə yerləşməsi cədvəlini nəzərdən keçirərərkən məlum olur ki, 1965-ci ildə Xankəndi rayonunda 100 yerlik 4 belə uşaq evi, Ağdərə rayonunda 90 yerlik 3 daimi uşaq evi, Xankənd rayonunda 90 yerlik 3 daimi uşaq evi, Xocavənd rayonunda 20 yerlik bir daimi uşaq evi, Hadrud rayonunda 30 yerlik bir daimi uşaq evi var idi. Şuşa rayonunda bu tipli



uşaq evi 1950-ci ildə 3-ə çatsa da, 1965-ci ildə onların hər üçünün fəaliyyəti dayandırılmışdır[42].

Aparılan araşdırmalar nəticəsində məlum olur ki, DQMV də fəaliyyət göstərən 64 məktəbəqədər uşaq tərbiyə müəssisələrindən yalnız 3-ü Şuşa rayonunun payına düşürdü, qalan 61 uşaq müəssisəsi isə ermənilərin daha yığcam cəmləşdikləri rayonlarda və kəndlərdə tikilmişdi[43].

1950-1960-cı illərdə Dağlıq Qarabağda yaşayan əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasını bölgədə əmanət kassalarının, əmanətçilərin və kassalarda saxlanılan əmanətlərin sayının xeyli artmasından görmək olar. Belə ki, 1950-ci illə müqayisədə 1970-ci ildə DQMV-də əmanət kassalarının sayı 2,5 dəfə, əmanətçilərin sayı 4,2 dəfə, kassalarda saxlanılan əmanətlərin miqdarı isə 64 dəfə artmışdı[44]. 1950-1960-cı illərdə DQMV-də əmanətlərin dinamik inkişafını aşağıdakı cədvəldən görmək olar[45]:

| İllər | DQMV-də əmanət kassalarının sayı | Əmanətçilərin sayı | Kassalarda saxlanılan əmanətlər (min manat) |
|---|---|---|---|
| 1950 | 34 | 11237 | 492 |
| 1955 | 45 | 27552 | 3751 |
| 1960 | 59 | 29967 | 4776 |
| 1965 | 74 | 32952 | 8875 |
| 1970 | 88 | 47596 | 31497 |

1970-cı il məlumatına görə, DQMV-də mövcud olan 88 əmanət kassalarından 25-i şəhər və qəsəbələrdə, 63-ü kənddə fəaliyyət göstərirdi. Əmanətçilərin sayı və saxlanılan əmanətlərin miqdarına görə isə şəhər və qəsəbələrdə daha üstün olmuşdu. Belə ki, 47596 əmanətçidən 27596-ı şəhər və qəsəbələrdə, 20000-i kənddən idi. 1970-ci ildə vilayətin kassalarında saxlanılan

31 milyon 497 manatdan 19 milyon 143 min manatı şəhər və qəsəbələrin, 12 milyon 354 min manatı kəndin payına düşmüşdür[46].

Aparılan tədqiqatçılar nəticəsində məlum olmuşdur ki, Xankəndi rayonunda saxlanılan əmanətlər, ümumi DQMV-üzrə saxlanılan əmanətlərin üçdən birini təşkil edirdi. 1970-ci il məlumatına görə, ümumi respublikamız üzrə əmanət kassalarının sayı 79 min, orada saxlanılan pulun miqdarı isə 524 milyon manat olmuşdur[47].

1950-1960-cı illərdə Dağlıq Qarabağda sənaye və kənd təsərrüfatının istehsalının, həmçinin, əhalinin real gəlirinin artması dövlət və kooperativ ticarətdə pərakəndə mal dövriyyəsinin ümumi həcminin artmasına səbəb oldu.

1970-ci ildə Azərbaycanda ticarət müəssisəsinin sayı 15607-yə çatdı ki, bundan 618-i Dağlıq Qarabağın payına düşürdü[48]. DQMV-də mövcud 618 ticarət müəssisələrindən 151-i ixtisaslaşmış ticarət müəssisləri idi. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, ixtisaslaşmış ticarət mərkəzlərindən 46-sı təkcə Xankəndi şəhərində, 105-i isə DQMV-nin rayon, kənd və qəsəbələrində yerləşirdi. Azərbaycan hökumətinin dərin qayğısı nəticəsində, DQMV-də, təkcə 10 il ərzində (1960-1970-ci illərdə) 145 yeni müxtəlif ticarət müəssisəsi tikilib istifadəyə verildi. Bəhs etdiyimiz illərdə, yeməkxana və restoranların sayı 3,4 dəfə, ictimai iaşə müəssisələrinin sayı 2,4 dəfə artdı. 1970-ci ildə Dağlıq Qarabağda 78 yeməkxana və restoran, 126 qəlyanaltı və bufet, 2 univermaq, 7 sənaye malları mağazası, 26 ərzaq malları mağazası, 233 ictimai iaşə müəssisəsi, 248 gündəlik tələbat malları mağazası, 7 kitab mağazası, 380 xırda satış müəssisəsi, 1 zərgərlik məmulatları müəssisəsi, parça, ayaqqabı, alt və üst geyim paltarları, radio, idman malları, "uşaq aləmi", un məmulatları, təsərrüfat malları, kənd təsərrüfatı məhsulları, ət, süd, şərab və başqa ticarət müəssisələri var idi[49].

1947-ci il dekabrın 14-də ərzaq və sənaye mallarına kartoçka sistemi ləğv edildi. Həmin vaxtdan ərzaq və sənaye malları vahid dövlət pərakəndə qiymətləri ilə satılmağa başlandı. Eyni zamanda pul islahatıda keçirildi ki, bu da respublikamızda pul sisteminin möhkəmlənməsinə imkan verdi. 1948-ci ildən



başlayaraq, ərzaq və sənaye müəssisələrinin pərakəndə satış qiymətləri ardıcıl olaraq aşağı salındı. Artıq, 1950-ci ildə 1947-ci illə müqayisədə məhsulların pərakəndə satış qiymətləri 43 faiz aşağı düşdü[50]. 1950-ci ildən sonrakı dövrdə əmək haqqına görə əhalinin alıcılıq qabiliyyəti ərzaq və qeyri ərzaq mallarının pərakəndə satış qiymətlərinin aşağı salınması hesabına artmışdır. 1951-1961-ci ildə ərzaq məhsullarının qiyməti 3,2 faiz, qeyri ərzaq məhsullarının qiyməti isə 22 faiz aşağı düşmüşdü. 1951-1954-cü illərdə qiymətlər 4 dəfə aşağı salındığından dövlət ticarət şəbəkəsində ərzaq məhsullarının və sənaye mallarının qiyməti orta hesabla 24,5 faiz aşağı oldu[51]. Bütün görülən tədbirlər dövlət və bazar qiymətləri arasında fərqin tədricən aradan qaldırılmasına kömək edirdi.

Bəhs etdiyimiz illərdə, DQMV-də əhaliyə ərzaq mallarının satışı durmadan artırdı. 1950-ci ildə Dağlıq Qarabağda adambaşına ərzaq satışı 1940-cı illə müqayisədə 2 dəfə artmışdır. 1950-1960-cı illərdə isə bu göstərici 1,9 dəfəyə bərabər idi. 1961-1971-ci illər ərzində DQMV-nin dövlət satış müəssisələrində ərzaq məhsullarının illik mal dövriyyəsi 5 milyon 770 mindən 14 milyon 815 minə çatdı[52].

DQMV-də əhalinin ərzaq mallarına olan tələbatının ödənilməsində yerli əhalinin şəxsi və kollektiv çoxsahəli yardımçı təsərrüfatları, həmçinin, kolxoz ticarəti mühüm rol oynayırdı. 1940-cı illə müqayisədə 1950-ci ildə kolxoz bazarlarında ərzaq məhsullarının mal dövriyyəsi 4 milyon 255 mindən 8 milyon 855 minə, 1960-cı ildə 14 milyon 996 minə, 1965-ci ildə 18 milyon 440 minə, 1970-ci ildə isə 24 milyon 951 minə çatmışdır. Deməli, 1940-cı illə müqayisədə 1970-ci ildə şəxsi, yardımçı və kolxoz ticarəti 5,8 dəfə artmışdı[53]. DQMV-də dövlət ticarəti daxil olmadan, 1950-ci ildən 1970-ci ilədək ərzaq məhsullarının ayrı-ayrı növləri arasındakı artım tempində fərqlər mövcud olmuşdur.

Belə ki, ət, mal-qara yağı, konservlər, un və ərzaqlıq taxıl, yarma və paxlalı bitgilər, əriştə məmulatları, spirtli içkilər istehlakı 2-3 dəfə artmışdırsa, balıq, yumurta, mürəbbə, cem, kartof və tərəvəz istehlakında artım müşahidə

edilməmiş, çay və digər ərzaq məhsullarının istehlakında isə 0,1-0,2 faiz azalma halı qeydə alınmışdır[54].

1950-1971-ci illərdə dövlət ticarəti daxil olmadan istehlak malları içərisində ərzaq məhsullarının istehlakı, bütövlükdə, Azərbaycan SSR üzrə 40,3 faizdən 49,5 faizə, Azərbaycanın Naxçıvan bölgəsində 44,8 faizdən 53,1 faizə, Dağlıq Qarabağ bölgəsində 35,2 faizdən 42,5 faizə qalxmışdı[55].

DQMV-də əhalinin ərzaqla təchizatının yaxşılaşmasına ictimai iaşə müəssisələri kömək edirdi. İctimai iaşə müəssisələrinin fəaliyyətinin planlı şəkildə qurulması əmək ehtiyatlarından səmərəli istifadəni, əhalinin məişətinin yenidən qurulmasını və qadınların əməyinin yüngülləşməsini zəruriləşdirdi. Azərbaycan hökümətinin ayırdığı xüsusi vəsait hesabına Dağlıq Qarabağda 1950-1960-cı illərdə yeni yeməkxana və bufetlər yaradıldı, mövcud obyektlər yeni avadanlıqlarla təmin olundu və əsaslı təmir edildi. Təkcə 10 il ərzində Azərbaycan hökuməti DQMV-də 135 yeni ictimai iaşə xidməti müəssisəsi əhalinin istifadəsinə verdi. Artıq 1970-ci ildə Dağlıq Qarabağda ictimai iaşə müəssisələrinin sayı 1960-cı illə müqayisədə 2,3 dəfə artıb 233-ə çatdı. 1970-ci ildə respublikamızda 6209 ictimai iaşə müəssisəsi var idi[56].

Aparılan tədqiqatdan məlum olur ki, DQMV-nin rayonlarında ictimai-iaşə müəssisələrinin tikintisi Xankəndi rayonu daha çox diqqət mərkəzində olmuş, Şuşa rayonu üzrə isə göstərici aşağı səviyyədə idi. Hətta ermənilərin daha çox cəmləşdiyi kəndlərdə paltar və ayaqqabı təmiri emalatxanaları, paltar yumaq və təmizləmək üçün qəbul məntəqələri, məişət maşınları və avadanlıqları təmiri, dəlləkxana, foto xidməti atelyesi və digər xidmət göstərən məntəqələr təşkil edilmişdir. DQMV-də fəaliyyət göstərən xidmət emalatxanaları və atelyelərin 50 faizi kəndlərin payına düşürdü. 1970-ci ildə Dağlıq Qarabağın ictimai iaşə müəssisələri və sexlərində 1153 nəfər usta və şagird işləyirdi. DQMV-də adambaşına düşən ictimai iaşə və məişət xidməti müəssisələrinin sayı ümumrespublika üzrə olan göstəricilərdən 1,8 dəfə artıq idi[57]. 1970-ci ildə DQMV-də hər 10 min nəfərə 15 ictimai-iaşə və xidmət müəssisəsi düşürdü.



Dağlıq Qarabağda ictimai iaşə müəssisələrinin sayının artması həmin müəssisələrin illik gəlirində də özünü göstərmişdir. Məsələn, 1940-cı ildə ictimai iaşə müəssisələrinin illik gəliri 640 min manat olmuşdursa, 1950-ci ildə 950 min manat, 1960-cı ildə 1 milyon 851 min manat, 1965-ci ildə 2 milyon 494 min manat, 1968-ci ildə isə 4,5 dəfə artaraq 2 milyon 988 minə çatmışdır[58].

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1957-1965-ci illərdə DQMV-də hər sakinə düşən iaşə xidmətinin həcmi 7 manat 16 qəpik olmuşdursa, 1966-1970-ci illərdə həmin göstərici təxminə 2 dəfə artaraq 13 manat 33 qəpiyə çatmışdır[59]. Dağlıq Qarabağda məişət xidməti müəssisələri 60-cı illərdən yeni qayda ilə işləməyə başladılar. Müəssisələrdə planlaşdırma və həvəsləndirmə sistemi tətbiq edildi. Nəticədə, məişət xidmətinin həcmi 2 dəfə artdı. DQMV-də məişət xidmətinin hər nəfərə düşən həcmi ümumrespublika döstəricilərindən 1,4 dəfə artıq olmuşdur.

Belə ki, respublikamız üzrə bu göstərici 30,2 manat idisə, onun tərkib hissəsi olan Dağlıq Qarabağda 41,9 manata, Naxçıvan MSSR-da 31,4 manata çatmışdır[60]. DQMV-nin müsəlmanlar yaşayan kəndlərdə demək olar ki, ictimai iaşə xidməti müəssisəsi yox dərəcədə idi. 1950-1960-cı illərdə DQMV-də ictimai iaşə, bütövlükdə Respublikamız üzrə olan göstəricilərdən üstün olsa da, hələ kifayət qədər inkişaf etməmişdi və bir çox müəssisələrdə xidmət mədəniyyəti aşağı səviyyədə idi.

1950-1960-cı illərdə DQMV-də əhaliyə sənaye malların satışı durmadan artdı. Məsələn, 1961-ci ildə DQMV-də sənaye mallarının illik mal dövriyyəsi 8 milyon 713 min manat olmuşdursa, 1971-ci ildə bu göstərici 2 dəfə artaraq 16 milyon 136 min manata çatmışdır. Bütövlükdə, Dağlıq Qarabağda sənaye mallarının illik mal dövriyyəsi ərzaq məhsullarının illik mal dövriyyəsindən (1965-ci il müstəsna olmaqla) üstün olmuşdur. 1950-1971-ci illərdə sənaye məhsullarının illik mal dövriyyəsi 52-60 faiz təşkil etmişdir. Lakin Xankəndi rayon satış bazasında tamamilə bunun əksini təşkil etmişdir. Yəni, sənaye mallarının illik mal dövriyyəsi 43-48 faizini tutmuşdur[61].

1961-1971-ci illərdə DQMV-də ərzaq məhsulları və sənaye mallarının illik mal dövriyyəsi və onların faizlə olan nisbətini aşağıdakı cədvəldən izləmək olar[62].

| № | Satış sistemi | 1961 | 1965 | 1967 | 1971 |
|---|---|---|---|---|---|
| I | DQMV-də ümumi ictimai istehlakın həcmi (min manat) o cümlədən, | 14483 | 18440 | 21951 | 27500 |
| 1. | Ərzaq malları (min manat) | 5770 | 9818 | 10588 | 11364 |
| 2. | Sənaye məhsulları (min manat) | 8713 | 8622 | 11363 | 16136 |
| 3. | Ərzaq mallarının faizlə miqdarı | 40 | 53 | 48 | 41 |
| 4. | Sənaye məhsullarının faizlə miqdarı | 60 | 47 | 52 | 59 |
| II | Xankəndi satış müəssisələrində | 6925 | 9350 | 11441 | 14815 |
| 1. | Ərzaq malları (min manat) | 9314 | 4882 | 6223 | 7668 |
| 2. | Sənaye məhsulları (min manat) | 3011 | 4468 | 5218 | 7147 |
| 3. | Ərzaq məhsulları faizlə miqdarı | 57 | 52 | 54 | 52 |
| 4. | Sənaye məhsullarının faizlə miqdarı | 43 | 48 | 46 | 48 |

1950-1960-cı illərdə DQMV-də bütün istehlak malları işçisində sənaye məhsulları istehlak həcmi nəzərdən keçirilərkən məlum olur ki, 1950-ci ildə həmin göstərici 64,8 faiz, 1960-cı ildə 74,8 faiz, 1970-ci ildə isə 59,5 faiz təşkil etmişdir[63]. Ümmrespublika üzrə olan göstəricilər nəzərdən keçirilərkən məlum olur ki, müvafiq illərdə respublikamızda 59,7; 64,4; 50,4 arasında, Naxçıvan MSSR-da isə 51,2; 57,7; 46,9 arasında tərəddüd etmişdir[64]. Ümumiyyətlə, 1950-1960-cı illərdə sənaye məhsullarının istehlak həcminə görə DQMV Azərbaycan SSR üzrə birinci yerdə dayanmışdır ki, bu da Azərbaycan hökümətinin vilayətə göstərdiyi qayğının təzahürü demək idi. 1950-ci illə müqayisədə 1970-ci ildə bəzi sənaye məhsullarının — pambıq parça, yun parça, yaylıq, baş geyimləri, tütün məmulatları, meşə materialları, süni ipək parça istehlakında cüzi azalma halı, digər sənaye məhsulları — təbii ipək parçalar, tirokatac malları, corab,



Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, Şuşada məqsədli şəkildə dağıdılmış qədim mədəniyyət abidələrinin yerində, nəinki bir bina, hətta 10 belə bina tikmək olardı. 1960-cı illərdə Şuşada öz möhtəşəmliyi və memarlıq incəlikləri ilə bəzəyən 16 şərq hamamın heç birindən əsər əlamət qalmadı. Hansı ki, bu hamamlar ən yaxşı Avropa hamamları ilə rəqabət apara bilərdi. Şəhərə xüsusi gözəllik verən "Alaqapı" və "Çanaqqala"nın da dağıdılması bu dövrə təsadüf etmişdir. Beləliklə, DQMV XDS-nin layihə müəllifləri məqsədli şəkildə tikinti-abadlıq işləri adı altında Şuşanı qədim və yaraşıqlı yaşayış binalarının xeyli hissəsini dağıtmağa müvəffəq oldular.

Vətənini, torpağını, millətini sevən ümummilli liderimiz H.Ə.Əliyevin 1969-cu ildə dövlət başçısı vəzifəsinə gəlişi ilə Şuşa şəhərinə qayğı artdı və şəhər bərpa olunmağa başlandı. Böyük öndərimiz çıxışlarından birində göstərmişdir ki, "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı qədim tikliləri bərpa etmək, hər şeyi qayğı ilə qoruyub saxlamaq və gələcək nəsillərə çatdırmaq bizim ən ümdə və müqəddəs vəzifələrimizdir"[98]. Uzaqgörən dövlət başçımızın təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 1977-ci ildən Şuşa şəhəri Azərbaycanın Tarixi Memarlıq abidəsi elan edilmişdir.

1950-1960-cı illərdə DQMV-nin Ağdərə, Hadrut, Xocavənd rayonlarında, Talış, Noraşen, Çartar, Noraguh, Aşan, Kişi, Çaylı və digər kəndlərində çox böyük həcmdə tikinti-abadlıq işləri aparılmışdır. Ermənilərin daha çox cəmləşdiyi kəndlərdə aparılan tikinti abadlıq işləri bütövlükdə Şuşa rayonuna ayrılan vəsaitin həcmindən çox olmuşdur. Təkcə, Xocavənd rayonun Çartar kəndində 1950-1960-cı illərdə 600 yerlik tamaşa salonu olan mədəniyyət sarayı, kolxoz idarəsi üçün ikimərtəbəli bina, elektirik dəyirmanı, avtomat telefon stansiyası, məktəb və uşaq bağçası, mexanikləşdirilmiş böyük həcmli çörək zovodu, mədəniyyət və istirahət parkı, ikimərtəbəli şəxsi evlər və başqa obyektlər tikilib istifadəyə verilmişdi[99].

Azərbaycan Respublikası hököməti, həmkarlar ittifaqı təşkilatı və digər ictimai təşkilatlar DQMV əhalisinə həmişə qayğı ilə yanaşmış, bölgənin iqtisadi,

sosial və mədəni həyatı daim diqqət mərkəzində olmuşdur. Bu baxımdan, Azərbaycanın DQMV əhalisinin sosial iqtisadi və mədəni həyat səviyyəsi, istər ümumrespublika səviyyəsində, istərsə də qonşu Ermənistanla müqayisədə çox böyük üstünlüklərə malik olmuşdur.

Hər şeyə düzgün qiymət verməyi bacaran, böyük siyasətçi H.Ə.Əliyev 1950-1960-cı illərdə Azərbaycanda aparılan tikinti abadlıq işlərinə bu cür qiymət vermişdir: "1950-1960-cı illərdə əsaslı tikinti sahəsində ciddi çatışmamazlıqlara yol vermişdir. Sənaye müəssisələrinin, yaşayış binalarının, mədəni-məişət obyektlərinin istismara verilməsi üzrə tapşırıqlar müntəzəm olaraq pozulurdu. Bütövlükdə, 60-ci illərdə əsas fondlar 1 milyard rubla qədər kəsirdə qalmışdır ki, bu da 1969-cu ilin başlanğıcında respublikanın bütün əsas fondlarının 10 faizini təşkil edirdi. Sənaye sahələrinin və sosial sferanın potensialının gücləndirilməsi işində əldən verilmiş imkanlar respublikanın 60-cı illərdə sosial iqtisadi cəhətdən geri qalmasının başlıca səbəbləri idi[100].

1950-1960-cı illərdə DQMV-də avtomabil yollarının yenidən qurulması və yenilərinin salınması sahəsində böyük işlər görülürdü. DQMV-dən keçən ümumdövlət və respublika əhəmiyyətli avtomabil yollarının, vilayət əhəmiyyətli avtomabil yollarının və Dağlıq Qarabağ təsərrüfat daxilindəki avtomabil yollarının salınması və təmirinə 1965-ci ildə Azərbaycan hökuməti tərəfindən 562 min manat 1970-ci ildə isə 1 milyon 174 min manat vəsait ayrılmışdı. Azərbaycan Respublikası hökuməti DQMV-də yolların salınması, yenidən qurulması və təmiri üçün iş qüvvəsi, təcrübəli mütəxəssislər, maşın və mexanizmlər göndərdi[101]. Bu işə sənaye, nəqliyyat tikinti təşkilatlarını cəlb etdi.

Dağlıq Qarabağın avtomabil yolları çox böyük əhəmiyyətə malik idi. Qədim dövrlərdən buradan hərbi və ticarət yolları keçirdi. Bəhs etdiyimiz dövrdə, DQMV yollarından, yəni Ağdam dəmir yolunu - Xankəndini birləşdirən 31 klometrlik yoldan yüklərin daşınmasında, Ermənistan şərq rayonlarına, Naxçıvan MSSR-na, Azərbaycanın digər rayonlarına yük dövriyyəsində,



edildi. İstirahət günləri qabağı və bayramqabağı günlər, əmək haqqı tam saxlanılmaqla, iş günü 4 saata qədər azaldıldı[71].

1950-1960-cı illərdə Dağlıq Qarabağ əhalisinin məişətinin yaxşılaşmasında tikinti sənayesinin sürətlə artması mühüm rol oynamışdır. Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1957-ci il 31 iyul tarixli "SSRİ-də mənzil tikintisinin inkişafı haqqında" qərarından sonra Azərbaycan hökuməti DQMV-də mənzil və digər obyektlərin tikintisinə xüsusi diqqət yetirmiş və bu sahəyə qoyulan vəsaitin həcmini ildən-ilə artırmışdır[72]. Dövlətimiz DQMV-də yalnız tikinti işləri üçün 1951-ci ildə 716 min manat vəsait ayırmışdırsa, 1960-cı ildə 6,4 dəfə artaraq 4 milyon 600 minə, 1965-ci ildə 12,2 dəfə artaraq 8 milyon 700 minə, 1967-ci ildə isə 15,9 dəfə artırılıb 11 milyon 397 minə çatmışdır. Bundan əlavə, yeni tikilmiş binalarda quraşdırma (montac) işləri üçün 1951-1971-ci illərdə 94 milyon manat vəsait ayrılmışdı[73]. 1950-1960-cı illərdə Azərbaycan hökuməti tərəfindən DQMV-nin xalq təsərrüfatının ayrı-ayrı sahələrinə ayrılmış vəsaitin miqdarının necə paylandığın aşağıdakı cədvəldən görmək olar (min manat hesabı ilə)[74];

| № | Müəssisələrin adı | İllər | | | | |
|---|---|---|---|---|---|---|
| | | 1957 | 1960 | 1963 | 1965 | 1970 |
| I | Bütün DQMV-i üzrə ayrılan ümumi vəsaitin həcmi: o cümlədən, | 5183 | 7295 | 19365 | 17962 | 26900 |
| 1. | Sənaye müəssisələri tikintisi | 293 | 1427 | 793 | 2136 | 2510 |
| 2. | Yaşayış binaları tikintisi | 473 | 1040 | 1809 | 922 | 2420 |
| 3. | Kommunal tikintisi | 46 | 176 | 480 | 373 | 750 |
| 4. | Məktəb tikintisi | 107 | 318 | 481 | 500 | 1100 |
| 5. | Səhiyyə müəssisələri tikintisi | - | 67 | 215 | 250 | 1130 |
| 6. | Digər obyektlərin tikintisi | 683 | 1114 | 2522 | 4519 | 5990 |
| 7. | Binalarda quraşdırma abadlıq işləri | 3581 | 3153 | 13069 | 9262 | 13000 |

DQMV-də tikinti işlərinin əksəriyyətini dövlət və kooperativ təşkilatlar həyata keçirirdi. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, 1960-cı illərdə DQMV tikinti abadlıq işlərinə ayrılan ümumi vəsaitin təxminən 89-91 faizi binalarda quraşdırma-abadlıq, son təmir işlərinə, 4-7 faiz tikinti trestinin avadanlıq və ləvazimatlarla təmin olunmasına, 1,1-1,7 faizi plan, axtarış və layihə işlərinə, 0,8-4,1 faizi maliyyə və digər işlərə ayrılmışdır[75].

1960-cı illərdə Azərbaycan hökuməti DQMV dövlət və kooperativ idarə və müəssisələrinin tikintisinə böyük həcmdə vəsait ayırmışdı. Belə ki, 1940-ci ildə dövlət və kooperativ idarə və müəssisələrinin tikintisinə 0,4 milyon manat vəsait ayrılmışdırsa, 1960-cı ildə həmin göstərici 5 milyona, 1965-ci ildə 10 milyona, 1970-ci ildə isə 20 milyona çatmışdır[76]. 1965-ci ildən 1970-ci ilədək DQMV-nin xalq təsərrüfatında tikinti-abadlıq işlərinə ayrılan 143,1 milyon manat vəsaitin 107 milyon manatı dövlət və kooperativ idarə və müəssisələrinin tikintisinə sərf edilmişdi[77].

Azərbaycanın başqa rayonları ilə müqayisədə, DQMV-də tikinti quraşdırma işlərinə ayrılan vəsaitin həcmi xeyli çox idi. Belə ki, 1950-1960-ci illərdə təkcə Xankəndi rayonuna ayrılan vəsait qonşu 3 rayona - Ağdam, Füzuli və Tərtər rayonlarına ayrılan vəsaitə bərabər idi. 1966-1968-ci illərdə Naxçıvan MSSR-da tikinti quraşdırma işlərinə 58 milyon manat vəsait ayrılmışdırsa, bu göstərici Dağlıq Qarabağda 68 milyon manata çatmışdır[78].

Azərbaycan hökuməti DQMV-də tikinti-abadlıq işləri aparmaq üçün təkcə, vəsait ayırmaqla kifayətlənməyib, buraya ixtisaslı mühəndis kadrlar, tikinti materialları, işçi qüvvəsi və texnika göndərdi. Dövlətimizin bölgəyə göstərdiyi dərin qayğı nəticəsində xeyli miqdarda çoxmərtəbəli yaşayış binaları, məktəblər, uşaq bağçaları, klublar, kitabxanalar, ictimai iaşə müəssisələri, heyvandarlıq fermaları, sənaye müəssisələri və başqa obyektlər tikilib istifadəyə verildi. 1955-ci ildən 1970-ci ilədək olan dövrdə DQMV-də ümumi sahəsi 863,4 min kvadrat metr olan mənzil tikilib istifadəyə verilmişdir[79]. 1956-1970-ci illərdə ümumi respublika üzrə bu göstərici 23435 min kvadrat metrə çatmışdır[80]. 1955-



1970-ci illər ərzində DQMV-də yaşayış evlərinin artım tempini aşağıdakı cədvəldən də görmək olar (hər 1000 kvadrat metrə düşən istifadəyə yararlı ümumi yaşayış evlərinin sahəsi)[81].

| İLLƏR | DQMV üzrə tikilən ümumi yaşayış evlərinin sahəsi | o cümlədən, | | |
|---|---|---|---|---|
| | | Dövlət və kooperativ müəssisələri və yaşayış evlərinin sahəsi | Fəhlə və qulluqçuların dövlət krediti ilə tikdiyi evlərin sahəsi | Kolxozlarda tikilən yaşayış evlərinin sahəsi |
| 1955 | 32,3 | 1,2 | 5,3 | 25,8 |
| 1956-1960 | 320,6 | 21,6 | 74,5 | 224,5 |
| 1961-1965 | 248,5 | 90,1 | 60,5 | 97,9 |
| 1966-1970 | 262,0 | 65,6 | 85,3 | 111,1 |

Cədvəldə göründüyü kimi, 1955-ci illə müqayisədə 1970-ci ildə mənzil tikintisi 11,3 dəfə artmışdı.

1950-ci ildən 1970-ci ilədək olan dövrdə, DQMV şəhər və qəsəbələrində 16344 yerlik 10 yeni tipli məktəb, 1780 yerlik 49 uşaq bağçası və körpələr evi, 19 kütləvi kitabxana, 18 klub (şəhər və qəsəbələrdə), 16 iri həcmli sənaye müəssisəsi, 606,9 min yerlik ictimai ferma tikilib istifadəyə verilmişdir. Bununla yanaşı, 1954-1968-ci illər ərzində DQMV-nin kəndlərində 10476 yerlik 54 ibtidai, natamam orta və orta məktəb, 16325 yerlik 69 klub və mədəniyyət sarayları, 8345 kvadrat metrlik ziyalılar və kolxozçular üçün yaşayış evləri tikilmişdir[82].

DQMV-də tikinti işlərinin geniş vüsət alması ilə əlaqədar bir çox müəssisələrdə yaşayış evlərinin tikilməsində fəhlə və qulluqçuların şəxsi əməyindən istifadə olunurdu ki, bu onlara həmin evlərdə mənzil sahəsi almaq

hüququ verirdi. 1950-1960-cı illərdə Azərbaycanın hər yerində, o cümlədən, DQMV-də tikinti sahəsində yeni bir təşəbbüs "Xalq tikintisi üsulu" irəli sürülmüşdü[83]. Həmin üsula görə, bir sıra sənaye müəssisələrinin və tikinti təşkilatlarının fəhlə və qulluqçuları tikilən evləri öz qüvvələri ilə tikirdilər. Bu zaman material və avadanhqların çoxu Azərbaycan hökümətı tərəfindən ödənilirdi. DQMV-də yaşayan ermənilər, bu qərardan istifadə edərək, 5-6 otaqdan ibarət imarətlər tikdilər. 1970-ci ildə tikilən fərdi evlərin ümumi sahəsi 225,6 min kvadrat metrə çatmışdır[84].

DQMV-də əsaslı tikinti işlərinin geniş vüsət alması, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1965-ci il oktyabrın 4-də qəbul etdiyi — "Azərbaycan hökümətinə əsaslı tikintinin planlaşdırılması, əməyi və əmək haqqının maliyyələşdirilməsi sahəsində əlavə hüquqlar verilməsi haqqında" qərarın həyata keçirilməsi ilə də, bağlı olmuşdur. Çünki həmin vaxtdan sonra Bakıda evtikmə kombinatı, Sumqayıt və Mingəçevirdə evtikmə zavodları, Sumqayıtda şüşə zavodu və dəmir-beton hissələri istehsal edən zavodlar tikilib istifadəyə verilmiş və istehsal olunan tikinti texnikaları vaxtında DQMV-ə çatdırılmışdır.

Dövlətimizin DQMV-də apardığı tikinti abadlıq işləri vilayət sakinlərinin mənzilə olan tələbatının ödənilməsində böyük əhəmiyyətə malik oldu. 1969-cu ilin məlumatına görə, Dağlıq Qarabağda hər adama orta hesabla 7-8 kvadrat metr mənzil sahəsi düşürdü ki, bu ümumrespublika göstəricilərindən 2,5 dəfə çox demək idi[85]. Bununla belə, DQMV XDS "tikinti, şəhərsalma və arxitektura sahəsində səlahiyyət"lərindən — şəhərsalma, arxitektura, kompleks tikinti işləri, şəhərlərin və digər yaşayış məntəqələrinin, muxtar vilayət ərazisində yeni tikintinin yerləşdirilməsi, habelə sənaye, nəqliyyat, mədəni məişət və digər obyektlərin genişləndirilməsi, yenidən qurulması işlərinə rəhbərlik etməklə məqsədli şəkildə DQMV ərazisində ermənilər yaşayan kəndlər abadlaşdırılır, milliyyətcə azərbaycanlılar yaşayan kəndlərin heç birində sosial obyekt tikilmirdi. Nəticədə, azərbaycanlı kəndləri boşalıb dağılır və xarabazara çevrilirdi.



Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1959-1967-ci illərdə DQMV də yaşayış məskənlərinin sayı 242-dən 235-ə enmişdir. Vilayətdə azalan həmin 7 kənd azərbaycanlılarm yaşadığı kəndlər idi. Həmin kəndlər ya tamam dağılmış və ya yaxınlıqda yerləşən ermənilər yaşayan kəndlərə birləşdirilmişdir[86]. Ermənilər yaşayan kənd, qəsəbə və sovetliklər mədəni-məişət obyektləri, işıq, istiliklə təmin olunduğu halda, Vilayətdə rəhbərlik edən daşnaklar antitürk - antiAzərbaycan siyasətini davam etdirərək, azərbaycanlı kəndlərinə həmişə biganəlik göstərmiş və burada yaşayan azərbaycanlı gənclərin iş, yaxşı yaşayış dalınca gedərək qədim ata-baba yurdlarını tərk etməsinə, nəticədə, azərbaycanlıların sayının azalmasına gətirib çıxarmışdır. Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın digər bölgələrindən fərqli olaraq, DQMV-nin şəhər, rayon, qəsəbə və kəndlərində iri həcmli kompleks tikinti işləri həyata keçirilmişdir. Lakin bütün bu müvəffəqiyyətlərlə yanaşı, DQMV də ictimai və fərdi mənzil tikintisi heç də əhalinin mənzilə olan tələbatını tam ödəmirdi. Bəzən mənzil tikintisi üçün ayrılan dövlət vəsaiti, Dağlıq Qarabağ rəhbərliyi tərəfindən qəsdən Azərbaycan Respublikasına qarşı süni narazılıqlar yaratmaq məqsədilə, səmərəli istifadə edilmir və ya istifadəsiz qalırdı. Məsələn, 1963-cü ildə mənzil tikintisi kəsirlə yerinə yetirilmişdir. 1968-1969-cu illərdə isə 1 milyon 517 min manat dəyərində tikinti quraşdırma işləri görüləcəyi halda, 177,7 min manatlıq (ümumi vəsaitin 53 faizi dəyərində), kommunal tikinti sahəsində isə planda nəzərdə tutulan 298 min manatlıq əvəzinə 190,9 min manatlıq tikinti quraşdırma işləri görülmüşdür[87]. Bundan əlavə, DQMV-nin ən böyük tikinti təşkilatından biri olan 9 saylı Tikinti Tresti 1968-1969-ci illərdə respublikamızın tikinti təşkilatından hər cür köməklik almasına baxmayaraq, mənzil tikinti işlərini kəsrlə yerinə yetirmiş və əvəzində Azərbaycan hökümətini günahlandırmışdır. 9 saylı Trestin səhlənkarlığı, yarıtmaz təşkilatçılığı və vilayət rəhbərliyinin məkirli siyasəti nəticəsində, 1969-cu ildə Ağdərə rayonunda 527 kvadratmetrlik 16 mənzilli yaşayış binası, Hadrut rayonunda 527 kvadratmetrlik 16 mənzilli, Xocavənd rayonunda 315 kvadratmetrlik 12 mənzilli, Xankəndində 1208

kvadratmetrlik sahəsi olan 32 ailəlik yaşayış evləri, Azərbaycan hökümətinin dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq, istifadəyə verilməmişdir[88]. 60-cı illərdə tikilərək istifadəyə verilmiş mənzillərin çoxu dövrün tələbləri səviyyəsindən aşağı idi. Bunların çoxunda keyfiyyətsizlik, dzayn-arxitektura işinin zövqü oxşamaması, kommunal xidmətin tam səviyyədə olmaması halları var idi. Mənzil tikintisi sahəsində Dağlıq Qarabağ rəhbərliyinin yaratdığı bu və ya buna bənzər süni narazılıqlar Azərbaycan rəhbərliyinin diqqətindən yayınmamış, dəfələrlə müzakirə edilib əməli tədbirlər həyata keçirilməsi üçün istiqamətlər müəyyənləşdirilmişdir. Lakin Vilayət rəhbərliyi "öz məqsədlərinə çatmaq" üçün bu istiqamətdə olan nöqsanları aradan qaldırmaq məqsədilə heç bir əməli tədbirlər görmədi. Bütün bunlara baxmayaraq, 1950-1960-cı illərdə Azərbaycan höküməti hər il ardıcıl olaraq DQMV-nin şəhər, qəsəbə və kəndlərin abadlaşması, küçə və parkların salınması, yenidən qurulması və kommunal xidməti müəssisələrinin təmiri və yenidən qurulması üçün dövlət büdcəsindən böyük məbləğdə vəsait ayırdı. Təkcə, 1959-1965-ci illərdə Dağlıq Qarabağın şəhər və rayon mərkəzlərində hamam, kanalizasiya, yaşayış evlərinin istilik, işıq və başqa kommunal xidmətləri üçün 22,6 milyon manat vəsait ayırmışdır ki, bu da 1955-1958-ci illərə müqayisədə 2,2 dəfə çox idi[89]. 1960-ci ildə dövlətimiz tərəfindən ayrılan vəsait hesabına 460 hektar sahə, küçə və meydan yaşıllaşdırılmış, 7,2 hektar sahədə park və bulvarlar salınmış, küçələrin kənarına 10 mindən çox ağac əkilmiş və 263,8 hektar sahədə meşə zolağı salınmışdır[90].

DQMV-də şəhər, qəsəbə və kəndlərin abadlaşdırılması, kommunal məişət xidmətinin genişlənməsi də əhalinin həyat şəraitinin yaxşılaşmasına çox kömək edirdi. 1970-ci ildə DQMV-də şəhər ümumi ictimai mənzil fondunun 93 faizi su kəmərləri, 89 faizi kanalizasiya 93 faizi mərkəzi isitmə və buxardan istifadə sistemi ilə təchiz edilmişdi. Bəhs etdiyimiz dövrdə, ümumrespublika üzrə bu göstəricilər: su kəmərləri 81 faiz, kanalizasiya 79 faiz, mərkəzi isitmə və buxardan istifadə sistemi 54 faizə çatmışdır[91]. Faktlardan göründüyü kimi, DQMV-də



kommunal-məişət xidməti sahəsində olan göstəricilər ümumrespublika səviyyəsindən yüksəkdə dayanmışdır.

1950-1960-cı illərdə DQMV-də qəsəbələrin sayı sürətlə artmışdı. Belə ki, 1959-cu ildə Dağlıq Qarabağda qəsəbələrin sayı 2-yə catırdısa, 1970-ci ildə artaraq 7-yə qalxmışdır[92]. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, yeni yaradılan və tikinti abadlıq işləri aparılan həmin qəsəbələr — Əskəran, Madagiz, Leninavan, Qırmızı-Bazar, Xocavənd — ermənilərin kompakt şəkildə cəmləşib yaşadıqları kəndlər olmuşdur[93].

1950-1960-cı illərdə DQMV-də Xankəndi şəhərinin siması tamamilə dəyişmişdir. Vaxtilə 40-50 evdən ibarət Xankəndi sürətlə böyüyərək 32 min əhalinin yaşadığı böyük şəhərlərdən birinə çevrilmişdir. Son dövrlər, burada yaraşıqlı və uca inzibati idarə binaları, kinoteatrlar, məktəblər, mehmanxanalar, mədəniyyət evləri, kinoteatrlar, məktəblər, mehmanxanalar, mədəniyyət evləri, teatr binası, yaşıl meydançalı stadion, elektrotexnika məmulatları zavodu, Qarabağ İpək kombinatının toxuculuq fabriki, ayaqqabı fabriki, yağ zavodu, çörək zavodu, yeni yaşayış binaları və başqa obyektlər tikilərək əhalinin istifadəsinə verilmişdir. Dövlətimizin dərin qayğısı nəticəsində Xankəndi şəhəri böyük fəhlə dəstəsi olan sənaye şəhərinə çevrilmişdir. Burada ipək parçalar, lampalar, ayaqqabı, mebel, xalça, dəmir beton məmulatları, kərpic, asfalt, çörək, pendir, yağ, şərab, konyak, spirt və başqa müxtəlif çeşidli məhsullar istehsal olunurdu. Xankəndi, təkcə sənaye və inzibati mərkəz deyildi. Burada Pedaqoji İnstitut, Müəllimləri Təkmilləşdirmə İnstitutu, texnikumlar, musiqi, tibb, kənd təsərrüfatı, texniki-peşə məktəbləri, dram teatrı, Vilayət mahnı və rəqs ansanblı, ölkəşünaslıq muzeyi, kitabxanalar, erməni dilində "Sovetakan Karabaq" qəzetinin mətbəəsi fəaliyyət göstərirdi. Xankəndinin bütün küçə və meydanları müxtəlif növ ağaclarla yaşıllığa bürünmüşdür. Təsadüfi deyildir ki, Xankəndini "oksigen fabriki" adlandırırdılar. Şəhər özünəməxsus iqlim şəraiti, təzyiq və tempratur arasında kəskin fərqlərin olması ilə seçilirdi[94].

Azərbaycanın qədim yaşayış məskəni, Oğuz-Türk diyarımız, gözəl Qarabağımızın gözü sayılan Şuşa şəhərində də 1950-1960-cı illərdə tikinti və abadlıq sahəsində müəyyən işlər görülmüşdür. 60-cı illərdə Şuşa şəhərində aparılan tikinti-abadlıq işlərinə 8 milyon 740 min manat vəsait sərf edilmişdir. Lakin çox təssüflə qeyd etməliyik ki, Şuşada aparılan yenidənqurma, tikinti-abadlıq işləri qədim tarixi abidələrin dağıdılması üzərində qurulmuşdur. Hər bir daşında, qayasında türkçülük duyulan, respublika səviyyəsində qeydə alınan 198 qədim tarixi abidəyə, 549 qədim binaya, 16 şərq hamamına, sutunlu, tağlı, hər birinin uzunluğu 1203 metr olan daş döşənən küçələrə, 18 məhəllə bulağına, 15 məscidə, 6 karvansaraya, 3 türbəyə, 2 mədrəsəyə və başqa sənət əsərinə malik ata-babalarımızın yadigarı olan Şuşamız "yenidənqurma", "abadlaşdırma" adı altında erməni vandalları tərəfindən dağıdıldı[95]. 30-cu illərdə bəylərə, varlılara, sahibkarlara, din adamlarına qarşı mübarizə adı altmda onların əmlakı, dəyirmanlar, hamamlar, dükanlar, fabriklər, evlər, məscidlər ermənilər tərəfindən dağıdılmağa başlamış, salamat qalanlardan isə anbar, emalatxana, kinoteatr kimi istifadə edilmişdir. Müharibə dövründə nəzarətsizlikdən istifadə edən Dağlıq Qarabağ rəhbərləri qədim evlərin memarlıq abidələrini, pəncərələrini, qapıları, döşəməni dağıdıb yanacaq kimi istifadə edirlər. Həmin vaxt İbrahim xanın "Xəzinə qayası"nda inşa etdirdiyi saray, hərəmxana, tövlə, hamam, qoşun sığıncağı üçün kompleks, binalar tamamilə dağıdıldı. 50-60-cı illərdə Şuşa şəhərinin bərpa edilməsi baş plana salındı. Erməni vandalları bu "Plan"dan da məharətlə istifadə etdilər. 1960-cı ildə Şuşa şəhərində kiçik bir yeməkxana tikmək üçün bir neçə qədim yaşayış evi, gözəl üslubda inşa edilmiş yaraşıqlı dükanlar və emalatxanalar dağıdıldı[96]. 1965-ci ildə isə Şuşanın Lenin küçəsində dördbloklu, dördmərtəbəli bina inşa etmək üçün 2 və 3 mərtəbəli qədimdən tikilmiş 7 böyük sarayı, 2 kommunal təsərrüfat binasını, 3 şəxsi yaşayış evini, bir qədim hamamı, 1 karvansara binasını, onlarla mağazanı, emalatxananı, böyük su ehtiyatına malik 11 qədim su quyusunu, yüzlərlə meyvə verən bar ağaclarını, sutunlu-tağlı və yeri daşla örtülü küçələri dağıdılmışdı.[97]



ayaqqabı, sabun, metal çarpayı, mebel, metal və şüşə büllur qablar istehlakında isə artma halı müşahidə edilmişdir.

1950-1960-cı illərdə DQMV-də dövlət və kooperativ ticarət müəssisələrinin pərakəndə mal dövriyyəsindəki həcmi nəzərdən keçirilərkən məlum olur ki, 1950-ci ildən 1970-ci ilədək kopperativ müəssisələr birinciliyi ələ alınmışdır. Dövlət ticarət müəssisələrinin illk mal dövriyyəsində payı 1940-cı ildə 28,8 faiz təşkil etmişdirsə, 1950-ci ildə 30,5 faizə, 1960-cı ildə 36,7 faizə, 1970-ci ildə isə 1,7 dəfə artaraq 50,5 faizə qalxmışdır. Manatla ifadə edildikdə isə 1940-ci ildə 1,7 milyon manatlıq mal dövriyyəsi olmuşdursa, 1970-ci ildə bu göstərici 26,9 milyon manata çatmışdır[65]. 1940-cı ildən 1970-ci ilədək olan dövrdə Dağlıq Qarabağda dövlət və kooperativ ticarət müəssisələrinin mal dövriyyəsinin dinamik inkişafını aşağıdakı cədvəldən də izləmək olar: (milyon manatla)[66].

| İLLƏR | DQMV-i üzrə pərakəndə mal dövriyyəsi (mln..man.) | O cümlədən, | |
|---|---|---|---|
| | | Dövlət ticarəti | Kooperativ ticarət |
| 1940 | 5,9 | 1,7 | 4,2 |
| 1950 | 12,8 | 3,9 | 8,9 |
| 1960 | 23,7 | 8,7 | 15,0 |
| 1965 | 33,5 | 15,1 | 18,4 |
| 1970 | 53,7 | 26,9 | 26,4 |

1950-1960-cı illərdə DQMV fəhlə və qulluqçuların, həmçinin, onların ailələrinin ərzaq məhsulları ilə təminatı xeyli yaxşılaşdı. Aparılan tədqiqatlardan məlum olur ki, DQMV fəhlə və qulluqçuların ərzaq məhsulları ilə təchizatı ümumrespublika üzrə olan göstəricilərdən təxminən 10-15 faiz, Naxçıvan Muxtar Respublikası ilə müqayisədə isə 17 faiz yüksək olmuşdur. Lakin Dağlıq Qarabağda hələ də bəzi məhsulların (şəkər, yumurta, balıq, çay və digər ərzaq

növlərinin) istehlakı kifayət qədər deyildi. Bəzi ərzaq məhsullarının kefiyyəti isə normadan aşağı idi.

Azərbaycan hökuməti DQMV-də fəhlə və qulluqçuların əmək şəraitinin yaxşılaşdırılmasına böyük qayğı göstərirdi. Dağlıq Qarabağ təsərrüfatlarının bütün sahələri yeni texnika ilə təchiz edilir, mexanikləşdirmənin və elmin naliyyətlərinin istehsalata tətbiqi, ağır, çox zəhmət tələb edən işlərin avtomatlaşdırılmasından qismən istifadə burada işləyən işçilərin əmək şəraitinin yaxşılaşdırılmasına səbəb olmuşdur. SSRİ Ali Sovetinin 1956-cı il 26 mart tarixli Fərmanı ilə ana-qadınlar əlavə 112 günlük (56 gün doğumdan qabaq və 56 gün doğumdan sonra) pul ödənilən məzuniyyət alırdılar[67]. 1950-1960-cı illərdə DQMV-də çoxuşaqlı anaların sayının sürətlə artması prosesi baş vermişdir ki, bu da təsadüfü hadisə olmayıb dövlətimizin bölgəyə göstərdiyi dərin qayğının nəticəsi idi. Təkcə, 1968-ci illə müqayisədə 1970-ci ildə Dağlıq Qarabağda çoxuşaqlı anaların sayı 2,7 dəfə artaraq 2253 nəfərdən 6189 nəfərə çatmışdır. 3 və 4 uşaqlı anaların sayı 435-dən 1734-ə, 6 uşaqlı anaların sayı 215-dən 894,7-yə və daha çox çoxuşaqlı anaların sayı 218-dən 752-yə qalxmışdır[68]. DQMV ümumi göstəricilər rayonları üzrə olan göstəricilərdə Şuşa rayonu 11 faiz, Hadrut rayonu 12 faiz, Xocavənd rayonu 23 faiz, Xankəndi rayonu 26 faiz, Ağdərə rayonu 28 faiz təşkil etmişdi[69]. Azərbaycan hökumətinin DQMV-dəki çoxuşaqlı analara göstərdiyi qayğını çox böyük həcmdə maddi yardım ayırmasında görmək olar. Təkcə, 1968-ci ildə Dağlıq Qarabağda çoxuşaqlı analara bir ayda 423000 manat müavinat verilmişdir[70].

Azərbaycan hökuməti Dağlıq Qarabağdakı yeniyetmə və gənclərin iş şəraitini və mühavizəsini yaxşılaşdırmaq üçün mühüm tədbirlər görmüşdü. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1955-ci il 15 avqust tarixli Fərmanına uyğun olaraq Azərbaycanın hər yerində, o cümlədən, DQMV-də 14-16 yaşlı şagirdlər üçün istehsalatda 4 saatlıq iş günü tətbiq edildi. Həmçinin, 1956-cı ildən 16-18 yaşlı fəhlə və qulluqçular üçün 6 saatlıq iş günü müəyyən olundu. Bundan əlavə, çətin şəraitdə işləyən fəhlələr üçün əlavə məzuniyyət və qısaldılmış iş günü tətbiq



DQMV-nin uca dağlarında yerləşən gözəl yaylaqlarla Kür-Araz ovalıqlarında yerləşən geniş qışlaqları arasında rabitənin yaradılmasında istifadə olunmuşdu.

DQMV yaxşı yol şəbəkəsinə malikdir. Ərazidəki şosse və qrunt yolları Dağlıq Qarabağın şimal və orta hissəsini Yevlaxla əlaqələndirir. Bölgənin yüklərinin çox hissəsi Xankəndi — Ağdam — Bərdə, Ağdərə — Tərtər — Bərdə yolları ilə Yevlağa daşınır. Cənub hissədən Bakı — Cülfa dəmir yolu keçir. Burada əsas şosse yolu Xocavənd — Fizuli — Cəbrayıl yoludur. Yevlax, Xocəvənd, Füzuli və eləcə də, Naxçıvan MSSR-ə gedən yollar (Şuşa — Laçın — Gorus yolu) Dağlıq Qarabağın mərkəzi Xankəndindən keçir. Bəhs etdiyimiz illərdə, Hadrud Güzdək yolu tamamlandı. Eyni zamanda, Ağdərənin mərkəzindən keçməklə ümumittifaq əhəmiyyətli Bərdə — Tərtər — Ağdərə — İstisu yolu istifadəyə verilmişdi. Təkcə, 1965-1970-ci illərdə Dağlıq Qarabağ ərazisində 229,5 klometr uzunluğunda yol çəkildi. Həmin vaxt DQMV-də əsas yolların uzunluğu 712 km-dən, 941,5 km çatdı. Ümumiyyətlə, 1950-1960-cı illərdə DQMV-də yolların çəkilişi 2 dəfə artdı. Ümumrespublika üzrə bu göstərici 1,9 dəfəyə bərabər idi.

DQMV-də yük dövriyyəsi sürətlə inkişaf edirdi. Belə ki, Dağlıq Qarabağda yük dövriyyəsi 1953-cü ildəki 2464,2 min ton klometr müqabilində, 1970-ci ildə 12,2 dəfə artaraq 30025 min ton km olmuşdu[103]. Müvafiq illərdə ümumrespublika üzrə bu göstərici 7,1 dəfə artaraq 522 milyon ton km-dən 3709 milyon tona qalxmışdır. DQMV-də sərnişin daşınması 1953-cü ildəki 70,8 min nəfərdən 1970-ci ildə 5776 min nəfərə qədərə artmışdır. 1950-1970-ci illərdə ümumrespublika üzrə bu göstərici 11 milyon nəfərdən 3345 milyon nəfərə çatmışdır[104]. Rəqəmlərdən göründüyü kimi, sərnişin daşınması ümumrespublika üzrə 34 dəfə artmışdırsa, DQMV-də 82,5 dəfə artım müşahidə edilmişdir. 1953-cü ildən 1970-ci ilədək DQMV-də yük dövriyyəsi və sərnişin daşınmasının dinamik inkişafını aşağıdakı cədvəldən də görmək olar[105].

| İllər | Yük | Yük | Sərnişin | Sərnişin |
|---|---|---|---|---|

| | dövriyyəsi. (Min ton klometr) | daşınması (Min tonla) | dövriyyəsi. (Min sərnişin, km) | daşınması (min nəfər) |
|---|---|---|---|---|
| 1953 | 2464,2 | 48,1 | 2598,5 | 70,8 |
| 1958 | 7075,8 | 186,7 | 15610,1 | 937,4 |
| 1960 | 14008,0 | 368,7 | 22448,0 | 2305,6 |
| 1965 | 21868,9 | 521,8 | 41517,8 | 3436,7 |
| 1870 | 30025 | 719 | 76173 | 5776 |

Əvvəlki illərdə olduğu kimi, 1950-1960-cı illərdə də Azərbaycan höküməti DQMV əhalinin avtomabilə olan tələbatını ödəyirdi. Avtomabillərin əsaslı təmiri və *yeni avtomabillərin* Dağlıq Qarabağa göndərilməsi işi ilbəil artırılırdı. Məsələn, 1940-cı ildə DQMV-də 27 yük avtomabili var idisə, 1950-ci ildə onların sayı 154-ə, 1960-cı ildə 381-ə, 1965-ci ildə 762-yə, 1970-ci ildə isə (1940-cı illə müqayisədə) 28 dəfə artaraq 757-yə çatmışdır. Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycan dövlətinin ayırdığı xüsusi vəsait hesabına Dağlıq Qarabağda traktorların sayı 1940-cı illə müqayisədə 1970-ci ildə 199-dan 1269-a,taxılyığan kombayınların sayı 33-dən 239-a çatdı.

*1950-1960*-cı illərdə DQMV-də *yaşayan əhalinin maddi rifah halının* yaxşılaşması və gəlirlərinin ilbəil artması şəxsi avtomobil, motosiklet və motorelilərin sayının artmasına səbəb oldu. Təkcə, 1964-cü ildə Dağlıq Qarabağ sakinləri 5 avtomobil 102 motosiklet və motorella almışdı. Sonrakı illərdə bu artım davam etmişdi. Belə ki, 1965-ci ildə yerli əhali 11 avtomobil, 128 motorella və motosikl, 1966-cı ildə 17 avtomobil, 142 motorella və motosikl 1967-ci ildə isə 12 avtomobil, 165 motorella və motosikl almışdılar[108]. Aparılan tədqiqatlardan məlum olur ki, 1964-1967-ci illərdə Dağlıq Qarabağ sakinləri tərəfindən alınan avtomobillərin 539-dan, 358-i kənd əhalisinin üzərinə düşmüşdür. Bu faktın özü isə kənd əhalisinin maddi rifah halının şəhərdə yaşayan əhaliyə nisbətən üstün



olmasını göstərir. DQMV-də hava nəqliyyatından əkinlərin becərilməsində, kənd təsərrüfatı ziyanvericilərinə qarşı mübarizə işində istifadə edildi.

Çox təssüflə qeyd etməliyik ki, DQMV XDS-nin nümayəndələri "DQMV haqqında Qanun"un II fəslinin 23-cü maddəsinini əldə rəhbər tutaraq vilayət daxilindəki bütün yolların planını özləri tərtib . və təsdiq etmiş və öz "məharətlərini" bir daha yol çəkilişində də göstərmişlər[109]. Bölgənin azərbaycanlılar yaşayan kəndlərinə yol çəkmək tamamilə unudulmuşdu. Həmin kəndlərdə yenə də, keçmişdə olduğu kimi, minik və qoşqu kimi atlardan, öküzlərdən, kəllərdən, xışdan, furqonlardan, arabalardan istifadə edilirdi. Azərbaycanlılar yaşayan kəndlərin heç birində minik avtomobili, motosiklet, matorella olması faktı qeydə alınmamışdır. Azərbaycanlının onu almağa imkanı olsaydı belə yollar yox səviyyəsində olduğundan avtomabil almaq onlar üçün maraqlı deyildi.

1950-1960-cı illərdə Dağlıq Qarabağda yaşayan insanların məişətinə paltaryuyan maşınlar, soyuducular, tozsoranlar, tikiş maşınları, elektrik *çaynikləri*, radiopriyomnik, televizor, pionino, elektrik ütüləri geniş daxil olunmağa başladı. Məişətdə istifadə olunan həmin sənaye məhsulları, nəinki şəhər və qəsəbələrdə, hətta kənddə əhalinin daimi istifadə etdiyi gündəlik tələbat mallırı sırasına daxil olmuşdu. Bəhs edilən illərdə, sənaye və kənd təsərrüfatı istehsalının, eləcə də əhalinin real gəlirinin artmasına müvafiq olaraq, DQMV-də əhalinin məişət elektrik avadanlıqları almasına şərait yaratmışdır. Təkcə 4 il ərzində pərakəndə ticarət müəssisələrində satılmış gündəlik məişət avadanlıqların sayını nəzərdən keçirməklə bir daha yuxarıda deyilənlərin şahidi oluruq. Məsələn, təkcə 1964-1967-ci illərdə DQMV ticarət obyektlərində 3242 tikiş maşını (bundan 2727-si kənd əhalisi tərəfindən alınmışdır), 2097 paltaryuyan maşın (bundan 1442-si kənd əhalisinə), 2510 soyuducu (bundan 1629-u kənd əhalisinə), 192 tozsoran maşın (bundan 4 kənd əhalisinə), 72 döşəmə silən, 7908 radiopriyomnik (bundan 5673-ü kənd əhalisinə), 3627 televizor (bundan 1683-ü

kənd əhalisinə), 6 milyon 360 min manatlıq mebel (bundan 2 milyonu 228 mini kənd əhalisinə) satılmışdı[110].

1950-1960-cı illərdə Azərbaycanda poçt rabitəsi sürətlə inkişaf edirdi. 1960-cı illərin əvvəllərində bütün rabitə agentlikləri rabitə şöbələrinə çevrildi. Bakıda rabitə kontoru əvəzinə poçtamt, DQMV-də isə rabitə qovşağı yaradıldı. Azərbaycan hökuməti başqa sahələrdə olduğu kimi Dağlıq Qarabağda rabitə müəssisələrinin — poçt, telefon teleqraf, radiolaşdırma və televizyanın inkişafı üçün 1961-1965-ci illərdə 621 min manat, 1966-1970-ci illərdə isə 146 min manat vəsait ayırdı[111]. Bununla belə, bölgəyə ixtisaslı mütəxəssislər və avadanlıqlar göndərildi. Ayrılmış vəsait hesabına DQMV-də 1962-1970-ci illər ərzində 42 yeni poçt, teleqraf və telefon müəssisəsi açıldı. Bununla da, 1962-ci ildə Dağlıq Qarabağda 56 poçt, teleqraf və telefon stansiyası var idisə 1970-ci ildə onların sayı 98-ə çatdı. 1970-ci ildə ümumrespublika üzrə bu göstərici 1555-ə çatırdı[112]. 1960-cı illərin sonlarında DQMV-də şəhər telefon stansiyalarının sayı 9-a çatırdı. 1970-ci ildə ümumrespublika üzrə şəhər telefonlarının sayı 132 ədəd idi. 1950-ci ildən 1970-ci ilədək olan dövrdə Azərbaycanda ATS-lərin sayı 6-dan 84-dək çoxalmışdı. Müvafiq illərdə, DQMV-də ATS-lərin sayı 1-dən 3-dək artmışdı[113]. 1970-ci ilədək ermənilərin kompakt şəkildə yaşadığı bütün kəndlər, sovetliklər və kolxozlar tamam telefonlaşdırıldı. Şuşa rayonunda bir neçə kənd, Xankəndinə bitişik bir iki kənd müstəsna olmaqla Azərbaycanlılar yaşayan kəndlər yenə də "yaddan çıxdı" və heç bir rabitə xidməti ilə təmin olunmadı. Dövlətimizin bölgəyə göstərdiyi dərin qayğı nəticəsində Dağlıq Qarabağda yaşayan əhaliyə poçt, teleqraf və telefon xidməti daha da yaxşılaşdı. Rabitə xidmətində çalışan fəhlə və qulluqçuların sayı 1965-ci ildəki 619 qarşı, 1970-ci ildə 861 nəfərə çatdı. Müvafiq illərdə Dağlıq Qarabağın rabitə xidmətində çalışan qadınların sayı 53 faizdən 63 faizə qalxdı[114]. Rabitə xidmətində çalışan fəhlə və qulluqçuların aylıq əmək haqqında da xeyli artım müşahidə edilmişdir. Belə ki, 1965-ci ildə Dağlıq Qarabağ rabitə işçilərinin əmək haqqı 64 manat idisə, 1970-ci ildə artaraq 81 manata çatmışdır[115].



1962-ci ildən 1970-ci ilədək olan dövrdə DQMV-də ATS-lərdə daxil olmaqla telefon nömrələrinin sayı 2100-dən 4022-yə, telefon aparatlarının sayı 3599-dan 8286-ya, göndərilən məktubların sayı 1 milyon 156 mindən 5 milyon 100 minə, göndərilən bağlamaların sayı 26 min ədəddən 70 min ədədə, alınan qəzet və jurnalların sayı 3 milyon 128 mindən 26 milyon 670 minə, şəhərlər arası telefon danışıqlarının sayı 123 mindən 401 minə, evə göndərilən təqaüdlər 267 mindən 476 minə çatmışdır[116]. Aparılan tədqiqatlardan məlum olur ki, DQMV-də əhalinin rabitə xidməti ilə təminatı ümumrespublika şəxsiyyətindən 30-40 faiz artıq olmuşdur[117].

1950-1960-cı illərdə Azərbaycanda radiorabitə vasitələri böyük sürətlə inkişaf etmişdir. Azərbaycan hökümətinin ayırdığı xüsusi vəsait hesabına 1966-cı ildə Bakı-Şuşa, 1969-cu ildə Şuşa-Naxçıvan radiorele xətti istifadəyə verildi[118]. Bu hadisə DQMV-də radiorabitənin və televiziya verilişlərinin inkişafına daha da təkan verdi. 60-cı illərə qədər DQMV-də təkcə Xankəndi şəhərində yerli radio verilişləri redaksiyası fəaliyyət göstərirdi. Bu vaxt DQMV üzrə 19242 radio qəbuledici nöqtə var idi (bundan 12246-sı kəndin payına düşürdü). 1962-ci ildə Hadrud rayonunda, 1965-ci ildə Şuşa şəhərində, 1966-cı ildə isə Ağdərə və Xocavənd rayonlarında yerli radio verilişləri redaksiyası yaradıldı[119]. Ərazinin radiolaşması ilə əlaqədər 1970-ci ildə radioqəbuledici nöqtələrin sayı artaraq 24261-ə (bundan 15143-ü kənddə fəaliyyət göstərirdi) çatdı. 1970-ci ildə Azərbaycanda cəmi 1 milyon 701 min radioqəbuledici nöqtə var idi[120].

1956-cı ildən Bakıda Azərbaycan televiziya mərkəzi öz fəaliyyətinə başladı. 1970-ci ildə isə radiorele xətii vasitəsilə Bakı televiziya stansiyası ilk dəfə Moskvadan rəngli televiziya proqramlarını göstərmək imkanı əldə etdi. Artıq 60-cı illərdən bütün DQMV-in ərazisində televiziya vasitələri yayımlanmağa başlamışdır. Aparılan hesablamalara görə, təkcə 1964-1967-ci illərdə Dağlıq Qarabağda yaşayan əhali DQMV ticarət mərkəzlərindən 7908 televizor (bundan 5673-ü kənddən) almışlar. 1965-ci ildə bütövlükdə DQMV-də 10 milyon radioqəbuledici, 16 min televizor var idi. 1970-ci ildə onların sayı 2 dəfə

artmışdır[121]. Lakin bütün bunlara baxmayaraq, DQMV-də rabitə şəbəkəsinin inkişaf səviyyəsi və sürəti (xüsusi olaraq, azərbaycanlılar yaşayan kənd yerlərində) əhalinin durmadan artan tələbatından hələ də geridə qalırdı.

Azərbaycan hökümətі DQMV də əhalinin sağlamlığının qorunmasını həmişə diqqət mərkəzində saxlamışdır. DQMV-də həkimlərin və tibb işçilərinin sayını artırmaq, müalicə-proflaktika müəssisələrinin şəbəkəsini genişləndirmək, tibb müəssisələrinin dərman pereparatları və ləvazimatlarla təmin etmək əhalinin sağlamlığı mühavizəsi üçün sanatoriya, kurort müalicə və istirahət evlərinin sayını artırmaq, ümumiyyətlə vilayət əhalisinə tibbi xidməti ilbəil yaxşılaşdırmaq məqsədilə Azərbaycan hökümətі mühüm tədbirlər həyata keçirdi. İlk növbədə, bu sahəyə böyük məbləğdə vəsait ayırdı və həmin vəsaitin miqdarını ildən ilə artırdı. Belə ki, Azərbaycan hökuməti Dağlıq Qarabağda əhaliyə tibb xidmət və sağlamlığın mühavizəsi üçün 1950-ci ildə 1 milyon 287min manat vəsait ayırmışdırsa, 1960-cı ildə 2 milyon 385 min manata, 1965-ci ildə 3 milyon 620 min manata, 1967-ci ildə 3 milyon 988 min manata, 1970-ci ildə isə artırılaraq 4 milyon 78 manata çatdırılmışdır[122]. Ümumiyyətlə, 1950-ci ildən 1970-ci ildək Azərbaycan hökümətі DQMV-də səhiyyənin inkişafına 42 milyon 351 min manat vəsait ayrmışdır[123].

Bundan əlavə, Azərbaycan hökümətі 1966-1970-ci illərdə Dağlıq Qarabağın kolxozlarına, mədəni-məişət obyektləri, o cümlədən, xəstəxanalar tikmək üçün 991 min manat uzunmüddətli kredit verdi[124]. Bəhs etdiyimiz dövrdə, DQMV-də səhiyyə işlərinə ayrılan vəsait Naxçıvan MSSR-na ayrılan vəsaitdən 2,7 dəfə çox idi. DQMV-də böyüməkdə olan nəslin tərbiyəsi və səhətinin qorunması üçün dövlətimizin sərf etdiyi vəsait adambaşına 1965-ci ildəki 49,3 manatdan, 1969-cu ildən 54,9 manata çatmışdı. DQMV-də əmək qabiliyyətini itirmiş valideyinlərin hər bir ailə üzvünə 1965-ci ildə 27 manat pul ayrılırdısa, 1970-ci ildə 40,6 manata qalxmışdır. Müvafiq illərdə, təkcə əhalinin sağlamlığının qorunması və istirahət xərcləri üçün ayrılan vəsait 40,2 manatdan 44,3 manata yüksəlmişdir.



1950-ci ilin yanvarında Dağlıq Qarabağ Vilayət Partiya komitəsində mövcud vəziyyət təhlil edildi və həmin ilin fevralında DQMV XDS-nin, Vilayət Partiya Komitəsinin, Şuşa, Ağdərə, Xocavənd, Xankəndi, Hadrud partiya komitələrinin birgə iclası keçirildi. Iclasda DQMV-də Səhiyyə idarəsinin şəbəkəsinin inkişafı, tikiləcək səhiyyə ocaqlarının Vilayət ərzində yerləşdiriməsi, yolxucu xəstəliklərə qarşı mübarizə, müalicə proflaktika idarələrinə dərman və tibbi məmulatlarının paylanması, qadınların və uşaqların mühafizəsi sahəsində vəzifələr, kurortların mühafizəsi, bərpası, genişləndirilməsi və başqa məsələlər müzakirə edildi. Azərbaycan hökümətinin ayırdığı vəsaitin istiqamətləri müəyyənləşdirildi.

Azərbaycan hökümətinin köməyi nəticəsində, 1950-1960-ci illərdə DQMV-də yeni səhiyyə müəssisələri, müalicə proflaktika idarələri, dispanserlər, sanitariya-maarif evləri, sanitariya-epidamoloci stansiya, qanköçürmə stansiyası, uşaq xəstəxanaları, doğum evləri, polikninika və amblotoriya tikilib istifadəyə verilmişdir. 1950-ci ildən 1970-ci ildən DQMV ərazisində 988 çarpayılıq 22 hər cür avadanlıqlarla təchiz olunmuş xəstəxana tikilib istifadəyə verildi. Bəhs edilən illərdə, Dağlıq Qarabağda xəstəxanaların sayı 16-dan 38-ə, qadın və uşaq məsləhətxanalarının sayı 3-dən 11-ə, “feldşer-mama” məntəqələrinin sayı 68-dən 120-yə, sanitar-epidamoloci stansiyaların sayı 1-dən 5-ə çatdı[125]. Ümumiyyətlə bəhs edilən illərdə, DQMV-də səhiyyə müəssisələrinin sayı 88-dən 174-ə qalxdı. 1940-1970-ci illərdə ümumrespublika üzrə xəstəxanaların sayı 222-dən 779-a onlardakı çarpayıların sayı 12,6 mindən 48,8 minə, ambulator-poliknininka müəssisələrinin və qadın məsləhətxanalarının sayı 1097-dən 1388-ə qədər artmışdı[126].

1970-ci ildə DQMV –də fəaliyyət göstərən 1575 yerlik 38 xəstəxananın, 17-si (1160 yerlik) şəhərin, 21-i (415 yerlik) kəndin payına dürüdü. Dağlıq Qarabağın mərkəzi xəstəxanalarında 255 yerlik (bundan 152-si kənddə, 103 şəhərdə) uşaqlı və hamilə qadınlar üçün yer ayrılmışdı. 1970-ci ildə Dağlıq Qarabağda fəaliyyət göstərən qadın və uşaq məsləhətxanalarından 11-də şəhər,

rayon mərkəzi və qəsəbələrin payına düşürdü. 1950-ci ildə 6 qadın və uşaq məsləhətxanalarından 3-ü şəhərin 3-ü kəndin üzərinə düşürdüsə, kənddə fəaliyyət göstərənlərin sayı 1960-cı ildə azalaraq 2-yə, 1962-ci ildə 1-ə və 1963-cü ildə isə tamamilə ləğv edildi[127]. Ərazidə fəaliyyətdə olan bütün qadın və uşaq məsləhətxana və ambulatoriyalar şəhərdə, rayon mərkəzlərində və qəsəbələrdə yerləşdirilmişdi.

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1950-1960-cı illərdə DQMV-də yaradılmış 22 böyük həcmli xəstəxanaların yerləşdirilməsində DQMV XDS ikili mövqe tutmuşdur: Xankəndi rayonunda 1950-ci ildə 10 yerlik 1 xəstəxana var idisə, 1970-ci ildə artıq xəstəxanaların sayı 5-ə, yerlərin sayı isə 165-ə çatdı. Ağdərə rayonunda 5-dən (82 yerlik) 11-ə (303 yerlik), Xocavənd rayonunda 2-dən (45 yerlik) 5-ə (240 yerlik), Hadrud rayonunda 3-dən (65 yerlik), 7-yə (180 yerlik), Azərbaycanlılarm daha çox yaşadığı Şuşa rayonunda isə 3-dən (110 yerlik), 4-ə (170 yerlik) qalxmışdı. 1950-1960-cı illərdə yeni tikilmiş 22 xəstəxananın yalnız 1-i Şuşa rayonunun payına düşmüşdü. Yerdə qalan 21 xəstəxananın hamısı ermənilərin daha çox cəmləşdiyi ərazilərdə yerləşmişdir[128]. Azərbaycanlılar yaşayan kəndlərin demək olar ki, heç birində, nəinki, xəstəxana heç amölator mərkəz belə yox idi.

1950-1960-cı illərdə DQMV-də, xəstəxanaların sayında artım olduğu kimi, ali və orta ixtisas təhsilli mütəxəssislərində sayında xeyli artım müşahidə edilmişdir. 1950-ci ildə Dağlıq Qarabağda 86 həkim var idisə, 1970-ci ildə onların sayı 240 nəfərə çatmışdır. Həmin illərdə orta tibb işçilərinin sayı 621 nəfərdən 1502 nəfərə qədər qalxmışdır. Tibb işçiləri və həkimlərin 40 faizi kənddə, 60 faizi şəhərdə işləyirdi[129]. Azərbaycan hökuməti, Dağlıq Qarabağa mütəxəssislər göndərməklə yanaşı, Xankəndində 1932-ci ildən fəaliyyətə başlayan tibb məktəbinin inkişafına şəsait yaratmış və buranı bitirən orta ixtisas təhsilli tibb işçiləri Dağlıq Qarabağın səhiyyə ocaqlarında işləyirdilər. DQMV-nin səhiyyə müəssisələrində işləyən ali və orta, natamam orta təhsilli həkim, tibb işçisi, xəstə baxıcılarının (sanitarların) sayının ilbəil artması ilə yanaşı onların aylıq



qazancında da irəliləmələr müşahidə edilmişdir. Belə ki, 1965-ci ildə səhiyyə işçilərinin əmək haqqı 74 manat idisə, 1970-ci ildə 79 manata qalxmışdır[130]. Aparılan hesablamalara görə, DQMV-nin xalq təsərrüfatında çalışan ümumi fəhlə və qulluqçuların içərisində səhiyyə işçiləri 29,2 faiz təşkil edirdi[131]. Dövlətimiz Dağlıq Qarabağın səhiyyə müəssisələrini vaxtaşırı olaraq ali təhsilli mütəxəssislərlə təmin edirdi. Belə ki, 1968-ci il yanvar məlumatına görə, DQMV-nin xəstəxanalarında 20 cərrah, 58 can həkimi, 15 qadın həkimi, 30 uşaq həkimi, 5 göz həkimi, 18 yolxucu xəstəliklərə qarşı mübarizə həkimi, 3 burun-qulaq-boğaz həkimi, 3 əsəb xəstəliklərinə qarşı mübarizə həkimi, 5 dəri zöhrəvi xəstəlikləri həkimi, 6 rentgen həkimi, 11 ağız boşluğu, çənə və ona yaxın orqanların həkimi, 14 diş həkimi var idi[132]. Aparılan hesablamalara görə, 1923-cü ildə hər 10000 nəfərə 1,1 həkim düşürdüsə, 1940-cı ildə bu göstərici 5,1-ə, 1965-ci ildə 14,9-a, 1970-ci ildə isə 15,8-ə çatmışdır. Xəstəxanalarda hər 10000 nəfərə düşən çarpayıların sayı isə 1923-cü ildə 7,6, 1940-cı ildə 23,4, 1965-ci ildə 94,7, 1970-ci ildə isə artaraq 103,6-ya çatmışdır[133].

İstər əhalinin həkimlərlə təminatı səviyyəsini, istərsədə çarpayıların hər 10 min nəfərə düşmə səviyyəsini tədqiq etsək görərik ki, DQMV-dəki göstəricilər istər ümumrespublika üzrə, istərsə də Naxçıvan MSSR ilə müqayisədə daha üstün mövqeyə malik olmuşdur. Məsələn, 1965-ci ildə hər 10 min nəfərə düşən xəstəxana çarpayılarının sayına görə, ümumrespublika üzrə 85,7-i Naxçıvan MSSR üzrə 83,5 ədəd düşürdüsə, yuxarıda qeyd etdiyimiz kimi DQMV-də 94,7 ədəd çarpayı düşmüşdür. Bundan əlavə, hər 10 min nəfərə düşən orta tibb işçilərinin sayı ümumrespublika üzrə 67,4 nəfər, Naxçıvan MSSR üzrə 57,7 nəfər, DQMV-də isə 88,6 nəfər düşmüşdür. Bütün ixtisaslardan olan həkimlərlə təminat (hər 10 min nəfərə) Naxçıvan MSSR-da 12,3 nəfər, DQMV-də 14,9 nəfər idi[134].

Əvvəlki illərdə olduğu kimi, 1950-1960-cı illərdə də, Azərbaycan hökuməti DQMV-nin xəstəxana və müalicə müəssisələrini hər cür avadanlıqlar və invertarlarla təmin etmişdir. Xəstəxanalar müasir tipli cihazlarla təchiz edilmiş, rentgen, fizioterapiya kabinləri və labarotoriyalar yaradılmışdır. Bunun nəticəsi

idi ki, DQMV-də yolxucu xəstəliklərin — xüsusilə qızdırma, tif, traxoma və digər infeksion xəstəliklərin kökü kəsilmiş, dizenteriya və brüselleoz xəstəlikləri xeyli azalmışdır. 1950-1960-cı illərdə əhalinin sanitariya gigiyena, bilikləri artmışdı. Vilayətdə uşaq sağlamlıq mərkəzi, uşaq sanatoriyası, uşaq bağçaları və körpələr evi, qadın və uşaq məsləhətxanaları işləyirdi.

1950-1960-cı illərdə DQMV-də əhalinin sağlamlığının mühafizəsində sanatoriya kurart müalicə və istirahət evləri mühüm rol oynayırdı. 1968-ci ildə DQMV-də 250 yerlik 1 sanatoriya, 275 yerlik 1 müalicə və istirahət evi, 485 yerlik 1 ponsionat fəaliyyət göstərirdi. 1970-ci ildə Azərbaycanda cəmi 99 istirahət evi və sanatoriya var idi[135]. Şuşa şəhəri Azərbaycanın ən gözəl kurort, turizm ehtiyatlarına malik müstəsna əhəmiyyətli sağlamlıq ocaqlarından biridir.

Hələ XIX əsrin 50-60-cı illərində Şuşa şəhərini kurort şəhərinə çevirmək ideyası irəli sürülmüşdür. Məşhur klimatoloqlar, fitizatorlar və mikrolioloqlar dəniz səthindən 1403 metr hündürlükdə yerləşən Şuşanın iqlim şəraitini, fauna və florasını dəqiq yoxladıqdan sonra mülayim təbiətli şəhərin vərəm, malyariya, isitmə, qızdırma, göy öskürək və digər xəstəliklərə qarşı böyük müalicəvi əhəmiyyəti olduğunu söyləmişdilər. 1854-cü ildə Şuşanın cənubunda, 18 km aralıda Turşsu deyilən səfalı güşədə birdən-birə güclü təkanla fəvvarə vuran mədən suyunun çıxması da alimlərin mülahizələrini doğrultdu. Ürək-damar sistemini, mədə və bağırsaqların fəaliyyətini tənzim edən bu suyun müxtəlif növlərindən istifadə olunmaq məqsədilə həmin yerdə müalicə otaqlarından, su kanallarından ibarət hamam tikildi. Bu cür suyun sorağını alanlar yaz-yay aylarında Şuşaya gəlir və tibb işçilərinin nəzarəti altında müalicə olunurdular. Dirlik, sağlamlıq çeşməsi olan Turşsuda hər il yüzlərlə xəstə sayılıb şəfa tapırdı. Vaxtilə Şuşanı gəzən xalq şairi Səməd Vurğun Şuşanın şərəfli tarixindən söz açaraq yazırdı ki, "Şuşa təkcə öz füsünkar təbiəti ilə deyil, həm də poetik və musiqi mədəniyyəti ilə şöhrət qazanmışdır. Şuşa Qafqazın sənət məbədi, Azərbaycan musiqisinin beşiyi olmuşdur".



Çox təssüflə qeyd etməliyik ki, gözəl iqlimə malik kurort şəhəri olan Şuşa 1920-1950-ci illərdə erməni vandalları tərəfindən dağıdılmış və yaddaşlardan silinməyə cəhdlər göstərilmişdir.

Azərbaycan hökuməti 10 sentyabr 1968-ci ildə "Şuşa şəhərində kurort kompleksini inkişaf etdirmək tədbirləri haqqında" qərarı Şuşa kurortunun inkişafı üçün əhəmiyyətə malik oldu [136]. Şuşanın ümumittifaq əhəmiyyətli sanatoriyaya çevrilməsi işi ümumilli liderimiz H.Ə.Əliyevin adı ilə bağlıdır. Burada sağlamlıq ocaqları, istirahət evləri, çoxmərtəbəli yaşayış binaları inşa edilmiş və növbədə 650-700 adam dinjəlmişdir. Şuşanın havasını İsveçrənin "Davos" kurortu ilə müqayisə edənlər yanılmırlar, çünki Şuşanın havası və suyu xroniki bronxit, yuxarı tənəffüs yollarının katarı, ağ ciyər enfiziomasının başlanğıc forması, bronxial astmanın başlanğıc forması, pleverit, qan azlığı, əsəb xəstəlikləri, çox yorğunluq, kəskin infeksion xəstəlikləri və başqa xəstəliklərin müalicəsi üçün əhəmiyyətə malik idi. Şuşada çox böyük müalicəvi əhəmiyyəti Turşsu ilə yanaşı, yel xəstəliklərinin dərmanı olan "Dəmirsu", "Köhnə şir" dağının ətəyində "Xəlfəli" çayla "Sarı baba" bulağının qovuşduğu yerdə mədə-bağırsaq xəstəliklərinin dərmanı "Şirlan suyu" və başqa kaliumlu-karbonatlı bulaqlar da vardır. Çox təssüflər olsun ki, zəngin və tayı bərabəri olmayan, kurort turizm ehtiyatlarına malik Şuşa şəhəri 1992-ci ildə erməni faşistləri tərəfindən ələ keçirilmiş, tarixi abidələrimiz dağıdılmış, yandırılmış, Şuşanı təmiz, səfalı dağ havası, meşələri müalicəvi əhəmiyyətli mineral bulaqları, mənzərəli alp çəmənlikləri bir qrup gəlmə ermənilərin yaşayış kurort mərkəzinə çevrilmişdir[137].

Azərbaycan hökümətinin 1950-1960-cı illərində DQMV-də əhalinin kütləvi istirahət zonalarından düzgün istifadə etməsi üçün şərait yaratması, vaxtında yolxucu xəstəliklərin qarşısını alması, Vilayətin əhalisinə lazım olan səviyyədə müalicəvi əhəmiyyəti dərman və tibb məmulatları ilə təmin etməsi, səhiyyə idarələri şəbəkələrinin genişləndirmək üçün ilbəil vəsaitin miqdarını artırması və sair tədbirlər həyata keçirməsi ölüm hallarının azalmasına, uzunömürlülüyə

səbəb olmuşdur. 1960-cı il məlumatına görə, DQMV-də 85-89 yaşında olanlar 996 nəfər, 90-99 yaşında olanlar 708 nəfər, 100 yaşa yaxın və yüzü keçənlər isə 188 nəfər olmuşdu[138]. 1970-ci il məlumatında isə yuxarıdakı göstəricilər təxminən 20-30 faiz artmışdır. Məsələn, 1970-ci il məlumatına görə təkcə yaşı 100-ü keçənlərin sayı 239 nəfəri keçmişdir. Uzunömürlülərin 70 faizindən çoxu qadmların üzərinə düşmüşdür[139].

1970-ci il məlumatına görə, Azərbaycanda orta ömür 72 il olmuşdursa, bu göstərici respublikamızın ən səfalı güşələrindən biri olan DQMV-də 75 ilə çatmışdır[140]. DQMV-dən uzunömürlülərin çoxu dağlıq və dağətəyi ərazilərdə gözəl havası, suyu olan kəndlərdə yaşamışlar. Məsələn, Tuğ, Çapar, Ksabed, Metistağlar, Azıx və başqa kəndlərdə uzunömürlülər daha çox sayda idi. Yer üzərində əsrarəngiz təbiətinə görə tayı bərabəri olmayan Şuşa şəhərində 1950-1960-cı illərdə yaşı 100-ü keçənlərin sayı 20 nəfər qeydə alınmışdır. Bunlara misal olaraq, 133 yaşlı Səlim Hüseynovun, 109 yaşlı Zəhra Cabbarovanı, 138 yaşlı Zərifə Quliyevanı və başqalarını göstərə bilərik[141]. DQMV-nin hər kəndində, qəsəbəsində uzunömürlüllərə rast gəlmək mümkündür. Uzunömürlülüyün sayına görə, Dağlıq Qarabağ, nəinki, Azərbaycanda hətta Şərq ölkələrində və dünyada məşhurdur. Məsələn, 1950-1970-ci illər statistik məlumatlarına istinadən deyə bilərik ki, keçmiş SSRi-də yaşı 100 və 100-dən yuxarı olanların sayı hər 100 min nəfərə 10-12 nəfər, o cümlədən, Ukraynada 6 nəfər, Belarusiyada 13, Özbəkistanda 10, RSFSR-də 8, Qazaxıstanda 10, Gürcüstanda 51, Azərbaycanda 84, Azərbaycanın DQMV-də isə 144 nəfər təşkil etmişdir. İnkişaf etmiş dünya dövlətlərindən ABŞ-da bu göstərici 1,5 nəfər, Fransada 0,7 nəfər, İngiltərədə 0,6 nəfər təşkil etmişdir[142]. Statistik məlumatlardan göründüyü kimi, yer üzərində uzun ömürlülüyünə görə Azərbaycanın Dağlıq Qarabağ bölgəsi öndə dayanmışdır. Keçmiş SSRİ məkanında isə Azərbaycan SSR-in DQMV birinci yerdə idi. Bütün bunlar xain qonşularımızın diqqətindən yayınmamışdır. Vaxtilə dünyanın müxtəlif dövlətlərindən Azərbaycana köçürülən ermənilərin Dağlıq Qarabağı yaşayı yeri kimi seçməyi təsadüfi hadisə deyildi. Əlbəttə, bölgənin



yeraltı və yerüstü təbii sərvətləri, saf suyu, təmiz havası, çıxılmaz meşəlikləri, min bir dərdin dərmanı olan meyvə bağları, sərin bulaqları — zəngin flora və faunası bütün tarixi dövrlərdə məkirli və bic, bir qrup gəlmə ermənilərin ərazi iddalarına səbəb olmuşdur. Acgöz və bədniyyət qonşularımız müvəqqəti də olsa XX əsrin 80-cı illərinin axırı, 90-cı illərin əvvəllərində Azərbaycanın qədim yaşayış məskəni, gözəl səfa güşəsini işğal etdilər. İşğal edilmiş ərazilərimizdəki təbii sərvətlərimiz qəddarlıqla xarici dövlətlərə və Ermənistana daşınır.

DQMV-də insanların sağlamlığının möhkəmlənməsində, onların əmək qabiliyyətinin saxlanılmasında bədən tərbiyəsi hərəkatı mühüm rol oynayır. Azərbaycan hökuməti başqa sahələrdə olduğu kimi, DQMV-də bədən tərbiyəsi və idmanı inkişaf etdirmək məqsədilə 1950-1960-cı illərdə xeyli miqdarda vəsait ayırdı və həmin vəsaitin həcmini ildən-ilə artırdı. Belə ki, həmin məqsədlə DQMV-nə Azərbaycan höküməti 1961-ci ildə 20980 manat vəsait ayrılmışdırsa, 1965-ci ildə bu rəqəm 27779 manata, 1970-ci ildə isə 1,6 dəfə artaraq 34300 manata qalxmışdır[143]. Sonrakı illərdə, bu artım, davam etdirilmişdir. Azərbaycan hökümətinin ayırdığı vəsait hesabına Dağlıq Qarabağda idman qurğuları və binaların şəbəkəsi genişləndirildi. 1966-1970-ci illərdə Şuşa şəhərində 28, Ağdərə rayonlarında 20, Xocavənd rayonunda 22, Hadrut rayonunda 20 idman zalı və meydança tikilib Dağlıq Qarabağ sakinlərinin istifadəsinə verildi[144]. Bəhs etdiyimiz dövrdə, Xankəndi şəhərində 15 min nəfərlik stadion, "dinamo" idman kompleksi və digər idman qurğuları tikilib şəhər sakinlərinin istifadəsinə verildi. Dekabr 1970-ci il məlumatına görə, DQMV-i ərazisində 43 fudbol meydançası, 277-i voleybol, tennis bosketbol meydançaları fəaliyyət göstərirdi[145]. Azərbaycan hökuməti Dağlıq Qarabağda yaradılmış idman mərkəzini idman qurğuları, lazımı avadanlıqlarla təmin edirdi.

1950-1960-cı illərdə Dağlıq Qarabağda bədən tərbiyə və idmanın inkişafı üçün bədən tərbiyəsi və idman kollektivləri yaradılması işi ildən-ilə genişləndirilmişdi. Məsələn, 1960-cı ildə 12 min 445 idmançını birləşdirən 172-i bədən tərbiyəsi və idman kollektivi var idisə, 1965-ci ildə 18 min 615 idmançını

birləşdirən 210 bədən tərbiyəsi kollektivi, 1970-ci ildə isə 24896 idmançını birləşdirən 317 bədən tərbiyəsi və idman kollektivi yaradılmışdır[146]. 1950-1960-cı illərdə DQMV-də əhalinin 18 faizindən çoxu bədən tərbiyəsi və idmanla məşğul olmuşlar.

Azərbaycan höküməti Dağlıq Qarabağda bədən tərbiyə və idman inkişaf etdirmək üçün 1960-cı ildə 56, 1970-ci ildə isə 96 ali və orta ixtisas təhsilli bədən tərbiyəsi və idman mütəxəssisi göndərilmişdi[146]. Bədən tərbiyəsi və idman sahəsində məşğul olan işçilər aylıq əmək haqqı 1965-ci ildə 74 manat, 1970-ci ildə isə artırılaraq 79 manata çatmışdı[147]. Dağlıq Qarabağ Muxtar Vilayətində idman oyunları, yarışlar və sportagiadalar, bədən tərbiyəsi hərəkatının geniş yayılması böyük əhəmiyyət kəsb edirdi. DQMV-də bədən tərbiyə və idmanın inkişafı üçün könüllü idman cəmiyyəti minlərlə oğlan və qız arasında müntəzəm idman işi aparırdılar. Bununla yanaşı, Dağlıq Qarabağın pioner düşərgələrində, əmək və istirahət düşərgələrində, idman tipli düşərgələrində bədən tərbiyəsi və idman yarışları keçirilir və burada yaşayan gənc nəslin sağlamlığının qorunması üçün böyük əhəmiyyətə malik olurdu. Dağlıq Qarabağ idmançıları rayonlar arası, respublika və ittifaq yarışlarında iştirak edirdilər. 1971-ci ildə DQMV-də 32 nəfər idmançı yarışlarda göstərdikləri yüksək nəticələrə görə, birinci dərəcəli idmançı, 3550 nəfər idmançı isə göstərdikləri nəticələrdən aslı olaraq II və III dərəjəli idmançı və "gənc idmançı" adına layiq görülmüşlər[148].

Beləliklə, 1950-1960-cı illərdə Azərbaycan hökümətinin həyata keçirdiyi kompleks tədbirlər nəticəsində, DQMV-də milliyətcə erməni əhalisinin maddi rifah halının yüksəlməsi təmin olunmuş və onların əmək, məişət şəraiti yaxşılaşmışdır. Azərbaycan DQMV ərazisində məskunlaşan ermənilərin maddi rifah halı və məişət şəraiti, istər ümumrespublika şəxsiyyətindən, istərsə də Naxçıvan MSSR və digər rayonlardan dəfələrlə yüksəkdə dayanmışdır. Aparılan hesablamalara görə, 1960-cı ildən 1970-ci ilin əvvəllərinədək olan dövrdə adambaşına düşən məhsul istehsalının həcmi ümumrespublika üzrə 140,5 faiz, DQMV-də 250 faiz artmışdır. Həmçinin, sənaye məhsulları istehlakçının həcmi



ümumrespublika üzrə 229 faiz, DQMV-də 281 faiz, kapital xərcinin artım həcmi ümumrespublika üzrə 219 faiz, DQMV-də 417 faiz, ticarət mal dövriyyəsinin həcmi ümumrespublika üzrə 240 faiz, DQMV-də 279 faiz, məişət xidməti işi ümumrespublika üzrə 540 faiz, DQMV-də 550 faiz artım olmuşdur[149].

Bunanla yanaşı, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan kəndlərə erməni rəhbərliyi tərəfindən ögey münasibət göstərilmiş, demək olar ki, heç bir kənddə sosial obyekt tikilməmiş, nəticədə onlarla müsəlman kəndləri boşalıb, doğulmışdı. 1950-1960-cı illərdə Dağlıq Qarabağda yaşayan Azərbaycanlıların maddi həyat tərzi aşağı səviyyədə qalmaqda davam edirdi. Onların əldə etdiyi məvacib dolanışığın minumum həddindən aşağı idi.

# XI FƏSİL

## DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNDƏ MƏDƏNİYYƏTİN İNKİŞAFI TƏHSİL, MƏDƏNİ-MAARİF VƏ MƏTBUAT (XX YÜZİLLİYİN 50-60-CI İLLƏRİ).

Sovet Rusiyası Azərbaycanda öz hakimlik mövqeyini daim saxlamaq məqsədilə süni sürətdə 1923-cü ildə "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin təşkilinə nail oldu. Bu "xəyanətkar səxavətlilik" Azərbaycanın Milli mənafeyinə, Vətənin gələcəyinə ciddi, ağır ziyan vuran bağışlanılmaz cinayət idi. Çünki Muxtar Vilayət yarandığı gündən özünü Azərbaycanın qanunlarına tabe olmayan dövlət içərisində dövlət kimi aparırdı. Həmçinin, Ermənistan və onu himayə edən qüvvələr "Qarabağ kartı"ndan öz məqsədləri üçün istifadə etməyə şərait yaratdı. Bütün XX yüzillik ərzində Qarabağı Ermənistana birləşdirməyə cəhd edən ermənilər faktları saxtalaşdıraraq ictimai rəyi öz tərəfinə çəkmək məqsədilə əzabkeş obrazından çıxış edərək pis yaşadıqlarından şikayət etməyə və Azərbaycan hökümәti tərəfindən erməni kəndlərinə biganəlik göstərilməsi kimi böhtançı fikirlər yaymağa başladılar. Halbuki, tarixi faktlar rəhimsiz ermənilərin tamamilə yalan və böhtan dediklərini sübut edir. Bu gün kimliyindən asılı olmayaraq, hər bir Azərbaycan ziyalısı yaramazların saxta mülahizələrinə biganə qalmamalı, mötəbər tarixi mənbələrə əsaslanaraq əsl həqiqəti oxucuların nəzərinə çatdırmalıdır. XX yüzilliyin hansı dövrünə müraciət etsək Azərbaycan hökümətinin, Azərbaycanın başqa əraziləri ilə müqayisədə DQMV-nə üstün münasibətinin şahidi olur, Dağlıq Qarabağ rəhbərliyinin isə bölgədə azərbaycanlılar yaşayan kəndlərə məqsədli şəkildə biganəlik, laqeyid münasibət bəslədiklərini görürük. 1950-1960-cı illər Azərbaycan SSR DQMV-nin mədəni quruculuq tarixini nəzərdən keçirməklə bir daha yuxarıda dediklərimizin şahidi olarıq: Müharibədən sonrakı illərdə Sovet hökuməti kommunist ideologiyasının hakim mövqe tutması siyasətini davam etdirirdi. İnsanların şüuruna sosializm cəmiyyətinin ədalətli, xalqın azadlıq və səadətini təmin edən, millətlər arasında



dostluq və qardaşlığın qarantı olması ideyası yeridilirdi. Həmin ideyaların həyata keçirilməsində məktəblər əsas rol oynayırdı. Bu dövrdə təhsil sahəsində qarşıdakı ən başlıca vəzifələr xalq maarifi şəbəkəsinin tədris-maddi bazasını möhkəmləndirmək, məktəbləri pedaqoji kadrlarla təmin etmək, təlim-tərbiyə sistemini yaxşılaşdırmaq və tədrisin səviyyəsini yüksəltmək üçün əməli tədbirlərin həyata keçirilməsi müəyyən edildi. Belə ki, DQMV maarif şöbəsinin 24 mart 1965-ci il tarixli "DQMV-nin məktəblərini pedaqoci kadrlarla təmin etmək və xalq maarifi şəbəkəsinin tədris-maddi bazasını möhkəmləndirmək tədbirləri haqqında" qərarı qəbul edildi. Təkcə, 1965-ci ildə Azərbaycan hökuməti tərəfindən DQMV-nin xalq təhsili müəssisələrinin təmirinə 181 min manat məktəblərin tədris texniki vasitələrilə təmin olunmasına 70 min manat, laboratoriyalarına və kitabxanalarına 82 min manat vəsait ayrıldı. Sonrakı dövrlərdə Azərbaycan hökuməti DQMV-də maarifin inkişafına qoyulan vəsaitin miqdarını artırdı. Belə ki, 1930-cü ildə DQMV-nin xalq maarifinə ümumi vəsaitin 38,5 faizi ayrılmışdırsa, 1950-ci ildə bu rəqəm 63,7 faizə (4078 min) qalxmışdı. 1967/1968-ci tədris ilində ayrılan vəsaitin həcmi təxminən 2 dəfədən çox artaraq 9 milyon 625 min manata çatmışdır. Bu Naxçıvan Muxtar Respublikası maarifinə ayrılan vəsaitdən 25 faiz çox demək idi. Nəticədə, bölgədə tədris-tərbiyə müəssisələrinin şəbəkəsi tədricən genişlənir, şagirdlərin sayı artırdı. Belə ki, 1940-1960-cı illərdə DQMV-də 19 yeni məktəb tikilib istifadəyə verildi. Bəhs edilən illərdə, müəllimlərin sayı 1696-dan 3030-a çatdı, şagirdlərin sayı isə 40766-dan 36974-ə qədər azaldı. Azərbaycan SSR DQMV-də 1940-1960-cı illərdə ümumtəhsil məktəblərinin, orada dərs deyən müəllimlərin və şagirdlərin artım dinamikasını aşağıdakı cədvəldən də aydın görmək olar:

Müharibədən sonrakı dövrdə Azərbaycan SSR DQMV-də, başqa sahələrdə olduğu kimi, mədəni-maarif və mətbuatın inkişafında da çox böyük tərəqqi müşahidə edilmişdir.

1950-1960-cı illərdə Azərbaycan hökuməti DQMV-də mədəni-maarif müəssisələrini inkişaf etdirmək üçün bütün lazımi tədbirləri həyata keçirirdi.

Mədəni-maarif müəssisələri içərisində kitabxanalar, əvvəlki illərdə olduğu kimi, bəhs etdiyimiz dövrdə də, Azərbaycan hökümətinin xüsusi diqqət mərkəzində olmuşdur. Belə ki, 1950-ci ildə Azərbaycan höküməti DQMV-də kitabxanaların komplektləşdirilməsi üçün 166 min manat vəsait ayırdı[23]. 1953-cü ildə isə Azərbaycan höküməti DQMV-in İcraiyyə Komitəsi nəzdində mədəniyyət idarəsi təşkil etdi. Həmçinin, yeni kitabxana binalarının tikilməsi, mövcud kitabxana binalarının əsaslı təmir edilməsi və Vilayətdəki kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə 632 min manat vəsait ayırdı[24]. Kitabxana işçilərinin ixtisasını artırmaq üçün Şuşa şəhərində ixtisasartırma kursu təşkil edildi. Təkcə 1958-ci ildə M.Qorki adına Vilayət kitabxanasının maddi-texniki bazasının inkişaf etdirilməsi məqsədilə Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən 186 min manat pul ayrılmışdır[25]. Bölgəni ixtisaslı kadrlarla təmin etmək məqsədilə 1958-ci ildə DQMV-ə Bakıdan 4 ali təhsilli mütəxəssis göndərildi[26]. 1960-1962-ci illərdə Vilayətdə kitabxana xidməti ilə təmin olunmayan kənd və qəsəbələrdə yeni müstəqil kitabxanaların və səyyar fondların təşkili, fəaliyyətdə olan kitabxanaların yeni ədəbiyyatla təmin edilməsi, kitabxanaların yeni bina, avadanlıq və bəzi texniki vasitələrlə təchizi sahəsində böyük işlər görüldü. Azərbaycan hökümətinin gördüyü bütün bu və ya digər tədbirlər öz müsbət nəticəsini verdi. Belə ki, DQMV-də 1940-cı ildə 66 müstəqil kitabxana var idisə, 1950-ci ildə onların sayı 160-a, 1967-ci ildə isə 187-yə çatmışdı[27]. Həmçinin həmin kitabxanalarda olan kitab fondu 1940-cı ildə 54 min, 1950-ci ildə 150 min, 1960-cı ildə 857 min, 1970-ci ildə isə 1157 min nüsxəyə çatdı[28].

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, DQMV istər kitabxanaların sayına görə, istərsə də kitab fondu cəhətdən ümumrespublika səviyyəsindən çox böyük üstünlüyə malik olmuşdur. Məsələn, 1961-ci il yanvar məlumatına görə Naxçıvan MSSR-da 135, Astarada 20, Bərdədə 27, Saatlıda 22, Mingəçevirdə 18 kitabxana olduğu halda, DQMV-də bu göstərici 166-ya bərabər idi[29]. Bu vaxt Bakı şəhərində 172 kitabxana fəaliyyət göstərirdi[30]. Həmçinin, kitab fondunda da bu üstün mövqe Vilayətdə mövcud olmuşdur. Belə ki, həmin ildə kitab fondu Naxçıvanda 596 min nüsxə olduğu halda, DQMV-də 857 min nüsxəyə bərabər idi[31]. Bu vaxt Bərdədə 128 min, Ağcabədidə 169 min, Mingəçevirdə 103 min kitab oxucuların istifadəsində olmuşdur[32]. Bütün bunlar Azərbaycan hökümətinin Vilayətə göstərdiyi diqqət və qayğının nəticəsi idi.



Tədqiqatlar nəticəsində həm də bir acı həqiqət aşkarlanmışdır ki, Dağlıq Qarabağ rəhbərliyinin diktəsi ilə Bakıdan alınan kitablar Ermənistan SSR-nin Myasnikov adına kitabxanasına verilir və oradan erməni dilində kitablar alınırdı. Həmin kitablarda isə xalqımızın, Qarabağın tarixi haqqında təhrif olunmuş şəkildə materiallar verilmişdir. Bununla yanaşı, bəhs etdiyimiz dövrdə, Vilayətin erməni rəhbərliyi azərbaycanlılar yaşayan kəndlərə biganə münasibət göstərmişdi. Belə ki, 1951-ci ildə Vilayətin Hadrut rayonunda 48, Xocavənd rayonunda 47, Xankəndi rayonunda 50, Ağdərə rayonunda 50 kitabxana olduğu halda, Şuşada cəmi 8 kitabxana fəaliyyət göstərirdi[33]. Xankəndi rayonunun ermənilər yaşayan kəndlərində mədəni-maarif müəssisələri (xüsusilə kitabxanalar) olduğu halda, həmin rayonun azərbaycanlılar yaşayan 10 kəndindən yalnız ikisində (Kərkicahan və Kosalarda) kitabxana var idi. Başqa kəndlərin heç birində mədəni-maarif müəssisələri yox idi. Hələ bu azmış kimi Vilayətin azərbaycanlılar yaşayan kəndlərinin kitabxanalarındakı, onsuzda az olan kitabların, demək olar ki, 10 faizi Azərbaycan dilində, 70 faizi erməni dilində, 20 faizi rus dilində idi[34]. Məkirli siyasət sahiblərinin xalqımıza qarşı bu cür "səxavətliliyi" sonrakı dövrlərdə də davam etdirilmişdir.

Mədəni-maarif işinin ən kütləvi vasitələrindən biri də kino idi. Azərbaycan hökuməti 1950-1960-cı illərdə DQMV-də klublarm şəbəkəsinin genişləndirilməsi üçün xeyli vəsait ayırmışdır. Məsələn, 1950-ci ildə bu sahəyə 393 min manat vəsait ayrılmışdırsa, ildən-ilə həmin vəsait artırılaraq 1960-cı ildə 2 milyon 174 min manata, 1968-ci ildə 3 milyon 619 manata çatmışdır[35]. Nəticədə, Vilayətdə klubların sayı xeyli artmışdır. 1927-ci ildə burada 28 klub, 1940-cı ildə 151 klub var idisə, artıq 1968-ci ilin yanvarında DQMV-də 190 klub fəaliyyət göstərirdi[36].

Əgər faktları nəzərdən keçirsək, Azərbaycanın başqa əraziləri ilə müqayisədə Vilayətdə klubların sayının çox olmasının şahidi olarıq. Məsələn, 1961-ci il yanvar məlumatına görə Bakıda 117, Naxçıvanda 122 klub var idisə, Vilayətdə 170 klub (bundan 161-i kənddə) fəaliyyət göstərirdi[37]. Bəhs etdiyimiz illərdə, Ağsuda 18, Cəbrayılda 18, Zərdabda 20, Qaxda 23, Kəlbəcərdə 19, Mingəçevirdə 13, Tərtərdə 24 klub var idi. DQMV-nin rayonlarındakı klubların sayına gəldikdə isə qədim tarixə malik Şuşa şəhəri və onun kəndlərindəki klubların sayı qonşu Xankəndi rayonundakı klubların sayından 3 dəfə az idi.

1950-1960-cı illərdə Vilayətdə kino qurğularının sayında da artım müşahidə edilmişdir. Belə ki, 1940-cı ildə burada kinoqurğuların sayı 22, 1950-ci ildə 38, 1960-cı ildə 71-idisə, 1970-ci ildə kinoqurğuların sayı 2 dəfədən çox artaraq 153-ə çatmışdır. Bundan 8-i səyyari, 145-i stasionar quraşdırılmış kinoqurğu idi[38]. Azərbaycan hökumətinin qayğısı nəticəsində Vilayətin kino işçiləri ildən-ilə şəhər və kənd əhalisinə kino xidmətini getdikcə yaxşılaşdırırdı. Belə ki, 1950-ci ildə 287 min kinoseans göstərilmişdirsə, 1960-cı ildə onların sayı 1431 minə, 1967-ci ildə isə 2521 minə çatmışdır. 1968-ci ildə Vilayətin kinoseans planı 127 faiz, tamaşaçılarla əhatə edilmə planı 108 faiz olmuşdur.[39]

Yuxarıdakı faktlardan aydın göründüyü kimi, bəhs etdiyimiz illərdə, DQMV-də kino xidməti işi xeyli yaxşılaşmış, geniş və rahat qış və yay kinoteatr müəssisələri tikilib istifadəyə verilmişdir. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, kinofilmlərə tamaşa edən insanların sayına və kino seanslarının sayına görə DQMV keçmiş ittifaq miqyasında ən yüksək yerlərdən birini tutmuşdur. Məsələn, kino qurğularının sayına görə hər 1000 nəfərə ittifaq məkanında 5,4, Ermənistanda 2,9, ümumi respublika miqyasında 3 qurğu düşdüyü halda DQMV-də bu göstərici 11,2-yə bərabər idi[40].

1947-ci ildən Azərbaycanda yaranan Azərbaycan Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyət respublikamızın hər yerində, o cümlədən, DQMV-də mədəni-maarifin inkişafında xeyli işlər görmüşdür. Həmin cəmiyyət öz sıralarında 2,2 min ziyalını və istehsal qabaqcıllını birləşdirmişdir. Vilayətdə yaşayan əhalinin



mədəni səviyyəsinin yüksəldilməsində 1958-ci ildə yaradılmış Dağlıq Qarabağ Dövlət Mahnı və Rəqs ansamblının xidmətləri böyük olmuşdur. Ansambl 1959-cu ildən fəaliyyət göstərməyə başlamışdır. Ansamblın repertuarı zəngin və rəngarəng idi[41]. Onun repertuarında keçmiş SSRİ xalqlarının mahnı və rəqsləri mühüm yer tuturdu. Kollektivə Petrosyan Svetlana rəhbərlik edirdi. Konsertlərdə qədim Azərbaycan mahnılarının erməni dilində səslənməsi halları müşahidə edilmişdir. Qədim Azərbaycan el havaları və mahnılarının erməni dilində oxunması təsadüfi hadisə deyildi. Onların məqsədi bir neçə ildən sonra həmin qədim el mahnılarımızı özününküləşdirmək olmuşdur və sonrakı hadisələr bir daha deyilənləri sübut etdi.

XX əsrin 50-60-cı illərində DQMV-də mədəni-maarif işinin inkişafında muzeylərin rolu böyük olmuşdur. 1959-cu ildə Şuşa şəhərində böyük Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun ev Muzeyi, Sovet İttifaqı Qəhrəmanı general-palkovnik Mixail Parseqovun Kolxozçu kəndində ev muzeyi, Boqdan Kunçants adına muzey yaradılmışdır. Bundan əlavə, Xankəndi Vilayət və ölkəşünaslıq muzeyi, bəhs etdiyimiz dövrdə Şuşa şəhər tarixi muzeyində fəaliyyət göstərirdi. Muzeylərdəki daim yeniləşən tarixi eksponatlar tamaşaçıların diqqətini cəlb edirdi. Muzey daxilində keçirilən elmi-kütləvi iş, habelə muzeylərin təşkil etdikləri ekskursiyalar, səyyar sərgilər, müharibə veteranları və əmək qəhrəmanları ilə görüşlər əhali arasında rəğbətlə qarşılanırdı. 1970-ci ildə Azərbaycanda cəmi 27 muzey var idi.[42] Azərbaycanın rayonlarının əksəriyyətində muzey olmadığı halda DQMV-də bir neçə müxtəlif muzey fəaliyyət göstərirdi. Bunlardan ən böyüyü isə Xankəndində yaradılmışdı.

Azərbaycan SSR DQMV-də yaşayan əhalinin maariflənməsində, ictimai-siyasi fəaliyyətinin artmasında mətbuat əhəmiyyətli rol oynayırdı.

1960-cı ildə Azərbaycanda 107 qəzet çıxırdı ki, bundan 1-ci Naxçıvan MSSR-nin, 3-ü DQMV-nin payına düşürdü.[43] 1969-cu ildə isə onların sayı ümumrespublika üzrə 118-ə çatdı ki, bundan 5-i DQMV-də nəşr olunurdu. Qəzetlərin tiracında da böyük irəliləyiş müşahidə edilmişdir. Belə ki, 1960-cı ildə

DQMV-də qəzetlər 9,3 min tirajda buraxılırdısa, 1969-cu ildə 24,3 min tiraja çatmışdı.[44] Vilayətdə nəşr olunan qəzetlərdən 1-i Azərbaycan dilində, qalanları erməni dilində buraxılırdı. Bundan əlavə, Vilayətdə rus dilində "Sovetski Karabax" adlı qəzetdə nəşr olunurdu. 1923-cü ildən Xankəndində erməni dilində nəşr olunan "Sovetakan Karabax" ("Sovet Qarabağı") qəzeti 1968-ci ildə ümumi Vilayət üzrə buraxılan qəzetlərin birdəfəlik tiracına bərabər idi (13,5 min nüsxə). Ağdərə rayonunda 1932-ci ildən nəşr olunan "Barekamutyun" ("Dostluq") qəzeti, 1966-cı ildən "Sosializmin iqi" ("Sosializm yolu") adı altında çıxmağa başladı.[45] 1968-ci ildə həmin qəzetin birdəfəlik tiracı 3,3 min nüsxəyə bərabər idi. Vilayətin Xocavənd rayonunda 1932-ci ildən "Aşxatanq" ("Əmək") qəzeti çıxır. Həmin qəzet 1966-cı ildən "Kommunizm" adı ilə nəşr edilmişdir. 1968-ci ildən həmin qəzetin ümumi tiracı 3 min nüsxəyə bərabər idi.[46] Hadrud rayonunda 1933-cü ildən nəşr olunmağa başlayan "Koltnteskan" ("Kolxozçu") qəzetinin 1968-ci ildə birdəfəlik tiracı 2,2 min nüsxəyə çatmışdı.[47] Şuşa şəhərində 1932-ci ildən nəşr olunan "Şuşa" qəzeti, 1938-ci ildə "Sosialist maldarlığı", 1963-cü ildə "Kolxoz bayrağı", 1966-cı ildən isə "Şuşa kurortu" adlandırılmışdır. 1968-ci ildə həmin qəzetin ümumi tiracı 2,3 min nüsxəyə çatmışdı.[48]

DQMV-də mədəni-maarif işi Azərbaycanın başqa regionları və SSRİ-də yaşayan digər xalqlarla mədəni əməkdaşlıqla inkişaf edirdi. Bölgədə yaşayan mədəni-maarif işçiləri Ermənistan SSR ilə daha yaxın əməkdaşlıq edirdilər. 1950 və 1959-cu illərdə Moskvada Azərbaycan Ədəbiyyat və İncəsənəti ongünlüklərində Vilayətin mədəniyyət işçiləri də iştirak etmişlər. Bəhs etdiyimiz dövrdə, DQMV-də kütləvi çap olunan "Sovetakan Karabax" qəzeti "Şərq qapısı" qəzeti ilə səhifələr mübadiləsi aparırdı. 1963-cü ilin martında Moskvada Dağlıq Qarabağ ədəbiyyat və incəsənət xadimlərinin də iştirak etdiyi görüşün mədəni-maarifin inkişafına təkan verdi. Çünki vilayətin ədəbiyyat və incəsənət xadimləri müsbət təcrübəsini öyrənir və bölgədə tətbiq edirdilər.

1950-1960-cı illərdə Dağlıq Qarabağın sənaye müəssisələrində, kolxoz və sovxozlarında iqtisadiyyat öyrədilən dərnəklər, seminarlar və məktəblər



yaradılmışdır. Vaxtaşırı olaraq vilayətin istehsalat qabaqcılları ilə müşavirə və konfranslar keçirilir, adlı-sanlı adamların təcrübəsinə dair vərəqlər və bülletenlər buraxılırdı. Bütün bunlar isə vilayətdə yaşayan əhalinin mədəni səviyyəsinin ümumi yüksəlişinə səbəb olurdu.

Bəhs etdiyimiz dövrdə, bölgədə yaşayan ermənilərin təşəbbüsü ilə Mədəniyyət Universitetləri də yaradılmışdır. Arxiv materiallarında həmin Universitetlərin ermənilərin daha çox cəmləşdiyi ərazilərdə, xüsusilə, Xankəndində, Haterkdə, Çartazda, Talışda və başqa kəndlərdə fəaliyyət göstərməsi faktları vardır. Buradan belə bir nəticə çıxır ki, həmin "Xalq Universitetləri" burada yaşayan erməniləri gələcəkdə "Böyük Ermənistan" yaratmaq kimi bədnam ideoloci iş aparmışdır və əsrin sonlarında baş verən hadisələr bir daha deyilənləri sübut etdi. Hətta, həmin dövrdə erməni məktəblərinin nəzdində belə valideyin Universitetləri yaradılmışdı. Universitetin lektorları "xüsusi təlim" keçmiş, milliyyətcə erməni olan ziyalılar idi.

XX yüzilliyin 50-60-cı illərində vilayət əhalisinin mədəni və ümumi təhsil səviyyələrinin yüksəldilməsində radio mühüm rol oynamışdı. 1933-cü ildən Xankəndində yerli radio verilişi studiyası fəaliyyətə başlamış və XX yüzilliyin 60-cı illərində DQMV-nin 4 rayonunda radio verilişləri studiyası yaradılmışdı.[49] Belə ki,1962-ci ildə Hadrud və Xocavənd, 1965-ci ildə Şuşada, 1966-cı ildə Ağdərədə yerli radio verilişləri studiyası fəaliyyətə başlamışdır. İlk yaranan vaxt vilayətdə 20 radio nöqtəsi fəaliyyət göstərirdisə, 60-cı illərin sonlarında radio nöqtələrinin sayı 23 minə, radioqəbuledicilərin sayı 6 minə çatdı.[50] Aparılan tədqiqatlara əsasən müəyyən edilmişdir ki, adambaşına düşən radio nöqtələrinin və radioqəbuledicilərinin sayına görə DQMV-də ümumrespublika göstəricilərindən 2 dəfə çox idi.

Beləliklə, 1950-1960-cı illərdə Azərbaycan hökumətinin böyük qayğısı nəticəsində DQMV-də mədəni-maarif və mətbuat, mürəkkəb və ziddiyyətli hal müşahidə edilsə belə, çox mühüm irəliləyiş olmuşdur. Vilayətdə mədəni-maarif müəssisələrinin sayı ilbəil çoxalırdı. Onlarla yeni kitabxanalar təşkil edilmiş, kino

qurğuları istifadəyə verilmişdir. Bölgədə yeni klublar, mədəniyyət sarayları yaradılmış, muzeylər açılmışdı. Bəhs edilən illərdə DQMV-də qəzetlərin nəşri 2,7 dəfə artmış, 4 yeni yerli radio verilişləri studiyası yaradılmışdı. 20 il ərzində vilayətin radio verilişlərinin məzmunu dəyişərək daha cəlbedici olmuşdu. Bütün bunlar isə DQMV-də yaşayan əhalinin mədəni və ümumi təhsil səviyyələrinin yüksəlməsinə müsbət təsir göstərmişdir.

| Tədris ili | DQMV-nin bütün məktəblərində | | | Bundan | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | İbtidai məktəblər | | | Yeddillik və səkkizlik məktəb | | | Orta məktəblər | | |
| | Məktəb-lərin sayı | Şagird-lərin sayı | Müəllim-lərin sayı | məktəblər | Şagirdlər | Müəllimlər | məktəblər | Şagirdlər | Müəllimlər | məktəblər | Şagirdlər | Müəllimlər |
| 1940-1941 | 196 | 40766 | 1696 | 45 | 1907 | 98 | 116 | 20264 | 908 | 35 | 18595 | 690 |
| 1950-1951 | 206 | 33690 | 1929 | 54 | 2000 | 111 | 111 | 15940 | 1001 | 40 | 15631 | 860 |
| 1960-1961 | 208 | 26965 | 2662 | 46 | 1000 | 98 | 108 | 10088 | 1120 | 54 | 15877 | 1444 |
| 1967-1968 | 215 | 36974 | 3030 | 48 | 1340 | 112 | 112 | 13751 | 1359 | 55 | 21883 | 1559 |

1941-1961-ci illərdə Naxçıvan Muxtar Respublikasında məktəblərin sayı 196-dan 198-ə, müəllimlərin sayı isə 1039-dan 2018-ə çatdı. Həmin illərdə Naxçıvanda 2 məktəb, Bakı şəhərində 8 məktəb tikilmişdirsə, DQMV-də 10 məktəb tikilib istifadəyə verilmişdir. 1960-1961-ci tədris ilində Azərbaycanda 300 səkkizillik məktəb tikilmişdir ki, bundan 13-ü Naxçıvan MSSR-nın 24-ü isə DQMV-nin payına düşürdü. Bəhs etdiyimiz tədris ilində, DQMV-də hər məktəbə 13 müəllim düşürdüsə Naxçıvan Muxtar Respublikasında bu göstərici 11-ə



çatırdı. Həmçinin ümumrespublika üzrə bu göstərici 11-ə bərabər idi. Diqqəti cəlb edən məsələlərdən də biri ondan ibarətdir ki, arxiv materiallarında, yaradılmş məktəblərin yerləşdiyi ərazilərin hamısı ermənilərin cəmləşdiyi kəndlərdə olması faktları müəyyənləşmişdir. DQMV-də bütün kargüzarlıq, məhkəmə işləri, erməni məktəblərində təhsil erməni dilində aparılırdı. DQMV-də idarə orqanlarında az-çox çalışan azərbaycanlılar erməni dilində danışmalı, dövlət sənədləri, rəsmi yığıncaqlardakı mühazirələr və sair erməni dilində aparılırdı. Hər yerdə erməni daşnakları tərəfindən məqsədli şəkildə Azərbaycan dili sıxışdırılır, tariximiz, ədəbiyyatımız yaddaşlardan silinirdi.

DQMV-də gənclərin və yaşlıların istehsalatdan ayrılmadan təhsil alması üçün 1967-1968-ci dərs ilində 22 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 1360 istehsalatçı təhsilini artırırdı. Bölgədə yeddillik və orta qiyabi axşam məktəbləri də fəaliyyət göstərirdi ki, onların sayı ümümrespublika səviyyəsindən çox-çox yüksəkdə dayanırdı. Məsələn 1950-51-ci tədris ilində Azərbaycanda belə məktəblərin sayı 140-a çatırdısa, bundan 6-sı Naxçıvan MR-da, 17-si DQMV-də fəaliyyət göstərirdi. Şagirdlərin sayında isə Naxçıvana nisbətən (182 nəfər), DQMV-də (384 nəfər) 2 dəfədən çox şagirdin təhsil alması halı müşahidə edilmişdir.

DQMV-də 1950-1960-cı illərdə məktəbəqədər və məktəbdənkənar uşaq müəssisələri şəbəkəsi genişləndi. Belə ki, 1950-ci ildə vilayətdə 694 uşağı əhatə edən 24 uşaq bağçası fəaliyyət göstərirdisə, 1968-ci ildə uşaq bağçalarının sayı 55-ə, uşaqların sayı 3495-ə, tərbiyəçilərin sayı isə 56-dan 214-ə çatmışdı. Bəhs etdiyimiz ildə Naxçıvanda 22, Bərdədə 1, Cəbrayılda 1, Füzulidə 2, Zəngilanda 2 uşaq bağçası var idi. Çox maraqlı faktlardan biri də ondan ibarətdir ki, DQMV-dəki hər 1 uşaq bağçasına təxminən 4 tərbiyəçi düşdüyü halda, başqa ərazilərdə 2 tərbiyəçinin düşməsi faktları vardır. Əksər uşaq bağçalarının nəzdində körpələr evləri də fəaliyyət göstərirdi. 1968-ci ildə DQMV-də 173 uşağı əhatə edən 9 əlahiddə körpələr evi var idi.

1970-ci ildə Azərbaycan Respublikası üzrə 172 məktəbdənkənar uşaq müəssisəsi, pioner və məktəblilər sarayı, gənc texniklər, təbiət stansiyaları, park və idman məktəbləri vardır ki, bundan 27-si DQMV-nin, 12-si isə Naxçıvan MSSR payına düşürdü.

DQMV-dəki müəllimlər Respublika və Bakı müəllimləri təkmilləşdirmə institutlarında elmi və metodiki cəhətdən öz bilik səviyyələrini yüksəldirdilər. Təsadüfi deyildir ki, DQMV-də 1940-cı illə müqayisədə 1961-ci ildə ali təhsilli müəllimlərin sayı 2 dəfə artaraq 1094 nəfərə çatmışdır. Bu DQMV müəllimlərinin ümumi sayının 41 faizi demək idi. Naxçıvan Muxtar Respublikasında isə bütün müəllimlərin 29,9 faizi (597 nəfəri) ali təhsil almışdılar. Bu hal Azərbaycan hökümətinin DQMV-nə göstərdiyi qayğının nəticəsi kimi qiymətləndirilməlidir. Ümumrespublika üzrə bu göstərici 38,9 faiz təşkil edirdi.

XX yüzilliyin 50-60-cı illərində DQMV-də təlimin məzmununda bəzi dəyişikliklər edildi. VIII-X siniflərdə erməni dilinin tədrisinə həftədə 1 saat əlavə vaxt ayrıldı. Rus dili və erməni dilinə ciddi fikir verilir, rus dili müəllimlərinin hazırlanması genişləndirilirdi. 1950-ci ildən II-X siniflərdə rus dili və ədəbiyyatının tədrisinə tədris planlarında həftədə 5-6 saat ayrıldı. Erməni və rus ədəbiyyatı, habelə Qərbi Avropa ölkələri ədəbiyyatının tədrisinə xüsusi diqqət yetirilirdi. 1958-1959-cu tədris ilində orta məktəblərdə «Azərbaycan tarixi»nin tədrisinə həftədə 1 saat ayrılsa da, həmin fənn tədris edilmirdi. 1960-1961-ci tədris ilindən orta məktəblərin tədris planına «İctimaiyyət» fənni də əlavə olundu. 1949-1950-ci illərdə DQMV-də ümumi yeddillik təhsil, 1959-1960-cı illərdə isə icbari səkkizillik təhsil tətbiq olundu. 1966-cı ildən orta təhsil-ümumtəhsil elan edildi. DQMV-də məktəblərin şəbəkəsi genişləndi və 1950-1951-ci tədris ilində məktəblərin sayı müharibədən əvvəlki səviyyəni ötüb keçdi. Artıq 1970-1971-ci tədris ilində bölgədə 67 orta, 107 səkkizillik və 40 ibtidai məktəb fəaliyyət göstərirdi. Həmin tədris ilində şagirdlərin sayı 40281-ə (bundan 24452 kənddə), müəllimlərin sayı 2322-yə çatdı. Bəhs etdiyimiz dövrdə DQMV-də



politexnik təlimə diqqət artırıldı. Məktəblərin nəzdində tədris emalatxanaları, kənd məktəblərində isə məktəb nəzdində tədris-təcrübə sahələri yaradılırdı. Məktəblərdə istehsalat təliminin tətbiqi ilə vilayətdə minlərlə ixtisaslı mütəxəssis hazırlanmışdır. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, XX yüzilliyin 50-60-cı illərində DQMV-nin ipək kombinatının, elektrotexnika məmulatları zavodunun, ayaqqabı fabrikinin və digər müəssisələrin istehsal etdikləri məhsulların keyfiyyəti əvvəlki dövrlə müqayisədə xeyli yüksəlmişdir. Bu onunla izah edilir ki, zavod və fabriklərə yüksək texniki və ümumtəhsil hazırlığı olan yeni nəsil gəlmişdir. Texniki peşə məktəblərini bitirən gənclər müəyyən əməli vərdişlərə yiyələnmişlər. Təkcə Xankəndi peşə məktəbi xalq təsərrüfatı üçün 3 min nəfərdən çox müxtəlif ixtisaslı fəhlə hazırlamışdır.

DQMV-də orta məktəbi bitirən məzunların 3-dən 1-i öz təhsillərini Azərbaycan, Ermənistan, Moskva, Leninqrad, Kiyev, Minsk, Riqa, Daşkənd universitet və institutlarında davam etdirirdilər. Artıq 70-ci illərin sonlarında DQMV-nin xalq təsərrüfatında çalışan mütəxəssislərin sayı 8 min nəfəri keçmişdi.

İkinci dünya müharibəsindən sonrakı illərdə Azərbaycanın hər yerində, o cümlədən, DQMV-də ali təhsil daha da inkişaf etdi. 1938-ci ildə Xankəndində Müəllimlər institutunun yaradılması Vilayətin məktəblərini ali təhsilli mütəxəssislərlə təmin etməkdə böyük işlər gördü. İlk yaranan vaxtlar 15 müəllimi, 150 tələbəni birləşdirən İnstitutun 1950-ci ildə daha 3 şöbəsi yaradıldı. 1940-1950-ci illər ərzində Xankəndi Müəllimlər İnstitunda tələbələrin sayı 450-yə müəllimlərin sayı 60-a çatdı. İnstitutda erməni dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı, fizika-riyaziyyat, tarix, təbiət və coğrafiya şöbələri fəaliyyət göstərirdi. Sonrakı illərdə Vilayətin Müəllimlər İnstitutunun yeni fakultələri (ibtidai təhsilin pedaqoqikası və metodikası, Ümumi texniki fənlər) yarandı. 1970-ci ildə Xankəndi Müəllimlər İnstitutunun həm müəllimlərinin, həm də tələbələrinin sayı 1950-ci illə müqayisədə 2 dəfə artdı.

XX yüzilliyin 50-60-cı illərində orta ixtisas təhsilli müəssisələrin sayı da artırdı. Həmin təhsil ocaqlarında sənaye, tikinti, nəqliyyat və kənd təsərrüfatı mütəxəssisləri hazırlanırdı. Belə ki, 1927-ci ildə DQMV-də 436 tələbəsi olan 2 texnikum fəaliyyət göstərirdisə, 1940-cı ildə texnikumların sayı 4-ə, orada oxuyanların sayı 879-a çatdı. 60-cı illərdə Vilayətdə daha bir texnikum yaranmış, artıq 1970-ci ildə texnikumlarda oxuyanların sayı 2357-yə, oranı bitirənlərin sayı 390-a çatdı.

DQMV-nin məktəblərin orta ixtisas təhsilli mütəxəssislərlə təmin olunmasında Şuşa Mədəni Maarif Məktəbinin böyük rolu olmuşdur. Həmin təhsil müəssisəsi 1921-ci ildə Şuşa Müəllimlər Seminariyası kimi təşəkkül tapmış, 1931-ci ildən isə pedaqoci texnikum adlandırılmışdır. 1927-1928-ci tədris ilindən texnikumda erməni bölməsi də fəaliyyətə başlamışdır. 1931-ci ildən Şuşa Mədəni Maarif Məktəbi adlanan texnikuma 1938-ci ildə M.Əzizbəyovun adı verilib. Texnikum ibtidai sinif müəllimləri, kitabxana və mədəni-maarif işçiləri, pioner baş dəstə rəhbərləri hazırlayırdı. XX yüzilliyin 70-ci illərində həmin texnikumda 500 tələbə təhsil alırdı. Müəllimlərin sayı isə 60-a çatırdı. Bəhs etdiyimiz dövrdə, Xankəndində və Şuşada Kənd Təsərrüfatı Texnikumu, Xankəndində tibb və musiqi məktəbləri, habelə inşaat məktəbi var idi.

1969-cu ildən ali məktəblərin yanında fəhlə, kolxozçu və ordudan tərxis edilənlər üçün hazırlıq şöbələri yaradılmışdı.

Beləliklə 1950-1960-cı illərdə, Azərbaycanın başqa bölgələri ilə müqayisədə, DQMV-də təhsil səviyyəsi üstün idi və sürətlə inkişaf edirdi. Həmin dövrdə yeddillik, səkkizillik və orta icbari təhsilə keçid baş verdi. Ali təhsilin şəbəkəsi genişləndi və DQMV-də müxtəlif ixtisaslı erməni, rus və digər millətlərdən olan kadrların sayı xeyli artdı. Eyni zamanda, həmin kadırların yerləşdirilməsinə "beynəlmiləlçilik" pərdəsi altında xüsusi diqqət yetirildi. Vilayətin idarə orqanlarında qeyri-azərbaycanlıların yerləşdirilməsi sovet imperiyasının bölgədə dayaqlarının daha da möhkəmlənməsinə ciddi təsir göstərdi. İstər mərkəzdə, istərsə də DQMV-də təhsil işinə rəhbərlik edən qeyri-



azərbaycanlılar «Azərbaycan dilində təhsilin gələcəyinin olmadığı» iddiası ilə gördükləri tədbirlər nəticəsində DQMV-də azərbaycanlılar yaşayan kəndlərdə tədris işlərinə ağır zərbə vurmuşdular. Həmçinin, azərbaycanlılar yaşayan kəndlərə biganə münasibət həmin kəndlərin süni surətdə boşalmasına şərait yaratdı.

# XII FƏSİL.

## AZƏRBAYCAN SSR DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNDƏ ELM, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏTİN İNKİŞAFI (1950-1960-CI İLLƏR).

1950-1960-cı illərdə bütövlükdə Azərbaycanda, o cümlədən, DQMV-də elm böyük uğurla inkişaf edirdi. Hələ XX yüzilliyin 40-cı illərinin ortalarında yaradılmış Azərbaycan SSR Elmlər Akademiyasının Dağlıq Qarabağ filialı qısa bir müddətdə xeyli işlər görmüşdür. 1950-ci ildə DQMV-nin Leninavan qəsəbəsində daha bir elmi mərkəz "Azərbaycan SSR Elmlər Akademiyası Genetika və Seleksiya İnstitutunun Qarabağ Elmi təcrübə bazası" açılmışdır.[1]

Azərbaycan Elmlər Akademiyasının Dağlıq Qarabağ Filialı və Qarabağ Elmi Təcrübə Bazası öz fəaliyyətlərini inkişaf etdirir, müxtəlif problemlərin öyrənilməsini daha da dərinləşdirir, istehsalatla əlaqələri genişləndirir, elmi kadrların hazırlanması işinə xüsusi diqqət yetirirdi. XX yüzilliyin 50-60-cı illərində DQMV-də elmi kadrların sayı 8 dəfə artmışdı.[2]

XX yüzilliyin 50-60-cı illərində ictimai və humanitar elmlər sahəsində mühüm nailiyyətlər əldə edilmişdi. Azərbaycanın bir çox ərazilərində,o cümlədən, DQMV-də arxeoloji qazıntı işləri aparılmış və bölgədə qədim və orta əsrlər tarixinin bir çox öyrənilməmiş məsələlərini işıqlandıran maraqlı arxeoloji materiallar tapılmışdır. Bu işdə M.M.Hüseynovun, Ə.Q.Cəfərovun bölgədə apardıqları arxeoloji elmi-tədqiqat işləri mühüm əhəmiyyətə malik idi. 1964-cü ildən Azərbaycan SSR DQMV-nin Hadrut rayonu ərazisində Tağlar mağarasının öyrənilməsinə başlanmışdır.[3] Tağlar mağarası bir-biri ilə bağlı salonlardan ibarətdir. Buradakı Şərq salonunda ibtidai insanlar yaşamış, müxtəlif təbii amillərdən, təhlükələrdən qorunmuşdur. Salon gilli torpaqla əhatə olunduğundan ilin soyuq vaxtlarında burada yaşamaq daha əlverişli idi. Açıq qayalıqdan ibarət qərb salonundan isə ibtidai insanlar müxtəlif məqsədlərlə, həm də qonşu tayfaların hücumlarından müdafiə olunmaq məqsədilə istifadə



etmişdilər. Mağarada 6 mədəni təbəqə aşkar olunmuşdur. Aşağıdakı bir təbəqədən başqa bütün təbəqələrdə ocaq layları vardır. Tağlar mağarasından 5 mindaş məmulatı, 6 min fauna qalıqları tapılmışdır.[4] Ərazidə tapılmış iti uclu, qaşov tipli alətlər, heyvan sümükləri və başqa materiallar ibtidai insanların həyatının öyrənilməsində, Azərbaycanın Qafqaz və Yaxın Şərqin Mustye mədəniyyətlərinin səciyyəvi xüsusiyyətlərini müəyyən etməklə, onların əlaqələrinin tədqiqində çox zəngin mənbədir.

1957-1962-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının əməkdaşları Azərbaycan SSR DQMV-nin Xocalı kəndi ərazisində arxeoloji-elmi tədqiqat işləri aparmışlar. Bu tədqiqatlar, Xocalı kəndi ərazisində XIX əsrin sonlarında aparılmış arxeoloji qazıntıların davamı idi. Tədqiqatlar nəticəsində, burada e.ə. XIII-VII əsrlərə aid daş qutu, Nekropol, biri digərini əvəz edən 5 tip kurqan müəyyənləşdirilmişdir.[5] Daş qutu və kurqanlardan son Tunc və İlk Dəmir dövrünə aid müxtəlif tipli saxsı qablar, silahlar, qızıl, tunc, balıqqulağı, əqiq, şüşə, bəzək əşyaları, tunc əmək alətləri, silindirik möhür və at əsləhləri aşkar edilmişdir. Maraqlı cəhətlərdən biri də ondan ibarətdir ki, Xocalı kurqanlarından tapılmış əqiq muncuqlardan birinin üstündə Assuriya çarı Adadnirariyə aid mixi yazı olması faktı aşkar edilmişdir, bu isə yerli ulu əcdadlarımızın Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrin olmasını göstərir.[6]

XX əsrin 50-60-cı illərində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda və onun ən möhtəşəm abidələrindən olan Şuşada aparılan arxeoloji tədqiqat işləri nəticəsində ərazidə qədim insanın meydana gəlməsi və formalaşmasını sübut edən zəngin elmi məlumatlar və maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. 1950-ci ilədək Azərbaycan ərazisində qədim insan düşərgələrinin olması faktları yox idi. Lakin əsrin ikinci yarısında Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqat işləri Respublikamızın ərazisinin qədim insanın yaranma və formalaşması ərazilərindən biri olması elmi faktlarla sübuta

yetirilmişdir. Şuşadakı təbii mağaralar, iqlim şəraiti, meşəliklər və heyvanlar aləmi ərazidə qədimdən yaşayışın mövcudluğunu şərtləndirən amillər idi.

Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının əməkdaşları, hörmətli alimimiz M.M.Hüseynovun rəhbərliyi altında, 1971-ci ildən başlayaraq, Şuşa ərazisindəki mağaralarda elmi tədqiqat işlərinə başladılar.[7] Mağaralarda iş aparmaq həm çətin, həm də təhlükəli idi. Çünki ulu babalarımızın yaşayış məskəni olmuş mağaralarımız yüz illər boyu insan ayağı dəyməyən daşlı-kəsəkli bir səhraya çevrilmişdir. Uzun müddət Şuşa mağarasının sirri insanlardan gizli qalmışdır. Bəziləri mağaranın ucsuz-bucaqsız olması, digərləri isə buranın müqəddəs yer olduğunu söyləyirdilər. Mil-Qarabağ ekspedisiyası 1971-ci ilin iyulunda Cıdır düzündəki Zarıslı (Daşaltı) çayının dərəsindən işə başlamışlar. Həmin mağara ("Şuşa mağarası") dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşirdi. "Şuşa mağarası"nın girəcəyində çoxlu daş yığılmışdı. Bu da, onu deməyə imkan verir ki, qədim insanlar qonşu tayfaların hücumlarından müdafiə olunmaq üçün mağaraya girir və həmin daşlarla özlərini müdafiə edirmişlər. Maraq doğuran cəhətlərdən biri də ondan ibarətdir ki, mağaranın kənarında içməli su da olmuşdur. Şuşa mağarasının uzunluğu 120 metr, eni 20 metr idi. Mağaranın başlanğıcında qədim və orta əsrlərə aid qalın daş istehkamlar, qala və bina divarlarının qalıqları var idi.[8]

Şuşada aparılan arxeoloji qazıntı tədqiqat işləri nəticəsində mağaranın içərisində 2 metr dərinlikdən Paleolit (qədim daş) dövrünə aid 2 ədəd kobud çapacaq aşkar edilmişdir. Həmin alətlərdən biri Şuşa muzeyinə verilmiş, ikincisi isə, Azərbaycan Milli Elmlər Akademiyasının "Daş əsri" şöbəsində saxlanılır. Bundan əlavə, Şuşa mağarasındakı qazıntı işləri nəticəsində burada bizim eradan əvvəl 5-4-cü minilliklərə aid torpaq və gil qarışığından hazırlanmış qab məmulatı, eneolit, tunc və dəmir dövrünə aid saxsı məmulat qırıqları, mezolitə aid mikrolit bıçaqlar aşkar edilmişdir. Mağarada tapılmış əmək alətlərinin zəngin tarixə malik olduğu sübut edilmişdir. Şuşa mağarasında tapılmış maddi mədəniyyət qalıqları Azıx mağarasının və Quruçay dərəsində yaranan daha



qədim mədəniyyətin davamı idi. Burada tapılmış alətlərə Azıx mağarasındakı kobud daş alətlər arasında bir uyğunluq, oxşarlıq vardır. 240 kvadrat metrlik Şuşa mağarasında müasir insanların əcdadları uzun illər boyu ömür sürmüşlər. Paleolitin erkən və orta dövrlərində Azərbaycan ərazisində insanlar kollektiv əməyə əsaslanmış və kiçik qruplar şəklində yaşamışlar. Onların əsas məşğuliyyəti yığıcılıq və ovçuluq olmuşdur. Şuşa mağarasında yuxarı paleolitə aid çaxmaq daşından bıçaqvari lövhələr və habelə kəsicilər tapılmışdır.

Dağlıq Qarabağ ərazisində mis yataqları olduğu üçün ulu əcdadlarımızın hazırladığı alətlərin çoxu misdən idi. Burada metal məmulatlar – bıçaqlar, bizlər, iynələr, ox ucluqları tapılmışdır. Bu alətlər döymə üsulu ilə hazırlanmışdır. Şuşa mağarasında cilalanmış, naxışlarla bəzədilmiş kobud və saxsı qablara da təsadüf edilirdi. Qabların rəngli boyalarla naxışlanması Azərbaycan eneolit dövrünün başlandığını sübut edirdi. Eyni zamanda qablara naxışvurma Azərbaycanın Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrinin olmasını da göstərirdi. Şuşada tapılmış mikrolit alətlərdən bıçaqlara, bizlərə Qobustanda da rast gəlmək mümkün idi. Həmin alətlər daş dövrünün firuz mərhələsinə aiddir.

Şuşa mağarasında eramızdan əvvəl III-II minilliklərə aid əşyalar tapılmışdır ki, bu əşyalar misə qalay, arsen qatmaqla yaranmışdır. Qədim və Orta tunc dövrünə aid olan əmək alətləri, silah və bəzək əşyaları eynilə I Kültəpədə, Babadərvişdəki əşyalara oxşayırdı. Şuşa mağarasındakı əşyalar üzərində gözəl əl işləri var idi ki, həmin şəkilləri "addımlayan möhürlər" və "oyulmuş qıfıl yerləri" adlandırırdılar. Bütün bunlar isə qədim Şuşa sakinlərində şüurun inikşafını, incəsənətin və mədəniyyətin tərəqqisini göstərən amillər idi. Ağdamın Üzərliktəpə adlanan ərazisindəki əşyalar üzərindəki şəkillərə Şuşa mağarasındakı əşyalar arasında tamamilə bir uyğunluq vardır. Eyni zamanda, Şuşa mağarasındakı əşyalara bütün Quruçay və Köndələnçay arasındakı ərazilərdə də rast gəlinmişdir. Ərazidə eramızdan əvvəl I minilliyə aid əşyalar tapılmışdır ki, bu əşyalar dəmir dövrünə aid idi.

Beləliklə, aparılan tədqiqatlar nəticəsində məlum olur ki, gözəl Qarabağımızın cənnət yaylağı, Oğuz-Türk diyarımız olan barlı-bərəkətli, min bir nemətli Şuşamız dünyada ilk insanların yaşadığı ərazilərdən biri olmuşdur. Dağlıq Qarabağımızın hər bir qarış torpağında, daşında ulu babalarımızın nəfəsi duyulur. Məsələn, Xocalı arxeoloji abidələri (e.ə. 13-7-ci əsrlərə aid), Tağlar mağarasındakı əmək alətlərinin zəngin tarixi (100 min il bundan əvvələ aid), Xankəndindəki kurqanlar (e.ə. 5-3-cü minilliklərə aid), Hadrutdakı memarlıq abidələri və başqa maddi mədəniyyət nümunələri, nəinki, Dağlıq Qarabağda ibtidai insanların yaşamasını göstərir, hətta bu ərazidə yaşayan ən qədim insanların uzun müddət məskən salaraq formalaşmasını, xalqımızın lap qədimdən mədəni, bilikli, bacarıqlı bir xalq olduğunu sübut edir.

Azərbaycanın İrəvan xanlığında özlərinə dövlət yaradan ermənilər bu gün tariximizi saxtalaşdırmağa çalışırlar. Hətta onlar tarixi abidələrimizi özününküləşdirmək üçün bütün yollardan (cinayət işlətməkdən belə) istifadə edirlər. Belə müəlliflərdən biri Ş..Mkrtıçyandır. Onun 1986-cı ildə İrəvanda çap edilmiş "Dağlıq Qarabağın tarixi memarlıq abidələri" adlı əsəri heç bir elmi əsası olmayan, boş bir cəfəngiyyatdır. Ermənilərin "alimi" hesab edilən Ş.Mkrtıçyan Qarabağdakı bütün abidələrin ermənilərə aid olmasını öz kitabında geniş şərh etmişdir. Ş.Mkrtıçyan "erməni xalqı"nın tarixinin başlanğıcını aşel dövrünə aid edir (350-550 min il bundan əvvələ). Əvvəla, Ş.Mkrtıçyan bir həqiqəti bilməlidir ki, 550 min il bundan əvvəl, aşel dövründə müasir insanın heç bir yerdə əcdadı yaşamayıb.[9] Eyni zamanda, həmin dövrdə ptikantrop, sinantrop tipli ibtidai insanlar yaşamışlar. Bütün bunlarla yanaşı, "hörmətli uzaqgörən alim" bir həqiqəti də yaddan çıxarır ki, 350-550 min il bundan əvvəl yer kürəsində heç bir millət və xalq olmayıb.

Erməni yazıçısı Sero Xanzadyan isə Ş.Mkrtıçyanın kitabına geniş həcmli məqalələr həsr etmişdir. Ş.Mkrtıçyanı erməni xalqının "tacı" hesab edən S.Xanzadyan 1986-cı il "Avanqard" jurnalının 5-ci sayında və 1989-cu il (aprel) "Kommunist" qəzetində, həqiqətən Şuşa, Xocalı, Xankəndi, Azıx və başqa tarixi



abidələrimizdəki maddi dəlillərin ermənilərə aid olması fikrini təsdiqləyir. Eyni zamanda, S.Xanzadyan erməni "aliminə" məsləhət görür ki, onun tutduğu yol yaxşı yoldur, təkcə Qarabağ ərazisi yox, həm də Qazax-Şamxor, Şəki-Zaqatala əraziləri də Ermənistana aid olmuşdur və bu sahədə tədqiqat işini genişləndirmək lazımdır. Erməni "alimi" V.Ulubabyan isə "Kommunist" qəzetinin 18 avqust 1988-ci il sayında Dağlıq Qarabağı Ermənistanın Şərq hissəsi olmasını yalançı faktlarla açıqlamağa çalışır. Müəllif Şuşa qalasını "Şoş qalası" adlandırır və həmin qalanın Pənahəli xana erməni Məlik Şahnəzər tərəfindən bağışlanması fikri açıqlanmışdır. Elmə, fakta əsaslanmayan tarix, əsası, bünövrəsi olmayan binaya bənzər. Bu dəfəki erməni yalanı da "ayaq tutsa da, yerimədi". Görünür Ulubabayanlar, Xanzadyanlar, Mkrtıçyanların "Qarabağnamələr"dən xəbərləri yoxdur. Dünyanın 70-dən çox ölkəsində öz naxələf, haqsız işlərinə haqq qazandırmaq üçün təbliğat aparan erməni müəllifləri vaxt gələcək ki, yalançı, saxta, cəfəng uydurmalarına görə xalqımız və dünya ictimaiyyəti qarşısında cavab verəcəklər. Qərəzsiz elmi araşdırmalara əsaslanaraq, qəti surətdə deyə bilərik ki, İrəvan xanlığı da daxil olmaqla, tarixin heç bir mərhələsində Azərbaycan ərazisində heç vaxt ermənilər ayrıca bir dövlət təşkil etməmiş, nə də ermənilərin "Arsax" adlandırdıqları ərazidə (Dağlıq Qarabağda) ermənilər say çoxluğuna qətiyyən malik olmamışlar. Azərbaycanın ərazi bütövlüyü həmişə qorunub saxlanılmışdır. Xalqımızın birliyi əsasında biz yenə də ərazi bütövlüyümüzü bərpa edəcəyik.

XX yuzilliyin 50-60-cı illərində Azərbaycan tarixçiləri dövlətimizin qədim tarixinin öyrənilməsi məqsədilə vacib tədqiqatlar aparmışlar. Azərbaycan tarixinə dair yeni və qiymətli mənbələr – 1949-cu ildə «Azərbaycan tarixinin oçerkləri», 1958-1963-cü illərdə üçillik "Azərbaycan tarixi", "Azərbaycanda Sovet hakimiyyəti uğrunda fəal mübarizələr", "Azərbaycan Kommunist partiyasının tarixi oçerkləri", o cümlədən, sırf Qarabağın tarixinə dair 1950-ci ildə "Qarabağnamə", 1959-cu ildə "Qarabağ tarixi", 1963-cü ildə "Qarabağ

bolşeviklərinin Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizəsi", 1970-ci ildə "DQMV Sovet hakimiyyəti illərində" və başqa əsərlər nəşr olundu.

Bəhs etdiyimiz dövrdə, ictimai elmlər sahəsində – xüsusilə, Azərbaycanın fəlsəfi və ictimai fikir tarixinin öyrənilməsində, filosoflarımızın fəlsəfi fikirlərinin tədqiqində, memarlıq abidələrinin, Azərbaycan klassiklərinin ədəbi irsinin tədqiqində böyük nailiyyətlər əldə edildi. Ü.Hacıbəyovun "Azərbaycan xalqı musiqisinin əsasları", H.Hüseynovun "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən", Ə.Dəmirçizadənin "Azərbaycan dilinin tarixi", "Kitabi Dədə Qorqud dastanlarının dili", F.Qasımzadənin "XIX əsr Azərbaycan ədəbiyyatı tarixinin oçerkləri", H.Araslının "XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi", Ə. Quliyevin, Ə.Əlizadənin, Z.Bünyadovun və başqa alimlərimizin qiymətli tədqiqatları xalqımızın qiymətli, mənəvi sərvətinə çevrildi.

XX yüzilliyin 50-60-cı illərində Azərbaycan SSR-in DQMV-nin müxtəlif sahələrinin əhatə edən əsərlər yazıldı. Belə ki,F.Şuşinskinin "Şuşa" (1968), "M.Qorki adına DQMV-nin kitabxanası" (1962), "DQMV Sovet hakimiyyəti illərində" (1970), "Qarabağ ipəkçilik sənayesi sovet hakimiyyəti illərində" (1957), S.Barsenin "Dağlıq Qarabağ Muxtar Vilayəti" (1963), N.S. Şaxnazarovun "DQMV" (1960), "V.İ.Leninin kooperasiya planının DQMV-də həyata keçirilməsi" (1958), "DQMV-nin dövlət tarixi muzeyinə ekspedisiya" və başqa əsərlər nəşr olundu. Lakin həmin dövrdə yazılmış əsərlərin nəşri irəliyə doğru mühüm addım olsa da, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan DQMV-nin tarixinin bir sıra problemlərinin işlənilməsinin elmi səviyyəsi hələ yüksək deyildi. Təəssüf və təəccüb doğuran bir məsələni xüsusi qeyd etməliyik ki, XX yüzilliyin 50-60-cı illərində DQMV-nin tarixinin tədqiqi erməni müəlliflərinə "qismət" olmuşdur. Yazılan həmin əsərlər isə öz mənafelərinə uyğun qələmə alınmış, yalnız çaşdırma, yanıltma xarakteri daşımışdır. Qarabağımızın qədim, orta və yeni dövrünə aid problemlər özünün dərin və əsaslı tədqiqini gözləyirdi.

Azərbaycan sərvətlərindən, o cümlədən, zəngin yeraltı və yerüstü təbii sərvətlərə malik Dağlıq Qarabağ sərvətlərindən daha çox faydalanmaq üçün



mərkəz, Respublikamızın elmi gücünü artırmağa və ondan səmərəli istifadə etməyə çalışırdı. Bu məqsədlə, 1950-ci ildən bölgəyə ekspedisiya təşkil olunmağa başlandı. Dağlıq Qarabağda çox böyük əhəmiyyətə malik olan faydalı qazıntı ehtiyatları vardır. Belə ki, ərazidə Mezozoy və Kaynazoy erasına aid əhəng daşları, gillər, şistlər aşkar edilmişdir. Tərtərçay və Xaçınçay arasında Ağdərənin Mehmanə yatağında qalay, mis, sink, gips, əhəngdaşı, Hadrutta qranit yataqları, dağlarda xromit, qurğuşun, polimetal filizləri, tikinti materialları, mərmər, gips, üzlükdaşı, mergellər, odadavamlı gil, təbaşir və sair mövcuddur. Ağdərənin Dovşanlı kəndində bülöv daşı və dəyirman daşı istehsalı üçün xammal vardır. Azərbaycanın Dağlıq Qarabağ adlı səfalı bölgəsində dünya miqyasında tanınmış müalicəvi əhəmiyyətli hidrokarbonatlı Turşsu mineral bulağı daha çox məşhuldur. Bununla yanaşı, ərazidə 11 növ müxtəlif tərkibli su sistemləri yerləşir. Bütün bu cəlbedici gözəlliklər və təbii sərvətlərimiz xain qonşularımızın diqqətindən yayınmamış və Qarabağımız işğal olunaraq təbii sərvətlərimiz talan edilib Ermənistana daşınmaqdadır.

Sənayenin xammala olan tələbatını ödəmək və xalq təsərrüfatını inkişaf etdirmək məqsədilə, 1950-ci ildən başlayaraq, Dağlıq Qarabağın florası öyrənilməyə başlandı. Tədqiqatçı alimlərimiz kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını artırmağın həllinə köməklə əlaqədar bitkilərin fiziologiyası və mühafizəsi məsələlərinin tədqiqini genişləndirdilər. Burada üçüncü bir vəzifə də vardır ki, torpağın eroziyasının qarşısı alınsın. Bu məqsədlə, 1950-ci ildə Torpaq-Eroziya Stansiyası yaradıldı. Dağlıq Qarabağın müxtəlif sahələrində nəbatatçı alimlərimizdən – Ə.İ.Quliyevin (1965), V.Z.Quliyevin (1950), İ.S.Səfərovun (1966), N.H.Axundovun (1963) apardıqları tədqiqatlar nəticəsində 1000 hektarla sahədə terraslaşdırma yolu ilə yeni növ bitki plantasiyaları salındı. Hibritləşmə yolu ilə yeni bitki növlərinin yetişdirilməsi məhsuldarlığı 100 faizə qədər yüksəltdi.[10] Məsələn Ə.İ.Quliyev 1965-ci ildə Ağdərə rayonu ərazisində yetişdirdiyi yeni növ qoz ağacının meyvəsi 10,8 qramdan 17,5 qrama, yağlılığı 61 faizdən 71 faizə qalxmışdır. A.Nikitin isə 1959-cu ildə Dağlıq Qarabağ

meşələrində bitən ağacların oduncaqlarının möhkəmliyi, yaraşığı ilə fərqləndiyini göstərmişdir. 1960-cı ildə aparılan tədqiqatlarda Xankəndi rayonunun Sıqnarx kəndi yaxınlığında, Xocavənd rayonunun Tağverd kəndi ətrafında, Hadrut rayonunun Mədətkənd və Böyük Tağlar kəndləri yaxınlığında dəniz səviyyəsindən 1200-1300 metr yüksəkliklərdə şabalıd ağaclarının bitdiyi göstərilirdi. Nəbatatçı alimlər yeni növ şabalıd, fındıq, əzgil, alça, saqqızağacı və sair yetişdirib bölgəyə yaymışlar.

XX yüzilliyin 50-ci illərindən Dağlıq Qarabağda dənli bitkilərin yeni növlərini almaq və mövcud növlərin dəyişdirmək prosesinin öyrənilməsi sahəsində səmərəli işlər aparılırdı. Dağlıq Qarabağ şəraitində seleksiyaçı alimlər tərəfindən yüksək məhsuldar buğda növü olan "Qılcıqsız–1" yetişdirilmişdir.[11] Bütün növlər arasında birinci yerə çıxan həmin növ bölgənin taxılçılıq təsərrüfatlarında yayılaraq əkilmişdir.

DQMV-də sənaye əhəmiyyətli qvaula bitkisi mühüm kənd təsərrüfatı bitgiləri sırasına daxil olmuş və bölgədə 1929-cu ildən əkilməyə başlanmışdır. Dağlıq Qarabağın torpağı və iqlimi qvaula bitgisinin daha geniş ərazilərdə yayılmasına şərait yaradır. Ağdərə rayonunun Marquşavan kəndindəki Elmi Təcrübə Mərkəzində təbii kauçuk verən qvaula bitgisinin daha məhsuldar bir növü – Avqustfoliumun "Pioner-Qarabağ" çeşidi əldə edilmişdir. Həmin növ soyuğa və quraqlığa davamlı olmaqla, məhsuldarlıq əvvəlkindən 2 dəfə yuxarı, 9-10 faiz kauçuk verirdi.[12] Yüksək keyfiyyətli kauçuk əldə etmək üçün əsas baza əldə edildiyindən DQMV-də qvaula əkini sahəsi 1945-ci ilin 156 hektarına qarşı 1951-ci ildə 200 hektara çatdırıldı.

Üzüm yetişdirmək qarabağlıların çoxdankı sənətidir. Lakin qədimdə tənəklər sistemsiz və qaydasız əkilirdi. 1957-ci il Dağlıq Qarabağda üzümçülüyün inkişafında mühüm mərhələ olmuşdur. Həmin il böyük sahələrdə mexanikləşdirilmiş üsulla üzüm plantasiyaları yaradılmış yeni və daha məhsuldar "Rakasteli", "Bayan-Şirey", "Xidoqni" kimi üzüm növləri əkilmişdir.[13] Məhsuldarlığı daha da artırmaq üçün alimlərimiz superfosfaltdan, azot



selitrasından və digər gübrələrdən istifadə olunmasını təkmilləşdirib daha geniş sahələrə tətbiq etdilər.

Misilsiz dada və müalicə keyfiyyətinə malik Şah tut ağacını Dağlıq Qarabağda "ömür ağacı" adlandırırdılar. Tutda şəkərliliyin miqdarı 37 faizə çatdığından ondan müalicəvi əhəmiyyətli bəhməz və spirt hazırlanır. Təsadüfi deyildir ki, DQMV-də yazılmış elmi tədqiqat əsərləri içərisində tut ağacına onun meyvəsinə, yarpaqlarından istifadəyə, əkilməsi və hibritləşməsinə həsr edilmişdir. Məsələn, "Meyvə verən üç növ tut ağacının biokiməyəvi xüsusiyyətləri", "Şah tut ağacı və onun DQMV ərazisində yetişdirilməsi", "Spirt çəkildikdən sonra tut tör-töküntülərindən yem hazırlamaq üsulları" və sair belə əsərlərdəndir. Çox qulluq tələb etməyən, quraqlığa davamlı, əhəmiyyətli şah tut bağları genişləndirilərək 1600 hektara çatdırıldı.[14] Həm də barama qurdu saxlamaq üçün yem bazarı rolunu oynayan tut bağlarını gələcəkdə daha da genişləndirmək nəzərdə tutulmuşdur.

Dağlıq Qarabağın zəngin yaylaqları və biçənəkləri, ümumiyyətlə təbii şəraiti heyvandarlığın inkişafı üçün əlverişlidir. Lakin mal-qaranın cinsinin pis olması heyvandarlıqda məhsuldarlığın aşağı düşməsinə səbəb olmuşdu. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, XX yüzilliyin əvvəllərində Dağlıq Qarabağda baytarlıq xidməti bir həkimdən və 2 feldşerdən ibarət olmuşdur. Azərbaycan hökuməti bölgədə heyvanların cins tərkibinin yaxşılaşdırılması üçün ciddi tədbirlər həyata keçirdi. Belə ki, Dağlıq Qarabağa bacarıqlı mütəxəssis kadrlar göndərildi. Aqromənteqə diaqnoz kabinəsi və damazlıq stansiyası açıldı. Baytar mütəxəssislərin apardıqları elmi təcrübələrə əsasən süni mayalanma sistemi tətbiq olundu. Nəticədə, mal-qaranın cins tərkibi yaxşılaşmış və məhsuldarlıq yüksəlmişdi. Yeni cinslər – "şvits", "lebedenski", "karpat" metisləri vilayətin fermalarında yayılmışdır.

XX yüzilliyin əvvəllərində Qarabağın Qaradolaq kənd sakini məşhur kəllədar Hacı Məhəmmədhüseyinin yeni cins qoyun yaratmaq işini, 50-ci illərdə F.A. Məlikovun rəhbərliyi altında mütəxəssis alimlər tərəfindən davam

etdirilmişdir. Alimlərimiz yarımzərif yunlu, xəstəliyə və təbii amillərə qarşı dözümlü yeni qoyun cinsi – Azərbaycan dağ mernosu yetişdirmək işini başa çatdırdılar.[15] Beləliklə, mütəxəssis alimlərimiz kənd təsərrüfatı heyvanlarının məhsuldarlığını artırmağın bioloci əsaslarını hazırlamaq sahəsində mühüm işlər gördülər.

Dağlıq Qarabağın elmi nailiyyətlərindən danışarkən Harov kənd sakini G.T.İlyenkonun adını xüsusi qeyd etməliyik. İlyenkonun ətrafında Dağlıq Qarabağın mütəxəssis alimləri toplanmışdı. Yeni növ sahəsinin aqranomu İlyenko diyarın kənd təsərrüfatının elmi əsaslarla inkişaf etdirilməsində böyük rol oynamışdır. Alimin ətrafında toplaşan miçurinçilər bol məhsul yetişdirmək bacarığını kənd əməkçilərinə öyrədir müxtəlif bitkilərin ən yaxşı növlərini geniş yayırdılar.

Dağlıq Qarabağın sənaye müəssisələrində elmi yeniliklər böyük müvəffəqiyyətlə tərtib olunurdu. Məsələn, Qarabağ İpək Kombinatının fəhlələri, bəhs etdiyimiz dövrdə, yaradıcılıq və yüksək siyasi şüurluluq nümayiş etdirərək müəssisədə yeni üsul tərtib edib çoxdəzgahçılıq hərəkatını genişləndirmişdilər. Azərbaycan hökümətinin dərin qayğısı nəticəsində müəssisədə işləyən fəhlələr öz təhsillərini ali və orta ixtisas məktəblərində davam etdirirdilər. Nəticədə, həmin müəssisənin fəhlələrinin əksəriyyəti öz ixtiraları və səmərələşdirici təklifləri ilə fərqlənirdilər. Bütün bunlar isə məhsulun əmək məsrəfinin azalmasını, keyfiyyətin və məhsuldarlığın yüksəlməsinə səbəb olurdu.

Dağlıq Qarabağın xalçaçılıq, şərabçılıq, elektrotexnika məmulatları zavodu və başqa müəssisələri Bakıda fəaliyyət göstərən Elmi Tədqiqat İnstitutları ilə əlaqə əsasında yeni qabaqcıl metodları, ixtiraları tətbiq edir və yüksək məhsuldarlığa nail olurdular. Bakı Elmi Tədqiqat və layihə İnstitutları Xankəndi müəssisələrinin genişləndirilməsi və yenidən qurulması, istehsalın texnalogiyasının təkmilləşdirilməsi üçün faydalı işlər aparmışlar.

XX yüzilliyin 50-60-cı illərində DQMV-nin relyefi, geoloji quruluşu, iqlimi, daxili suları, torpaq və bitki örtüyü, landşaftı, iqtisadi-coğrafi mövqeyinin



öyrənilməsi işi uğurla davam etdirilirdi. Bu işdə E.Ş.Şıxalıbəylinin (1966), Quliyevin (1966), Tanrıverdiyevin (1967), Şirinovun (1967), V.Q. Zavaryevin (1948), B.T.Nazirovanın (1949) və başqalarının xidmətləri böyük olmuşdur.[16]

Azərbaycan alimləri DQMV-də enerci ehtiyatlarını aşkara çıxarır, ondan düzgün istifadə olunması şərtlərini müəyyənləşdirir, mövcud enerci sistemlərinin səmərələşdirilməsi üsullarını işləyib hazırlayırdılar. Belə enerji mənbələrindən biri Tərtər çayı üzərində Madagiz kəndi yaxınlığında, əsası 1938-ci ildən qoyulan və müharibənin başlanması ilə tikintisi dayandırılan Sərsəng SES idi. Sərsəng SES məşhur Sovet energetika alimi Q.O.Qrattionun müddəalarına, böyük təcrübəyə, dərin biliyə malik mühəndis alim Bəxtiyar Məmmədovun layihəsinə və T.V.Prokofyeviçin dəqiq hesablamalarına əsaslanmışdır. Həmin hidrotexniki qurğu 1965-1976-cı illərdə tikilib istifadəyə verilmişdir. Qovşağın torpaq bəndinin hündürlüyü 130 metr, suaşırma qabiliyyəti 900 $m^3$ san. idi. Elektrik stansiyasının gücü 50 min kvat və 565 milyon $m^3$ su anbarından ibarətdir.[17]

Azərbaycan SSR DQMV-də 1940–cı ildən Azərbaycan Yazıçılar İttifaqının Vilayət Birliyi yaranmışdır.[18] Çox təəccüblə qeyd etməliyik ki, aparılan tədqiqatlar nəticəsində, DQMV-nin "Ədəbiyyat və incəsənət" mövzusunu əhatə edən əsərlər nəzərdən keçirilərkən dünya ədəbiyyatına N.Vəzirov, Ə.Haqverdiyev, S.S.Axundov, Y.V.Çəmənzəminli kimi görkəmli ədiblər bəxş etmiş Qarabağ torpağında onların davamçılarının adları çəkilmir. Yalnız V.Akopyan, O.Qabrelyan, R.Beqlaryan, V.Ovyan, İ.Alaverdiyan, M.Avanesiyanların adları böyük fəxrlə vurğulanır. Burada yaşayanlar Nəvvabın, Zakirin, Natəvanın övladları deyilmi? Məkan dəyişməyib. Dəyişən zaman və insanlardır. Məkirli niyyət, mənfur siyasət sahibləri torpaqlarımıza köçürüldükdən sonra dərin düşüncəli azərbaycanlıları sıxışdırmağa, süni əngəllər yaratmağa və ərazidən uzaqlaşdırmağa başladılar. Bütün bunlar isə sonrakı dövrdə öz mənfi nəticələrini verdi.

XX yüzilliyin 50-60-cı illərində, başqa sahələrdə olduğu kimi, Vilayətdə incəsənət də inkişaf etməkdə idi. M.Qorki adına Xankəndi Dövlət Dram Teatrı

XX əsrin 20-ci illərində həvəskar dram dərnəyi şəkilində fəaliyyətə başlamış və 1932-ci ildən dövlət teatrı kimi təşkil edilmişdir. 1950-ci ildən M.Qorki adına Xankəndi Dövlət Dram Teatrının (XDDT) təşkilar və yaradıcılıq həyatında müəyyən dönüş yarandı. İnsanların mənəvi həyatını və qəhrəmanlığını əks etdirən tamaşalar yaradılmağa başlandı. Bəhs etdiyimiz dövrü, əhatə edən tamaşalar səhnələşdirildi. "Mühasirə" pyesinin tamaşası ilə fəaliyyətə başlayan XDDT-da A.Şirvanzadənin "Xaos", Nar dosun "Öldürülmüş göyərçin", V.Şekspirin "Hamlet", "Otello", M.Qorkinin "Həyatın dibində", C.Cabbarlının "Sevil", "1905-ci ildə", "Almas", "Yaşar", S.Vurğunun "Vaqif", İ.Əfəndiyevin "Bahar suları", "Sən həmişə mənimləsən", Ə.Məmmədxanlının "Şərqin səhəri", H.Muxtarovun "Ailə namusu", İ.F.Popovun "Ailə", M.Şamxalovun "Qaynana" və digər əsərlər tamaşaya qoyulmuş və illər boyu rəğbətlə qarşılanmışdır.

Bu dövrdə, 50-60-cı illərə dair tamaşalardan S.Rəhmanın "Nişanlı qız", İ.Səfərlinin "Göz həkimi" pyeslərində xalqın müxtəlif təbəqələrinin surətləri yaradılmışdır. H.Seyidbəyli və İ.Qasımovun «Uzaq sahillərdə», Ə.Məmmədxanlının «Od içində» tamaşalarında isə sülhsevər siyasət və milli azadlıq hərəkatını boğmağa çalışanlar ifşa olunurdu. XDDT yarandığı vaxtdan 70-ci illərədək olan dövrdə 300-dən çox pyesi tamaşaya qoyulmuş və bu tamaşalara 5 milyondan artıq adam baxmışdır[19]. XDDT sənaye, kənd təsərrüfatı müəssisələrinə, tikintilərə, məktəblərə tex-tez qonaq gedir, böyüməkdə olan nəslin ideya-siyasi, estetik və bədii tərbiyəsinin formalaşmasına sanballı töhfə vermişlər. Lakin aparılan araşdırmalar nəticəsində məlum olur ki, tamaşalar yalnız ermənilərin daha çox cəmləşdiyi kəndlərdə nümayiş etdirilirdi. Bunun əsas səbəbi, bir tərəfdən, azərbaycanlılar yaşayan kəndlərdə tamaşaların göstərilməsi üçün yer problemi ilə bağlı idisə, ikinci tərəfdən, XDDT-nın truppasının tərkibinin sırf ermənilərdən ibarət olması ilə bağlı idi.

Dağlıq Qarabağ Dövlət Mahnı və Rəqs ansamblı 1959-cu ildən fəaliyyət göstərməyə başlamışdır. Bəhs etdiyimiz illərdə, DQMV-də "Qarabağ" Dövlət Estrada orkestri də, rəngarəng çıxışları ilə şöhrət qazanmışdır. Onların repertuarı



zəngin və rəngarəngdir. Bu kollektivlər şəhər və kənd sakinləri qarşısında SSRİ-nin bütün mahnı və rəqslərini fəal təbliğ edirlər. Hər 2 kollektivin qastrol səfərlərinin coğrafiyası genişdir. Həmin səfərlərin marşrutuna Ukrayna, Belarusiya, Ermənistan, Moldafiya, Gürcüstan, Şimali Qafqaz, Arxangelsk, Rostov, Baykal-Amur və başqa ərazilər daxil idi.

XX-yüzilliyin 50-60-cı illərində Şuşa şəhərində xalq çalğı alətləri ansamblı və dram kollektivi də fəaliyyət göstərirdi. Şuşa gözəl Qarabağın gözüdür desək şişirtmə sayılmaz. Sıldırım qayalar sinəsində bərqərar olan Şuşa Azərbaycanın təbii konservatoriyası, musiqi sənətinin ocağı olmuşdur. Təsadüfi deyildir ki, XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə var idi.[20] M.M.Nəvvabın, H.H.Niftalıoğlunun, X.B.Nətavanın işi XX yüzillikdə çox böyük müvəfəqiyyətlə davam etdirilmişdir. Azərbaycanın mədəni mərkəzlərindən olan Şuşa şəhəri Respublikamızda və hətta dünya miqyasında tanınmış istedadlar – görkəmli ədiblər, bəstəkarlar, incə səsli xanəndələr, memarlar, xəttatlar, nəqqaşlar, rəssamlar yetişdirmişdir. Məşədi Cəmil Əmirovun, Süleyman Ələsgərovun, Zülvüqar Hacıbəyovun, Sultan Hacıbəyovun, Üzeyir Hacıbəyovun və başqa bəstəkarlarımızın yaradıcılığı təkrarsız milli özünəməxsusluğu ilə səciyyələnmişdir. Şuşa həm də yüksək ifaçılıq sənəti ilə seçilən Keçəçi oğlu Məhəmmədin, Qacar Sürəyyənin, Əbdülbaqi Zülalovun, Cabbar Qaryağdıoğlunun, İslam Abdullayevin və başqa xanəndələrin vətənidir. Şuşa təkcə xanəndə və bəstəkarları ilə seçilmirdi. Burada, həm də tarizanlarımızdan Həmid Malıbəyli, Qurban Pirimov, Zeynal Qarabağı, Məşədi Cəmil, Sadıqcan, gözəl qarmon ustası Abıtalıb Yusifov, Lətif Əliyev və başqaları dünyaya göz açmışlar. XX yüzilliyin 50-60-cı illərində Azərbaycanı İttifaq miqyasında və dünyada tanıdan M.Bülbülün, R.Behbudovun, S.Şuşinskinin, X.Şuşinskinin və başqalarının adlarını fəxrlə çəkə bilərik.

Bəhs etdiyimiz dövrdə, Şuşada yaşayıb yaratmış Mirzə Xosrov Şaiq (1889-1960) Azərbaycan maarifçisi, pedaqoqu və şairi adlarına layiq görülmüşdür. Mirzə Xosrovun ən mühüm xidmətlərindən biri Şuşada yaşayan azərbaycanlı

qızlarının təhsilə cəlb etməsi olmuşdur. Ömrünü millətinin maariflənməsinə həsr edən Mirzə Xosrov, həm də "Məclisi Fərmuşan"ın üzvü idi və "Şaiq" təxəllüsü ilə şerlər yazmışdır.

Azərbaycan musiqisinin inkişafına istedadlı özfəaliyyət kollektivlərinin yaradıcılığı kömək edirdi. 1960-cı ilin əvvəllərində Bakıda keçirilmiş "Özfəaliyyətə Respublika baxışı" tədbirində Şuşa xalq çalğı alətləri üçlüyü, müxtəlif janrların ifaçıları, xor və rəqs kollektivi də iştirak etmiş və yüksək səviyyədə qarşılanmışdır.

1958-ci ildə DQMV-nin Xocavənd rayonunda "Knar" ("lira") özfəaliyyət ansamblı yarandı.[21] Bu kollektiv Qarabağın şəhər və kəndlərində, habelə, Ermənistanda, Gürcüstanda, Şimali Qafqazda çıxışlar etmişdir. Xocavənd özfəaliyyət kollektivi Moskvada keçirilən özfəaliyyət yaradıcılığının birinci ümumittifaq festivalında iştirak etmiş və festivalın qızıl medalı ilə təltif olunmuşdur. Həmin festivalda kollektivin 15 üzvünə istedadlarına görə qızıl medallar verilmişdir. Kollektivin 25 müxtəlif fəxri fərmanı vardır.

1970-ci ildə DQMV-də 600-dən çox özfəaliyyət dərnəyi və birliyi fəaliyyət göstərirdi ki, bunlara 7 mindən çox həvəskar cəlb edilmişdir.

XX yüzilliyin 50-60-cı illərdə bir tərəfdən Sovet ateist təbliğatı, ikinci tərəfdən, namərd erməni rəhbərlərinin xəyanətkar siyasəti nəticəsində DQMV ərazisində islam dini sıxışdırılır, məscidlərimiz dağıdılırdı. Lakin bölgədə yaşayan müsəlmanlar öz milli-mənəvi ənənələrini qoruyub saxlamağa çalışır, dini bayramlar, milli mərasimlər gizli qeyd olunur, müqəddəs ocaqlar ziyarət edilir və məscidlərimizin sayı az da olsa fəaliyyətlərini davam etdirirdilər.

Beləliklə, 1950-1960-cı illərdə Azərbaycan SSR-in DQMV-də Sovet hökuməti kommunist idealogiyasının hakim mövqe tutması siyasətini davam etdirir, insanların beyninə sosializm cəmiyyətinin ədalətli, dostluğun, azadlığın qarantı olması ideyası yeridilirdi. Mərkəzi hökümətin bu siyasəti ilə yanaşı, məkirli niyyət sahibi olan ermənilər böyüməkdə olan erməni gənclərinə gizli yollarla "müsəlmanların onlara düşmən olması", qədim torpağımız "Qarabağın



Ermənistana mənsubluğu" və sair bədnam ideologiya da əlavə edilmişdi. Dağlıq Qarabağ ərazisində yeni faydalı qazıntı, tikinti materialları yataqları və mineral su mənbələri aşkar edilərək Moskvaya və Ermənistana daşınırdı. Mərkəz, Azərbaycan alimlərinin gücündən səmərəli istifadə etməklə kənd təsərrüfatı və sənayenin üstün və sürətli inkişafına nail olmuş öz hərbi gücünü, və beynəlxalq nüfuzunu artırmışdır.

# XIII FƏSİL.

## XX YÜZİLLİYİN 50-60-CI İLLƏRİNDƏ ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI NÖVBƏTİ ƏRAZİ İDDİALARI VƏ NƏTİCƏLƏRİ.

Bütün XX yüzillik boyu Ermənistanın və onun "uzaqgörən" dövlət xadimlərinin, erməni siyasətçilərinin Azərbaycana qarşı əsassız ərazi iddiaları mövcud olmuşdur. Azərbaycanın qədim, tarixi torpaqları hesabına özlərinə Vilayət yaradıb sonralar 20 min kvadrat kilometr ərazimizi də birləşdirərək 29 min kvadrat kilometrlik bir ərazidə Ermənistan dövləti yaradan xain qonşularımız çox təəssüflər olsun ki, bununla kifayətlənmədilər.[1] Növbəti hədəf Azərbaycanın bol və bərəkətli ərazisi olan Dağlıq Qarabağ seçilmişdi. 1920-1940-cı illərdə Dağlıq Qarabağı Azərbaycandan qopara bilməyən ermənilər bu məsələyə 1950-1960-cı illərdə yenidən qayıtdılar. 1948-1953-cü illərdə Ermənistan SSR-də yaşayan azərbaycanlıların 150 min nəfəri doğma yurdlarından zorla çıxarıldı, insan hüquqları kobudcasına pozuldu.[2] Minlərlə azərbaycanlı, xüsusilə, uşaqlar və qocalar kəskin iqlim dəyişikliyinə dözməyərək həlak oldular. Min illər boyu azərbaycanlıların yaşadıqları torpaqlar boşaldıqdan sonra buraya xaricdən ermənilər köçürüldü. Maraqlı cəhət ondan ibarətdir ki, Azərbaycana köçürülmüş həmvətənlərimizin DQMV-də yerləşdirilməsinə hər vasitə ilə maneə oldular. Əslində, Ermənistan SSR-in dağlıq rayonlarından köçürülən azərbaycanlılar təbii şəraiti köçdükləri rayona uyğun olan Dağlıq Qarabağda yerləşdirilsəydilər daha ədalətli olardı. Təəssüflər olsun ki, bu belə olmadı. 1948-ci ilin avqustunda Ermənistan SSR-dən DQMV-nin Xocavənd rayonuna 131 təsərrüfat (570 nəfər) köçürüldü. Bundan 86 təsərrüfat (355 nəfər) Qişi kəndində, 17 təsərrüfat (82 nəfər) Güney-Cartaz kəndində, 25 təsərrüfat (120 nəfər) Xunuşak kəndlərində yerləşdirilmişdilər.[3] Köçürülən əhali DQMV-də çox acınacaqlı vəziyyətlə qarşılaşmış və bu barədə mərkəzə məlumat vermişdilər. Vəziyyətlə yerində tanış olmaq üçün Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə idarəsinin



nümayəndəsi Əbdürəhmanov, DQMV İcraiyyə Komitəsinin sədr müavini Kərimov, Vilayət Daxili İşlər İdarəsinin rəis müavini Venediktov və Vilayət Partiya Komitəsinin kənd təsərrüfatı şöbəsi müdirinin müavini Süleymanyanın iştirakı ilə nümayəndə heyəti Xocavənd rayonuna gəldilər. Doğrudan da, burada yoxsulluğun son həddini yaşayan insanlarla rastlaşdılar. Mövcud vəziyyətlə bağlı Mərkəzə "arayış" hazırlandı. Həmin arayışda göstərilirdi: DQMV-ə köçürülənlər üçün son dərəcə dözülməz şərait yaradılıb. Xocavənd Rayon Xalq Maarif Şöbəsinin müdiri Ulubabyan "gəlmə" azərbaycanlılara həqarətlə baxır, onların uşaqlarının təhsilə cəlb olunması üçün heç bir tədbir görmür, hətta buna maneə olurdu. Güney-Çartaz kəndində heç bir səbəb olmadan azərbaycanlı müəlliməni Azərbaycan dili dərsi deməkdən kənar edərək, bu iş müvafiq ixtisası olmayan məktəb müdirinə tapşırılmışdı. Xunuşak kəndində Azərbaycan qrupu olmadığı üçün azərbaycanlı uşaqları çətin iqlim şəraitində Qişi kəndinə gedib-gəlməli olurlar. Köçkünlərin heç birinin torpağı, işi yoxdur. Çoxuşaqlı ailələrdə vəziyyət xüsusilə dözülməzdir. 8 uşaq anası Qəmər Abbasova, 6 uşaq anası Gübrə Babayevanın və başqalarının özləri və ailə üzvləri heç bir yerdə işləmirlər.[4] Yoxlama aparılan gün həmin ailələrdə yeməyə çörək belə yox idi. Ermənistan SSR-dən DQMV-nə köçürülənlər heç bir şəraiti olmayan uçuq daxmalarda yerləşdirilmişdər. Onlara ev tikmək üçün ayrılan tikinti materialları Horadiz stansiyasında yatıb qalır. Xocavənd rayon rəhbərliyi, Rayon İcraiyyə Komitəsinin sədri Əmirxanyan, Rayon Partiya Komitəsinin katibi Baxışyan köçürülənlərin şikayətlərinə etinasız yanaşır və heç bir tədbir görmürlər.[5]

Rayon rəhbərliyinə yuxarıdakı məsələ ilə bağlı ciddi tapşırıqlar verilsə də heç bir nəticəsi olmadı. Ona görə də, köçkünlər Azərbaycan Hökumətinə yenidən müraciət edəsi oldular. Bu dəfə Azərbaycan SSR Köçürmə İdarəsinin rəisi N.Allahverdiyev özü Xankəndinə gəldi. Vəziyyətlə tanış olduqdan sonra Azərbaycan SSR Nazirlər Sovetinin Sədr müavini İ.K.Abdullayevə məlumat hazırladı. Həmin məlumatda göstərilirdi ki, Xocavənd rayonuna Ermənistandan köçürülən azərbaycanlılar çox acınacaqlı vəziyyətdə yaşayırlar. Əhali burada

qalmağa qəti etiraz edir. Çünki onların yaşayışı üçün heç bir torpaq sahəsi yoxdur. Yaxşı olar ki, Xocavənd rayonundakı köçkünləri daha yaxşı torpaq fonduna malik Ağdərə rayonuna göndərək.[6]

Təəssüflər olsun ki, bu təklif də, kağız üzərində qaldı. Xocavənd rayonuna köçürülənlər isə ərazidən qaçıb dağılmağa məcbur oldular. Beləliklə, 1948-1953-cü illərdə Ermənistan SSR-dən köçürülən azərbaycanlılardan bir nəfər də olsun Azərbaycan SSR-in DQMV ərazisinə buraxılmadı. Əksinə "daxili köçürmə" adı altında 1949-cu ildə DQMV-dən 132 azərbaycanlı ailəsini (549 nəfəri) Azərbaycan SSR-in Xanlar rayonuna köçürmüşlər.[7] Həmvətənlərimizə qarşı erməni daşnakları tərəfindən genosid siyasəti tətbiq etməsi, öz etnik tarixi torpaqlarından didərgin salınması "Böyük və Türksüz Ermənistan" yaratmağın tərkib hissəsi idi. Ermənilərin say çoxluğunu yaratmaq üçün DQMV-də boş qalmış Azərbaycanlıların kəndlərinə müxtəlif bəhanələrlə, gizli və aşkar yollarla ermənilər köçürüldülər.

XX yüzilliyin 50-ci illərində Azərbaycanın ictimai-siyasi həyatında ciddi deformasiya və dəyişikliklər baş verdi. 1953-cü ildə İ.V. Stalin vəfat etdi. Onun yerini N.S.Xuruşşov tutdu. Azərbaycan KP MK-nin 1953-cü il iyul plenumu M.C. Bağırovu ziyankarlıqda, qüsurlu rəhbərlik metodlarında, kadrlara səmərəli fəaliyyət üçün şərait yaratmamaqda və başqa əməllərdə təqsirkar bilinib vəzifəsindən kənarlaşdırıldı.[8] Maraqlı cəhət M.C.Bağırova güllələnmə cəzası verilərkən söylədiyi son söz idi. O, ittihamnamənin qərəzli olduğunu bildirsə də, öz günahlarını etiraf edərək demişdir: "Mənim əsas səhvim odur ki, Sumbatov, Borşov, Qriqoryan, Markaryan və başqalarına göz yummuşam, onların iç üzünü tanımamışam. Mən onlara inanaraq XDİN orqanlarını onlara etibar etmişəm. Bu işdə xalqım qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək azdır, asmaq azdır, məni şaqqalamaq, parça-parça etmək lazımdır".[9]

1954-cü il fevralın 16-da İmam Daşdəmir oğlu Mustafayev Azərbaycan KP MK-nın birinci katibi seçildi[10]. Həmin vaxtdan xalqın vəziyyətinin yaxşılaşdırılması, milli, mənəvi dəyərlərin, mədəniyyətin, elmin, təhsilin inkişafı,



xalq təsərrüfatının tərəqqisinə cəhdlər edildi. 1956-cı ildən Azərbaycan dili rəsmi dövlət dili elan olundu və rəsmi sənədlər, kargüzarlıq işləri Azhərbaycan dilində aparılmağa başlandı. Günahı olmayan minlərlə azərbaycanlı mühacirə bəraət verildi. Vaxtilə güc orqanlarında işləyən Y.D.Sumbatov – Topurdze, X.Qriqoryan, T.Borşov, S.Yemelyanov, R.Markaryan vəzifəpərəstlikdə, millətçilikdə, xarici kəşfiyyatlarla əlaqədə və Azərbaycan xalqına qarşı törətdikləri qanlı əməllərə görə təqsirli bilinib güllələnmə cəzasına məhkum edildilər[11]. Azərbaycanda baş vermiş bütün bu milli dirçəliş meyilləri mərkəzdə kök salmış şovinist mövqeli hakim dairələri çox narahat etmiş və Azərbaycan rəhbərliyinə qarşı təqiblər başlanmışdır. Mərkəz, xalqı qorxutmaq, özündən asılı vəziyyətdə saxlamaq üçün "Dağlıq Qarabağ məsələsini" yenidən ortaya atdı. Çünki, Rusiya dövləti həmişə "parçala və ağalıq et" siyasətindən istifadə etmişdir və 50-ci illərdə Azərbaycan xalqının milli özünüdərkini hiss edib yenidən millətlərarası ədavəti qızışdırdı. Bu işdə ermənilərdən bir alət kimi istifadə edilmişdir və bu gündə edildi. Elə əslində Azərbaycan torpağında Ermənistan dövləti yaratmaqda Rusiyanın məqsədi, yeri gəldikcə onların gücündən bir "qaba silah" kimi istifadə etmək olmuşdur. "Böyük Ermənistan" dövləti yaratmaq ideyası erməni millətçilərinin şüuruna, əqidəsinə hopdurulmuş və yeri gəldikcə məxirli niyyət sahibləri bu məsələni qızışdırmış, milyonlarla həmvətənlərimizin məhv olması, yerindən-yurdundan didərgin düşməsi ilə nəticələnmiş və Rusiya dövləti bu qaba siyasətlə möhkəmlənmişdir.

1950-ci illərdən başlayaraq "Daşnaksutyun" partiyasının Ermənistanda fəaliyyəti genişləndi. Aparılan tədqiqatlar nəticxəsində məlum olur ki, təkcə 1957-ci ildə Ermənistanın müxtəlif ali təhsil müəssisələrində "oxumaq" adı altında dünyanın 20 ölkəsindən 700 "Daşnaksutyun" partiyasının fəal təbliğatçıları Yerevan şəhərinə gəlmiş və keçmiş SSRİ məkanında sərhədlər açıq olduğundan, oradan da, Azərbaycan SSR-in DQMV ərazisinə getmişdilər. Həmin daşnak təbliğatçıları azərbaycanlılara şər atır, azərbaycanlıların milli

hissləri ilə oynayır, müsəlmanlara qarşı nifrət ruhu oyadır, azad, müstəqil və "Böyük Ermənistan" yaratmaq ideyasını təbliğ edirdilər[12].

İstər Azərbaycan SSR-in DQMV-də, istərsə də Ermənistanda erməni əhalisi arasında aparılan təbliğat öz nəticəsini verdi. 1957-ci ilin sonlarında Ermənistan SSR-nin və Azərbaycan SSR-in DQMV-nin erməni əhalisi Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etməyə başladılar. Moskvaya dəstə-dəstə məktublar, müraciətlər yazıldı. Məsələnin daha da, dərinləşməsini məqsədəmüvafiq hesab edən Mərkəz bu məsələyə cavab verməkdə tələsmirdi. Bu isə ermənilərin daha da fəallaşmasına şərait yaratdı. Hətta erməni katalikosu II Vazgen 1958-ci ilin əvvəllərində Bakıya səfəri zamanı Respublikamızın Nazirlər Sovetinin sədrinə Dağlıq Qarabağın Ermənistana verilməsi xahişini etmişdir. Hətta din xadimi olan II Vazgen Bakıda erməni ruhani seminariyasının açılmasını, hər səhər şəhərin mərkəzində yerləşən erməni kilsəsinin zəng vurmasına icazə verilməsini təklif etmişdir. Lakin bu təkliflərə Azərbaycan hökuməti rədd cavabı vermişdir[13]. Belə bir şəraitdə, Ermənistanda antitürk əhvali-ruhiyyəsi yenidən qızışdırılmışdı. İlk növbədə, Ermənistan SSR-də yaşayan Azərbaycan ziyalılarınana qarşı mənəvi terror törədildi. Belə ki, 1930-cu illərdən yaradılmış X.Abovyan adına Yerevan Pelaqoci İnstitutunun Azərbaycan bölmələrinin (Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, fizika və riyaziyyat fakültələrinin) əyani və qiyabi şöbələri bağlandı. Bunların əvəzində, 1955-ci ildə 25 nəfərdən ibarət bir azərbaycanlı qrupu təşkil edildi.[14]

Ermənistanda müəllim kadrlarının hazırlanmasında mühüm rol oynayan 1925-ci ildə təşkil edilmiş Yerevan Azərbaycan Pedaqoci Texnikomu ləğv edilib Azərbaycanın Xanlar rayonuna köçürüldü. Ermənistanda fəaliyyət göstərən C.Cabbarlı adına Dram Teatrı, Azərbaycan dilində çıxan rayon qəzetləri və 6 nəşrləri bağlandı.[15] Ermənistanda və DQMV-də "Qarabağ hərəkatı" xeyli leqallaşdı. Nəticədə, Ermənistanda ali və orta ixtisas təhsili müəssisələri olmadığından minlərlə azərbaycanlı öz təhsillərini davam etdirmək üçün Azərbaycana gəlir, Ermənistanda iş yerləri "olmadığından" Azərbaycanda



qalmağa məcbur olurdular. Beləliklə, XX yüzilliyin 50-ci illərinin ortalarından Ermənistandakı azərbaycanlıların Azərbaycana yeni axını baş verdi.

Dağlıq Qarabağın Ermənistana verilməsi məqsədilə DQMV-də ermənilər mitinqlər keçirməkdən belə çəkinmirdilər. Azərbaycanın dövlət və hökumət rəhbərləri "Dağlıq Qarabağ məsələsi"ndə çox həyəcanlı idilər. Çünki onlara bir acı həqiqət məlum idi ki, ermənilərin Moskvada güclü arxaları var. Lakin mərkəz sərhəd dəyişikliklərinin mübahisəli ərazilər olan digər respublikalarda arzuedilməz reaksiyalar doğuracağından çəkinərək Azərbaycanda məkirli siyasətindən çəkindi.

1959-cu ildə İ.Mustafayev, ermənilərin bilavasitə təzyiqi ilə, millətçilikdə təqsirləndirilib vəzifədən azad edildi. Onun yerinə Vəli Axundov təyin olundu.[16] 60-cı illərdə Mərkəz Azərbaycanı qorxu altında saxlamaq üçün A.Mikoyan və M.Suslovun təşəbbüsü ilə növbəti dəfə Azərbaycan SSR-in DQMV-ni Ermənistana vermək məsələsini yenidən qaldırdılar. Moskvanın köməyi ilə Azərbaycanda erməni lobbisi yaradıldı. 1940-cı illərdə Yerevanda gizli fəaliyyətə başlayan "Qarabağ komitəsi" 60-cı illərdə açıq fəaliyyətə keçmişdi. Onlar gizli olaraq DQMV-nin erməni əhalisi ilə də əlaqə saxdayırdılar. 1960-cı ildən Kaputukyanın rəhbərlik etdiyi "Qarabağ Komitəsi" Dağlıq Qarabağa gəldi və xalqın içərisində açıq fəaliyyət göstərməyə başladı. Xaricdən güclü maliyyə dəstəyi alan "Qarabağ Komitəsi" DQMV ərazisinə müxtəlif dövlətlərdən erməni abidələri gətirməyə başladılar.[17] Moskvaya isə məlumat verildi ki, DQMV-də qədimdən mövcud olan erməni abidələrini bərpa etmək və qorumaq məqsədilə fəaliyyət göstərirlər. Əslində, 60-cı illərdə Qarabağ kömitəsinin DQMV-də fəaliyyəti 2 istiqamətdə qurulmuşdu: bir tərəfdən, DQMV ərazisində ermənilər arasında antitürk, antiazərbaycan təbliğatı aparmaq və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə nail olmaq; ikinci bir tərəfdən, kənardan gətirdikləri "Maddi dəlillərlə" Dağlıq Qarabağın tarixən ermənilərin yaşadığı ərazi olmasını "faktlar"la sübuta yetirmək. "Tarixi abidələrin bərpası" adı altında DQMV ərazisində xalqımızın qədim maddi mədəniyyət abidələri

dağılmağa başlandı, əvəzində isə qaniçən erməni cəlladlarının heykəlləri ucaldılır və ya başqa dövlətlərdən pulla alıb gətirdikləri, üzərində xaç nişanı olan əşya ilə əvəzləşdirilirdi.

"Böyük Ermənistan" yaratmaq ideyasilə tarixi və tarixi abidələri zorla erməniləşdirənlərə, hətta, Tbilisinin və Gürcüstanın qədim erməni əraziləri elan edənlərə qarşı böyük gürcü mütəfəkkiri İ.Q. Çavçavadze "erməni alimləri və göz yaşı tökən daşlar" kitabında çox tutarlı cavab vermişdir.[18]

1964-cü ildə "Qarabağ Komitəsi"nin fəal üzvlərində oan Maksim Hovonesyan yüzlərlə erməninin iştirakı ilə DQMV-nin ermənistana birləşdirilməsi üçün SSRİ Ali Sevetinə müraciət ünvanladı. Müraciətdə, DQMV-də çətin iqtisadi vəziyyətdə yaşadıqlarından, Azərbaycan hökuməti tərəfindən sıxışdırıldıqlarından geniş bəhs olunmuşdur.[19] 1964-cü ildə SSRİ Ali Sovetinin sədri A.İ.Mikoyan DQMV-də ermənilərin yazdığı müraciəti N.S.Xuruşşova təqdim edir. Eyni zamanda təklif edir ki, 10 il əvvəl Krımın Ukraynaya müvəffəqiyyətlə verilməsi təcrübəsini nəzərə alaraq Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistana birləşdirsin. Lakin N.S.Xruşşov başa düşürdü ki, SSRİ məkanında 30-a qədər milli münaqişə ocağı var. Əgər "Dağlıq Qarabağ məsələsi"ni Ermənistanın xeyrinə həll etsə, onda bu arzuedilməz nəticələr verə bilər. Həmin vaxt N.S.Xruşşov A.İ.Mikayana konkret belə cavab vermişdi: "DQMV ermənilərini bir sutka ərzində Ermənistana köçürmək üçün 12 min yük maşını verməyə hazıram".[20]

Moskvada Dağlıq Qarabağ məsələsini öz xeyirlərinə həll edə bilməyən ermənilər 1960-cı illərin ortalarından Ermənistan SSR-də növbəti dəfə antiazərbaycan hərəkatını qızışdırdılar. Onlar, 1965-ci ildə uydurma "erməni genosidi"nin 50 illiyin və Azərbaycan xalqının qəddar düşməni cəllad Andronikin anadan olmasının 100 illiyini erməni diasporunun təsiri və A.Mikoyanın bilavasitə köməyi ilə keçirilməsinə razılıq aldılar. 1965-ci il aprelin 23 Yerevan şəhərində 400 min nəfərlik ermənının nümayişi keçirildi.[21] Nümayişçilər "Dağlıq Qarabağ bizimdir", "Naxçıvan Ermənistan torpağıdır",



"Qərbi Ermənistan (Yəni Anadolu) Ermənistana birləşməlidir", "Ermənilər, 1915-ci ilin qisasını almaq vaxtıdır" və sair antitürk, antiazərbaycan şüarları ilə çıxış edirdilər.[22] Hər yerdə açıq fəaliyyətə başlayan Daşnaksutyun partiyası bir il müddətində əhalini dinc oturmağa imkan vermədi. Azərbaycanlılar öz ata-baba yurdlarından yenidən sıxışdırılıb çıxarılmağa başlandı. DQMV-də isə Mərkəzdən və Ermənistandan güclü dəstək alan ermənilər azərbaycanlılara qarşı hər yerdə ayrı-seçkilik yaradır və sıxışdırırdılar. Azərbaycanlılar yaşayan kəndlər doğrudan da xarabalıqları xatırladırdı. Bütün bünlar Azərbaycan hökumətinin gözləri qarşısında baş verirdi. Vəziyyətə nəzarət etmək, Dağlıq Qarabağın Azərbaycanlılar yaşayan kəndlərinə azda olsa kömək etmək məqsədilə Azərbaycan hökuməti 1967-ci ilin yanvarında vəsait ayırdı. Bu hadisəyə erməni lobbisi ciddi müqavimətlə cavab verdi. Hətta həmin vaxt Dağlıq Qarabağ Muxtar Vilayətində bir neçə azərbaycanlı qətlə yetirildi. Onlarla həmvətənimiz bədən xəsarəti aldı.[23]

1965-ci ilin aprelin 23-25-də istər Ermənistanda, istərsə də Azərbaycan SSR-in DQMV-də ermənilərin xalqımıza qarşı başladığı növbəti antiazərbaycan hərəkatına siyasi qiymət verərkən belə qənaətə gəlmək olar ki, bu hərəkat dini zəmində baş verməmişdi. Hərəkatın başında katalikos dayansa da, "gözə görünməyən" rəhbərlik Moskvada yüksək kresloda əyləşmişdi. O vaxtkı nümayiş iştirakçıları, başıpozuq dəstə, qaba millətçilər "Böyük Ermənistan torpaqlarının" "geri qaytarılması", intiqam almaq hissləri ilə silahlanmışdılar. Sovet hökumətinin tuğyan etdiyi bir şəraitdə hadisələrin bu cür dərin inkişafına Moskvanın göz yumması bu hərəkatın elə onların özləri tərəfindən törədilməsini təsdiqləyir. Azərbaycanın ayrılmaz hissələri olan DQMV və Naxçıvan MSSR -nın Ermənistana birləşdirilməsi kimi bədnam şüarlarının səslənməsi ilə bu fikir və iddiaların çox-çox əvvəllərdən qaynaqlandığını göstərirdi. Əlbəttə Moskvanın "işə qarışması" ilə 1965-ci ildə tuğyan edən ermənilərin antiazərbaycan hərəkatınm qarşısı alındı.

1965-ci ildən Azərbaycan SSR-in DQMV-də və Ermənistanda antiazərbaycan hərəkatı özünü başqa formalarda da, göstərirdi. Belə ki, 1965-ci ildə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Ermənistana iltihaq edilməsi barədə 45 min ermənin imzaladığı petisiya Moskvaya təqdim olundu. Sov. İKP MK katibliyi "Dağlıq Qarabağ məsələsi"nin Ermənistan SSR-in xeyrinə həll edəcəyi anda ağır nəticələr verəcəyini başa düşüb Ermənistan və Azərbaycan hökumətinə bu barədə qəti qərar qəbul etməyi tapşırdı. Ermənilər belə hesab etmişdilər ki, "Dağlıq Qarabağ məsələsi"nin onların xeyrinə həll olmamasını M.Suslov yerinə yetirmişdir.[24]

"Qarabağ Komitəsi" və onun daşnak üzvləri DQMV-də vəziyyəti gərginləşdirmək, nifaq salmaq üçün qurban verməkdən belə çəkinmirdilər. Növbəti obyekt sadiq dostlar kimi tanınan Ərşad və Benikin ailəsi olmuşdur. Hadisə 1967-ci ilin iyununda baş vermişdir: Azərbaycan SSR-in DQMV-Xocavənd rayonunun Kurapatkin kəndində erməni Benikin məktəbli oğlu yoxa çıxır. Az sonra uşağın meyiti Ələmşah Mustafayevin briqadasına məxsus olan sahədən tapılır. Bu əsasda briqadir Ələmşah, direktor Ərşad və kənd sakini Zöhrab həbs olunurlar. Bundan sonra azərbaycanlıların yaşadıqları kəndlərə qarış terror aktları törədilməyə başlanılır. Azərbaycalılardın intiqam almaq çağırışları DQMV-nin hər yerində yayılırdı. Ciddi məsələ olduğundan istintaqa mütəxəssis kimi Azərbaycan SSR Vəkillər Kollegiyasının və Sovet Beynəlxalq Hüquq Assesosiyasının üzvü A.Koçarov da dəvət olunmuşdu.[25] 3 iyul 1967-ci ildə məhkəmədə Ələmşah, Ərşad və Zöhrabın günahları sübuta yetmədiyi üçün iş yenidən istintaqa qaytarılır.

Lakin Benikinin başçılıq etdiyi erməni dəstəsi yolda onların hər üçünü əsgərlərdən alıb qətlə yetirir və sonra isə od vurub yandırırlar.

1967-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə təyin olunan H.Ə.Əliyev həyatını risqə ataraq əsil cinayətkarı aşkar etmək üçün DQMV-nə gəlir və istintaqa başlayır. İstintaq nəticəsində məlum olur ki, həmin uşağı dayısı öldürübmüş. Benik, törətdiyi cinayətlərə görə



güllələnmə cəzasına məhkum edilir. Qəribə orasındadır ki, "güllələnmiş" Benik 1975-ci ildə atasının dəfnində iştirak etmiş və yenidən "yoxa çıxmış"dır.[26]

1968-1969-cu illərdə Ermənistanın Azərbaycana qarşı böyük torpaq iddiaları davam etmişdir. Bu dövrdə, Dağlıq Qarabağda "Daşnakstyun" partiyasının antiazərbaycan təbliğatı daha da güclənmiş, bölgədə yaşayan müsəlmanlara qarşı təxribatlar, terrorizm genişlənmişdir. Məsələn, 1969-cu ilin aprelində "erməni genosidi"nin əvəzini çıxmaq üçün Xankəndi şəhərində "Qarabağ" mehmanxanasının eyvanından atılmış qumbara onlarla azərbaycanlını yaralamış və şikəst etmişdir. Təəssüflər olsun ki, cinayəti törədənlərin kimliyi məlum olsa da, bu cinayət də bağlı qalmışdır[27].

Ümumiyyətlə, ermənilərin Qarabağa köçürülməsi ilə burada yaşayan müsəlmanların qara günləri başlamış və XX yüzillik boyu bu, daha da dərinləşmişdir. Moskvanın fitvası və havadarlığı ilə mərkəzdəki və xarici ölkələrin lobbisinə arxalanan erməni millətçiləri, kommunist – daşnaklar 1968-1969-cu illərdə azərbaycanlıları Dağlıq Qarabağdakı öz dədə-baba yurdlarından müxtəlif vasitələrlə sıxışdırıb çıxarmağa və "Böyük Ermənistan" dövləti yaratmaq məqsədilə Azərbaycanın Dağlıq bölgəsinin Ermənistana verilməsi məsələsini Sov. İKP MK və SSRİ Nazirlər Soveti qarşısında mühüm bir məsələ kimi qaldırdılar. Həmin vaxt Ermənistan, 1938-ci ildə Zaqafqaziya Kartoqrafiya idarəsinin erməni müəlliflərinin yaratdıqları xəritələrə əsaslanaraq, Azərbaycan SSR-in Gədəbəy, Qubadlı, Laçın, Qazax rayonlarının, habelə Naxçıvanın bəzi sərhəd kəndlərinin bir sıra torpaqlarının Ermənistan ərazisi olması haqqında saxta iddialar irəli sürdülər[28].

Dağlıq Qarabağla bağlı ermənilərin irəli sürdükləri böhtanlar, yalan və iradlar vaxt keçdikcə ortaya çıxır və aydınlaşır. Hələ, vaxtilə Rusiyanın Ərzurumdakı səfiri işləmiş Mayeviskinin erməni saxtakarlığı haqqında dediklərini xatırlamaq yerinə düşərdi: "Erməni müəllifləri çox ustalıqla həqiqətdən qaçırlar. Onlarda hər şey faktların üfürülüb şişdirilməsi əsasında qurulub. Onların bütün fəaliyyətləri mövcud olmayan uydurmalar, eşidilməmiş

qəddarlıqlar əsasında qurularaq elə şərh edilib ki, bu ermənilərə mərhəmət, türklərə nifrət oyadır...Mən "türk vəhşiliyinə" heç yerdə rast gəlmədim. Türkləri gördükdən sonra məndə belə bir qəti qənaət yaranıb ki, türklər vəhşiliklər törətməyə qadir deyillər, lakin Şərqdəki xristianlar türkləri bu cür qələmə verir və özlərinin törətdiklərini, uydurduqlarını onların adına çıxırlar"[29].

XIX əsrin əvvəllərində Rusiyanın İrandakı səfiri A.S.Qriboyedovun rus imperatoruna ünvaladığı məktubu nəzərdən keçirmək daha maraqlı olardı: "Əlahəzlər ermənilərin mərkəzi rus torpaqlarında məskunlaşmasına icazə verməyin. Onlar elə bir tayfadırlar ki, həmin yerlərdə bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salaraq bura bizim qədim dədə-baba torpaqlarımızdır deyəcəklər"[30]. Doğrudan da, A.S.Qriboyedovun bu gümanı həqiqətə çevrildi. Ermənilərin Azərbaycanın Dağlıq Qarabağ torpaqlarına qarşı ərazi iddiaları bir daha deyilənləri sübut etdi.

Rus tədqiqatçısı N.İ.Şovrov 1911-ci ildə yazmışdır ki, Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min nəfər ermənin 1 milyondan çoxu diyarın yerli əhalisinə məxsus deyil və bizim tərəfimizdən buraya köçürülmüşlər. Şimali Azərbaycana köçürülmüş ermənilərin Naxçıvan, İrəvan və Qarabağda yerləşdirilməsinə xüsusi diqqət verilmişdi[31].

Erməni müəllifləri Arakel Təbrizski, B.İşxanyan, S.T.Yeremyan və başqaları öz əsərlərində göstərirlər ki, Dağlıq Qarabağda yaşayan ermənilərin bir hissəsi qədim albanların nəsilləridir... Bir hissəsi isə İran və Türkiyədən qaçıb gələnlərdir ki, onlar üçün Azərbaycan torpağı təqiblərdən və təhdidlərdən qorumaq üçün sığınacaq olmuşdur[32]. Rus alimi V.Veliçko 1904-cü ildə çap olunmuş əsərində yazırdı: "Erməni məhəlli məktəblərində şagirdlər "Böyük Ermənistan"ın xəritəsini öyrənirlər ki, onun da ərazisi demək olar ki, Voronejə qədər çatır və paytaxtı Tiflisdir"[33]. Əlbəttə yazılan tarixi həqiqətləri ermənilər nə qədər məhv etsələr belə, bu cür faktlar minlərlədir və ermənilərin kimliyini bu cür həqiqətlərlə müəyyən etmək olar.1938-ci ildə Zaqafqaziya MİK-nin nəzarəti altında Azərbaycan, Ermənistan və Gürcüstan MİK-ləri öz inzibati sərhədlərini



təsdiq edərək qonşu respublikalara ərazi iddialarından əl çəksələr də, 1953-cü ilin dekabrında Ermənistan SSR Azərbaycanın Gədəbəy rayonunun 730 hektarlıq ərazisinin onlara (Ermənistana) aid olmasını və geri qaytarılmasını SSRİ hökumətindən tələb etdilər[34]. Moskva nümayəndələri Azərbaycanın Gədəbəy rayonunda yoxlama apararaq müəyyən etdilər ki, məkirli niyyət sahiblərinin ərazi iddiaları əsassız boş cəfəngiyyatdan başqa bir şey deyildir.

Gədəbəy rayonunu Tağlar kəndinin nə DQMV ilə, nə də Ermənistanla tarixən heç bir təmas xətti olmayıb. Odur ki, "mübahisəli ərazi" hesab olunan Gədəbəy rayonun tarixi dədə-baba torpaqları SSRİ Kənd Təsərrüfatı Nazirliyinin 06 may 1954-cü il tarixli 136 saylı əmri ilə Gədəbəy rayonunun 3 kolxozu arasında rəsmiləşdirildi[35]. Lakin 13 il sonra 1968-ci ildə ermənilər bu məsələyə bir də qayıdırlar. Moskvadakı erməni lobbisinin təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il 7 may tarixli qərarı ilə 2 min hektardan çox qədim Azərbaycan torpaqlarının (Laçında Qaragöl yaylağı, Qubadlıda Çayzəmin ərazisinin, Qazağın Kəmərli kənd torpaqlarının bir hissəsi, Kəlbəcərdə Zod qızıl mədəni və sair ərazilərimizin) Ermənistana verilməsi haqqında hələ 1938-ci il 5 mayda verilmiş qərarı təsdiq etdi.[36] Lakin bəhs etdiyimiz dövrdə, Azərbaycan SSR Milli Təhlükəsizlik Nazirliyinin sədri vəzifəsində işləyən H.Ə.Əliyev, Azərbaycanın Milli düşüncəli vətənpərvər ziyalıları öz ətrafında birləşdirərək, Mərkəzə təqdim olunan Azərbaycan xəritəsini tədqiq etməyə başladı. Məlum oldu ki, Moskvaya təqdim olunan xəritələr 1953-cü ildə iki erməni – Kələntərov və Qadaqçiyan tərəfindən saxtalaşdırılan xəritələrdir. 14 iyul 1969-cu ildə H.Ə. Əliyevin Azərbaycan KP MK-nə birinci katib təyin edilməsi ilə o dövrdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyuldu. H.Ə.Əliyev "mübahisəli" hesab olunan ərazilərdə qanunu iş aparmaq üçün Azərbaycan Kənd Təsərrüfatı Nazirinin birinci müavini Nadir Hüseynovun rəhbərliyi altında bölgəyə ekspert qrupu göndərildi. Azərbaycan nümayəndə heyəti Ermənistan KP MK-nın birinci katibi və onu müşayət edən şəxslərlə görüşürdülər. 1898 və 1903-cü illərdə tərtib olunmuş

xəritələr Ermənistan nümayəndə heyətinə təqdim olundu və məlum oldu ki, 1968-ci ildə Mərkəzə təqdim olunan xəritə ermənilər tərəfindən saxtalaşdırılmışdır. Bununla da, 2 min hektardan çox Azərbycan torpaqlarının Ermənistana verilməsinin qarşısı H.Əliyev tərəfindən qətiyyətlə alındı[37].Bəhs etdiyimiz dövrdə, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları nümayiş, mitinq, terror və başqa bəd əməllərlə yanaşı, Qarabağın qədim tarixə malik alban, qarqar, aran, tərtər, peçeneq, katek türk mənşəli tayfaların toponimlərinin qəddarlıqla dəyişdirilməsi ilə davam etdirilmişdi. Erməni daşnakları Dağlıq Qarabağdakı türk mənşəli yer adlarını müxtəlif prinsiplərə əsaslanaraq, çox böyük hiyləgərliklə dəyişdirmişlər. DQMV-dəki bəzi yer adlarındakı "böyük", "kiçik", "yuxarı", "aşağı" sözlərini erməniləşdirməklə toponimləri dəyişdirmişlər. Məsələn, Ulu Qarabağ "Medz-Şen" adlandırılmışdır ("medz" ermənicə "böyük" deməkdir)[38]. Bəzi adlardakı qədim türk sözləri şeen – "kənd", dvor – "dərə", kyuğ – "kənd", hoğ – "yer", "avan" - qəsəbə və başqa erməni sözləri ilə əvəz etməklə həmin ərazilərin onların dədə-babalarına mənsub olmasını sübut etməyə çalışmışlar. Necə ki, Ağdərə–Mardaket, Ağkənd–Spitakşen, Qırmızı kənd–Karmiravan, Sarıkənd–Saruşen, Daşaltı - Daşuşen, Ağdar – Ketuç və sair erməni adları ilə əvəzləşdirilmişdir[39]. DQMV-dəki bəzi toponimlər isə erməni vandalları tərəfindən təhriflərə məruz qalmışdır. Belə ki, Azıx-Azok, Bənddərə–Banazur, Şuşakənd–Şuşukənd, Qarqar–Herher, Gülyataq–Kolataq, Vənkli–Vanuklu, Mehman–Mehmana və başqa adlarla adlandırılmışdır[40]. Erməni millətindən olan ayrı-ayrı yazıçı, inqilabçı və başqa "tarixi şəxsiyyətlərin" adını əbədiləşdirmək bəhanəsilə Dağlıq Qarabağın qədim toponimlərinin dəyişdirilməsi halları da müşahidə edilmişdir: Qarabağ xanlığının axırıncı xanı olan Mehdiqulu xanın doğulduğu Xankəndinin adının Stepan Şamuyanın adına uyğun Stepanakert adlandırılması kimi. Qədim tarixə malik Oğuz-türk diyarımızın yer adlarının saxtalaşdırılması prosesi bütün XX yüzillik boyu davam etmişdir. DQMV-dəki türk mənşəli yer-yurd adlarının



erməniləşdirilməsi 1950-1960-cı illər ərzində, dövlətdə yaranmış qarışıqlıqdan istifadə edən məkirli niyyət sahibəlrinin diqqətindən yayınmamışdır.

Ermənilərin Dağlıq Qarabağda yerləşdirilməsi ilə əlaqədar, bölgədə yaşayan azərbaycanlılar öz dədə-baba yurdlarından deportasiya edilməyə başlamışdır. Eyni zamanda, DQMV-də müsəlmanlar yaşayan kəndlərdə süni surətdə sosial problem yaradılır, yaşayış məskənləri boşaldılır və buradakı kənd adları ya ermənicə köklü coğrafi adlarla əvəz edilmiş, ya da passiv fonda keçirilmişdir.[41]

Xalqımızın milli varlıq rəmzi sayılan Şuşadakı "Daş poema"lar bizim keçmişimizin, bu günümüzün, qədimliyimizin, türkçülüyümüzün sübutu, gələcəyimizə təminatdır. Buradakı "daş heykəllər" özləri "danışır", Oğuz–Türk diyarı olduğunu sübuta yetirir. Bütün bunlar bir qrup gəlmə qonşularımızın diqqətindən yayınmamışdır. Həmin tarixi abidələrimiz yeri gəldikcə, müxtəlif bəhanələrlə ermənilər tərəfindən dağıdılmışdır. Dağlıq Qarabağın şovinist erməni rəhbərliyi "Şuşa" sözünü dünya xəritəsindən silməyə cəhdlər etmişdilər. Məsələn, Dağlıq Qarabağ Müxtar Vilayət Xalq Deputatları Sovetinin 1 yanvar 1938-ci il qərarı ilə "Şuşa" qəzetinin adı məqsədli şəkildə "Sosialist maldarlığı", 1963-cü ildə "Kolxoz bayrağı", 1966-cı ildən isə Şuşa əhalisinin AKP Şuşa rayon komitəsinin tələbi ilə "Şuşa kurortu" adlandırılmışdır.[42]

1960-cı illərdə Mərkəzdən dəstək alan erməni rəhbərliyi xalqımıza qarşı ən ağır cinayəti törətməkdən belə çəkinmədi. Belə ki, DQMV-də rayonların genişləndirilməsi adı altında Vilayət Partiya Komitəsinin, DQMV XDS-nin 4 yanvar 1963-cü il tarixli qərarı ilə Şuşa rayonu ləğv edildi. 289 kvadrat kilometrlik ərazi, 30 kənd və 1 şəhər Xankəndi rayonuna birləşdiriidi. Bu cür atılan namərd addım erməni ekstrimistlərinin xalqımıza qarşı növbəti fitnəkarlığı idi. Əlbəttə, acgöz, qədirbilməz, yağı düşmənin mənfur siyasəti Azərbaycanın mərd, qorxmaz oğullarının diqqətindən yayına bilməzdi. "Azərbaycan Milli Azadlıq Qərargahı" bu məsələyə qəti etiraz edərək öz obyektiv münasibətini bildirdi. Sovet İKP İK-nın 1964-cü il 14 oktyabr plenumu N.S.Xuruşşovu

vəzifədən kənar etdi və 6 yanvar 1965-ci ildə Şuşa rayonu yenidən bərpa olundu.[43]

Azərbaycan SSR-in DQMV-dəki qədim tarixə malik yer adlarının dəyişdirilməsi, saxtalaşdırılması prosesi 60-cı illərdə də davam etməkdə idi. Dağlıq Qarabağdakı qədim yer adlarını dəyişdirməklə, ermənilər tarixən həmin əraziləri özününküləşdirməyə çalışmışlar. Halbuki, qərərsiz elmi araşdırmalar nəticəsində məlum olur ki, XIX əsrdə Qarabağda 567 yaylaq və yurd yerindən yalnız 2-si erməni dilinə, 1 toponim isə rus dilinə uyğun gəlmişdir. DQMV-nə köçürüldükdən sonra tarixi yer adlarını nə qədər dəyişdirməyə çalışsalar da, aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-ci ildə Dağlıq Qarabağdakı 407 toponimin 309-u şəffafdır (76 faizi) və onlardan 67,3 faizi sırf Azərbaycancadır[43]. Rəqəmlərdən göründüyü kimi, Dağlıq Qarabağın erməni rəhbərliyi oğuz-türk mənşəli toponimlərin təxminən 33,7 faizini erməni, rus və qarışıq toponimlərlə əvəz edərək saxtalaşdırmışlar.

Beləliklə, 1950-1960-cı illərdə SSRİ-də totalitar rejim daha da gücləndi. SSRİ-nin, xalqları qorxudub mütiləşdirmə, parçalama siyasəti fəallaşdı. Nəticədə, Mərkəzin bilavasitə təhriki və təbliği ilə, əvvəlki illərdə olduğu kimi, XX yüzilliyin 50-60-cı illərində də "Böyük Ermənistan" dövləti yaratmaq məqsədilə, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları davam etmişdir. Bəhs etdiyimiz illərdə, Moskvanın köməyi və Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi üzündən Azərbaycanda erməni lobbisi yaradıldı, DQMV-də erməni millətçiliyi dərin kök saldı. Burada yaşayan yüzlərlə azərbaycanlı öz dədə-baba torpaqlarında gizli və açıq yollarla sıxışdırılaraq qovulmağa başlandı. Onlarla azərbaycanlı erməni terrorunun qurbanına çevrildi. Hətta azğınlaşmış erməni dəstələri qətillər törətməkdən belə çəkinmədilər. DQMV ərazisində qədim tarixə malik Oğuz-Türk mənşəli toponimlərimiz erməni adları ilə əvəzləşdirildi. Belə bir şəraitdə, Respublika rəhbərliyi seyirçi mövqeyi tutaraq "xalqlar dostluğunu" möhkəmləndirmək üçün tədbirlər görürdü. Mərkəzin təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il 7 may tarixli qərarı ilə



2 min hektardan çox Azərbaycan torpaqlarının Ermənistana verilməsi haqqında qərarı təsdiq etsə də, vətən, torpaq, millət qədri bilən dərin düşüncəli, uzaqgörən və müdrik insan H.Ə.Əliyevin 1969-cu ilin iyulun 14-də Azərbaycan KP MK-nin birinci katib təyin edilməsi və apardığı gərgin zəhmət nəticəsində həmin qərarın icrasına imkan vermədi. 1950-1960-cı illərdə Azərbaycanın ərazi bütövlüyü qorunub saxlanıldı.

# XIV FƏSİL

## AZƏRBAYCANDA İDARƏÇİLİYİN GÜCLƏNDİRİLMƏSİ VƏ DQMV-NİN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ YÜKSƏLİŞİ (1970-1985-Cİ İLLƏR)

Azərbaycan KP Mərkəzi Komitəsinin 1969-ci il iyulun 14-də keçirilən plenumunda Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nin birinci katibi seçildi. [1] Bu hadisə Azərbaycan tarixində böyük əhəmiyyət kəsb edir. Çünki, 1969-cu ildən Azərbaycan tarixində dönüş mərhələsinin təməli qoyuldu və Respublikamızın iqtisadi, siyasi və mənəvi həyatında dinamik inkişaf baş verdi. Ümummilli liderimiz H.Ə.Əliyev çıxışlarından birində həmin dövrü belə qiymətləndirilmişdir; «1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin sturuktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur... Həmin dövrdə, qəbul olunmuş proqramın həlli yollarında böyük iş aparmağa başlayan fəhlə və kolxozçular, respublika ziyalıları iqtisadiyyat və mədəniyyətin bütün sahələrində xalqın maddi və mənəvi baxımından artan tələbatının təmin olunması işində çox yüksək nəticələr əldə etmişlər. Müharibədən sonrakı dövrlərdə, ilk dəfə olaraq, doqquzuncu və onuncu beşilliklər üçün xalq təsərrüfatının inkişaf planları vaxtından əvvəl yerinə yetirilmişdir»[2].

1969-cu il avqustun 5-də H.Ə.Əliyev Azərbaycan KP MK Plenumundakı çıxışında respublikanın iqtisadiyyatını dərin və hərtərəfli təhlil edərək, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə ciddi nöqsanlar olduğunu qeyd etdi və onların aradan qaldırılması yollarını göstərdi. Plenumda dövlət əmək intizamını möhkəmləndirmək və respublikada mənəvi və-psixoloci sağlamlaşdırmaq vəzifələri irəli sürüldü[3]. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan KP-nin 28 (10-12 may 1971-ci il), 29 (28-30 yanvar 1976-ci il), 30-cu



(28-30 yanvar 1981-ci il) qurultaylarında, MK-nin pelenumlarında, vaxtaşırı çağrılan müşavirələrdə respublikamızın iqtisadi, mənəvi və sosial-mədəni inkişafının konkret vəzifələri, təşkilati tədbirlər müəyyən edildi[4].

1970-ci illərdə Azərbaycanda idarəçilik sistemi xeyli möhkəmləndi. Korrupsiyaya və rüşvətxorluğa qarşı ciddi tədbirlər görüldü. Bəhs etdiyimiz dövrdə bütün dövlət hakimiyyət orqanlarının işi xalqın iqtisadi, sosial-mədəni tərəqqisi və milli oyanış siyasətinin reallaşmasına yönəldi. Heydər Əliyevin xalqımız üçün ən böyük xidmətlərindən biri Azərbaycanda xalq təsərrüfatının inkişafı üçün ittifaq fondundan külli miqdarda vəsait ayrılmasına nail olmasında idi. Hətta dövlət başçımızın bilavasitə təşəbbüsü ilə SSRİ rəhbərliyi bəhs etdiyimiz illərdə Azərbaycanın iqtisadi inkişafı üçün 5 mühüm qərar qəbul etmişdir[5]. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra regionların iqtisadi, sosial və mədəni inkişafına qayğısı daha da artdı. O cümlədən Azərbaycanın ayrılmaz hissəsi olan DQMV həmişə uzaqgörən dövlət başçımızın diqqət mərkəzində olmuşdur. Şuşa şəhərinin inkişafı üçün Azərbaycan KR MK-si bir neçə dəfə qərar qəbul etmişdir. 1970-ci ilin əvvəllərindən başlanyaraq Şuşa şəhərinin tarixi abidələrinin bərpa olunmasına, yeni binaların tikilməsinə başlamışdır. 1980-1981-ci illərdə Molla Pənah Vaqifin qəbri üzərində böyük məqbərə ucaldılmışdır. Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərində Üzeyir Hacıbəyovun, Bülbülün ev muzeyləri açılmış və Xan qızı Natəvanın heykəli qaldırılmışdır[6]. Şəhərdə böyük mehmanxana, çoxmərtəbəli yaşayış binaları, inzibati binalar tikildi. Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində Şuşa ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi[7]. Dağlıq Qarabağda əhalinini təminatı həmişə Azərbaycan SSR üzrə orta göstəricilərdən yüksəkdə dayanmışdır. Hansıki, aşağıda bu barədə geniş bəhs ediləcəkdir. 1973-cü ildə Xankəndində Azərbaycan Pedaqoji İnstitutunun filialı əsasında Pedaqoji İnstitut açıldı. 1979-cu ildə Ağdamdan Xankəndinə dəmir yolu çəkildi[8]. Heydər Əliyevin ağıllı və uzaqgörən siyasəti nəticəsində partiya və sovet orqanları ictimai təşkilatılar öz işini elə qurmuşdur ki, erməni separatçıları

açıq çıxışlardan çəkinirdilər. 1977-ci ildə Dağlıq Qarabağ məsələsi növbəti dəfə qaldırılsa da, qarşısı qətiyyətlə alınmışdır[9].

İqtisadi inkişaf 1970-1985-ci illər Azərbaycanın, o cümlədən, onun ayrılmaz tərkib hissəsi olan DQMV iqtisadiyyatı, keçdiyi əvvəlki inkişaf illəri ilə müqayisədə, ən əlamətdar və böyük yüksəliş dövrü kimi tarixə daxil olub. 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçilən H.Ə.Əliyevin fədakar və böyük vətənpərvər yaradıcı fəaliyyəti, başqa sahələrdə olduğu kimi, sosial-iqtisadi tərəqqidə də əsl dönüş mərhələsi yaratdı. H.Ə.Əliyev, həmin dövrdə, iqtisadiyyatın mövcud şəraitində mümkün olan ən münasib strateji inkişaf məqsədlərini əzm və cəsarətlə müəyyən etdi[10]. O, müəyyən etdi ki, Azərbaycanda, xüsusilə, onun ayrılmaz hissəsi olan DQMV-də məhsuldar qüvvələrin inkişafında hökm sürən bir sıra yanlış prinsiplərin əksinə olaraq, onun yüksəlişi Dağlıq Qarabağın böyük imkanlarının istifadəsinə və zəruri tələblərinin ödənilməsinə əsaslanmalıdır. İqtisadiyyatın nəzərdə tutulan böyük miqyaslı inkişafının sürətlə və tələb olunan səviyyədə genişləndirilməsi məqsədilə, ilk növbədə, yaranmış istehsal potensiyalından tam istifadə edilməsi tələb olunurdu. Bütün bunlar üçün isə ittifaq hökümətindən əlavə vəsait almaq lazım idi. H.Ə.Əliyevin təşəbbüsü ilə SSRİ hökümeti Azərbaycanda sənaye və kənd təsərrüfatının intensiv inkişafı üçün 5 xüsusi qərar qəbul etdi, xeyli vəsait və maddi-texniki resurslar ayırdı. 1971-1985-ci illərdə Azərbaycanda xalq təsərrüfatının inkişafı üçün sərmayə qoyuluşunun həcmi 32 mlyard manata çatmışdır ki, bu da sovet dövrünün əvvəlki 50 ilində istifadə edilən vəsaitdən 2,1 dəfə çox idi.

Azərbaycanın regionlarının inkişafı H.Ə.Əliyevin həmişə diqqət mərkəzində olmuşdur. Müasir sənayeyə, çoxsahəli kənd təsərrüfatına, geniş sosial strukturaya malik DQMV-nin inkişafı üçün Azərbaycan hökümeti 1971-1985-ci ildə 483 milyon manat vəsait ayırdı ki, bu da əvvəlki on beş il ərzində olduğundan 2,8 dəfə çox demək idi[11]. Aparılan tədqiqatçılar nəticəsində məlum olur ki, son 20 il ərzində (1965-1985) adambaşına düşən əsaslı vəsaitin həcmi 4 dəfə artmışdır. Bu rəqəm 1961-1965-ci illərdə 59 manat olduğu halda, 1981-1985-ci illərdə 226 manata çatmışdır. 1970-1985-ci illərdə DQMV-də ümumi dəyəri



470 milyon manat olan əsas fondlar, 15 sənaye müəssisəsi və başqa istehsal sahələri istifadəyə verilmişdir.

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-1985-ci illərdə, ümumilikdə Respublikamız üzrə regionların xalq təsərrüfatına ayrılan vəsaitin həcmi nəzərdən keçirilərkən Bakı və Sumqayıt şəhərlərindən sonra DQMV-ə ayrılan vəsaitin həcmi sayca 3-cü yerdə dayanırdı. Halbuki, erməni daşnakları əsassız ərazi iddialarına haqq qazandırmaq, ictimai rəyi öz tərəfinə çəkmək, ənənəvi əzabkeş obrazı yaratdırdilar ki, guya respublika rəhbərliyi DQMV-ə diqqət yetirmir və bölgədəki iqtisadi inkişaf göstəriciləri başqa regionlardan aşağı səviyyədədir. Bütün bunlar isə əsassız boş cəfəngiyyatdan başqa bir şey deyildir. Çünki, bəhs etdiyimiz illərdə təkcə adambaşına düşən kapital qoyuluşunun həcminə görə DQMV Resçpublikamızın başqa regionlarını arxada qoymuşdur.

Təkcə bir faktı qeyd etmək yerinə düşərdi ki, DQMV-də yeni sənaye müəssisələrinin tikintisi üçün 1923-cü ildə əsaslı vəsait qoyuluşu 1 milyon manat idisə, 1970-1985-ci illərdə əsaslı vəsait qoyuluşu 30-35 milyon manata çatmışdır[12].

1970-1980-cı illərdə DQMV-də sənaye dinamik inkişaf etmişdir. 1980-cı illərin statistik məlumatlarına görə, Dağlıq Qarabağda 52 müasir sənaye müəssisələri vardır ki, həmin müəssisələr yüzlərlə növ məmulat buraxırdı[13]. Bəhs etdiyimiz illərdə, DQMV sənaye müəssisələrində ipək məmulatları, elektirik cihazları, lüminessent lampaları, kondensatorlar, musiqi alətləri, mebel, dekorativ lövhə və suvenir məmulatları, tikinti materialları, üzlük bəzək plitələri, ayaqqabı, tikili mallar, ət və süd məhsulları, qənnadı və un məmulatıları, konyak, spirt, şərab və başqa məmulatlar istehsal olunurdu. 1980-cı illərin ortalarında Dağlıq Qarabağda 35 növ sənaye məhsullarına Dövlət Keyfiyyət nişanı verilmişdir ki, bundan 26-sı xalq istehlakı malları idi[14]. 1983-cü ildə DQMV-də sənaye istehsalının həcmi 1923-cü ildəkinə nisbətən 912 dəfə artmışdır.

XX yüzilliyin 70-80-cı illərində Azərbaycanda 218 yeni sənaye müəssisəsi istifadəyə verildi ki, bundan 15-i DQMV-nin üzərinə düşürdü[15]. Yaradılmış yeni

müəssisələr sənayenin istehsal quruluşunun təkmilləşdirilməsində və məhsul istehsalının artırılmasında mühüm rol oynamışdır. DQMV-də yaradılmış belə müəssisələrdən biri SSRİ-nin 50 illiyi adına Xankəndi ayaqqabı fabriki idi. Əsası 1970-ci ildən qoyulan həmin sənaye müəssisəsi 1972-ci ildə tam istifadəyə verilmişdir[16]. Xankəndi ayaqqabı fabrikinin layihəsi H.Əliyevin təşəbbüsü ilə Kiyevdə hazırlanmışdır. Onun tikintisində və avadanlıqların quraşdırılmasında Bakı, Mingəçevir, Moskva, Krasnadar, Odessa, Gəncə şəhərinin mütəxəssisləri iştirak etmişlər. Müəssisənin sexlərində Çexslavakiyadan, Almaniya Demokratik Respublikasından, Moskva, Leninqrad, Bakı, Tiblisi, Odessa, Kursk, Oryol şəhərlərindən Azərbaycan höküməti tərəfindən gətirilmiş maşın və cihazlar quraşdırılmışdır. Xankəndi ayaqqabı fabrikinin gənc ustaları Bakı və Voroşilovqrad şəhərində istehsalat təcrübəsi keçmişlər. Ən yeni və məhsuldar avadanlıqlarla təchiz edilən fabrik, məhsullarını ilbəil artırırdı. İlk fəaliyyətə başladığı ildə fabrikdə 8,4 min cüt ayaqqabı istehsal olunmuşdusa, 1980-cı ildə istehsal həcmi təxminən 5 dəfə artaraq 4 milyon 181 minə, 1985-ci ildə 4 milyon 514 minə çatmışdır[17].

Bəhs etdiyimiz illərdə, müəssisənin 6 sexi plan və öhdəlikləri artıqlaması ilə yerinə yetirmişlər. Fabrikdə istehsal olunan məhsulun 95 faizi birinci növ kimi qəbul edilmişdir[18]. 1979-cu ildə fabrikin buraxdığı məhsulun 4 modeli keyfiyyət nişanına layiq görülmüşdü. Fabrikdə işləyən 1450 nəfər fəhlə və qulluqçu əmək məhsuldarlığını yüksəltmək üçün şəxsi əmək nümunəsi göstərmişlər. Xankəndi ayaqqabı fabriki ildə orta hesabla 4 milyon ayaqqabı istehsal edirdi ki, bu da 1940-cı ildə Azərbaycanın bütün ayaqqabı sənayesinin gücündən bir dəfə yarım çox deməkdir. Təkcə 1976-1980-cı illərdə fabrikdə 16 milyon 826 min ədəd ayaqqabı istehsal edilmişdir. 1981-1985-ci illərdə istehsal həcmi təxminən 12 faiz artmışdır[19].

XX yüzilliyin 70-ci illərində DQMV-də yaradılmış sənaye müəssisələrindən biri də Xankəndi tikinti materialları kombinatıdır. Burada istehsal olunan mərmər bloklar keçmiş SSRİ məkanının 160-dan çox müxtəlif şəhərlərdə, o cümlədən, Moskva, Kiyev, Daşkənd və başqa şəhərlərdə geniş istifadə olunurdu.



Kombinatda istehsal olan yüksək keyfiyyətli mişar daşı, kərpic, üzlük tavanlar, mərmər bloklar ittifaqın hər yerində şöhrət qazanmışdır. Xankəndi Tikinti Materialları Kombinatı həm məhsulun həcmini, həm də əmək məhsuldarlığını ildən-ilə artırmışdır. Təkcə 1982-ci ildə, 1975-ci illə müqayisədə məhsul istehsalının həcmi 5,5 dəfə, əmək məhsuldarlığı isə 3,5 dəfə artmışdır. Mərmər blok istehsalında bu artım 10,5 dəfəyə, mərmər üzlük tavanlar istehsalında isə 6,4 dəfəyə çatmışdır. Xankədi tikinti Müəssisəsinin gəliri ildən ilə artmışdır. Belə ki, 1976-cı ildə həmin rəqəm 44 min manat idisə, 1976-cı ildə təxminən 3 dəfəyə yaxın artaraq 1 milyon 183 min manata çatmışdır. 1970-1985-ci illərdə Xankəndi Tikinti Materialları Kombinatı fəhlə və qulluqçular üçün 3 min kvadrat metr sahəsi olan mədəni məişət obyektləri, müasir tipli yeməkxana, pioner düşərgəsi, 240 yerlik klub, istirahət parkı, idman meydançası və başqa mədəni məişət obyektləri tikilib istifadəyə verilmişdir[20].

1978-ci ildən başlayaraq, Kombinat dalbadal yüksək göstəricilər əldə etmiş və 1986-cı ilədək 32 dəfə müxtəlif diplomlarla mükafatlandırılmışlar[21].

XX yüzilliyin 70-80-cı illərində Azərbaycanın təbii sərvətlərindən öz mənafeyi üçün daha səmərəli istifadə edilməsinə diqqət artırıldı. H.Ə.Əliyev tərəfindən atılan qəti addımlardan biri də yerli xammal resurslarından son hazır məhsullar istehsalının genişləndirilməsi olumuşdur. Bu məsələ Mərkəzi qane etmədiyindən ciddi manеələr törədilsədə Azərbaycan rəhbərliyi bu çətin səddi keçə bildi.

70-ci illərdə yerli xammal əsasında DQMV-də ipək parça məhsullarının, geniş çeşidli trikotaj, tikiş məmulatları və digər hazır məhsul istehsalının həcmi artırdı. Bəhs etdiyimiz dövrdə, Azərbaycanda 2-ci böyük ipək kombinatı olan «Qarabağ İpək Kombinatı»nın ermənilərin daha çox məskunlaşdığı kənd və qəsəbələrdə yeni filialları yaradıldı[22]. İpək Kombinatı Azərbaycan höküməti tərəfindən yeni avadanlıqlarla təmin olundu və ayrılan vəsaitin miqdarı 3 dəfə artırıldı. Nəticədə, məhsul istehsalının həcmi dəfələrlə çoxaldı. Təkcə bir faktı qeyd etmək yerinə düşərdi ki, 1929-cu illə müqayisədə 1975-ci ildə Qarabağ İpək Kombinatının məhsul istehsalı 250 dəfə artmışdır[23]. Müəssisədə ümumi məhsul

istehsalının həcmi ildən ilə çoxalmışdı. Belə ki, 1965-1970-ci illərdə kombinatda 24603 min manatlıq məhsul istehsal olunmuşdursa, 1971-1975-ci illərdə bu rəqəm 29016 min manata, 1976-1980-cı illərdə 33197 min manata, 1981-1985-ci illərdə isə artaraq 42217 min manata çatmışdır[24]. 1980-cı illərdə Qarabağ ipək kombinatında 12 adda ipək parça hazırlanmışdı. İstehsal olunan parçalar keyfiyyətinə görə dəfələrlə fabrikə orden və medallar bəxş etmişdir. Qarabağ ipək kombinatı Azərbaycan ipəkçilik sənayesi məhsullarının 36 faizini verirdi.

Burada istehsal olunan məhsullar, təkcə, ittifaq miqyasında deyil Yaponiya, İtaliya, Macarıstan və digər dövlətlərdə tanınırdı. İpək kombinatı xammal çatışmamazlığını Ukraniya, Özbəkistan, Tacikistan, Qazaxstan dövlətlərindən və Azərbaycanın DQMV-nə qonşu rayonlarından almaq hesabına aradan qaldırırdı. Azərbaycan hökümətinin Dağlıq Qarabağ əhalisinə göstərdiyi dərin qayğının nəticəsi idi ki, il ərzində heç vaxt xammal çatışmamazlığına görə kombinat işi dayandırmamışdı. Kombinatda 3 minə yaxın işçi çalışırdı ki, bunun 52 faizini qadınlar təşkil edirdi[25]. 1970-1985-ci illərdə DQMV-nin İpək parça istehsalında dinamik inkişaf müşahidə edilmişdir. Belə ki, 1960-cı illərdə Qarabağ İpək kombinatında 2259 min kvadrat metr parça istehsal olunmuşdursa, 1970-ci ildə 9773 min kvadrat metrə, 1980-cı ildə 15710 min kvadrat metrə, 1985-ci ildə isə artaraq 16864 min kvadrat metrə çatmışdır[26].

DQMV ipək istehsalına görə Azərbaycanda ikinci mərkəz idi. Dağlıq Qarabağın yüngül sənaye məhsulunun üçdə iki hissəsi və respublikamızın ipəkçilik sənayesi məhsulunun təxminən 25 faizi DQMV-nin payına düşürdü. Əsasən sənayenin bu sahəsinin inkişafı nəticəsində fəhlə sinfi formalaşmış, sosial infrastruktur obyektləri yaradılmış, olduqca sabit təsərrüfat əlaqələri təşkkül tapmışdır[27].

DQMV-nin iqtisadiyyatında Xankəndi elektrotexnika zavodu mühüm yer tutur. 1970-ci illərdə zavodun beş min kvadrat metrlik daha bir istehsalat körpüsü tikilib istifadəyə verildi[28]. Zavodda əvvəllər yalnız stolüstü venttilyatorlar və məişət kaloriferləri istehsal olunmuşdursa, 70-ci illərin sonlarında burada istehsalın çeşidində xeyli irəlləyiş əmələ gəldi. Artıq 70-ci



illərin ortalarında zavodda ictimai binaları, məişət və müalicə binalarını işıqlandırmaq üçün müasir tipli elektrik çıraqları buraxmağa başlandı. 80-cı illərin əvvəllərində müəssisədə 14 növ məhsul istehsal olunurdu[29]. Məhsulun keyfiyyətini idarə edən komplekt sistemin işlənib hazırlanması 1976-cı ildən başlanmışdır. Azərbaycan hökümətinin təşəbbüsü ilə təşkilat texniki tədbirlərin kompleks planı tərtib olunmuşdur. Xankəndi elektrotexnika zavodunun kompleks sistemi 32 standarta əsaslanmışdır. Bütün bunlar isə məhsulun istehsal həcminin və keyfiyyətinin yüksəlməsinə şərait yaratmışdır. 1960-1970-ci illərdə məhsul istehsalı 32 dəfədən çox artmışdı[30]. 1962-ci ildə zavod 212 min manatlıq məhsul istehsal edilmişdirsə, 1985-ci ildə bu rəqəm 25 milyonu keçmişdir[31]. DQMV-nin 60 illiyi adına Xankəndi elektrotexnika zavodu artıq 80-cı illərdə lampa istehsalı sahəsində ixtisaslaşmışdı. Təkcə 1976-1980-cı illər ərzində zavodda əmək məhsuldarlığı 4 dəfə artmışdı. Zavodun istehsal etdiyi məhsullar Leypsik yarmarkasında Azərbaycanın digər eksponatları ilə birlikdə müvəffəqiyyətlə nümayiş etdirilmişdir. Müəssisənin kollektivi 1976-1977-ci illərdə SSRİ Energetika Nazirliyinin müəssisələri arasında yarışın qalibi kimi fəxri yer tutmuş və yüksək mükafata layiq görülmüşdür. 1981-ci ildə Xankəndi elektrotexnika zavodunda istehsal olunmuş məhsulların 93 faizi keyfiyyət nişanı ilə buraxılmışdır. Müəssisənin istehsal etdiyi 14 növ məhsuldan 11-i keyfiyyət nişanı almışdır[32]. Zavodda istehsal olunan məhsullar keçmiş SSRİ məkanındakı bütün respublikalara və dünyanın 14 dövlətinə ixrac olunurdu[33]. Müəssisədə istehsal olunan məhsulun 30 faizini Moskva və Kiyev şəhərlərinin sakinləri alırdılar. 1985-ci ildə Xankəndi elektrotexnika zavodunun sifarişçilərinin sayı 2500-ə çatmışdı. Təkcə 1985-ci ildə müəssisə planı 35 faiz artıqlaması ilə yerinə yetirmiş, nəzərdə tutulduğundan əlavə 500 min manatlıq məhsul istehsal edilmişdir[34]. Həmin il 195 ton qara metal prokatına, yüzlərlə kloqram aliminum və sink prokatına, 92 min klovat saat elektrik enerjisinə qənaət olunmuşdur.

1971-1985-ci illərdə Azərbaycan hökümətı Xankəndi elektrotexnika zavodunu yeni maşınlarla, texnika ilə təmin etmiş, müəssisədə kompleks mexaniləşdirilməsi və avtomatlaşdırılması prosesi sürətlənmişdir. Nəticədə

yüksək keyfiyyətli məhsul əldə etmişdir. Təsadüfi deyildir ki, burada işləyən 40 nəfər fəhləyə «keyfiyyət əlaçısı» adı verilmiş, əmək qabiliyyətinin əksəriyyətinə III dərəcəli Əmək Şöhrəti Ordeni, Qırmızı Əmək Bayrağı və Şərəf Nişanı Orden və medalları ilə təltif edilmişlər. Hətta zavod işçilərindən Azərbaycan SSR Ali sovetinə deputat seçilənlər də var idi[35]. Zavodun qabaqcıl fəhlə və qulluqçuları «13-cü əmək haqqı» adlanan pul mükafatları ilə təltif olunmuşlar. Lakin təssüf doğuran bir həqiqəti qeyd etmək lazımdır ki, istər orden və medal alanlar arasında, istərsə də pul mükafatları siyahısında milliyyətjə müsəlman olanların sayı çox cüzi idi. Müsəlmanlara verilən pul mükafatlarının miqdarı isə ermənilərlə müqayisədə çox cüzi bir faiz təşkil edirdi. Xankəndi Elektrotexnika zavodunun fəhlə və qulluqçuları və onların ailələri üçün 1970-1985-ci illərdə Azərbaycan hökümətı tərəfindən çox yüksək səviyyədə mədəni-məişət şəraiti yaradılmışdır. 1970-ci illərdə zavod işçiləri üçün beşmərtəbəli məişət korpusu tikilib istifadəyə verilmişdir. Burada həmçinin kitabxana, klub, tibb-sanitariya mərkəzi, ayaqqabı emalatxanası, mağaza, hamam, dəlləkxana, tikiş emalatxanası və sair tikilib müəssisə işçiləri və onların ailə üzvlərinin istifadəsinə verildi. Zavodun öz quşçuluq ferması fəhlələrə ildə 10 min toyuq və 100 min yumurta verirdi. Dövlətimiz tərəfindən burada tikilən istixanada il ərzində 30 ton pamidor və xiyar yetişdirilirdi. Zavodun yeməkxanalarında xörəklər güzəştli qiymətlərlə satılır və ya pulsuz verilirdi[38]. Əlbəttə, bütün bunlar Azərbaycan dövlətinin bölgəyə göstərdiyi dərin qayğının nəticəsi idi.

XX yüzilliyin 70-ci illərində DQMV-də yaradılmış sənaye müəssisələrindən biri də lüminessent lampaları üçün işıq armaturları istehsal edən kombinatın inşa edilməsi idi. Bu kombinat Xankəndi Elektrotexnika Zavodunun nəzdində fəaliyyət göstərirdi. Azərbaycan hökümətı tərəfindən armatur kombinatının kompleks mexanikləşdirilməsi istehsalatın ilbəil artmasına şərait yaratdı. Bələki, 1970-ci ildə kombinatda 474 min ədəd işıq armatur istehsal edilmişdirsə, 1980-cı ildə bu rəqəm 780 minə, 1985-ci ildə isə 2,1 dəfə artaraq 1 milyon 19 min ədədə çatmışdır[36].



1970-1985-ci illərdə Azərbaycan SSR-in DQMV-nin dinamik inkişaf etmiş sənaye sahələrindən birində Şərabçılıq sənayesidir. Bəhs etdiyimiz illərdə Azərbaycan hökümətinin ayırdığı vəsait hesabına DQMV-də 5 yeni şərapçılıq zavodları tikilib istifadəyə verildi. 1927-ci ildə bölgədə 2 spirt zavodu fəaliyyət göstərirdisə, 1970-ci ildə həmin zavodların sayı 10-a, 1985-ci ildə isə 15-ə çatdı[37]. DQMV-də Şərabçılıq müəssisələri ermənilərin daha çox cəmləşdiyi ərazilərdə — Ağdərə rayonunda, Əskəranda, Qırmızı Bazarda, Xankəndində, Xocavənddə tikilmişdir. Dövlətimiz DQMV-də tikilmiş şərab zavodlarında, elektrikləşmə və mexanikləşdirmə işlərini tam həyata keçirmiş, elmi-texniki naliyyətləri burada tətbiq etmək əsasında yeni maşın, avadanlıq, aparat və cihazlarla təmin etmişdir. Bunun nəticəsində zavodda həm istehsalın həcmi artmış, həm də yüksək keyfiyyətli, beynəlxalq standartlara uyğun məhsul istehsal edilmişdir. Şərab istehsalı 1960-cı ildəki 269 min dekalitrə qarşı 1970-ci ildə 539 min dekalitr, 1977-ci ildə 1062 min dekalitr, 1985-ci ildə isə 1211 min dekalitr şərab istehsal olunmuşdur[38]. Konyak istehsalı isə 1960-cı illə müqayisədə 1980-cı ildə təxminə 5 dəfə çoxalmışdı. 1960-cı ilədək 11,4 min dekalitrə qarşı 1980-ci ildə 53,8 min dekalitr olmuşdur. 1927-ci ildə Qarabağ Şərab Tresti 650 min manatlıq məhsul istehsal etmişdirsə, 1983-cü ildə bu rəqəm 200 milyonu keçmişdir[39]. DQMV-də üzümçülüyün və şərabçılığın maddi-texniki bazası ilbəil möhkəmlənir və inkişaf edirdi. DQMV-də istehsal olunan yüksək keyfiyyətli məhsullar keçmiş ittifaq miqyasında 15 respublikaya, Majarıstana, Çexslovakiyaya və başqa dövlətlərə ixrac olunurdu. DQMV-də istehsal olunan «Qarabağ» markalı ağ şirin çaxır beynəlxalq şərab və konyak müsabiqəsində gümüş medala layiq görülmüşdür[40]. 1981-1982-ci illərdə Qarabağ Şərabçılıq Tresti yüksək keyfiyyətli məhsul istehsalına görə Keçici Qırmızı Bayraqla təltif olunmuşdur. 15 sənaye müəssisəsini birləşdirən Qarabağ Şərabçılıq Tresti Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Üzümçülük və Şərabçılıq İstehsalat Komitəsi sisteminə daxil idi. 1979-cu ildə Qarabağ Şərabçılıq Trestinin əsas fondları 1965-ci illə müqayisədə 3 dəfə, şərab doldurmanın həcmi isə 3,5 dəfə artmışdır. 1980-cı illərdə DQMV şərab emalı müəssisələri Azərbaycan şərabçılıq sənayesinin ümumi məhsulunun

12-17 faizini verirdi. Dövlətimizin dərin qayğısı nəticəsində, 1970-1985-ci illərdə DQMV Şərabçılıq sənayesi dinamik inkişaf etmişdi.

Azərbaycan hökuməti Qarabağ Şərabçılıq müəssisələrində çalışan fəhlələrin mədəni-məişət şəraitinin yaxşılaşdırılmasını həmişə diqqət mərkəzində saxlayırdı. Fəhlələr üçün ayrılan yeməkxanalarda, yeməklər yarıbayarı qiymətə verilirdi. Müəssisələrdə ən zəruri mallar satılan mağaza, geniş klub, duşxanalı sanatoriya-məişət binaları, yardımçı təsərrüfat fermaları, uşaq bağçaları, dəlləkxana, ayaqqabı təmiri emalatxanası fəaliyyət göstərildi. Bütün bunlar Azərbaycan dövlətinin, xüsusilə dövlət rəhbərinin Dağlıq Qarabağın zəhmət adamlarına, bölgənin bütün əhalisinə göstərdiyi qayğının konkret əlamətləri idi.

70-ci illərdə Azərbaycan hökümətinin ayırdığı xüsusi vəsait hesabına DQMV-də yeni yaradılmış sənaye müəssisələrindən biri də Qarabağ pivə zavodu idi. Bünövrəsi 1969-cu ildə qoyulan bu zavod çox sürətlə tikilərək 1970-ci ildə istifadəyə verilmişdir. Çexslovakiyadan, Almaniyadan gətirilmiş dəzgahlarla təmin olunan zavod artıq 1970-ci illərin ortalarında məhsul verməyə başlamışdır. 1971-ci ildə zavodda 171, 1972-ci ildə 175, 1973-cü ildə 185, 1980-cı ildə 205 min dikalitr məhsul istehsal edilmişdir[41].

Bəhs etdiyimiz dövrlərdə, DQMV-də yerli sənayenin 5 yerli istehsal kombinatlarının da inkişafında çox böyük irəliləyişlər müşahidə edilmişdir. Bunların içərisində Şuşada fəaliyyət göstərən və Azərbaycanda yeganə olan Şuşa Şərq Musiqi alətləri fabrikinin adını xüsusi qeyd etmək lazımdır. Fabrikdə stehsal olunan musiqi alətləri Orta Asiyaya, habelə İrana, İraqa, Əfqanıstana və başqa dövlətlərə ixrac edilirdi. Xüsusi olaraq onu da qeyd edək ki, yuxarıda adları çəkilən alətləri hazırlamaq üçün yerli xammaldan fısdıq, şahtut, qarağac və küknar ağaclarından istifadə olunurdu. Musiqi alətləri sədəflə bəzədilir, üstünə lak çəkilir, simlər xüsusi poladdan hazırlanırdı. Mahir ustalar Ş.Salmanov, M.Sirabov, V.Məmmədov və başqaları sənətin sirlərini gənc fəhlələrə öyrədir, öz üzərlərinə düşən tapşırıqları müntəzəm olaraq və yüksək profisional səviyyədə artıqlaması ilə yerinə yetirmişlər[42].



1970-1985-ci illərdə Dağlıq Qarabağın dağlarında böyük mərmər, tuf, qranit, felizit, əhəngdaşı və başqa qiymətli, nadir tikinti materialları ehtiyatları kəşf olunmuşdur. 1976-1985-ci illərdə vilayətdə yeni sənaye karxanaları açıldı. Həmin karxanalar Azərbaycan hökuməti tərəfindən müasir mexnizmlərlə təchiz edilmişdir. 1984-cü ildə Əskəran rayonunda ildə 100 min kvadrat metr dekorativ tava istehsal edən mərmər zavodu tikilmişdir.

1980-cı illərin əvvəllərində Xankəndi tikinti materialları kombinatında istehsal gücü 50 min kvadrat metr olan konveyer işə salınmışdır. Kombinat 1981-1985-ci il plan tapşırıqlarını, bütün texniki-iqtisadi göstəriciləri artıqlaması ilə yerinə yetirmişdir. 1985-ci ildə kombinatda istehsal olunan məhsullar 1980-cı illə müqayisədə 3,5 dəfə artmışdır. Əmək məhsuldarlığı isə 2,5 dəfə yüksəlmişdir. Müəssisənin 60 fəhləsi şəxsi beşillik normalarını yerinə yetirmişlər[43]. Dağlıq Qarabağın mərmər və daş karxanalarında Azərbaycan hökuməti tərəfindən göndərilən 30 yeni, müasir tələblərə cavab verən daşkəsən maşın işləyirdi. Burada istehsal olunan mərmər, felzit, qranit üzlük tavaları keçmiş SSRİ-nin yüzlərlə şəhərlərinə göndərilirdi. Hətta Mərkəz, Azərbaycanın bu qiymətli daşlarına xarici dövlətlərə göndərməklə daha çox qazanc əldə edirdi. Çox təssüflər olsun ki, Azərbaycanın DQMV-dəki bu qiymətli daşların müxtəlif formalara salıb daha çox qazanc əldə edən fəhlə və qulluqçuların adlarını nəzərdən keçirərkən bir nəfərdə olsun müsəlman adına rast gəlmədik[44].

Azərbaycanın DQMV-dəki meşələri fısdıq və qalınyarpaqlı agac növləri ilə zəngindir. Qiymətli və tayı-bərabəri olmayan bu agacların oduncağından hələ qədimdən müxtəlif məişət əşyaları düzəldirdilər. 1928-ci ildə Xankəndində kiçik emalatxana kimi fəaliyyətə başlayan mebel sexi sonralar böyük fabrikə çevrilmişdir. 1960-cı illərdə Xankəndinin müasir avadanlıqlarla təchiz olunmuş iri Mebel Fabriki işə düşmüşdür. 1970-ci illərdə isə həmin fabrikin bir neçə filialları yaradıldı. Xankəndi mebil fabriki üçün taxta materialları Tərtər çayı üzərindəki Vaqaus körpüsünün yaxınlığında yaradılmış meşə təsərrüfatı kombinatından göndərilirdi. Xankəndi mebel fabriki keçmiş İttifaq miqyasında ixtisaslaşmış böyük müəssisə kimi tanınırdı. Burada istehsal olunan məhsullar

mebel, masa, kürsü, kreslo, çarpayı, dolab, bufet, altlıq, məişət əşyaları və başqa məmulatlar keçmiş SSRİ məkanında satılır və müəssisəyə yüksək gəlir gətirirdi. Müəssisənin istehsal həcmi ilbəil yüksək templə artırdı. 1960-cı illə müqayisədə fabrikin istehsal həcmi 1985-ci ildə 5,9 dəfə artmışdır. Belə ki, 1960-cı ildə Xankəndi Mebel Fabrikində 786 min manatlıq məhsul istehsal olunmuşdursa, 1970-ci ildə bu rəqəm artaraq 1 milyon 891 minə, 1980-ci ildə 3 milyon 435 minə, 1985-ci ildə isə 4 milyon 657 minə çatmışdır[45]. Dağlıq Qarabağın erməni rəhbərliyi Azərbaycanın nadir qədim və qiymətli agac növlərini məhv etmək hesabına daha çox qazanc əldə edirdilər.

1970-1985-ci illərdə Azərbaycan SSR DQMV-nin inkişaf edən sənaye sahələrinin biri də M.Əzizbəyovun adını daşıyan Xankəndi tikiş fabriki idi. 1970-ci illərdə Azərbaycan hökümətinin ayırdığı xüsusi vəsait hesabına tikiş fabrikində əlavə korpuslar inşa edildi. Keçmiş dəzgahlar yeniləri ilə əvəzləndirildi. Belə bir fabrikin DQMV də fəaliyyəti və onun lazım olan şəraitlə təmin edəlməsi dövlətimizin bölgəyə göstərdiyi çox böyük qayğının nəticəsi idi. Çünki həmin müəssisədə yüzlərlə əhali işləyir və lazımi əmək haqqı ilə təmin olunurdular. Fabrikin istehsal etdiyi məhsullar nəinki respublikamızda, keçmiş SSRİ məkanında hətta ittifaqın hüdudlarından kənarda da olduqca məşhur idi. Fabrikdə istehsalın həcmi ildən-ilə artırdı. Belə ki, 1975-ci ildə fabrikdə ümumi məhsul istehsalın həcmi 91,6 faiz yerinə yetirilmişdirsə, 1977-ci ildə 103,8 faiz, 1980-ci ilə 115,2 faiz, 1985-ci ildə isə 121,8 faizə çatmışdır[46].

Xankəndi tikiş fabriki keyfiyyətli məhsul istehsalına və plan tapşırıqları yerinə yetirdiklərinə görə dəfələrlə nazirlik və həmkarlar təşkilatının fəxri mükafatlarına layiq görülmüşlər.

Xalçaçılıq Qarabağ qadınlarının qədim və sevimli sənəti olmuşdur. Bu zərif sənətin sirləri qayğı ilə qorunaraq nəsildən-nəsilə verilmişdir[47]. 1929-cu illərdə Azərbaycan höküməti tərəfindən Xankəndində yaradılan Qarabağ xalçaları fabriki sonrakı dövlətlərdə daha da təkmilləşdi və inkişaf etdi. 1970-ci illərdə DQMV ərazisində xalçaçılıq fabrikinin yeni filialları yaradılmışdı. Azərbaycan hökümяti DQMV ərazisindəki xalçaçılıq kombinatlarını yeni



dəzgahlar və avadanlıqlarla təmin etdi. Burada istehsal olunan xalçalar orcinal və gözəl naxışları əla yaradıcılıq üslubu, müstəsna dərəcədə davamlılığı ilə keçmiş SSRİ məkanında, İngiltərədə, İtaliyada, İsveçdə, Danimarkada, Misir Ərəb Respublikasında və başqa xarici dövlətlərdə şöhrət qazanmışdı. Dünya bazarlarında DQMV-də istehsal olunmuş xalçalar çox baha qiymətə satılır və Vilayətin büdcəsinə xeyli qazanc gətirirdi. 1970-1985-ci illərdə Xankəndi xalçaçılıq fabrikində istehsal olunan xalçaların 90 faizi keyfiyyət nişanı ilə buraxılırd[48]. Həmçinin, bəhs etdiyimiz illərdə, xalçanın istehsalında da, böyük artım müşahidə edilmişdir. Məsələn, 1970-ci ildə DQMV-də 2 min kvadrat metr xalça toxunmuşdursa, 1982-ci ildə 2745 kvadrat metrə, 1985-ci ildə isə 3 min kvadrat metrə çatmışdır[49]. DQMV-də istehsal olunan xalçalar öz gözəlliyinə və davamlılığına görə dünya bazarlarında, müxtəlif beynəlxalq sərgilərdə və yarmarkalarda müvəffəqiyyətlə nümayiş etdirilmiş və şöhrət qazanmışdır.

1982-1983-cü illərdə DQMV-də inşa edilmiş sənaye sahələrindən birində Xankəndi süd kombinatının yeni pendir sexi idi. Bəhs etdiyimiz dövrdə DQMV-də fəaliyyət göstərən süd kombinatının bütün sexləri Azərbaycan hökümətinin göndərdiyi yeni avtomat qurğularla təmin edildi və sexlər mexanikləşdirildi. 1960-cı illə müqayisədə 1970-ci ildə Xankəndi Süd Kombinatında tikinti, yenidənqurma işlərinə ayrılan vəsaitin həcmi 52,4 faiz artıq idi. Dövlətimizin göstərdiyi dərin qayğı nəticəsində DQMV-də 1970-1985-ci illərdə süd və süd məhsulları, pendir, yağlı brinza və yağ istehsalında çox böyük artım müşahidə edilmişdir. Belə ki, 1960-cı ildə DQMV-nin süd və süd məhsulları kombinatında 346 ton mal-qara yağı, 268 ton pendir və yağlı brinza istehsal edilmişdirsə, 1970-ci ildə bu göstərici artaraq 550 ton mal-qara yağı, 557 ton pendir və yağlı brinza, 1980-cı ildə 885 ton mal-qara yağı, 652 ton pendir və yağlı brinza, 1985-ci ildə isə 1960-cı illə müqayisədə yağ istehsalı 2,7 dəfə artaraq 964 ton, pendir və yağlı brinza istehsalı isə 2,8 dəfə artaraq 764 tona çatmışdır[50].

DQMV-dəki süd kombinatında respublikada quru süd zərdabı hazırlayan yeganə sex işləyirdi. Dövlətimizin xaricdən aldığı avadanhqlar həmin sexdə quraşdırılmışdır. Süd və süd məhsullarınm adam başına düşən istehsal

səviyyəsinə görə DQMV Azərbaycan SSR-in iqtisadi rayonları arasında ilk yerlərdən birini tuturdu. Burada istehsal olunan məhsullar, nəinki, yerli əhalinin tələbatını ödəyir, hətta Ermənistana və İttifaqın digər regionlarına da göndərilirdi[51].

DQMV ərazisi tikinti xammal materialları ilə zəngindir. Ona görə də, burada yerli xammala əsaslanan inşaat materialları sənayesinin müxtəlif sahələri yaranmış və inkişaf etmişdir. 1975-1980-ci illərdə DQMV ərazisində yeni əhəng, taxta-şalban, kərpic, kiramid sexləri yaradılmışdır[52]. Yeni yaradılan sexlər, əsasən, ermənilərin daha çox kompakt şəkildə məskunlaşdığı Xankəndi, Ağdərə və Hadrud rayonları ərazisində inşa edilmişdir. 1970-1985-ci illərdə Azərbaycan hökuməti tərəfindən lazımı və müasir avadanlıqlarla təmin edilən müəssisələrdə sıçrayışlı inşaat müşahidə edilmişdir. Belə ki, 1960-cı illə müqayisədə, 1985-ci ildə taxta-şalban istehsalı 4 dəfə (11,7 min kub metrdən 46,9 kub metrə), əhəng istehsalı 1,4 dəfə (7,1 min tondan 10,1 min tona), kərpic istehsalı 6 dəfə (325 milyondan 1973 milyonadək) artmışdır. Bütün bunlar isə Dağlıq Qarabağda tikinti abadlıq işlərinin genişlənməsinə güclü təkan vermişdir[53].

1970-1985-ci illərdə Azərbaycan hökuməti DQMV-də un və un məhsulları, şirniyyat sexləri, ət kombinatları, kolbasa sexi və başqa müəssisələr tikib əhalinin istifadəsinə verilmişdir.

1984-cü ildə DQMV-də istifadəyə verilmiş sənaye müəssisələrindən biri də, Xankəndi tikinti materialları kombinatı nəzdində istehsal gücü 50 min kvadratmetr olan yeni xəttin-mərmər parçalarını emal edən konveyerin işə salınması olmuşdur. Konveyer 1985-ci ilin bütün texniki-iqtisadi göstəricilərini artıqlaması ilə yerinə yetirmişlər. Həmin müəssisənin işə salınması ilə mərmər istehsalında əmək məhsuldarlığı 2,5 dəfə yüksəlmişdir. Təkcə, həmin müəssisədə 60 fəhlə işləyir ki, onlar öz üzərinə düşən bütün tapşırıqları artıqlaması ilə yerinə yetirmişlər.

Enerji tutumlu sahələrin inkişafı Azərbaycanda elektrik enerjisi istehsalının artmasını tələb edirdi. XX yüzilliyin 70-ci illərində Azərbaycan hökuməti DQMV-nin elektrik enerjisi ilə tam təmin olunması üçün əhəmiyyətli



işlər gördü. Ağdam-Xankəndi yüksək gərginlikli elektrik xətti vasitəsilə Mingəçevir SES-dən DQMV-nə verilən elektrik enerjisi artırıldı. DQMV-nin özündə fəaliyyət göstərən Madagiz, Əsgəran, Sajan, Xankəndi Su Elektrik Stansiyaları və digər stansiyalar yeni avadanlıqlarla təmin edildi və onların gücü artdı. 1970-ci illərdə Azərbaycan xalqının elektrik enerjisinə olan tələbatının ödənilməsinə H.Ə.Əliyev gərgin əmək və inadlı fəaliyyət sərf etmişdir. Ümummilli liderimiz həmin dövrü belə xatırlayır: «70-ci illərdə Azərbaycanın elektrik enerjisi ilə təmin olunması üçün çox səylər göstərilmişdi... Energetika sahəsində Azərbaycanda görülən işlər nəticəsində 5 min meqavat elektrik enerjisi istehsal gücünə malik energetka sistemi yaratmışdıq. Biz, o dövrdə, ittifaq hökumətindən böyük vəsaitlər alıb Mingəçevirdə hər birinin gücü 300 meqavat olan 8 böyük enerji bloku yaratdıq. Kür SES inşa edildi. Yenikən SES-nın tikilməsi üçün 1979-cu ildə qərar qəbul olundu»[54]. 1970-1985-ci illərdə Tərtər SES, Araz SES, Şəmkir SES, Azərbaycan DRES tikilib işə salınmışdı. Görülən işlər nəticəsində Azərbaycanın bütün regionlarınm, o cümlədən, DQMV-nin şəhər və kəndlərinə, sənaye müəssisələrinə və tikintilərinə, kolxoz və savxozlarına lazımı səviyyədə elektrik enerjisi verildi. Hətta, bəhs etdiyimiz dövrə aid statistik materiallar nəzərdən keçirilərkən məlum olur ki, 1970-1985-ci illərdə DQMV-də elektrik enerjisi istehsalı 46,3 dəfədən çox artmışdı. Belə ki, 1970-ci ildə DQMV-də elektrik enerjisi istehsalı 1,6 milyon kilovat saata çatırdısa, 1980-ci ildə bu rəqəm 45,9 milyon kilovat saata, 1985-ci ildə isə dinamik inşaat edərək 74,1 milyon kilovat saata qalxmışdır. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, DQMV-də adambaşına düşən elektrik enerjisinə görə ümumrespublika səviyyəsində öndə getmişdir. Təkcə bir faktı qeyd edək ki, 1985-ci ildə Naxçıvan Muxtar Respublikasında elektrik enerjisi, istehsalı 69,1 milyon kilovat saata çatmışdı. 1985-ci ildə Naxçıvan MR-da adambaşına 237 kilovat saat elektrik enerjisi düşdüyü halda, bu rəqəm DQMV-də 2 dəfə artıq idi (Adambaşına 463 klovat saat). Bütün bunlar isə DQMV-də enerji tutumlu sahələrin, xüsusilə, sənayenin inkişafına və əhalinin maddi rifah halının yaxşılaşmasına güclü təkan verdi.

DQMV-nin çox hissəsini dağlıq sahə olmasına baxmayaraq Azərbaycan hökuməti Vilayətdə energetika təsərrüfatının inkişafı üçün xüsusi tədbirlər həyata keçirərək 1970-1985-ci illərdə 1300 kilometrlik yüksək voltlu elektrik xətti çəkilmişdir. Dağlıq Qarabağ Azərbaycanda üçtərəfli elektrik təchizatı olan yeganə regiondur. Belə təchizat vilayətin elektrik enerjisilə daha yüksək dərəcədə etibarlı olmasını təmin edir. DQMV elektrik şəbəkəsi təsərrüfatı obyektlərin tikintisini təmin etmək üçün bir sıra xüsusi bölmələr, o cümlədən, iri təmir istehsal bazası təşkil edilmişdir[55].

1970-1985-ci illərdə DQMV-də energetika obyektləri tikintisi böyük vüsət almışdır. Sərsəng SES-i nəinki lazımı qədər elektrik enerjisi istehsal edir, həm də bu mürəkkəb hidrotexniki qurğu Qarabağ düzündə 120 min hektar sahədə yeni əkinləri və çoxillik bitkiləri suvarmaq imkanına malik idi. Yeri gəlmişkən onu da qeyd edək ki, Sərsənq Su anbarının 130 metrlik tökmə bəndi dünyanın ən hündür bəndlərindən biridir. Sərsənq SES-nın hər il istehsal etdiyi 125 milyon kilovat saat elektrik enerjisi Zaqafqaziyanın vahid energetika sisteminə daxil olmuşdur[56].

Beləliklə, 1970-1985-ci illərdə Respublikamızın rəhbəri H.Ə.Əliyevin şəxsi təşəbbüsü, düşüncəsi və inadlı fəaliyyəti nəticəsində Azərbaycan SSR-in DQMV-də sənaye üstün, sürətlə və dinamik inkişaf etdi. Dağlıq Qarabağ sənayesi 1970-ci illə müqayisədə 1980-ci ildə 249 faiz, 1985-ci ildə isə 300 faiz artdı[57].

Aparılan tədqiqatlar nəticəsində müəyyən olunur ki, bəhs etdiyimiz illərdə, Dağlıq Qarabağ sənayesindəki göstəricilər istər ümumrespublika səviyyəsində, istərsədə Naxçıvan Muxtar Respublikası ilə müqayisədə üstün olnuşdur. 15 il ərzində, DQMV sənayesi istehsal artmı göstəricisinə görə, ümumrespublika səviyyəsini 3 dəfə ötüb keçmişdir[58]. 1986-cı ilin sonralarında Vilayət sənayesi istehsal fondlarının dəyəri 140,2 milyon manat təşkil etmiş və 1980-ci illə müqayisədə 55,6 faiz artmışdır ki, bu da bütövlükdə respublika üzrə olan rəqəmdən 46,5 faiz çoxdur. 1985-ci ildə DQMV sənayesində 10 min nəfər və ya 1923-cü illə müqayisədə 50 dəfədən çox adam çalışırdı ki, bundan 52 faizi qadın idi. Əhalinin hər 10 min nəfərinə düşən sənaye işçilərinin sayına görə DQMV



Naxçıvan MR-dan təxminən 3 dəfə artıqdır (657-yə qarşı 387-i). Sənayedə məşğulluq göstəricilərinə görə DQMV yalnız Bakı-Sumqayıt rayonlarından geri qalırdı. Dağlıq Qarabağ Muxtar Vilayətində, yeni obyektlərin istifadəyə verilməsi intensifikasiya tədbirlərinin həyata keçirilməsi nəticəsində, istehsalın yüksək inkişaf surəti təmin olunmuş, doqquzuncu beşillikdə bu rəqəm 153,1 faiz, onuncu beşillikdə 162,2 faiz təşkil etmişdir. Dağlıq Qarabağda adambaşına 1,4 min manatlıq çox sənaye məhsulu istehsal olunmuşdur ki, bu da, Bakı və Sumqayıt müstəsna olmaqla, respublikamızın bütün iqtisadi regionlarındakı göstəricilərdən yüksəkdir. DQMV-də sənaye kompleksinin əsasını elektrotexnika, ipəkçilik, maşınqayırma, elektroenergetika, tikinti materialları, toxuculuq, mebel, ayaqqabı, ət-süd sənayesi və başqaları müvəffəqiyyətlə inkişaf etmişdir. 1981-ci ildə Dağlıq Qarabağ sənayesində çalışanların 217 nəfəri ali təhsilli, 454 nəfəri orta ixtisas təhsilli mütəxxəsisləridir ki, bu da Naxçıvan MR ilə müqayisədə 25 faiz çox demək idi[59].

DQMV əhalisinin ictimai istehsalla məşğulluq səviyyəsi kifayət qədər yüksək idi. Əmək ehtiyatlarının sayı 94,4 min nəfər, əmək qabiliyyətli yaşında olan olan kişilər 44,8 min, qadınlar isə 42,5 min nəfərdir. Əhalinin məşğulluq strukturu getdikcə yaxşılaşırdı. Dağlıq Qarabağın sürətli inkişafı, şəhər, qəsəbə və kəndlərdə sənaye müəssisələri, onların filiallarının, sexlərinin yaradılması evdə işləyənlərin sayının çoxalması və başqa sahələrdə Azərbaycan hökümətinin gördüyü tədbirlər Vilayətdə əmək qabiliyyətli əhalisinin məşğulluğunu daha səmərəli və tam təmin etmişdir. Bunun nəticəsi idi ki, 1985-ci ildə DQMV-də əhalinin adambaşına pul gəlirləri 1113,5 manatdan çox olmuşdur ki, bu da bütövlükdə ümumrespublika üzrə olan göstəricilərdən 97,8 manat, Naxçıvan MR-dakından 170,4 manat çoxdur. DQMV-nin inkişafı haqqında yuxarıdakı qərəzsiz araşdırmalar və əsaslı faktlar minlərlədir. Yəqin ki, tariximizi saxtalaşdırmağa çalışan erməni lobbisi yuxarıdakı tarixi faktları ya bilmirlər, ya da bilərəkdən onu saxtalaşdırırlar. Erməni millətçiləri saxtakarlığın daha yüksək zirvəsinə gedərək DQMV-nin iqtisadi inkişafında Ermənistanın rolunu ölçüyə gəlməz dərəcədə şişirtmişlər. Halbuki, aparılan tədqiqatlar nəticəsində məlum

olur ki, DQMV-nin iqtisadi inkişafında Ermənistanın payı 2 faizdən aşağı olmuşdur. Bölgənin iqtisadi və sosial inkişafının 90 faizi Azərbaycan Respublikasının, 8 faizi isə RSFSR, Ukrayna, Latviya, Litva, Estoniyanın üzərinə düşmüşdür. Keçmiş SSRİ məkanında müttəfiq respublikaların bir-birinə texniki köməkliyi danılmaz faktdır, lakin onu şişirtmək, həqiqətə uyğun olmayan yalançı faktları dünyaya yaymaq bir cinayətdir.

Ümummilli liderimiz H.Ə.Əliyev çıxışlarından birində 1970-1985-ci illərdə sənayenin inkişafı haqqında fikirlərini belə ifadə etmişdir: «1970-1985-ci illərdə Azərbaycanda sənaye dinamik inkişaf etmişdir. Bu illər ərzində 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, 250-dən çox iri zavod, fabrik və istehsalat sexləri tikilmiş sənayedə əmək məhsuldarlığı 2,1 dəfə, məhsul istehsalı 3,3 dəfə, mənfəət 3,2 dəfə, sənaye-məhsuldar personalın fondlarla təchizatı 1,4 dəfə artımış, 451 adda məhsula dövlət keyfiyyət nişanı verilmişdir. Ölkəmizdə buraxılan məhsul dünyanın 65 ölkələrinə ixrac olunmuş və xalqımızın maddi rifah halı xeyli yaxşılaşmışdır»[60].

Kənd təsərrüfatı: Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə ən mühüm iqtisadi nəticələrdən biri respublikamızda kənd təsərrüfatının dinamik inkişaf etməsi və iqtisadiyyatda onun rolunun artması təşkil edir. Bu dövrdə, istehsalın elmi əsaslarla intensivləşdirilməsi və təkmilləşdirilməsi kənd təsərrüfatında naliyyətlərin artmasında mühüm rol oynadı. Kənd təsərrüfatında dərin islahatlar səviyyəsində həyata keçirilən zəruri yeniləşmə onun inkişafının heç zaman görünməmiş tərəqqisini təmin etdi.

DQMV Azərbaycanın münbit torpaqlara, əlverişli iqlim şəraitinə və su ehtiyatlarına malik regionudur. Dağlıq Qarabağın belə bir təbii-coğrafi mövqeyə malik olması kənd təsərrüfatının inkişaf etdirilməsinə şərait yaratmışdır. İqtisadi rayonun ərazisində taxılçılıq, üzümçülük, heyvandarlıq təsərrüfatlarının inkişafı aparıcı sahələr olmuşdur. Dağlıq Qarabağ ərazisində istehsal olunan məhsulların 57 faizi bitkiçiliyin, 43 faizi heyvandarlığın üzərinə düşmüşdür[61].

1970-1985-ci illərdə Azərbaycan hökuməti DQMV-də kənd təsərrüfatının inkişafı üçün mühüm tədbirlər həyata keçirdi. Həmin tədbirlərdən biri, Dağlıq



Qarabağ Muxtar Vilayətinin bütün iqtisadiyyatının və mədəniyyətinin yüksəldilməsində Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin «Dağlıq Qarabağ Muxtar Vilayətinin xalq təsərrüfatının daha da inkişaf etdirmək tədbirləri haqqında» 1973-cü ilin mayında qəbul etdikləri qərarın böyük əhəmiyyəti olmuşdur[62]. İlk növbədə, Azərbaycan KP MK-nin, qərarlarına uyğun olaraq Vilayət Partiya Komitəsinin kənd təsərrüfatının inkişafı üçün «tədbirlər planı» işlənib hazırlandı.

Azərbaycan hökuməti Dağlıq Qarabağ kənd təsərrüfatının inkişafına, onun maddi-texniki möhkəmləndirilməsinə (su təsərrüfatı və melorasiya tədbirlərinə böyük məbləğdə dövlət təxsisatı nəzərə alınmadan) 171 milyon manatdan çox vəsait ayırdı[63].

Dövlətimiz DQMV-də kənd təsərrüfatı inkişafı üçün təkcə, 1970-1979-cu illərdə 11 milyon 327 min manat uzunmüddətli kredit verdi. 1980-1985-ci illərdə isə həmin kreditin məbləği artırılaraq 13 milyon 476 min manata çatdı. Bütövlükdə, DQMV Aqrar-sənaye kompleksinə daxil olan idarələrə — əkinçilik və heyvandarlıq məhsulları istehsal edən Vilayət Sovet icarəyə komitəsinin kənd təsərrüfatı idarəsinə, Dağlıq Qarabağ Aqrar-istehsalat birliyinə, DQMV Sovxoz Ərazi istehsalat Birliyi sistemində birləşən kənd təsərrüfatı xammalı emal edən sənaye müəssisələrinə, Vilayət kənd təsərrüfatı orqanlarına, vilayət kəndkimya idarələrinə, nəqliyyat müəssisələri və tikinti təşkilatlarına, kənd təsərrüfatı texnikumları və peşə məktəblərinə konkret tapşırıqlar verildi.

Bundan əlavə, Dağlıq Qarabağın kənd təsərrüfatının inkişafı üçün Azərbaycan hökuməti meliorasiya və irriqasiya işlərini daha da genişləndirdi. Bu məqsədlə, dövlətimiz 1970-ci ildə 201 min manat, 1975-ci ildə 248 min manat, 1980-ci ildə isə 326 min manat əsaslı vəsait ayırdı. DQMV-də mühüm əhəmiyyətə malik çoxlu su təsərrüfatı qurğusu yaradıldı və kanallar çəkildi. Yeri gəlmişkən onu da qeyd edək ki, Dağlıq Qarabağın relyefi müxtəlifdir. Dağlıq ərazilər nisbətən dəmyə olduğundan, bitkiçilik və heyvandarlıq sahəsi yağmurların hesabına inkişaf etdirilir. Bununla yanaşı, bölgənin yeraltı və yerüstü su ehtiyatları genişdir. DQMV Kür-Araz su hövzələrinə aid olub Qarqarçay,

Xaçınçay, Tərtərçay suvarma şəbəkəsindən ibarətdir. Həmçinin, bu çaylar 3500 metrədək hündürlükdən axarlarını götürdüyündən düzənlikdə sürətli axır və enerji ehtiyatları yaradır[64]. Enerji mənbəyi kimi istifadə edilməklə yanaşı, həmçinin, Dağlıq Qarabağın düzən ərazilərinin suvarılmasında çox böyük əhəmiyyət kəsb edir. Dağ sularından mənbələrini alan bu çayların suyunun təmizliyi əhalinin məişətdə də istifadəsinə imkan yaradır. DQMV-də qurunt suları çox yerlərdə bulaq suları şəklində səthə çıxır ki bunlardan içmək və məişət xidmətləri üçün istifadə olunurdu.

Azərbaycan KP və onun birinci katibi H.Ə.Əliyev, DQMV-nin kənd təsərrüfatını su ilə təmin etmək məsələsini daim diqqət mərkəzində saxlamışdır. Təsadüfi deyildir ki, 1970-1981-ci illərdə Dağlıq Qarabağda təkcə, irriqasiya və melarasiya işlərinə 775 min manat vəsait ayrılmışdı[65].

70-ci illərdə Vilayətin kolxoz və sovxozlarında 100-400 metr dərinlikdən çıxan artezan quyuları qazıldı. Dağlıq Qarabağın dərin dərələrindən axan çaylardan su vurmaq üçün təkcə, 1971-1975-ci illərdə 43 mexaniki aqreqat verildi[66].

Tərtər çayı üzərində tikilən sərsəng su anbarının tikintisinə Azərbaycan KP MK-nin birinci katibi həmişə diqqət yetirmişdir. Hətta, 1970-ci ildə Azərbaycan KP MK «Tərtər çayında magistral kanallarla birlikdə su anbarı tikintisini sürətləndirmək tədbirləri haqqında» xüsusi qərar da qəbul etmişdir. Sərsənq su anbarında tikinti işləri 1976-cı başa çatdırılmışdır. Uzaqgörən dövlət xadimi H.Ə.Əliyev həmin kompleksin açılışında iştirak etmiş və bu nəhəng tikintini «dostluq tikintisi» adlandırmışdır. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, Azərbaycan dövləti Sərsənq Su anbarının tikintisinə 95 milyon manatdan çox vəsait sərf etmişdir ki, bu da altıncı beşillik ərzində respublikada təsərrüfat qurğuları tikintisinə sərf edilən bütün vəsaitə təxminən bərabər idi. Tikinti zamanı 20 milyon kubmetr beton və sement tökülmüş, 2800 tondan artıq metal konstruksiya və texnoloji avadanlıq qarışdırılmış, uzunluğu bir kilometrdən çox olan yeraltı tünellər çəkilmişdir[67]. Səthi 35 kvadrat kilometr olan Sərsənq Su anbarı 560 milyon kub metr su tutur. Bu su ümumi uzunluğu təqribən 100



kilometr olan kanallar vasitəsilə DQMV-nin kolxoz və sovxoz tarlalarına axıdılırdı. Burada əsas iki magistral kanal tikilib: 1-ci kanal uzunluğu 75 kilometr olan sağ kanaldır, 2-ci isə sol kanaldır ki, onun uzunluğu 25 kilometrə bərabər idi[68]. Sərsənq Su anbarındakı sudan 120 min hektar sahədə yeni əkinləri və çoxillik bitkiləri suvarmaq nəzərdə tutulmuşdu[69].

1970-ci illərdə Yuxarı Qarabağ kanalı yenidən quruldu. Bəhs etdiyimiz illərdə, rayonlar arası kanallar şəbəkəsi və təsərrüfat daxili kanalların çəkilişi genişləndirildi. Dövlətimizin ayırdığı xüsusi vəsait hesabına DQMV ərazisində 1976-1981 illərdə uzunluğu 388,5 kilometr olan iri həcimli rayonlararası dövlət kanalları, 348 kilometr uzunluğunda təsərrüfatlar daxili kanallar çəkilib istifadəyə verilmişdir[70]. Hətta, Ağdərə rayonu ərazisində təsərrüfatları suvarmaq üçün «süni yağış» adlı suvarma sistemi tətbiq olundu ki, bu vasitə həm suyun itgisinin qarşısını alır, həm də bitkilərin əmək məhsuldarlığını yüksəldirdi.

Azərbaycan hökuməti 1970-1985-ci illərdə DQMV-də kənd təsərrüfatını inkişaf etdirmək üçün irriqasiya və melorasiya işlərini lazımi səviyyədə həyata keçirdi və suvarılan torpaqların həcmi 1970-ci ildəki 21363 hektara qarşı 1975-ci ildə 22749 hektara, 1980-ci ildə 24375 hektara, 1985-ci ildə 28969 hektara çatdı[71].

1970-1985-ci illərdə Azərbaycan hökümətinin DQMV-də kənd təsərrüfatını inkişaf etdirmək üçün həyata keçirdiyi tədbirlərdən biri də Vilayətin kolxoz və sovxozlarını kənd təsərrüfatı maşınları və digər texniki vasitələrlə daha yaxşı təchiz edilməsindən ibarət olmuşdur. Dağlıq Qarabağın təsərrüfatlarının texniki təchizat səviyyəsi xeyli yaxşılaşmışdı. Azərbaycan hökuməti 1971-1981-ci illər ərzində DQMV-nin kolxoz və sovxozlarında işləmək üçün 494 kənd təsərrüfatı maşınları göndərdi. Bəhs etdiyimiz illərdə, Vilayətdə traktorların sayı 1269-dan 1412-yə, taxılyığan kombayınların sayı 239-dan 250-yə, yük avtomobillərinin sayı isə 756-dan 1096-ya çatdı[72].

Bununla yanaşı, Azərbaycan hökuməti 1970-1985-ci illərdə DQMV-nə minlərlə kotan, müxtəlif toxumsəpən maşın, taxıldöyən, silosdoğrayan, taxıltəmizləyən maşın, çiləyici və tozlayıcı qurğular və sair göndərdi. Texniki vasitələrin getdikcə təkmilləşməsi, gücünün artması, idarə olunmasının

intelektual xarakter kəsb etməsi kənd təsərrüfatı əməyində mütərəqqi dəyişikliklərə təsir edən amillərdən biri idi. DQMV-də kənd təsərrüfatının texniki bazası dövlətimizin ayırdığı xüsusi vəsait hesabına hər 5 ildən bir tamamilə təzələnirdi.

DQMV-də elmi-texniki tərəqqi gücləndikjə, təsərrüfatlar nisbətən daha mükəmməl texnika və mexanizmlərlə təchiz olunduqca, istehsalın və əməyin enerji ilə silahlanma səviyyəsi artırdı. 1971-1981-ci illərdə Azərbaycan hökuməti Dağlıq Qarabağın kolxoz və sovxozlarında işlətmək üçün 137 elektrik mühərriki, 123 texniki mühərrik verdi[73]. Bununla da, DQMV-nin təsərrüfatlarında işlədilən elektrik mühərriklərinin sayı 183-dən 320-yə, mexaniki mühəriklərinin sayı isə 182-dən 305-ə çatdı[74]. 1970-1985-ci illərdə Azərbaycan hökuməti tərəfindən Dağlıq Qarabağın təsərrüfatlarının kompleks mexanikləşdirilməsi və Aqrar Sənaye Kompleksinin ardıcıl olaraq möhkəmləndirilməsi maya dəyərini azaltmağa, əmək məhsuldarlığımn yüksəldilməsinə və kənd təsərrüfatının dinamik inkişafına şərait yaratdı.

1970-1985-ci illərdə DQMV kənd təsərrüfatı məhsuldar qüvvələrinin inkişafı kənd əməkçilərinin peşə ustalığının artmasını tələb edirdi. DQMV-də kadrlara olan tələbatın ödənilməsində burada fəaliyyət göstərən peşə məktəblərinin rolu böyük idi. Bəhs etdiyimiz dövrdə, DQMV-də 5 texniki peşə məktəbi fəaliyyət göstərirdi. Bunlardan 21 və 159 saylı peşə məktəbləri Xankəndində, 129 saylı məktəb Ağdərədə, 72 saylı məktəb Şuşada, 125 saylı peşə məktəbi Xocavənddə gənc nəslə peşə təliminin sirlərini öyrədirdi. Hadrudda isə 125 saylı Xocavənd peşə məktəbinin filialı yaradılmışdı[75]. Həmin peşə məktəbləri 1971-ci ildə 480 nəfər ixtisaslı fəhlə və 500 nəfər ixtisaslı mütəxəssis hazırlamışdırsa, 1975-ci ildə onun sayı 2966-ya, 1980-cı ildə isə 3118-ə çatmışdı. Bəhs etdiyimiz dövrdə DQMV-də 5 texnikum var idi ki, bunlardan biri — Xankəndi sovxoz texnikumu sırf kənd təsərrüfatı mütəxəssisləri hazırlamaq işini həyata keçirirdi[76]. DQMV-də fəaliyyət göstərən peşə məktəbləri və texnikumlar burada oxuyan tələbələrə təkcə, elmin sirlərini öyrətmirdilər, eyni zamanda, öyrəndiklərini praktikada tətbiq edirdilər. Artıq, məktəbi qurtaran məzun işini



tam bilən bir mütəxəssis kimi Dağlıq Qarabağın kolxoz və sovxozlarında işə başlayırdı.

Azərbaycan dövləti respublikanın bütün kəndlərini ixtisaslı kadrlarla təmin etmək üçün ali və orta ixtisas müəssisələrində təhsil alanların sayını ilbəil artırdı. Təkcə 1965-1980-cı illərdə Azərbaycan hökuməti DQMV-nin kolxoz və sovxozlarında işləmək üçün 348 ixtisaslı kadr göndərmişdir. Həmin illərdə ixtisaslı kadrların sayı 2741-dən 3089-a çatdı[77].

1970-1985-ci illərdə DQMV-nin kənd təsərrüfatında mülkiyyət münasibətlərində dərin dəyişikliklər baş vermişdi. Kənd təsərrüfatında dövlət mülkiyyətinin rolu getdikcə artmışdı. 1970-1985-ci illərində Dağlıq Qarabağda kolxozların iriləşməsi və sovxozlara çevrilməsi nəticəsində sayı 2,1 dəfə azalmışdı. Belə ki, 1970-ci ildə DQMV-də 70 kolxoz var idisə, 1985-ci ildə 33-ə endi. Bu zaman Azərbaycanda cəmi 608 kolxoz var idi[78]. Bəhs etdiyimiz illərdə, DQMV də sovxozların sayı üç dəfə artdı. 1970-ci ildə Dağlıq Qarabağda 13 sovxoz var idisə, 1980-ci ildə artaraq 38-ə, 1985-ci ildə isə 40-a çatdı. 1985-ci ildə Azərbaycanda 805 sovxoz var idi. DQMV-də kolxozların sovxozlara çevrilməsi bir sıra mənfi hallar doğurdu. Əhalinin kənddən şəhərə axını gücləndi və məşğulluq problemləri meydana gəldi.

1970-1985-ci illərdə Azərbaycan hökumətinin DQMV-də həyata keçirdiyi tədbirlərdən biri də kənd təsərrüfatı bitkiləri zərərvericilərinə, xəstəliklərinə və alağa qarşı icbari tədbirləri həyata keçirmək məqsədiylə kimyəvi dərmanlarla təminatı işini yaxşılaşdırdı. Eyni zamanda, torpağın münbitliyini yüksəltmək üçün Dağlıq Qarabağın kolxoz və sovxozları üzvi və mədəni gübrələri ilə təmin edildi. Baytarlıq xidməti, sanitariya qaydalarına əməl olunmuş, heyvandarlıqda xəstəliklərə qarşı mübarizə, onun cins tərkibinin yaxşılaşdırılması ön plana çəkildi. Azərbaycan hökuməti, Dağlıq Qarabağ Muxtar Vilayəti kolxoz və sovxozlarını gübrələr və ziyanvericilərə qarşı kimyəvi dərmanlarla təminatını ilbəil artırırdı. Belə ki, 1970-ci ildə Azərbaycan hökuməti Dağlıq Qarabağa 12,3 min ton gübrə vermişdirsə, 1980-cı ildə bu rəqəm 2 dəfə artaraq 24,6 min tona çatmışdır. 1985-ci ildən, hər il ardıcıl olaraq, DQMV-nin təsərrüfatlarına

təxminən 24-26 min ton gübrə verilmişdi[79]. Bütün bunlar, Dağlıq Qarabağın təsərrüfatlarında torpaqların münbitliyini artırdı, eroziyanın, şoranlaşmasın qarşısını aldı və məhsuldarlığı yüksəltdi.

1970-1985-ci illərdə, DQMV Aqrar-Sənaye kompleksinə 33 kolxoz, 40 sovxoz, 6 təsərrüfatlar arası birlik və sənaye müəssisələrinin 5 heyvandarlıq kompleksi daxil idi[80]. 70-ci illərdə Dağlıq Qarabağın kənd təsərrüfatı istehsalının intensivləşməsi, ixtisaslaşması və təmərgüzləşməsi, təsərrüfatlararası kooperasiyanın və aqrar-sənaye inteqrasiyasının genişlənməsi kənd təsərrüfatının inkişaf etməsinin mühüm amillərdən biri idi.

Bəhs etdiyim illərdə, DQMV-nin kənd təsərrüfatının ixtisaslaşması sahəsində elmi cəhətdən əsaslandırılmış tədbirlər həyata keçirildi. 70-ci illərdə kənd təsərrüfatında əmək bölgüsünün dərinləşməsi prosesi sürətləndi. DQMV-nin kənd təsərrüfatında sturuktur dəyişiklik aparılarkən Vilayətin təbii-coğrafi mövqeyi, iqlimi, torpaq quruluşu və şair nəzərə alındı. Məsələn, Ağdərə rayonunda (həm də bütün DQMV-də) pambıq əkini dayandırıldı. Pambıq əkin sahələri üzüm əkini ilə əvəzləşdirildi. Şuşa, Hadrud, Xocavənd və Xankəndi rayonlarında tütün əkininə son qoyuldu. Tutun, yalnız Ağdərə rayonunun dağlıq ərazisində əkildi.

Şuşa və Xocavənd rayonlarının sovxozları kartof əkinini dayandırdılar, Hadrud rayonunun sovxozları isə kartof əkinini tam azaltdı. Kartof əkini ilə ən çox Xankəndi və Ağdərə rayonları məşğul olurdu. Taxıl əkini ilə DQMV-nin bütün təsərrüfatları məşğul olsa da, Şuşa rayonunda taxıl əkini 3 dəfə azaldıldı. Şuşa rayonunun sovxozlarında isə taxıl əkini 1974-cü ildən tamam dayandırıldı[81]. Həmçinin, Şuşa rayonu sovxozlarında 1972-ci ildən tərəvəz əkini ixtisar edildi. 70-ci illərdən Şuşanın təbii coğrafi mövqeyi ilə bağlı burada dəmyə bitkilər əkilməyə başlandı. Şuşanın sovxozlarında üzüm əkilmirdi, kolxozlarında yalnız 2 hektar üzüm əkilirdi. 1970-ci ildən başlayaraq, Şuşa rayonu barama istehsalı planından azad edilmişdi[82]. 1970-ci illərdə üzümçülük və heyvandarlıq DQMV-nin kənd təsərrüfatının əsas aparıcı sahələri olmuşdu.



Beləliklə, 1969-1982-ci illərdə də Azərbaycan dövlətinin başçısı H.Ə.Əliyevin şəxsi prinsipal mövqeyi, dərin düşüncəsi nəticəsində Azərbaycanın DQMV-nin kənd-təsərrüfatında, ardıcıl olaraq, kompleks tədbirlər həyata keçirildi. Belə ki, elmi naliyyətləri və qabaqcıl təcrübə istehsalata tətbiq edildi; Dağlıq Qarabağın kolxoz və sovxozlarının ixtisaslı kadırlarla təmin olunması işi tam həyata keçirildi; Elektrikləşmə, mexanikləşmə, irriqasiya, melorasiya, ixtisaslaşma işləri Dağlıq Qarabağın bütün təsərrüfatlarında tətbiq olundu; kənddə tikinti-abadlıq, quraşdırma işləri həyata keçirildi; əmək və əmək haqqı tamamilə maliyyələşdirildi; dövlətimiz tərəfindən ayrılan vəsaitin həcmi ilbəil artırıldı; Dağlıq Qarabağın bütün təsərrüfatları avadanlıq, toxum, cins heyvan, texnika, maddi vəsait və başqa aqrar sektora lazım olan vəsaitlə təmin olundu və bunun nəticəsində 1970-1985-ci illərdə Dağlıq Qarabağın kənd təsərrüfatı dinamik şəkildə və yüksək sürətlə inkişaf etdi.

1970-1985-ci illərdə DQMV-də kənd təsərrüfatı təyinatlı torpaqlar həcmcə az dəyişmişdi. Belə ki, 1970-ci ildə həmin torpaq sahəsi 490 min hektar idisə, 1985-ci ildə min hektar artaraq 497 min hektara çatmışdır[83]. Aparılan tədqiqatlardan məlum olur ki, kolxoz təsərrüfatlarının torpaqları azalmış, sovxozlarınkı isə artmışdır. DQMV-dəki kənd təsərrüfatına yararlı torpaqlardan 246,7 min hektarı kolxozların, 132,2 min hektarı sovxozları, 113,7 min hektarı dövlət meşə fondunun, 7,4 min hektarı digər torpaqlara aid idi[84]. Dağlıq Qarabağın kənd təsərrüfatına yararlı torpaqlardan şum yerləri 1965-ci ildəki 54,6 min hektardan 1980-ci ildə 63 min hektara, 1985-ci ildə isə artaraq 66,3 min hektara çatmışdır[85].

1980-ci ildə DQMV-nin rayonları arasında əkin sahələri bölgüsü qeyri bərabər idi. Belə ki, Vilayətdən ümumi şum sahəsinin 35 faizi Ağdərə rayonunun, 30 faizi Xocavənd rayonunun, 20 faizi Xankəndinin, 10 faizi Hadrudun, 5 faizi Şuşa rayonunun payına düşmüşdü[86]. 1980-cı ildən başlayaraq, DQMV-də torpaqların herikə (dincə) qoyulması prosesi başlamışdır. 1980-ci ildə Vilayətin təsərrüfatlarında 3,5 min hektar, 1985-ci ildə 1,8 min hektar, 1986-cı ildə isə 4,7 min hektar şum yeri dincə qoyulmuşdur[87]. 1970-1985-ci illərdə DQMV-nin

müxtəlif kateqoriyalardan olan təsərrüfatlarından müxtəlif kənd təsərrüfatı bitkilərinin əkin sahəsi aşağıdakı kimi aparılmışdır (min hektarla)[88].

| İllər | DQMV-də ümumi əkin sahəsi | O cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | Dənli bitkilər | Texniki bitkilər | Kartof və bostan bitkiləri | Yem bitkiləri |
| 1966 | 54,6 | 32,0 | 2,5 | 1,8 | 18,3 |
| 1970 | 69,9 | 42,1 | 1,6 | 1,6 | 24,6 |
| 1975 | 63,1 | 30,4 | 0,2 | 1,7 | 30,8 |
| 1980 | 63,0 | 29,6 | 0,2 | 2,0 | 31,2 |
| 1985 | 66,3 | 32,1 | 0,5 | 1,9 | 31,8 |

Bəhs etdiyimiz dövrlərdə, DQMV-də taxıl istehsalının intensivləşdirilməsi kənd təsərrüfatının inkişafının ən mühüm problemlərindən biri olaraq qalırdı. 1970-ci ildə DQMV-də dənli bitkilər 42 min artıq sahəni tuturdu ki, bu da Dağlıq Qarabağdakı ümumi əkin sahənin 60 faizi demək idi. Vilayətdə əkilən dənli bitkilərin yarısından çoxu suvarılardı. 1961-1968-ci illərdə bu sahəyə diqqət zəif olmuş və taxıl təsərrüfatı başlı başına buraxılmışdı. 1970-ci ildən taxılçılıq mədəniyyətinin yüksəldilməsinə, dənli bitkilərin sort tərkibinin dəyişdirilməsinə, onların əkin və biçin texnologiyasınm yaxşılaşdırılmasına diqqət artdı və yalnız yüksək məhsuldar buğda sortları əkilməyə başladı. Nəticədə, 1985-ci ildə 1970-ci illə müqayisədə taxıl əkin sahəsi 10 min hektar azalsa da, taxıl yığımı 5 min ton artmışdır (6,8 tondan 11,8 tona çatmışdır). Bəhs etdiyimiz illərdə, Dağlıq Qarabağda taxılın məhsuldarlığı təxminən 2 dəfə artmışdır. 1970-ci ildə hər hektardan 11,8 sentiner taxıl götürürdüsə, 1985-ci ildə 21,2 sentinerə qalxmışdı[89].

Becərilməsi çətin olan pambıq bitkisinin əkini DQMV-nin təsərrüfatlarında 1975-ci ildən dayandırılmışdı. Hansı ki, DQMV-nin təsərrüfatlarında 1960-cı ildə 3403 hektar, 1970-ci ildə 1402 hektar, 1974-cü ildə



1024 hektar sahədə pambıq əkilmişdir. Pambıq istehsalı 1970-ci ildə 2691 tona, 1974-cü ildə 2112 tona çatmışdır. Həmin illərdə hər hektardan götürülən məhsuldarlıq 19,2 sentinerdən, 20,7 sentinerə çatmışdır[90]. Bu zaman respublikamızda hər hektardan 26,7 sentner pambıq götürülmüşdü[91].

1970-1985-ci illərdə DQMV kənd təsərrüfatı istehsalının strukturunda üzümçülüyün xüsusi çəkisi artdı. Azərbaycan hökümətinin xüsusi qayğısı nəticəsində Vilayətdə üzümçülük intensiv surətdə inkişaf etdirildi. Bəhs etdiyimi illərdə, DQMV-nin təsərrüfatlarında 12,3 min hektar sahədə yeni üzümlüklər salındı. Bu zaman respublikamızda cəmi 90 min hektar sahədə üzüm tingi əkilmişdir. 1960-cı ildə DQMV-də üzüm palntasiyaları 5,5 min hektar idisə, 1970-ci ildə 10,8 min hektara, 1985-ci ildə isə artaraq 17,8 min hektara çatmışdır[92]. 1970-1985-ci illərdə Dağlıq Qarabağda üzüm istehsalı və üzümlüklərin məhsuldarlığı ildən ilə artmışdır. Ağdərə rayonunun «Partiyanın XXII qurultayı» adına və «Bakı fəhləsi» sovxozları Xocavənd rayonunun «Kommunizm», «Kirov», «K.Marks» adına kolxozları, Əsgəran rayonunda «S.Nelson» adına kolxoz və başqa təsərrüfatların üzümçüləri yüksək məhsul ustası kimi şöhrət qazanmış və həmin təsərrüfatların yüzdən çox üzümçüsü hər hektaradan 300-350 sentner üzüm məhsulu əldə etmişlər. Hətta yuxarıda adlarını çəkdiyimiz təsərrüfatların hər hektarından 400-450 sentner məhsul götürənlər də vardır ki, onlar «sosialist əməyi qəhrəmanı», «SSRİ Dövlət Mükafatı lauriatı» və «Lenin ordeni»nə layiq görülmüşlər[93].

Bəhs etdiyimiz illərdə, Azərbaycan hökümətinin DQMV-də həyata keçirdiyi mühüm tədbirlər — üzüm plantasiyalarında işlərin texnikləşdirilməsi, mineral gübrələrdən istifadə edilməsinin yaxşılaşdırılması, aqrartexniki qaydalara ciddi riayət olunması üçün lazimi şərait yaradılması və şair amillər üzüm istehsalının ildən ilə artmasma şərait yaratmışdır. 1970-ci ildə orta hesabla hər hektardan 70,6 sentiner məhsul götürüldüsə, 1981-1985-ci illərdə bu göstərici 102,2 sentinerə çatmışdır. Ən yüksək məhsuldarlıq 1980-ci ildə götürülmüşdür (hər hektaradan 119,9 sentiner). Dağlıq Qarabağda istehsal olunan məhsulların 26 faizi üzümçülüyün payına düşürdü[94]. Son 20 il ərzində Dağlıq Qarabağda

üzüm istehsalı 18 dəfə artmışdır. 1961-1965-ci illərdə orta hesabla hər il dövlətə 8,3 min ton üzüm təhvil verilmişdirsə, 1970-ci ildə bu rəqəm artaraq 54 min tona, 1975-ci ildə 75,4 min tona, 1976-1985-ci illərdə isə hər il orta hesabla dövlətə 142 min ton üzüm satılmışdır. 1985-ci ildə Azərbaycanda 286 min hektar üzümlük var idi və təsərrüfatlardan 1829 min ton üzüm yığılmışdı[95]. Lakin 80-ci illərin ikinci yarısında bütün sovet imperiyasında alkoqolizmə qarşı mübarizə kompaniyası başlanandan sonra yüz min hektardan çox üzümlük məhv edilmiş, Azərbaycan xalqına böyük ziyan vurulmuşdu.

XX yüzilliyin 70-80-ci illərində DQMV-nin kənd təsərrüfatında texniki bitkilər arasında tütün də yetişdirilirdi. Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan hökümətinin kənd təsərrüfatı sahəsində həyata keçirdiyi ixtisaslaşma siyasəti nəticəsində 1965-ci ildə Hadrud, Xojavən və Şuşa rayonlarında, 1973-cü ildə isə Xankəndi rayonunda tütün əkini dayandırıldı. 1974-cü ildən Vilayətdə yalnız Ağdərə rayonunda tütün əkilirdi[96]. 1985-ci ildə, 1970-ci illə müqayisədə 13 hektar çox sahədə tütün əkilmişdir. Belə ki, 1970-ci ildə tütün əkini 226 hektar, 1975-ci ildə 231 hektar, 1980-ci ildə 238 hektar, 1985-ci ildə 239 hektar sahədə tütün əkildi[97].

DQMV-nin təsərrüfatlarında tütün istehsalında az da olsa artım müşahidə edilmişdir. Belə ki, 1965-ci ildə dövlətə tütün satışı 177 ton idisə, 1970-ci ildə 253 tona, 1975-ci ildə 232 tona, 1980-ci ildə 338 tona, 1985-ci ildə isə artaraq 412 tona çatmışdır. Bəhs etdiyimiz illərdə, tütünün əmək məhsuldarlığında artım 1965-ci ildəki 7,2 sentinerə qarşı, 1970-ci ildə 11,2 sentiner, 1975-ci ildə 10,1 sentiner, 1980-ci ildə 15,5 sentiner, 1985-ci ildə isə 15,8 sentiner olmuşdur. DQMV tütünçüləri gəlirlə işləmişdirlər. Məsələn, 1965-ci ildə Dağlıq Qarabağ tütünçülərinin illik gəliri 252 min manata bərabər idisə, 1981-ci ildə bu göstərici 15 dəfə artaraq 3 milyon 880 min manata çatmışdır[98]. Tütün əkin təsərrüfatların pul gəlirlərinin artması, məhsulun keyfiyyətinin yaxşılaşması və məhsuldarlığın yüksəlməsi, hər şeydən öncə, Azərbaycan hökümətinin bu sahənin inkişafı üçün hər cür şəraitlə təmin etməsi ilə bağlı idi.



Tərəvəzçilik və kartofçuluq Dağlıq Qarabağ kənd təsərrüfatında köməkçi, əlavə sahələrdəndir. Kartof və tərəvəzi Dağlıq Qarabağın bütün rayonlarında əkirdilər. Xocavənd və Şuşa rayonunun sovxozları kartof əkmirdilər. 1971-ci ildən isə Şuşa rayonu sovxozları tərəvəz əkinini dayandırmışlar[99]. Tərəvəz və kartof əkini 1970-ci ildə 1,6 min hektar, 1980-ci ildə 2 min hektar, 1985-ci ildə 1,9 min hektar sahədə əkilmişdir. Dövlətə kartof satışı 1970-ci ildə 0,3 min ton olmuşdursa, 1985-ci ildə 2 dəfə artaraq 0,6 min tona çatmışdır[100]. Tərəvəz tədarükü isə 1971-1975-ci təsərrüfat illərindəki 3 min tondan, 1981-1985-ci təsərrüfat ilində orta hesabla 5 min tona qalxmışdır. Onu da qeyd edək ki, yuxarıdakı rəqəmlərə şəxsi təsərrüfatlardan əldə olunan kartov və tərəvəz daxil deyildir. Məsələn, 1980-ci ildə bütün təsərrüfatlardan 9,4 min ton kartof məhsulu olmasına baxmayaraq, bunun 0,4 min tonu, tərəvəzin isə 9,4 min tondan 4,8 min tonu dövlətə satılmışdır[101]. Qalan məhsullar yerli əhalinin tələbatının ödənilməsinə sərf edilmişdir.

1970-1985-ci illərdə hər hektardan kartofun məhsuldarlığı 113-sentinerdən 159-sentinerə qalxmışdır[102]. DQMV-nin təsərrüfatlarından tərəvəz bitkilərindən soğan, pomidor, xiyar, istiot, kələm, yerkökü, qarpız və sair becərilirdi. Azərbaycanda 1966-1970-ci illərə nisbətən 1981-1985-ci illərdə orta illik məhsul istehsalı kartof 122,5 min tondan 189,8 min tona, tərəvəz 364,5 min tondan 890,4 min tona çatmışdır[103].

DQMV-nin mənzərəsi üçün ən səciyyəvi cəhət meyvə bağlarının mövcudluğu və inkişafıdır. Dağlıq Qarabağın hər yerində bağçılıqla məşğul olurdular. İstər kolxoz və sovxozlarda, istərsə də şəxsi təsərrüfatlarda əkilən bütün meyvə bağları suvarılırdı. DQMV-nin torpaq iqlim şəraiti çox illik bitkilərin əkininin xeyli genişlənməsinə imkan verir. Üzüm bağları müstəsna olmaqla, 1970-ci ildə bağçılıq təsərrüfatının həcmi 1960-cı illə müqayisədə 1440 hektar artaraq 3830 hektara çatmışdır[104]. Dağlıq Qarabağda meyvə bağlarının həcmi 1980-ci ildə 3383 hektara, 1985-ci ildə 2849 hektara çatırdı[105]. Dağlıq Qarabağın təsərrüfatlarında armud, alma, gavalı, alça, qaragilə, qoz, fındıq, nar, heyva, zoğal, tut və başqa meyvə agacları əkilirdi. 1970-1985-ci illərdə əkin

sahələrinin azalmasına baxmayaraq, Azərbaycan hökümətinin həyata keçirdiyi kompleks tədbirlər nəticəsində Dağlıq Qarabağda həm məhsul istehsalının həcmi həm də əmək məhsuldarlığı ilbəil artmışdı. Məsələn, 1960-cı ildə Dağlıq Qarabağın təsərrüfatlarından 2,2 min ton məhsul yığılmışdırsa, 1970-ci ildə həmin məhsul 3,7 min tona, 1980-ci ildə 5,3 min tona, 1985-ci ildə isə 5,6 min tona çatmışdır[106]. Bəhs etdiyimiz illərdə, əmək məhsuldarlığında böyük artım müşahidə edilmişdir. 1970-ci ildə hər hektardan 15,6 sentiner meyvə və giləmeyvə götürülmüşdürsə, 1985-ci ildə artaraq 42,1 sentinerə çatmışdır. 1970-ci ildə müqayisədə 1985-ci ildə Azərbaycanda meyvə və giləmeyvələr 82,8 min tondan 317,5 min tona çatmışdır[107]. 1985-ci ildə Naxçıvan MR-da meyvə və giləmeyvə bağlarının sahəsi 6125 hektar, məhsulun ümumi həcmi 7,7 min ton, məhsuldarlıq 17,6 sentiner idi[108]. DQMV-də əmək məhsuldarlığı istər ümumrespublika səviyyəsindən, istərsə də Naxçıvan MR ilə müqayisədə yüksək olmuşdur.

DQMV-də qədimdən əkilən çoxillik bitkilər içərisində şah-tut ağacı görkəmli yer tutur. Çox zəhmət tələb etməyən və və tərkibində şəkərliyin faizi yüksək olan (32%) bu agac Dağlıq Qarabağ ərazisində qədimdən becərilirdi. Tutdan müxtəlif növ məhsullar, o cümlədən, spirt, bəhməz, irçal və sair hazırlanır, təzə halda yeyilir və ya meyvəsi qurudularaq ilin müxtəlif fəsillərdə istifadə edilir. Şah-tut ağacının oduncağdan keyfiyyətinə görə mebel istehsalında istifadə edilir. Eyni zamanda, tutun yarpağı ipəkqurdunun yem bazası rolunu oynayır. Şah-tut ağacının sərin kölgəsi, misilsiz dadı və müalicəvi əhəmiyyəti vardı. Bütün bu kimi müsbət cəhətlərinə görə Dağlıq Qarabağ ərazisində şah-tut ağacı qədimdən əkilirdi və burada 150-200 yaşlı olan tut agaclarına rast gəlmək mümkündür[109].

Yuxarıda qeyd etdiyimiz kimi, Dağlıq Qarabağın bütün rayonlarında şah-tut bağları var idi. Tut bağlarının təxminən 60 faizi Xocavənd rayonunun payına düşürdü. 1971-1975-ci illərdə yeni növ tut bağlarının salınması və tut bağlarının üzüm bağları ilə əvəzləşdirilməsi səbəblərindən tut bağları 219 hektar azaldı[110]: 1970-ci ildə Dağlıq Qarabağda 1139 hektar olduğu halda 1975-ci ildə 920 hektara enmişdir (şəxsi həyətlərdəki tut bağları bura daxil deyildi). İxtisaslaşma



ilə əlaqədar Ağdərə rayonu ərazisində tut bağları ləğv edildi. 337 hektar sahədə yeni, küləyə davamlı növün əkilməsi hesabına Dağlıq Qarabağ ərazisində şah-tut bağlarının sahəsi 1980-ci ildə 1257 hektara çatdı[111]. İl ərzində şah-tut ağacının bəhrəsi 8 dəfə yığılırdı. 1950-ci illər də müqayisədə 60-cı illərdə tut məhsulu tədarükü azalsada 70-ci illərdən başlayaraq həm məhsulun istehsalında, həm də məhsuldarlıqda artım müşahidə edilmişdir. 1970-ci ildə tut yığımı 3758 ton idisə, 1975-ci ildə 4766 tona, 1980-ci ildə 5195 tona, 1985-ci ildə isə təxminən 2 dəfə artaraq 6894 tona çatmışdır. Hər hektardan götürülən məhsuldarlıq isə 1970-ci ildəki 41,8 sentinerə qarşı 1985-ci ildə 63,6 sentinerə qalxmışdır[112]. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, XX yüzillik ərzində şah tut ağacının ən yüksək məhsuldarlığı 1970-1985-ci illərdə əldə edilmişdir. DQMV-də istehsal olunan kənd təsərrüfatı məhsullarının 12 faizi meyvə-tərəvəzçiliyin payına düşürdü[113]. DQMV-də meyvə, üzüm, tütün, tərəvəz, kartof, bostan məhsuldarlığının xeyli hissəsi şəxsi yardımçı təsərrüfatlar hesabına əldə olunmuşdu. 1970-1985-ci illərdə yeni maddi-texniki bazaya və sənaye xarakterli texnologiyalara əsaslanaraq DQMV-də kənd təsərrüfatının üzümçülük, taxılçılıq, tərəvəzçilik, meyvəçilik və digər sahələri dinamik inkişaf etmişdi. Bu inkişafı aşağıdakı cədvəldən də aydın görmək olar (bütün kateqoriyalardan dövlət kənd təsərrüfatı məhsulları satışı)[114].

| Məhsulun növləri | Ölçü vahidi | 1970 | 1975 | 1980 | 1985 |
|---|---|---|---|---|---|
| Üzüm | Min ton | 34 | 103 | 136 | 142 |
| Tütün | Ton | 253 | 232 | 338 | 412 |
| Pambıq | Ton | 2691 | 2112 | - | - |
| Taxıl | Min ton | 8,7 | 10,4 | 10,5 | 11,8 |
| Kartof | Ton | 335 | 748 | 405 | 603 |
| Tut | Ton | 3758 | 4766 | 5195 | 6894 |
| Meyvə | Min ton | 3,7 | 4,9 | 5,3 | 5,6 |
| Tərəvəz | Min ton | 1,7 | 3,5 | 4,8 | 5,0 |

Heyvandarlıq DQMV-nin qabaqcıl kənd təsərrüfatı sahələrindən biridir. Vilayətdə istehsal olunan kənd təsərrüfatı məhsullarının 43 faizi heyvandarlıq təsərrüfatlarının payına düşmüşdür[115]. 1970-1985-ci illərdə Dağlıq Qarabağda heyvandarlıq dinamik inkişaf etmişdir. Dağlıq Qarabağ, ümumrespublika əmək bölgüsündə ət, süd, üzüm istehsalında ixtisaslaşmışdır, respublikada bu məhsulların istehsalının ümumi həcmininin təqribən 10 faizi Vilayətin payına düşürdü. DQMV Azərbaycan SSR-in iri heyvandarlıq regionu olmuşdur. Regionda heyvandarlığın inkişafı Azərbaycan hökümətinin və dövlətimizin başçısı H.Ə.Əliyevin həmişə diqqət mərkəzində olmuş, onun məqsədyönlü rəhbərliyi nəticəsində Dağlıq Qarabağda heyvandarlığın inkişaf yolu, ixtisaslaşma və təmərgüzləşmə, sənaye təməlinə keçid və sair tədbirlər bu inkişafa böyük kömək etmişdir. 70-ci illərdə DQMV-də sənaye tipli 7 iri təsərrüfatlararası və kolxoz heyvandarlıq kompleksi, 20 yem sexi tikilib istismara verilmiş, heyvandarlıq binalarının tikintisi, yenidən qurulması və yeni texnika ilə təchiz olunması sahəsində geniş proqram həyata keçirilmişdir. Bəhs etdiyimiz dövrdə, suvarılan örüş, otlaq sahələri xeyli artırıldı. Belə ki, 1970-ci ildə suvarılan otlaq sahələri 234 hektar idisə, 1971-ci ildə 577 hektara çatdı[116]. 1971-1975-ci illərdə DQMV-də ictimai fermaların tikintisi xeyli genişləndirildi. Belə ki, həmin illərdə 12,6 min yerlik iribuynuzlu mal-qara tövləsi, 10,7 min yerlik donuzçuluq, 33 min yerlik qoyunçuluq və 64 min yerlik quşçuluq fermaları tikilib istifadəyə verilmişdir[117]. Zoobaytarlıq xidmətinin təkmilləşdirmək, mal-qaranın cinsini yaxşılaşdırmaq, yem bazasını inkişaf etdirmək, heyvandarlıq sahəsini ixtisaslı kadırlarla təmin etmək üçün xeyli iş görülmüşdür.

1976-1980-ci illərdə Azərbaycan hökümətinin ayırdığı xüsusi vəsait hesabına DQMV-nin kolxoz və sovxozlarda sənaye xarakterli texnologiyaya əsaslanan mexanikləşdirilmiş heyvandarlıq fermaları: 11810 yerlik iribuynuzlu mal-qara ferması, 31000 yerlik donuzçuluq, 131000 yerlik qoyunçuluq, 22000 yerlik quşçuluq fermaları tikilib istifadəyə verilmişdir[118].

1970-ci illərdə Dağlıq Qarabağda heyvandarlığın inkişafı üçün onun yem bazasının möhkəmləndirilməsi istiqamətində tədbirlər həyata keçirilirdi.



Təsərrüfatlarda yeni yem bitkiləri — qarğıdalı, çuğundur, yerkökü, yonca, arpa və sair əkilməyə başlandı. Suvarılan yem bitkilərinin sahəsi 2 dəfə genişləndirildi. Həmin sahələr üzvü və mineral gübrələrlə təmin edildi. Azərbaycan höküməti ot əkin sahələrindən onun biçilməsi, bağlanması, daşınması üçün Dağlıq Qarabağ təsərrüfatlarını tam texnika ilə təmin etdi. Ot tayalarını saxlamaq üçün çardaxlar və silos quyuları tikilib istifadəyə verildi. 1965-ci illə müqayisədə 1980-ci ildə yem əkini sahəsi 38,5 faiz, yem bitkilərinin istehsalı isə 63,6 faiz artdı[119]. Aparılan tədqiqatlardan məlum olur ki, heyvandarlığın inkişafında yem bazası 70-75 faiz rol oynayır. Ona görə də, bu sahəyə 70-ci illərdə xüsusi diqqət yetirilmişdir. Sahələrə düzgün aqrotexniki qulluq nəticəsində yem bitkilərinin həcmi və məhsuldarlığı artmışdır. 1975-ci illə müqayisədə 1981-ci ildə quru ot yığımı 4,2 min ton, senac 54,2 ton, küləş və saman 12,6 min ton, silos 10,3 min ton artmışdı. Hər hektardan götürülən məhsuldarlıq isə quru ot 28,4 sentiner, qarğıdalı və silos 63 sentiner, meyvəköklü bitkilər 109 sentner, arpa 15,2 sentiner olmuşdur[120]. Bu isə, 1970-ci illə müqayisədə təxminən 2-3 dəfə çox demək idi. 1976-1981-ci illərdə Azərbaycan hökümətı Dağlıq Qarabağın heyvandarlıq təsərrüfatında 15 yem sexi, 40 yem mətbəxi, 10 mexanikləşdirilmiş vitaminlərlə yemi qatışdıran sex tikilib istifadəyə verilmişdi[121]. Bütün bunlar, Dağlıq Qarabağın kolxoz və sovxozlarının heyvandarlıq təsərrüfatının yem bazasının tələbə cavab verən səviyyədə olmasını göstərir.

1970-1985-ci illərdə Azərbaycan hökümətinin Dağlıq Qarabağda həyata keçirdiyi tədbirlərdən biri də heyvanların cins tərkibinin yaxşılaşdırılması və təsərrüfatları mütəxxəsislərlə təmin etməkdən ibarət idi. Təkcə, 1970-1975-ci illərdə kənd təsərrüfatmda çalışan mütəxəssislərin sayı 30 faiz artdı. 1975-ci ildə DQMV-nin təsərrüfatlarında 70 kolxoz sədri, 13 sovxoz drektoru, 11 ayrıca fəaliyyət göstərən ferma müdri, 55 aqranom, 43 zootexnik, 85 baytar, 245 ferma briqadiri, 27 injiner-texnik işləyirdi[122]. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, DQMV-də çalışan ali və orta ixtisas təhsilli mütəxxəsislərrin sayı ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır.

Bəhs etdiyimiz illərdə, Azərbaycan hökümətinin DQMV-də həyata keçirdiyi tədbirlərdən biri də mal-qaranın cins tədbirlərinin yaxşılaşdırılmasından ibarət olmuşdur. Xankəndindəki Qarabağ zona təcrübə stansiyası, Leninavandakı Qarabağ eksperemental bazası, Daşbulaq və Qaro sortluq məntəqələri, «Turşsu» damazlıq diaqnoz kabinəsi bölgədə xəstəliklərə qarşı mübarizə və yeni növlərin, süni mayalanmanın əldə edilməsində böyük işlər görmüşlər.

Ictimai mal-qara, əsas etibarı ilə yaxşı avadanlıqlarla təchiz edilmiş binalarda saxlanılırdı. Fermaların əksəriyyətində çox zəhmət tələb edən proseslər — qoyunların qırxılması, heyvanların suvarılması onlara yem verilməsi, binaların təmizlənməsi və başqa işlər mexanikləşdirilmişdi. Fermalar öz işini yaxşı bilən mütəxəssislərlə tam təmin edilmiş, heyvanların xəstəliklərinə qarşı mübarizə gücləndirilmişdi. Heyvandarlıq fermalarındakı maşınlara və aqreqatlara, elektirik avadanlıqlarına texniki xidmət göstərilməsi işi bacarıqlı mütəxissislərə tapşırılmışdı. Mal-qara mütəxxislərin tərtib etdikləri qayda əsasındı yemlənirdi. 1978-ci ildə DQMV-də daha bir heyvandarılıq təsərrüfatı — «təsərrüfatlararası heyvandarlıq kompleksi» istifadəyə verilmişdi[123]. Heyvandarılıqda məhsuldarlığın artırmasında bu təsərrüfatların çox böyük xidmətləri olmuşdur. Heyvandarlıq Kompleksi DQMV-nin 15 heyvandarlıq təsərrüfatı ilə sıx əlaqə əsasında inkişaf edirdi, Azərbaycan hökümətinin 1970-1985-ci illərdə DQMV heyvandarıhq təsərrüfatlarmda həyata keçirdiyi tədbirlər nəticəsində bütün kateqoriyalardan olan təsərrüfatlarda mal-qaranın sayı artdı. Belə ki, 1971-ci illə müqayisədə 1985-ci ildə iri buynuzlu mal-qaranın sayı 86,4 min başdan 88,4 min başa, qoyun və keçilərin sayı 266,2 min başdan 288 min başa, quşların sayı 162,2 min başdan 286,5 min başa çatdı (şəxsi təsərrüfatlarda olan quşlar daxil deyil). İri buynuzlu mal-qaranın, qoyun və keçilərin təqribən 30 faizindən çoxu, donuzun isə 15 faizi şəxsi təsərrüfatlarda saxlanılırdı.

XX yüzilliyin 70-80-ci illərində kənd təsərrüfatı heyvanları arasında yalnız arı ailələrinin sayında azalma müşahidə edilmişdi. Vilayətin kolxoz və sovxozlarında 1970-ci ildə 9739 arı ailəsi var idisə, 1981-ci ildə bu göstərici 6188



enmişdir[124]. Bəhs etdiyimiz illərdə, mal-qaranın sayının artması ilə yanaşı, heyvandarlıq məhsullarının istehsalı və tədarükünün müntəzəm sürətdə dinamik inkişafı da müşahidə edilmişdir. Məsələn, 1970-ci ildə hər inəkdən il ərzində orta hesabla 1497 kloqram süd sağılmışdırsa, 1985-ci ildə bu göstərici 2427 kloqrama çatmışdır. Hər qoyundan qırxılan illik yunun həcmi isə 1970-ci ildəki 2,8 kloqramdan 1985-ci ildə 2,9 kloqrama qalxmışdır. Hətta, Xocavənd rayon südçülük fermalarında hər inəkdən 4300-5200 kloqram süd sağımı hallırı da müşahidə edilmişdir[125]. 1970-1985-ci illərdə dövlətə heyvandarlıq məhsullarının satışında böyük artım müşahidə edilmişdir ki, bu artımı aşağıdakı cədvəldən də aydın görmək olar (bütün kateqoriyadan olan təsərrüfatlardan)[126].

| Məhsulun növü | Ölçü vahidi | 1970 | 1975 | 1980 | 1985 |
|---|---|---|---|---|---|
| Mal-qara və quş əti | Min ton | 7,2 | 10,1 | 10,4 | 11,5 |
| Süd və süd məhsulları | Min ton | 17,2 | 22,0 | 28,1 | 31,1 |
| Yumurta | Milyon ədəd | 7,8 | 10,1 | 10,7 | 11,2 |
| Yun | Ton | 494 | 579 | 592 | 605 |
| Barama | Ton | 83 | 133 | 139 | 146 |

1980-ci illərdə DQMV-də adambaşına il ərzində 320 kq süd, 68 kq ət düşürdü ki, bu da ümumrespublika göstəricilərində xeyli yüksək idi[127]. Ümumrespublika üzrə istehsal olunan südün 10,5 faizi, ətin 10 faizi DQMV-nin üzərinə düşürdü. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1980-ci illərin ortalarında adambaşına düşən ümumi kənd təsərrüfatı məhsullarının həcminə görə DQMV ümumrespublika üzrə olan göstəricilərdə öndə dayanmışdır. Adam başına düşən kənd təsərrüfatı məhsullarımn həcmi 1986-cı ildə ümumrespublika üzrə 588 manat, Naxçıvan Muxtar Respublikasında 500 manat idisə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində isə 692 manata çatmışdır[128].

Beləliklə, 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Çünki, bu dövrdə xalq təsərrüfatının quruculuq sahələri dinamik inkişaf etmiş Azərbaycan ittifaq miqyasında üzüm istehsalına görə 1-ci yeri, barama istehsalında ikinci yeri, pambıq istehsalında 4-cü yeri tutmuş, xalqın maddi rifah halı yaxşılaşmış, orta aylıq əmək haqqı 1,5 dəfə artmış, milli iqtisadiyyatımız miqyaslı və ardıcıl inkişaf etmiş, Azərbaycanın sosial-iqtisadi həyatında çox böyük yüksəliş baş vermişdir. Ümummilli liderimiz H.Ə.Əliyev çıxışlarının birində demişdir ki, «bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın Dövlət Suverenliyi və iqtisadi müstəqilliyi sistemli şəkildə artan xarici-iqtisadi əlaqələri dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensiyalına əsaslanır»[129].

Sosial yüksəliş 1970-1985-ci illərdə Azərbaycanın DQMV-nin iqtisadi yüksəlişi, əhalinin rifahının və məişətinin daha da yaxşılaşdırılmasına şərait yaratmışdır. 1965-1985-ci illərdə DQMV-nin kolxoz sovxoz və şəxsi təsərrüfatlarında ümumi istehsal təqribən iki dəfədən çox, əhalisinin hər nəfərinə düşən real gəlir 81 faizdən çox artmışdır[130]. Fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 1970-ci illərdə 1,4, 1980-ci illərdə isə 1,3 dəfə çoxalmışdır. Dağlıq Qarabağda əhalinin real gəlirinin yüksəldilməsində əsas mənbələrdən biri əmək haqqının ardıcıl olaraq artırılmaıdır. Azərbaycan dövlətinin başçısı H.Ə.Əliyevin rəhbərliyi altında Azərbaycan KP qurultaylarında, MK plenumlarında vaxtaşırı çağrılan müşavirələrdə respublikamızın, o cümlədən, onun ayrılmaz hissəsi olan DQMV-nin iqtisadi, sosial və mədəni inkişafı üçün konkret vəzifələr irəli sürülmüş və əhalinin rifah və məişətinin daha da yaxşılaşdırılması üçün təşkilati tədbirlər müəyyən edilmişdir. 1970-ci illərdə xalq təsərrüfatının müxtəlif sahələrində fəhlə və qulluqçularının əmək haqqının nizama salınması və yüksəldilməsi sahəsində görülən tədbirlər nəticəsində DQMV-də fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 1965-ci illə müqayisədə 1985-ci ildə 60 faizdən çox artmışdı. Əgər 1965-ci ildə DQMV-də fəhlə və qulluqçuların pul ilə ödənilən orta aylıq əmək haqqı 60 manat idisə, 1965-ci ildə bu rəqəm 90,3



manata, 1975-ci ildə 125,1 manata, 1980-ci ildə 148,4 manata, 1985-ci ildə 153,5 manata çatmışdır[131]. Gəlirləri daha çox olan Dağlıq Qarabağ kolxoz və sovxozlarında, sənaye müəssislərində aylıq əmək haqqı daha yüksək olmuşdur. Məsələn, Ağdərə rayonunun partiyanın XXII qurultayı adına sovxozun fəhlə və qulluqçularm orta aylıq əmək haqqı 1975-ci ildə 144 manat, 1980-ci ildə 270 manat, 1985-ci ildə isə təxminən iki dəfə artaraq 295 manata çatmışdır[132].

1970-1985-ci illərdə DQMV kolxozçularının da orta aylıq əmək haqqında artım müşahidə edilmişdir. Bəhs etdiyimiz dövrdə, bu artım 1,5-2 dəfəyə çatmışdır. DQMV-də kolxoz və sovxozların illik gəlirlərinin yüksək dərəcədə artması burada işləyən kolxozçuların da əmək haqqına güclü təsir etmişdir. 1965-ci ildə kolxoz və sovxoz təsərrüfatlarında işləyən hər bir fəhləyə gündə 2 manat 65 qəpik keçirilirdisə, 1970-ci ildə bu rəqəm 3 manat 87 qəpiyə, 1975-ci ildə 4 manat 42 qəpiyə, 1980-ci ildə 5 manat 17 qəpiyə, 1985-ci ildə 6 manat 12 qəpiyə qalxmışdır[133]. Kənd təsərrüfatında çalışan işçilərin orta aylıq gəliri 1960-cı ildə təxminən 50 manat olmuşdursa, 1970-ci ildə 441 manat, 1975-ci ildə 565 manat, 1980-ci ildə 892 manat, 1985-ci ildə isə 976 manat olmuşdur[134]. Bu baxımdan, Dağlıq Qarabağ kənd əməkçilərinin orta illik gəliri 1960-cı ilə nisbətən, 1965-ci ildə iki dəfə, 1970-ci ildə 2,7 dəfə, 1976-ci ildə 3,5 dəfə, 1980-ci ildə 5,5 dəfə artmışdır. Tədqiq edilən illərdə, vilayətin kolxozçu kəndlilərinin təkcə, orta illik əmək haqqı deyil, eyni zamanda, onların gəlirləri, təqaüdləri, güzəştli və maddi kömək ictimai fondların artması hesabına çoxalmışdır. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, DQMV-də kənd təsərrüfatı işçilərinin orta aylıq əmək haqqı respublika göstəricilərindən xeyli çox olmuşdur. Məsələn, ümumrespublika üzrə kənd təsərrüfatında işləyənlər 1965-ci ildə 51,3 manat, 1970-ci ildə 76,7 manat, 1975-ci ildə 98,4 manat, 1985-ci ildə 119 manat aylıq əmək haqqı almışlarsa, DQMV-də bu göstərici 1965-ci ildə 78 manat, 1970-ci ildə 90 manat, 1975-ci ildə 115 manat, 1985-ci ildə isə 280 manata çatmışdır[135].

1970-1985-ci illərdə DQMV-də istər kolxozçulurn, istərsə də fəhlə və qulluqçuların şəxsi təsərrüfatlarından gələn gəlirləri xeyli artmışdır. Maraqlı cəhət ondan ibarətdir ki, bəhs olunan illərdə, DQMV-də şəxsi həyətyani

təsərrüfatlardan əldə edilən gəlir istər ümumittifaq səviyyəsində, istərsə də ümumrespublika səviyyəsində yüksəkdə dayanmışdır. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, 1970-ci ildə keçmiş SSRİ məkanında kolxozçular ümumi gəlirlərinin 31,9 faizini şəxsi təsərrüfatlarından əldə etmişdilər. 1975-ci ildə bu göstərici 26,3 faiz, 1980-ci ildə 30 faiz təşkil etmişdir. Ümumrespublika üzrə bu göstərici 1970-ci ilə 32 faiz, 1975-ci ildə 43,9 faiz, 1980-ci ildə 45 faiz təşkil etmişdirsə Azərbaycanın DQMV-də bu göstərici 1970-ci ildə 34 faiz, 1975-ci ildə 44,7 faiz, 1980-ci ildə isə 46,4 faiz təşkil etmişdir[136]. Bu faktın özü Azərbaycan hökümətinin Dağlıq Qarabağ əhalisinə göstərdiyi dərin qayğını bir daha subut edir. Bəhs etdiyimiz dövrdə, ümumrespublika səviyyədə DQMV-də başqa sahələrdə də yüksək göstəricilər əldə edilmişdir. Məsələn, 1960-cı illə müqayisədə 1975-ci ildə adambaşına düşən məhsul istehsalının həcmi ümumrespublika üzrə 140,5 faiz, DQMV-də isə iki dəfə artıb 250 faizə çatmışdır. Həmin illərdə, sənaye məhsulları istehsalının həcmi respublikamızda 229 faiz, Azərbaycanın DQMV-də 281 faiz, kapital qoyuluşunun həcmi, bütövlükdə, Azərbaycanda 219 faiz, DQMV-də 417 faiz mal dövriyyəsinin həcmi respublikamızda 240 faiz, onun Dağlıq Qarabağ hissəsində 279 faiz, məişət xidmətinin həcmi ümumrespublika üzrə 540 faiz, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 550 faiz artmışdır[137].

1970-1985-ci illərdə DQMV-də ictimai istehlak fondlarında əhaliyə verilən ödənc və güzəştlərin məbləği üç dəfə çoxalmışdır[138]. Həmin illərdə, qocalara, əlillərə, əmək qabiliyyətini müvəqqəti itirənlərə, əmək və müharibə veteranlarına başçısını itirmiş uşaqlı ailələrə, tək analara maddi yardım ilbəil artmışdır. DQMV-də qocalığa və əlilliyə görə dövlətdən təqaüd alanların sayı 1960-cı ildə 14,5 min, 1966-cı ildə 22 min 1970-ci ildə 27,7 min, 1975-ci ildə 29,3 min, 1980-ci ildə 31,5 min, 1985-ci ildə 33,4 min nəfər olmuşdur[139]. 1985-ci ildə DQMV-də qocalığa görə təqaüd alanların sayı 20,4 min nəfərə çatmışdır. DQMV-də təqaüd alan kolxozçuların sayı 1970-ci illə müqayisədə, 1980-ci ildə əlilliyə görə təqaüd alanlar 84 nəfərdən 92 nəfərə, qocalığa görə təqaüd alanlar 12,9 mindən, 10,7 minə xəstəliyə və şikəstliyə görə təqaüd alanlar 999-dan 815 nəfərə, iş



qabiliyyətini itirdiyinə görə 414-dən 315 nəfərə enmişdir[140]. 1970-1980-ci illərdə respublikamızda təqaüd alanların sayı 643 min nəfərdən, 987 min nəfərə çatmışdır[141].

DQMV-də çoxuşaqlı anaların sayı 1965-ci ildə 6342 nəfər, 1970-ci ildə 6189 nəfər, 1975-ci ildə 4753 nəfər, 1980-ci ildə 4012 nəfər idi[142]. Dördüşaqlı anaların sayı bütün çoxuşaqlı anaların sayını təxminən 50 faizini təşkil edirdi. Keçmiş SSRİ hökümətinin «hamiləlik, doğum və xəstə uşağa xidmət üçün müavinət təminatının yaxşılaşdırılması haqqında» (1973-cü il 26 iyun) qərarına əsasən qadınlara hamiləliyə və doğuma görə iş stajından asılı olmayaraq əmək haqqının 100 faiz ödənilməsinə, «aztəminatlı uşaqlı ailələrə maddi köməyin daha da yaxşılaşdırılması haqqında» 1974-cü il 12 sentyabr tarixlli qərarına əsasən 1974-cü il noyabrın 1-dən ümumi gəliri ailənin hər üzvü hesabından ayda 50 manatdan az olan 8 yaşa qədər uşaqların hər birinə 12 manat müavinat verilməsinə başlandı[143].

Bundan əlavə, ittifaq hökümətinin «uşaqlı ailələrə dövlət yardımını gücləndirmək haqqında» 1981-ci il 31 mart tarixli qərarı ilə ümumi iş staji bir ildən az olmadan, habelə təhsil alan qadınlara uşaq 1 yaşına çatanadək ona xidmət etmək üçün əmək haqqının müəyyən hissəsi ödənilməklə bir il müddətində məzuniyyət verilməyə başlanmış, tək analara verilən dövlət mükafatının minimum səviyyəsi hər bir uşağa ayda 20 manata qaldırılmış və xəstə uşağa qulluq edilməsinə görə haqqı ödənilən vaxtın müddəti 14 günədək uzadılmışdır. Beləliklə, 70-80-ci illərdə dövlətimizin həyata keçirdiyi mühüm tədbirlər nəticəsində əhaliyə verilən pensiyaların həcmi 4,4 dəfə, müavinətlərin həcmi isə 3,3 dəfə çoxaldı[144]. Bəhs etdiyimiz illərdə, DQMV-də kolxoz üzvlərinin pensiya məbləği müxtəlif göstəricilər üzrə xeyli artmışdır. Məsələn, təkcə, DQMV-də qocalığa görə pensiya məbləği 1970-ci ildəki 2 milyon 706 min manatdan 1980-ci ildə 53 milyon 840 minə qalxmışdır. DQMV kolxoz üzvlərinin əlilliyə görə pensiya məbləği 1970-ci ildəki 29,5 mindən 1980-ci ildə 45,8 minə, xəstəlik və şikəstliyə görə pensiya məbləği 243,8 mindən 436,5 minə, iş qabiliyyətini itirdiyinə görə pensiya məbləği 95,2 mindən 153,6 minə qalxmışdır[145]. 1970-ci illə

müqayisədə Dağlıq Qarabağ fəhlələrinin aldıqları pensiya və müavinatların məbləği 420 min manatdan 1 milyon 656 min manatadək artmışdı[146].

Aparılan araşdırmalardan məlum olur ki, əhalinin hər 10 min nəfərinə düşən təqaüdçülərin sayı DQMV, istər ümumrespublika səviyyəsindən (14 faiz), istərsədə Naxçıvan MR ilə müqayisədə (12 faiz) üstün olmuşdur. Ayrılan təqaüdlərin həcmində də bu fərqlər müşahidə edilmişdir. Lakin DQMV XDS «sosial təminat sahəsində səlahiyyətləri»ndən çox məharətlə istifadə etmişdilər[147]. Yerli və ittifaq əhəmiyyətli pensiyalar təyin edilərkən Vilayət Sosial Təminat Şöbəsi ikili mövqe tutmuş, faktiki xəstə olan Azərbaycanlılar haqqında tibbi Əmək ekspertizasının rəyi həmişə mənfi olurdu. Pensiya dərəcəsinə gəldikdə isə ən ağır xəstə azərbaycanlı III dərəcəyə, milliyyətcə erməni olanlar isə yüngül xəstə olsa belə I dərəcəyə aid müəyyən edilirdi. Yaşa görə təminatlarda isə, eyni müəssisədə erməni ilə Azərbaycanlının arasında böyük fərqlər müşahidə edilmişdir. Ümumiyyətlə, DQMV-də milliyyətcə müsəlman olanlar sosial təminat sahəsində də erməni millətçiləri tərəfindən həmişə sıxışdırılmışlar.

Bəhs etdiyimiz illərdə, DQMV-də əhalinin maddi rifah halının yaxşılaşdırılmasını vilayət sakinlərinin əmanət kassalarında saxlanılan pul əmanətçilərinin məbləğindən, əmanətçilərin və əmanət kassalarının sayının artmasından da görmək olar[148].

| İşin məzmunu | illər | | | |
|---|---|---|---|---|
| | 1970 | 1975 | 1980 | 1985 |
| DQMV-də əmanət kassalarımn sayı | 88 | 100 | 105 | 111 |
| Əmanətçilərin sayı (min) | 48 | 51 | 90 | 135 |
| Kassalarda saxlanılan əmanətçilərin məbləği (min manatla) | 31497 | 64751 | 125590 | 217620 |
| Orta hesabla hər bir əmanətçiyə düşən məbləğ (manatla) | 617 | 961 | 1251 | 1612 |



Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1966-1980-ci illərdə DQMV-nin Xankəndi, Ağdərə, Xocavənd və Hadrud rayonunda əmanət kassalarında saxlamlan əmanətin dəfələrlə artırılmasına baxmayaraq müsəlmanların daha çox cəmləşdiyi Şuşa rayonunda bu göstərici aşağı düşmüşdü. Məsələn, həmin illərdə Xankəndi rayonunda kənd əməkçilərinin saxladığı əmanətlər 9 milyondan 14 milyona, Ağdərədə 4 milyondan 12 milyona, Xocavənddə 5 milyondan 9 milyona, Hadrutda 2 milyondan 5 milyon manata qalxmışdırsa, Şuşa rayonunda 9 milyon manatdan 2,5 milyon manata enmişdir. Bu faktın özü Dağlıq Qarabağda yaşayan Azərbaycanlılara ögey münasibət göstərilməsini və onların sosial vəziyyətinin aşağı olmasını göstərir[149].

1970-1985-ci illərdə Azərbaycan hökuməti DQMV-də həyata keçirdiyi mühüm tədbirlərdən biri də burada yaşayan əhalinin istehlak tələbatı ilə təklif arasında uyğunluq yaratmaq, əhalinin ərzaq və qeyri ərzaq mallarına olan tədbirləri tam ödəməkdən ibarət olmuşdur. Dağlıq Qarabağda əhalinin alıcılıq qabiliyyətinin artması istehlak malları istehsalının, ticarət və ictimai iaşə xidmətlərinin nisbətən inkişaf etməsi Vilayətdə mal dövriyyəsinin çoxalmasına səbəb olmuşdur. 1971-1981-ci illərdə Azərbaycan hökümətinin ayırdığı xüsusi vəsait hesabına DQMV ərazisində yeni 54 ticarət müəssisəsi, 54 yeməkxana və restoran, 8 qəlyanaltı və bufet, 1 univermaq, 1 sənaye malları mağazası, 77 ictimai iaşə müəssisəsi, 59 xırda satış müəssisəsi, 98 çadır ticarət köşkü tikilib Vilayət əhalisinin istifadəsinə verildi[150]. Bəhs edilən dövrdə, DQMV də ticarət müəssisəsinin sayı 618-dən, 672-yə, mağazaların sayı 322-dən 351-ə, yeməkxanaların və restoranların sayı 78-dən 134-də, qəlyanaltı və bufetlərin sayı 155-dən 176-ya, univermaqlar 2-dən 3-ə, sənaye malları mağazası 7-dən 8-ə, ərzaq mağazası 16-dan 17-yə, ictimai iaşə müəssisəsi 233-dən 310-a, ixtisaslaşmış mağazalar 18-dən 22-yə, xırda satış mağazası 380-dan 439-a, gündəlik tələbat mağazaları 150-dən 181-ə, digər satış mağazaları 194-dən 231-ə, çadır ticarət kökləri 226-dan 324-ə çatdı[151].

1971-1985-ci illərdə DQMV dövlət və kooperativ ticarətində ictimai iaşə daxil olmaqla pərakəndə mal dövriyyəsi 53,7 milyon manatdan 118,8 milyon

manata qalxmışdır. Həmin illərdə, DQMV də ticarət və əmtəə dövriyyəsinin məbləği 27 milyon 315 mindən 45 milyon 774 minə çatdı. 1970-1985-ci illrdə DQMV də əhaliyə hərtərəfli mədəni xidmət göstərən yaxşı təşkil edilmiş ticarət müəssisələri olmasına baxmayaraq, hələ də bu sahədə nöqsanlar özünü göstərirdi. Belə ki, Vilayət ticarət təşkilatları tərəfindən malların rayonlar üzrə düzgün bölüşdürülməməsi, azərbaycanlılar yaşayan kəndlərdə ticarət mallarının çatışmaması, həmin kəndlərdə ticarət və iaşə xidmət səviyyəsinin xeyli aşağı olması faktları aşkar edilmişdir. Şuşaya və müsəlmanlar yaşayan kəndlərə Vilayətin mərkəzi ticarət müəssisələri tərəfindən göndərilən malların əksəriyyəti keyfiyyətsiz olduğundan əhalinin tələbatını ödəmirdi. Vilayət tabeli ticarət və iaşə müəssisə və təşkilatlarının mal dövriyəsinin nomenqlaturasında ikili mövqe aşkarlanmışdır. DQMV-dəki müsəlman kəndlərindəki mövcud mağazalar (əgər bu qədim daxmaları mağaza adlandırmaq mümkündürsə) soyuducu və digər texnoloji avadanlıqlarla təchiz edilmirdi. Xankəndi ticarət idarəsi, Vilayət partiya və sovet təşkilatları göstərilən nöqsanları aradan qaldırmağa cəhd etməmiş və təsirli tədbir görməmişdir.

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-1980-ci illərdə istər adambaşına düşən pərakəndə ticarət dövriyyəsinin həcminə, istər ticarət müəssisələrinin miqdarına, istərsə də adambaşına düşən ticarət mağazalarının sahəsinə görə DQMV-dəki ümumi göstəricilər həm ümumrespublika səviyyəsində, həm də Naxçıvan və digər rayonlarla müqayisədə üstün olmuşdur. Məsələn, təkcə 1981-ci ildə 10 min nəfər hesabı ilə pərakəndə ticarət müəssisələrinin miqdarı ümumrespublika üzrə 28, Naxçıvan MR-da 24, DQMV 42 idi. 10 min nəfər hesabı ilə mağazaların ticarət sahəsi (kvadrat kilometrlə), ümumrespublika üzrə 1127, Naxçıvan MR 1319, DQMV 1743 kvadrat kilometr olmuşdur. Adambaşına düşən pərakəndə ticarət dövriyyəsinin həcmi ümumrespublika üzrə 617 manat, Naxçıvan MR 420 manat, DQMV 642 manat məbləğində idi[152]. Başqa dövrlərdə də bu cür fərqlər müşahidə edilmişdir.

Dağlıq Qarabağ əhalisinin mədəni-məişət şəraitinin yaxşılaşmasında ictimai iaşə müəssisələri böyük əhəmiyyət kəsb edirdi. 1970-1980-cı illərdə



DQMV-da yeni yeməkxana, restaran, mətbəx fabriki, qəlyanaltı və bufetlər yaradılmasına xüsusi diqqət yetirilmişdir. Təkcə, 1970-1985-ci illərdə Dağlıq Qarabağın kəndində 26 yeməkxana, 39 çayxana və bufet tikilmişdir[153]. Bu dövrdə, mövcud obyektlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. Ictimai iaşə müsəssisələrinin yerləşdirilməsi prosesi nəzərdən keçirilərkən məlum olur ki, burada da erməni rəhbərliyi qərəzli mövqe tutmuşlar. Məsələn, 1970-1985-ci illərdə Xankəndi, Xocavənd, Hadrud, Ağdərə rayonlarında ictimai iaşə xidməti müəssisələrinin yerləşdirilməsi və xidmət həcmi 2,5 dəfədən çox artmış, Şuşa rayonunda bu artım 1,9 dəfəyə çatmışdır[154]. Ən böyük ictimai iaşə müəssisələri — "xeyirxah xidmət salonu", camaşırxanalar, məişət kombinatları, paltar və ayaqqabı təmiri emalatlxanaları, paltar yumaq və təmizləmək məntəqələri və digər xidmət növləri məntəqələri Xankəndi şəhərində yaradılmışdır. 1975-ci il məlumatına görə, DQMV ticarət mal dövriyyəsinin 69 milyon 394 min manatın 27 milyon 767 min manatı Xankəndi ticarət müəssisələrinin üzərinə düşmüşdür[155].

1970-1985-ci illərdə Azərbaycan hökümətinin dərin qayğısı nəticəsində əhaliyə ictimai iaşə və mədəni məişət xidməti dinamik inkişaf etmişdir. Həmin inkişafı aşağıdakı cədvəldə aydın görmək olar:[156]

| Göstəricilər | İllər | | | |
|---|---|---|---|---|
| | 1970 | 1975 | 1980 | 1985 |
| DQMV-də əhaliyə xidmət emalatxanaları və otelyelərin sayı | 375 | 473 | 555 | 628 |
| O cümlədən, kənddə | 191 | 251 | 282 | 298 |
| Ictimai iaşə xidməti (min manat) | 2495 | 3520 | 18270 | 21465 |
| O cümlədən, kənddə | 958 | 1991 | 8783 | 974 |
| Əhaliyə məişət xidməti müəssisələrində işləyənlərin sayı | 1153 | 1348 | 1579 | 17071 |
| O cümlədən kənddə | 307 | 470 | 483 | 497 |

Aparılm tədqiqatlara əsasən müəyyən edilmişdir ki, Dağlıq Qarabağda hər sakin üçün məişət xidmətlərinin həcmi 1966-1970-ci illərdə 13 manat olmuşdursa, 1971-1975-ci illərdə bu göstərici artaraq 18 manata, 1976-1980-ci illərdə 25 manata çatmışdır. Bu göstəricilər ümumrespublika səviyyəsindən üstündür. Belə ki, hər bir sakinə düşən məişət xidmətinin həcmi 1981-1986-cı illərdə ümumrespublika üzrə 20-30 manat olmuşdursa, Naxçıvan MR-da 15-21 manat, DQMV-də isə 31-41 manata çatmışdır. 10 min nəfərə düşən məişət xidməti emalatxanalarının miqdarına gəldikdə isə ümumrespublika üzrə bu göstərici 1981-1986-cı illərdə 15-17 emalatxana, Naxçıvan MR-da 21 emalatxana, DQMV-də isə 29-32 emalatxana düşürdü.[157]

1970-1985-ci illərdə DQMV-də ticarət, ictimai iaşə və məişət xidməti müəssisələrində işləyən ali və orta ixtisas təhsilli mütəxxəsislərin sayı xeyli artmışdır. Belə ki, 1970-ci ildə onların sayı 239 nəfər idisə, 1975-ci ildə 340 nəfərə (bundan 55 nəfəri ali təhsilli idi), 1980-cı ildə 460 nəfərə, 1985-ci ildə 578 nəfərə çatmışdır[158].

Ticarət müəssisələrində çalışanların təxminən 60 faizini qadınlar təşkil edirdi. Ictimai iaşə və ticarət müəssisələrində işləyənlərin orta aylıq əmək haqqı 1965-ci ildəki 67 manata qarşı, 1975-ci ildə 87 manata qalxmışdır[159]. Vilayət rəhbərliyinin ayrı seçicilik siyasəti burada da özünü göstərmişdir. Aparılan araşdırmalardan aydın olmuşdur ki, DQMV-da ticarət müəssisələrində çalışanların demək olar ki, 95 faizini ermənilər təşkil etmişlər.

Azərbaycan hökuməti Dağlıq Qarabağ əhalisinin ərzaq və qeyri ərzaq məhsullarına olan tələbatı ödəmək üçün bütün imkanlardan istifadə edirdi. 1970-1985-ci illərdə DQMV-də qeyri ərzaq mallarının satışı daha sürətlə aparılmışdır. 1965-ci ildəki 8 milyon 622 minə qarşı 21 milyon 96 min manata çatmışdır. Başqa sözlə desək, sənaye mallarının ümumi mal dövriyyəsində həcmi 1965-ci ildə 47 faiz təşkil edirdisə 1975-ci ildə 60 faizə qalxmışdı.[160]

1980-ci il tədqiqatlarına əsasən DQMV-də hər 100 ailədən 81-də radioqəbuledici, 98 televizor, 83 soyuducu, 51 paltaryuyan maşın, 34 tozsoran, 60 tikiş maşını, 10 minik avtomobil var idi[161]. 1970-1980-ci illərdə ərzaq və



sənaye məhsullarının qiymətlərində bahalanma halları müşahidə etmişdi. O dövrdə, DQMV ilə əlaqədə olanlar yəqin ki, mənim dediyim bu cümlə ilə razılaşarlar; 80-ci illərdə Azərbaycanda strateji məhsullar sırasına daxil olan ət, yağ, şəkər və digər məhsullar heç vaxt Dağlıq Qarabağın ticarət köşklərindən azalmırdı. Bu isə, Azərbaycan hökümətinin DQMV-nin həmişə diqqət mərkəzində saxlamasım və hər cür şəraitlə təmin edilməsinin əsas göstəricisidir. Dövlətimiz Dağlıq Qarabağ əhalisinin həyat səviyyəsini yüksəltmək üçün, onların artan tələbatını ödəmək baxımından, bazarları müxtəlif məhsullarla doldururdu. Hətta, 1986-cı ildə DQMV mal dövriyyəsinin həcmi 1966-cı illə müqayisədə 5,1 dəfə artmışdır. Halbuki, bu rəqəm ümumrespublika üzrə 4,6 dəfəyə bərabər idi. Göstərilən dövr ərzində, adambaşına düşən mal dövriyyəsinin inkişaf surəti ümumrespublika üzrə 2,7 dəfə, Azərbaycanın DQMV-da 3,7 dəfə təşkil etmişdir. Həmin illərdə, mağazalarda hər 10 min nəfərə düşən ticarət sahəsi Azərbaycan üzrə 1,9 dəfə, onun tərkib hissəsi olan DQMV üzrə 2,6 dəfə artmışdır. Həmçinin, 1986-cı ildə ictimai iaşə müəssisələrində hər 10 min nəfərə düşən yerlərin sayı respublikamızda 731-i düşdüyü halda, Azərbaycan Dağlıq Qarabağ bölgəsində 805-ə çatmışdır.

1970-1985-ci illərdə Azərbaycan SSR DQMV-nın şəhər və kəndlərində mənzil tikintisi sürətlə artmışdır. İlk növbədə, Azərbaycan höküməti DQMV-də mənzil tikintisi kommunal təsərrüfatlar inkişafı və abadlıq işləri, mənzil kommunal təsərrüfatının kompleks inkişafı üçün kapital qoyuluşunun həcmini artırdı. 1971-1975-ci illərdə 139 milyon manat, 1976-1980-ci illərdə 153 milyon manat, 1981-1985-ci illərdə isə 191 milyon manat vəsait ayrılmışdır. Ayrılan vəsaitin 323 milyonu tikinti quraşdırma işlərinə, 150 milyonu isə kommunal təsərrüfatı, əsaslı təmir, müxtəlif mənzil qurğuları və mexanizmiləri istismarına, yaşayış məntəqələrinin abadlaşdırılmasına və sair ayrılmışdır. Mənzil tikintisinin sahəsi yüksələn xətlə xarakterizə olunmuşdur. 1970-1985-ci illərdə bütün maliyyə mənbələri hesabına DQMV-də ümumi sahəsi 1027,9 min kvadrat metr olan yeni abad mənzillər istifadəyə verilmişdir[162]. Bəhs etdiyimiz illərdə, Dağlıq Qarabağda

mənzil tikintisinin necə dinamik inkişaf etdiyini aşağıdakı cədvəldəndə aydın görmək olar (min kvadrat hesabı ilə)[163].

| İllər | DQMV-də cəmi tikilmişdir | O cümlədən, | | |
|---|---|---|---|---|
| | | Dövlət və kooperativ müəssisələri və təşkilatları tikililəri | Dövlət krediti ilə tikilən şəxsi mənzillər | Kolxozlarda tikilənlər |
| 1966-1970 | 262,0 | 65,6 | 191,3 | 5,1 |
| 1971-1975 | 269,2 | 104,8 | 162,3 | 2,1 |
| 1976-1980 | 244,9 | 121,5 | 121,1 | 2,3 |
| 1981-1985 | 251,8 | 116,8 | 132,2 | 3,0 |

Dağlıq Qarabağda aparılan tikinti işlərində yerli xammal materiallarından da istifadə olunurdu. Azərbaycan hökümətinin ayırdığı vəsait hesabına Vilayətdə tikinti sənayesi sürətlə inkişaf etmişdir. Aparılan hesablamalar nəticəsində məlum olur ki, respublikamız üzrə üzlük daşın 15 faizi, tikinti daşının 30 faizini, mişar daşının 10 faizi, sənaye əhəmiyyətli gilin 10 faizi, Yuxarı Qarabağ iqtisadi rayonun payına düşürdü. Bu sahədə Xankəndi tikinti materialları kombinatı, qum-çınqıl, daş, mərmər karxanaları, kərpic zavodu böyük rol oynamışdır. Xankəndi, Əsgəran, Xocavənd, Xocalı meşə və agac emalı kombinatları da Dağlıq Qarabağda tikinti abadlıq işlərinin inkişafını sürətləndirmişdir[164]. 1960-1980-ci illərdə Dağlıq Qarabağın fəhlə və qulluqçuları və kənd ziyalıları, Azərbaycan hökümətinin yaxından köməyi ilə 552 min kvadrat metr sahəsi olan 1000-dən artıq fərdi mənzil tikmişdir. Həmin mənzillər yeni stildə tikilirdi və 2-3 mərtəbədən ibarət idi. Təkcə, 1976-1980-ci illərdə 126 min nəfər fəhlə və qulluqçu yeni mənzillərə köçmüş və onların sosial vəziyyəti xeyli yaxşılaşmışdır. 1970-1985-ci illərdə DQMV-də yeni mikrorayonlar, qəsəbələr salınmış, çox mərtəbəli



yaşayış binaları tikilmiş, kənd yaşayış məntəqələri yenidən qurulub şəhər tipli qəsəbəyə çevrilmişdir. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-1985-ci illərdə DQMV-də mənzil tikinti sahəsind əldə edilən naliyyətlər respublikamızın bütün regionlarından yüksək dayanmışdır. Məsələn, Dağlıq Qarabağda bir sakinin mənzillə təminatı 14,6 kvadrat metrə çatdığı halda, respublikamız üzrə bu göstərici 10,0 kv.metr, Naxçıvan MR-da isə 9,5 kv.metr olmuşdur. Bunlardan əlavə, şəhər yerində şəxsi mülkiyyətdə olan mənzil fondunun abadlıq dərəcəsi ümumrespublika üzrə 137,8 faiz, Azərbaycanın Naxçıvan MR-da 107,4 faiz, DQMV-də isə 167,5 faiz yerinə yetirilmişdir[165].

1961-1986-cı illərdə DQMV-də bütün mənbələr hesabına 1400 min kvadrat metr mənzil sahəsi, o cümlədən, 1985-1986-cı illərdə 123,9 min kvadrat metr mənzil sahəsi tikilmişdir. Nəticədə, 12 min nəfərdən çox adam öz mənzil şəraitini yaxşılaşdırmışdır. Apardığımız tədqiqatlardan məlum olur ki, bəhs etdiyimiz dövrdə, bir sakinə düşən mənzil sahəsi keçmiş SSRİ məkanında 14,9 kvadrat metr, Ermənistan SSR-də 13,7 kvadrat metr, Azərbaycan SSR-də 10,9 kvadrat metr, Bakı şəhərində 11,7 kvadrat metr, Naxçıvan MR-da 9,5 kvadrat metr olmuşdursa, Azərbaycanın DQMV-də bu göstərici 14,6 kvadrat metrə çatmışdır[166]. Fərdi mənzil tikintisi üzərində qoyulan məhdudlaşmalar aradan götürülmüş, kreditləşmə üçün əlverişli şərait yaratmış və tikinti işi sürətlənmişdir.

1970-1985-ci illərdə DQMV-də əhalinin mədəni məişət sahəsinin yaxşılaşmasını burada qazlaşdırma işini həyata keçirilməsində görmək olar. 1978-ci il dekabrın 30-da Yevlax–Xankəndi qaz kəmərinin açılışı keçirildi. 107 km uzunluğunda olan bu kəmərin bir hissəsi dağlarda çətin şəraitdə çəkilmişdi. DQMV-yə həmin qaz kəmərinin çəkilişində Cənub Qaz Sənayesi Obyektləri Tikintisi İstehsalat Birliyi, Azərbaycan 3 və 10 saylı tikinti idarələri və digər kollektivlər iştirak etmişlər. 1970-ci illərin sonlarında isə Yevlax–Xankəndi–Gorus – Naxçıvan qaz kəməri çəkilib istifadəyə verildi. Bu qaz kəmərlərinin çəkilişi Dağlıq Qarabağ əhalisi üçün böyük əhəmiyyətə malik hadisə hesab olunur. Çünki, bu çəkilişdən sonra Vilayət ərazisinin qazlaşdıralması işi sürətləndirilmişdir. 1971-1975-ci illərdə DQMV ərazisində 1100 kilometr

məsafəyə qaz xətti çəkilmişdirsə, 1976-1980-ci illərdə bu göstərici 2 dəfə artmışdır[167]. 1980-ci ildə Xankəndi şəhərində 2100 mənzilə, Şuşa şəhərində isə 300 mənzilə qaz çəkilmişdir. 1981-ci ildə DQMV-nin şəhər və kəndlərində 35 min mənzil qazla təmin edilmişdir. 80-ci illərdə DQMV-də qaz çəkilişi 70-ci illərlə müqayisədə şəhərdə 2 dəfə, kənddə 3 dəfə artmışdı[168]. DQMV-də mənzillərin qazlaşdırılması tapşırıqları yerinə yetirilmişdir. Burada qazlaşdırılmış mənzillərin sayı 1970-1985-ci illər ərzində 4,3 dəfə artmışdır[169]. Artıq 1986-cı ildə Dağlıq Qarabağ ərazisi 100 faiz qazla təmin edilmişdi. Halbuki, ümumrespublika üzrə bu göstərici 96,2 faizə bərabər idi. DQMV-nin içməli su ilə təchizatı məsələsi 1970-ci illərdə tamamilə həyata keçirilmişdir. Bəhs etdiyimiz illərdə, Vilayətin köhnə su xətləri təmir edilmiş, yeni kəmərlər işə qoşulmuş və su vurmaq üçün mühərriklərlə təmin edilmişdir. 1985-ci ildə DQMV-də küçə su xətlərinin şəbəkəsinin uzunluğu 203,2 kilometrə çatmışdır, bundan 65,6 kilometri Xankəndinin şəhərinin payına düşmüşdür (32,2 faiz).

Ümumilikdə isə, DQMV-də şəhər, rayon və qəsəbə əhalisinin mənzillərinin su kəməri ilə təchizi ümumrespublika səviyyəsindən 2 dəfə yüksəkdə dayanmışdır. 1986-ci il məlumatına görə, su kəmərinin abadlaşdırma faizi ümumrespublika üzrə 30,5 faiz, Naxçıvan MR-da 7,4 faiz idisə DQMV-də 45,5 faiz çatmışdı[170]. Şəhərlərin kanalizasiya ilə təminatı işində də DQMV ümumrespublika səviyyəsini 2 dəfə üstələmişdir. 1970-1985-ci illərdə Azərbaycan hökümətinin, hər il ardıcıl olaraq, DQMV-nin şəhər və kəndlərinin abadlaşması, küçə və parkların salınması, yenidən qurulması, kommunal xidmət müəssisələrinin təmiri və yeniləşməsi üçün bütün lazımı tədbirləri həyata keçirirdi. 70-ci illərdə Vilayətdə təkcə, yaşıllaşdırma işləri, parkların salınması, işıq və istilik xətlərinin çəkilişi üçün Azərbaycan höküməti tərəfindən 4 milyon 544 min manat vəsait sərf edilmişdir[171]. Bütün yuxarıda göstərilən mənzil tikintisi ilə bağlı müvəffəqiyyətlərlə yanaşı, bəhs edilən illərdə, bölgələrdə bəzi nöqsanlı cəhətlər də aşkar edilmişdir. Azərbaycanlılar yaşayan kəndlərdə hələ də mənzil problemi kəskin olaraq qalırdı. Mərkəzə isə erməni rəhbərliyi məlumat vermişdirki mənzil problemi tam həll edilmişdir. Az-çox Azərbaycanlılar



yaşayan kəndlərdə aparılan tikinti işlərinin keyfiyyəti çox aşağı səviyyədə idi. Dağlıq Qarabağın Azərbaycanlılar yaşayan kəndlərin çoxunda heç bir məişət xidməti obyekti yox idi. Mövcud obyektlərdə isə xidmət keyfiyyəti aşağı səviyyədə fəaliyyət göstərirdi. Ermənilər yaşayan bütün kəndlər qazlaşdırıldığı halda, azərbaycanlıların yaşadığı kəndlərdə qaz hələ də yox idi. Mərkəzə verilən məlumatda isə həmin kəndlər qazlaşdırılmışdı.

1970-1985-ci illərdə Azərbaycan höküməti DQMV-də yol təsərrüfatı, nəqliyyatı, rabitə sahəsində də mühüm tədbirlər həyata keçirdi. İlk növbədə, təsərrüfat daxili, vilayət əhəmiyyətli, ümumdövlət və respublika əhəmiyyətli avtomobil yollarının şəbəkəsinin inkişafı, yeni yolların salınması, təmiri və saxlanılması üçün Azərbaycan hökümətı tərəfindən qoyulan vəsaitin miqdarı ilbəil artırıldı. Belə ki, 1965-ci ildəki 562 min manata qarşı, 1970-ci illərdə 1 milyon 174 min, 1975-ci ildə 1 milyon 195 min, 1980-ci ildə 1 milyon 524 min, 1986-cı ildə 2 milyon 187 min manat vəsait ayrıldı. Ayrılan vəsait hesabına DQMV-ə yeni asfalt yollar çəkildi. Məsələn, 1966-ci ildə Vilayətin şəhər və kəndlərində 712 kilometr yol çəkilmişdirsə, 1970-ci ildə 914,5 kilometr, 1975-ci ildə 970,2 kilometr, 1980-ci ildə 987,5 kilometr, 1985-ci ildə isə 998,9 kilometr yol çəkildi. Eyni zamanda, şose yolları, yol hərəkətini tənzim edən texniki vasitələr, rabitə vasitələri ilə təchiz edildi. Lakin təssüflə qeyd etməliyik ki, bəhs etdiyimiz dövrdə, DQMV XDS, Vilayət yol tikinti təmir və istismar müəssisələri yerli əhəmiyyətli yolların təmiri və tikintisi siyahısını tərtib edərkən azərbaycanlılar yaşayan kəndləri «yaddan çıxarmışlar».

XX yüzilliyin 70-ci illərində Azərbaycan dövlətinin başçısı H.Ə.Əliyevin şəxsi təşəbbüsü ilə Bakını Xankəndi ilə birləşdirən Ağdam-Xankəndi dəmir yolunun çəkilişinə başlanmışdı. Dəmir yolu xətti dağlıq ərazidə çəkilirdi və magistralın keçdiyi landşafta uyğunlaşdırılan bir çox mürəkkəb qurğularla zəngin idi. Tikintidə Tiblisi layihəçiləri, Azərbaycan Nəqliyyat Qurğuları Tikintisi Trestinin kollektivləri, Respublikamızın müxtəlif şəhərlərindən bir çox köməkçi podrat təşkilatları iştirak edirdilər[172].

12 yanvar 1979-cu ildə 26 kilometrlik həmin dəmiryolu istifadəyə verildi. Bu yolun çəkilişi DQMV-nin iqtisadi və mədəni həyatında böyük əhəmiyyətə malik hadisə idi. Çünki bu yol sərfəli nəqliyyat vasitəsi olmaqla Vilayətin Azərbaycanın digər rayonları və keçmiş ittifaqla əlaqələrində mühüm rol oynayacaqdı. Dəmir yol nəqliyyatı yük daşımalarının maya dəyərini 6 dəfə aşağı salır. Sərnişin daşınmasında da Ağdam-Xankəndi dəmir yolundan istifadə edilmişdi[173].

Bəhs etdiyimiz illərdə, DQMV-də avtomobil nəqliyyatı vasitəsilə yük daşınmasının həcmi ilbəil artmışdı. Belə ki, 1965-ci ildə 522 min ton yük daşınmışdırsa, 1970-ci ildə bu rəqəm 719 min tona, 1975-ci ildə 1 milyon 467 min tona, 1980-ci ildə 2 milyon 406 min tona 1985-ci ildə 3 milyon 867 min tona çatmışdır. Yük dövriyyəsinin həcmində də 1970-1985-ci illərdə 3 dəfə artım müşahidə edilmişdir. Sərnişin daşıması isə 1965-ci ildəki 3 milyon 437 nəfərə qarşı, 1970-ci ildə 5 milyon 76 minə, 1975-ci ildə 8 milyon 373 min nəfərə, 1980-ci ildə 14 milyon 442 minə, 1985-ci ildə 15 milyon 978 min nəfərə çatmışdır[174].

Azərbaycan hökuməti 1976-1980-ci illərdə Xankəndi avtonəqliyyat birliyində 363 ədəd maşın və xeyli maşın hissələri vermişdi[175]. DQMV ərazisində yeni yük avtomobilləri parkı, taksi parkları inşa edildi. Yeri gəlmişkən onu da qeyd edək ki, 1985-ci illərdə DQMV-da yük avtomobilləri parkı iki dəfə artmışdır. Ümumrespublika səviyyəsində isə bu göstərici 1,7 dəfəyə bərabər idi. Avtomobil parklarının artımı ümumrespublika üzrə 1,7 dəfə olmuşdursa, Azərbaycanın DQMV-də 2,6 dəfə artmışdı[176]. Xankəndi Avtomobil Birliyi 1970-1985-ci illərdə böyük müvəffəqiyyət əldə etmişdir. Belə ki, həmin illərdə yeni avtobus və taksi marşurutları təşkil edilmişdir ki, bu da DQMV müəssisələrində əmək məhsuldarlığının artırılmasına, əhaliyə xidmətin yaxşılaşmasına səbəb olmuşdur. Bəhs etdiyimiz illərdə, avtonəqliyyat istehsalat birliyi, onun tabeliyində olan, təsərrüfatlar plandan əlavə 162 min ton yük və 1575 sərnişin daşımışdır[177]. Xalq təsərrüfatının ardıcıl inkişafı, boşdayanma hallarına yol verilməməsi ilə ardıcıl mədəni xidmət nəticəsində Vilayətdə avtomobil nəqliyyatı daha da inkişaf edirdi. DQMV-də avtomobil nəqliyyatının inkişaf etməsini onda



görmək olar ki, Azərbaycanın hər sakininə 17,5 avtomobil düşdüyü halda DQMV-də 26,5 avtomobil, Naxçıvan MR-Azərbaycanda isə 17 avtomobil düşürdü[178]. Yeri gəlmişkən onu da qeyd edək ki, nəqliyyat işçilərinin sayı ilbəil artırdı. 1975-ci ildə DQMV-də nəqliyyat işçilərinin sayı 1647 nəfər, 1970-ci ildə 2284 nəfər olmuşdursa, 1980-ci ildə 3567 nəfərə çatmışdır. 1970-1985-ci illərdə avtomobil nəqliyyatı ilə yüklərin daşınması həcmi ümumrespublika üzrə 3,6 dəfə artdığı halda DQMV-də 4,8 dəfə artmışdır[179]. Bundan əlavə, sərnişinlərin avtomobildə daşınması həcmi respublikamızda 2,2 dəfə, DQMV-də 2,6 dəfə, taksilərlə daşıqnma respublikamızda 2,4 dəfə, Azərbaycanın DQMV-də 4,2 dəfə artmışdır[180]. Ağdam-Xankəndi dəmir yol stansiyası 1970-1985-ci illərdə müxtəlif növbələrdə yükdaşıyan 3806 vaqonu qəbul etmişdir. Həmin illərdə 136 min yük və 68 min nəfər sərnişin daşınmışdır. Aparılan araşdırmalardan məlum olur ki, DQMV-də avtobus marşurutları sıxlığı orta respublika səviyyəsində 2,6 dəfə çox olmuşdur. DQMV-də avtobus marşurutlarının uzunluğu 1970-1985-ci illərdə 8,2 faiz artdığı halda, Naxçıvan MR-da bu göstərici 4,5 faiz, ümumrespublika səviyyəsində isə 4,8 faiz artmışdır[181].

1980-ci illərdə DQMV-də hava nəqliyyatında da irəlləmələr diqqəti cəlb etmişdir. 1980-1986-cı illərdə hava nəqliyatı ilə sərnişin daşımanın həcmi xeyli artmışdı. 1980-ci ildə DQMV-də hava nəqliyyatı ilə 8 min nəfər sərnişin daşınmışdırsa, 1985-ci ildə 9 min nəfərə çatmışdır. 1970-1985-ci illər ərzində Azərbaycan hökümətinin dərin qayğısı nəticəsində DQMV-də nəqliyyat vasitələri dinamik inkişaf etdi. Xankəndi şəhərində istismar üçün hər cür təsərrüfatı olan dəmir yol xətti istifadəyə verildi. Eyni zamanda, hava nəqliyyatında da nəzərə çarpacaq inkişaf olmuşdur. Bu illərdə, Vilayətin rayon mərkəzləri ilə respublikamızın magistirarlarını birləşdirən təkmilləşdirilmiş bərk örtüklü yollar çəkilmişdir.

1970-1985-ci illərdə Azərbaycan hökuməti DQMV-də rabitənin inkişafı üçün mühüm tədbirlər həyata keçirdi. Rabitə müəssisələrini sayını artırmaq, rabitə müəssisələri tərəfindən əhaliyə xidmətin yaxşılaşdırılması üçün telefon, teleqraf və poçt rabitəsinin təmiri, mühafizəsi və yenilərinin təşkili məqsədi ilə

Azərbaycan hökuməti, əvvəlki dövrlərlə müqayisədə, vəsaitin miqdarını artırdı. 1970-1975-ci illərdə Bakıdan DQMV-nə 41 ali və orta ixtisas təhsilli mütəxəssislər göndərildi. Təkcə, 5 il (1970-1975) ərzində Dağlıq Qarabağda rabitə işçilərinin sayı artaraq, 861 nəfərdən, 1028 nəfərə çatdı. 1985-ci ildə isə 2000 nəfəri keçdi[182].

Azərbaycan hökuməti DQMV-də rabitənin inkişafı üçün 1961-1975-ci illər ərzində 796 min manat uzunmüddətli kredit ayırdı[183]. 1970-1982-ci illərdə Dağlıq Qarabağa 7518 telefon aparatı verildi. 1970-1986-cı illərdə Dağlıq Qarabağın rabitə sahəsi üzrə əsas fondların və vəsait qoyuluşun inkişaf surəti respublikamız üzrə olduğundan iki dəfə çox artmışdır. 1980-ci illərin ortalarında adambaşına düşən rabitə məhsulların həcmi, ümumrespublika üzrə 21 manat, Azərbaycanın DQMV-də 29,5 manat təşkil etmişdir[184].

1970-1982-ci illərdə dövlətimizin ayırdığı xüsusi vəsait hesabına DQMV-də 14 yeni rabitə xidməti müəssisəsi tikilib istifadəyə verildi. Həmçinin, həmin yeni yaradılan müəssisələr lazımi avadanlıqlarla təmin edildi. Bəhs etdiyimiz illərdə, DQMV-də poçt, teleqraf müəssisələrinin sayı 98-dən 112-yə çatdı. 1970-1983-cü illərdə Dağlıq Qarabağ əhalisinə 7047 telefon xətti çəkildi. Telefon aparatlarının sayı təxminən iki dəfə artaraq 15804-ə çatdı. Bundan 9811-i şəhərdə, 5993-ü kənddə fəaliyyət göstərirdi. Aparılan hesablamalara görə, 1985-ci ildə DQMV-də əhalinin hər 100 nəfərinə 12,4 telefon düşürdü. Ümumrespublika səviyyəsində bu göstərici 7,9 bərabər idi. Həmçinin, DQMV-də ailələrin mənzil telefonları ilə təminatı 42,4 faizə çatmışdı. Naxçıvan MR-da bu göstərici 30,1 faizə, ümumrespublika səviyyəsində isə 31,1 faizə bərabər idi. 1970-1985-ci illərdə DQMV-də şəhərlərarası telefon danışıqlarının sayı 401 mindən 918 minə çatmışdı. Şəhərlərarası telefon rabitələrinin inkişafı nəticəsində adambaşına düşən şəhərlərarası telefon danışıqlarının sayı respublikamız üzrə 4,15 faiz, Azərbaycanın DQMV üzrə 7,69 faiz təşkil etmişdir[185].

1970-1985-ci illərdə DQMV-də radioqəbuledici nöqtələrin sayında da ciddi irəliləmələr mövcud olmuşdur. Dağlıq Qarabağda radioqəbuledici nöqtələrin sayı



1970-ci ildə 24261, 1975-ci ildə 29492, 1980-ci ildə 35352, 1985-ci ildə isə artaraq 41222-yə çatmışdır[186].

Radio-rele xəttinin çəkilişi ilbəil genişləndirilirmişdi. Bakı–Şuşa və Şuşa–Naxçıvan radio-rele xəttinin çəkilişi Dağlıq Qarabağda radiolaşmanın inkişafına güclü təkan verdi. 1980-ci illərdə Xankəndində televiziya studiyasının istifadəyə verilməsi Dağlıq Qarabağ əhalisinin Moskva və respublika televiziya verilişlərinə baxmağa imkan yaratdı. Dağlıq Qarabağın şəhər və kəndlərində 1965-ci ildə 16 min televizor var idisə, 1980-ci ildə onların sayı iki dəfədən çox artaraq 35 minə, 1985-ci ildə 71 minə çatdı.

Bəhs etdiyimiz dövrdə, poçt, teleqraf, radio və başqa rabitə vasitələri yüksək sürətlə inkişaf etmişdir. Azərbaycanlılar yaşayan kədlərin çoxu müstəsna olmaqla Dağlıq Qarabağın şəhər, rayon, qəsəbə və kəndləri başdan başa radiolaşmış, rabitə vasitələri getdikcə məişətə daha çox nüfuz etmişdir. 1970-ci ildə Dağlıq Qarabağ əhalisi poçt rabitəsi vasitəsilə 5100 məktub göndərmişdirsə, 1975-ci ildə bu rəqəm 11572-yə, 1985-ci ildə isə 12894-ə çatmışdır. Bundan əlavə, Dağlıq Qarabağın poçtunda 1970-ci ildə 26670 qəzet və jurnal alınmışdırsa, 1982-ci ildə qəzet və jurnalların sayı 3 dəfədən çox artaraq 91278-ə çatdı. Bəhs edilən illərdə, DQMV-də poçt vasitəsi ilə pul köçürmələri və pensiyaların miqdarı 476 min manatdan 509 min manatadək artmışdır.

1970-1985-ci illərdə Azərbaycan hökuməti DQMV-də əhalinin sağlamlığını qorunması sahəsində mühüm tədbirlər həyata keçirmişdi. DQMV-də səhiyyənin maddi-texniki bazasını möhkəmləndirmək, səhiyyə idarəsi şəbəkəsini inkişaf etdirmək və əhalinin sağlamlığını qorumaq məqsədilə Azərbaycan hökuməti vəsait qoyuluşunu ilbəil artırdı. 1970-1975-ci ildə DQMV-də səhiyyə işinə büdcədən ayırılan vəsaitin həcmi 28 milyon 444 min, 1976-1980-ci illərdə 29milyon 612 min, 1981-1985-ci illərdə isə 31 milyon 769 min manata çatdı[187].

Ümumiyyətlə, 1960-1980-ci illərdə Vilayətin bütün ictimai fondlarının 28 faizindən çoxu səhiyyə xərcləri təşkil etmişdir. Aparılan araşdırmalardan məlum olur ki, 1970-1985-ci illərdə DQMV səhiyyə işlərinə ayrılan vəsait istər ümumrespublika səviyyəsindən, istərsə də Naxçıvan MR-na ayrılan vəsaitdən iki

dəfə çox olmuşdur. Ayrılan vəsait hesabına Dağlıq Qarabağda müalicə proflaktika müəssisələri xeyli genişləndi. Əhalinin sağlamlığı naminə tibbi yardım gücləndirildi, tibb müəssisələrində həkimlərin və orta tibbi işçilərinin sayı xeyli artdı. Belə ki, bəhs etdiyimiz illərdə, Azərbaycan dövləti DQMV-ə 276 ali təhsilli, 857 orta ixtisas təhsilli mütəxəssis göndərdi. Əhaliyə ambulatoriya — polikninika yardımı göstərən 9 yeni müəssisə tikilib istifadəyə verildi. 1970-1985-ci illərdə Dağlıq Qarabağda hər cür tibb avadanlıqları ilə təchiz edilmiş, 25 yeni qadın və uşaq məsləhətxana və polikninikaları tikildi. Azərbaycan hökuməti tərəfindən Dağlıq Qarabağ səhiyyə idarələri dərman, tibbi məmulatlar və avadanlıqlarla təmin edildi. 1970-1985-ci illərdə səhiyyənin dinamik inkişafını aşağıdakı cədvəldən də görmək olar[188].

| Göstəricilər | illər | | | |
|---|---|---|---|---|
| | 1970 | 1975 | 1980 | 1985 |
| DQMV xəstəxanaların sayı | 38 | 32 | 32 | 32 |
| Xəstəxanada çarpayıların sayı | 1575 | 1635 | 1765 | 18 |
| Həkimlərin sayı | 240 | 312 | 496 | 516 |
| Orta ixtisas tibb işçilərinin sayı | 1395 | 1820 | 2219 | 2252 |
| Qadın və uşaq məsləhətxana və polikninikaları | 11 | 14 | 21 | 36 |
| Əhaliyə amblator yardım göstərən polikninika | 43 | 44 | 46 | 52 |
| Hər 10000 nəfərə düşən həkimlərin sayı | 15,6 | 20,1 | 28,1 | 28,9 |
| Hər 10000 nəfərə düşən çarpayıların sayı | 102,5 | 101,4 | 103,9 | 104,6 |

DQMV-də yüksək və müasir tipli cihazlarla təchiz edilmiş rentgen kabinələri, fizoterapiya kabineti və laboratoriyaları yaradılmışdır. Azərbaycan hökümətinin dərin qayğısı nəticəsində DQMV-da müalicə proflaktika



idarələrinin sayı 1985-ci ildə 220-yə çatmışdır ki, bundan 35 stasionardır. Burada dəri-zöhrəvi xəstəlikləri dispanseri, vərəm və onkoloji dispanserləri, sanitariya maarif evi, vilayət sanitariya-epidemioloji stansiyası, qanköçürmə stansiyası digər polikninika və ombulatoriyalar açılmışdı. Bütün bunların nəticəsi idi ki, DQMV-də yolxucu-infeksiyon xəstəliklərin kökü kəsilmiş, dizinteriya və büriselyoz xəstəlikləri xeyli azalmışdır. 1970-1985-ci illərdə DQMV-də əhalinin xəstəxana çarpayıları ilə təminatı, bütün ixtisaslardan olan tibb işçiləri ilə təminat və başqa sahələrdə də istər ümumrespublika səviyyəsində, istərsə də Naxçıvan MR ilə müqayisədə üstün olmuşdur. Məsələn, 1985-ci illərdə düşən hər 10 min nəfərə düşən çarpayılarm sayı Azərbaycan Respublikası üzrə 97,8 faiz, Azərbaycanın Naxçıvan MR-də 94,6 faiz, Azərbaycanın DQMV-də 104,6 olmuşdur. On min nəfər hesabı ilə orta tibb işçiləri ilə təminat ümumrespublika üzrə 93,8 Naxçıvan MR-də 80,1, DQMV-də 126,3 nəfər düşürdü. On min nəfərə düşən ali təhsilli tibb işçiləri Naxçıvan MR-də 26,2 nəfər, DQMV-də 28,9 nəfər düşmüşdü. Bəhs etdiyimiz illərdə, DQMV-də anaların və uşaqların mühafizəsi, qadınların əmək və məişət şəraitinin yaxşılaşdırılması, uşaqlar və yeniyetmələr arasında sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi sahəsində xeyli işlər görüldü. Aparılan tədqiqatlardan məlum olur ki, DQMV-də xalq təsərrüfatının bütün sahələrindən fərqli olaraq səhiyyə işçiləri arasında, qadınlar 81 faiz təşkil edirdi. 1975-ci il məlumatına görə, tibb işçilərinin orta aylıq əmək haqqı 87 manat olmuşdur[189].

Səhiyyə sahəsində DQMV-də həyata keçirilən tədbirlər yaxşı hal kimi qiymətləndirilsə də, burada bəzi qüsurlar da özünü göstərirdi. Belə ki, Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərində səhiyyə işi çox yarıtmaz vəziyyətdə idi. Həmin kəndlərdə nəinki polikninika, xəstəxana, heç ilk tibbi yardım xidməti ambulatoriyası belə yox idi. Keçmişdən qalan bir neçə tibbi yardım mərkəzləri baxımsızlıq ucbatından dağılmışdı, heç bir tibb avadanlığı və dərmanla təmin edilmirdi.

Azərbaycamn DQMV zəngin təbiət gözəlliklərinə malikdir. Dağlıq Qarabağ özünün sağlamlıq ocaqları, istirahət evləri, çoxmərtəbəli binaları, şəfalı

yerləri ilə şöhrət qazanmışdı. Burada, 6 sanatoriya və istirahət müəssisəsi, iki min yerlik turbaza fəaliyyət göstərirdi. Bu baxımdan, diyarın ən gözəl sağlamlıq ocağından olan Şuşa şəhəri mühüm əhəmiyyət kəsb edir. Şuşa istirahət-sağlamlıq mərkəzində hər növbədə 650-700 adam istirahət edirdi. Şuşa kurortu İsveçin «Davos» krortu ilə müqayisə edilirdi. 1975-ci ildə Şuşa istirahət mərkəzi Ümumittifaq əhəmiyyətli sanatoriya kimi fəaliyyət göstərməyə başladı. Şuşada dünyanın hər yerindən minlərlə adam gəlib istirahət və müalicə olunmuşlar. Təkcə, 1980-ci ildə Şuşa sanatoriyasında 8 min nəfər adam istirahət etmiş və müalicə olunmuşdu. Müalicə olunanlar arasında xroniki bronxit, yuxarı tənəffüs yollarının katarı, ağ ciyər enfiziomasının başlanğıc forması, bronxit asmanın başlanğıc forması, pileverit, qanazlığı, əsəb xəstəlikləri, çox yorğunluq, kəskin infeksiyon xəstəlikləri, mədə-bağırsaq, ürək-əsəb xəstəlikləri, bronxların iltihabı və başqa xəstələr var idi. Dağlıq Qarabağda insanların sağlamlığının qorunmasında Turşsu bulağı xüsusi əhəmiyyətə malik olmuşdur. Dağlıq Qarabağın təmiz havası, saf suyu, çıxılmaz meşələri, sərinlik və təravət gətirən dağ çayları və bulaqları burada yaşayan insanların uzun ömür sürməsinə səbəb olmuşdur. 1970-ci ildə DQMV-də 100 ildən yuxarı ömür sürənlərin sayı 239, 1979-cu ildə isə 280 nəfər olmuşdur ki, bundan 70 faizindən çoxu qadınların üzərinə düşmüşdür. Ümumiyyətlə, DQMV-də orta ömür 75 ildir[190].

1970-ci illərdə Azərbaycanda turist-ekskursiya təşkilatları xeyli inkişaf etdi. Onlarla turist bazası, kompleksi, mehmanxanası istifadəyə verildi. Bəhs etdiyimiz dövrdə, Azərbaycan Həmkarlar İttifaqının 12 min yerlik 22 sağlamlıq mərkəzi, 12 turist bazası və kompleksi var idi[191].

1970-1985-ci illərdə Azərbaycan hökuməti DQMV-də bədən tərbiyə və idmanın maddi-texniki bazasını möhkəmləndirilməsi və inkişafı üçün mühüm tədbirlər həyata keçirdi. Bu məqsədlə, 1970-ci ildə 34300 manat, 1975-ci ildə 48500 manat, 1980-ci ildə 86500 manat, 1985-ci ildə 128600 manat əsaslı vəsait ayrıldı[192].

1970-1985-ci illərdə Azərbaycan hökuməti DQMV-yə 394 ali və orta ixtisas təhsilli bədən tərbiyəsi və idman mütəxəssisi göndərdi. Bölgədə idman



mütəxəssislərinin sayı 1970-ci idə 98 nəfər idisə, 1980-ci ildə təxminən 3 dəfə artaraq 296 nəfərə, 1985-ci ildə isə 494 nəfərə çatdı[193].

Bəhs etdiyimiz illərdə, DQMV-də 12 stadyon, 51 idman meydançası 313 volyebol-baskidbol, tenyis meydançaları, iki üzgüçülük hovuzu tikilib idmançıların ixtiyarına verildi. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, adambaşına düşən stadyonların və meydançaların sayına görə DQMV, istər ümumrespublika səviyyəsində, istərsə də Naxçıvan MR ilə müqayisədə yüksəkdə dayanmışdır. Təkcə, stadionların sayını nəzərdən keçirməklə biz deyilənlərin şahidi olarıq. Belə ki, bəhs edilən dövrdə, respublikamızda 66 stadion var idi ki, bundan 12 DQMV-nin payına düşürdü. Dövlətimizin gördüyü tədbirlər nəticəsində, DQMV-də idman kollektivlərinin sayı 1971-ci ildəki 317-yə qarşı, 1975-ci ildə 326, 1980-ci ildə 341, 1985-ci ildə artaraq 558 çatdı. Vilayətdə idmanla məşğul olanların sayı isə 1971-ci ildəki 24 891 nəfərdən, 1975-ci ildə 28552 nəfərə, 1985-ci ildə isə 36672 nəfərə çatmışdı[194]. 1980-ci illərin sonlarında respublikamızda 8020 bədən tərbiyəsi kollektivi vardır ki, burada 2,3 milyon nəfər idmanla ardıcıl məşğul olurdu[195].

Azərbaycan hökuməti DQMV-dəki bədən tərbiyəsi və idman kollektivlərini lazımi avadanlıq və ləvazımatlarla təmin etmiş, bədən tərbiyəsi və idman məşğələləri üçün maddi texniki bazanı möhkəmləndirmişdir. Nəticədə, 1971-1985-ci illərdə DQMV-də dərəcə alan idmançıların sayı 3 dəfədən çox artmışdır. Belə ki, 1871-ci ildə II və III dəfərəcəli idmançıların sayı 3550 nəfər, I dərəcəli idmançıların sayı 32 nəfər olmuşdursa, 1971-ci ildə II və III dərəcəli idmançılar 5327 nəfər, I dərəcəli idmançılar 59 nəfər, 1985-ci ildə isə I dərəcəli idmançıların sayı isə 112 nəfərə, II və III dərəcəli idmançıların sayı 1384 nəfərə çatmışdır[196]. 1980-ci illərin axırlarında Azərbaycanda 4,3 min SSRİ idman ustası vardı. Aparılan hesablamalara görə, DQMV-də bədən tərbiyəsi və idmanla məşğul olanların 81 faizi qadınlar təşkil etmişlər. Ümumilikdə isə, əhalinin 20 faizindən çoxu bədən tərbiyəsi və idmanın müxtəlif növləri ilə məşğul olurdular. Bədən tərbiyə və idmanla məşğul olanların orta ayhq əmək haqqı 82 manat idi[197].

Azərbaycan hökuməti DQMV uşaq və gənclərin istirahət və sağlamlığını həmişə diqqət mərkəzində saxlamışdı. Uşaqların yay istirahətlərini səmərəli keçirmək üçün Dağlıq Qarabağ ərazisində pioner düşərgələri yaradıldı və onun maddi texniki bazası dövlətimiz tərəfindən möhkəmləndirildi. Həmin düşərgələrdə uşaqlar yaxşı istirahət etməklə yanaşı idmanla məşğul olur və əməyə hazırlanırdı. Təkcə, 1979-1980-ci tədris ilinin yay tətili günlərində Dağlıq Qarabağın Şuşa istirahət və əmək düşərgəsində 8400 nəfər IX və X sinif şagirdləri istirahət etmişlər. Xocavənd rayonunun «Jraberd» pioner düşərgəsində ildə 900 uşaq, Şuşa rayonunun «Yuri Qaqarin» pioner düşərgəsində isə ildə 1200-1300 uşaq istirahət etmişdir[198].

1970-1980-ci illərdə Azərbaycan SSR DQMV-də əhalinin sayı 150,3 min nəfərdən, 182,4 min nəfərə çatmışdır. Hər min nəfərə təbii artım 22,5 faizdən 20 faizə, doğulanların sayı 29 faizdən 26,1 faizə, ölənlərin sayı 6,7 faizdən 6,1 faizə enmişdir[199]. 1926-1988-ci illərdə DQMV-ə əhalinin sayı 57,1 min nəfər və ya 45,6 faiz artmışdır. DQMV-də 1941-1945-ci illər müharibəsindəki itkilərlə və əhalinin başqa regionlara köçməsi ilə əlaqədar 1939-1959-cu illərdə əhalinin sayında (20,4min nəfər) azalma halı müşahidə edilmiş, 1970-ci ildə isə Vilayətdə əhalinin sayı əvvəlki həddə çatmış, sonrakı dövrlərdə onu keçmişdi. Bəhs etdiyimiz dövrdə, DQMV-də əhalinin ümumi sayında şəhər əhalisinin miqdarı 50 faizdən 53,8 faizə qalxmışdır. 1979-cu il məlumatma görə, DQMV-də yaşı 100 keçənlərin sayı 280 nəfər olmuşdur. 1980-ci illərin sonlarında respublikamızda 2500 nəfər 100 yaşı olan Azərbaycan vətəndaşı qeydə alınmışdır.

1970-1980-ci illərdə Azərbaycanda əhalinin milli tərkibində dəyişikliklər baş vermişdi. 1989-cu il siyahıyaalınmasına görə, Azərbaycanda yaşayan 7 milyondan çox əhalinin 6 milyonunu azərbaycanlılar, 392,3 min nəfərini ruslar, 390,5 min nəfərini ermənilər təşkil etmişdi. Bu dövrdə, Azərbaycanda 82 xalqın nümayəndəsi məskunlaşmışdı[200]. 1975-ci il siyahıya alınmasına görə Azərbaycanda ermənilər ümumi əhalinin 7,9 faizini təşkil etmişlər[201].

1979-cu il yanvarın 17-24-də aparılan siyahıyaalınmaya görə məlum olur ki, DQMV-də əhalinin milli tərkibində xeyli dəyişikliklər baş verib. Müqayisələr



göstərdi ki, 1970-1979-cu illərdə DQMV-ə ermənilərin sayı 4,6 faiz azalmış, Azərbaycanlıların sayı isə 4,9 faiz artmışdır. Bəhs etdiyimiz illərdə, DQMV-də əhalininin milli tərkibinin və sayının necə dəyişdiyini aşağıdakı cədvəldən də görmək olar[202]:

| İllər | Əhalinin sayı (nəfərlə) | O cümlədən, | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Azərbaycanlılar | | Ermənilər | | Digər millətlər | |
| | | Mütləq artım (nəfərlə) | Faizlə | Mütləq artım (nəfərlə) | Faizlə | Mütləq artım (nəfərlə) | Fəizlə |
| 1939 | 150811 | 14115 | 9,4 | 132818 | 88,1 | 3878 | 2,5 |
| 1959 | 130406 | 17995 | 13.8 | 110053 | 84,4 | 2358 | 1,8 |
| 1970 | 150313 | 27179 | 18,1 | 121068 | 80,5 | 2066 | 1,4 |
| 1979 | 162181 | 37264 | 23 | 123076 | 75,9 | 1841 | 1,1 |

1979-cü il əhalinin siyahıyaalınması görə, Azərbaycanda yaşayan ermənilərin ümumi sayının 25,9 faizi DQMV-nin payına düşmüşdür. Yuxarıdakı cədvəldən göründüyü kimi, DQMV-də ermənilərin sayı tədricən azalmağa doğru getmişdir. Erməni millətçiləri bütün dünyada öz haqsız niyyətlərinə haqq qazandırmaq və dünya ictimayyətində özlərinə qarşı müsbət fikir yaratmaq üçün belə bir əsassız iddia irəli sürdülər ki, güya DQMV-də ermənilərin sayının azalması onların, ərazidə sosial-iqtisadi vəziyyətlərin pisləşməsi, ərazidən sıxışdırılması və sair cəfəng iddialar irəli sürürdülər. Halbuki, qərərsiz elmi araşdırmalar nəticəsində məlum olur ki, DQMV-də ermənilərin sayının azalması, azərbaycanlıların sayının artması aşağıdakı amillərlə bağlı olmuşdur: İlk növbədə, sosial demoqrafik tədqiqatların məlumatlarına görə, Azərbaycandakı erməni qadınlarının uşaqlarının orta sayı 2,3, azərbaycanlı qadınlarınkı 3,1, rus qadınlarınkı 1,6-dir. Erməni qadınlarının repruduktiv məqsədi, daha doğrusu onların malik olmaq istəkləri uşaqların sayı 3-ü keçmir, Azərbaycanlı qadınlarda bu rəqəm 3,8, rus qadınlarında 2,5 təşkil edir. Aparılan tədqiqatlardan məlum

olur ki, DQMV-də erməni əhalisi arasında 1000 nəfər hesabı ilə doğulan uşaqların sayı 34,4, 1970-ci ildə 17,5, 1979-cu ildə isə 17,2 nəfər təşkil etmişdir ki, bu da azərbaycanlı ailələrində doğulanlardan xeyli aşağıdır. Erməni «mütəxəssis»lərinin, guya DQMV-də əhalinin yaş sturukturlarının kəskin pisləşməsi barədəki «tezisləri»də tamamilə yanlış bir fikirdir. Faktlar göstərir ki, 1979-cu ildə DQMV-də bütün erməni əhalisindən 16 yaşa qədər olanları 25,4 faiz, 20-39 yaşında olanlar isə 21,9 faiz təşkil etmişlər. Demoqrafiya ilə məşğul olanqların fikrincə bu rəqəmlər respublikamızda ən yüksək göstəricilərdən biridir. Bütün dünyada olduğu kimi, DQMV-də də demoqrafiq inkişafın qanunauyğun təmayulu olan əhalinin qocalması prosksi gedir, lakin bu proses DQMV-də xeyli yavaş gedir. Obyektivliyini itirmiş erməni politologiyalarının «azərbaycanlı əhalisinin kənardan süni yolla gətirilərək artırılması» fikrinə gəldikdə isə bu fikir tamamilə əsassızdır. Çünki, əgər azərbaycanlıları müxtəlif yollarla DQMV-dən çıxarmasaydılar 1959-1979-cu illər ərzində azərbaycanlıların sayı yəqin ki erməniləri tamamilə üstələyərdi[203].

Bütün bunlarla yanaşı, ermənilərin sayının azalması onların miqrasiya (varlı dövlətlərə köçüb getmə) meylindən də irəli gəlir. Aparılan tədqiqatlara görə keçmiş SSRİ məkanından, daha çox varlanmaq, öz əhatə dairələrini genişləndirmək üçün xarici dövlətlərə gedənlərin 34,4 faizini ermənilər təşkil etmişlər və bu göstərici keçmiş İttifaq məkanında birincidir [204].

DQMV-də ermənilərin sayının azalması azərbaycanlıların sayının artması erməni lobbisini, daşnakları narahat etməyə başladı. İlk növbədə, DQMV-də yeni doğulan azərbaycanlıları qeydiyyata almadılar. Onların doğum haqqında şəhadətnamə verilsə də bu qeyri rəsmi yolla həyata keçirilirdi. Yaşlı azərbaycanlıları «köçdü» və ya «vəfat etdi» adı altında qeydiyyatdan çıxarırdılar. Süni manеələr yaratmaqla onları Vilayət ərazisindən köçməsinə şərait yaratdılar. Eyni zamanda, Vilayət Statistika İdarəsi yuxarı təşkilatlara ermənilərin sayı ilə bağlı şişirdilmiş rəsmi məlumatlar verir, köçüb gedən və ölən ermənilər qeydiyyatdan çıxarılmırdılar. Hətta, 1980-ci illərdə Ermənistan SSR vətəndaşlarının, eyni zamanda, DQMV-də pasport qeydiyyatına götürülməsi



faktları aşkar edilmişdir. Ermənilər DQMV-də əhalinin say dinamikasında 1980-ci ildən sonra etdikləri saxta əməllərin üzə çıxacağından ehtiyat edərək 1989-cu ildə SSRİ üzrə əhalinin siyahıyaalınması aparılarkən Dağlıq Qarabağ erməniləri Moskva nümayəndələrini Vilayətə buraxmamışlar. Eyni zamanda, Dağlıq Qarabağ əhalisi haqda 1979-cu ildən sonrakı statistika məlumatları nəzərdən keçirərkən, ilk öncə, onun müəllifini nəzərdən keçirmək lazımdır. Çünki erməni müəllifləri öz mənafelərinə uyğun həmin dövrün materiallarını saxtalaşdırmışlar.

DQMV-də rayonlar arasında da əhalinin bölgüsündə böyük fərqlər müşahidə edilmişdir. 1979-cu il məlumatına görə, DQMV-də yaşayan umumi əhalinin təxminən 30 faizi Ağdərə rayonunun, 10 faizi Şuşa rayonun payına düşürdü. Vaxtilə bir neçə evdən ibarət olan Xankəndində əhalinin 25 faizindən çoxu yaşayırdı. Ermənilər isə daha çox Xankəndi şəhərində cəmləşmişdirlər. Azərbaycan SSR DQMV-nin rayonlarında 1979-cu ildə əhalinin ümumi sayı və milli tərkibi haqqında aşağıdakı cədvəldən ətraflı məlumat əldə etmək olar[205].

| Rayonların adları | Cəmi əhali (nəfərdə) | O cümlədən, | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Azərbaycanlılar | | Ermənilər | | Rus və digərləri | |
| | | Nəfərlə | Faizlə | Nəfərlə | Faizlə | Nəfərlə | Faizlə |
| Xankəndi | 38948 | 4303 | 11,0 | 33898 | 87,0 | 747 | 1,9 |
| Əsgəran | 20094 | 5231 | 26,0 | 14772 | 73,5 | 91 | 0,5 |
| Hadrut | 14792 | 2239 | 15,1 | 12489 | 84,4 | 64 | 0,5 |
| Ağdərə | 44586 | 7050 | 15,8 | 37050 | 83,0 | 486 | 1,1 |
| Xocavənd | 27742 | 5486 | 19,7 | 21986 | 79,2 | 270 | 0,7 |
| Şuşa | 16019 | 12955 | 80,8 | 28881 | 17,9 | 183 | 1,1 |
| Cəmi DQMV üzrə | 162181 | 37264 | 23 | 123076 | 75,9 | 1841 | 1,1 |

1970-1985-ci illərdə DQMV-də əhalinin sosial sinifi strukturu da yeniləşmişdi. 1980-ci illərin sonlarında fəhlə və qulluqçular əhalinin 86 faizini,

kolxozçular isə 13 faiz təşkil edirdi. 1970-ci ildə DQMV-də əhalinin 62 faizi kənddə 38 faizi şəhərdə yaşayırdısa, 1985-ci ildə şəhərdə yaşayanlar ümumi əhalinin 28,3 faizini, kənddə yaşayanlar isə 71,7 faizini təşkil etmişdir.

Beləliklə, 1970-1985-ci illərdə Azərbaycan hökümətinin, dövlətimizin başçısı H.Ə.Əliyevin dərin qayğısı nəticəsində Azərbaycan SSR DQMV əhalisinin sosial-iqtisadi, milli strukturunda, məişətində rifahında mühüm dəyişikliklər baş vermiş, gəlirlər, alıcılıq qabiliyyəti, ticarət, ictimai-iaşə, tibb, rabitə, məişət xidmətlərinin səviyyəsi yüksəlmiş, yaşayış məntəqələrinin su, qaz, kanalizasiya sistemləri ilə təchizatı yaxşılaşmışdı. Lakin, bəhs etdiyimiz, dövrdə Dağlıq Qarabağın erməni rəhbərliyi bir strateji xətt kimi bölgədə yaşayan azərbaycanlıların sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasma, onlarm intellektual səviyyəsinin yüksəldilməsinə bütün çirkin vasitələrdən istifadə edilməklə mane olmaq siyasəti yeritmişlər.

Mədəniyyətin dinamik inkişafı 1970-1985-ci illərdə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin ictimai-iqtisadi həyatında olduğu kimi, mədəni və mənəvi həyatında da mühüm irəlləyişlər olmuşdur. Bu dövr ərzində, Dağlıq Qarabağda uşaq müəssisələrinin, məktəblərin maddi-texniki və təhsil bazası möhkəmlənmiş, tədrisin keyfiyyət səviyyəsi yüksəlmişdir. Əlbəttə, DQMV-də bütün bu nailiyyətlərin əldə edilməsi Azərbaycan hökümətinin və onun başçısı H.Ə.Əliyevin şəxsi təşəbbüsü və dərin qayğısı nəticəsində əldə edilmişdir. İlk növbədə, Azərbaycan hökümət Dağlıq Qarabağda maarif və mədəniyyətin inkişafı üçün 1970-1985-ci illərdə xeyli vəsait ayırmış və ildən-ilə bu vəsaitin həcmini artırmışdır. Belə ki, 1970-ci ildə 11 milyon 816 min manat vəsait ayrılmışdırsa, 1971-ci ildə 11 milyon 950 minə, 1972-ci ildə 11 milyon 901 minə, 1973-cü ildə 13 milyon 528 minə, 1974-cü ildə 15 milyon 625 minə, 1975-ci ildə 15 milyon 823 minə çatmışdır[206].

1976-1980-ci illərdə DQMV-də məktəb və maarifə 87 milyon manat, 1981-1985-ci illərdə isə 94 milyon manat vəsait ayrmışdı. Ümumiyyətlə, 1970-1985-ci illərdə Azərbaycan hökümət DQMV-də təhsil, elm və maarifin inkişafına 260 milyon 431 min manat vəsait ayrılmışdır. Ayrılan vəsait hesabına 1970-1985-ci



illərdə DQMV-də 25 daimi məktəbəqədər uşaq müəssisəsi tikilib istifadəyə verildi. DQMV-də 1970-ci ildə 60 daimi məktəbəqədər uşaq müəssisəsi var idisə, onların sayı 1985-ci ildə 85-ə çatdı. Təkcə bir il ərzində, yəni 1986-cı ildə məktəbəqədər uşaq müəssisələrində 7,3 min və ya 1970-ci illə müqayisədə 2 dəfə çox uşaq tərbiyə olunmuşdu. Bu müəssisələrdə 800 tərbiyəçi və xidmətçi çalışırdı. Tərbiyəçilərin 50 faizinin ali, 22 faizinin orta ixtisas təhsili var idi[207]. 1970-1985-ci illərdə Naxçıvan MR-da 3 daim məktəbəqədər uşaq müəssisəsi tikilib istifadəyə verilmişdi ki, bu da DQMV-də tikiləndən təxminən 3 dəfə az idi. Bəhs etdiyimiz dövrdə, Naxçıvan MR-da daimi məktəbəqədər uşaq müəssisələrinin sayı 65-dən 73-ə çatdı. Aparılan araşdırmalardan məlum olur ki, əhalinin məktəbəqədər uşaq müəssisələri ilə təminatında DQMV istər ümumrespublika səviyyəsində, istərsə də Azərbaycan Naxçıvan MR ilə müqayisədə üstün olmuşdur. Məsələn, 1985-ci ildə əhalinin məktəbəqədər uşaq müəssisələri ilə təminatı ümumrespublika səviyyəsində 20 faiz, Naxçıvan MR-da 12 faiz təşkil etmişdirsə, Azərbaycan DQMV-də bu göstərici 35 faizə çatmışdır [208].

Azərbaycanın başqa bölgələrindən fərqli olaraq, DQMV-də 1970-1985-ci illərdə məktəb tikintisi sürətlə getmişdir. Azərbaycan höküməti 1971-1975-ci illərdə DQMV-də 20 məktəb (bundan 17-si kənddə), 1976-1980-ci illərdə 12 məktəb (bundan 10-u kənddə), 1981-1985-ci illərdə isə 18 məktəb (bundan 11-i kənddə) tikib istifadəyə verdi.[209] Orta məktəblərin sayının artması ilə səkkizillik və ibtidai məktəblərin sayı azalırdı. Səkkizillik və ibtidai məktəblərin sayının azalması isə məktəblərin ümumi sayının azalmasına təsir etmişdi. Məsələn, 1970-ci ildə DQMV-də məktəblərin ümumi sayı 226-idisə 50 yeni məktəb tikilsə belə onların ümumi sayı 205 olmuşdur. 1970-ci ildən başlayaraq, DQMV ərazisində fiziki cəhətdən qüsurlu olan uşaqlar üçün məktəb tikilib istifadəyə verildi və 1974-1975-ci tədris ilində belə məktəblərin sayı 2-yə çatdı. Həmin məktəblərdə isə şagirdlərin sayı 60-dan 296-ya qalxdı. Yeri gəlmişkən onu da qeyd edək ki, fiziki cəhətdən sağlamlığını itirən uşaqlar üçün məktəb 1950-1951-ci tədris ilində açılsa da, elə həmin ilin yekundan fəaliyyətini dayandırmışdı və 1970-1971-ci tədris

ilində həmin məktəb yenidən fəaliyyətə başlamışdı[210]. Bundan əlavə, DQMV-də 11 axşam (növbəli) ümumtəhsil məktəbi də fəaliyyət göstərdi ki, bu məktəblərdə istehsalatdan ayrılmadan yaşlı nəslə dərslər tədris olunurdu. Qeyd edək ki, 1980-ci illərin sonlarında Azərbaycanda 88 axşam (növbəli) məktəbi vardır[211]. DQMV-nin ümumtəhsil məktəblərində hər il orta hesabla 34,4 min şagird təhsil alırdı. Dağlıq Qarabağın həmin məktəblərində müəllimlərin sayı 3,4 min nəfərdən 3,9 min nəfərə çatmışdı[212]. DQMV-də ümumtəhsil məktəblərində işləyən müəllimlərin 80 faizindən çoxu ali, 3,3 faizi natamam ali, 15 faizi orta-pedaqoji təhsilli idi. Məktəblərin 98 faizində fənn kabinələri, emalatxanalar fəaliyyət göstərirdi.

1985-ci ildə Naxçıvn MR-da 6,3 min müəllimi, 64,8 şagirdi birləşdirən 217 ümumtəhsil məktəbi var idi. Maraqlı cəhət ondan ibarətdir ki, Naxçıvan MR-da hər məktəbə 296 şagird düşdüyü halda DQMV-də 177 şagird düşmüşdür. Eyni zamanda, Naxçıvan MR-da hər müəllimə 10 uşaq düşürdüsə, DQMV-də 8,5 uşaq düşürdü[213]. Ümumiyyətlə, aparılan tədqiqatlar nəticəsində məlum olur ki, ümumrespublika səviyyəsində əhalinin sayı ilə müqayisədə müəllimlərin, məktəblərin sayı DQMV üstün mövqeyə malik olmuşdur. Bu isə Azərbaycan hökümətinin bölgəyə göstərdiyi dərin qayğısının nəticəsi idi. Təkcə, 1970-1982-ci illərdə Heydər Əliyevin böyük qayğısı sayəsində SSRİ-nin ən mühüm ali məktəblərində Azərbaycan üçün 17 mindən çox yüksək ixtisaslı mütəxəssis hazırlanmışdı. Həmin mütəxəssislər Azərbaycamn hər yerinə, o cümlədən, DQMV-nə göndərilmişdi.

1975-1976-cı tədris ilində DQMV-də müxtəlif fənlər üzrə dərinləşmiş, proqramlarla təlim keçən təmayüllü internat məktəbləri fəaliyyətə başladı. Dağlıq Qarabağın həmin internat təmayüllü məktəblərində təkcə 1975-1976-cı tədris ilində 11982 nəfər şagird təhsil alırdı[214]. Azərbaycanda milli hərbi kadrlar yetişdirilməsini və SSRİ ali hərbi məktəblərinə Azərbaycanlı gənclərin daxil olmasını təmin etmək məqsədilə 1971-ci ildə C.Naxçıvanski adına orta respublika ixtisaslaşdırılmış internat məktəbi təşkil olunmuşdu.



1970-1985-ci illərdə DQMV-də işləyən gəncləri təhsilə cəlb etmək üçün gündüz məktəbləri yanında müstəqil qiyabi məktəblər təşkil olundu. Dağlıq Qarabağın kolxoz və sovxozlarında rayon qiyabi məktəblərinin 4047 şagirdi birləşdirən 11 tədris-məsləhət məşğələsi açılmışdı. Həmin məktəbləri ildə orta hesabla 900 məzun bitirirdi[215]. Axşam və qiyabi məktəb şagirdləri üçün qısaldılmış iş həftəsi müəyyən olunmuşdu. İmtahan keçmək üçün XI sinif şagirdlərinə 20, VIII sinif şagirdlərinə 8, başqa sinif şagirdlərinə isə 4 gün pulu ödənilən məzuniyyət verilirdi. Bundan əlavə, DQMV-də 85 məktəbdənkənar uşaq müəssisələri, pioner və məktəblilər sarayı, 50 pioner düşərgəsi, uşaq idman məktəbi, musiqi və bədii özfəaliyyət məktəbi, uşaq parkları, gənc texniklər və turistlər stansiyası, uşaq kitabxanaları fəaliyyət göstərirdi[216].

1971-1975-ci illər ərzində DQMV-də ümumi orta təhsilə keçid başa çatdırıldı. Yeni məktəblərin tikilməsi hesabına DQMV-də dərslər bir növbədə keçirilirdi. Dağlıq Qarabağın 42 məktəbində dövlətimizin ayırdığı xüsusi vəsait hesabına yemək verilirdi. Şagirdlərə isti yemək verilməsi sahəsində DQMV məktəblərinin təcrübəsi Azərbaycan SSR Maarif Nazirliyinin kollegiyası tərəfindən bəyənilmişdir.

1970-1985-ci illərdə DQMV-də peşə təhsili sistemi də sürətlə inkişaf edirdi. DQMV-nin 22 orta məktəbində şagirdlərə müxtəlif peşələr öyrədilirdi. 1970-1985-ci illərdə Dağlıq Qarabağın məktəblərində peşə təhsili alanlar 20 faiz artdı. Hər il orta hesabla 900 nəfərdən çox şagird sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı, məişət xidməti və başqa sahələr üzrə 100 dən artıq peşəyə yiyələnirdilər[217]. Texniki peşə məktəblərinin maddi texniki bazası ilbəil möhkəmlənirdi.

1970-ci illərdə DQMV-də təsərrüfat, maarif, mədəniyyət, səhiyyə və başqa sahələr üzrə orta ixtisas kadrları hazırlayan 5 məktəb fəaliyyət göstərirdi. Həmin texnikumlarda 2 mindən çox tələbə təhsil alırdı. Bir ildə həmin məktəblər 500-dən çox mütəxəssis buraxırdı. 1980-ci illərin ortalarında Şuşa Pedaqoji Məktəbinin tədris binası və yataqxanası istifadəyə verildi. Bəhs etdiyimiz illərdə, tələbələrə verilən təqaüdlər 3 dəfə artırıldı. Artıq, 1985-ci ildə DQMV-də

texnikumların sayı 6-ya, orada təhsil alanların sayı isə 1970-ci ildəki 2,1 minə qarşı 2,4 minə çatdı[218]. 1985-ci ildə Naxçıvan MR-da isə 2,2 min nəfərin oxuduğu 4 texnikum fəaliyyət göstərirdi.

1970-1980-ci illərdə Azərbaycanda ali təhsil daha da inkişaf etdi və yeni ali təhsil ocaqları fəaliyyətə başladı. Belə ki, 1971-ci ildə Pedaqoji Dillər İnstitutu bazasında Rus dili və ədəbiyyatı, Pedaqoji Xarici dillər institutları, 1972-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı əsasındı Naxçıvan Pedaqoji İnstitutu, 1976-cı ildə İnşaat Mühəndislər İnstitutu, 1981-ci ildə Gəncə Texnalogiya İnstitutu təşkil edildi. Həmin ali təhsil müəssisələri DQMV-də mütəxəssislərə olan tələbatın ödənilməsində mühüm işlər görmüşlər. H.Ə.Əliyevin şəxsi təşəbbüsü ilə DQMV-də yaradılmış Xankəndi Pedaqoji İnstitututu (XPİ) bölgənin və ətraf rayonların pedaqoji kadrlara olan tələbatının ödənilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Azərbaycan KP MK-nin və Azərbaycan SSR Nazirlər Sovetinin 23 noyabır 1973-cü il tarixli qərarı ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı kimi XPİ təşkil edildi[219]. İnstituta hər il 500-ə yaxın tələbə qəbul olurdu ki, bundan 300-ü əyani təhsil alırdı. 1980-ci XPİ-da 2 min tələbə oxuyurdu. 1985-ci ildə isə həmin institutda təhsil alanların sayı 2100 nəfərə çatmışdı. Burada tədris Azərbaycan, rus və erməni dillərində aparılırdı. Bəhs etdiyimiz illərdə, Naxçıvan Pedaqoji institutunda da tələbələrin sayı 2100 nəfər idi.

1969-cu ildən başlayaraq ali məktəblərin yanında fəhlə, kolxozçu və ordudan tərxis olunanlar üçün hazırlıq şöbələri yaradıldı. 70-ci illərdən isə ali məktəblərdə istehsalın və elmi texniki tərəqqinin tələb etdiyi yeni bilik sahələri-avtomat idarəetmə sistemi, elektrotexnika, biokimya, rabitə texnikası və başqa mütərəqqi ixtisaslar üzrə mütəxəssislər hazırlanmasına başlandı. 1980-ci illərin sonlarında Azərbaycanda 4534 ümumtəhsil orta məktəbi, 182 texniki-peşə məktəbi, 77 texnikum, 17 ali məktəb fəaliyyət göstərirdi. Bəhs etdiyimiz illərdə, əhalinin təhsil səviyyəsi artmaqda davam edirdi. 80-ci illərin sonlarında yaşı 15-dən yuxarı olan əhalinin hər 1000 nəfərindən 129-u ali, 146-sı orta ixtisas, 425-i ümumi orta, 190-ni natamam orta təhsilli idi. Bütün bunlarla yanaşı, DQMV-də



azərbaycanlılar yaşayan kəndlərdə yeni məktəb tikintisi aparılmır, köhnələr təmir edilmirdi. Məktəblər lazımı avadanlıqlarla, kitablarla və ixtisaslı mütəxəssislərlə təmin edilmirdi. DQMV-də azərbaycanlılar yaşayan bir neçə kəndi birləşdirən bir məktəb olduğundan və məktəblilər miniklə təmin edilmədiyindən şagirdlərin çoxu məktəbə getmirdi. DQMV-nin Təhsil İdarəsi məktəbəqədər və məktəbdənkənar uşaq tərbiyə müəssisələrinin yerləşdirilməsində də ikili mövqe tutmuşdur. Həmçinin, Rayon Təhsil İdarəsinə rəhbərlik edən erməni millətçiləri Azərbaycan dilində təhsilin gələcəyinin olmayacağı konsepsiyası ilə çıxış edərək Azərbaycan dilli məktəbləri heç bir səbəb olmadan bağlayırdılar.

1970-1985-ci illərdə Dağlıq Qarabağda yaşayan əhalinin biliyinin mədəni səviyyəsinin yüksəldilməsində təhsil müəssisələri və kütləvi informasiya vasitələri mühüm rol oynamışdı. Mədəni maarif-müəssisələrinin inkişafmda kitabxanaların rolu xüsusi əhəmiyyət kəsb etmişdir. Azərbaycan hökuməti DQMV-də kitabxana işini inkişaf etdirmək üçün mühüm tədbirlər həyata keçirdi. Azərbaycan Respublikası Nazirlər Sovetinin 1967-ci iyunun 17-də qəbul etdiyi «Respublikada kitabxanaların vəziyyəti və onları yaxşılaşdırmaq tədbirləri haqqında» Sov.İKP MK-nin «Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında» 8 may 1974-cü il qərarları kitabxana işinin inkişafmda mühüm rol oynadı. Azərbaycan hökuməti DQMV-də yeni kitabxana binaları tikintisi üçün, əvvəlki dövrlə müqayisədə, qoyulan vəsaitin miqdarını 2,5 dəfə artırdı. 1970-ci ildə DQMV-də 179 müstəqil dövlət kitabxanası fəaliyyət göstərirdiki, bundan 154-ü kəndin payına düşürdü. Həmin ildə bu kitabxanalarda 1 milyon 157 min kitab var idi[221]. Bu kitabların 676 mini kənd kitabxanalarında yerləşdirilmişdi. 70-ci illərdə DQMV-də kitabxana işi öz inkişafının yeni mərhələsinə daxil olmuşdu. Azərbaycan hökümətinin «1976-1980-ci illərdə kitabxana işinin daha da inkişaf etdirilməsi» haqqında qərarından sonra kitabxanaların mərkəzləşdirilməsi planı işlənib hazırlandı[222]. Həmin plana uyğun olaraq, DQMV-də 70-ci illərdə Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) təşkilinə başlanda[223]. Kitabxana

fondu əvvəlki illərə nisbətən yeni ədəbiyyatla daha zəngin komplektləşdirildi, oxucuların sayı, dövriyyəsi xeyli artdı.

1970-1975-ci illərdə DQMV-də 9 yeni tipli kitabxana binası tikilib istifadəyə verildi.[224] 1975-ci ildə DQMV-də kütləvi kitabxanalım sayı 188-ə (bundan 162-si kənddə), onların kitab fondu isə 1 milyon 340 minə (bundan 788 mini kənd kitabxanasında) vardı. 1976-1980-ci illərdə DQMV-də Azərbaycan Mədəniyyət Nazirliyi və M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının yaxından iştirakı və təşkilati-metodiki köməyilə kütləvi kitabxanaların mərkəzləşdirilməsi başa çatdırıldı. Ağdərə, Xocavənd, Şuşa, Əskəran rayonlarında MKS-ləri yeni texnoloji prinsiplər əsasında fəaliyyət göstərməyə başladı. Mərkəzləşmə nəticəsində 1980-ci ildə DQMV-də 202 kitabxana birləşdirilmişdi. Bunların fondunda isə 1 milyon 362 min çap vahidi var idi[225]. Kitabxanalarda oxucuların sayı isə, əvvəlki dövrlə müqayisədə, xeyli artmışdı. 1980-ci illərdə Dağlıq Qarabağ kitabxanalarından 77,2 min oxucu istifadə etmişdir ki, bu da 1975-ci illə müqayisədə 10,4% çox idi. İl ərzində oxucular DQMV kütləvi kitabxanalarmda 2851 nüsxə kitabdan istifadə etmişlər[226].

1970-1985-ci illərdə DQMV-də kitabxana işçilərinin tərkibi Azərbaycan hökümətı tərəfindən xeyli təkmilləşdirilmişdi. BDU-nin kitabxanaçılıq fakültəsi, Bakı Mədəni Maarif Texnikumu, Şuşa Mədəni-maarif məktəbi DQMV kitabxanaları üçün Azərbaycan hökümətinin qərarı ilə müsabiqədən kənar tələbə qəbul etmiş və bölgəni ixtisaslı kadırlarla təmin etmişdir. 80-ci illərdə DQMV-də kitabxana şəbəkəsi çox sürətlə inkişaf etmişdir. Belə ki, 1980-ci ildə Dağlıq Qarabağda kütləvi kitabxanaların sayı 202, 1984-cü ildə 227 idisə 1985-ci ildə artaraq 231-ə çatmışdır. Kitab fondu isə 1980-ci ildəki 1 milyon 400 mindən 1985-ci ildə 1 milyon 600 minə çatmışdır[227]. DQMV-də kütləvi kitabxanalarla yanaşı 272 klub kitabxanası, 12 tibb kitabxanası, 100 məktəb kitabxanası, 24 sənaye müəssisələri, kolxoz və sovxoz kitabxanaları, 17 həmkarlar ittifaqı kitabxanası fəaliyyət göstərirdi[228].

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, yaşayış məntəqələrinin kitabxana ilə təminatı, adambaşına düşən kitablar və kitabxanaların sayı



DQMV-də həm ümumrespublika səviyyəsində, həm də Ermənistanla və keçmiş SSRİ ilə müqayisədə üstün olmuşdur. Məsələn, 1986-cı ildə Dağlıq Qarabağda hər adama 10,2 kitabxana kitabı düşdüyü halda, respublikamızda 5,8 kitab, Naxçıvan MR 7,1 kitab düşmüşdü.

1980-ci illərin sonlarında DQMV-nin yaşayış məntəqələrinin kütləvi kitabxanalarla təmin edilməsi 105,6 faiz olduğu halda, ümumrespublika üzrə bu göstərici 94,4 faiz, Naxçıvanda 98,4 faiz idi. Bundan əlavə, əhalinin hər 10 min nəfərinə düşən kütləvi kitabxanaların sayı keçmiş SSRİ məkanında 4,8, Ermənistan SSR-də 4,1, Azərbaycanda 6 olduğu halda, Azərbaycan DQMV-də bu göstərici 13-ə çatmışdı. Faktlardan göründüyü kimi, hər adama düşən kitabxanaların sayı DQMV-də ümumrespublika səviyyəsini 2 dəfədən də artıq üstələmişdir[229]. Bütün bunlarla yanaşı, DQMV-də azərbaycanlılar yaşayan kəndlərdə mövcud kitabxanalar Azərbaycan dilli ədəbiyyatla tam-təmin edilmirdi. Aparılan tədqiqatlardan məlum olur ki, Azərbaycanlılar yaşayan kəndlərdəki kitabxanalardakı kitabların təxmini 80 faizi erməni dilində, 10 faizi Azərbaycan və 10 faizi rus dillərində idi[230].

1980-ci illərin sonlarında Azərbaycanda 4605 kütləvi kitabxana var idi ki, buradakı kitab və jurnalların sayı 1970-ci ildəki 23 milyon nüsxədən 45,3 milyon nüsxəyə çatmışdır[231].

Bəhs etdiyimiz dövrdə, Azərbaycan hökümətı DQMV-də mədəni-maarif müəssisələri içərisində klubların inkişafına xüsusi diqqət yetirmişdir. Xalqın mədəni səviyyəsinin yüksəldilməsində klublar mühüm rol oynayırdı. Çünki burada həm kino, teatr göstərilir, özfəaliyyət dərnəkləri fəaliyyət göstərir və mühüm əhəmiyyətli yığıncaq, iclaslar keçirilirdi. DQMV klublarında çalışanların 409 nəfərdən yalnız 22 nəfəri orta ixtisas təhsilli, qalanları ali təhsil almış mütəxəssislər idi.

1970-1985-ci illərdə Azərbaycan hökümətinin ayırdığı xüsusi vəsait hesabına DQMV-də klub tikintisi xeyli artdı. Belə ki, həmin illərdə 69 klub tikilib Dağlıq Qarabağ əhalisinin istifadəsinə verildi. 1970-ci ildə DQMV-də 198 (bundan kənddə 185) klub fəaliyyət göstərirdisə, 1975-ci ildə onların sayı 222-yə

(kənddə 206-sı), 1980-ci ildə 236-ya, 1985-ci ildə isə 267-yə çatdı[232]. Bəhs etdiyimiz dövrdə, Respublikamızda klubların sayı 2146-dan 3680-nə, Azərbaycanın Naxçıvan MR-da isə 166-dan 255-ə çatdı[233].

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, adamların sayına görə klubların sayı DQMV-də ümumrespublika səviyyəsindən 3 dəfə, Ermənistanla müqayisədə təxminən 4,5 dəfə artıq olmuşdur. Belə ki, 1986-cı ildə əhalinin hər 10 min nəfərinə düşən klubların sayı SSRİ məkanında 4,8-ə, Azərbaycan Respublikasında 5-ə, Ermənistanda 3,8-ə çatırdısa, Azərbaycanın DQMV-də bu göstərici 15-ə bərabər idi. 1980-ci illərin ortalarında DQMV-nin 300-dən 500-ə qədər adam yaşayan bütün yaşayış məntəqələrinin 32-dən 31-i klub müəssisələri ilə təmin edilmişdir. Ümumrespublika səviyyəsində isə klub müəssisələri ilə təmin edilmiş belə yaşayış məntəqələri 40 faizə çatırdı. Azərbaycanda 746 iri yaşayış məntəqəsindən yalnız 319-da klub var idi[234].

Əhalinin ideya-siyasi tərbiyəsində kino mühüm rol oynayırdı. Azərbaycan hökuməti 1970-1985-ci illərdə DQMV-də kinoteatr şəbəkəsinin inkişafının daha da yaxşılaşdırdı. Klubların sayının artırılması bu baxımdan böyük əhəmiyyətə malik idi. Hətta, rayon mərkəzlərində yay kinoteatrlarda fəaliyyət göstərirdi. Dövlətimizin DQMV-də həyata keçirdiyi mühüm tədbirlərdən biri də, bölgəni kino qurğuları, avtomühərriklər və kino lentləri ilə tam təmin etməsi olmuşdur.

Aparılan araşdırmalardan məlum olur ki, 1980-ci ildə DQMV-dəki kinoqurğuları ümumrespublika üzrə mövcud kinoqurğuların 10 faizini təşkil etmişdir. Həmin il Respublikamızda 2002 kinoqurğu var idi ki, bunun 202-si DQMVnin payına düşürdü. 1970-1985-ci illərdə Respublikamızda 163 kinoqurğu yaradılmışdı ki, bunun 36-sı DQMV-nin payına düşmüşdür. Həmin illərdə, Respublikamızda kinoqurğuların sayı 2004-dən 2167-yə, Azərbaycan DQMV-də isə 170-dən 206-ya çatmışdı[235]. 1980-ci illərdə kinoseanslarına baxış orta hesabla il ərzində Respublikamız üzrə 60 milyon təşkil etmişdirsə, Azərbaycanın Naxçıvan MR-da 3 milyon 100 min, DQMV-də 3 milyon 300 minə çatmışdır. 10 min nəfər hesabilə əhaliyə düşən kino qurğuların sayı keçmiş SSRİ məkanında 5,4-ə, Azərbaycan Respublikasında 3-ə, Ermənistanda 2,9-a, Azərbaycanın



DQMV-də 11,2-yə çatmışdır[236]. Həmçinin, kinoya baxış səviyyəsində də DQMV birinciliyi saxlanılmışdır. Təkcə, bir faktı qeyd edək ki, Naxçıvan MR-da əhalinin sayı Dağlıq Qarabağdakından təxminən 2 dəfə çox olmasına baxmayaraq, 1985-ci ildə Naxçıvan MR-da kino seanslarında iştirak edənlərin sayı 3 milyon 166 minə, DQMV-də isə 3 milyon 259 minə çatmışdır[237]. Bütün bunlar isə, Azərbaycan hökümətinin DQMV-ə göstərdiyi dərin qayğının nəticəsində əldə edilmişdir.

1970-1985-ci illərdə DQMV-də əhali arasmda mədəni-maarif işinin aparılmasında muzeylərin də rolu böyük olmuşdur. Dövlətimizin ayırdığı xüsusi vəsait hesabına 1970-1985-ci illər ərzində DQMV-də 6 yeni muzey açıldı. Vilayətdəki muzeylərin sayı 3-dən 9-a çatdı. Dağlıq Qarabağda 2 şəkil qalereyası və Bakı muzeylərinin 2 filialı açılmışdı. Muzeyə gələnlərin sayı ilbəil artırdı. Belə ki, 1970-ci ildə DQMV-də muzeyə gələnlərin sayı 35 min nəfər idisə, 1980-ci ildə 103 min nəfərə, 1985-ci ildə isə 130 min nəfərə çatmışdı. Muzey daxilində keçirilən elmi-kütləvi işlər, səyyar sərgilər, müharibə veteranları və əmək qəhrəmanları ilə görüşlər əhali arasında böyük rəğbətlə qarşılanırdı. DQMV-də fəaliyyət göstərən muzeylərdə ekspozisiya ilə yanaşı, hər il mühüm hadisələr və əlamətdar günlərə həsr edilmiş tematik və səyyar sərgilər təşkil edilirdi. DQMV muzeylərində sərgi zalı, uşaq şəkil qaleriyası, ədəbiyyat və incəsənət xadimlərinin xatirə lövhələri nümayiş etdirilirdi. DQMV-də yerli diyarşünaslıq muzeyi də fəaliyyət göstərirdi ki, onun fondları getdikcə zənginləşir və ekspozisiyaları daim təzələnirdi. 1980-ci illərin sonlarında Azərbaycanda 124 muzey fəaliyyət göstərirdi[238].

Ümummilli liderimiz H.Ə.Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanda xalqın milli özünüdərk prosesi xeyli güclənmişdi. Yaradıcı ziyalılarımız üçün sərbəst düşüncə və iş şəraiti yaradılmışdır. H.Ə.Əliyev dövlətimizə rəhbərlik etdiyi illərdə DQMV-nin mədəni tərəqqisinə diqqəti daha da artırdı. 1970-ci illərdə Şuşa şəhərinin inkişafı üçün bir neçə xüsusi qərar qəbul edildi. Bunlardan biri, Azərbaycan KP MK-nin və Azərbaycan Nazirlər Sovetinin 4 noyabr 1976-cı ildə «Şuşa şəhərində kurort

kompleksini daha da inkişaf etdirmək tədbirləri haqqında» qərarı idi. H.Ə.Əliyev çıxışlarından birində göstərmişdi ki, Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qayğı ilə qorumaq, qədim tikililəri bərpa etmək lazımdır. Qədim Şuşanın memar və nəqqaşlarından Mir Möhsun Nəvvab Qarabaği, Məmmədyar, Usta Qənbər Qarabaği, Məşədi Əliqulu, Qarabağlı Kəblə Əkbər, Məşədi Xaspolad, Kərbəlayi Səfixan Qarabaği və başqa sənətkarların əllərinin məhsulu olan gözəl sənət inciləri — «Gəncə qapısı», «Gövhərağa» məscidi, «Xan qızı» bulağı, İbrahim xanın divanı, Nətavanın, Əsədbəyin, Uğurlubəyin evləri, Hacı Qulunun malikanəsi, Mehmandarovların *yaşayış kompleksi, «Qara Böyükxanım» qəsri, Mirsiyabovun karvansarası*, «Heydər türbəsi», Saatlı məscidi, Qala divarları və digər tarixi abidələr öz milliliyinə və forma müxtəlifliyinə görə Azərbaycan memarlıq mədəniyyət tarixində özünəməxsus yer tutur. Bunları qoruyub saxlamaq və gələcək nəsillərə çatdırmaq ən başlıca ümdə vəzifələrdəndir[239].

Şuşa ərazisində hər kvadrat kilometrə 327 tarixi abidə düşür. Azərbaycan SSR Nazirlər Sovetinin 10 avqust 1977-ci il 280 №-li qərarı ilə Şuşa şəhəri Tarixi Arxitektura Qoruğu elan edildi. Həmin qərara görə Şuşada dövlət tərəfindən qeydə alınan 187 tarixi abidə, 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçələr, 18 məhəllə bulağı, 15 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr, 2 kilsə, qala divarları, 21 sovet dövründə yaradılmış abidə, 987 daş küçə, 190 mühavizə zonası, 9 qala bürcləri[240] qorunmağa və bərpa edilməyə başlandı[241]. Azərbaycanda 1980-ci illərin sonlarında 6500-dən çox tarix, arxeologiya, memarlıq abidəsi dövlət tərəfindən qorunurdu. Dünya şöhrətli tarixi şəxsiyyət, elmə, sənətə və sənətkara qiymət verən dahi insan H.Ə.Əliyev 12 yanvar 1979-cu ildə Şuşaya gəlmiş və Şuşanın görkəmli tarixi şəxsiyyətlərinin məzarlarını yad etmiş, buradakı tarixi abidələrə baxmışdır. H.Əliyevin şəxsi təşəbbüsü ilə Şuşa şəhərinin tarixi abidələri bərpa olunmağa və yeni binalar tikilməyə başlandı. 14 yanvar 1982-ci ildə H.Əliyev Azərbaycanın 400-dən çox ədəbiyyat, incəsənət və elm xadimi ilə birlikdə 20 metr hündürlüyündə M.P.Vaqifin məqbərəsinin açılışında iştirak etmişdir. Həmin vaxt H.Əliyev



Şuşada tarix və mədəniyyət abidələrinə də baxış keçirmiş, bəzi abidələrin bərpası üçün lazımi göstərişlər vermişdir. Burada qısa bir müddətdə Üzeyir Hacıbəyovun, Bülbülün ev muzeyləri açıldı və Nətavanın heykəli qoyuldu. H.Ə.Əliyevin göstərişlərinə əsasən Şuşada böyük mehmanxana, çoxmərtəbəli yaşayış binaları, inzibati binalar tikildi və Şuşa şəhəri Ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. 28 iyul 1982-ci ildə H.Ə.Əliyev ailə üzvləri ilə birlikdə Şuşaya gəlir və M.P.Vaqifin poeziya bayramında və bir sıra abidələrin açılışında iştirak edir. Onlardan, Vaqifin dərs dediyi mədrəsənin, şəkil qalereyasının, Üzeyir Hacıbəyovun ev muzeyinin, məscidlərin, X.B.Natəvanın büstünün və digər obyektlərin bərpasından və təşkilindən razı qaldığını bildirir[242].

Bəhs etdiyimiz dövrdə, DQMV-də tarixi abidələrin tikintisi və bərpası uğurla aparılırdı. Belə tikintilərdən biri də Ağdərə rayon erməni əhalisinin xahişi ilə 1978-ci ildə inşa etdirilmişdir. Həmin abidə ermənilərin Ağdərəyə köçürülməsinin 150 illiyi münasibətilə inşa edilmişdi. Abidənin üzərinə böyük rəqəmlərlə «1828-1978» və «150» rəqəmləri həkk olunmuşdu. Ancaq bu abidə bəzi «qaranlıq məsələlərə» aydınlıq gətirdiyi üçün ermənilər 1985-ci ildə həmin abidəni dağıtmağa, xüsusilə rəqəmləri yox etməyə başladılar[243].

1970-1980-ci illərdə DQMV-də mədəni-maarif işinin ən kütləvi vasitələrindən biri teatr idi. Bəhs etdiyimiz dövrdə, DQMV-də M.Qorki adına Xankəndi Dram Teatrı fəaliyyət göstərirdi. Həmin teatrla yanaşı, DQMV-nin rayonlarında həvəskar dram dərnəkləri də fəaliyyətdə idi. M.Qorki adına Xankəndi Dram Teatrı, göstərdiyi xidmətlərə görə, 1982-ci ildə «Şərəf nişanı» ordeni ilə təltif edilmişdir. Teatrın truppasından 4 nəfər Azərbaycan SSR xalq artisti, 10 nəfəri isə Azərbaycan SSR əməkdar artisti adlarına layiq görülmüşlər[244]. Bəhs etdiyimiz illərdə, teatra gələnlərin sayında da xeyli artım müşahidə edilmişdir. Belə ki, 1970-ci ildə DQMV-də teatra tamaşa edənlərin sayı 67 min nəfər idisə, 1985-ci ildə onların sayı 76 min nəfərə çatmışdır. 1985-ci ildə Azərbaycanda 20 dövlət teatrı fəaliyyət göstərirdi. Tamaşaçıların sayı isə 1970-ci illərdəki 1,5 milyon nəfərdən 1985-ci ildə 1,4 milyon nəfərə çatmışdı.[245] Statistik məlumatlara əsaslanaraq sadə riyazi analiz aparsaq görərik ki, ümumrespublika

səviyyəsində hər 350 min nəfərə 1 Dövlət dram teatrı düşdüyü halda, Azərbaycanın Naxçıvan MR-da 275 min nəfərə 1 Dövlət Dram Teatrı, DQMV-də isə 162 min nəfərə 1-i düşmüşdür. Teatra tamaşa edənlərin ümumi səviyyəsinə gəldikdə isə DQMV ümumrespublika səviyyəsindən 30 faiz yüksəkdə dayanmışdır.

1970-1985-ci illərdə DQMV-də xalq universitetləri də mədəni-maarif müəssisələri sisteminin mühüm halqalarından birinə çevrilərək fəaliyyət göstərirdi. Bu dövrdə, DQMV-də 12 ideoloji iş və partiya fəalları məktəbi, 72 konkret iqtisadiyyat məktəbi, 807 kommunist əməyi məktəbi yaradılmışdır. Dağlıq Qarabağın şəhər, qəsəbə və kəndlərində 725 məktəb və nəzəri seminar, 54 xalq universiteti, partiya təbliğatının digər kütləvi formalarında 195 məktəb fəaliyyət göstərirdi. DQMV-də xalq universitetləri üçün ildə 400 dinləyici SSRİ-nin müxtəlif regionlarında kursdan keçir və təhsil alırdılar. DQMV-də zəhmətkeşlərin siyasi maarifi və iqtisadi təhsilinin bütün formaları ilə 53326 nəfər əhatə olunmuşdu. Konkret iqtisadiyyat məktəblərində, iqtisadi seminarlarda və iqtisadi biliklər xalq universitetlərində iki mindən çox, məhsuldar əmək məktəblərində təxminən 20 min adam təhsil alırdı. 1980-ci ildə DQMV-də təbliğat işində 1899 nəfər məşğul olurdu. Onların 1300 nəfəri «Təbliğatçı-səmərəlilik və təbliğat beşilliyinə» hərəkatında iştirak edirdi. Dağlıq Qarabağda 1800-dən çox təbliğatçı şəxsi yaradıcılıq planları üzrə işləyirdi.[246] Təbliğatçıların köməyi ilə dinləyicilər əmək məhsuldarlığının, işin keyfiyyətinin yüksəlməsinə dair şəxsi və kollektiv planlar, səmərəlik və keyfiyyət barədə kompleks şəxsi hesablar, şəxsi qənaət hesabları işləyib hazırlayırdılar.

1980-ci illərin əvvəllərində DQMV-də Vilayət Partiya Komitəsi yanında ictimai rəyi öyrənmə və Sosial Tədqiqatlar Şurası yaradıldı. Şura tikinti təşkilatlarında, yüngül sənaye müəssisələrində fəhlə kadrları ilə aparılan işin vəziyyətini öyrənmiş, orta məktəblərin və texniki peşə məktəblərinin gələcək məzunları arasında konkret sorğu keçirilmişdir. Əldə olunan məlumatların təhlili isə DQMV-nin xalq təsərrüfatında kadr məsələsinin həll olunmasında mühüm rol oynamışdı. 1970-1980-ci ildə DQMV-də bütün idarə və təşkilat,



hüquq mühavizə orqanlarının iştirakı ilə açıq məktub günləri keçirilirdi. Belə tədbirlərə əvvəlcədən ciddi hazırlıq görülürdü. Həmin tədbirlərin keçiriləcəyi yer, onun mövzusu barədə yerli qəzetlər və ya radio, habelə ictimai təşkilatlar vasitəsilə məlumatlar verilirdi. Təklif və sualları toplamaq üçün xüsusi situasiyalı və alınan məktublar «açıq məktub günü» ərəfəsində müvafiq təşkilatların rəhbərləri, vilayət və şəhər partiya komitələrinin nümayəndələri, respublika və vilayət qəzetlərinin müxbirləri, partiya komitələrinin katibləri, müəssisələrin rəhbərləri ilə birlikdə təhlil olunurdu. Bəhs etdiyimiz illərdə, DQMV-nin rayonlarında da sual-cavab gecələri keçirilirdi. Həmin gecələrdə rabitə, nəqliyyat, ticarət müəssisələrinin işi, əmək intizamının möhkəmləndirilməsi və məhsulun keyfiyyətinin yaxşılaşdırılması ilə əlaqədar məsələlər müzakirə edilirdi. Bir il ərzində, DQMV-də təxminən 50-dən çox açıq məktub günü, sual-cavab gecəsi keçirilmiş və hər bir tədbirdə 2 mindən artıq adam iştirak etmişdir.[247] Lakin DQMV-də qazanılan iqtisadi və mədəni naliyyətləri yalnız DQMV-də aparılan «ideoloji iş»in ayağına yazmaq olmaz. Əlbəttə, bu nailiyyətlərin əldə edilməsi Azərbaycan hökuməti və onun başçısının bölgəyə göstərdiyi dərin qayğının nəticəsi kimi qiymətləndirilməlidir.

1970-1985-ci illərdə DQMV-də kütləvi informasiya şəbəkəsi inkişaf etməkdə idi. Əhalinin maariflənməsində, mədəni səviyyəsinin yüksəlməsində, ictimai-siyasi fəaliyyətinin artmasında mətbuat mühüm rol oynayırdı. Bəhs etdiyimiz dövrdə, DQMV-də 6 qəzet erməni dilində, 1-i Azərbaycan dilində və 1-i rus dilində buraxılırdı. Bunlardan, «Sovetakan Karabax» («Sovet Qarabağı»), «Metaksaqorst» («İpəkçi»), «Karmir Droş» («Qırmızı Bayraq»), «Berekatyun» («Dostluq»), «Aşxatan» («Əmək»), «Koltitesakan» («Kolxozçu»), «Şuşa» və «Sovetskiy Karabax» qəzetləri çox tirajla Şuşa, Əskəran, Ağdərə, Xankəndi, Xocavənd, Hadrud rayonlarında yayılırdı. Qəzetlərin illik tirajında da artım müşahidə edilmişdir. Belə ki, 1970-ci ildə DQMV-də 27 milyon nüsxə qəzet buraxılmışdırsa 1985-ci ildə 3 milyon nüsxə artaraq 30 milyon nüsxəyə çatmışdır.[248]

Bəhs etdiyimiz illərdə, DQMV əhalisi ittifaq miqyaslı, o cümlədən, Ermənistanda çap olunmuş müxtəlif jurnallara abunə yazılmışlar. Dağlıq Qarabağ əhalisi 1965-ci ildə 7 milyon 597 min tiraj jurnal alınmışdısa, 1980-ci ildə bu rəqəm artaraq 12 milyona 350 minə çatmış,[249] 1985-ci ildə isə 14 milyonu keçmişdir.

Bəhs etdiyimiz illərdə, DQMV-də ittifaq və respublika radio verilişləri qəbul edilirdi. Erməni dilində yerli radio verilişləri DQMV-nin bütün qəsəbə və kəndlərində ardıcıl yayımlamr və qəbul edilirdi. Sutkanın kiçik bir hissəsində Azərbaycan dilində veriliş efirə gedirdi. DQMV-də Azərbaycan televiziya verilişləri qəbul edilirdi. Burada, həmçinin, yerli televiziya verilişləri də transilasiya olunurdu. 1970-1980-ci illərdə Azərbaycan Radiosu və Televiziyası qurumu getdikcə təkmilləşirdi. Azərbaycan radiosu müxtəlif dalğalarda hər gün 1 proqram «Araz» və «Stereo» poqramları ilə müxtəlif dillərdə 37 saat veriliş yayırdı. Bu dövrdə, Azərbaycan Beynəlxalq Radiosu təsis edilmişdi. Azərbaycan kütləvi informasiya vasitələri bəşəri və milli dəyərlər fonunda sovet həyat tərzini, rəsmi ideologiyanı geniş təbliğ edirdi.

Bəhs etdiyimiz dövrdə, DQMV-də Azərbaycan Yazıçılar İttifaqının Dağlıq Qarabağ birliyi fəaliyyət göstərirdi. Burada nasirlər, şairlər dramaturqlar elmi yaradıcılıqla məşğul olurdular. DQMV-də Azərbaycan hökümətı tərəfindən yaradılmış poliqrafiya idarəsi əsərlərin, müxtəlif ədəbiyyatların nəşr olunmasında mühüm rol oynayırdı. 1971-1980-cı illərdə DQMV-də ümumi tirajı 500 min nüsxə olan 84 adda kitab buraxılmışdır ki, bundan 366 min nüsxə (66 adda) erməni dilində olmuşdur. Buraxılan əsərlərin xeyli hissəsi də rus dilində, cüzi nəşr Azərbaycan dilində idi[250]. 1981-1982-ci illərdə Vilayət yazıçılarınm erməni dilində 10 kitabı, 1983-1985-ci illərdə isə 15 kitabı nəşr edilmişdir.

Bəhs etdiyimiz dövrdə Azərbaycanda hər il 10-12 milyon nüsxə tirajla 1200-1300 adda kitab nəşr olunurdu[251]. Mərkəzin diktəsilə partiya sənədləri «marksizm-leninizm klassik»lərinin əsərləri tərcümə və böyük tirajla çap edilir, geniş təbliğ olunurdu. 1976-1988-ci illərdə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Cəmil Quliyevin redaktorluğu altında Azərbaycan xalqının tarixində ilk



oncildlik «Azərbaycan Sovet Ensklopediyası» çapdan çıxdı[252]. 70-80-ci illərdə klassik Azərbaycan şair və yazıçılarının əsərləri külliyyatı, çoxcildlik müxtəlif toplular çap edildi və bunlar Azərbaycan xalqının milli oyanışına əhəmiyyətli təsir göstərdi.

1970-ci illərdə «geniş kommunizm quruculuğu», «inkişaf etmiş sosializm cəmiyyəti» haqqında fərziyyələr sovet ideologiyasının əsas ehkamlarına çevrilmişdi. Hətta SSRİ hökümətı sosializm cəmiyyətinə qəti inam yaratmaq üçün qüsurlari gizlədirdilər.

DQMV-də «idealoji cəbhə» anlamından istifadə edən Vilayət rəhbərliyi Azərbaycanlıların bir çox adət-ənənəlrini sıxışdırırdılar. Qədim dövrlərdə xalqımızın məişətinə daxil olmuş, əməksevərliyi, nəcibliyi tərənnüm edən, müəyyən dərəcədə beynəlmiləl xarakterli Novruz bayramı Dağlıq Qarabağ azərbaycanlılarına qəti qadağan edilmişdi. Bölgədə yaşayan müsəlmanlar bu bayramı gizli şəkildə keçirirdilər. Kənd yerlərində 21 «sosialist» bayram və mərasimi rəsmi «ənənəyə» çevrilmişdi. Dini mərasimlər açıq şəkildə sıxışdırılırdı. Bir faktı xüsusi qeyd etməliyik ki, XX əsrin əvvəllərində Dağlıq Qarabağ ərazisində 17 məscid olduğu halda, onlar erməni vandalları tərəfindən dağıdılmış, anbara, idarəyə çevrilmiş, 1970-ci ildə isə onlardan yalnız ikisi qalmışdır. Bunlar isə, baxımsızlıq ucbatından yarıtmaz vəziyyətə düşmüşdü. İslam dini əleyhinə DQMV erməni rəhbərliyinin ideoloji əks təbliğatına baxmayaraq, burada yaşayan müsəlmanlar dini bayram və mərasimləri gizli şəkildə qeyd edirdilər. Xalqımız öz milli ənənələrini qoruyub saxlamağa çalışırdı. H.Ə.Əliyevin xalqımız üçün misilsiz xidmətlərindən biri də ondan ibarət olmuşdur ki, o Dağlıq Qarabağdakı «məscidlərin bərpası haqqında qərar» (4 noyabr 1976-ci il) və «Azərbaycan SSR-də dini birliklər haqqında əsasnamə (13 sentyabr 1976-cı il) qəbul etmişdir. Həmin vaxtdan Şuşadakı məscidlərimizin bərpasına başlandı[253].

1970-1985-ci illərdə Dağlıq Qarabağda Dövlət Mahnı və Rəqs ansambılının və Qarabağ Dövlət estrada orkestrinin repertuarı daha da zənginləşmişdi. SSRİ-nin bütün xalqlarının mahnı və rəqslərini ifa etməyi

bacaran kollektivlər Ukrayna, Belarusiya, Ermənistan, Moldova, Gürcüstan, Şimali Qafqaz, Arxangelsk, Rostov, Baykal-Amur, Moskva ərazilərində qastrol səfərlərdə olmuşdular.

Mədəniyyətimizin başqa sahələrində olduğu kimi, Qarabağın tacı sayılan Şuşa, həm də Azərbaycanın təbii konservatoriyası, musiqi sənətinin beşiyi olmuşdur. Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmış və onu bütün dünyada tanıtmışdı. Təsadüfi deyildir ki, XIX əsr Şuşasının 22 musiqişünası, 38 xanəndəsi olmuşdu. Azərbaycan musiqisini bütün şərqdə, Zaqafqaziya məkanında tanınmasında Qacar Sürəyyə Sədrəddin qızının, Əbülbaqi Zülalovun, Məşədi Cəmil Əmirovun, Süleyman Ələsgərovun, Keçəçi oğlu Mühəmmədin, Həmid Malıbəylinin, Məşədi Məmmədin, Zülfüqar Hacıbəyovun, Hacı Hüsünün, Soltan Hacıbəyovun, Rəşid Behbudovun, Xan Şuşunskinin, Səid Şuşunskinin, Segah İslamın, Bülbülün, Həmid Qurbanovun, Zabul Qasımın və başqalarının xidmətləri böyük olmuşdur. 1970-ci illərdə Şuşa Rayon Mədəniyyət Evində xalq çalğı alətləri ansambılı və dram kollektivi fəaliyyət göstərirdi. Lakin çox təəssüflə qeyd etməliyik ki, bəhs etdiyimiz dövrdə, Şuşada Azərbaycan musiqisini erməni vandalları tərəfindən sıxışdırılması nəticəsində, dünya şöhrətli musiqiçilər yetişdirən bu torpaq bu gün həmin musiqiçilərə «həsrət» qalmışdır. DQMV ərazisində və bütün Azərbaycanda Şuşa xalq çalğı alətləri ansabılının rəngarəng çıxışları çox xoş təssüratla qarşılanırdı. 1980-ci ildə DQMV-də 700 bədii özfəaliyyət dərnəyi və birliyi fəaliyyət göstərirdi ki, bunlara 8 mindən çox həvəskar cəlb edilmişdir[254].

XIX əsrdə Azərbaycanımıza 95 şair, 100 nüsxəbənd, 19 xəttat, 16 nəqqaş, 18 memar, 5 astranom, 16 həkim, 42 müəllim bəxş etmiş Yuxarı Qarabağ 20-ci yüzillikdə də bu ənənəni davam etdirmişdir. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1980-ci ildə SSRİ Elmlər Akademiyası və müttəfiq respublikanın Elmlər Akademiyalarının 23 həqiqi üzvü, 27 bəstəkar, 40 yazıçı, 32 xalq artisti, 115 nəfərdən çox elmlər doktoru, Sovet ordusunun 23 generalı, görkəmli dövlət xadimləri DQMV-də doğulmuş, böyümüş və orada təhsil almışdır[255]. Bunlara misal olaraq, Azərbaycan SSRİ EA-nın vitse-prezidenti, ASE-nin baş redaktoru



Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Sovet tarixçisi, tarix elmlər doktoru, professor C.B.Quliyevi, görkəmli Sovet fiziki-kimyaçısı, akademik, Lenin Mükafatı lauriatı N.S.Yenikolopovun, filologiya elmləri doktoru, professor N.Axundovun, AMEA müxbir üzvü, dövlət mükafatı laureatı, professor C.E.Allahverdiyevi professor, Ə.C.Abbasovu, Azərbaycan Milli Elmlər Akademiyası Müxbir üzvü, filologiya elmləri doktoru, S.M.Əsədovu, məşhur Azərbaycan heykəltəraşı H.M.Əhmədovu texnika elmləri sahəsində ilk professor X.Məlikaslanovu, Azərbaycan maarifçi-pedaqoqun, şairi M.Axundovu istilik texnikası sahəsində Sovet alimi V.Yusifovanı, Sovet mama-genekoloqu, tibb elmlər doktoru, professor M.K.Mahmudbəyovu, Azərbaycan Milli Elmlər Akademiyası Müxbir üzvü, kimya elmlər doktoktoru, professor P.H.Rüstəmovu, Sovet filosofu, fəlsəfə elmlər doktoru, Əməkdar elm xadimi M.M.Ağamirovu və başqalarını misal göstərə bilərik[256].

1970-1980-cı illərdə DQMV-də istedadlı fırça ustalarından Rövşən Bayramovu, Tofiq Zeynalovun, Valeh Məmmədovun və başqalarının yaratdıqları rəsm əsərləri çox böyük maraq doğurmuşdu. Şuşada Zöhrabbəyovların 10 otaqlı evində yerləşən rəsm qolareyasında 500-dən çox rəsm əsərləri nümaiş etdirilirdi. Burada nümayiş etdirilən əsərlər həm yerli rəssamların, həm də respublika dünya rəssamlarının rəsmləri idi. Dağlıq Qarabağ rəssamlarının çəkdiyi əsərlər beynəlxalq sərgilərdə nümaiş etdirilirdi. 1985-ci ildə «Şuşada küçə», «İllər keçdi», «Köhnə şəhərdə məscid», «Günorta», «Şahdaçı» və başqa əsərlər Moskva sərgisində müvəffəqiyyət qazınmışdı. Təsvir edilmiş əsərlərin əksəriyyəti Şuşa, onun təkrarsız gözəllikləri, dağları, təbiəti, yolları idi[257].

1970-ci illərdən DQMV-də maddi-mədəniyyət abidələri yenidən qeydə alındı. Onların tədqiqinə, mühafizəsinə və səmərəli istifadə olunmasına diqqət artırılırdı. Lakin ictimai elmlərin inkişafına «Hakim ideologiya»nın güclü təziqi mənfi təsir göstərirdi. Xüsusilə, Dağlıq Qarabağda qədim tarixə malik Oğuz-türk abidələrini erməni vandalları saxtalaşdırmağa çalışırdılar. Hətta, Şuşanı «abadlaşdırmaq» adı altında qədim maddi-mədəniyyət abidələrimiz

Vilayətin hakim dairələri tərəfindən dağıdılmışdı. 70-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun əməkdaşları M.Hüseynovun rəhbərliyi altında DQMV ərazisində arxeoloji qazıntı tədqiqat işlərini davam etdirmiş və ərazidə tapılan qədim maddi-mədəniyyət izləri, əşyalar ibtidai insanların burada yaşamasını subut etmişdilər.

1970-1985-ci illərdə, DQMV-də fəaliyyət göstərən elmi idarələr — Xankəndi Zona Təcrübə Stansiyası, Leninakan Genetika və Seleksiya İnstitutunun Qarabağ Elmi Təcrübə bazası, AMEA-nın Dağlıq Qarabağ filiah, Turşsu Dövlət Damazlığ Stansiyası, Azərbaycan Kənd Təsərrüfatı Texnikası Birliyinin DQMV filialıdır. Xankəndi Aqrar Sənaye Birliyi və başqa idarələr bölgədə xalq təsərrüfatı sahəsində yüksək məhsuldarlıq əldə etmək üçün yeni ixtiralar edir, səmərələşdirici təkliflər irəli sürürdülər. Həmin idarələr DQMV təbii sərvətlərini dərindən öyrənib, aşkarlamış və mənimsəmişdilər. DQMV-də nəbatatçılarının səyləri Vilayətin florasını öyrənməyə və xalq təsərrüfatında ondan istifadə etməyin genişləndirilməsinə, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasında həllinə köməklə əlaqədar bitkilərin fiziologiyası və mühafizəsi məsələlərinin tədqiqinə yönəldilmişdi. Eyni zamanda, bəhs etdiyimiz illərdə, DQMV-də kənd təsərrüfatı heyvanlarının məhsuldarlığını artırmağın bioloji əsaslarını hazırlamaq sahəsində mühüm işlər görüldü. Azərbaycan MEA, Dövlət Plan komitəsi, elm-iqtisadiyyat idarələrində tədqiqatların miqyasının genişlənməsi DQMV-də iqtisadiyyatın inkişafı üçün ehtiyat mənbələrdən istifadəni genişləndirdi.

Beləliklə, 1970-1985-ci illərdə Azərbaycan DQMV-də mədəniyyətin inkişafında mühüm dövr oldu. Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Dağlıq Qarabağda təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənətin tərəqqisi üçün münasib imkanlar açıldı. Vilayətin mənəvi sərvəti, kadr potensiyalı daha da artdı. Dövlətimizin dərin qayğısı nəticəsində DQMV-də mədəniyyət dinamik inkişaf etdi.



# XV FƏSİL

## SOVET İMPERİYASINI İFLASDAN QURTARMAQ CƏHDLƏRİ, DQMV-DƏ «YENİDƏNQURMA» SİYASƏTİ, ONUN AĞIR NƏTİCƏLƏRİ (1986-1987-CI İLLƏR)

XX əsrin 80-ci illərinin ortalarında SSRİ-nin ictimai-siyasi, iqtisadi və mənəvi həyatında böhran yarandı. Bu dövrdə, Sovet ölkəsində maddi ehtiyatlar azalmış, istehsalın artım sürəti, məhsuldarlığı, səmərəliliyi aşağı düşmüş, ETT ləngiməklə, infrasturuktur zəifləmiş, təbii ehtiyatlar azalmış və bahalaşmışdı. 1970-ci illərəllə müqayisədə 80-ci illərin ortalarında əmək məhsuldarlığının orta illik artımı 2,2 faiz, istehsal olunan məhsulun orta illik artımı sənayedə 5,4 faiz, kənd təsərrüfatında 2,8 faiz, mal dövriyyəsi 5,4 faiz, əsaslı vəsait qoyuluşu 4,3 faiz aşağı düşmüşdü.[1] Bu dövrdə, kommunist ideologiyasına inam azalmış, müttəfiq respublikalarda (o cümlədən, Azərbaycanda) hüquqların tapdalanması, sərvətlərin talan olunmasına etiraz və xalqın milli özünüdərk prosesi güclənmişdi. Sovet dövlətinin iqtisadi, siyasi və ideoloji əsaslarının iflasa uğramasının daxili və xarici səbəbləri vardır. Təsərrüfatda azad rəqabətin olmaması, güclü inzibati amirlik idarə üsulu, büdcə vəsaitinin silahlanmaya yönəldilməsi və iqtisadi geriliyi aradan qaldırmaq üçün tələb olunan vəsaitin olmaması keçmiş ittfaq hökumətinin iqtisadi böhrana düşməsinə gətirib çıxartdı. Dolayı yollardan istifadə edərək varlanan mərkəzi ali hakimiyyət orqanlarının nümayəndələri yığdıqlarından bəhrələnmək və dəbdəbəli yaşamaq üçün mövcud ictimai-siyasi sistemin dağılmasına biganə yanaşırdılar. Hətta, həmin illərdə, sovetlər ittifaqına rəhbərlik edən M.S.Qorbaçov çıxışlarından birində etiraf etmişdir ki, «Həyatımın məqsədi kommunizmi məhv etmək olub».[2] Dövlət başçısının idarə etdiyi dövlətə belə bir mövqedən yanaşması yəqin ki, onun dağılmasına gətirib çıxarmalı idi və çıxardı.

Sovet ittifaqının dağılması, daxili amillərlə yanaşı, xarici amillərlə də bağlı olmuşdur. Hamımıza məlumdur ki, iki sistem-kapitalizm və sosializm sistemləri arasında uzunmüddətli ideoloji mübarizə getmişdir. Belə bir şəraitdə keçmiş

SSRİ-nin Şərqi Avropada orta mənzilli raketlər yerləşdirməsi, Sovet ordusunun Əfqanıstana soxulması ümumdünya antikommunizm liqasının fəaliyyətinin genişlənməsinə səbəb oldu. Nəticədə, demokratik ölkələrdə artan sovet təhlükəsinə qarşı yeni hərbi proqramlar hazırlandı və iqtisadi sanksiyalar tətbiq edildi. ABŞ SSRİ-yə taxıl ixracını dayandırdı. SSRİ dünyadakı satış və xammal bazarlarından məhrum oldu. Bütün bunlar sovetlər ittifaqının iflasını sürətləndirdi. Sov. İKP MK ölkəni böhrandan çıxarmaq məqsədilə 1985-ci ilin aprelində «sürətləndirmə konsepsiyası»nı, 1987-ci ilin yanvarında «aşkarlıq və demokratiaya» xəttini, 1988-ci ilin iyununda «Humanist, demokratik sosializm» şüarını irəli sürdü.[3] Lakin mərkəzin «yenidənqurma» xətti imperiyanın daha dərin böhrana saldı və onun süqutunu sürətləndirdi. Moskva, SSRİ-nin dağılması prosesinin qarşısını almaq üçün həmişə istifadə etdiyi «Parçala və hökm et» siyasətindən yenə də istifadə etdi. Hakim dairələr milli münaqişələri, antitürk, antislam siyasətini genişləndirdilər. Azərbaycanı və deməli, həm də Cənubi Qafqazı əldə saxlamaq, eyni zamanda, türk xalqları ilə Türkiyə arasında körpü olan Azərbaycanı əldən verməmək üçün Azərbaycan dövləti SSRİ rəhbərliyinin əsas zərbə hədəfinə çevrildi. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində azərbaycanlıların soyqırımını törətməklə Azərbaycanı parçalamağı, zəiflətməyi və özündən aslı vəziyyətə salmağı, bununla da, regionda aqalıq etməyi qarşısına məqsəd qoyan rus şovinistləri erməni millətçilərindən yenə də bir qaba silah kimi istifadə etdilər. 1988-ci ildə bədnam yenidənqurmanın yaratdığı aşkarlıqdan sui-istifadə edən erməni millətçiləri, onların lobbisi Azərbaycan xalqına qarşı kütləvi yalan və böhtan kompaniyasına başladılar. Onlar, Dağlıq Qarabağda vəziyyəti gərginləşdirmək, ictimai rəyi öz tərəflərinə çəkmək üçün ənənəvi «əzabkeş» obrazı yaratdılar. Erməni millətçiləri əsas diqqəti ona yönəltdilər ki, guya Azərbaycan rəhbərliyinin qərəzlı siyasəti nəticəsində DQMV-nin iqtisadi inkişaf səviyyəsi bütün Azərbaycan üzrə olduğundan xeyli aşağıdır. Guya bu fakt erməni əhalisinin narazılığına səbəb olmuş, onların səbir kasasım daşdırıb hadisələrin detanatoru olmuşdur. SSRİ-də, xaricdə görkəmli iqtisadçılardan sayılan, M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri olan



akademik Aqambekyanın irəli sürdüyü yalançı tezisləri erməni millətçilərinin əl-qolunu daha da açdı və onlarda Dağlıq Qarabağın Azərbaycandan qoparılması inamını xeyli artırdı. Halbuki, qərəzsiz elmi araşdırmalar nəticəsində məlum olur ki, erməni millətçilərinin ortaya atdıqları sosial-iqtisadi gerilik konsepsiyası bəhanədən başqa bir şey deyildir. Bütün iyirminci yüzillik boyu tariximizin hansı mərhələsinə müraciət etsək görərik ki, Dağlıq Qarabağın iqtisadi, sosial və mədəni inkişafı həmişə ümumrespublika səciyyəsində yüksəkdə dayanmışdır. Tədqiq etdiyimiz bütün dövrlərdə olduğu kimi, 1986-1988-ci illərdə də DQMV-nin iqtisadi və sosial inkişafı Azərbaycan hökumətinin diqqət mərkəzində olmuşdur.

1989-cu ildə ermənipərəst V.Dorofeyev Moskvanın kütləvi informasiya vasitələrində Azərbaycana qarşı qərəzli mövqe tutaraq DQMV-nin xalq təsərrüfatının inkişafına kapital qoyuluşunun həcminin az olması haqqında əsassız, mənbəsiz tamamilə yanlış məqalələr çap etdirmişdir.[4] Həmin məqalədə göstərilirdi ki, DQMV-də adambaşına düşən əsaslı vəsait qoyuluşunun həcmi respublika səviyyəsindən aşağıdır və bu amil vilayətdə sosial gərginliyi daim artırır, ermənilərin müstəqillik uğrunda mübarizəsinə əsas verir. Əsası olmayan fakt əlində çıraq gəzdirən kora bənzər. Təbii ki, Dorofiyevin və onun kimi qızışdırıcı mövqedən çıxış edənlərin gətirdikləri «dəlillər»in heç bir elmi bazası yoxdur.

Bir məsələni xüsusi olaraq qeyd etmək lazımdır ki, istər ümumittifaq miqyasında, istərsə də respublikanın regionları səviyyəsində vəsait ayrılarkən həmin regionun ölçüsü, ərazinin təsərrüfatçılıq baxımından mənimsənilməsi, əhalinin sayı, iqtisadiyyatın strukturu və bu iqtisadiyyatın potensial imkanları nəzərə alınmışdır. Bütün bunları nəzərə almamaq yanlış nəticələr əldə etmək deməkdir. Təkcə, bir faktı qeyd edək ki, 1987-ci ildə Estoniyaya və Dağıstana ayrılan investisiyanın həcmi RSFSR-ə ayrılan vəsaitdən təxminən 180 dəfə az olmuşdur.[5] Bu fakt həmin ərazilərin Mərkəz tərəfindən sıxışdırılması deməkdirmi? Əlbəttə yox. Bu cür müqayisə tamamilə yanlış mövqedən yanaşma olardı.

Aparılan araşdırmalardan məlum olur ki, DQMV-ə ayrılan vəsaitin həcmi həmişə ümumrespublika səviyyəsini üstələmişdir. 1960-cı illərlə müqayisədə 1980-ci illərdə DQMV-də adambaşına ayrılan vəsaitin həcmi 4 dəfə artmışdır (59 manatdan 226 manata çatmışdır). Bakı və Sumqayıt şəhərlərinə ayrılan vəsaitin çox hissəsi neftçıxarma, neft-kimya komplekslərinin inkişafına istiqamətlənmişdirsə, DQMV-ə ayrılan investisiya əhalinin maddi-məişət şəraitinin yaxşılaşmasına yönəldilmişdir. Məsələn, 1988-ci ildə ümumrespublika üzrə bir adama düşən istifadəyə verilmiş yaşayış sahəsi 3,64 kvadrat metr, DQMV-də isə4,76 kvadrat metr olmuşdur. Uşaq müəssisələrində əlavə yerlər yaradılmasının həcmi DQMV-də orta respublika göstəricisini 1,4 dəfə ötüb keçmişdir. Həmçinin, ümumi orta təhsil müəssisələrində hər on min nəfərə düşən şagird yerlərinin sayı DQMV ümumrespublika səviyyəsindən 1,6 dəfə qabaqda gedirdi. Hər 10 min nəfərə düşən çarpayıların sayı DQMV-də respublika üzrə olduğundan 15 faiz yüksək idi.[6] Bu və ya buna bənzər elmi faktlar minlərlədir. Erməni ekstremislərinin millətlər arası münasibətləri qızışdırmaq üçün faktları bilərəkdən, qərəzli şəkildə təhrif etməsi xalqımıza qarşı ən böyük cinayət sayılmalıdır.

Bir məsələyə də xüsusi aydınlıq gətirmək yerinə düşərdi ki, Dağlıq Qarabağın erməni rəhbərliyi vilayətdə süni sürətdə narazılıq yaratmaq məqsədilə Azərbaycan hökuməti tərəfindən ayrılan vəsaitin xeyli hissəsini istifadəsiz qoymuş və ya lazım olan istiqamətə yönəltməmişdir. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, təkcə 1970-1980-ci illərdə 45 milyon manat vəsait istifadəsiz qalmış və həmin səbəbə görə vilayətin təsərrüfat kompleksinə planda nəzərdə tutulan əsas fondların 147 milyon manatlığı verilməmişdir.[7] Başqa bir tərəfdən, istər Vilayət Partiya Komitəsinin məsul vəzifəli şəxslərinin, istər Vilayət XDS-nin nümayəndələrinin, istərsə də DQMV Rayon Partiya Komitələri başçılarının plenum, qurultay müşavirə və konfranslardakı çıxışları, nəşr olunmuş məqalə və kitabları nəzərdən keçirilərkən DQMV-nin sosial, iqtisadi və mədəni həyatının inkişaf gerçəkliklərindən geniş bəhs olunduğunu görürük. Vilayət Partiya Komitəsinin uzun müddət birinci katibi işləmiş B.Gevorkovun



1970-1987-ci illərdə çıxış və məruzələrində DQMV-nin dinamik inkişafından söz açılır, qazanılan uğurlardan danışılır və bölgə əhalisinin sosial-iqtisadi durumunun, həyat səviyyəsinin, pul gəlirlərinin Azərbaycanın digər rayonlarından yüksəkdə dayanması şərh edilmişdir.[8] Bütün bunlar real həyat həqiqətləridir. Hansı ki, həmin realhqlar erməni millətçiləri tərəfindən etiraf edilmişdir və təəssüflər olsun ki, 1988-ci ilin əvvəllərindən başlayaraq yuxarıda qeyd etdiyimiz həyat həqiqətləri arxa plana keçmiş, ittifaqın və xarici mətbuat səhifələri vilayətin geriliyi barədə uydurma rəqəmlərlə doldurulmuşdur. Halbuki tədqiq etdiyimiz bütün dövrlərdə, o cğmlədən, 1986-1988-ci illərdə Azərbaycan hökuməti DQMV-də iqtisadi və sosial-mədəni sahələrin mütərəqqi inkişafına daim diqqət yetirmişdir.

DQMV respublikamızın inkişaf etmiş sənaye regionlarından biridir. Vilayətdə sənaye dinamik inkişaf etmişdir. 1987-ci ilin əvvəllərində bölgədə sənaye istehsal fondlarının dəyəri 140,2 milyon manat təşkil etmişdir. 1980-ci illə müqayisədə 1987-ci ildə sənaye istehsal fondunun dəyəri 55,6 faiz artmışdır ki, bu isə ümumrespublika üzrə olan göstəricilərdən 46,5 faiz çox demək idi.[9] 1988-ci ildə DQMV sənayesində on min nəfər adam çalışırdı ki bu da 1923-cü illə müqayisədə 50 dəfə artım olduğunu göstərirdi. 1987-ci ildə DQMV əhalisinin hər 10 min nəfərinə düşən sənaye məşğulluq göstəricisinə görə yalnız Bakı-Sumqayıt regionlarından geri qalırdı. 1940-cı illə müqayisədə 1987-ci ildə Dağlıq Qarabağda sənaye istehsalının həcmi 25 dəfə artacaq 240 milyon manata çatmışdır. Yeni obyektlərin istifadəyə verilməsi, müəssisələrin avadanlıq və xammalla təmin edilməsi nəticəsində sənaye istehsalının yüksək inkişaf sürəti təmin olunmuşdur. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-1987-ci illər ərzində DQMV sənaye istehsalının inkişaf sürətinə görə ümumrespublika səviyyəsini 3 dəfə ötüb keçmişdir. 1987-ci ilin dekabr məlumatına görə DQMV-də adambaşına 1,4 min manatlıq sənaye məhsulu istehsal olunmuşdur ki, bu da Bakı-Sumqayıt regionu istisna olmaqla Azərbaycanın yerdə qalan bütün regionlarındakı göstəricilərdən yüksəkdir.[10]

DQMV Azərbaycanın müasir sənayeyə malik regionudur. Bölgənin sənaye kompleksinin əsasını elektrotexnika, ipəkçilik, maşınqayırma, tikinti materialları sənayesi, toxuculuq, mebel, ayaqqabı, ət-süd sənayesi və digərləri təşkil edir. 1986-1988-ci illərdə Dağlıq Qarabağda xalq istehlakı malları istehsalının artırılmasına xüsusi diqqət yetirilmişdir. Əmək ehtiyatlarından daha səmərəli istifadə etmək üçün Vilayətin ermənilər yaşayan kəndlərində «Qarabağ İpək Kombinatı»nın filialları şəbəkəsi xeyli genişlənmişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, 1987-ci ildə DQMV ipək istehsalına görə respublikamızın ikinci mərkəzi idi. DQMV-də yüngül sənaye məhmulunun 67 faizi və respublikamızın ipəkçilik sənayesinin 25 faizi Dağlıq Qarabağ ipək emalı sənayesinin payına düşürdü.[11] 1986-1987-ci illərdə Dağlıq Qarabağ ipək emalı sənayesində inkişafprosesi getsə də 1988-ci ildə erməni millətçilərinin bölgədətörətdikləri fitnəkarlığı bu sahəyə güclü zərbə vurdu. İlk növbədə, xammal ehtiyatları təxminən yarıbayarı azaldı ki, bu da istehsalın aşağı düşməsinə çox böyük təsir etdi. Çoxşaxəli istehsala malik Qarabağ ipək emalı sənayesinin 1986-1988-ci illər tərəddüdlü inkişaf prosesini aşağıdakı cədvəldən də görmək olar.[12]

| Məhsulun növü | Ölçü vahidi | İllər | | | |
|---|---|---|---|---|---|
| | | 1985 | 1986 | 1987 | 1988 |
| Xam ipək | ton | 117 | 109 | 94 | 50 |
| İpək sap | ton | 108 | 128 | 131 | 78 |
| İpək parça | mln.m$^2$ | 16,5 | 14,9 | 15,5 | 9,0 |
| Barama | ton | 146 | 145 | 136 | 89 |

SSRİ Elmlər Akademiyasının akademiki T.Xaçaturovun və Azərbaycan yüngül sənaye nazirinin müavini C.Aventisovun fikirlərinə görə Qarabağ İpək Kombinatında 1988-ci ildə istehsalın həcminin azalmasının ən başlıca amili müəssisələrin yeni texnika ilə təchiz edilməməsi və ixtisaslı kadrların çatışmaması ilə bağlı olmuşdur. Lakin bir məsələni xüsusi qeyd etməliyik ki, Qarabağ İpək Kombinatında məhsul istehsalının azalmasının ən başlıca səbəbi Ermənistanın



Azərbaycana qarşı növbəti ərazi iddiaları və DQMV-də ermənilərin növbəti münaqişəsi ilə bağlı idi. Yuxarıdakı cədvəldən göründüyü kimi, DQMV-də baş verən erməni fitnəkarlığı barama istehsalını aşağı salmış, kombinatın xammala olan tələbatı ödənilməmiş və nəticədə ipək parça istehsalı azalmışdır.

1986-1988-ci illərdə DQMV-nin sənayesində artma, azalma və hətta istehsalın tamamilə dayandırılması halları müşahidə edilmişdir. Məsələn, bəhs edilən illərdə, alkoqolizmə qarşı mübarizi pərdəsi altında DQMV-də üzüm sahələri 40 faiz azaldı. Eyni zamanda, Dağlıq Qarabağda başlayan erməni separatizmi üzüm baqlarına baxımsızlıq yaratmış, ağır zəhmət və külli miqdarda vəsait hesabına yaradılmış məhsuldar bağlar ləğv edilmişdi. Xammal çatışmamazlığı nətəicəsində 1985-1988-ci illərdə şərab emalı təxminən 9 dəfə azalmışdı. 1985-ci ildəki 1 milyon 211 min dekaletrdən 135 min dekaletrə enmişdir. Ayaqqabı istehsalı isə 1986, 1987-ci illərdə öz əvvəlki istehsal həcmin (4 milyon 500 min cüt ədəd) saxlasada, 1988-ci ildə təxminən 2 dəfə azalaraq 2 milyon 279 min cüt ədədə düşmüşdür. Yuxarıda qeyd etdiyimiz səbəblər ucbatından əhənd istehsalı 10,1 min tondan 4 min tona enmişdir.[13] Yuxarıda qeyd etdiyimiz kimi, məlum səbəblər ucbatından DQMV-də elə sənaye sahələri vardır ki, 1988-ci ildən istehsalı tamamilə dayandırmışdır. Belə ki, lyuminesent lampalar üçün armatur-beton dirək istehsalı 1985-ci ildə 1 milyon 19 min ədəd, 1986-cı ildə 1 milyon 74 min ədəd, 1987-ci ildə 1 milyon 136 min ədəd istehsal olunmuşdursa 1988-ci ildə həmin zavodada istehsal sıfıra enmişdir.[14] Dəmir beton dirəklərinin istehsalıişində də problemlər yaranmışdı. Çünki, SSRİ-nin iqtisadi böhrana düşməsi onun tərkibinə daxil olan dövlətlərin ticarət əlaqələrinin, xüsusilə qeyri-ərzaq məhsulları mübadiləsinin dayandırılmasına səbəb olmuşdur.

1986-1988-ci illərdə DQMV-də ərzaq məhsulları istehsal edən sənaye müəssisələrinin istehsalında artım müşahidə edilmişdir. Məsələn, pendirvə yağlı brınza istehsalı 1985-ci ildə 767 ton, 1986-cı ildə 909 ton istehsal olunmuşdursa, 1988-ci ildə artaraq 944 tona çatmışdır. Mal-qara yağı istehsalında isə cüzi azalma halı olmuşdur. Belə ki, 1985-ci ildə DQMV-nin yağ zavodunda 946 ton

yağ istehsal olunmuşdursa, 1986-cı ildə bu göstərici 935 tona və 1988-ci ildə 929 tona enmişdir. Bəhs etdiyimiz illərdə, Vilayətdə artan sənayesahələrdən biri də konyak istehsalı idi. Konyak istehsalı 1985-ci ildəki 44 min dekaletrə qarşı, 1986-cı ildə 58 min dekaletrə, 1988-ci ildə isə 75 min dekaletrə qalxmışdır.[15] 80-cı illərin ikinci yarısında heyvandarlıq məhsulları istehsal edən sənayenin inkişafınısürətləndirmək nəzərdə tutulmuşdur. 1986-1988-ci illərdə DQMV-dəyeyinti sənayesində Vilayət əhalisinin tələbatını ödəməli olan köməkçi sahələr - süd, ət, çörəkbişirmə, qənnadı və başqa sahələr üstünlük təşkil edirdi. DQMV-nin süd kombinatında respublikamızda quru süd zərdabı hazırlayan yeganə sex işləyirdi. Süd kombinatındakı quru süd sexində xaricdən gətirilmiş avadanlıqlar quraşdırılmışdır. Aparılan hesablamalara görə, 1988-ci ildə adambaşına düşən yeyinti məhsullarının ən mühüm növlərinin istehsalı səviyyəsinə görə DQMV Azərbaycan SSR-nin iqtisadi rayonları arasında ilk yerlərdən birini tutmuşdur.

Aparılan tədqiqatlardan məlum olur ki, DQMV-də aqrar sahənin intensiv inkişafı sənayenin də intensiv inkişafına şərait yaratmışdır. Çünki Vilayətdə sənaye sahələri əsasən kənd təsərrüfatı məhsullarının və yerli xammalların hesabına inkişaf etdirilmişdir. Dekabr 1987-ci il məlumatına görə, DQMV üzrə sənaye məhsulu istehsalı respublikanın ümumi məhsul istehsalının 2,8 faizini, istehsal fondlarının 1,6 faizini, sənayedə çalışanların 2,8 faizini təşkil etmişdir. İqtisadi rayonun məhsul istehsalına kapital qoyuluşu artaraq, hər adama düşən istehsal məhsullarının həcmi 1987-ci ildə ümumrespublika üzrə 21 manata qarşı, Vilaytədə 29,5 manat olmuşdur. Son 20 il ərzində DQMV-də 30-dan çox sənaye müəssisələri yaradılmış və il ərzində məhsul istehsalının həcmi 3 dəfə artaraq respublika səviyyəsini ötmüşdür.[16]

Dağlıq Qarabağın sənaye strukturunda adambaşına düşən yeyinti sənayesi 65,9 faiz, yüngül sənayesi 24,2 faiz, maşınqayırma və metal emalı sənayesi 6,7 faiz, meşə və ağac emalı sənayesi 1,7 faiz, tikinti materialları sənayesi 1,5 faiz artmışdır.[17] Sənaye məhsullarının müqayisəli həcminə görə yeyinti sənayesi üstünlük təşkil etmişdir. Bu ilk növbədə, aqrar sektorun inkişatı ilə bağlıdır. Xankəndi ət, süd kombinatları, şərab zavodu, Əskəran spirtsiz içkilər zavodu,



Xocavənd konserv zavodu, çörək kobinatları, quru süd və süd zərdabi hazırlayan zavodlar məhsul istehsalı və onların keyfiyyət göstəricilərinə görə güclü inkişaf etmişdir.

DQMV-də sənayenin inkişafı xidmət strukturlarının genişlənməsinətəkan vermişdir. 1986-1990-cı illər planında Şuşa və Xocavənddə yeni çörək zavodları, Xankəndində qənnadı fabriki, un kombinatı, şərab zavodlarının yenidən qurulması, üzüm şirəsi zavodunun tikintisi, yeni qənnadı sexlərinin tikintisi nəzərdə tutulmuşdu. Bunların həyata keçirilməsi isə Ermənistanın Azərbaycana qarşı elan olunmamış müharibəyə başlaması ilə baş tutmadı.

1987-ci ildə DQMV-də tikiş, xalça, musiqi alətləri fabrikləri, maşınqayırma, elektrotexnika, texniki təmir, elektrik lampaları, zavodları, minik avtomobillərinə texniki xidmət stansiyası və onun Əsgəran, Xocavənd, Xocalı filialları güclü inkişaf etmişdi. Bəhs etdiyimiz dövrdə, Dağlıq Qarabağda tikinti sənayesi yerli xammallar hesabına inkişaf etdirilirdi. Respublikamızdakı üzlük daşın 15 faizini, tikinti daşlarının 30 faizini, mişar daşlarının 10 faizini, sənaye əhəmiyyətli gilin 10 faizini DQMV vermişdir.[18] Bu sahədə Xankəndi tikinti materialları kombinatı, qum, çınqıl, daş, mərmər karxanaları, kərpic zavoduböyük rol oynamışdır. Xankəndi, Əsgəran, Xocavənd, Xocalı meşə və ağac emalı kombinatları, mebel fabrikləri çoxşaxəli sənaye sahələrinin inkişafında mühüm rol oynamışdır.

DQMV-nin infrastrukturunda yüksək voltlu elektrik xətlərinin çəkilməsində və bununla elektrik təchizatı sahəsində şəbəkələr yaradılması böyük rol oynamışdır. 1986-1990-cı illərdə DQMV-də energetika təsərrüfatının inkişafı üçün Azərbaycan hökuməti 1970-1985-ci ildəki vəsaitdən 1,4 dəfə artıq vəsait ayırdı. Çox hissəsinin dağlıq ərazi olmasına baxmayaraq 1986-1988-ci illərdə DQMV-də uzunluğu 110 kilometr olan yüksək voltlu elektrik xətti çəkildi. Artıq 1988-ci ildə DQMV ərazisində yüksək gərginlikli elektrik xətlərinin uzunluğu 1410 kilometrə çatmışdır.[19] DQMV-nin elektrik enerjisi ilə təminatında Sərsəng Su Elektrik Stansiyası mühüm rol oynamışdır. Azərbaycan hökumətinin dərin qayğısı nəticəsində DQMV üçtərəfli elektrik enerjisi ilə təchiz edilmişdir.

Respublikamızda üçtərəfli elektrik təchizatı yalnız DQMV-nə nəsib olmuşdur. 1986-1988-ci illərdə Dağlıq Qarabağda elektrik enerjisi istehsalı 2,4 dəfə artdı. 1970-ci illə müqayisədə isə bu artım 9 dəfəyə bərabər idi. Belə ki, 1970-ci ildə 1,6milyon klovat saat elektrik enerjisi istehsal olunmuşdursa, 1986-cı ildə 57,8 milyon klovat saata, 1988-ci ildə isə artaraq 140,8 milyon klovat saata çatmışdır.[20] Bəhs etdiyimiz dövrdə, Respublikamızda 23,2 mlyard klovat saat, Naxçıvan MR-da 124,1 milyon klovat saat elektrik enerjisi istehsal olunurdu.[21] Adambaşına düşən elektrik enerjisinin həcminə gəldikdə isə DQMV ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Vilayətdə adambaşına düşən elektrik enerjisi ümumrespublika səviyyəsindən 2,5 dəfə, Naxçıvan MR ilə müqayisədə isə təxminən 2 dəfə çox olmuşdur. Əlbəttə, bu faktın özü tariximizi saxtalaşdıran erməni millətçilərinə tutarlı cavabdır. Çox təəssüflə qeyd etməliyik ki, DQMV-də sənaye müəssisələrinin əsas hissəsi Xankəndi şəhərində və ermənəilərin daha çox cəmləşdiyi ərazilərdə yerləşdirilmişdir. Dağlıq Qarabağın erməni rəhbərliyi «Sənaye müəssisələri və onların filiallarının yerləşdirilməsi səlahiyyətləri»ndən istifadə edərək bölgədə qədimdən yaşayan Azərbaycanlıların yaşayış məntəqələrində sənaye və onun infrastrukturu inkişaf etdirilmədi. Erməni rəhbərliyinin məqsədi süni surətdə işsizlik problemi yaradıb azərbaycanlıların bölgədən çıxarılmasına nail olmaq idi.

1988-ci ilin əvvəllərində Azərbaycan SSR-in DQMV ərazisində «antitürk mitinq», yürüş və nümayişlərin keçirilməsi, «Qarabağ» Komitəsinin uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilatı «Krunk» adı altında açıq fəal mübarizəyə başlaması,[22] «Miatsun» (birləşmə) hərəkatının genişlənməsi, Vilayət Sovetinin sessiyasında «DQMV-nin Azərbaycan SSR-nin tərkibindən çıxarılıb, Ermənistan SSR-in tərkibinə verilməsi haqqında» qərar qəbul etməsi, Vilayətdə erməni fitnəkarlığının genişlənməsi sənayedə çox ağır və böhranlı vəziyyət yaratdı.[23] Dağlıq Qarabağın erməni rəhbərləri tərəfindən Vilaytədəki sənaye müəssisələri əmlakının dağıdılması, rüşvətxorluq və korrupsiya əməllərinin getdikcə daha açıq şəkildə yer alması da iqtisadiyyatın geriləməsi prosesini gücləndirdi.



Dağlıq Qarabağın münbit torpaqlara, əlverişli iqlim şəraitinə və su ehtiyatlarına malik olması kənd təsərrüfatı məhsullarının inkişaf etdirilməsinə və yüksək məhsul əldə edilməsinə geniş imkanlar yaratmışdır. DQMV ərazisində taxılçılıq, üzümçülük, heyvandarlıq sahələrinin inkişafı aparıcı sahələr olmuşdur. Vilayətdə istehsal olunan məhsulların 57 faizi bitkiçiliyin, 43 faizi heyvandarlığın payına düşürdü.[24] Azərbaycan əhalisinin cəmi 2 faizinin yaşadığı DQMV Respublikamızın ümumi kənd təsərrüfatı məhsullarımn təqribən 5 faizini istehsaledirdi. Vilayətin Aqrosənaye Kompleksinin maddi-texniki bazasımüntəzəm olaraq Azərbaycan hökuməti tərəfindən təzələnmiş və möhkəmlənmişdir. DQMV-də əməyin fond təchizatının səviyyəsi əvvəlki illərdə olduğu kimi 1987-ci ildə də orta respublika göstəricilərindən 1,6 dəfə yüksək olmuşdur.[25]

Qeyd edək ki, 1986-cı ildə DQMV-də 33 kolxoz, 40 sovxoz, 7 təsərrüfatlar arası müəssisə var idi. 1988-ci ildə kolxozların sayı 49-a, sovxozların sayı 43-ə çatdı və təsərrüfatlararası müəssisələrin sayı dəyişməz qaldı. 1986-1988-ci illərdə DQMV-də əkin sahələri 20,4 min hektar artdı.[26] Bəhs etdiyimiz illərdə, Vilayətdə əkilən kənd təsərrüfatı bitkilərinin bəzilərinin artması, digərlərinin azalması halları müşahidə edilmişdir ki, bunu aşağıdakı cədvəldən də izləmək olar (min hektarla).[26]

| Məhsulun növü | 1985 | 1986 | 1987 | 1988 |
|---|---|---|---|---|
| Ümumi əkin sahəsi | 66,3 | 57,1 | 60,5 | 77,5 |
| Taxıl əkini | 32,1 | 20,9 | 22,7 | 39,6 |
| Texniki bitkilər | 0,5 | 0,5 | 0,4 | 0,2 |
| Kartof və tərəvəz | 1,9 | 1,9 | 2,0 | 2,1 |
| Yem bitkiləri | 31,8 | 33,8 | 35,4 | 35,6 |
| Dincə qoyulan torpaqlar | 1,8 | 4,7 | 5,9 | - |

Cədvəldən göründüyü kimi, taxıl, kartof, tərəvəz və yem bitkilərinin əkini artmış, texniki bitkilərinin əkin sahəsi isə 0,3 min hektar azalmışdır.[27] Bundan

əlavə, DQMV-nin kənd təsərrüfatında əsas aparıcı sahələrdən olan üzüm və meyvə-tərəvəz bağları da var idi. Ərazidə istehsal olunan ümumi kənd təsərrüfatı məhsullarının 26 faizi üzümçülüyün, 12 faizi meyvə və tərəvəzçiliyin payına düşürdü.[28] 1986-1988-ci illərdə DQMV-də meyvə bağlarının sahəsi 338 hektarartmışdı. Belə ki, 1985-ci ildə meyvə bağlarının sahəsi 2849 hektar idisə, 1986-cı ildə 3002 hektara, 1988-ci ildə isə 3187 hektara çatmışdı. Həmin bağların 1769 hektarı kolxoz, sovxozların, 1418 hektarı şəxsi həyətyanı təsərrüfatların payına düşürdü.[29] Yuxarıda qeyd etdiyimiz kimi, DQMV-də kənd təsərrüfatının əsas aparıcı sahələrindən olan üzümçülük 1986-cı ildən ləğv edilməyə başlandı. Bir tərəfdən mərkəzin «alkoqolizmə qarşı mübarizə» siyasəti bu işdə mühüm rol oynayırdısa, ikinci bir tərəfdən həmin sahəyə baxımsızlıq yaranmışdı.[30] Dağlıq Qarabağda 1985-1988-ci illərdə üzüm bağları 17,8 min hektardan 11,4 min hektara enmişdi. 1988-ci ildə şəxsi həyətyanı təsərrüfatlarda 0,2 min hektar üzüm bağı var idi. Üzümlüklərin 8,2 min hektarı bar verirdi. Üzüm bağlarının azalması məhsul istehsalına da mənfi təsir etdi. Bağlardan 1985-ci ildə 137,2 min ton üzüm yığılmışdırsa, 1988-ci ildə azalaraq 75,9 min tona enmişdir. Faiz hesabı ilə götürüldükdə üzüm istehsalı 45 faiz azalmışdı. Bu hal məhsuldarlıqda da özünü göstərdi. Belə ki, 1985-ci ildə hər hektardan 97 sentiner məhsul götürülmüşdürsə, 1988-ci ildə 89,9 sentinerə enmişdir. Bəhs etdiyimiz dövrdə, şəxsi təsərrüfatlardan 4,1 min ton üzüm yığılmışdır. Şəxsi təsərrüfatlardakı məhsuldarlıq hər hektardan 240,1 sentinerə bərabər idi.[31]

1986-1988-ci illərdə Dağlıq Qarabağın meyvə bağlarından yığılanməhsul çox da böyük fərq etməmişdir. 1985-ci ildə 5,6 min ton, 1988-ci ildə isə 6,1 min ton meyvə yığılmışdır. Hər hektardan götürülən məhsuldarlıq isə 24,1 sentinerdən 25,4 sentinerə qalxmışdır.[32] Bəhs etdiyimiz illərdə, DQMV-nin bütün kateqoriyalardan olan təsərrüfatlarından dövlətə təhvil verilən kənd təsərrüfatı məhsullarının həcmi haqqında məlumatı aşağıdakı cədvəldən izləmək olar (min tonla):[33]

| İllər | Taxıl | Tütün | Kartof | Tərəvəz |
|---|---|---|---|---|
| 1985 | 68,2 | 0,4 | 9,1 | 10,3 |
| 1986 | 44,9 | 0,3 | 9,9 | 11,0 |
| 1987 | 48,3 | 0,4 | 9,5 | 11,2 |
| 1988 | 104,4 | 0,3 | 10,9 | 10,9 |



Hər hektardan götürülən məhsuldarlıqda isə cüzi (1 sentnerdən 2 sentnerədək) artım müşahidə edilmişdir.

Heyvandarlıq DQMV-nin inkişaf etmiş, qədim təsərrüfat sahələrindəndir. Regionun təbii coğrafi mövqeyi, yay və qış otlaq sahələri heyvandarlığın inkişafına əlverişli şərait yaratmışdır. Kənd təsərrüfatının hevandarlıq sahəsini inkişaf etdirmək həmişə Azərbaycan hökumətinin diqqət mərkəzində olmuş, onun cins tərkibi yaxşılaşdırılmış, yem bazası möhkəmləndirilmiş, xəstəliklərə qarşı mübarizə tədbirləri gücləndirilmişdir. Bütün bunlara baxmayaraq, DQMV-nin təsərrüfatlarında 1986-cı il müstəsna olmaqla 1987-1989-cu illərdə heyvanların sayında azalma halı müşahidə edilmişdir. 1985-ci illə müqayisədə 1989-cu ildə iribuynuzlu mal-qaranın sayı 6 faiz, donuzların sayı 4 faiz, qoyun və keçilərin sayı 15 faiz azaldı.[34] 1985-1989-cu illərdə DQMV-nin bütün kateqoriyalarından olan təsərrüfatlarından heyvanların sayının necə azaldığını aşağıdakı cədvəldən də görmək olar (min başla):[35]

| ИЛЛЯР | İri buynuzlu mal-qara | Qoyun və keçilər | Donuzların sayı | Quşlar |
|---|---|---|---|---|
| 1985 | 98,4 | 288,0 | 94,5 | 286,5 |
| 1986 | 97,5 | 282,1 | 93,4 | 305,2 |
| 1987 | 98,9 | 275,2 | 94,3 | 263,9 |
| 1988 | 95,6 | 264,4 | 90,1 | 240,9 |
| 1989 | 90,2 | 225,8 | 81,4 | 217,9 |

1985-ci illə müqayisədə 1988-ci ildə DQMV-də heyvanların sayında olduğu kimi dövlətə heyvandarlıq məhsullarınm satışında da geriləmə halı müşahidə edilmişdir. Belə ki, həmin illərdə mal-qara və toyuq əti 11,5 min tondan 10 min tona, süd və süd məhsulları 31,1 min tondan 29,8 min tona, yumurta 11,2 milyon ədəddən 9,6 milyon ədədə, barama 146 tondan 89 tona enmişdir.[36] Bəhs etdiyimiz illərdə, yalnız yun istehsalında artım müşahidə edilmişdir (265 tondan 287 tonaqalxmışdır). 1985-ci ildə hər inəkdən il ərzində 2430 kloqram südsağılırdısa 1988 bu göstərici 2213 kloqrama enmişdi. Həmin illərdə hər qoyundan il ərzində yun qırxımı 2,9 kloqramdan 3,3 kloqrama qalxmışdır. Aparılan hesablamalara görə 1985-ci illə müqayisədə 1988-ci ildə dövlətə kənd təsərrüfatı məhsullarının satışı 93 faiz təşkil etmişdir.[37] Təbii ki, bu enmənin səbəbi Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, DQMV-də baş verən tətil, nümayiş və mitinqlərlə bağlı olmuşdur.

1988-ci ildə 1985-ci illə müqayisədə kənd təsərrüfatı təsərrüfatı məhsulları ilə təminatının heç də aşağı düşməsi demək deyildir. Yanvar 1988-ci il məlumatına görə DQMV əhalisinin kənd təsərrüfatı məhsulları ilə təminatı ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Belə ki, həmin ildə adambaşına düşən kənd təsərrüfatı mühsulunun həcmi ümumrespublika üzrə 588 manat, Azərbaycan SSR-in Naxçıvan MSSR-da 501 manat təşkil etmişdirsə respublikamızın Dağlıq Qarabağ regionunda 692 manata çatmışdır.[38] Yəqin ki, «əzabkeş» obrazı yaratmağa çalışan C.Xanzadyan, B.Ulubabyan, Z.Balayan, S.Kaptukyan və başqa erməni millətçiləri yuxarıdakı kiçik faktlardan «xəbərsizdilər», əgər xəbərləri olsaydı yəqin ki, tariximizi saxtalaşdırıb Dağlıq Qarabağda yaşayan ermənilərin «iqtisadi və sosial çətinliyindən» söz açıb ağız dolusu dünyaya səs salmazdılar.

Azərbaycan hökumətinin qayğısı nəticəsində DQMV inkişaf etmiş nəqliyyat təsərrüfatına malik olmuşdur. 1980-ci illərin ikinci yarısında Vilayətdə əhalinin avtomobilə olan tələbatı dövlətimiz tərəfindən tam ödənilmiş və hətta ümumrespublika səviyyəsində regionlar arasında birinci yerdə dayanmışdır. Məsələn, Vilayətdə avtomobil nəqliyyatı ilə yüklərin daşınması həcmi 1,2 dəfə,



sərnişinlərin avtobuslarla daşınması 0,4 dəfə, taksilərlə sərnişin daşıma 1,8 dəfə ümumrespublika səviyyəsindən yüksək olmuşdur. Bəhs etdiyimiz dövrdə avtobus marşurutlarının uzunluğuna görə DQMV-dəki göstəricilər ümumrespublika səviyyəsini 3,4 dəfə üstələmişdir.[39] Bundan əlavə, Vilayətin avtobus marşurutlarının sıxlığı orta respublika səviyyəsindən 2,6 dəfə çoxidi. Azərbaycan hökuməti bölgənin avtomobil nəqliyyatı müəssisələrinin maddi texniki bazasını möhkəmləndirmək üçün bütün imkanlardan istifadə etmişdir. Avtomobillərin ehtiyat hissələri, yanacaq, kadr ehtiyacları tam ödənilmiş və bölgədə yük avtomobilləri, avtobus, taksi parkları yaradılmışdır. Aparılan hesablamalara görə, 1988-ci ildə DQMV-də avtomobil parklarının ümumi sayı respublikamızdakı ümumi göstəricilərdən 1,9 dəfə artıq olmuşdur. DQMV-də nəqliyyat vasitələri dinamik inkişaf etmişdir. Vilayətin rayon mərkəzləri respublikamızın magistralları ilə təkmilləşdirilmiş örtüklü yollarla birləşdirilmişdir. Dağlıq Qarabağın kolxoz və sovxozlarını rayon mərkəzləri ilə birləşdirən bərk örtüklü avtomobil yolları vardır. 1986-1987-ci illərdə Ağdərə və Xocavənd avtomobil dəstələri yenidən quruldu, Xankəndi avtomobil yolları yenidən çəkildi və həmin yolların üzərindəki dəmir-beton körpülər yenidən inşa edildi. Ümumiyyətlə, DQMV-də ümumrespublika səviyyəsində avtomobil nəqliyyatının inkişafı birinci yerdə dayanmışdır. Təkcə bir faktı qeyd edək ki, Azərbaycanda orta hesabla hər min nəfər sakinə 17,5 avtomobil düşdüyü halda, Azərbaycanın DQMV-də bu göstərici 26,5-ə bərabər idi.[40] Bütün bunlarla yanaşı, bir acı həqiqəti xatırlamaq yerinə düşərdi ki, Dağlıq Qarabağın Azərbaycanlılar yaşayan kəndlərə, başqa sahələrdə olduğu kimi, nəqliyyat sahəsində də Vilayətin erməni rəhbərliyi tərəfindən ögey münasibət göstərilmişdir. Ermənilərin cəmləşdiyi kəndlərdən rayon mərkəzinə gündə 3 dəfə avtobus işlədiyi halda, Azərbaycanlıların yaşadığı kənədlərin heç birində bu cür təminat yox idi. Azərbaycanlılar yaşayan kənlərdəki yollar çox acınacaqlı vəziyyətdə idi. Hətta, çətin iqlim şəraitində bu yolları yalnız at və arabalardan istifadə etməklə qət etmək lazım gəlirdi.

Əsası ümummilli liderimiz H.Ə.Əliyev tərəfindən qoyulan Ağdam-Xankəndi dəmiryol nəqliyyatı güclü bazaya malik idi. Dəmiryol nəqliyyatının inkişaf səviyyəsi anbar təsərrüfatının fiziki imkanlarından 3 dəfə artıq gücə malikdir. Yəni, vaqanlar vasitəsilə burada daşınan yükləri 3 dəfə artırmaq olar. Ucuz və keyfiyyətli yük daşıma qabiliyyəftinə malik dəmiryol nəqliyyatı DQMV-nin iqtisadi həyatında mühüm rol oynamışdı. Çünki, bu yol Vilayətin sənaye müəssisələrinin kooperasiya əlaqələrinin formalaşması, kənd təsərrüfatı xammalının istehsalı və emalı üzrə regionlararası və regionlardaxili əlaqələrin daha da dərinləşdirilməsi işində prinsipal əhəmiyyət kəsb edirdi. 1988-ci il məlumatına görə Ağdam-Xankəndi dəmiryol nəqliyyatı vasitəsilə 181 min ton yük daşınmışdır ki, bunun 136 min tonu Vilayətə gətirilmiş, 45 min tonu isə oradan aparılmışdır. Eyni zamanda, həmin yol vasitəsilə vilayətin 68 min sərnişini yola salınmışdır.[41]

Dağlıq Qarabağda inkişaf etmiş nəqliyyat vasitələrindən biri də hava nəqliyyatı idi. Regionda təyyarələr vasitəsilə sərnişin daşımalarının həcmi ardıcıl olaraq artmışdır. Belə ki, 1985-ci ildə Vilayətdə hava nəqliyyatı vasitəsilə 9 min nəfər sərnişin daşınmışdırsa, 1987-ci ildə bu göstərici 10,2 min nəfərə çatmışdır.[42]

1986-1988-ci illərdə DQMV-də əhalinin maddi və mədəni həyat səviyyəsini yüksəldilməsində poçt, telefon, teleqraf, radionun rolu böyük olmuşdur. Dağlıq Qarabağda ermənilərin cəmləşdiyi bütün yaşayış məntəqələri rabitə vasitələri ilə təmin edilmişdir. Bəhs etdiyimiz illərdə, Dağlıq Qarabağda rabitənin inkişafına xüsusi diqqət yetirilmişdir. Bu sahəyə ayrılan vəsaitin həcmi ümumrespublika səviyyəsindən 2 dəfə yüksəkdə dayanmışdır. 1987-ci ilin məlumatına görə, DQMV-də adambaşına düşən rabitə məhsulun həcmi 29,5 manata çatmışdır, hansı Ki, bu göstərici ümumrespublika üzrə 21 manat idi. Bəhs etdiyimiz dövrdə, Vilayətdə əhalinin hər 100 nəfərinə 12,4 telefon düşürdü ki, respublikamız üzrə bu göstərici orta hesabla 7,9-a çatmışdı. Vilayətdə yaşayan ailələrin mənzil telefonları ilə təminatı 42,4 faiz olmuşdur. Bu rəqəm, Azərbaycan üzrə 31,1 faiz təşkil etmişdir. Dağlıq Qarabağın kəndlilərinin 35 faizi telefonlaşdırıldığı halda,



ümumrespublika üzrə bu rəqəm 17,8 faiz idi. DQMV-də şəhərlərarası telefon rabitəsinin də inkişafı ümumrespublika səviyyəsində birinciliyi saxlamışdır. Bəhs etdiyimiz dövrdə, adambaşına düşən şəhərlərarası telefon danışıqlarının sayı respublika üzrə 4,15 faiz, Azərbaycanın DQMV üzrə 7,69 faiz təşkil etmişdir.[43] Yuxarıdakı bütün yüksək göstəricilər dövlətimizin Dağlıq Qarabağ bölgəsinə göstərdiyi dərin qayğının nəticəsində əldə edilmişdir.

Azərbaycan SSR-in DQMV-də məhsuldar qüvvələrin inkişafında qazandığı nailiyyətlər onun iqtisadi əlaqələrinin təkmilləşməsinə kömək etmişdir. 1987-ci ildə vilaytətin regionlararası iqtisadi əlaqələrinin ümumi dövriyyəsi təxminən 260 milyon manata çatmışdır. Bundan 150 milyon manatlığı ixrac olunurdu. Vilayətdən aparılan sənaye və kənd təsərrüfatı məhsullarının 50 milyon manatlığı Azərbaycanın iqtisadi rayonlarına, 100 milyon manatlığı ilə SSRİ məkanındakı ittifaq respublikalarına göndərilirdi. Onu da qeyd edək ki, Dağlıq Qarabağda istehsal olunan sənaye və kənd təsərrüfatı məhsulları yerli tələbatı ödədikdən sonra, artıq məhsul ixrac edilmişdir. DQMV-də əhalinin illik iqtisadi tələbatı 275 milyon manat təşkil edirdi ki, bunun 110 milyon manatı idxal məhsullarına əsaslanırdı. Maraqlı cəhət ondan ibarətdir ki, erməni millətçiləri Dağlıq Qarabağ iqtisadiyyatını Ermənistanla bağlayaraq bütün dünyada bu fikri formalaşdırmışlar. Halbuki konkret faktlara, Azərbaycanın regionları arasında təsərrüfat əlaqələrini xarakterizə edən materiallara, sahələrarası balansa istinad edərək bu fikirin ağ yalan olduğunu görürük. Tam məsuliyyət hissi ilə deyə bilərik ki, DQMV-nin iqtisadiyyatı Azərbaycan xalq təsərrüfatı kompleksinin üzvi hissəsi olub, əməyin respublikadaxili bölgüsündə fəal iştirak edir və onun sabit fəaliyyəti respublikamızın əlaqələri vasitəsilə aparılırdı. Ermənistandan DQMV-nə yalnız 1,5 milyon manata yaxın dəyərində (gətirilən ümumi məhsulun 1,4 faizi həcmində) məhsul daxil olurdu. Ermənistandan daxil olan məhsullar sırasına dəri ayaqqabı, meyvə-tərəvəz konservləri, dəri-xırdavat məmulatları, tikiş və trikotaj məmulatları təşkil edirdi. DQMV sosial-iqtisadi cəhətdən Azərbaycanın ən yüksək inkişaf etmiş regionlarından biridir. Azərbaycan hökumətinin dərin qayğısı nəticəsində

Vilayətdə, torpaq, yeraltı sərvətlər, meşələr nəzərə alınmadan 2,5 milyard qiyməti olan milli sərvət yaradılmışdır ki, bu sahədə bölgədə adambaşına düşən göstərici orta respublika səviyyəsindən 1,3 dəfə çoxdur.[44] Dövlətimiz DQMV-də sənayenin, kənd təsərrüfatının, sosial -infrastrukturanın inkişafı üçün nəhəng tədbirlər həyata keçirmiş, nəticədə burada yaşayan əhalinin həyat səviyyəsi xeyli yüksəlmişdir. Dağlıq Qarabağ əhalisinin güzaranı adambaşına düşən bir çox göstəricilərə görə ümumrespublika səviyyəsini xeyli üstələmişdir. Dağlıq Qarabağ əhalisinin ehtiyaclarına Azərbaycan hökuməti tərəfindən daim diqqət yetirilməsi, onun məhsuldar qüvvələrinin respublika xalq təsərrüfatı kompleksi ilə üzvi şəkildə inkişafı Vilayətdə sosial- iqtisadi inkişafa çox böyük təsir göstərmişdir. Azərbaycan hökuməti Vilayətə təkcə vəsait ayırmaqla kifayətlənməyib, yanacaq, enerji, neft məhsulları və digər tələb olunan məhsul, texnika və avadanlıqlarla təmin edirdi. DQMV-nin iqtisadi inkişafında və əlaqələrində digər respublikalara nisbətən RSFSR, Ukrayna, Latviya, Estoniyanın rolu daha böyük olmuşdur. Ümumiyyətlə, Vilayətin iqtisadi əlaqələrinin ümumi dövriyyəsində Azərbaycan regionlarının xüsusi çəkisi 90 faiz, Ermənistanınkı 1,4 faiz, digər ittifaq respublikalarınınkı 8,6 faiz təşkil etmişdir.[45] Bu faktın özü akademik A.Aqambekyan və digər erməni millətçilərinin «Dağlıq Qarabağ iqtisadiyyatının Ermənistandan asılılığı» tezisinin tamamilə yanlış olduğunu əyani şəkildə sübut edir.

DQMV-nin iqtisadi əlaqələri intensiv inkişaf edirdi. Dağlıq Qarabağda istehsal olunan məhsulların yarıdan çoxu onun hüdudlarından kənara aparılır və əhalinin tam tələbatını ödəmək üçün 40 faiz məhsul idxal olunurdu. Dağlıq Qarabağın iqtisadiyyatının formalaşmasında Azərbaycanın regionları daha böyük rol oynayırdı. Ağdam, Tərtər, Ağcabədi, Fizuli, Cəbrayıl, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan rayonları ilə DQMV bütöv bir təbii-coğrafi region, kompleks ekaloji sistem, vahid çay şəbəkəsi, qarşılıqlı surətdə bağlı iqtisadiyyat, dəmiryol xətti, avtomobil yolları, qaz kəmərləri, elektrik ötürücü xətləri və başqa amillər əlaqələrin daha da dərinləşməsinə şərait yaratmışdır. Dağlıq Qarabağın və Azərbaycanın digər regionlarının iqtisadiyyatı bir-birini tamamlayır, onlar



arasında qarşılıqlı iqtisadi əlaqələrin güclənməsi isə obyektiv xarakter daşıyırdı. Təkcə bir faktı qeyd edək ki, Dağlıq Qarabağda fəaliyyət göstərən Qarabağ İpək kombinatı Şəki İpək İstehsalat birliyindən ipək çap alırdı. Həmin sapdan Qarabağ ipək kombinatında xam ipək parça hazırlanır və naxış vurulmaq üçün yenidən Şəkiyə göndərilirdi. Xankəndi ayaqqabı fabriki Bakı müəssisələrindən xammal alır, burada istehsal olunan hazır məhsul isə əsasən, Azərbaycanın hüdudları daxilində satılırdı. Bu cür qarşılıqlı əlaqələr Dağlıq Qarabağın digər müəssisələri üçün də səciyyəvi idi. Eyni zamanda, kənd təsərrüfatı xammalının istehsalı və emalı üzrə regionlararası və regionlardaxili əlaqələrin daha da dərinləşdirilməsi prinsipial əhəmiyyət kəsb edirdi.[46] Çox təəssüflə qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarına başlaması ilə DQMV-nin yüksək səviyyədə yaradılmış iqtisadi əlaqələri pozuldu. Bir həqiqəti vurğulamaq yerinə düşərdi ki, respublikamızın bütün regionlarının, o cümlədən, DQMV-nin inkişafının siyasi, iqtisadi, sosial, milli və digər məsələlərinin kompleks həlli milli dövlət quruculuğu prinsiplərinin toxunulmazlığının təmin edilməsindən, şovinist meyllərin və milli məhdudiyyətin aradan qaldırılmasmdan, işğal olunmuş torpaqlarımızın qeyri şərtsiz azad edilməsəindən, Azərbaycanda yaşayan bütün millətlərin və xalqların nümayəndələrinin əməkdaşlığının inkişaf etdirilməsindən asılıdır.

1986-1987-ci illərdə DQMV-nin iqtisadi inkişafı burada yaşayan əhalinin rifahının yaxşılaşmasına şərait yaratmışdır. 1986-1990-cı illəri əhatə edən 12-ci beşillik üçün sisial-iqtisadi inktşafa dair dövlət planına DQMV-nin inkişafının sürətləndirilməsi ilə əlaqədar kompleks məqsədli proqramlarla əmək ehtiyatlarından səmərəli istifadə edilməsinə uyğun olaraq məhsuldar qüvvələrin və əhalinin maddi rifahının yüksəldilməsi üçün konkret tədbirlər görülmüşdü. Həmin tədbirlərdən biri «DQMV-də məhsuldar qüvvələrin daha da inkişaf etdirilməsi tədbirləri haqqında» qərar layihəsinin hazırlanması idi. Azərbaycan hökuməti DQMV-də sosial-mədəni tədbirlərin həyata keçirilməsinə lazımi səviyyədə vəsait ayırmış və ildən-ilə onu artırmışdır. Məsələn, 1985-ci ildə Vilayətdə həmin büdcə vəsaitinin həcmi 28 milyon manat, 1986-cı ildə 34 milyon

manat, 1987-ci ildə 37,7 milyon manat təşkil etmişdirsə, 1988-ci ildə artaraq 40 milyon manata çatmışdır. Aparılan hesablamalara görə, artan vəsaitin həcmi ümumrespublika səviyyəsindən 2 dəfə çox olmuşdur. Azərbaycan hökumətinin qayğısı nəticəsində Dağlıq Qarabağ əhalisinin rifahı xeyli yaxşılaşmışdır. 1986-1987-ci illərdə DQMV-də əhalinin adambaşına düşən pul gəlirləri 1100 manatı keçmişdir ki, bu da ümumrespublika səviyyəsindən təxminən 100 manat, Naxçıvan MSSR-dan isə 170 manat çox idi.

Bəhs etdiyimiz illərdə, DQMV-də əhalinin məşğulluq səviyyəsi daha da inkişaf etmişdi. Burada yeni sənaye müəssisələrinin, onların filiallarının, sexlərin yaradılması əhalinin işlə təminatını yaxşılaşdırmışdır. Vilayətdə əhalinin 95 min nəfəri işlə təmin olunmuşdur ki, bu da Azərbaycanın iri sənaye regionları olan Bakı və Sumqayıtdan sonrakı yeri tuturdu.[47]

DQMV-də əhalinin bazara olan tələbatı tam ödənilirdi. Aparılan tədqiqatlara görə müəyyən olunur ki, istər ticarət müəssisələrinin sayına, istər ticarət dövriyyəsinin həcminə, istərsə də əhaliyə düşən mağazaların sayına görə DQMV ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Məsələn, 1987-ci ildə DQMV-də pərakəndə mal dövriyyəsinin həcmi 1960-cı illə müqayisədə 5,1 dəfə artmışdır. Ümumrespublika səviyyəsində bu artım 4,6 dəfəyə bərabər idi. 1987-ci ildə adambaşına düşən pərakəndə ticarət dövriyyəsinin həcmi DQMV-də 683 manat idisə, Naxçıvan MSSR-da 516 manata çatırdı. 1960-cı illə müqayisədə 1987-ci ildə adambaşına düşən mal dövriyyəsinin inkişaf sürəti DQMV-də 3,7 dəfə, ümumrespublika üzrə 2,7 dəfə artmışdır. Bəhs etdiyimiz dövrdə, DQMV-də pərakəndə ticarət müəssisələrinin sayı xeyli artmışdır. 1987-ci ildə respublikamızda hər 10 min nəfərə 28 ticarət müəssisəsi düşürdü, Azərbaycanın Naxçıvan bölgəsində bu göstərici 25-ə, DQMV-də isə 40-a çatırdı. Bundan əlavə, tədqiqatlar nəticəsində məlum olur ki, 1987-ci ildə 10 min nəfərə düşən mağazaların ticarət sahəsinin həcminə görə DQMV Azərbaycanda 1-ci yeri tutmuşdur. Belə ki, bəhs edilən ildə həmin göstərici respublika üzrə 1293 kv. km., Naxçıvan MSSR-da 1409 kv.km., DQMV-də 1932 kv. km. idi.[48] Bütün bunlar isə tariximizi saxtalaşdıran, DQMV-



də ermənilərin «çətin iqtisadi vəziyyətdə» yaşamasını bütün dünyaya bəyan edən erməni millətçilərinə (Z.Balayan, S.Xanzadyan, B.Ulubabyan, S.Kaptukiyan və başqalarına) tutarlı cavabdır.

1986-1987-ci illərdə Azərbaycan hökuməti DQMV-də əhalinin məişət xidmətinin yaxşılaşdırılması sahəsində mühüm tədbirlər həyata keçirdi. 1960-cı illə müqayisədə 1987-ci ildə bölgədə məişət xidməti emalatxanalarının sayı 17 dəfə artdı. Əhalinin sayına görə emalatxanaların miqdarı Dağlıq Qarabağ regionu Azərbaycanda birinci yerdə dayanırdı. Belə ki, 1987-ci ildə Azərbaycanda hər 10 min nəfərə 17 məişət xidməti emalatxanası düşürdüsə bu göstərici Naxçıvan MSSR-da 29-a, DQMV-də 25-ə çatırdı. Aparılan hesablamalara görə 1987-ci ildə Respublikamızda hər bir sakinə düşən məişət xidmətinin həcmi 30 manat təşkil edirdisə, Naxçıvan MSSR-da 22 manat, DQMV-də isə 41 manat idi.[49]

1986-1990-cı illərdə Azərbaycan dövləti DQMV-də mənzil tikintisinin inkişafı üçün konkret tədbirlər planı işləyib hazırlamışdı. Həmin illərdə Azərbaycanın 14 dağ rayonunun, o cümlədən, DQMV-nin Şuşa və Hadrud rayonlarında mənzil tikintisi üçün xüsusi proqram və əlavə vəsait ayrıldı. Həmin vaxt Vilayət Partiya Komitəsi Ağdərə rayonunu da bu plana daxil etmək niyyətinə düşsədə, rayonun sosial-iqtisadi inkişafındakı yüksək göstəricilər, Azərbaycan hökümətinin B.Geverkovun bu fikrini qəbul etməməsinə səbəb oldu. DQMV Azərbaycanın tikinti materialları ilə zəngin regionlarından biridir. Burada ağac emalı müəssisələri, daş karxanaları, dəmir beton zavodları, əhəng, kərpic, kirəmid müəssisələri, mərmər sexi və başqa tikinti materialları müəssisələri yaradılmışdı. Azərbaycan hökumətinin bölgəni lazımi avadanlıq və materiallarla təmin etməsi burada tikinti abadlıq işlərinin sürətlənməsinə səbəb olmuşdur. Həyata keçirilən tədbirlər nəticəsində bölgədə əhalinin mənzilə olan tələbatı demək olar ki, tam ödənilmiş və adambaşına düşən mənzil sahəsinə görə DQMV ümumrespublika səviyyəsini üstələmişdir. 1986-1987-ci illərdə DQMV-də mənzil tikintisi yüksələn xətlə xarakterizə olunmuşdur. Həmin illərdə, Dağlıq Qarabağda 123,9 min kvadrat metr mənzil sahəsi istifadəyə verilmişdir ki, bu

da 1984-1985-ci illə müqayisədə 1,5 dəfə artıq idi. 1987-ci il məlumatına görə Azərbaycanda hər bir sakinə 10,9 kv.m. mənzil sahəsi düşdüyü halda, respublikamızın Naxçıvan bölgəsində bu göstərici 9,5 kv. metrə, DQMV-də isə 14.6 kv. metrə çatırdı.[50]

Əvvəlki illərdə olduğu kimi, 1986-1987-ci illərdə də DQMV-nin abadlaşdırılması işi müvəffəqiyyətlə davam etdirilmişdir. Azərbaycan hökumətinin həyata keçirildiyi tədbirlər nəticəsində vilayətdə mənzillərin su, qaz, kanalizasiya xətləri ilə təminatı işi tam həyata keçirilmiş və hətta bu sahələrdə olan göstəricilər ümumrespublika səviyyəsini üstələmişdir. Dağlıq Qarabağda küçə sü xətləri şəbəkəsinin uzunluğu 203,2 kilometr, o cümlədən, Xankəndində 65,6 kilometr (32.2 faiz) təşkil edirdi. Əgər respublikamızın şəhər yerlərində şəxsi mülkiyyətdə olan mənzil fondlarının su kəməri ilə təchizatı 30,5 faiz təşkil edirdisə, Naxçıvan regionunda bu göstərici 7,4 faiz. Dağlıq Qarabağda isə 45,5 faiz idi.[51] Vilayətin mənzil fondu ilbəil abadlaşdırılırdı. Burada qazlaşdırma işi çox sürətlə davam etdirilirdi. 1970-1987-ci illər ərzində Dağlıq Qarabağda qazlaşdırılmış mənzillərin sayı 4,3 dəfə artmışdır. 1987-ci ildə DQMV-də şəhər, rayon, qəsəbələrdəki şəxsi mülkiyyətdə olan mənzillərin qazla təminatı 100 faiz yerinə yetirilmişdir. Halbuki, bu göstərici ümumrespublika səviyyəsində 96,2 faizə çatırdı. Faktlardan göründüyü kimi, DQMV mənzil tikintisi, abadlıq quraşdırma sahəsindəki göstəricilərə görə Azərbaycanın regionları arasında birinci yerdə dayanmışdır. Lakin aparılan təhlillər nəticəsində məlum olur ki, Dağlıq Qarabağda bu sahədə bəzi problemlər var idi. İlk növbədə, Dağlıq Qarabağın erməni rəhbərliyi Şuşa rayonu ərəazisində nəzərdə tutulan tikinti işlərini məqsədli şəkildə kəsrlə yerinə yetirmişdir. Hətta, 1987-ci ildəki məlumata görə, Vilayətdə fəaliyyət göstərən 23 podratçı təşkilatından 14-ü nəzərdə tutulmuş proqramın öhdəsindən gəlməmişdir. Eyni zamanda, erməni millətçiləri bölgədə süni sürətdə narazılıq yaratmaq üçün tikinti sahəsi üçün Azərbaycan hökuməti tərəfindən ayrılan vəsaitin xeyli hissəsini xərcləməmişdir. Xüsusi təssüf hissi ilə qeyd etməliyik ki, tikinti, abadlıq quraşdırma işləri ermənilərin daha çox cəmləşdiyi ərazilərdə



aparılırdı. 1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları yenidən baş qaldırmış və bu hadisə, başqa sahələrdə olduğu kimi, mənzil tikintisinə də öz mənfi təsirini göstərmişdir. 1987-ci ildə DQMV-də ümumi sahəsi 76 min kvadrat metr olan mənzil sahəsi istifadəyə verilmişdirsə 1988-ci ildə bu göstərici 28,4 min kvadrat metrə enmiş və 1989-cu ildə tamamilə dayandırılmışdır.[52]

1986-1987-ci illərdə, başqa sahələrdə olduğu kimi, Dağlıq Qarabağın mədəni və mənəvi həyatında da irəliləmələr olmuşdu. 1985-ci ildə DQMV-də məktəbəqədər uşaq müəssisələrinin sayı 85 idisə, 1986-cı ildə 97-yə, 1987-ci ildə 98-ə çatdı. Həmin müəssisələrdə tərbiyə olunan uşaqların sayı 1985-ci ildəki 7,3 min nəfərdən, 1988-ci ildə 8,3 min nəfərə yüksəldi. 1988-ci ilin məlumatına görə Azərbaycan əhalisinin 20 faizi məktəbəqədər uşaq müəssisələri ilə təmin olunmuşdur, bu göstərici Naxçıvan MSSR-da 12 faiz, DQMV-də 35 faiz təşkil etmişdir. Aparılan hesablamalara görə, 1988-ci ildə Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərin 12 faizi məktəbəqədər uşaq müəssisələri ilə təmin olunduğu halda, ermənilər yaşayan kəndlərdə bu rəqəm 35 faizə çatmışdır.[53]

1986-1988-ci illərdə DQMV-də 2 məktəb binası tikilib istifadəyə verilmişdi.[54] 1987-1988-ci illərdə Vilayətin şəhər və kəndlərində 207 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Həmin müktəblərdə 34,7 min şagird təhsil alırdı. 1985-ci illə müqayisədə 1988-ci ildə Dağlıq Qarabağın ümumtəhsil məktəblərində müəllimlərin sayı artaraq 3,9 mindən 4 minə çatdı.[55] Aparılan müqayisələr nəticəsində məlum olur ki, istər məktəblərə, istərsə də şagirdlərə düşən müəllimlərin sayı DQMV-də ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Məsələn, 1988-ci ildə Naxçıvan MSSR-da hər məktəbə orta hesabla 37 müəllim düşdüyü halda DQMV-də bu göstərici 52 idi. DQMV-də hər müəllimə 8,5 şagird, Naxçıvan MSSR-da 10 şagird düşürdü.[56]

1986-1988-ci illərdə DQMV-də peşə təhsili sistemində də irəliləyiş müşahidə edilmişdir. Dağlıq Qarabağın texniki peşə məktəblərində minlərlə şagird sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı, məişət xidməti və başqa sahələr

üzrə peşələrə yiyələnirdilər. 1988-ci ildə Dağlıq Qarabağda səhiyyə, mədəniyyət, maarif, təsərrüfat və başqa sahələr üzrə orta ixtisaslı kadrları hazırlayan 6 texnikum fəaliyyət göstərirdi ki, bu texnikumlarda hər il 2,3 min tələbə təhsil alırdı. 1987-ci ildə DQMV-də bir ali təhsil müəssisəsi – Xankəndi Pedaqoji İnstitutu fəaliyyət göstərirdi. İnstitutun müxtəlif şöbələrində, ayrı-ayrı ixtisaslar üzrə 2,2 min tələbə təhsil alırdı.[57] Xankəndi Pedaqoji İnstitutunun milliyətcə Azərbaycanlı olan müəllim və tələbələri 1988-ci il mayın 16-da Ermənistanın Azərbaycana qarşı başladığı əsassız ərazi iddiaları ilə Xankəndindən qovuldular. Azərbaycanlılardan ibarət pedaqoji kollektiv Şuşa şəhərində müvəqqəti sığınacaq tapdı. Lakin az sonra erməni lobbisinin antitürk, antiAzərbaycan siyasətinin təsiri ilə institutun Azərbaycan bölməsi Gəncəyə köçürüldü. SSRİ Nazirlər Sovetinin 14 oktyabr 1988-ci il tarixli 1208 saylı qərarı ilə Xankəndi Pedaqoji İnstitutu öz fəaliyyətini dayandırmışdır.[58] Lakin mərkəzdə yüksək vəzifə tutan ermənilərin himayəsi ilə institutun erməni şöbəsi bu qərarı tanımadı və fəaliyyətlərini Xankəndi İnstitutun binasında davam etdirdilər. İnstitutun azərbaycanlılardan ibarət kollektivi Azərbaycan SSR Nazirlər Sovetinin 22 fevral 1991-ci il sərəncamına əsasən Respublika Təhsil Nazirliyinin qərarı ilə Şuşada öz fəaliyyətlərini davam etdirdilər. 1992-ci il mayın 8-də erməni vandallarının Şuşanı işğal etməsilə N.Tusi adına ADPU-nin Şuşa filialı Ağcabədidə öz işini davam etdirdi.[59]

1986-1988-ci illərdə Azərbaycan hökumətinin dərin qayğısı nəticəsində DQMV-də mədəni-maarif müəssisələrinin maddi texniki bazası xeyli möhkəmlənmişdi. Belə ki, 1985-ci illə müqayisədə 1988-ci ildə Dağlıq Qarabağda kütləvi kitabxanaların sayı 231-dən 235-ə, oradakı kitabların sayı 1,6 milyon nüsxədən 1,8 milyon nüsxəyə, klublar 267-dən 272-yə, muzeylər 6-dan 7-yə, qəzetlərin tirajı 30 milyondan 36 milyona çatdı.[60] 1988-ci ildə Vilayətdə muzeylərə gələnlərin sayı 74 min nəfər, teatra baxanlar 80 min, kinoya baxanlar 1 milyon 222 min nəfər idi.[61] Aparılan araşdırmalardan məlum olur ki, əvvəlki dövrlərdə olduğu kimi, 1988-ci ildə də Dağlıq Qarabağda əhalinin mədəni-maarif müəssisələri ilə təminatı bütövlükdə keçmiş SSRİ məkanında,



ümumrespublika səviyyəsində, Ermənistanla müqayisədə birinci yerdə dayanmışdır. Məsələn, 10 min nəfərə düşən kütləvi kitabxanaların sayı keçmiş SSRİ-də 4,8, Ermənistan SSR-də 4,1, ümumrespublika üzrə 6 olduğu halda Azərbaycanın DQMV-də 13-ə çatırdı. 10 min nəfərə düşən klubların sayı SSRİ-də 5,4, Ermənistanda 3,8, Azərbaycan üzrə 5 idisə, Vilayətdə 15-ə çatmışdı. Bundan əlavə, əhalinin 10 min nəfərinə düşən kino qurğularının sayı Azərbaycanda 3, Ermənistanda 2,9, SSRİ-də 5,4 olduğu halda Dağlıq Qarabağda bu rəqəm 11,2 idi. Həmin ildə, Vilayətin yaşayış məntəqələrinin kütləvi kitabxanalarla təmin edilməsi 105,6 faiz olduğu halda, Azərbaycan üzrə bu göstərici 94,4 faiz təşkil etmişdir.[63] Yuxarıdakı statistik rəqəmlər erməni millətçilərinin bütün dünyaya yaydıqları «DQMV-də yaşayan əhalinin sosial-iqtisadi geriliyi» tezisinin tamamilə ağ yalan olduğunu göstərir. Lakin təssüflə qeyd edək ki, Dağlıq Qarabağın erməni rəhbərliyi Vilayətdəki Azərbaycanlı kəndlərinə ögey münasibət göstərmiş və həmin kəndlərin çoxunda bir dənə də olsun mədəni-maarif müəssisəsi tikilməmişdir. Az-çox mövcud olan klub və kitabxanalar lazımı avadanlıq və vəsaitlə təmin edilmir, baxımsızlıq ucbatından dağılırdı. Təkcə bir faktı qeyd edək ki, 1988-ci ildə azərbaycanlılar yaşayan kəndlərdə bədən tərbiyəsi və idman qurğuları ilə təminat 24 faiz təşkil etdiyi halda bu göstərici ermənilərin məskunlaşdığı kəndlərdə 48 faizə çatmışdır.[64]

Azərbaycan hökuməti, əvvəlki dövrlərdə olduğu kimi 1986-1988-ci illərdə də Dağlıq Qarabağ əhalisinin sağlamlığına dərin qayğı göstərmişdir. Azərbaycan hökuməti DQMV-də tibbi xidmət işini ilbəil yaxşılaşdırmış, əhalinin sağlamlığının mühavizəsinə sərf edilən vəsaiti çoxaltmış, müalicə profilaktika müəssisələrinin şəbəkəsini genişləndirmiş, həkimlərin və orta tibb işçilərinin sayını artırmışdır. Azərbaycan hökuməti, əvvəlki illərdə olduğu kimi, 1986-1988-ci illərdə də Vilayətin xəstəxanalarını hər cür avadanlıqlar və müasir tipli cihazlarla təchiz etmişdir. 1988-ci ildə Dağlıq Qarabağda 1865 çarpayısı olan 32 xəstəxana, 60 amblator-poliklinika müəssisələri, 182-i qadın məsləhətxanası fəaliyyət göstərirdi.[65] Tədqiq edilən dövrdə, əhalinin 10 min nəfərinə düşən xəstəxana çarpayılarının sayı Azərbaycanda 97,7, Ermənistanda 86,2, DQMV-də

101,7-yə çatırdı.[66] 1986-1988-ci illərdə DQMV-də həkimlərin və orta tibb işçilərinin sayında da artım müşahidə edilmişdir. Təkcə, orta tibb işçilərinin sayı 1985-ci illə müqayisədə 1988-ci ildə 2252-dən 2331-ə qalxmışdır. 1988-ci ildə Dağlıq Qarabağda müxtəlif ixtisaslı ali təhsilli 510 həkim işləyirdi.[67] DQMV-də əhalinin tibb işçiləri və həkimlərlə təminatı istər ittifaq miqyasında istərsədə ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Belə ki, aparılan araşdırmalardan məlum olmuşdur ki, əhalinin 10 min nəfərinin orta tibb heyəti ilə təminatı SSRİ-də 114,7, Azərbaycanda 93,5, Ermənistanda 93,5 nəfər olmuşdursa DQMV-də 122,7 nəfərə çatmışdır.[68] Bundan əlavə, əhalinin 10 min nəfər hesabı ilə bütün ixtisaslardan olan həkimlərlə təminat Naxçıvan MSSR 25,9 nəfər, DQMV-də 29,1 nəfər idi.[69]

DQMV özünün sağlamlıq ocaqları, istirahət evləri və səfalı yerləri ilə şöhrət qazanmışdır. Vilayətdə ümumittifaq əhəmiyyətli sanatoriya və istirahət müəssisələri, turist bazarı fəaliyyət göstərirdi.

Dağlıq Qarabağda yaşayan əhalinin sağlamlığına qayğı, onların maddi rifah halının yaxşılaşması, ölüm hallarınm azalmasına, əhalinin sayının artmasına səbəb olmuşdur. 1989-cu il əhalinin siyahıya alınma yekunlarına görə, DQMV-də 187,8 min nəfər əhali yaşayırdı ki, bunun 145,4 min nəfərini (77 faizini) ermənilər, 40,3 minini (21,5 faizi) azərbaycanlılar, qalanını isə qeyri millətlər təşkil etmişdir.[70] Həmin ildə, Dağlıq Qarabağda əhalinin 52 faizi şəhərdə 48 faizi kənddə yaşayırdı.[71] 1979-1989-cu illərdə Dağlıq Qarabağda əhalinin sayı 37 min nəfər artmışdı. 1979-cu illə müqayisədə 1989-cu ildə azərbaycanlıların xüsusi çəkisi 1,5 faiz azalmış, ermənilərin sayı 1,1 faiz artmışdır. Bəs necə olmuşdur ki, 1970-1979-cu ilərdə DQMV-də azərbaycanlılar 4,9 faiz artmış, ermənilər isə 4,7 fatz azaldığı halda, 1980-ci illərin əvvəllərindən əksinə olmuşdur? Bölgədə azərbaycanlıların xüsusi çəkisinin azalması səbəbləri araşdırılarkən məlum olur ki, 1980-1989-cu illərdə DQMV-nə gələn azərbaycanlılar (xüsusilə çoban və maldar ailələr) pasport qeydiyyatına alınmamış, alınanlar isə statistik uçotda göstərilməmişlər. Eyni zamanda, Vilayət Statistika İdarəsi məqsədilə şəkildə yuxarı təşkilatlara ermənilərin sayına dair



şişirdilmiş məlumatlar verirdilər. Dağlıq Qarabağdan köçüb gedən və ölən ermənilər qeydiyyatdan çıxarılmırdılar. Ermənistanda yaşayan ermənilər həm Ermənistan vətəndaşı, həm də DQMV-nin vətəndaşı kimi pasport qeydiyyatına götürülürdülər. Bütün bunlarla yanaşı, «Kurort şəhərini böyütməmək» adı altında Şuşada yeni yaşayış zonasının yaradılması Vilayət XDS-nin qərarı ilə qadaqan edilmişdi. DQMV ali hakimiyyət orqanları yuxarıda göstərdiyimiz halların aşkar olacağından ehtiyat edərək 1989-cu il siyahıyaalınması zamanı Moskvanın siyahıya alınma üzrə nümayəndəsini Vilayət ərazisinə buraxmamışlar.[72]

Bütün yuxarıdakı faktlarla yanaşı, Dağlıq Qarabağın millətçi rəhbərliyi məqsədli şəkildə azərbaycanlılar yaşayan kəndlərə ögeymünasibət göstərir, sənaye obyektləri filialları və mədəni məişət obyektləri tikilərkən erməni yaşayış məskənləri əsas obyektə çevrilirdi. azərbaycanlılar yaşayan kəndlərdəki bu və ya digər süni maneələr yaşayışı çətinləşdirir və onların öz dədə-baba yurdlarını tərk etməsinə gətirib çıxarırdı. Bütün bunlara baxmayaraq, 1970-ci illə müqayisədə 1989-cu iləd DQMV əhalisi içərisində azərbaycanlıların sayı müəyyən dərəcədə artmışdır. Bu azərbaycanlıların öz torpaqlarına bağlılığı və onların içərisində təbii artımın üstün olması ilə bağlı idi. Eyni zamanda, yuxarıdakı qərəzsiz elmi araşdırmalar, erməni millətçilərinin «Azərbaycanda ermənilərin sıxışdırılması» tezisinin tamamilə ağ yalan olduğunu və «sıxışdırılma» tezisinin Vilayətdə yaşayan Azərbaycanlılara aid edildiyini sübuta yetirir.

Beləliklə, 1986-1987-ci illərdə Azərbaycan hökumətinin DQMV-də həyata keçirdiyi kompleks tədbirlər nəticəsində, özülü 1970-1985-ci illərdə qurulan iqtisadi-sosial və mədəni həyat sahələri öz əvvəlki tempini qoruyub saxladı. Vilayətdə yaşayan əhalinin maddi rifahı yüksəlmiş və onların əmək və məişət şəraiti yaxşılaşmışdı. Lakin 1988-ci ilin qışından başlayaraq DQMV-də Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları qızışdırıldı. Erməni millətçilərinin təhriki ilə Dağlıq Qarabağda ermənilərin mitinq, nümayiş və küçə yürüşləri başlandı. Bütün bunlar isə iqtisadi və mədəni həyatda böhran yaranmasına gətirib çıxardı. Uzun illər ərzində Azərbaycanın böyük vəsaiti

hesabına yaradılmış sənaye obyektləri, mədəni-məişət müəssisələri erməni vandalları tərəfindən dağıdıldı. Sov. İKP MK və SSRİ Nazirlər Soveti guya DQMV-də iqtisadi və sosial vəziyyəti nizama salmaq üçün «1988-1995-ci illərdə Azərbaycan SSR-in DQMV-nin sosial-iqtisadi inkişafının sürətləndirmək tədbirləri haqqında» 24 mart 1988-ci il tarixli qərar qəbul etdi.[73] Əslində bu qərar ermənilərin separatçılıq əməllərini pərdələməyə yönəldilmişdi və həmin qərarla Mərkəz Dağlıq Qarabağı Azərbaycandan ayırmaq istiqamətində atdığı ilk əməli addım oldu. Adı gedən qərarla Moskva «bir gülləyə iki dovşan vurmaq» fikrində idi. Bir tərəfdən, mərkəz özünü elə göstərməyə çalışırdu ki, guya regionlarda baş verən hadisələr onları daha çox narahat edir və onun aradan qaldırılması üçün əlindən gələni əsirgəmir. İkinci bir tərəfdən isə, mərkəzdə əyləşən erməni millətçiləri bu qərarı qəbul etdirməklə bütün dünyaya sübut etmək istəyirdilər ki, Qarabağ ermənilərinin vəziyyəti o qədər ağırdır ki, sovet hökuməti belə bir xüsusi qərar qəbul edir. Lakin yuxarıdakı göstərdiyimiz faktlar, statistik rəqəmlər Dağlıq Qarabağda yaşayan ermənilərin soial- iqtisadi vəziyyətlərinin Azərbaycanın digər regionları ilə müqayisədə üstün olduğu faktlarla göstərilmişdir. Erməni millətçilərinin ortaya atdıqları «sosial-iqtisadi gerilik» konsepsiyası yalnız bəhanə idi.



# XVI FƏSİL

## DAĞLIQ QARABAĞDA ANTİAZƏRBAYCAN HƏRƏKATININ YENİDƏN GÜCLƏNMƏSİ (1988-CI İL).

«Yenidənqurma» və aşkarlıq imeriyanın süqutun daha da sürətləndirdi. SSRİ rəhbərliyi müxtəlif manevrlər etməklə labüd iflasın qarşısını almağa cəhd etdi. Moskva SSRİ-yə daxil olan respublikalarda mərkəzdən-qaçan qüvvələri zəiflətmək məqsədilə həmişə istifadə etdiyi «parçala və hököm sür» siyasətini yenidən işə saldı. Bölgələrdə milli münaqişələr qızışdırıldı və xalqlar arasında qanlı nifaq törədildi. Belə bir qaba siyasəti işlətməkdə mərkəzin ilkin məqsədi ölkə əhalisinin diqqətini vacib məsələlərdən yayındırmaq olmuşdur. Bəhs edilən dövrdə, SSRİ hökümətinə rəhbərlik edən Qorbaçovun pozucu addımlarından biri türk xalqlarına nifrəti qızışdırmaq, xristian-müsəlman qarşıdurması yaratmaq idi. Ümummilli liderimiz H.Ə.Əliyev qeyd edirdi ki, «SSRİ-də azərbaycanlılara, türklərə dördüncü, beşinci təbəqə kimi baxırdılar. Qorbaçovun ən qabarıq xüsusiyyəti müsəlman-türk dünyasına qarşı olan düşmənçiliyi idi. Müsəlmanlara, türklərə qarşı «əhalinin köçürülməsi» adlı plan hazırlanmış və həyata keçirilməyə başlanmışdır. Qorbaçov türkləri yaşadıqları ərazidən Qərbi Rusiyaya və başqa slavyan-xristian respublikalarına köçürməyi, onların torpaqlarına isə xristian əhalisini yerləşdirməyi planlaşdırmışdı»[1].

Bəhs etdiyimiz dövrdə, Azərbaycanda demokratik ideyalar yayılır və xalq hərəkatı genişlənirdi. Bu isə mərkəzin diqqətindən yayınmadı. Xalqımızın müstəqillik ideyaları Moskvanı daha çox narahat edirdi. Çünki, bu hal türk dünyasının birləşməsi və güclənməsi demək idi. Bu isə, Rusiyanın mənafeyinə uyğun deyildi. Eyni zamanda, Azərbaycanı itirmək Rusiya üçün bol-təbii sərvətlərdən məhrum olmaq demək idi. Bütün bunlarla yanaşı, Azərbaycan elə bir mühüm geosiyasi məkanda yerləşirdi ki, Azərbaycanı əldən vermək bütün Cənubi Qafqazdan məhrum olmaq demək idi. Ona görə də, Sovet İmperiyası Azərbaycanı zəiflədib, özündən asılı vəziyyətdə saxlamaq üçün Dağlıq Qarabağ

bölgəsində milli münaqişə ojağını yenidən alovlandırdı. Əvvəlki illərdə olduğu kimi, yenə də erməni millətçiləri rus şovinistlərinin silahına çevrildi.

Dağıdıcı milli münaqişələrdən qərb dövlətləri də faydalanmağa çalışırdılar. 80-ci illərin ikinci yarısında SSRİ-də «yenidənqurma» prosesinin tətbiqi ilə mərkəzdənqaçan qüvvələrin fəallaşması, imperiyanı dağatmağa çalışan dövlətlərin diqqətindən yayınmadı. Həmin dövlətlər «bəla imperiya»nı dağıtmaq üçün yaranmış vəziyyətdən məharətlə istifadə etdilər. 1987-ci il iyulun 18-də Avropa Parlamenti yalançı «erməni genosidi» faktını tanıdı və «genosid qurbanlarına» xatirə günü təsis etdi[2]. Bu hadisə erməni millətçilərinin fəallaşmasına təkan verdi. Xüsusi olaraq, SSRİ rəhbərliyində məsul vəzifələrdə çalışan erməni millətçiləri açıq çıxışları ilə «Dağlıq Qarabağ məsələsi»nə xüsusi dəstək verdilər. M.Qorbaçovun yaxın adamı və iqtisadi məsələlər üzrə müşaviri olan akademik A.Aqambekyan «Dağlıq Qarabağ məsələsi»nə müsbət münasibət bildirmiş və SSRİ rəhbərliyinin erməniləri dəstəklədiyini bütün dünyaya bəyan etmişdir. A.Aqambekyan Fransada «Humanite» qəzetinin 18 noyabr 1987-ci il tarixli sayında dərc olunmuş müsahibəsində Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğun olması, bölgə iqtisadiyyatının sırf ermənistanla bağlılığı və başqa cəfəng ideyalarla çıxış etmiş, bu barədə Qorbaçova təkliflər verdiyini bildirmişdir[3]. Aqambekyanın Parisdəki çıxışından məlum oldu ki, Dağlıq Qarabağı Ermənistanla birləşdirmək istiqamətində əməli addım atılmışdır. O öz çıxışında açıq bildirmişdi ki, «Dağlıq Qarabağ məsələsi» ilə bağlı mən öz təkliflərimi vermişəm və inanıram ki, bu problem yenidənqurma, demokratiya şəraitində öz həllini tapacaqdır[4].

Aqambekyanın Parisdəki çıxışı ilə əslində «Qarabağ hərəkatı»nın başlanmasına işarə və istiqamət verildi. Bunun üçün isə vaxt təsadüfü seçilməmişdir. Qarbaçovun dağıdıcı «yenidənqurma»sı başlamışdı. Mərkəzi hakimiyyətdə möhkəmlənmiş Şahnazarov, Aqambekyan, Brutens, Sitaryan və başqaları SSRİ rəhbərinin Azərbaycanın Dağlıq Qarabağa dair siyasətinə nəinki təsir edir, hətta bu siyasəti təyin edirdilər.



Bəhs etdiyimiz dövürdə, Moskvada fəaliyyət göstərən erməni icmaları konfederasiyasının İcraçı Katibi K.E.Mikelyan özünü «Nezavisimaya qazeta»dakı «Üzülmüş missiya» adlı məqaləsi ilə Azərbaycan xalqına qarşı cinayətkar mövqedən yanaşdığını bəyan etmişdir. Mikelyan çap olunmuş məqalədə göstərirdi ki, Dağlıq Qarabağ məsələsi köhnə, həll edilməmiş, mübahisəli ərazidir. Həmin ərazi güya vaxtilə bolşiviklər tərəfindən Azərbaycana «bağışlanmışdır». Əlbəttə, belə bir yalançı, cəfəng ideyanın nüfuzlu dövlət qəzetində çap olunması Azərbaycan xalqının milli hüquq və milli mənafelərinin tapdalanması demək idi. Eyni zamanda, Mikelyan öz xəyanətkar çıxışı ilə bütün dünyada Dağlıq Qarabağ haqqında ictimai rəy formalaşdırmaq niyyətində olmuşdur.[5]

Ümummilli liderimiz H.Ə.Əliyev 1986-1987-ci illərdə Mərkəzin Azərbaycana və azərbaycanlılara qarşı qərəzli mövqeyini bu cür qiymətləndirmişdi: «Azərbaycanlılar hələ 1988-ci illərdən əvvəl də, SSRİ-nin Mərkəzi Kütləvi İnformasiya vasitələrində və Ermənistanın müxtəlif mətbu orqanlarında məqsədyönlü şəkildə həyata keçirilən ideoloji təcavüzə məruz qalırdılar. «Mənfi Azərbaycanlı orbrazı» yaratmaq, həmin kompaniyanın əsas məqsədi idi»[6].

Avropa və Rusiya tərəfindən himayə olunduqlarını görən erməni millətçiləri «Böyük Ermənistan» dövləti yaratmaq üçün 80-ci illərdə yenidən fəallaşdılar. Onu da qeyd edək ki, 1985-ci ildə «Daşnak Partiyası»nın Afinada keçirilmiş 23 qrultayı erməniləri «Böyük Ermənistan» uğrunda mübarizəni yenidən genişləndirmək üçün yaranmış əlverişli şəraitdən səmərəli istifadə etməyə, qüvvələri birləşdirməyə çağırdı. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni milli separatçılıq təbliğatı geniş xarakter aldı. P.Qazaryan, Z.Balayan, S.Xanzadyan, B.Ulubabyan, S.Kaputukyan və başqa. erməni millətçilərinin Azərbaycan tarixini saxtalaşdıran azərbaycanlıları təhqir edən, qızışdırıcı mövqedən yazılan «əsərləri» Dağlıq Qarabağda yayılır və milli münaqişənin alovlanmasında mühüm rol oynayırdı[7]. «İki od arasında», «Qəza», «Ocaq» və başqa saxtalıqlarla dolu kitablar Dağlıq Qarabağda yaşayan

ermənilərin stolüstü kitabına çevrilmişdi. 80-ci illərin ortalarında mərkəzi və yerli mətbuat, 70-ci illərdə DQMV-nin iqtisadi və mədəni sahələrindəki inkişafı qərəzli, məqsədyönlü şəkildə riyakarcasına danır, güya DQMV-də yaşayan ermənilərin sosial-iqtisadi vəziyyətinin son dərəcə ağır olması, onların bölgədə sıxışdırılması haqqında yalançı, saxta mülahizələr təbliğ olunurdu. Erməni millətçiləri bütün dünyada belə bir fikir formalaşdırdılar ki, güya respublika rəhbərliyinin qərəzli siyasəti nəticəsində DQMV-nin iqtisadi inkişaf səviyyəsi bütün Azərbaycan üzrə olduğundan xeyli aşağıdır və bu fakt erməni əhalisinin narazılığına səbəb olmuş, onların səbir kasasını daşdırıb hadisələrin baş verməsinə şərait yaratmışdır. Halbuki, biz yuxarıda bütün deyilənlərin böhtan olduğunu çoxsaylı faktlarla göstərmişdik.

Bəhs etdiyimiz dövrdə, Moskvada yüksək dövlət vəzifəsində işləyən Heydər Əliyev «yenidənqurma»nın metodlarına, milli münaqişələrə səbəb ola biləcək dövlət siyasətinə, türk respublikalarına qarşı çevrilmiş qərəzli mövqeyə öz qəti və açıq etirazını bildirdi. Ümummilli liderimizin türk-müsəlman dünyasını dəstəkləməsi və eyni zamanda, Mərkəzdə getdikcə artan nüfuzu nə dövlət başçısı Qorbaçovun, nə də erməni millətçilərinin diqqətindən yayınmadı. H.Ə.Əliyevin Moskvada yüksək vəzifədə işləməsi erməni lobbisinin məkirli niyyətlərinin reallaşmasına maneə ola bilərdi. Ona görə də, 1987-ci ilin oktyabrında H.Əliyev Moskvada tutduğu vəzifədən uzaqlaşdırıldı. Hətta, mənfur siyasət sahibləri H.Əliyevin xalqın içərisində artan nüfuzundan və gələcək «işlərinə» maneə olacağından ehtiyatlanıb xalqın gözündən salmaq üçün böhtanlar atmağa başladılar. Ermənilərin diqtəsi və Qorbaçovun göstərişi ilə Sov.İKP MK katibi Bakıya göndərildi və Sovet rəhbərliyi adından Azərbaycan KP MK-nın ikinci katibi V.Konavalova tapşırdı ki, Heydər Əliyevin birinci katib işlədiyi bütün dövr ərzində onun fəaliyyətinin yoxlanılması üçün komissiya yaratsın[8]. Əsasən, erməni müstəntiqlərindən ibarət istintaq qrupu təşkil edildi və qərəzli istintaq işi başladı. Heydər Əliyev əleyhinə saxta ifadələr yığıldı. Etiraz edənlər işgəncələrə məruz qalır, mənəvi, psixoloji, fiziki təsir göstərilir və həbs edilirdi[9]. Beləliklə, Qorbaçov başda olmaqla erməni millətçiləri, qətiyyətli, millətinə, torpağına



bağlı olan uzaqgörən lideri hakimiyyətdən uzaqlaşdırıb ermənilərin Qarabağa gedən yolundakı bütün səddi aradan götürdülər.

1980-ci ilin ortalarından Azərbaycan torpaqları hesabına «Böyük Ermənistan» yaratmaq planını həyata keçirmək üçün başda Daşnaksütyun partiyası olmaqla, bütün millətçi erməni təşkilatları və komitələri fəaliyyətlərini genişləndirdilər. 1975-ci ildə Beyrutda yaranan ASALA (Ermənistanı azad etmək üçün gizli ordu») terrorçu təşkilatı 80-ci illərin ortalarında yüzlərlə türk vətəndaşını qətlə yetirdi[10]. Onlar əsas səfirlik nümayəndələrini və diplomatları öldürürdülər. Bundan əlavə, «Erməni inqilabı ordusu», «Erməni genosidinə görə ədalət komandası» və başqa erməni terrorçu təşkilatları da bu istiqamətdə fəaliyyət göstərirdilər[11]. Həmin terrorçu erməni təşkilatları açıq bəyan edirdilər ki, məqsədləri Türkiyəyə «erməni genosidi» faktını etiraf etdirmək, onun ərazisində erməni dövləti yaratmaq, bu dövləti Ermənistana birləşdirmək, həmçinin, buraya Naxçıvan, Axalkalaki və Dağlıq Qarabağı daxil etməkdir[12]. Bundan əlavə, SSRİ rəhbərliyində yüksək vəzifə tutan kommunist-daşnaklar Moskvada «Milli müqəddəratın müstəqil təyin edilməsi birliyi» və «siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi»nin fəaliyyət dairəsini genişləndirərək ictimai rəyi öz tərəflərinə çəkmək üçün əzabkeş obrazı yaratmaq, Azərbaycanın böyük gücünü parçalamaq məqsədilə təxribatlar törətmək və ermənilərin vahid mərkəzdə birliyinə nail olmaq, «Böyük Ermənistan» yaratmaq ideyasını ermənilərin şüuruna hopdurmaq kimi məkirli siyasət təbliğ edirdilər.

Dünyanın müxtəlif dövlətlərindəki erməni millətçi təşkilatlarının köməyi ilə DQMV-də uzun müddət gizli fəaliyyət göstərən «Krunk» (Durna) təşkilatı açıq fəal mübarizəyə başladı. Yeri gəlmişkən onuda qeyd edək ki, «Krunk» təşkilatı «Qarabağ» komitəsinin bir qolu idi. Həmin təşkilata Vilayət daş-mərmər kərxanalarına başçılıq edən və millətçi kimi tanınan A.Manuçarov rəhbərlik edirdi[13]. İlk yaranan vaxtlar güya Dağlıq Qarabağda «tarix və mədəniyyət abidələrinin qorunması» adı altında fəaliyyətə başlayan təşkilat əslində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi istiqamətində fərqli iş aparırdı. Hətta aparılan tədqiqatlar nəticəsində məlum olur ki, «Krunk» sözü rusca «Komitet

Revalyutsonoqo Upravleniya Naqornoqo Karabaxa» sözlərinin baş həriflərindən yaranmışdı və bu təşkilat yalnız DQVM-nın ermənilər yaşayan məntəqələrində fəal təbliğat aparmaqla kifayətlənmir, eyni zamanda, müharibənin aparılması üçün maddi vəsait toplayır, əhalini təlumatlandırır, silah alır, yerli erməni əhalisinə paylayır və başqa operativ qərarlar qəbul edirdi. Bütün bunlar, Azərbaycan rəhbərliyinə məlum olsa da, nə antiAzərbaycan təbliğatı aparan terrorçu Krunk təşkilatı, nə də ona rəhbərlik edən millətçi-daşnak A.Manuçarov haqqında heç bir ölçü götürmədi. Çünki onların rəsmi dairələrdə, başda Qorbaçov olmaqla Şahnazaryan, Aqanbekyan kimi müdafiəçiləri var idi[14].

1986-cı ildə Ermənistandan gizli ədəbiyyatlar, o cümlədən, Z.Balayanın «Ocaq» kitabı, S.Kapitulanın çıxışları S.Ayvazyanın tərtib etdiyi «Böyük Ermənistan xəritəsi» Xankəndinə gətirilərək yayılmağa başlandı. Yeri gəlmişkən, onu da qeyd edək ki, Ayvazyanın tərtib etdiyi «Böyük Ermənistan» xəritəsinin sərhədləri Aralıq, Xəzər və Qara dəniz sahillərini əhatə etməklə şimaldan Qafqaz dağlarını, cənubdan Türkiyə və İranın geniş sahələrini əhatə edirdi. Xəritədəki bütün adlar uydurma erməni adları ilə əvəzlənmişdir. İstər «Qarabağ Komitəsi», istərsə də «Kurnk» təşkilatı Ermənistandan və Dağlıq Qarabağdan, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi vacibliyini sübut etmək niyyətilə dünyanın 30-dan çox dövlətinə və beynəlxalq təşkilatlara 300 min erməninin imzası ilə müraciətlər göndərmişdir[15].

Aparılan araşdırmalardan məlum olur ki, qərəzli, qeyri obyektiv şəkildə yazılmış həmin ərizələrdən ərizə sahiblərinin özlərinin xəbəri yoxdur. Məsələn, 1986-cı ildə Sov.İKP MK-ya Dağlıq Qarabağda yaşayan 216 erməninin «yazdığı» ərizəni yerində araşdırmaq üçün Azərbaycana göndərilir. Məlum olur ki, 21 imza DQVM-də yaşayan adamlara məxsusdur. Eyni zamanda, zəmin 21 nəfərlə aparılan söhbət zamanı məlum olur ki, onların bu məktublardan qətiyyən xəbərləri yoxdur. Yerdə qalan 195 nəfər isə Vilayətin və respublikamızın hüdudlarını çoxdan tərk etmiş, yaxud vəfat etmişdilər. Məsələn, ərizədə Hadrud rayonunun Sakur kəndindən 16 imza göstərilirdi, halbuki 1986-cı ildə bu kənddə



cəmi 9 ev var idi. Həmin rayonun Arpagədik kəndində cəmi 3 ev olduğu halda, ərizəni həmin kənddən 25 sakin «imzalamışdı». Həm də, imzası olan şəxslərin heç biri bu kəndlərdə yaşamırdılar[16]. Artıq erməni təbliğat maşını işə düşmüşdü. 1987-ci ildə «Kurnk» təşkilatı ermənilərin daha çox cəmləşdikləri ərazilərdə vərəqlər yaymağa başladılar. Həmin ilin iyun-iyul aylarında Dağlıq Qarabağda ayrı-ayrı adamlarm adından Moskvaya ünvanlanan məktublar, kollektivlərdən imzalar toplanması halında təşkil edildi. Bununla da, Dağlıq Qarabağın erməniləri arasında Ermənistanla birləşmək uğrunda «Miatsum» (birləşmə) hərəkatı tam geniş xarakter aldı[17].

Beləliklə, bütün iyirminci yüzillik boyu davam edən, çirkin xislətli erməni siyasətinin azərbaycanlılara qarşı yeni mərhələsi — işğalçılıq, departasiya və tarixdə misli görünməmiş soyqırım mərhələsi, 80-ci illərin sonunda yenidən başladı. Dünya ictimaiyyətinə özlərini «əzabkeş xalq» kimi qələmə verən ermənilər azərbaycanlılara qarşı ən amansız, qəddar cinayətlər törətdilər. Minlərlə soydaşımız əsr və girov götürülmüş, itkin düşmüşdü. Azərbaycanın qədim yaşayış məskəni şəhər və kəndlər yerlə-yeksan edilmiş, maddi-mədaniyyət abidələri dağıdılmış, milli genefondumuzun məhv olunması istiqamətində cinayətlər törədilmişdi.

Yuxarıda qeyd etdiyimiz kimi, 1987-ci ilin noyabrında Parisdə Qorbaçovun əlaltılarından biri olan A.Aqambekyanın «Hümanite» qəzetinə verdiyi müsahibə Dağlıq Qarabağ hadisələrinin başlanmasına işarə idi. 1987- ci ilin sonlarında Ağdərə rayonunun Çardaxlı kəndində baş vermiş insident «qığılcımın alova» çevirməsinə şərait yaratdı[18]. Qarabağda hadisələr, 1988-ci ilin yanvarında heç bir səbəb olmadan Ağdərə rayonunun Sırxavənd kəndindən bir qrup azərbaycanlı gəncin rayon mərkəzində ermənilər tərəfindən döyülməsi ilə başlandı. Ermənilər açıq çəkildə elan etdilər ki, Ağdərə «erməni rayonu»dur, Siz azərbaycanlılar ərazini tərk etməlisiniz[19].

Milli ədavətin ilk qurbanları yenə də Ermənistanda yaşayan azərbaycanlılar oldu. Ermənistanda yaradılmış silahlı dəstələr azərbaycanliları dədə-baba yurdlarından zorla qovub çıxarmağa başladılar. 1988-ci il yanvarın 25-də Qafan

və Mehri rayonlarında ilk azərbaycanli qaçqınlar dəstəsi Azərbaycana pənah gətirdilər[20]. Fevralın 12-də Yeravanda böyük antitürk mitinqi keçirildi. Mitinqçilər, «Ermənistanı türklərdən təmizləməli», «Ermənistanda ermənilər yaşamalıdır» və başqa millətçi şüarlar səsləndirdilər[21]. Erməni vandalları Yerevanda qalmış axırıncı məscidi yandırdılar. Aşıq Ələskərin qəbri və Səməd Vurğunun abidəsi təhqir edilərək dağıdıldı. Vedibasarda vəziyyət son dərəcə gərgin idi. 1988-ci ilin əvvəllərində burada azərbaycanli kəndləri talan edildi. Qız-gəlinlər və ağsaqqallar təhqir olundu. Döyülərək alçaldılmış, təhqir edilmiş və heç bir yerdən kömək almayan 4 min nəfər Azərbaycanlı dədə-baba yurdlarını tərk edib, ev-eşiklərini və bütün əmlaklarını atıb, ayağyalın, başı açıq Azərbaycana gəlməyə məcbur oldular[22].

1988-ci il fevralın 13-də Xankəndində Vilayət partiya komitəsininbinası qarşısında ermənilərin ilk mitinqi başlandı. Mitinqə 400 adam çıxarılmışdı. «Kzunk» üzvləri qorxu və təlaş içərisində olan «Kurnk» üzvüləri mitinqçiləri dağılmağa qoymurdular. Burada «Kurnk»un sədri A.Manuçarov çıxış edib, Sovet hökuməti, onun başçısı Qorbaçovun ünvanına «demokratiya» dövrünü başladığı üçün xoş sözlər söylədi. Mitinqin sonunda partiya və komsomol biletləri cırılıb atıldı. Küçələrdə faşist nişanları nümaiş etdirildi[23]. İttifaq hökümətinin seyrçi mövqeyi hadisələrin dinamik inkişafına rəvac verdi. Azərbaycan KPMK-nın ikinci katibi V.Konavalov 18 fevral 1988-ci ildə Vilayət Partiya Komitəsinin Büro iclasını keçirdi. İclasda respublika təhlükəsizlik orqanlarının rəhbərləri, o cümlədən, Z.Yusifzadə iştirak edirdi. Z.Yusifzadənin təqdim etdiyi cinayət işinə əsasən, başda Poqosyan olmaqla 11 nəfər həbs edilməli idi. Lakin Qorbaçov bunun qəti əleyhinə getmişdir.

1988-ci il fevralın 19-da Xankəndində Vilayət Partiya Komitəsinin büro iclası keçirildi. Əvvəljədən hazırlanmış erməni məruzəçilər sosial-iqtisadi təzyiqlərə məruz qaldıqlarını bəyan etdilər. Halbuki, aparılan tədqiqatlardan məlum olur ki, Dağlıq Qarabağda təzyiqlərə məruz qalan azərbaycanlilardır. Təkcə Vilayət Aqrar Sənaye Komitəsinin fəhlə və qulluqçularının siyahısını nəzərdən keçirərkən məlum olur ki, Komitənin 100-dən artıq rəhbər işçiləri



arasında bir nəfər də olsun Azərbaycanlı yoxdur. Şəhər Kommunal təsərrüfat sistemində işləyənlərin isə (süpürgəçilər, konalizatorlar, fəhlələr) 75 faizi azərbaycanlilar olmuşdur. Eləcə də başqa sahələrdə də əsaslı fərqlər müşahidə edilmişdir. Bütün bunlara baxmayaraq, erməni büro üzvləri səs çoxluğu ilə qərara alırlar ki, Xankəndində mitiqlərin keçirilməsinə səbəb Azərbaycan rəhbərliyi tərəfindən DQMV-də yaradılan sosial-iqtisadi problemlərdir. Xankəndi şəhər Partiya Komitəsinin birinci katibi Z.Movsesiyanın təklifi ilə büronun qərarından çıxarış Moskvaya göndərilir və oradan nümayəndə heyəti çağırmağı qərara alırlar[24].

1988-ci ilin fevralında Ağdərə, Hadrud, Xojəvənd, Əsgəran Rayon Sovetlərinin sessiyaları keçirilmiş və DQMV-nin və Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə keçirməsini təklif edən qərarlar qəbul olundu[25]. Erməni separatçılarının tələbi ilə 1988-ci il fevralın 20-də Vilayət Sovetinin növbədənkənar sesiyası oldu. Həmin gün Xankəndində Vilayət Partiya Komitəsi binası qarşısında meydandakı 3 min ermənінin iştirakı ilə mitinq keçirildi. Bu zaman Vilayət Partiya Komitəsinə gələn Azərbaycan KP MK-nın birinci katibi K.Bağırov deputatlar qarşısında çıxış etmək fikrini bildirsədə ona söz vermədilər. Ermənilərin əvvəlcədən planlaşdırdıqlarına görə K.Bağırov mitinqçilərin qarşısına çıxılmalı və öyrədilmiş erməni qadınları ona zor tətbiq etməklə «Dağlıq Qarabağın Ermənistana birləşməsi» sənədinə qol çəkdirməli idilər. Belə bir bədnam niyyəti başa düşən K.Bağırovun köməkçisi Sahib Quliyev Azərbaycanın dövlət başçısını bəhanə ilə aradan çıxarır. Həmin sessiyadan Vilayətin Erməni deputatları «DQMV-ni Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi haqqında» qərar qəbul etdirlər[26]. Müvafiq «müraciətnamə» ilə birgə «qərar» Bakı, Yeravan və Moskva Ali Sovetinə göndərildi. Moskvaya göndərilən qərarda xaiş olunurdu ki, bu məsələni müsbət həll etsinlər[27]. Qərarın cavabını gözləmədən Vilayətdə bayraqlar, idarə və təşkilatların adları və sair dəyişdirildi. Moskvanın gözləmə mövqeyi tutması ermənilərin əl-qolunu daha da açdı.

1988-ci il fevralın 21-də Sov. İKP MK-nın Siyasi Bürosunda «Dağlıq Qarabağ hadisələrinə dair» müzakirələr aparıldı. Fevralın 23-də Sov. İKP MK-

nın katibi Q.P.Razumovski başda olmaqla, Demiçev, Bobrov, Mixaylov və digər ittifaq rəhbərləri Xankəndinə gəldilər. Burada DQMV Partiya Komitəsinin büro və plenum iclasları keçirilir. İclasda Vilayət komitəsinin birinci katibi B.S.Gevorkov vəzifəsindən azad edilir. Onun yerinə qatı millətçi, mitinqlərin təşkilatçısı, 1 milyon dövlət vəsaitini mənimsədiyi üçün haqqında cinayət işi qaldırılan Q.A.Poqosyan seçildi[28].

Azərbaycan Respublikasının suveren hüquqlarının tapdalanmasına Moskvanın, Azərbaycan rəhbərliyinin qəti tədbirlərlə cavab vermədiyini görən Azərbaycan xalqı böyük həyacan içərisində idi. Bəhs etdiyimiz dövrdə, Azərbaycanda kortəbii mitinqlər, etiraz nümayişləri keçirilirdi. Xüsusi olaraq münaqişə bölgəsində yaşayan azərbaycanlilar ermənilərin seperatçı hərəkatlarına qəti etiraz edirdilər. Hətta, fevralın 22-də rəsmi Bakının göstərişi ilə Aşağı Qarabağdan münaqişənin qarşısını almaq üçün Dağlıq Qarabağa yürüşə hazırlaşan əliyalın Azərbaycanlıların qarşısı alındı. Həmin gün Əsgəran rayonunda ermənilər tərəfindən 2 nəfər Azərbaycanlı öldürüldü, 19 nəfər isə yaralındı[29]. Bu hadisə vəziyyəti daha da gərginləşdirdi.

Əsgəranda ermənilərin törətdiyi faciə Moskvanın «diqqətin»dən yayınmadı. 1988-ci il fevralın 27-də Mərkəzi televiziya ilə çıxış edən SSRİ baş prokurorunun müavini A.Katuzev ölənlərin milliyyətini xüsusi vurğu ilə və dönə-dönə qeyd etdi. Onun bu hərəkəti heç də xalqımıza məhəbbətindən irəli gəlmirdi. Onun çıxışı yalnız qızışdırıcı xarakter daşıyırdı. SSRİ Təhlükəszlik orqanlarında çalışan şəxsin dilindən hadisələrin gərginləşdiyi bir vaxtda xüsusi intonasiya və «ürək ağrısı» ilə söylənən sözlər ara qızışdırmaqdan başqa bir şey deyildi. Bu «hadisə» ermənilərin yeni fitnələrinin başlanmasına bir işarə oldu.

1988-ci il fevralın 23-də işğalçı erməni separatçıları ilə, hüquqlarını müdafiə edən Azərbaycan xalqını eyniləşdirən Qorbaçov hər 2 xalqa müraciət qəbul etdi[30]. Müraciətdə, Sovet rəhbəri öz ermənipərəst mövqeynini bir daha nümayiş etdirmişdir. Belə ki, həmin müraciətdə göstərilirdi ki, «DQMV-də yığılıb qalan nöqsanlar və çətinliklər az deyildir və biz müxtəlif ideyaların və təkliflərin açıq müzakirələrindən boyun qaçırmağın tərəfdarı deyilik»[31]. Qorbaçovun Dağlıq



Qarabağ ermənilərinə bu cür mövqeyi onların sevincinə səbəb oldu və hadisələri daha da şiddətləndirdi.

1988-ci ildə «Dağlıq Qarabağ məsələsi» ilə bağlı SSRİ rəhbərliyinin ikili mövqeyini, zəngin düşüncəyə və dünyagörüşə malik H.Ə.Əliyev çıxışlarının birində belə qiymətləndirmişdi: «SSRİ rəhbərliyi qəbul etdiyi rəsmi sənədələrdə belə bir təsəvvür yaratmağa çalışır ki, o, regionda yaranmış vəziyyəti normallaşdırmaq üçün atdığı addımlarda həm Azərbaycana, həm də Ermənistana münasibətdə paralellik mövqedən çıxış edir. Halbuki, mərkəzin Azərbaycana, azərbaycanlilara qarşı qərəzli münasibəti açıq-aşkar göz qabağında idi... SSRİ-nin rəsmi dövlət orqanlırı, hüquq mühafizə orqanları və Kütləvi İinformasiya Vasitələri (KİV) Dağlıq Qarabağ probleminə olduqca böyük diqqət yetirdiyi halda, Azərbaycan xalqının böyük faciəsi tam sükutla müşahidə olunurdu»[32].

Dağlıq Qarabağda hakimiyyəti ələ keçirən qatı millətçi Q.A.Poqosyan tezliklə öz məsləkdaşlarını ətrafına birləşdirdi. Dağlıq Qarabağda terrorçuluqla və antiAzərbaycan təbliğatı ilə məşğul olan «Krunk»un sədri A.Manuçarova «yaxşı iş»inə görə Vilayət İcriyyə Komitəsinin sədri vəzifəsi «bağışlndı». 1988-ci il fevralın 25-də Vilayət Partiya Komitəsinin «yığıncağı» adı altında Q.Paqosyan «Krunk» təşkilatının bütün üzvlərinin iclasını keçirilib onları təlimatlandırdı. Həmin yığıncaqda Poqosyan fəxrlə elan etdi ki, vəzifəyə «seçildiyi» üçün Qorbaçov, Qazımovski, Şahnazarov və digər erməni millətçiləri zəng vuraraq onu təbrik etmişlər. Əlbəttə, bu təbriklərin arxasında Azərbaycan xalqının acı günləri dayanırdı. 1988-ci il fevralın 26-27-də Qorbaçovun xüsusi təlim keçmiş nümayəndələri Azərbaycana və Ermənistana göndərildi. Sov. İKP MK-nın katibi V.Dolgix Yerevan şəhərinə gələrək «Dağlıq Qarabağ məsələləri»nə baxılacağından danışır və onlara tutduqları yolda uğurlar diləyirdi[33].

MK-mn məsul işçisi erməni Brundes Bakıdakı çıxışında sərhədləri dəyişdirməyin yolverməzliyindən danışdı. Fevralın 27-də isə Xankəndinə gələn Brundes yalmz erməni liderləri ilə tam məxvi olan bir iclas keçirdi. Rundes onları tam təlimatlandırdı. O, Sov.İKP MK-da işləyən 17 erməninin salamını Vilayətin

liderlərinə çatdırırdı. Çox maraqlı faktlardan biri də ondan ibarətdir ki, Brundes bölgəni tərk etdikdən sonra, antiAzərbaycan mitinqləri təkcə Xankəndində deyil, bütün Dağlıq Qarabağın ermənilər yaşayan rayonlarını əhatə etdi[34]. 1988-ci ilin yanvar-fevral aylarındakı hadisələri dərindən təhlil edən xalqımızın ləyaqətli oğlu H.Əliyev həmin dövrü bu cür xarakterizə etmişdir: «1988-ci ildən başlayaraq hadisələri Azərbaycan xalqının iradəsi yox, erməni separatçıları idarə edirdilər. Erməni separatçıları monolit bir qüvvə olaraq, ümummilli bir platforma səviyyəsində düşünülmüş addımlar ataraq Dağlıq Qarabağı Azərbaycandan təcrid etmək yolunda hər gün yeni uğurlar qazanırdılar. Bunun müqabilində o dövürdə təssüf ki, heç bir qüvvə Azərbaycanda adekvat və konstruktiv addımlarını atmağa qadir olmadı. Faciənin köklərini məhz burada axtarmaq lazımdır»[35].

Bəhs etdiyimiz dövrdə Erməni daşnaqları Sumqayıt şəhərində azərbaycanlilara qarşı daha bir qanlı cinayət törətdilər. Dünya ictimayyətinin gözündə öz bədnam əməllərinə haqq qazandırmaq üçün ermənilər 1988-ci il fevralın 28-də milliyyətcə erməni olan, lakin özünü azərbaycanli kimi aparan Edik Qriqoryanın başçılığı altında növbəti iyrənc fitnəkarlığa əl atdılar. Ssenari məharətlə hazırlanmış və məkan da təsadüfi seçilməmişdir. Ermənistandan təhqir olunmuş və alçaldılmış şəkildə qovulan azərbaycanlıların ilk dəstəsi Sumqayıtda məskunlaşmışdı. Eyni zamanda, erməni cəlladlarının DQMV-də, həm də Ermənistanda həmvətənlərimizə qarşı törətdiyi vəhşiliklər Sumqayıtda azərbaycanlıların kortəbii çıxışlarına səbəb olmuşdu. Telekameralar əvvəlcədən planlaşdırılmış yerlərdə quçraşdırılmışdır. Məqsəd, törədiləcək fitnəkarlığı lentə almaq və «vəhşi» azərbaycanlı, «əzilən» erməni obrazı yaratmaqla dünyada xristian həmrəyliyinə nail olmağa, münaqmşələrin güya dini mahiyyət daşıdığını göstərmək idi. Ermənilərin törətdiyi bu faciə nəticəsində 26 erməni, 6 azərbaycanlı qətilə yetirildi. 200 mənzil qarət edilmiş, onlarca ictimai bina, avtobus, şəxsi maşınlar yandırılmışdı. Hadisələrdən bir gün sonra Sumqayıtda tərəfindən ermənilər çəkilmiş kinolentlər xarici ölkələrin televiziya kanallarında nümaiş etdirildi. Ermənilər öz istəklərinə nail oldular. Onlar bu faciəni ağlasığmaz



uydurmalarla bəzəyib beynəlxalq ictimaiyyətdə azərbaycanlı türklərinə qarşı mənfi fikir yarada bildilər. Bu hadisədən dərhal sonra Xankəndində «Sumqayıt qurbanlarının» xatirəsinə abidə ucaldıldı. Eyni zamanda, erməni millətçiləri Sumqayıt fitnəkarlığını ermənilərə qarşı «genosid» kimi qiymətləndirdilər. Sumqayıt hadisələrindən sonra qanlı antitürk hərəkatı daha da genişləndi. Ermənistanda, müasir silahlarla silahlanmış erməni dəstələri azərbaycanlilara qarşı soyqırım siyasəti həyata keçirməyə başladılar. Ermənistanda yaşayan azərbaycanlilardan 225 nəfəri öldürüldü. 1200 adam yaralandı, yüzlərlə azərbaycanlıya ağlasığmaz işgəncələr verilirdi, bədən əzaları kəsildi, gözləri çıxarıldı. Ermənistandakı 185 azərbaycanlı kəndindən 230 min azərbaycanlı öz dədə-baba yurdlarından qovuldu. 31 min ev, 165 kolxoz və kolxozların əmlakı talandı, çoxlu mal-qara erməni quldurları tərəfindən qarət edildi[38]. Beləliklə, azərbaycanlıların dədə-baba torpaqlarından kütləvi şəkildə qovulmasının sonuncu mərhələsi başa çatdı. Erməni vandalları tərəfindən törədilən cinayətlərin Moskvada və dünya ictimaiyyəti tərəfindən soyuqqanlılıqla qarşılanması Dağlıq Qarabağ ermənilərinə fürsət verdi. DQMV-da Ermənistana birləşmək hərəkatı yeni vüsət aldı.

1988-ci ilin martında Dağlıq Qarabağda hadisələr dahada gərginləşdi. Martın 6-da DQMV Partiya Komitəsinin büro iclası keçirildi. Həmin iclasda qəbul edilmiş qərar birbaşa Sov. İKP MK-ya göndərildi və təsdiq edilməsi xahiş olundu. Dağlıq Qarabağ millətçi ermənilərinin qəbul etdiyi qərarda göstəriliridi: «DQMV-nin adı dəyişdirilib Dağlıq Qarabağ Erməni Muxtar Vilayəti qoyulsun; Vilayətdə əsas dil erməni dili hesab edilsin; Kadrların seçilib yerləşdirilməsində Azərbaycan rəhbərliyi ilə məsləhətləşdirilməsin; Xankəndi tibb texnikumunun nəzdindəki Azərbaycan qrupu ləğv edilsin; Bütün kadrların təkmilləşdirilməsi yalnız Yeravanda aparılsın; Buraxılan məhsulların etiketlərindən Azərbaycan yazıları çıxarılsın; Azərbaycan tərəfindən aparılan hər hansı təftiş və nəzarət qadağan edilsin; Vilayətin yüksək rəhbər işçiləri Azərbaycan KP MK-nin nomenklaturasından çıxarılsın; Şuşadakı texnikumlar ləğv edilsin. Xankəndində flarmoniya yaradılsın; Xankəndi Pedaqoji İnstitutunu ləğv edib, onun əvəzində

Yerevan Kənd Təsərrüfatı İnstitutunun filialı açılsın; DQMV-dəki Azərbaycan kəndindlərinə erməni adları verilsin[39].

Çox təssüflə qeyd edək ki, Azərbaycan rəhbərliyi bu bədnam «qərar»dan xəbər tutsalar da heç bir əməli tədbir həyata keçirmədilər. Erməni millətçilərinin yazdıqları bütün müraciətlər isə lazımi ünvanlara vaxtında çatdırılırdı. Çünki onları dəstəkləyən 17 nəfər millətçi, Sov.İKP MK-da məsul vəzifələrdə işləyirdi. Hətta, SSRİ Nazirlər Soveti sədri vəzifəsində işləyən milliyyətçi Markaryans Qorbaçovun ən yaxın dostu idi.

1988-ci il martın 9-da Sov.İKP MK-da DQMV- ilə bağlı məsələ ətrafında müşavirə keçirildi. Müşavirədə Azərbaycan və Ermənistanın birinci katiblərinin məlumatları dinlənildi. Hər iki tərəfə vəziyyəti nizama salmaq üçün göstərişlər verilsə də, elə həmin gün Xankəndində erməni millətçilərinin böyük mitinqi keçirildi. Martın 10-da davam edən mitinq iştirakçıları Vilayət Partiya Komitəsində dörd maddədən ibarət tələb irəli sürdülər. Əslində bu tələbləri millətçi erməni rəhbərləri əvvəlcədən hazırlamışdılar. Həmin tələblər — bütün partiya sistemi liderlərinin millətçi liderlərlə əvəz etmək, ilin sonuna Azərbaycan KP MK-nın Vilayətdə keçirəcəyi konfransa imkan verməmək və Dağlıq Qarabağın Ermənistana birləşməsi məsələsini tezliklə Sov İKP-nin XIX konfransı qarşısında qaldırmaqdan ibarət idi[40].

Xarici dövlətlərdə yaşayan ERMƏNİ millətçiləri Dağlıq Qarabağda baş verən hadisələri vaxtaşırı izləyir, onları silah-sursat cəhətdən təmin edir və onalra həmişə mənəvi dəstək verirdilər. Xüsusi olaraq, Fransada və Amerikada fəaliyyət göstərən erməni lobbisi bu işdə daha fəal idilər. 1988-ci il martın 13-də Ali erməni kilsəsi rəhbərliyinin çağırışı ilə Nyu-Yorkda ermənilərin Dağlıq Qarabağ ermənilərini müdafiə edən mitinqinin keçirilməsi bir daha deyilənləri təsdiqləyir. Eyni zamanda, Rusiya, Amerika, Fransa KİV-də antiAzərbaycan təbliğatına daha geniş yer verilir, erməniləri müdafiə edən yazılar dərc olunurdu[41].

Sov. İKP MK Dağlıq Qarabağda vəziyyəti nizama salmaq üçün bölgəyə nümayəndə heyəti göndərdi. 11 nəfərdən ibarət komissiyaya Sov.İKP MK şöbə müdrinin müavini Selezkov rəhbərlik edirdi. 7 nəfər ittifaq nazirliklərinin



müavinləri də bu komissiyaya daxil idilər. Komissiyanın məqsədi çoxsaylı erməni ərizə və şikayətlərinə əsaslanaraq Vilayətdə yaşayan əhalinin sosial-iqtisadi vəziyyətlərini təhlil etmək idi. 1988-ci il martın 15-də yuxarıda adı gedən komissiya üzvlərinin Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini A.T.Rəsizadənin və digər rəhbər işçilərinin iştirakı ilə Vilayət Partiya Komitəsində geniş müşavirə keçirildi. Azərbaycan nümayəndə heyəti statistik rəqəmlərə, arxiv materiallarına və digər mənbələrə əsaslanaraq sübut etdilər ki, DQMV-də yaşayan ermənilərin sosial-iqtisadi vəziyyəti, istər Azərbaycanın digər regionları ilə, istər Ermənistanla müqayisədə, istərsə də İttifaq üzrə olan göstəricilərdən üstün olmuşdur. Erməni millətçilərinin ortaya atdıqları «sosial-iqtisadi gerilik» məsələsi bəhanədən başqa bir şey deyildi. Artıq, tutarlı faktlar qarşısında söz tapa bilməyən Dağlıq Qarabağ erməni büro üzvləri öz xislətli niyyətlərini gizlətmədilər. Onlar etiraf etdilər ki, bir millət kimi məqsədləri Ermənistanla birləşməkdən ibarətdir[42].

Dağlıq Qarabağın sosial-iqtisadi vəziyyəti ilə bağlı ittifaq səviyyəsində Bakıda keçirilmiş «dəyirmi masa»da da Azərbaycanın görkəmli akademiki Z.Səmədzadə və həmkarları mötəbər faktlarla sübut etmişdilər ki, Dağlıq Qarabağda yaşayan ermənilərin sosial-iqtisadi vəziyyətləri ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdı. Erməni millətçilərinin Azərbaycan rəhbərliyi tərəfindən «sıxışdırılırıq», «maddi durumumumuz son dərəcə ağırdı» və digər cəfəng fikirləri separatizmə haqq qazandırmaq üçün bəhanədir.

1988-ci il martın 17-də Qorbaçovun «xüsusi təlimatlandırılmış» nümayəndə heyəti Xankəndinə gəldilər. Bu zaman əvvəlcədən planlaşdırıldığı kimi 3 min nəfər ermənini Vilayət partiya komitəsi qarşısında mitinqə çıxarmışdılar. Bu dəfə Sov.İKP MK nümayəndə heyətinə MK partiya təşkilat şöbəsi müdrinin müavini Xarçenko başçılıq edirdi. Həmin gün İttifaq nümayəndələri, Azərbaycan KP MK katibi T.Orucov başda olmaqla Respublika nümayəndə heyəti, DQMV Partiya Komitəsi üzvləri ilə birlikdə Xankəndində plenum keçirdilər[43]. Sov.İKP nümayəndə heyətinin başçısı Xarçenko Qorbaçovun fikirlərini açıq elan edib plenum üzvlərinə çatdırdı ki, buraya

gəlməkdə məqsədimiz Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə razılıq əldə etməkdir. Bu məsələyə müsbət fikir bildirməmək, Qorbaçovun əleyhinə getmək kimi qiymətləndiriləcəkdir». Gərgin mübarizədən sonra «Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi» məsələsi səsə qoyuldu. Lakin Azərbaycan nümayəndə heyəti həmin məsələyə səs vermədiyindən Dağlıq Qarabağ məsələsi həll edilməmiş qaldı. Qorbaçovun öz fikirlərini əsabələri vasitəsilə açıq bildirməsi insanda yalnız təəssüf hissi doğurur. Dövlət başçısının bu cür ikili mövqeyi özünü SSRİ Dövlət Bankından gizli yolla Dağlıq Qarabağa erməni millətçilərinə milyon manatlarla nəğd pul verilməsində də göstərirdi[44]. Eyni zamanda, erməni seperatizminin genişləndiyi şəraitdə Sov.İKP MK və SSRİ Nazirlər Soveti «1988-1995-ci illərdə Azərbaycan SSR DQMV-nin sosial iqtisadi inkişafını gücləndirmək tədbirləri haqqında» qərarı Dağlıq Qarabağı Azərbaycandan alınmasında rəhbərliyin atdığı ilk əməli addım oldu[45]. Bu qərarla ittifaq rəhbərliyi bütün dünyaya sübüt etmək istəyirdi ki, Dağlıq Qarabağda əhalinin sosial-iqtisadi vəziyyəti çox acınacaqlıdır. Həmçinin, onları dəstəklədiyinə əyani sübutdur. Ümummilli liderimiz H.Əliyev Sov.İKP MK-nın adı gedən qərarına adı gedən qərarına obyektiv mövqedən yanaşaraq, bu cür qiymət vermişdir: «1988-ci ilin martında SSRİ rəhbərliyi DQMV-nin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında xüsusi bir qərar qəbul edərək, əslində Dağlıq Qarabağın Azərbaycan SSRİ-nin tabeliyindən çıxarılması tələbini qoydu. Heç bir obyektiv əsasa istinad etməyən qondarma səbəblərlə qəbul edilmiş bu qərarla Dağlıq Qarabağa müstəsna hüquqlar verildi, küllü miqdarda vəsait ayrıldı, Vilayətin bir çox məsələlərinin həlli birbaşa İttifaq nazirlik və qurumlarına həvalə edildi»[46].

1988-ci ilin martın 22-də 13 müttəfiq Respublikanın Ali Soveti Rəyasət Heyəti iclaslarında və martın 23-də SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında Dağlıq Qarabağ hadisələri ilə bağlı Azərbaycan və Ermənistana müraciətləri, vəziyyətdə heç bir dönüş yaratmadı[47]. Əksinə «Krunk» təşkilatının adı Xankəndi şəhər icrayyə komitəsinin 24 mart 1988-ci il qərarı ilə «Dağlıq Qarabağı Ermənistana Birləşdirici komitə» kimi təsdiq edildi. Aprelin 24-də isə Xankəndi



şəhər icrayə komitəsinin qərarı ilə, ilk dəfə olaraq 1915-ci il erməni «genosidinin» anma mərasimi keçirildi. Mərasimdə Vilayətin bütün erməni rəhbərləri və doqquz minədək erməni iştirak edirdi. Erməni millətçiləri qərara aldılar ki, həmin gün Xankəndindəki erməni abidəsi qarşısında «təntənəli olaraq» iki azərbaycanli qurban kəsilsin. Lakin general V.N.Safanov bu məsələdən xəbər tutmuş və ermənilərin bu çirkin əməllərinin qarşısını almışdır[48]. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 24 mart 1988-ci il qərarı ilə «Kurnk» təşkilatı xalqlar arasında nifaq saldığı üçün rəsmən qadağan edildi. Yuxarıda qeyd etdiyimiz kimi, həmin təşkilat, indi başqa ad altında öz fəaliyyətini daha da genişləndirdi[49].

1988-ci il martın axırlarında Qorbaçov Azərbaycan və Ermənistan nümayəndə heyətini Moskvaya dialoqa çağırır. Lakin çox təssüflər olsun ki, dövlət başçısı burada da, öz ikili mövqeyini nümayiş etdirdi. Görüş birtərəfli yaydada keçirildi. Erməni nümayəndə heyətini qəbul edib, onların əvvəlcədən hazırladığı saxta sənədlərlə tanış olan Qorbaçov erməni ideoloqları tərəfindən inandırıldı ki, islamı xristianlıq üzərində hücumu davam edir. Erməni saxtakarlığına uyan baş katib azərbaycanlilarıın fikirləri ilə maraqlanmadı. Hətta, Azərbaycan KP MK-nın birinci katibi K.Bağırovla görüşdən boyun qaçırdı. Bütün bu hərəkətləri ilə Qorbaçov bir daha bəyan etdi ki, Dağlıq Qarabağ məsələsində o ermənilərin tərəfindədir. O, açıq etiraf etdi ki, Stalin dövründə «Dağlıq Qarabağ məsələsi» düzgün həll edilməyib. Biz onu indi, demokratiya şəraitində həll etməliyik. Bütün bunlar erməni separatçılarının daha da qızışdırdı. Erməni millətçiləri ermənilər arasında antitürk vərəqələr yayırdılar. Həmin vərəqələrdə yazılmışdı: «Ermənilər mitinqləri qurtarın, silaha sarılın və türkləri əzin!!!»[50].

Erməni millətçiləri, sülh yolu ilə Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək cəhdləri baş tutmadıqda, terrora, müharibəyə hazırlaşmağa başladılar. Bunun üçün Xankəndi Elektrotexnika Zavodu qumbara istehsal etməyə başladı. Minaaxtaran qurğunu istehsal etmək üçün Şuşadakı Radio zavodunun Xankəndinə köçürülməsi qərarlaşdırıldı. Dağlıq

Qarabağın Ermənistanla iqtisadi əlaqələrini inkişaf etdirmək adı altında Yeravandan Dağlıq Qarabağa silah daşınmağa və quldur erməni əhalisi sürətlə silahlandırılmağa başlandı. Ermənistanda yaşayan soydaşlarımızın kütləvi şəkildə departasiyası və Dağlıq Qarabağda ermənilərin separatçılıq hərəkətlərinə mərkəzin xeyir-dua verməsi Azərbaycanda xalq hərəkatının başlanmasına səbəb oldu. İlk etiraz mitinqi 1988-ci ilin fevralında Bakıda keçirilmiş və Azərbaycanın bütün rayonlarını bürümüşdü. 1988-ci il mayın 14-də Şuşada 5 min nəfərin iştirak etdiyi mitiq keçirildi. Onlar erməni millətçilərinin azərbaycanlilara qarşı törətdiyi terror aktlarına «özünü müdafiə» adı altında yaradılmış erməni hərbi birləşmələrinin özbaşnalıqlarına Respublika və İttifaq rəhbərliklərinin DQMV-dəki ekstrimislərə *qarşı* tutarlı tədbir görməməsinə öz etirazlarını bildirdilər. Mitinq iştirakçıları DQMV-də üzürsüz səbəbə görə işdən azad edilən azərbaycanliların işə qaytarılmasını, ermənilərin separatçılıq hərəkətlərinə son qoyulmasına və başqa demokratik tələblər irəli sürdülər. Mitinq iştirakçılarından 148 nəfərin imzası ilə İttifaq və respublika rəhbərliyinə müraciət olundu[51]. Mayın 16-da isə ermənilər Xankəndində yaşayan yüzlərlə Azərbaycanlıları döyüb, təhqir edərək Şuşaya qovdular. Bütün bunlar isə, 1988-ci il mayın 16-17-də Bakıda gənclərin, tələbələrin və ziyalıların nümayişinə səbəb oldu. Nümayiş mitinqlə başa çatdırıldı[52].

1988-ci il mayın 21-də Sovet imperiyası «parçalayaraq hökmüranlıq etmək» siyasətini həyata keçirmək üçün özünün xüsusi təlim keçmiş nümayəndəsini Azərbaycana göndərdi. Belə ki, Sov. İKP MK katibi Y.K.Liqaçov «xüsusi tapşırıqla» Bakıya gələrək buradakı çıxışlarında DQMV-nin Ermənistana birləşməsinin yolverilməz olduğunu, DQMV-nin Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bildirdi. Fitnəkar siyasət yeridən Sov İKP MK-nın Yeravana ezam olunmuş nümayəndəsi Sov.İKP MK-*nın* katibi A.N.Yakovlyev «demokratiya» ideyaları ilə erməniləri dəstəkləyərk onlara başladıqları işdə uğurlar arzulayırdı.

1988-ci il mayın 29-da Azərbaycanın dövlət başçısı Ə.X.Vəzirovla Ermənistanın dövlət başçısı S.M.Artunyan Qazax rayonunda görüşüb «Dağlıq



Qarabağ məsələsi»ni müzakirə etdilər[53]. Tamamilə məxfi olduğundan bu danışıqların məğzindən heç kəsin xəbəri olmadı. Təkcə, bu bizə məlumdur ki, həmin görüşlərdən sonra Dağlıq Qarabağda yaşayan ermənilər piyada və ayaqyalın Xankəndindən Ermənistanın Razdan şəhərinə getməyi planlaşdırmışdılar. Həm də həmin «iyrənc yürüş» «qeyrətli» teleoperatorlar tərəfindən çəkilərək dünya ictimayyətinə çatdırılmalı idi. Bu, ənənəvi «əzabkeş» obrazı yaratmaq üçün atılmış növbəti addım idi və həmin məkirli siyasətin qarşısı vətənpərvər şuşalılar tərəfindən vaxtında alınmışdı. Çünki ermənilərin düşülmüş çirkin niyyəti haqqında SSRİ DİN-nin Qafqaz və Şimali Qafqaz üzrə qərargahının rəisi general-mayor Safanovun kəşviyyatçıları məlumat əldə etmiş və Şuşa rayon Partiya Təşkilatına çatdırılmışdı. Hətta erməni millətçiləri general-mayor Safanovun bu «satqınlığını» özlərinin dəyərli «mükafatı» ilə «təltif etmiş»dilər. Erməni terror təşkilatı separatizmi dəstəkləmədiyi üçün Safanova qarşı terror təşkil etmiş, yalnız təsadüf onu ölümdən xilas etmişdir. Öyrədilmiş terrorçu Safanovun əvəzinə onun yaxın köməkçisini öldürmüşdür. İstintaq zamanı bu faktı həmin terrorçu erməni özü etiraf etmişdir.

1988-ci il mayın 31-də Azərbaycan KP MK-*nin* birinci katibi Ə.Vəzirov DQMV rayon partiya təşkilat katiblərini Bakıda qəbul etdi. Azərbaycanın dövlət başçısı erməni millətçilərinə «Nə desəniz edəcəyəm, bir şərtlə ki, mitinqlərə son qoyulsun». Erməni liderləri real vəziyyətdən məharətlə istifadə edərək «şeytan» əməllərini asanlaşdırmaq üçün bəzi məsələləri öz xeyirlərinə həll etdilər. Belə ki, Ermənistandan silah gətirmək üçün Yeravanla sərbəst əlaqələrə icazə verildi. Gələcəkdə, müharibədə istifadə etmək üçün Yaponiyadan gətirilmiş güclü traktorlar alındı. Eyni zamanda, Dağlıq Qarabağın ucqar əlaqələrini Xankəndi ilə birləşdirən yaxın və rahat yollar çəkildi. Bundan sonra, Yeravan-Xankəndi təyyarələri gündə 5 dəfə uçuş etməyə başladı və Dağlıq Qarabağa silah daşınması[54] işi daha da genişləndi. Doğrudur, bu barədə vaxtında Mərkəzə məlumat verilsə də rəhbərlik bu böyük cinayəti sükutla qarşıladı.

Ermənistanın Azərbaycana qarşı əsasız ərazi iddialarına başladığı ilk gündən bölgədə yaşayan azərbaycanlilar daha ağır məhrumiyyətlərlə üzləşdilər.

Azərbaycanlılar yaşayan kəndlər blokadada saxlanlırdı. Onlar həmişə silahlı ermənilər tərəfindən döyülür, təhqir edilir və qarət olunurdular. Bunlar Şuşanın məsul işçilərini çox narahat etməyə başladı. Şuşa Şəhər İcrayyə komitəsinin sədri Vaqif Hüseynov Şuşa rayon partiya komitəsində 11 iyun 1988-ci ildə keçirilən toplantıda bildirildi ki, DQMV statusunun saxlanılması erməni millətçilərinin azğın hərəkətlərinə şərait yaradır. Odur ki, DQMV-nin ləğv edilməsi məsələsi Azərbaycan SSR Ali Soveti qarşısında bir məsələ kimi qaldırılmalıdır. Həmin məsələ ilə bağlı tezliklə Azərbaycan SSR Ali Sovetinin XI çağırış 7-ci sessiyasına müraciət hazırlandı. Müraciətdə DQMV statusunun ləğv edilməsi şərtləri əsaslandırılmışdı. B.Vahabzadə, V.Əmrahov və digər deputatlarımız yuxarıda adıgedən məsələyə öz müsbət münasibətlərini bildirdilər. Lakin məsələdən tezliklə xəbər tutan Qorbaçov Azərbaycanın dövlət başçısına yuxarıda adı gedən məsələ ilə bağlı xəbərdarlıq edərək qəti şəkildə bu məsələni dayandırmağı tövsiyyə etdi. Bununla da, DQMV-nin statusunun ləğv edilməsi, həll edilməmiş qaldı[55].

Erməni seperatçılarının Dağlıq Qarabağı Azərbaycandan qoparmaq cəhdləri səngimək bilmirdi. Ermənistan SSR Ali Soveti 15 iyun 1988-ci il tarixli qərarı ilə beynəlxalq hüquq normalarına zidd gedərək Azərbaycan SSR-in DQMVni Ermənistanın tərkibinə daxil etməsi haqqında qərar qəbul etdi[56]. Tezliklə, azərbaycanli deputatlar Ermənistanm «millət vəkillərinin» bu bağışlanmaz səhvlərini müzakirə etdilər. Azərbaycan SSR Ali Sovetinin XI çağırış VII sessiyası 17 iyun 1988-ci il tarixli qərarı ilə Ermənistan SSR Ali Sovetinin və DQMV XDS-nin «Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında» qərarlarının qeyri-qanuni akt kimi qiymətləndirdi[57].

«Uzaqgörən» erməni liderləri planlı şəkildə belə bir məsələni qanunlaşdırmışdılar. İstər ittifaq səviyyəsində, istərsə də Ermənistan və DQMV-də «Dağlıq Qarabağ məsələsi» ilə əlaqədar hansısa bir qərar qəbul olunacaqsa, eyni zamanda, mitinq, nümayiş və tətillər də keçirilməsi ənənəvi hal almışdır. 1988-ci ildə iyunun 20-də Vilayət XDS-nin növbədənkənar sessiyası çağrıldı. Xankəndinin mərkəzi meydanında erməni millətçilərinin mitinqi keçirildi.



Mitinqçilər «Miatsum» («Birləşmə») deyib qışqırırdılar. Onların əlində Ermənistanın bayrağı qaldırılmışdı. Keçirilən sessiyada Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək və Azərbaycanın bayrağını Ermənistanın bayrağı ilə əvəz etmək kimi məsələlər qoyulmuşdu. Dağlıq Qarabağda hadisələrin daha gərgin xarakter alması Azərbaycanın xüsusi təyyarəsi vasitəsilə Sov. İKP MK nümayəndəsi Lev Şişov, Azərbaycan SSR Ali Sovetinin sədri S.B.Tatlıyev, Azərbaycan KP MK katibi V.N.Konovalov, AHİŞ sədri, L.X.Rəsilova və general Krayev təcili olaraq Xankəndinə gəldilər. İlk növbədə, general Krayevin hərbçiləri Azərbaycan nümayəndə heyətinin tələbi ilə Xankəndi Vilayət Partiya Komitəsinin binası üzərində dalğalanan Ermənistan bayrağı endirilib yenidən Azərbaycan bayrağı öz yerindən asdırıldı[58]. Erməni millətçilərinin Xankəndində keçirilən sessiyası qarşıya qoyduqları bədnam niyyətlərini həyata keçirə bilmədilər. Öz məkirli niyyətlərini 20 iyunda reallaşdıra bilməyən erməni daşnakları 21 iyunda yenidən növbədənkənar sessiya keçirdilər. Həmin sessiyada SSRİ Ali Sovetinə müraciət qəbul edildi. Müraciətdə Dağlıq Qarabağın Ermənistana verilməsi xahiş olunurdu[59]. Azərbaycan SSR Ali Sovetinin 1988-ci il iyulun 17-də qəbul etdiyi qərarda göstərilirdi ki, DQMV-nin Azərbaycanın tərkibindən çıxarılması və Ermənistana verilməsi konstitusiyaya ziddir və qeyri-qanuni aktdır[60].

1988-ci ilin aprel-iyul aylarında öz dədə-baba yurdlarından didərgin düşən azərbaycanhlar Ermənistandan Şuşaya, Xocalıya və digər azərbaycanlilar yaşayan kəndlərə pənah gətirdilər. Lakin bu qanunauyğun preses erməni millətçilərini qane etmədi. Ona görə də, 1988-ci il iyulun 6-da Ermənistan SSR Kənd Təsərrüfat Naziri Aslanyan başda olmaqla 4 nəfər nümayəndə heyəti təcili olaraq Dağlıq Qarabağa gəldilər. Erməni millətçiləri məsələni qəti şəkildə belə həll etdilər: «Dağlıq Qarabağda məskunlaşan qaçqınlar ya Ermənistana qaytarılsın və ya Azərbaycanın digər rayonlarında məskunlaşdırılsın». Artıq iyulun 7-də DQMV-də yaşayan ermənilərin adından «müraciət» Qorbaçovun stolu üzərində idi. Acizanə şəkildə yazılmış həmin bədnam müraciətdə erməni casusları bildirirdilər ki, güyaDağlıq Qarabağa köçürülən qaçqınlar burada

yaşayan ermənilәri sıxışdırır, torpaqlarını əllərindən alır və onlarla qaba rəftar edirlər. Əslində erməni millətçilərini narahat edən tamam başqa səbəb idi. Belə ki, azərbaycanlıların sayının bölgədə artması, yağı düşməni narahat edirdi. Odur ki, Qorbaçov bu məsələnin qəti əleyhinə gedərək Azərbaycan dövlət başçısına ünvanladığı «əmr»də DQMV-də məskunlaşan qaçqınların ərazidən çıxarılması tapşırılmışdı. Nəticədə, 1988-ci il iyulun 9-da Ə.Vəzirovun göstərişi ilə Dağlıq Qarabağda məskunlaşmış 3 min nəfər Ermənistan qaçqını oradan çıxarılaraq Azərbaycanın digər rayonlarına köçürüldülər. Ermənilərin diktəsilə, həm də ikinci dəfə qaçqınlıq həyatını yaşamalı olan həmvətənlərimiz Dağlıq Qarabağdan çox uzaqlara — Dəvəçiyə, Abşerona, Yevlağa, Kürdəmirə, Neftçalaya, Şəmkirə, Xaçmaza və digər iqlim şəraiti çətin olan rayonlara köçürüldülər. İnsan hüquqları kobudcasına pozuldu. Ermənistanda deportasiya olunan minlərlə azərbaycanlı, xüsusilə, qocalar, xəstələr və uşaqlar kəskin iqlim dəyişikliyinə dözməyərək həlak oldular[61]. Tanınmış dünya siyasətçisi və lideri H.Ə.Əliyev 1988-ci ildə həmvətənlərimizin qədim dədə-baba yurdlarından növbəti departasiyasını bu cür qiymətləndirmişdir: «1988-ci ildə Ermənistanda yaşayan azərbaycanlıların misli görünməmiş qəddarlıqla ata-baba yurdlarını tərk etməyə məcbur edilmələri zamanı neçə-neçə soydaşımız qətlə yetirildi. SSRİ-nin rəsmi dövlət qurumları, hüquq-mühavizə orqanları və kütləvi informasiya vasitələri xalqımızın bu böyük faciəsini sükutla müşahidə etdi... Bütün bunlar isə xalqımıza qarşı əsl cinayət idi»[62].

1998-ci il iyulun 12-də Vilayət XDS-nin sessiyasında DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxması barədə qeyri-qanuni qərar qəbul olundu. Ermənistan SSR Ali Soveti isə bu qərarı dəstəklədi[63]. Lakin SSRİ Ali Soveti Rəyasət Heyətinin 1988-ci ilin 18 iyulunda keçirilən iclasında Dağlıq Qarabağ məsələsini müzakirə edərək yekdilliklə belə bir qərar qəbul olundu ki, Azərbaycan və Ermənistan SSR-in mövcud sərhədlərinin dəyişdirilməsi mümkün deyildir.

Azərbaycan SSR və Ermənistan SSR dövlət başçılarını Xankəndində 2 dəfə, 1988-ci ilin 2 avqustunda və 11 oktyabrda keçirilən görüşləri erməni



separatçılarının əsassız ərazi iddialarınm qarşısını almadı, əksinə bölgədə vəziyyət daha da kəskinləşdi. Sov.İKR MK-nin nümayəndəsi Q.P.Xarçenkonun 1988-ci il sentyabrın 13-də Yeravana müəmmalı gəlişi və məxvi görüşləri nəinki vəziyyəti nizamladı, əksinə sentyabrın 18-dən 21-dək Xankəndində azərbaycanlılar təhqir edilməyə, döyülməyə başlandı. Onların evləri yandırılır və Xankəndindən qovulurdular. Dağlıq Qarabağın digər rayonlarından Şuşaya və Xocalıya pənah gətirənləri isə burada yaşamağa Mərkəz mane olurdu. Dağlıq Qarabağda erməni cəlladlarının azərbaycanlılara qarşı törətdiyi cinayətlər 1988-ci il sentyabrın 21-də DQMV-də «xüsusi vəziyyət» elan olunmasına səbəb oldu. Həmçinin, «xüsusi vəziyyət» Ağdam rayonuna da şamil edildi[64].

Dağlıq Qarabağı Azərbaycandan qoparmaq məqsədilə 1988-ci il sentyabrın 22-dən Ermənistanda erməni millətçilərinin təhriki ilə bütün müəssisələr işi dayandırıb tətil elan etdilər. Tətil mitinqlə davam etdirildi. Erməni dini idarəsinin başçısı çıxış edib, tutduqları yolda onlara uğurlar dilədi. Erməni daşnakları isə çıxışlarında, Mərkəz tərəfindən dəstəkləndiklərindən, tezliklə «Böyük Ermənistan» ideyasının reallaşacağından danışdılar[65].

Xarici dövlətlərdən - Moskvadan və başqalarından dəstək alan erməni cəlladları 1988-ci il oktyabrın 4-də Dağlıq Qarabağın Xankəndi, Xocalı və digər azərbaycanlılar yaşayan ərazilərdə azəri türklərini döyülür, təhqir edilir və köçməyə məcbur edirdilər.

Uzun illər boyu Azərbaycanın milli sərvətinin talanması, xalqımızın milli və dini hisslərinin təhqir olunması, onların hüquqlarının tapdalanması Azərbaycan xalqının səbir kasasını doldurmuşdu. İmperiya, böhrandan yaxasını qurtarmaq üçün «parçala və hökm et» siyasətinə üstünlük verdi və bunun üçün xalqlar arasında nifaq törətdi. Ermənistanda yaşayan soydaşlarımızın kütləvi şəkildə departasiyası və Dağlıq Qarabağda separatçılıq meyillərinə Mərkəzin xeyir-dua verməsi Azərbaycanda xalq hərəkatının başlanmasına səbəb oldu. Xalq, o zamankı rəhbərlikdən tələb edirdi ki, Dağlıq Qarabağda və Ermənistanda baş verən hadisələrə qarşı qəti mövqe tutsun.

DQMV-nin «Topxana meşəsi»ndə ermənilərin sənaye obyekti tikməsi xəbəri Azərbaycan xalqını hərəkətə gətirdi. 1988-ci il noyabrın 15-16-da Bakıda mitinqlər keçirildi[66]. Noyabrın 17-də isə «Azadlıq» meydanına toplaşan mitinqçilərin sayı 500 mini keçmişdi. Mitinqçilər «suverenlik», «Azadlıq», «Moskvanın fitnələrinə son qoyulsun» və başqa şüarlar səsləndirdilər. Meydan gecələr də izdihamlı olurdu. Mitinq iştirakçıları Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağını qaldırmışdılar. Onlar Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarına son qoyulmasını, Dağlıq Qarabağda Azərbaycanlılar əleyhinə təxribatın dayandırılmasını, SSRİ Ali Sovetinin sessiyasında Ermənistanın təcavüzü ilə əlaqədar məsələ qaldırılmasını tələb edirdilər. Meydan hərəkatı siyasi xarakter alır, Gəncə, Naxçıvan və başqa ərazilərdə də baş verirdi. Hökümət, hərəkatın gedişindən qorxub Bakı, Gəncə və Naxçıvan şəhərlərində «xüsusi vəziyyət və komendant saatı» tətbiq etdi, küçələrə tanklar yeridildi[67]. 1988-ci il dekabrın 4-də silahlı dəstələr meydandakı adamları qovub dağıtdılar. Çoxlu adam həbs edildi[68].

1988-ci ilin sonlarında erməni faşistləri Dağlıq Qarabağın Azərbaycanlılar yaşayan yaşayaş məskənlərinə hücum edib qanlı cinayətlər törətdilər. Azərbaycanlıların evləri, maşınları yandırılır, özləri döyülüb təhqir edilərək dədə-baba yurdlarından qovulurdular. Eyni zamanda, Ermənistanla həmsərhəd kəndlərimiz hücumlara məruz qalır, mal-qara və əmlak, yağı düşmən tərəfindən qarət edilirdi. 1988-ci il ərzində Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarını təhlil edən ümummilli liderimiz H.Əliyev öz çıxışlarından birində həmin dövrü belə qiymətləndirmişdir; «1988-ci ildə Ermənistan SSR-də, eləcə də Dağlıq Qarabağ Muxtar Vilayətində başlanmış Proseslər kütləvi etnik təmizləmə əməliyyatının hazırlıq mərhələsi hesab edilə bilər... Bu dövrdə, Ermənistanda yaşayan azərbaycanlıların departasiyası və Dağlıq Qarabağda ermənilərin separatçılıq hərəkətləri geniş xarakter almışdır»[69].



# XVII FƏSİL

## SSRİ ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN «AZƏRBAYCAN DQMV-DƏ XÜSUSİ İDARƏ FORMASININ TƏTBİQİ HAQQINDA» QƏRARI VƏ ONUN XALQIMIZ ÜÇÜN AĞIR NƏTİCƏLƏRİ (1989-CU İL)

1989-cu ilin əvvəllərində Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları daha kəskin xarakter almaqla davam etməkdə idi. Moskvanın Dağlıq Qarabağdakı səlahiyyətli nümayəndəsi A.Volskinin iki xalq arasında kompromis yaratmaq adı altında ermənipərəst missiyası vəziyyəti daha da gərginləşdirdi. Xankəndində tətil və nümayişlər ara vermir, erməni silahlı quldur dəstələrinin azərbaycanlıların yaşadıqları evlərə hücumu genişlənirdi. Azərbaycanda 1988-ci ilin sonlarında baş verən xalq hərəkatı Mərkəzi «tədbirlər» görməyə vadar etdi. Xalqımızın milli oyanışı, həm də erməni millətçilərinin iyrənc planlarının reallaşmasına manea ola bilərdi. Ona görə də, Sov İKP MK-da məsul vəzifələrdə işləyən 17 daşnak erməninin təhriki ilə M.Qorbaçov 1988-ci il dekabrın 15-də «Azərbaycan SSR və Ermənistan SSR-in bəzi vəzifəli şəxslərinin qanunsuz hərəkətləri haqqında» qərar verdi.[1] Əslində Mərkəz, adı gedən qərarla Azərbaycanda Moskvanın hiylələrini başa düşən, xalqı öz arxasınca aparmağa qadir olan qüvvələri aradan götürmək kimi mənfur məqsədi güdürdü. 1989-cu ilin əvvəllərində Azərbaycanda, yuxarıda adı gedən qərar «layiqincə» yerinə yetirildi. Erməniləri sıxışdırdıqlarına, xalq hərəkatına başçılıq etdiyinə, mərkəzin hiylələrini xalq içərisində bəyan etdiyinə görə 1989-cu ilin yanvarında Azərbaycanda 2532 nəfər məsuliyyətə cəlb edildi. Bundan 222 nəfər məsul vəzifələrdə çalışan şəxslər idi ki, onları nəinki vəzifədən azad etmək, hətta onlar haqqında «cinayət işi» də açılmışdı. «Gözdən pərdə» asmaq üçün Ermənistanda da Sov. İKP MK-nın «qərarı»na «əməl edildi». «Böyük Ermənistan» yaratmaq ideyasının reallaşmasında fəaliyyətsizliyinə görə Ermənistanda 24 nəfər vəzifədən azad edildi, 69 nəfərə «xəbərdarlıq» elan olundu. Əlbəttə, bütün bunlar

çox təzadlı faktlardır. Cinayəti törədənlər erməni millətçiləri və Ermənistan KP MK işçiləri olduğu halda, cəzaya məhkum edilənlər azərbaycanlılar oldu.

SSRİ Ali Soveti Rəyasət Heyəti Dağlıq Qarabağda vəziyyəti «nizama salmaq» üçün Azərbaycanın hüquqlarını yenidən kobud surətdə və bilərəkdən pozaraq 1989-cu il yanvarın 12-də «Azərbaycan SSR-in DQMV-də Xüsusi İdarəçilik formasının tətbiqi haqqında» qərar qəbul etdi.[2]

Həmin qərara əsasən birbaşa Moskvaya tabe olan müvəqqəti Xüsusi İdarə Komitəsi (XİK) yaradıldı. XİK-nə Moskvanın Xankənədində əyləşən nümayəndəsi ermənipərəst Arkadi Volski rəhbər təyin edildi. Komitənin tərkibində 5 nəfər rus, 2 nəfər erməni, yalnız 1 nəfər Azərbaycanlı var idi.[3] A.İ.Volski Azərbaycanın deputatı olsa da və nəzəri cəhətdən separatizmi tənqid etsə də, praktiki olaraq erməni millətçilərinin çirkin planlarını həyata keçirirdi. Moskva XİK-ni yaratmaqla Azərbaycandan DQMV-nin prinsp etibarilə ayrılmasının əsasını qoydu. Çünki Komitə yarandığı gündən Azərbaycan qanunları burada işləmədi və Azərbaycan ictimai orqanlarının Dağlıq Qarabağda səlahiyyətləri dayandırıldı. DQMV XDS və icraiyyə komitəsinə böyük hüquqlar verildi. Onların fəaliyyəti Moskvanın qanunlarına tabe edildi.[4]

XİK Dağlıq Qarabağ Muxtar Vilayətində qayda-qanunu bərpa etmək əvəzinə onu Azərbaycana bağlayan iqtisadi əlaqələrinin tam qırılmasma, azərbaycanlıların buradan qovulmasına, ermənilərəin silahlanmasına və quldur dəstələrdə birləşməsinə şərait yaratdı.

1989-cu il yanvarın 28-də A.İ.Volski Ermənistana gedərək erməni millətçiləri ilə gizli danışıqlar apardı. A.Volski Ermənəistandan qayıtdıqdan sonra Dağlıq Qarabağın Ağdərə rayonu ərazisində təyyarə meydanı düzəltdirdi. Gizli təyyarə meydanına külli miqdarda müasir tipli silahlar və sursat daşındı. Eyni zamanda, DQMV-nin ermənilərin daha çıx məskunlaşdığı ərazilərində silah və sursat cəbbəxanaları yaradıldı.[5]

Erməniperəst A.İ.Volski «təhlükəsizliyi təmin etmək» adı altında yaratdığı «Xüsusi dəstə» ilə azərbaycanlılar yaşadıqları kəndlərdə odlu silahların yığılması üçün reydlər keçirdi. Adi ov silahları belə müsadirə edildi. Aparılan



tədqiqatlardan məlum olur ki, 1989-cu ilin əvvəllərində azərbaycanlılardan 18 min ov silahı alınmış və onlar yaxşı silahlanmış qəddar düşmən qarşısında əliyalın, müdafiəsiz vəziyyətə salınmışdılar.[6] A.Volski Dağlıq Qarabağda azərbaycanhlara qarşı «faşist recimi» yaratmışdı. Erməni millətçiləri 1989-cu ildə Dağlıq Qarabağ ərazisinə təkcə, silah və sursat gətirməklə kifayətlənmədilər. Onlar, həm də «xüsusi təlim» keçmiş «təbliğatçı» dəstələrinin də bölgəyə gətirilməsinə şərait yaratdılar. Belə ki, aprelin 2-də Rusiyanın deputatı, qatı millətçi Qalina Starovoytovanın başçılığı ilə Ermənistandan Dağlıq Qarabağa 40 nəfərlik təbliğatçı gəldi.[7] Onlar öz üzərlərinə düşən «vəzifələri» layiqincə yerinə yetirdilər. Nəticədə, 1989-cu il mayın 4-5-də Dağlıq Qarabağın bütün erməni partiya, sovet rəhbərlərinin və deputatlarının imzası ilə M.Qorbaçova «açıq məktub» göndərildi. Məktubda yeni yaradılmış «Volski reciminin» yaxşı cəhətləri vurğulanır, buna görə ona minnətdarlıq bildirilir və DQMV-nin Ermənistana birləşdirilməsi xahiş edilirdi. Əlbəttə, erməni millətçilərinin böyük «qardaşı» M.Qorbaçov onların məktubuna öz əməli hərəkətləri ilə canfəşanlıqla «cavab» verdi. M.Qorbaçovun diqtəsi ilə SSRİ Nazirlər Sovetində erməni millətçilərinin yazdıqları «məktuba» cavab olaraq 6 may 1989-cu il qərarı ilə DQMV-dəki idarə və müəssisələr Azərbaycan SSR-in tabeçiliyindən çıxarıldı.[8] SSRİ Nazirlər Soveti, SSRİ hökuməti və dövlət başçısı M.Qorbaçov bu «qərarla» öz mövqelərini bəyan etdilər. Həmin «qərar»dan sonra Dağlıq Qarabağda azərbaycanlıların yaşadıqları ərazilərin ermənilər tərəfindən blokadasına imkan yarandı.

M.Qorbaçov öz «sözü»nü SSRİ deputatlarının dili ilə də dedizdirmək niyyətində idi. Ona görə də, 1989-cu il mayın 25-də SSRİ Xalq Deputatlarının I qurultayı keçirildi. Qurultayın «ssenarisi» əvvəlcədən hazırlanmışdı. Dağlıq Qarabağla bağlı məsələlərin müzakirəsi zamanı yalnız ermənilərin sözünü deyən deputatlara söz verildi. M.Qorbaçov azərbaycanlı deputatların danışmasına şərait yaratmadı. Ona görə də, SSRİ Xalq Deputatları Sovetinin I qurultayı «Dağlıq Qarabağ məsələsi»ni erməni millətçilərinin xeyrinə həll etdi.[9]

M.Qorbaçov XİK-ni yaratmaqla Dağlıq Qarabağdakı erməni millətçilərinə çox böyük sərbəstlik bəxş etmişdi. Xüsusi olaraq, ermənilərin mənəafeyini tam müdafiə edən A.Volskinin mövqeyi onlardan «Böyük Ermənistan» yaratmaq ideyasının tezliklə reallaşacağına tam əminlik yaratmışdı. Azərbaycanın DQMV ərazisindəki sərbəstlikdən istifadə edən Ermənistandakı «Qarabağ təşkilatı»nın üzvləri 1989-cu ilin iyununda Dağlıq Qarabağa gəldilər. İyunun 8-9-da DQMV-dəki «Qarabağ hərəkatı» ilə Ermənistanın «Qarabağ təşkilatı» Xankəndində birgə iclas keçirirlər. İclasda, Azərbaycan əleyhinə bir sıra məsələlər müzakirə edilməklə yanaşı, günün ən vacib məsələsi kimi DQMV ərazisində yaşayan azərbaycanlıları bir nəfər kimi qovub çıxarmaq, çıxmayanlara qarşı zor tətbiq etmək qərara alınmışdı.[10]

DQMV-də XİK-nin yaratdığı şərait nəticəsində 1989-cu ilin iyunun 13-də azərbaycanlılar yaşayan məntəqələr blokadaya alındı. Sovet ordu hissələrinin köməyi ilə erməni quldurları - «saqqallılar» - Xankənlindən bütün Azərbaycanlıları – 14 min nəfəri döyülüb təhqir edərək, ayaqyalın başaçıq şəkildə qovub çıxardılar.[11] Bütün bunlar A.Volskinin rəhbərlik etdiyi XİK-nin «millətlərarası münasibətləri daha da kəsikinləşməsinin qarşısını almaq və DQMV-də vəziyyəti sabitləşdirmək» süarı altında həyata keçirildi.[12]

Namərd A.Volskinin rəhbərlik etdiyi XİK-nin «fəaliyyəti» nəticəsində DQMV-də azərbaycanlıların vəziyyəti gündən-günə pisləşirdi. Onların digər rayonlarından təcrid olunması iqtisadi cəhətdən çətin vəziyyətə düşməsi demək idi. Moskva isə A.Volskinin mahir «məharətini» alqışlayırdı. Hətta, iş o yerə çatmışdı ki, SSRİ Plan Komitəsinin hesabat sənədlərində DQMV 16-cı respublika kimi əlahiddə göstərilirdi. A.Volskinin iyrənc siyasətinin nəticəsi olaraq, DQMV İcraiyyə Komitəsinin binası üzərində dalğalanan Azərbaycan bayrağı çıxarılıb Ermənistanın bayrağı ilə əvəzləşdirilmişdi.[13]

Silahlı erməni faşistləri 1989-cu il iyulun 7-də növbəti hücumu Azərbaycanın qədim yaşayış məskəni olan Xankəndi yaxınlığındakı azərbaycanlılar yaşayan Kərkicahan kəndinə etdilər. Erməni vandalları kəndi hər



tərəfdən od vurub yandırdılar. Əhali çox acınacaqlı vəziyyətdə döyülüb, təhqir edilmiş şəkildə kəndlərini tərk etdi.[14]

1989-cu il iyulun 8-də Xankənlində millətçi erməni liderlərəinin konfransı keçirildi. Konfransda, bir sıra məsələlərlə yanaşı, «Miasum» («Birləşmə») hərəkatının yaradıldığı elan edildi. Hərəkatın sədri vəzifəsinə Robert Koçaryan təyin olundu.[15]

Dünyanın erməni lobbisi və SSRİ rəhbərliyi tərəfindən dəstəklənən, heç bir təzyiqə və təsirə məruz qalmayan azğın erməni millətçiləri artıq Azərbaycanın Dağlıq Qarabağ ərazisində özlərəini ayrıca bir dövlət kimi aparırdılar. Hətta, iş o yerə çatdı ki, 1989-cu il avqustun 16-da Xankəndində separatçı ermənilərin «qurultayı» keçirildi və həmin qurultayda DQMV «Müstəqil ittifaq ərazisi» elan edildi. Qurultayda 334 millətçi erməni lideri iştirak etdi və 79 nəfər dələduz ermənidən ibarət bədnam «Milli Şura» yaradıldı. «Qurultay»da 12 nəfərlik «Fədakar» ermənidən ibarət Rəyasət Heyətinin yaradıldığı bəyan edildi.[16] Bütün bunlar, Azərbaycanın Konstitusiyasına və Beynəlxalq hüquq normalarına zidd bir hərəkət idi.

Artıq, DQMV-də ermənilərdən ibarət yaradılmış bədnam Milli Şura qərarlar çıxarır, qanunlar verirdi. 1989-cu il avqustun 20-də erməni Milli Şurasının və Rəyasət Heyətinin çıxartdığı qərara görə, Dağlıq Qarabağda ermənilərdən ibarət «Milli Müdafiə Dəstələri» yaradıldı. 17 yaşından 50 yaşınadək bütün ermənilər həmin «ixtisaslaşdırılmış» dəstələrə cəlb olundular.[17] Dəstəyə daxil olanların ailəsinin iqtisadi cəhətdən tam təmin edilməsi haqda da qərar çıxarıldı. Volskinin rəhbərlik etdiyi XİK-nin nəzarəti altında hər cür silahla silahlanmış xüsusi təlim görmüş erməni quldur dəstələri yaradıldı.

1989-cu ilin avqustunda azğınlaşmış erməni quldur dəstələri Dağlıq Qarabağda azərbaycanlıların qədim yaşayış məskənlərini – Cəmilli, Həsənabad və Daşbulaq kəndlərini hər tərəfdən mühasirəyə aldılar. Müasir silahlarla silahlanmış namərd erməni «saqqallıları» əliyalın dinc əhalinin çoxunu məhv etdi. Kəndlər od vurulub yandırıldı.[18] Erməni cəlladlarının məqsədləri həmin qədim yaşayış məskənlərini dünya xəritəsindən silmək olmuşdur.

Ermənistanda yaşayan həmvətənlərimizin kütləvi deportasiyası, DQMV-də yaşayan azərbaycanlıların erməni vandalları tərəfindən soyqırıma məruz qalması, A.Volski başda olmaqla XİK-nin ermənipərəst mövqe tutması, bədnam erməni Milli Şurasının yaradılması və onun özbaşına qərarlar qəbul etməsi və digər Azərbaycanın dövlətçiliyi əleyhinə baş verən neqativ hadisələr mərkəzin gözləri qarşısında baş verməsinə baxmayaraq özünü «görməməzliyə» vurması Azərbaycanda demokratik qüvvələrin etirazına səbəb oldu. Azərbaycan Xalq Cəbhəsi xalqın önündə gedən siyasi bir qüvvəyə çevrildi. 1989-cu il iyulun 29-dan avqustun 6-dək Bakıda yüz minlərlə insanın qatıldığı mitinqlər keçirildi. 12 avqustda mitinqçilərin sayı 200 minə, 14 avqustda isə 500 minə çatdı.[19] Mitinqçilər DQMV-də XİK-nin ləğv edilməsini, Qarabağda Azərbaycan hakimiyyətinin yenidən qurulmasını və Azərbaycanda müstəqil hakimiyyətin elan olunmasını tələb edirdilər. Çox keçmədən Azərbaycan SSR Ali Soveti 23 sentyabr 1989-cu ildə belə bir qanun qəbul etdi ki, DQMV-də XİK ləğv edilir və Qarabağda idarəçilik Azərbaycana məxsusdur.[20]

DQMV-də hadisələrin gərginləşdiyi bir vaxtda erməni separatçıları Azərbaycanda daha bir təhrikçi akt həyata keçirdilər. 1989-cu ilin avqustunda Şaumyan rayon Xalq Deputatları Sovetinin erməni deputatları «sessiya» adlandırdıqları yığıncaqlarında həmin rayonun Dağlıq Qarabağ Muxtar Vilayətinə birləşdirilməsini Azərbaycan SSR Ali Sovetindən xahiş etdilər.[21] Azərbaycan SSR Ali Soveti isə həmin «xahişi» qeyri-qanunu hesab edərək rədd etdi.

Maraqlı cəhət ondan ibarətdir ki, 1989-cu ildə DQMV-də baş verən fitnəkar, qanuna zidd hadisələr 1989-cu il 19 iyul ABŞ konqresində müsbət qarşılanmış və dəstəklənmişdir.[22] Bu isə səbəbsiz deyildi. Hər şeydən öncə, Amerikada güclü erməni lobbisi fəaliyyət göstərirdi və onlar yuxarı orqanlara təsir etmək qabiliyyətinə malik idi. Eyni zamanda, erməni millətçiləri güclü təbliğat maşınına malik olmaqla bütün dünyada özlərinə qarşı müsbət rəy yarada bilmişdilər. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti ABŞ Senatının erməni millətçilərinin xeyrinə olan və Azərbaycanın daxili işinə



müdaxilə hesab edilən qətnaməsinə qarşı 22 iyul 1989-cu ildə özünün etiraz bəyanatını verdi.

Bəhs etdiyimiz dövrdə, erməni terror təşkilatlarının qanlı əməlləri daha da genişləndi. 1989-cu il sentyabrın 16-da erməni casusları Tiflis-Bakı avtobusunu partlatdılar. Qanlı terror nəticəsində 5 nəfər öldü, 25 nəfər yaralandı. Oktyabrın 7-də terrorçu A.A.Abramyan tərəfindən Şuşanın Xəlifəliçay körpüsü, terrorçu Q.V.Sarkisyan isə Əsgəran-Ağdam körpüsünü partlatmışlar.[23]

DQMV-də yaşayan Azərbaycanlıların döyülüb təhqir edilərək ərazidən çıxarılması, evlərinin yandırılması, terrorçuların törətdiyi qanlı əməllər 1989-cu il sentyabrın sonlarında Bakı və Gəncə şəhərlərində xalqın mitinq və nümayişinə səbəb oldu. Hətta, iş o yerə çatmışdır ki, Ə.X.Vəzirov vəziyyətə nəzarət edə bilmədiyindən Moskvadan kömək istəmişdi.

Azərbaycan demokratik qüvvələrinin təkidli tələbi ilə SSRİ Ali Soveti 1989-cu il noyabrın 28-də Dağlıq Qarabağda Xüsusi İdarə Komitəsini ləqv etdi.[24] DQMV-nin idarəsi SSRİ Ali soveti xüsusi komissiyasının nəzarəti altında Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı.[25] Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 6 dekabr 1989-cu il tarixli qərarı ilə DQMV üzrə Respublika Təşkilat Komitəsi yaradıldı. Komitəyə Azərbaycan KP MK-nın ikinci katibi V.P.Polyaniçko rəhbər təyin edildi. Erməni millətçilərinin təhriki ilə DQMV-də 5000 nəfərlik Sovet hərbi qüvvələri, onların silah, sursat və texnikaları saxlanıldı.[26] Moskvanın, ermənilərin qanlı əməllərinə qarşı qəti tədbirlər görməməsi onları yeni təhrikçi hərəkətlərə şirnikləndirdi.

Ermənistan SSR Ali Soveti Beynəlxalq Hüquq Normalarını pozaraq 1989-cu il dekabrın 1-də «Ermənistan SSR-ə Dağlıq Qarabağı birləşdirmək haqqında» qeyri-qanuni qərar qəbul etdi.[27] Xankəndində isə Ermənistan bayrağı qaldırıldı. DQMV-də idarəçilik işləri, müəssisələr Ermənistanın nazirlik və baş idarələrinə tabe edildi. DQMV-nin sosial iqtisadi inkişaf planı Ermənistan SSR-in dövlət planına daxil olundu. Hətta, Azərbaycan SSR-in DQMV-də Ermənistan SSR Xalq deputatları seçkiləri üzrə qeyri-qanuni seçki dairələri təşkil edildi və «deputatlar» seçildi.[28]

Beləliklə, DQMV-də məqsədli şəkildə yaradılmış XİK fəaliyyət göstərdiyi dövr ərzində erməni millətçilərinin qarşıya qoyduqları «planı» reallaşdırdı.

XİK vilayətdə qayda-qanunu bərpa etmək əvəzinə onu Azərbaycana bağlayan iqtisadi əlaqələrin tam qırılmasına, azərbaycanlıların buradan qovulmasına, ermənilərin silahlanmasma və quldur dəstələrində birləşdirilməsinə şərait yaratdı. Bütün bunlar isə, Azərbaycan Konstitusiyasına, Beynəlxalq hüquq normalarına zidd akt kimi qiymətləndirilməlidir. Təəssüflər olsun ki, həmin dövrdə, Beynəlxalq Təşkilatlar və dünyanın aparıcı dövlətələri Azərbaycanın ərazi bütövlüyünün pozulmasına haqq qazandırmadılar.



## XVIII FƏSİL.

## ERMƏNİ SİLAHLI QULDURLARININ BİRLƏŞMİŞ HƏRBİ HİSSƏLƏRİNİN DAĞLIQ QARABAĞDA İRİMİQYASLI HƏRBİ ƏMƏLİYYATLARININ DAVAMI, OYUNCAQ «DAĞLIQ QARABAĞ RESPUBLİKASI»NIN YARADILMASI VƏ AĞIR NƏTİCƏLƏRİ (1990-1991)

1990-cı ildə DQMV-də vəziyyət son dərəcə gərgin xarakter almışdı. Çünki XİK-nin Təşkilat Komitəsilə əvəz edilməsi idarəçilikdə ad dəyişməkdən başqa bir şey deyildi. Dağlıq Qarabağda təşkilat Komitəsi yaradıldıqdan çonra Xankəndində Ermənistan bayrağı qaldırıldı, Vilayətdə idarəçilik işləri, müəssisələr Ermənistanın nazirlik və idarələrinə tabe edildi, DQMV-nin sosial-iqtisadi inkişaf planı Ermənistanın dövlət planına daxil olundu və bölgədə qeyri-qanuni deputat seçkiləri keçirildi. Bir sözlə, 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Sovetinin «Ermənistan SSR-ə Dağlıq Qarabağı birləşdirmək haqqında» qərarı ilə DQMV-nin iqtisadi-siyasi və mədəni həyatı birbaşa Ermənistana tabe edildi.[1] Erməni millətçilərinin təhrikçilik hərəkətləri, Azərbaycanın Ermənistanla sərhəd kəndlərinə, DQMV-də azərbaycanlılar yaşayan kəndlərə və Dağlıq Qarabağa bitişik yaşayış məntəqələrinə qanunsuz erməni silahlı dəstələrinin basqınları isə getdikcə artırdı. Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrə Azərbaycanın digər regionlarında demokratik hərəkatın canlanmasına səbəb oldu. İran və Türkiyə sərhəd qurğularının mərkəzi qane etmədi. Türk-müsəlman dünyasının birliyi Moskvanın məkirli niyyətini poza bilərdi. Ona görə də, Moskva demokratiya, suverenlik uğrunda mübarizə aparan və torpaqlarının müdafiəsinə qalxan xalqa divan tutmağa hazırlaşırdı. Sərhədlərin dağıdılması, hazırlanan qanlı faciəyə bəraət ola bilərdi.

1990-cı il yanvarın əvvəllərində SSRİ Müdafiə Naziri D.Yazov gizli olaraq Gəncəyə gəlmiş və Azərbaycanda demokratik qüvvələri məhv etmək üçün «Tayfun» adlı qanlı əməliyyat planını hazırlamışdı.[2] Yanvarın 9-da

M.Qorbaçovun göstərişi ilə Sov. İKP MK katibi A.N.Girenko və SSRİ Millətlər Sovetinin sədri R.P.Nişanov Dağlıq Qarabağa gəldilər. Onların gəlişində erməni separatçılarınm mənafeyinə uyğun olmayan «maddə»lər olduğundan Sov. İKP MK-nın səlahiyyətli nümayəndələri erməni millətçiləri tərəfindən Xankəndinə buraxılmadılar.[3]

Ermənistan SSR Ali Sovetinin Azərbaycanın DQMV-nin ondan qoparılması üçün verdiyi qeyri-qanuni qərarlar Azərbaycan xalqını daha çox hiddətləndirmişdir. Ona görə də, Moskva «DQMV haqqında» verdiyi növbəti «qərarı» nisbətən yumşaltmalı olmuşdu. 1990-cı il yanvarın 10-da SSRİ Ali Soveti Rəyasət Heyəti «Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin 1989-cu il dekabrın 1-də və 1990-cı il yanvarın 9-da qəbul etdiyi aktların SSRİ Konstitusiyasına uyğun olmaması haqqında» qərar qəbul etdi. Burada göstərilirdi ki, Ermənistan SSR Ali Sovetinin «Ermənistan SSR-ə Dağlıq Qarabağı birləşdirmək haqqında» 1989-cu il 7 dekabr tarixli və «1990-cı ildə DQMV-nin sosial-iqtisadi inkişaf planını Ermənistan SSRi-in iqtisadi və sosial inkişafına dair dövlət planına daxil etmək haqqında» 1990-cı il 9 yanvar tarixli qərarları SSRİ Konstitusiyasına uyğun deyildir və SSRİ Konstitutsiyasının 74-cü maddəsinə əsasən respublika ərazisində qüvvədə ola bilməz.[4] Lakin Mərkəzin aldadıcı «siyasi oyunları» Azərbaycanda demokratik hərəkatın qarşısını ala bilmədi. Qızışdırıcı mövqedən çıxış edən qüvvələr Azərbaycanda «demokratik hərəkatı» boğmaq üçün müvafiq vaxt yetişdiyini nəzərə alaraq 1 nəfər erməninin 2 Azərbaycanlını öldürməsi ilə vəziyyət gərginləşdi.[5] Təhrikçi qüvvələr fəallaşaraq «vəziyyət»dən istifadə etdilər. Bu vaxt 56 nəfər öldürüldü, 112 nəfər xəsarət aldı.[6] Vəziyyəti «nizama salmaq» üçün SSRİ DİN-nin 12 minlik silahlı qüvvəsi «döyüşə hazır» vəziyyətə gətirilmişdi.[7] 1990-cı il fevralın 13-18-də Ə.Vəzirovun təşəbbüsü ilə Azərbaycan KP MK-da büro iclasları keçirildi. Xalq hərəkatından qorxan Ə.Vəzirov iclasda Azərbaycanda «Vəziyyəti nizama salmaq» üçün Moskvadan «kömək» almaq qəraarını qəbul etdirmişdi. Azərbaycan kimi «yağlı tikə»nin əldən çıxmasını Mərkəz qətiyyən istəmirdi. Ona görə, Moskvadakı hakim dairələr də Bakıda xalqın gözünü qırmaq üçün güc tətbiq etməyi qərarlaşdırmışdı. Azərbaycanda demokratik qüvvələrə tutulacaq divana hüquqi don geyindirmək üçün fövqəladə vəziyyət elan olunması vacib idi. Ə.Vəzirov yanvarın 14-də Azərbaycan KP MK-nın bürosunda müzakirə etdikdən sonra keçirdiyi Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti iclasında «Azərbaycan SSR-in vəziyətin normallaşdırılması sahəsində təxirəsalınmaz vəzifələr haqqında» qərar qəbul edilməsinə nail oldu. Qərarda DQMV və zəruri olarsa, ona bitişik rayonlarında və sərhəd boyunca fövqəladə vəziyyət elan olunması və mərkəzdən lazımi köməklik göstərilməsi üçün SSRİ Ali Soveti Rəyasət Heyətinə müraciət olunması nəzərdə tutulrudu.[8]



SSRİ hökumətinin həyata keçirdiyi «tədbirlər», verdiyi «qərar»lar Azərbaycan SSR DQMV-də vəziyyətin müsbət istiqamətdə irəliləyişinə təsir etmədi. Əksinə, 1980-ci ilin yanvarından, istər Azərbaycanın Ermənistanla həmsərhədd olan kəndlərinə, istərsə də DQMV-nin sərhəddində yerləşən azərbaycanlıların yaşadıqları məntəqələrə silahlı quldur erməni basqınları daha da artdı. Bölgədə vəziyyət gündən-günə daha gərgin xarakter alırdı. Belə bir şəraitdə, 1990-cı il yanvarın 15-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti «Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında» qərar qəbul etdi.[9] Həmin qərara əsasən, DQMV-nin, Azərbaycanın Dağlıq Qarabağa bitişik rayonlarının, Ermənistanın Gorus rayonu ərazisində, habelə Azərbaycan SSR-in ərazisinin keçmiş SSRİ-nin dövlət sərhəddi boyunca sərhədyanı rayonlarda fövqəladə vəziyyət elan edildi. Maraqlı cəhət ondan ibarətdir ki, Moskva, DQMV-ni ayrıca ərazi vahidi kimi qeyd etmişdir. Dərin düşüncəli dünya siyasətçisi H.Ə.Əliyev çıxışlarından birində Mərkəzin 15 yanvar 1990-cı il «Fərmanı»nı bu cür qiymətləndirmişdir: «1990-cı il yanvarın 15-də SSRİ Ali Soveti Rəyasət Heyətinin «Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi digər rayonlarda fövqəladə vəziyyətin elan olunması haqqında» fərmanı ilə əslində Azərbaycanlıların Dağlıq Qarabağdakı ev eşiklərinə qayıtmaq ümidlərinə son qoydu. Fərmanın başlığından göründüyü kimi Muxtar Vilayətin və bəzi digər rayonların kimə mənsub olması məsələsi də artıq sual altına qoyulurdu».[10]

1990-cı ilin yanvar ayında Ermənistan hərbi birləşmələri Azərbaycan ərazisinə basqınlarını davam etdirirdilər. Naxçıvan MSSR Ermənistan tərəfindən blokadaya alınmış, Kərçi kəndi, Xanlar rayonunun Quşçu kəndi, Qazax rayonunun Bağanis-Ayrım kəndlərəinə qeyri-qanuni silahlı erməni faşistlərinin vertalyot, tank və digər texnika vasitəsilə hücum edib dinc əhaliyə vəhşicəsinə divan tutulmuş, yüzlərlə qadınlara, qocalara və uşaqlara işgəncələr verilərək məhv edilmiş, evlər talan edilərək yandırılmışdır.[11] Bəhs etdiyimiz dövrdə, Azərbaycanın sərhəddində irimiqyaslı hərbi əməliyyatları aparmağa qadir olan, hər cür silahla və texnika ilə silahlanmış, xüsusi təlim keçmiş 10 minlik erməni silahlı ordusu cəmləşmişdi.[12]

1990-cı il yanvarın 15-də Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarının «uğurla reaalaşması» üçün mübarizə aparan terrorçu «Qarabağ» və «Krunk» təşkilatları birləşib «Erməni Ümummilli Hərəkatı»nı (EÜN) yaratdılar.[13] Artıq hər cür zorakılıq, terror və vəhşilik törətməyə qadir güclü, müasir silahlarla təchiz edilmiş Erməni Milli Ordusu formalaşdırılmışdı. EÜH-na əvvəllər DQMV-də məsul vəzifələrədə çalışan millətçi L.T.Petrosyan başçılıq edirdi. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, 1990-cı ilin əvvəllərində Ermənistandan DQMV-nə 1500 nəfərdən çox hərbi təlim keçmiş gənc erməni köçürülmüşdülər. Eyni zamanda, DQMV Aqrar Sənaye Komitəsinin rəhbəri R.Ayriyanın təşəbbüsü ilə bölgədə «dərin şum işləri aparmaq» adı altında Rusiyadan T-54 tipli 40 ədəd «çıxdaş» edilmiş tank Dağlıq Qarabağa gətirilmişdir.[14] Torpaqlarımızın 20 faizinin işğal edilməsində erməni cəlladları həmin tanklardan çox məharətlə istifadə etmişdilər.

Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarının geniş məkanı əhatə etməsi, Moskvanın müxtəlif yollarla erməni millətçilərini dəstəkləməsi, DQMV-də azərbaycanlılara divan tutulması 1990-cı il yanvarın 17-də Azərbaycan KP MK-nin binası qarşısında Azərbaycan xalqının mitinq və tətilinə səbəb oldu. Tətilçilər tələb etdilər ki, Moskva Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına qəti son qoysun, İmperiyanın Bakıya və onun ətrafına yığdığı qoşunlar Dağlıq Qarabağ Muxtar Vilayətinə və daim erməni basqınlarına



məruz qalan sərhəd bölgələrinə göndərilsin.[15] Mitinq iştirakçıları Ə.Vəzirovun istefasını təkidlə tələb edirdilər.

Beləliklə, Moskva özünün radikallaşmağa məcbur etdiyi xalqa divan tutmaq üçün münasib şərait yarada bildi. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti Azərbaycan Ali Sovetinin razılığı olmadan yanvarın 20-də saat 00-dan «Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında» fərman verdi.[16] Xalqı qəfildən yaxalamaq ona divan tutmaq, qırğın törətmək məqsədilə fövqəladə vəziyyətin elan olunduğu vaxt gizli saxlanıldı. Fövqəladə vəziyyətin, komendant saatının vaxtının əvvəlcədən elan edilməsi Moskvanın qanlı planlarını poza bilərdi. Piketçilər, Moskvanın Bakıya göndərdiyi emissarların – SSRİ Ali Sovetinin sədri Y.Primakov, Sov. İKP MK katibi A.Girenko və respublikanın səlahiyyətli nümayəndələrinin «ordunun şəhərə girməyəcəyi» haqqında dəfələrlə təkrar etdikləri vədlərə inanmışdılar.[17]

Fövqəladə vəziyyət yanvarın 20-də saat 00-da başlanmasına baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-də Türkan-Qala tərəfdən şəhərə yeridildi. «Bakı əməliyyatı»na SSRİ müdafiə naziri D.Yazov şəxsən rəhbərlik edirdi. Həmin gecə dinc əhaliyə divan tutuldu, 131 nəfər öldürüldü, 744 nəfər yaralandı, 400 nəfər həbs edildi, 4 nəfər itgin düşdü.[18] «Qara yanvar»a etiraz olaraq 40 günlük ümummilli tətil başlandı.

Yanvar faciəsinin ertəsi günü bundan xəbər tutan Heydər Əliyev həyatını təhlükə altında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək imperiyanın Azərbaycana qoşun yeritdiyini, xalqa təcavüz olunduğunu, günahsız əhaliyə divan tutulduğunu bütün dünyaya bəyan etdi.[19]

Gizlincə respublikadan qaçan Ə.Vəzirovun yerinə Azərbaycan Respublikası Nazirlər Sovetinin sədri A.Mütəllibov Azərbaycan KP MK-nın birinci katibi təyin edildi. Yerlərdə Kommunistlərin hakimiyyəti ordunun köməyi ilə yenidən bərpa edildi.

Çox təssüflər olsun ki uzun müddət xalqımıza qarşı törədilən bu qanlı faciəni lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atılmamışdı. Ümummilli liderimiz H.Ə.Əliyev 5 yanvar 1994-cü il tarixli fərmanı ilə Milli

Məclisə 20 yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verməsini tövsiyyə etmişdir. Azərbaycan Respublikası Milli Məclisi həmin məsələyə xüsusi sessiya həsr edərək bir neçə gün davam edən iclaslarında Yanvar hadisələrinin əsl səbəblərini açıqlamış, həqiqi günahkarları aşkar etmişdir. 1990-cı il yanvarın 20-də törədilmiş faciəli hadisələrə Milli Məclisin 29 mart 1994-cü il tarixli qərarı ilə siyasi-hüquqi qiymət verilmişdir.[20] H.Əliyev çıxışında qeyd etmişdir ki, «Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya - siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki hala çatmaz tərəflər itgilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı.[21]

İmperiyanın şovinist rəhbərliyi qanlı əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədi, özünün dayağı olan Kommunist Partiyasını, Sovet hakimiyyətini xalqın gözündən daha da saldı, «yenidənqurma»ya olan ümid puç oldu. 20 yanvar faciəsi sübut etdi ki, suverenliyin yeganə yolu imperiyanın dağıdılmasında, müstəqilliyin bərqərarlaşmasındadır. «Başımıza gələnlər tam açıq göstərdi ki, bizim ümum ittifaqdan nicatımız yoxdur!!».[22]

20 yanvar faciəsi ərəfəsində Ermənistanda, Azərbaycan torpaqlarını işğal etmək üçün «İsrail variantı» adlı plan hazırlanmışdı. Həmin plana görə ölkədə qarışıqlıq yaranan kimi erməni hərbi hissələri sərhəddi keçərək Azərbaycana hücum edir və müəyyən əraziləri ələ keçirir; tutulan ərazilərdəki müsəlmanlar oradan «təmizlənir»; Ermənistanın «yeni xəritə»si çəkilir, həmin xəritədə zəbt edilmiş ərazilərə və yaşayış məntəqələrinə yeni, erməni adları verilir, sərhədd xətləri dəyişdirilir.[23] Göstərilən planın ilkin mərhələsi kimi Azərbaycanın işğal olunmuş Kərki kəndini göstərmək olar. Elə bunun ardınca erməni millətçilərinin geniş planlı işğalçılıq siyasəti hissə-hissə həyata keçirilməyə başlandı.

DQMV ərazisində toplaşan silahlı erməni quldur dəstələrinin azərbaycanlılara qarşı cinayət əməlləri gündən-günə genişlənirdi. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, təkcə 1990-cı ilin yanvar-fevral aylarında Dağlıq Qarabağ ərazisində erməni vandalları tərəfindən Azərbaycanlılara qarşı



64 cinayət hadisəsi baş vermişdir.[24] Xalqımıza qarşı ermənilər tərəfindən törədilən ən təhlükəli cinayətlərdən biri erməni terroru idi. Bu qanlı terror isə, təkcə DQMV ərazisində deyil Azərbaycanın bütün ərazisində törədilirdi. Məsələn, 1990-cı il fevralın 13-də Şuşa-Bakı avtobusunun erməni terrorçuları tərəfindən partladılması nəticəsində 13 nəfər ağır yaralanmış və onlarında çoxu ömürlük şikəst olmuşdur. 1990-cı ilin iyulun 11-də Tərtərdən Kəlbəcərə gedən maşın karvanına qəfl erməni terrorçularının basqını olmuş və 14 nəfər Azərbaycanlı öldürülmüş, 35 nəfər isə ağır yaralanmışdır. Həmin ilin 10 avqustunda isə 17 nəfərin ölümü, 26 nəfərin yaralanması ilə nəticələnən Şəmkir-Gəncə avtobusu, elə həmin gün 20 nəfərin ölümü, 30 nəfərin yaralanması ilə nəticələnən Tiflis-Ağdam avtobusu erməni terrorçuları tərəfindən partladılmışdır.[25]

1990-cı il sentyabrın 15-də erməni terrorçuları DQMV-nin tele-radio mərkəzini partlatdılar. Terrorçular, həm də hərbi hissələrə də basqınlar edirdilər. Belə ki, 1990-cı ilin avqustunda erməni terrorçu dəstəsi Yerevanda yerləşən Rusiya hərbi hissəsinə «hücum» edərək 165 ədəd reaktiv «oqnemyotu», 675 siqnal raketi, çoxlu silah və sursatı aparmışlar.[26] Aparılan araşdırmalardan məlum olur ki, bu «hücumu» həmin hərbi hissədə xidmət edən erməni zabitləri və onların «dostları» əvvəlcədən planlaşdırmışdılar. Çünki böyük bir hərbi hissəyə bir neçə erməni terrorçusunun hücumu və külli miqdarda silah, sursat aparması çox təəccüb doğurur. Həmin silahlı «basqın» zamanı heç bir ölüm və yaralanma halı qeydə alınmamışdır. Bütün bunlar isə inandığımız, arxa çevirdiyimiz rus ordusunun kimə xidmət etdiyini bir daha sübut edir.

Azğınlaşmış erməni terrorçu dəstələri təkcə evlər, körpülər, avtobuslar partlatmaqla kifayətlənmirdilər, onlar həm də «lazımlı» adamları girov götürür, onları güllələyir, çoxlu mal-qara, qiymətli əşyalar qarət edirdilər. Məsələn, Ağdərə Rayon Partiya Komitəsinin II katibi Arif Əliyev və 2 nəfərin girov götürülməsi, Şuşa, Kəlbəcər, Laçın və digər sərhəd rayonlarından erməni terrorçuları tərəfindən naxırçıların öldürülməsi və 10 minlərlə mal-qaranın Ermənistana aparılması adi hal almışdı. Erməni terror dəstəsinə başçılıq edən

Q.V.Sarkisyan, A.Avanesyan, M.Tatovosyan və digərlərinin cinayət əməlləri Mərkəzə məlum olsada onlar haqqında qəti imkan tədbirləri həyata keçirilmirdi.[27]

Bəhs edilən dövrdə, Ermənistan silahlı birləşmələrinin Azərbaycanın sərhəd bölgələrinə hücumları genişlənir, Dağlıq Qarabağda qanunsuz silahlı quldur dəstələrinin sayı artır, azərbaycanlılara qarşı hər cür qanlı əməllər güclənirdi. Bütün bunlar, Azərbaycan xalqının narazılığına səbəb olurdu. Bölgədə vəziyyəti «nizama salmaq» məqsədi ilə SSRİ Ali Soveti 1990-cı il martın 5-də «Azərbaycan SSR-də və Ermənistan SSR-də vəziyyəti və şəraiti normallaşdırmaq tədbirləri haqqında qərar» qəbul etdi.[28] Lakin əvvəlki dövrlərdə olduğu kimi, bu qərar da, Azərbaycan xalqının haqq işi uğrunda mübarizəsində dönüş yaratmadı. Hətta Ermənistan hökuməti SSRİ Ali Sovetinin qəbul etdiyi qərarlara zidd qanunlar qəbul etmişdi. Belə ki, Ermənistan SSR Ali Soveti 1990-cı il iyulun 31-də «SSRİ qanunvericiliyində nəzərdə tutulmamış silahlı dəstələrin yaradılmasını qadağan etmək və silahları qanunsuz saxladığı halda onu geri almaq haqqında» 1990-cı il 25 iyul tarixli SSRİ dövlət başçısının fərmanının Ermənistan və DQMV-də qüvvədə olmadığını elan etmişdir.[29]

SSRİ Ali Soveti «DQMV və qonşu rayonlarda fövqəladə vəziyyət elan etdikdən sonra, Azərbaycan SSR Ali Soveti 1990-cı il iyunun 11-də Ermənistanla sərhəd boyu (975 km) fövqəladə vəziyyət elan etdi. Ermənistanla sərhədlər mühəndis qurğularla möhkəmləndirildi.[30] Respublika Təşkilat Komitəsi sərhədlərimizi qorumaq üçün Xüsusi Təyinatlı Milis Dəstələri (OMON) yaratdı. Xüsusi Təyinatlı Milis Dəstələri, hərbi komendatura həm də DQMV-də Azərbaycanlıların yaşadıqları kəndlərin blokadasını açmalı, Ermənistandan vilayətə silah daşınmasının qarşısını almalı idi.[31]

1991-ci ilin əvvəllərində DQMV-də təyyarə meydanına nəzarət Azərbaycan milisinə verildi.[32] Lakin 1991-ci ildə bölgədə vəziyyəti gərginləşdirmək üçün erməni terrorçuları hər vasitədən istifadə etmişdilər. Erməni vandalları daha çox azərbaycanlı məhv etmək üçün nəqliyyat vasitələrində böyük həcmdə terror törətmişlər. Məsələn, 1991-ci il mayın 30-da Moskva-Bakı qatarının



partladılması ilə 12 nəfər ölmüş 22 nəfər yaralanmışdı. İyunun 19-da Yevlax-Laçın yolunda avtomobilin partladılması 3 nəfərin ölümü, 3 nəfərin ağır yaralanması ilə nəticələndi. 1991-ci il iyulun 31-də erməni terrorçuları Moskva-Bakı sərnişin qatarında böyük partlayış törətdilər. Nəticədə, 15 sərnişin həlak olda, 16 nəfər ağır yaralandı. 1991-ci il avqustun 2-də Hadrud-Dolanlar avtobusunun, avqustun 21-də Hadrud-Sadaxt avtobusunun, avqustun 23-də Şuşa-Cəmilli avtobusunun, 8 sentyabrda Ağdam-Xocavənd avtobusunun, Ağdam-Qaradağlı avtobusunun, 26 sentyabrda Yevlax-Laçın yolunda avtomobilin, 19 oktyabrda Ağdərə-Sırxavənd yolunda avtomaşının erməni quldurları tərəfindən partladılması və güllə-boran edilməsi nəticəsində 88 nəfər dinc Azərbaycanlı öldürülmüş və 150 nəfər yaralanmışdır.[33]

1991-ci ildə, əvvəlki illərlə müqayisədə, Azərbaycan ərazisində azərbaycanlılara qarşı erməni terrorizmi daha geniş və amansız xarakter almışdı. Bu dövrdə, erməni terrorçuları namərdcəsinə elə casusluqlar törədirdilər ki, sanki azərbaycanlıların «qanına susamış»dılar. Məsələn, 9 yanvar 1991-ci ildə Laçın-Şuşa yolunda 5 nəfər erməni terrorçusunun «Molodyoj Azərbaycana» qəzetinin müxbiri Salatın Əsgərovanı, podpolkovnik S.M.Larionovu, mayor İ.U.İvanovu, 18 apreldə terrorçu O.V.Sarkisyanın dəstəsi Xocavənd rayonunda 3 nəfər azərbaycanlı milis işçisini, 9 mayda DQMV Təşkilat Komitəsinin rəhbəri V.P.Polyaniçkonu, 27 iyunda Xocavənddə (Qaradağlı kəndində) 6 nəfər kənd sakini, 23 dekabrda Meşəli kəndindən 6 nəfər azərbaycanlını erməni terrorçuları vəhşicəsinə qətlə yetirmişdilər.[34]

Ermənilər Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi Dağlıq Qarabağda törətdiyi qanlı terror əməliyyatı yüzlərlədir. Bunların içərisində Xocavənd rayonunun Qarakənd kəndində 1991-ci il noyabrın 20-də erməni terrorçularının «Mİ-8» vertalyotunu vurması daha dəhşətli idi. Çünki vertalyotda olan 22 nəfərin cəsədi parça-parça olmuş və yanaraq tanınmaz hala düşmüşdür. Həmin dəhşətli partlayış nəticəsində respublikanın dövlət katibi T.İsmayılov, respublikanın baş prokroru İ.Qayıbov, Dövlət Müşaviri M.Əsədov, Baş nazirin müavini Z.Hacıyev, SSRİ xalq deputatları V.Məmmədov, V.Səfərov, Respublika

Melerasiya və su təsərrüfat nazirinin birinci müavini Q.Namazəliyev, Respublika prezident aparatının şöbə müdiri O.Mirzəyev, Dövlət katibinin köməkçisi R.Məmmədov, Azərbaycan Televiziyasının müxbiri A.Mustafayev, operator T.Şahbazov, işıqçı A.Hüseynzadə və başqaları həlak oldular.[35]

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1988-1991-ci illər ərzində Dağlıq Qarabağda erməni vandalları tərəfindən 2559 toqquşma, 315 silahlı basqın, 1388-dəfə ara vermədən top və tüfəngdən atəşə tutma halları qeydə alınmışdır. Bunların nətəicəsində isə, 514 nəfər həlak olmuş, 1318 nəfər yaralanmışdır. Erməni silahlı dəstələri həmin müddətdə Dağlıq Qarabağda azərbaycanlı yaşayış məntəqələrində 119 obyekt və 1134 yaşayış evləri dağıtmış, yandırmışlar.[36]

Sovet imperiyasının silahlı qüvvələri SSRİ-nin saxlanılmasına münasibət haqqında 1991-ci il martın 17-də Ümumittifaq referendumunda iştirak etməyən Ermənistana «dərs vermək», habelə, Azərbaycandakı kommunist rejimini dəstəkləmək üçün erməni quldurlarına köməyi nisbətən azaltdı. 1991-ci il martın 20-də M.Qorbaçov Azərbaycan xalqına İTAR TASS Agentliyi vasitəsilə bildirdi ki, «Yuxarı Qarabağ Azərbaycanın bir parçasıdır. Bölgədə SSRİ Konstitusiyası ilə birlikdə Azərbaycan Konstitusiyası da qüvvədədir. Qarabağda azərbaycanlılarla ermənəilərin birlikdə yaşayıb yaratdıqları tarixin yaratdığı bir gerçəklikdir və bu gerçəklikdən qaçmaq olmaz».[37] Lakin SSRİ rəhbərlərinin bu bəyanatı «arxadan atılan daş»a bənzəyirdi, çünki ermənilər həmin bəyanatdan sonra bu yolda daha da fəallaşdılar. Hətta rus zabiti, baş leytenant Yuriy Qirçenkonun yazdığına görə Qorbaçovun yuxarıdakı bəyanatından sonra Ermənistandan Dağlıq Qarabağa gələn «boyeviklər», nəinki, azərbaycanlıları, hətta rusları da «girov» götürüb bizdən silah, sursat aldıqdan sonra qaytarırdılar. Erməni cəlladlarının ruslara qarşı olan mövqeyi Dağlıq Qarabağdakı rus əsgərlərinin narazılığına səbəb olmuş və hərbi hissələrdən qaçmasına gətirib çıxarmışdır. Təkcə bir gündə batalyondan 15 rus həbiçisi qaçmışdı.[38]

Eyni zamanda, bəhs etdiyimiz dövrdə, DQMV-də erməni silahlı quldur dəstəsinin içərisində muzdlu zənci hərbçilər də var idi.



Ölkədə dərinləşən sosial-iqtisadi və siyasi böhran SSRİ-nin dağılmasını sürətləndirdi. Mərkəzin, xüsusilə M.Qorbaçovun razılığı ilə Azərbaycanın DQMV-də başlanmış separatçılıq hərəkatı SSRİ-nin dağılmasının başlanğıcı oldu. Sovet rəhbərliyinin SSRİ-ni qoruyub saxlamaq cəhdləri heç bir nəticə vermədi. 1991-ci il avqustun 23-də SSRİ-nin birinci və axırıncı prezidenti M.Qorbaçov Kommunist Partiyasının buraxılması tələbini qəbul etdi. Bundan sonra, Azərbaycanda siyasi vəziyyət daha da gərginləşdi. Azərbaycan xalqı keçmiş rejimi saxlamağa çalışan Respublika rəhbərliyinə və siyasi mühavizəkarlara qarşı mübarizəyə başladı. Mitinqçilər fövqəladə vəziyyətin ləğv edilməsini, DQMV-də Azərbaycanın suveren hüquqlarının təmin olunması üçün qəti tədbirlər görülməsini, Azərbaycanda prezident seçkilərinin dayandırılmasını, KP-nin ləğv edilməsini, parlamentin buraxılması və yeni parlament seçkiləri keçirilməsini tələb edirdilər. Xalqın tələbi ilə çağrılmış Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da «Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə» qəbul etdi.

Ölkədə yaradılmış qarışıqlıqdan istifadə edən Dağlıq Qarabağın separatçı erməniləri Azərbaycanın parçalanmasına yönəlmiş addım ataraq 1991-ci il sentyabrın 2-də burada qeyri-qanuni bir qurum-oyuncaq «Dağlıq Qarabağ Respublikası»nın yarandığı və müstəqilliyini elan etdilər.[39] Bölgədə keçirilən «referendium»da erməni icması bu bədnam quruma tərəfdar olduqlarını bildirmişdilər. Üzdəniraq «Respublika»nın iyrənc «ali soveti»nə «seçkilər» də keçirilmişdir. Bədniyyət ermənilər qondarma «Dağlıq Qarabağ Respublikası»na, təkcə Yuxarı Qarabağı birləşdirməklə kifayətlənmədilər, onlar, həm də Goranboy ərazisinin bir hissəsini də buraya daxil etdilər. Tezliklə, Yuxarı Qarabağda «Arsax Xalq Azadlıq Ordusu» təşkilati cəhətdən formalaşmağa buşlandı. 1991-ci il oktyabrın 29-da üzdəniraq «respublika»nın «Arsax Xalq Cəbhəsi» yaradıldı.

Rusiya Federasiyası 1991-ci il avqust qiyamından sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinə

başlamışdır. Rusiya və Qazaxıstan rəhbərliyinin birgə vasitəçilik missiyası bu istiqamətdə atılan ilk cəhd olmuşdur. Azərbaycan və erməni tərəfinin razılığı ilə hər iki dövlət (Rusiya və Qazaxıstan) vasitəçilik missiyasını öz üzərlərinə götürürlər. 1991-ci il sentyabrın 20-23-də Rusiya prezidenti Boris Yeltsinin və Qazaxıstan prezidenti Nursultan Nazarbayevin başçılıq etdikləri vasitəçilik missiyası Bakı, Gəncə, Xankəndi və Yerevan şəhərlərində oldular. Dağlıq Qarabağ münaqişənin nizamlanması istiqamətindəki vasitəçilik səylərinin nəticəsində Şimali Qafqazın kurort şəhəri Yeleznovodskda dördtərəfli birgə koomunike imzalanır. Koomunikeni Rusiya tərəfdən B.Yeltsin, Azərbaycan tərəfdən A.Mütəllibov, Qazaxıstan tərəfdən N.Nazarbayev, Ermənistan tərəfdən isə L.T.Petrosyan imzalamışdılar.[40]

İmzalanmış koomunikeyə görə tərəflər aşağıdakıları münaqişənin nizamlanmasının zəruri və məcburi şərtləri kimi qəbul etdilər: Atəşin dayandırılması, Azərbaycan-Ermənistan, Dağlıq Qarabağa dair bütün qeyri-konstitusion aktların 1992-ci il yanvarın 1-dən ləğv edilməsi, qanuni hakimiyyət orqanları səlahiyyətlərinin tanınması, SSRİ DİN Daxili qoşunlarının və SSRİ Müdafiə Nazirliyinin hissələri istisna olmaqla münaqişə bölgəsindən bütün silahlı dəstələrin çıxarılması, tərəflər deportasiya olunmuş əhalinin öz yerlərinə qayıtmasını təmin etməli, girovların azad edilməsinə başlamalı, nəqliyyat, rabitə, kommunikasiya sistemlərinin normal fəaliyyətini təmin etməyi öz öhdələrinə götürdülər. Eyni zamanda, Azərbaycan və Ermənistan ali dövlət hakimiyyət orqanları daimi əsasda dərhal ikitərəfli danışıqlar prosesinə başlamaq üçün səlahiyyətli nümayəndə heyətləri təyin etməli idilər. Bu tədbirlərin icrası məqsədilə Rusiya və Qazaxıstanın səlahiyyətli nümayəndələrindən ibarət müvəqqəti işçi müşahidəçilər qrupunun yaradılması nəzərdə tutulmuşdu. Lakin ermənilər tərəfindən münaqişənin gərginləşməsi səbəbindən Jeleznovodsk kommunikesinin müddəalarının reallaşması olmadı.[41]

Yuxarı Qarabağda erməni silahlı birləşmələrinin vəhşilikləri davam edirdi. Azərbaycanda könüllülərdən təşkil edilmiş özünümüdafiə batalyonları pərakəndə fəaliyyət göstərir, hərbi əməliyyatlar əlaqələndirilmirdi. Düşmən hücumlarının



qarşısını almaq üçün dövlət səviyyəsində lazımi tədbirlər görülmürdü. On minlərlə dinc əhali öz yurdundan qaçqın və köçgünə çevrildi.

1991-ci il oktyabrın 18-də Azərbaycan xalqının tələbi ilə Azərbaycan SSR Ali Soveti «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı»nı qəbul etdikdən sonra erməni silahlı dəstələrinin Yuxarı Qarabağda yerləşən Sovet Ordu hissələri şəxsi heyətinin və döyüş texnikasının köməyi ilə azərbaycanlılara qarşı irimiqyaslı hərbi əməliyyatlara başladılar.[42] Azərbaycanlılar öz torpaqlarından qovulub çıxarılmağa, kəndlər isə yandırılaraq viran edilməyə başlandı. 1991-ci il oktyabrın 28-də Tuq, 31-də Salaket kəndləri ələ keçirilib yandırıldı. 1991-ci il noyabrın ortalarında Xocavənd qəsəbəsini mühasirəyə alan erməni hərbi birləşmələri noyabrın 19-da güclü artilleriya atəşindən sonra müdafiəçilərin müqavimətini qırıb qəsəbəni tutdular. Erməni faşistləri Xocavənd qəsəbəsində 2 sakini, o cümlədən, bir yaşlı körpəni diri-diri yandırdılar, onlarla evin külü göyə sovruldu. 1991-ci il noyabrın 20-də Lamzur, 23-də Əmiranlar kəndləri zəbt edildi. Dekabrın 23-də isə azğınlaşmış erməni silahlı birləşiələri Meşəli kəndində dinc, köməksiz əhalini gülləboran etdi. Bu zaman 33 nəfər öldürüldü, 3 ailə isə evindəcə yandırıldı. 1992-ci il yanvarın 13-də Meşəli kəndi tamamilə darmadağın edilmişdi. 1991-ci ilin dekabrında Daşbaşı, Axullu kəndləri erməni faşistləri tərəfindən ələ keçirildi və evlər odlara qalandı.[43]

Yuxarı Qarabağda erməni silahlı birləşmələrinin törətdiyi cinayətlər, qondarma «Dağlıq Qarabağ Respublikası»nın yaradılması Azərbaycan hökumətinin, xalqımızın mənafeyinə uyğun deyildi. Ona görə də, 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Soveti «Azərbaycan və erməni xalqları arasında milli ədavəti yaratmaq və dərinləşdirmək faktoru kimi» Dağlıq Qarabağın Vilayət statusunu ləğv edən qanun qəbul etdi və üzdəniraq «Dağlıq Qarabağ Respublikası»nı tanımadığını bildirdi.[44] Lakin səhəri gün – 1991-ci il noyabrın 27-də SSRİ Dövlət Şurası DQMV-nin statusunun ləğv olunmasının SSRİ Konstitusiyasına zidd olduğunu yada salaraq, Azərbaycan rəhbərliyindən Dağlıq Qarabağa yenidən «Vilayət» statusunun qaytarılmasını tələb etdi.[45]

Rusiyanın etirazı başa düşülən idi. Çünki, vaxtılə Sovet Rusiyası və SSRİ hökuməti Dağlıq Qarabağa Muxtar Vilayət statusu verməklə ondan bir qaba silah kimi istifadə edəcəkdi və etdi də. Xalqımız üçün «zərərli virus» rolunu oynayan DQMV-nin 1991-ci ildə ləğvi Rusiyanın mənafeyinə uyğun edildi. Çünki, DQMV-nin ləğvi Rusiyanın «parçala və hökm et» siyasətinə maneə ola bilərdi. 1991-ci il noyabrın 27-də SSRİ Dövlət Şurası «DQMV-də Azərbaycan və Ermənistan Respublikalarınm sərhədyanı rayonlarında vəziyyəti sabitləşdirmək tədbirləri haqqında» qərarını qəbul etdi. Qərarda Azərbaycan və Ermənistan Ali Sovetlərinə təklif olunurdu ki, DQMV-nin statusunun dəyişdirilməsinə yönələn bütün qərarları ləğv etsin, münaqişənin siyasi yolla nizama salınmasına şərait yaratmaq üçün dövlət başçıları səviyyəsində birbaşa danışıqlar davam etdirilsin. Eyni zamanda, hər iki respublika prezidentinə tövsiyyə edilirdi ki, atəşin dayandırılması və münaqişə bölgəsindən bütün qanunsuz silahlı birləşmələrin çıxarılmasını təmin etsinlər. Qərarın sonunda, SSRİ Dövlət Şurası Azərbaycan Ali Sovetinə müraciət edərək, vəziyyətin bütün kəskinliyinə baxmayaraq Ermənistanla dəmiryolu və qaz blokadasını dərhal bərpa etməyə çağırırdı.[46] Ümumiyyətlə, SSRİ-nin Dağlıq Qarabağ məsələsi ilə əlaqədar qəbul etdiyi bu son qərar prinsip etibarilə əvvəlki qərarlardan heç nə ilə fərqlənmirdi və hadisələrin gedişi bu sənədlərin də heç bir hüquqi qüvvəsi olmadığını göstərdi. Qərarın axırıncı bəndi isə SSRİ hökumətinin sırf Ermənistanı müdafiə etdiyini bir daha sübut edirdi.

1991-ci il dekabrın 8-də Rusiya Federasiyası, Ukrayna və Belarusiyanın liderləri 1922-ci il ittifaq müqaviləsinin fəaliyyətinin dayandırılması və Müstəqil Dövlətlər Birliyi yaratmaq niyyətini bildirdilər. Dekabrın 25-də Qorbaçov istefa verdi və SSRİ dağıldı.[47] SSRİ-nin dağılması ilə postsovet məkanında yeni geopolitik şərait əmələ gəldi. Ermənistan faktiki olaraq Azərbaycana qarşı müharibəyə başladı.

SSRİ-nin dağılması ilə Sovet Ordusu sıralarında qulluq edən erməni zabitləri və keçmiş sovet hərbi hissələri azərbaycanlılara qarşı birləşdilər. SSRİ dağıldıqdan sonra erməni hərbi birləşmələrinin döyüş texnikası da gücləndi.



Çünki, onlar yaranmış boşluqdan istifadə edib lazımınca silah, sursat və döyüş texnikası ələ keçirdilər. DQMV-də fəaliyyət göstərən hərbi hissənin zabiti mayor Yuri Gerçenkonun yazdığına görə: «Hərbi hissələrimiz döyüş sursatlarını ermənilərə qoyub gedirdilər. Çünki ermənilərə müharibəni davam etdirmək lazım idi. Biz isə, yalançı akt tərtib edərək texnikanı satırdıq. Bunu, nəinki, 4-cü ordunun komandirləri, hətta Zaqafqaziya hərbi dairəsinin komandanlığı da bilirdi».[48] Bu, rus zabitinin səmimi, lakin xalqımız üçün acı olan bir etirafı idi. Artıq erməni silahlı birləşmələri güclü, yüksək döyüş texnikasına malik bir orduya çevrilmişdi. Əvvəllər sovet və MDB silahlı qıvvələrindən hərbi dəstək olan erməni silahlı quldurları bu gün rus hərbi qüvvələrinin gücündən məharətlə istifadə edərək Dağlıq Qarabağda irimiqyaslı hərbi əməliyyatlar keçirmiş, bir sıra əlverişli strateji mövqeləri tutmuş, azərbaycanlıları buradan qovub çıxarmışdılar.

1991-ci ilin dekabrın 29-da Ermənistanla Rusiya arasında «Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə»nin bağlanması Rusiyaya, Dağlıq Qarabağ ermənilərini Azərbaycana qarşı açıq-aşkar silahlandırmaq imkanı verdi.[49] Beynəlxalq ictimaiyyət tərəfindən demək olar ki, heç bir müqavimətə rast gəlməyən, Rusiyanın himayəsini açıq-aşkar hiss edən erməni millətçiləri və separatçıları daha da azğınlaşdılar.

Beləliklə, Dağlıq Qarabağ hadisələrinin başlanğıcından SSRİ-nin süqutuna qədər keçək dövr ərzində (1988-1991) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi get-gedə daha da kəskinləşdi, onu nizama salmaq mümkün olmadı. Əksinə, ittifaqın müəyyən dairələri və xarici dövlətlərdəki erməni lobbisi tərəfindən himayə edilən erməni millətçiləri Azərbaycana qarşı əsassız ərazi iddialarını irəli sürərək, açıq-aşkar təcavüzkarlıq siyasəti yeritmiş, nəticədə, 514 nəfər azərbaycanlı həlak olmuş, 1318 nəfər ağır bədən xəsarəti almış, 1253 ev və ictimai obyekt dağıdılmış, viran edilmiş və yandırılmışdı.[50] Artıq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müharibəyə çevrilmişdir.

## XIX FƏSİL.

## AZƏRBAYCANDA HƏRBİ-SİYASİ BÖHRANIN DƏRİNLƏŞMƏSİ, YUXARI QARABAĞDA ERMƏNİ VƏHŞİLİKLƏRİ: XOCALI FACİƏSİ, ŞUŞA VƏ LAÇININ İŞĞALI (1992-CI İL)

Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra digər dövlətlərlə münasibətlərini dövlət sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü, mübahisəli məsələlərin dinc yolla nizama salınması, başqa dövlətlərin daxili işlərinə qarışmamaq prinsipləri əsasında qurdu. Ali hakimiyyət orqanları dünyanın iri dövlətlərinin maraqlarını təmin edə biləcək tarazlı siyasət yeridə bilmədiyindən Dağlıq Qarabağ probleminin vaxtında həlli üçün ona lazımi dəstək verə bilmədi. Eyni zamanda, oyuncaq «Dağlıq Qarabağ Respublikası»nın elan olunması, beynəlxalq birliyin buna loyal münasibəti erməni separatçılarını şirniklendirmiş və Rusiya ilə Ermənistan arasında «Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə» bağlanması Daqlıq Qarabağ ermənilərinin silahlanmasına şərait yaratmış, nəticədə qədim Azərbaycan torpaqları erməni vandallarının müharibə meydanına çevrilmişdir. Xarici hərbi və siyasi qüvvələrin yaxından köməyilə ermənilər Yuxarı Qarabağda irimiqyaslı hərbi əməliyyatlar keçirmiş bir sıra əlverişli strateji mövqeləri tutmuş, azərbaycanlıları öz dədə-baba yurdlarından qovub çıxarmışdılar. Ermənistanın Azərbaycana qarşı apardığı əsassız ərazi iddiaları əvvəlcə özünü nümayiş, tətil, münaqişə şəklində göstərirdisə, artıq 1991-ci ilin sonlarında elan olunmamış müharibəyə çevrilmişdi.

1991-ci il dekabrın 27-də başdan ayağadək silahlanmış 300 nəfərlik erməni faşist birləşməsi ağır texnikadan istifadə etməklə Kərkicahan istiqamətində hücum etdilər. Kərkicahanın müdafiəsində Mehman Hüseynovun başçılığı altında 22 nəfərlik könüllü dəstə döyüşürdü. Bu kiçik dəstənin mühasirəyə düşməsinə baxmayaraq 8 saat düşmənə mətanətlə müqavimət göstərdilər. Kərkicahan döyüşündə ilk dəfə olaraq erməni faşistləri odatan silahlardan



istifadə etdilər.[1] Canlı ordunun və silahların qeyri bərabərliyi Kərkicahan döyüşündə azərbaycanlıların məğlubiyyəti ilə nəticələndi. Yaralı vəziyyətdə ələ keçirilmiş döyüşçülərə namərd ermənilər tərəfindən dəhşətli işgəncələr verilərək öldürülmüşdü. Çox çətinliklə cəsədi geri alınan Fərhad Atakişiyevin üzərində 75-dən çox işgəncə izi aşkar edilmişdi.[2] 1991-ci ilin sonlarında azğınlaşmış erməni silahlı birləşmələri rusların köməyilə Dağlıq Qarabağın Xocavənd, Əmiralılar, Meşəli, Daşbaşı, Axullu kəndlərini də ələ keçirib, qələbələrdən şirnikərək Malıbəyli və Quşçular kəndlərini mühasirəyə aldılar. 1992-ci ilin yanvarın 21-də Qaybalı, fevralın 12-də Malıbəyli, Aşağı Quşçular, Yuxarı Quşçular kəndləri düşmən əlinə keçərək tamamilə yandırıldı.[3] Erməni vandalları heç kəsə – qocaya, qadına, uşağa, xəstəyə aman vermədən məhv edirdilər. Xocalı və Şuşanın mühasirəsi getdikcə daralırdı. Azərbaycan silahlı qüvvələrinin hərbi uğursuzluqlarının mühüm səbəblərindən biri ordu quruculuğunda ciddi nöqsanlara yol verilməsi idi.

Azərbaycan Respublikası Ali Soveti 1991-ci il oktyabrın 9-da «Azərbaycan Milli özünümüdafiə qüvvələri haqqında» qanun qəbul etmişdi.[4] Bu qüvvələrin ilk hissələri dekabrın 8-də cəbhəyə yola salınmışdı.[5] İlk vaxtlar könüllülük əsasında qurulmuş, təcrübəli hərbçiləri az olan orduda ciddi nizam-intizam yaratmaq mümkün deyildi. Hərbi hissələrə müxtəlif siyasi qüvvələrin təsiri böyük idi. Bəzi ictimai təşkilatların, məsələn, AXC-nin, hətta ayrı-ayrı şəxslərin hərbi dəstələri var idi.

1991-ci ilin noyabrında Azərbaycanın Yuxarı Qarabağ və Ermənistanla sərhəd 22 rayonunda şəhər özünümüdafiə taburunun yaradılması haqqında əmr verildi.[6] 1992-ci ilin fevralında isə ərazi özünümüdafiə taburları və xüsusi təyinatlı reyd dəstələri yaradıldı. Bu dəstələrin tərkibi yerli əhalidən ibarət idi və müvəqqəti hesab olunaraq yerli imkanlar hesabına saxlanılırdı. Orduda hərb sənətini mükəmməl bilən sərkərdələr çatışmırdı. Azərbaycanlıların hərb sənətini zəif bilməsi, vaxtilə hərbi xidmət keçərkən «tikinti batalyonları»nda («Stroybat»da) xidmət etmələri ilə əlaqədar idi. Həmin batalyonlarda xidmət etməyimizin bir səbəbi bizim özümüzdən asılı idisə, əsas səbəb sovet hərbi koman-

danlığının türk-islam gənclərini texnikaya, silahlara yaxın buraxmaması ilə əlaqədar idi. 1992-ci il yanvarın 14-də Türkiyə ilə Azərbaycan arasında hərbi təlim sahəsi üzrə əməkdaşlığa dair ilk razılıq sənədi imzalandı.[7] Orduda silah və sursat çatışmırdı.

Yeni yaradılmış özünümüdafiə taburlarının komandirləri və onların müavinləri rayon hərbi komissarları tərəfindən seçilir, icra hakimiyyəti başçısının razılığı ilə Müdafiə Nazirliyi tərəfindən təsdiq edilirdi. Tabur komandirləri icra hakimiyyəti başçısının müdafiə məsələləri üzrə müavinləri idi. Hərbi hissələrə rəhbərlikdə ikili mövqe yolverilməz hal idi və bu hərbi işin inkişafına mane olurdu. Burada məqsəd, Prezidentin İcra Hakimiyyəti vasitəsilə hərbi hissələri öz əlində saxlaması olmuşdur.[8]

1992-ci ilin fevralında Yuxarı Qarabağın azərbaycanlılar yaşayan kəndlərində yerli əhalidən ibarət müstəqil hərbi hissələr təşkil olundu.[9] Lakin Azərbaycanda yaradılmış hərbi hissələrin döyüş qabiliyyəti və təchizatı lazımi səviyyədə deyildi.

Orduya rəhbərlik tez-tez dəyişdirilirdi. Baş qərargahın işi pis qurulmuşdu. Hərbi hissələrə pozuculuqla məşğul olan satqınlar soxula bilmişdi. Güclü hərbi informasiya axınına yol verilirdi. Hərbi hissələrdə silah, sursat, yanacaq oğurlanır, hətta düşmənə də satılırdı. Fərariliyə qarşı ciddi mübarizə aparılmırdı. Respublikamız dərin siyasi böhran içərisində idi. Hakimiyyət uğrunda kəskin mübarizə gedirdi. Xalqın gücünü bir yerdə cəmləşdirmək mümkün deyildi. Yağı düşmən isə Azərbaycanda yaranmış çətin vəziyyətdən məharətlə istifadə etdi.

1992-ci ilin əvvəllərində Şuşa və Xocalı erməni vandalları tərəfindən mühasirəyə alınmışdı. Azərbaycanın qədim yaşayış məskəni olan Şuşaya 2 əsas yol gedirdi. Ağdam-Şuşa yolu Xankəndindən keçdiyi üçün bu yol bağlanmışdı. Şuşa-Laçın yolu isə erməni quldurlarının cəmləşdiyi Daşaltı kəndinin ərazisindən keçirdi və həmin yolu yalnız gecə, işıqsız vəziyyətdə keçmək olurdu. Şuşa-Laçın yolunda cəmləşən erməni quldur yuvasını məhv etmək üçün 1992-ci il yanvarın 23-də Azərbaycan Respublikası Müdafiə Naziri Tacəddin Mehtiyev Şuşa şəhərinə gəldi. Şuşanı mühasirədən xilas etmək üçün məxvi «Daşaltı əməliyyatı»



planı hazırlandı. Həmin «Plan»a görə 1992-ci il fevralın 25-də gecə Azərbaycan ordu hissələri Daşaltı kəndində hərbi əməliyyat keçirməklə şəhərdən Laçına gedən yolu açmalı idilər. Lakin həmin «plan» da, satğınlığın «qurbanı»na çevrildi. Artıq yanvarın 24-də rus agentləri «Daşaltı əməliyyatı» planını ermənilərə çatdırdılar. Kəndə giriş yolları minalandı və gizli pusqu quruldu. Azərbaycanın ordu hissələrinin 1992-ci il yanvarın 25-dən 26-a keçən gecə keçirdiyi hərbi əməliyyatlar bu səbəblərdən uğursuzluğa düçar oldu. Satqın bələdçilər isə əsgərləri və zirehli maşınları «lazım olan istiqamətə» yönəldilər. Ordu böyük tələfat verdi – 33 nəfər həlak oldu, 34 nəfər itgin düşdü, 36 nəfər yaralandı.[10]

Şuşanın mühasirəsini Daşaltı istiqamətində yarmaq mümkün olmadığından Ağdam istiqamətində «Xramod-Xanabad əməliyyatı» hazırlandı. Lakin təəssüflər olsun ki, bu plan da əlaqəsizlik və satğınlıq üzündən baş tutmadı.[11]

1992-ci ilin əvvəllərində erməni terrorçuları azərbaycanlılara qarşı qanlı terror aksiyalarını daha da genişləndirdilər. Təkcə, 1992-ci ilin yanvarında erməni terrorçuları Azərbaycanda 2 böyük terror törətmişdilər. 1992-ci il yanvarın 8-də erməni terrorçuları «Krasnovodsk-Bakı» dəniz sərnişin bərəsində partlayıcı qurğu vasitəsilə partlayış törətdilər. Partlayış nəticəsində 25 nəfər öldü, 88 nəfər isə ağır yaralandı.[12]

1992-ci il yanvarın 28-də isə «Ağdam-Şuşa marşurutu ilə uçan mülki vertalyot erməni terrorçuları tərəfindən vuruldu. Əsasən qadın, uşaq və qocalardan ibarət 47 nəfər azərbaycanlı parça-parça olub yerə töküldü. Vertalyot necə partlamışdısa həlak olunların şəxsiyyətini müəyyən etmək belə mümkün olmadı.[13]

Azərbaycan ordusunun uğursuz hərbi əməliyyatları Respublikamızın Ali Sovetini yeni qərarlar çıxarmağa vadar etdi. Ali Sovetin 30 yanvar 1992-ci il tarixli iclasında Yuxarı Qarabağ üzrə qərargah yaradılması, qərargahın rəisi vəzifəsinə Rəhim Qazıyevin təyin edilməsi qərara alınır.[14] Eyni zamanda,

Rusiyaya məxsus 366-cı motoatıcı alayın Yuxarı Qarabağ ərazisindən çıxarılması haqqında qərar qəbul edildi.[15]

Bəhs etdiyimiz dövrdə, dünyanın aparıcı dövlətlərinin və nüfuzlu beynəlxalq təşkilatların Azərbaycana, onun ayrılmaz hissəsi olan Yuxarı Qarabağa və orada Ermənistanın həyata keçirdiyi təcavüzkarlıq siyasətinə münasibətləri necə idi?

Azərbaycanın bol yeraltı və təbii sərvətlərə malik olması həmişə dünyanın aparıcı dövlətlərinin diqqətində olmuşdur. Rusiya Federasiyası keçmiş SSRİ dağıldıqdan sonra Azərbaycanda öz təsir dairəsini qoruyub saxlamağa cəhd edirdi. Dünyanın super dövlətləri isə yeni satış bazarları və xammal mənbələri əldə etmək istəyi ilə Azərbaycanla münasibətlər yaratmaq niyyətində idilər. Qısa bir müddətdə Azərbaycanın dövlət müstəqilliyini dünya dövlətlərinin əksəriyyəti tanımışdı. Müstəqil Azərbaycan dövlətini, ilk olaraq Türkiyə, sonra isə Rumıniya, Pakistan, İsveçrə, İran, ABŞ, Rusiya və digər dövlətlər tanıdılar.[16] 1991-1992-ci illərdə İslam Konfransı Təşkilatına, İqtisadi Əməkdaşlıq Təşkilatına, Ümumavropa təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, ATƏM-ə, BMT-yə üzv qəbul olundu.[17]

Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişənin nizama salınması yolunda ilk addımı ATƏM atmışdır. Belə ki, 1992-ci ilin fevral ayından başlayaraq Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ATƏM-in diqqət obyektinə çevrildi və qurumun xüsusi missiyası Azərbaycana gəldi. Münaqişə bölgəsinə gedən ATƏM-in nümayəndələri vəziyyətlə yerində tanış oldu. 1992-ci il fevralın 27-də ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) Praqada keçirilmiş 7-ci iclasında münaqişə bölgəsində olan missiyanın məruzəsi dinlənildi. İlk dəfə olaraq, Beynəlxalq Təşkilatlarda Dağlıq Qarabağın Azərbaycan Respublikasına mənsub olmasını təsdiq edən sənəddə, sərhədlərin dəyişdirilməməsi şərti ilə münaqişənin sülh yolu ilə həllinə çağırış öz əksini tapdı.[18] Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi ikinci dəfə yenə də ATƏM-in YVŞK-nin martın 13-14-də Helsinkində keçirilmiş 8-ci iclasında müzakirə edildi. İclasda, yenə də sərhədlərin dəyişdirilməməsi şərtilə



münaqişənin dinc siyasi vasitələrlə aradan qaldırılması yolları göstərildi. Lakin ATƏM-in Praqa və Helsinkində keçirilən iclasları və orada qəbul edilən qərarlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin dinc yolla həlli üçün heç bir əhəmiyyətə malik olmadı.[19]

1992-ci ilin fevralında hər cür silahla silahlanmış erməni hərbi hissələri azərbaycanlılara qarşı tarixdə misli görünməyən faciələr törətdilər. 1992-ci il fevralın əvvəllərində Şuşanın Malıbəyli, Kəlbəcərin Ağdavan kəndləri erməni silahlı quldurları tərəfindən ələ keçirildi. Həmin kəndlərdə dinc sakinlər arasında 100-dən çox ölən, 140-dan çox yaralanan və əsir düşən var idi. Aparılan araşdırmalardan məlum olur ki, erməni silahlı birləşmələrinə bu əməliyyatlarda Rusiyanın 366-cı motoatıcı alayı yaxından kömək etmişdir. 1992-ci il fevralın 13-də düşmənin növbəti hücumu Xocavənd rayonunun Qaradağlı kəndi istiqamətində oldu. Burada qanlı döyüşlər 4 gündən artıq davam etdi. Qanlı döyüşlərdə kənd dəfələrlə əldən-ələ keçdi. Qeyri-bərabər döyüşlərdə erməni silaşlı birləşmələri Qaradağlı kəndini ələ keçirdi. Kənd ələ keçirilən zaman 92 nəfər özünümüdafiə taborunun döyüşçüsü və 54 nəfər dinc kənd sakini azğınlaşmış erməni vandalları tərəfindən öldürülərək silos quyusuna atılmışlar. Erməni quldur dəstələri 117 nəfər dinc kənd camaatını (uşaq, qoca, qadın, cavan) girov götürmüş və onlardan 77 nəfəri amansızlıqla qətlə yetirmişlər.[20] Erməni quldurları Qaradağlı kəndinin Vərəndəli fermasını ələ keçirərkən burada işləyən 6 nəfər azərbaycanlıya əvvəlcə işgəncələr vermiş, sonra əl-ayaqlarını bağlayaraq benzin töküb yandırmışlar. Qaradağlı kənd sakini, sağıcı Qaragöz ana yağı düşməndən azyaşlı oğlu İltifatı öldürməməyi, nə cəza varsa onun özünə verməyi xahiş etdikdə iyrənc düşmən ana ilə oğulu fermadan tapdıqları zəncirlə bir-birinə bağlamış və elə vəziyyətdə od vurub yandırmışdılar.[21] Erməni vandalları Xocalıda bundan da qəddar vəhşiliklər törətmişlər.

1992-ci ilin fevralında erməni cəlladları tərəfindən Xocalının ələ keçirilməsi üçün məxvi plan hazırlanmışdı. Plana görə, fevralın 25-də gecə hər tərəfdən Xocalını mühasirəyə almalı, burada yaşayan azərbaycanlıların hamısını məhv etməli, qədim yaşayış məskəni olan Xocalını yandırmaqla xəritədən silməli idilər.

«Plan»ın müvəffəqiyyətlə həyata keçirilməsi üçün Xocalıya 3 birləşmiş erməni silahlı hərbi qüvvələri müxtəlif istiqamətlərdə, eyni vaxtda hücum etməli idilər. Rusiyanın 366 alayı, erməni hərbi birləşmələri, habelə xarici ölkələrdən gətirilmiş muzdlu quldur dəstələri mayor Seyran Oqanyanın, mayor Yevgeni Nabogixinin və mayor Lixodyanın rəhbərliyi altında müsəlman qanına susayan vandallar xüsusi qəddarlıq nümayiş etdirmişdilər.[22]

Bu zaman Respublika rəhbərliyinin laqeydliyi ucbatından Xocalının müdafiəsi lazımi səviyyədə təşkil olunmamışdı. 80 nəfərdən ibarət Xocalı özünümüdafiə taburu heç bir zirehli texnika ilə silahlandırılmamışdı. Onlara Şıx briqadasının ikinci taburu və 20 nəfərdən ibarət minaatanlar batareyası kömək edirdi. 60 nəfərlik milis dəstəsi təyyarə meydanını qoruyurdu. Cəmi 160 nəfərlik müdafiəçisi olan Xocalı, güclü və namərd hərbi birləşməyə malik düşmənlə üz-üzə qaldı.[23]

1992-ci il fevralın 25-də saat 21-də erməni hərbi birləşmələri Xocalıya hücum etdilər. İlk zərbə hava limanına endirildi. Hava limanının müdafiəsini 22 nəfərlik dəstə ilə Əlif Hacıyev öz üzərinə götürmüşdü. Ə.Hacıyev düşmənin güclü hücumunu 3 dəfə dəf edə bildi. Lakin qeyri-bərabər qüvvələrlə qələbə çalmaqın çətin olduğunu görən Ə.Hacıyev dispeçer məntəqəsini partlatdı ki, hava limanı düşmən əlinə keçməsin. Döyüşlərdə Ə.Hacıyev ağır yaralandı və qəhrəmancasına həlak oldu. Ölümündən sonra Xüsusi Təyinatlı Milis Dəstəsinin Komandiri, milis mayoru Əlif Hacıyevə göstərdiyi şücaətə görə Azərbaycanın Milli Qəhrəmanı adı verildi.[24]

Düşmən tankları, zirehli maşınları güclü artilleriya hazırlığından sonra Mehdikənd, Qaraguh və Daşbulaq tərəfdən Xocalıya soxuldular və küçə döyüşləri başlandı. İgid komandir Tofiq Hüseynov öz döyüş yoldaşları ilə qat-qat güclü düşmənin hücumlarının qarşısını almaqla, onlarla adamın mühasirədən çıxmasına şərait yaratdı. Mühasirəyə düşən T.Hüseynov son gülləni özünə vurdu. Ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi.[25]

Həmin gecə Xocalı şəhəri yandırıldı. Sağ qalan əhali qarlı-şaxtalı gecədə ayaqyalın-başıaçıq Ağdama tərəf qaçmağa başladı. Yaralıların çoxu donvur-



madan öldü. Sağ qalanlar isə Qaraqaya adlı yerdə meşədən çıxarkən pusqudan çıxan erməni faşistləri tərəfindən gülləboran edildi. Yüzlərlə köməksiz qoca, qadın, uşaq həlak oldu. Erməni faşistləri yaralılara işgəncə verib meyitləri eybəcər hala salır, qadın və qızları təhqir edirdilər. Erməni quldurları Xocalıda azərbaycanlılara qarşı soyqırım törətdilər. Həmin dəhşətli gecədə 613 nəfər, o cümlədən, 106 qadın, 83 azyaşlı uşaq, 70 qoca öldürüldü, 1000 nəfər Xocalı sakini güllə yarası alaraq şikəst oldu, 1275 nəfər əsir alındı, 8 ailə bütövlükdə məhv edildi, 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırıldı. Qəddar düşmən azərbaycanlıların başının dərisini diri-diri soyur, gözlərini çıxarır, bədən üzvlərini kəsir, dırnaqlarını və dişlərini çəkir, hamilə qadınların qarınlarını süngü ilə deşirdilər.[26]

Ümummilli liderimiz H.Ə.Əliyev çıxışlarından birində «Xocalı soyqırımı»ndan bəhs edərək demişdi: «Bəşər tarixinə öz vəhşiliyinə və cəza üsullarımn ağılasığmaz qəddarlığına görə ən qanlı kütləvi terror hadisəsi kimi düşmüş Xocalı soyqırımından bir neçə il keçir. 1992-ci ilin o müdhiş fevral gecəsində Ermənistan hərbi birləşmələri keçmiş SSRİ-yə məxsus 366-cı motoatıcı alayın köməyi və bilavasitə iştirakı ilə Azərbaycanın Xocalı şəhəri yerlə yeksan edilmiş, günahsız dinc əhaliyə, o cümlədən, uşaqlara, qocalara, qadınlara divan tutmuş, misli görünməmiş vəhşilik aksiyası həyata keçirilmişdir. Erməni millətçiləri və onların havadarlarının insanlıqla bir araya sığmayan mürtəce mahiyyəti Xocalı soyqırımında bütün çılpaqlığı ilə üzə çıxdı... Əslində Xocalı soyqırımı XX yüzilliyin nə böyük insan faciələrindən biridir. Xocalıdakı insan qırğınının yer kürəsinin hər hansı bir güşəsində baş verməsinin qarşısını almaq üçün Xocalı soyqırımı həqiqətlərini dünya ictimaiyyətinə hərtərəfli çatdırmalıyıq».[27] H.Əliyevin təşəbbüsü ilə Xocalı faciəsinin səbəbləri, mahiyyəti təhlil olunub xalqa çatdırıldı. Həmçinin, H.Əliyevin 1997-ci il 25 fevral Fərmanı ilə, 1997-ci ildən Xocalıda azərbaycanlıların soyqırımı qurbanları xatirəsinə ehtiram əlaməti olaraq hər il Azərbaycanda fevralın 26-da saat 17-də Sükut Dəqiqəsi elan olunmuşdu.[28]

Xocalı faciəsi cəmiyyətdə siyasi gərginliyi daha da artırdı. Xalqın tələbi ilə Ali Sovetin 1992-ci il martın 5-6-da keçirilən fövqəladə sessiyasında A.Mütəllibov istefa verməyə məcbur oldu. Xalq ümid edirdi ki, ancaq H.Əliyev hakimiyyətə gələrsə gələcəkdə baş verə biləcək daha böyük faciələrin qarşısı alına bilər. Lakin Azərbaycan Xalq Cəbhəsi vəziyyətdən istifadə edib hakimiyyətə gəlmək istəyirdi. Moskva isə Azərəbaycan hakimiyyətində vəziyyəti daha da gərginləşdirmək üçün A.Mütəllibovu hakimiyyətə gətirməyə çalışırdı. Bu vaxt Ali Sovetin sədri E.Qafarova istefa verdi və onun yerinə deputat Yaqub Məmmədov seçildi.[29] Bəhs olunan dövrdə, iqtidarla-müxalifət arasında anlaşılmazlıq yarandı və nəzərdə tutulmuş koalison hökumət yaratmaq mümkün olmadı. Ölkədə «əsl hərc-mərclik dövrü başladı». Ali Sovet 1992-ci il iyunun 7-də yeni prizident seçkiləri müəyyən etdi.[30] Azərbaycanda yaranmış dərin siyasi böhrandan yağı düşmən çox məharətlə istifadə edib torpaqlarımızın işğalını sürətləndirdi və genişləndirdi.

1992-ci ilin əvvəllərində Azərbaycanın nüfuzlu təşkilatlara üzv olması və dünyanın güclü dövlətləri ilə yaxınlaşması prosesi gücləndi. İlk növbədə, Türkiyə ilə 1992-ci il yanvarın 24-də «Dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında müqavilə»nin imzalanması,[31] Türkiyənin baş naziri Süleyman Dəmrəlin Bakıya rəsmi səfəri, 1992-ci il martın 15-də İranla «Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin dayandırılması haqqında» memorandium imzalanması, 1992-ci il martın 2-də Azərbaycanın bərabərhüquqlu üzv kimi BMT-yə qəbul olunması və BMT-nin Azərbaycanda, Azərbaycanın Nyu-Yorkda Daimi Nümayəndəliyinin fəaliyyətə başlaması Rusiyanı təşvişə saldı. İlk növbədə, Türkiyə, İran, Azərbaycan birliyi Türk-müsəlman dünyasının birliyi idi və bu böyük gücdən Rusiya dövləti ehtiyat edirdi.[32] Eyni zamanda, Rusiya Qafqazda nüfuzuna xələl gələcəyindən təşvişə düşmüşdü. Ona görə də, Rusiya Azərbaycana təzyiqini artırdı və erməni quldurlarına dəstək verərək 1992-ci il martın 12-də Tər-tər, Qazax, Tovuz, Ağdam, Cəbrayıl, Fizuli istiqamətində güclü hücuma başladılar.[33]



Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində ATƏM-in YVŞK-in missiyası mühüm addımlar atdı. 1992-ci il martın 19-23-də ATƏM-in YVŞK-nin sədri Yan Kubişin başçılıq etdiyi nümayəndə heyəti ikinci dəfə münaqişə bölgəsinə səfər etdi.[34] Dağlıq Qarabağ, Bakı və Yerevanda olan nümayəndəliyin məqsədi Qarabağda atəşin dayandırılması, ATƏM-in müşahidəçilərinin münaqişə bölgəsində yerləşdirilməsi imkanlarını öyrənmək idi. 1992-ci il martın 23-24-də Helsinkində ATƏM-in YVŞK-nin 9-cu iclasında münaqişə bölgəsində atəşi dərhal dayandıraraq münaqişə edən bütün tərəflər ATƏM-in çərçivəsində Dağlıq Qarabağa dair sülh konfransının tezliklə keçirilməsi üçün hər cür şərait yaratmağa çağırdılar. ATƏM-in Xarici İşlər Nazirləri Şurasının martın 24-də keçirilən birinci əlavə görüşündə Dağlıq Qarabağda mövcud vəziyyət müzakirə olundu. ATƏM-in Nazirlər Şurası YVŞK-nin zəmanəti əsasında münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində aparılan danışıqların səmərəliliyini təmik etmək üçün ATƏM-in Dağlıq Qarabağa dair sülh konfransının çağırılması haqqında qərar qəbul etdi. Nazirlər razılaşdılar ki, Minskdə çağırılacaq konfrans ABŞ, Rusiya, Türkiyə, Fransa, Almaniya, İtaliya, İsveç, Çexoslovakiya, Belarus, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilsin. Beləliklə, Dağlıq Qarabağ probleminin dinc yolla həllinə kömək etmək məqsədilə 11 dövlətin və 3 həmsədrin (ABŞ, Rusiya və Fransa nümayəndələrinin) iştirakı ilə 1992-ci il martın 24-də ATƏM-in Minsk qrupu yaradıldı.[35] Lakin xarici siyasət mövcud reallıqlar nəzərə alınmaqla düzgün qurulmadığından nüfuzlu dövlətlər öz məqsədlərinə nail olmaq üçün daha münasib şərait yaranmasını gözləyirdilər. Minsk qrupu ilə paralel Rusiyanın xarici işlər naziri Kozerev bu sahədə öz dövlətinin mənafeyinə uyğun iş aparması da Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin daha da mürəkkəbləşməsinə səbəb oldu.[36]

Rusiyanın müdafiə naziri P.Qraçovun Y.Məmmədova təkidli tələblə 1992-ci il martın 17-də Rəhim Qazıyev Azərbaycan Respublikasının müdafiə naziri vəzifəsinə təyin edildi.[37] Moskva, Azərbaycanda yaranmış daxili siyasi böhrandan istifadə edib ənənəvi təxribatçılıq fəaliyyətini genişləndirdi. Məqsəd

daha böyük ərazilərin işqalına rəvac verməklə müstəqil Azərbaycanı diz çökdürmək idi. Azərbaycan Müdafiə Nazirinin 1992-ci il 30 aprel tarixli əmri ilə Şuşa və Laçın Xalq Cəbhəsi könüllülərindən ibarət hərbi hissələr buraxıldı.[38] Şuşa taborunun komandiri R.Qəmbərov müəmmalı şəkildə öldü.[39] Cəbhədə mövcud silahlı qüvvələr arasında münaqişə yarandı. Rus və erməni təxribat maşını öz işini görmüşdü. Azərbaycanın gücü parçalanmış və deməli həm də zəifləmişdi. Belə bir çətin vəziyyətdə Azərbaycan xalqının çoxsaylı izdihamlı mitinqləri keçirilməyə başlandı. Mart-aprel aylarını əhatə edən mitinq Bakıda, Naxçıvanda, Şəkidə, Zəngilanda, Ağdamda, Fizulidə və digər şəhərlərdə davam etdi. Mitinqçilərin əsas tələbi prezident seçilmək üçün yuxarı yaş senzini müəyyənləşdirən maddənin ləğv edilməsi idi.[40] Xatırladaq ki, bu maddəni A.Mütəlibov xalqın içərisində böyük nüfuza malik H.Əliyevin prezident seçkisində namizədliyini irəli sürməmək xatirinə vermişdi. Çünki A.Mütəllibov bilirdi ki, xalq ümummilli liderini sevir və Azərbaycanın gələcək nicatını H.Əliyevlə bağlayır. Dərin düşüncəyə, güclü dünya siyasətinə malik H.Əliyev kimi tarixi şəxsiyyətə xalqın ehtiyacı var idi. Xalqın nicat yolu yalnız onunla bağlı idi.[41]

Azərbaycanda yaranmış daxili siyasi böhrandan istifadə edən erməni silahlı birləşmələri Azərbaycanın qədim yaşayış məskəni Şuşanı işğal etməyi planlaşdırdı. Şuşanın müdafiəsinin olduqca böyük hərbi-strateji və mənəvi-siyasi əhəmiyyəti var idi. Uzun müddət mühasirədə qalan Şuşanı güclü düşmən hücumu gözləyirdi. Şuşanın ətrafında çox böyük hərbi texnika və canlı qüvvə toplaşmışdı. Vaxtilə 366-cı alaya məxsus bütün texnika (o cümlədən 90 ağır hərbi texnika) minlərlə silah və sursat, 180 hərbi mütəxəssis ermənilərə təhvil verilmişdir.[42] Həmin silahlardan – 80 ədəd T-72 tankı, 6 min başdan ayağa hər cür silahla silahlanan erməni quldur dəstələri və xaricdən muzdla tutulmuş xüsusi dəstə Şuşanı mühasirəyə almışdılar.[43]

Şuşanın müdafiəsi isə olduqca zəif təşkil olunmuşdu. İlk növbədə, satqınlığın nəticəsində Şuşanın ətrafında minalanmış sahələr zərərsizləşdirilmiş, şəhəri müdafiə edən xeyli döyüşçü «məzuniyyət»ə buraxılmışdı. Şəhərdə olan



müdafiəçi dəstələr arasında ziddiyyətlər törədilmiş, parçalanma baş vermişdir. Şuşa taburu ştatında 1500 döyüşçünün adı olduğu halda, şəhərə hücum olan gün burada 500 döyüşçü və cəmi 24 ağır hərbi texnika var idi.[44] Hərbi rabitə lazımi vəziyyətdə deyildi. Xüsusi milis taburunun döyüşçüləri mayın 4-dək Şuşadan çıxarılıb Böyük Kirsə aparılmışdı. Düşmənə böyük informasiya axını var idi. Hətta, iş o yerə çatmışdır ki, Şuşa ətrafındakı mövqelərimizdə yerləşən əsgərlərdən «müsahibə» alınaraq Moskva televiziyası ilə göstərilmişdi.[45]

1992-ci il mayın 7-dən 8-nə keçən gecə düşmən şəhəri güclü artilleriya atəşinə tutdu. 6 minlik böyük hərbi qüvvə və 72 tankla hücum edən birləşmiş erməni, rus və muzdlu ordu mayın 9-da Şuşanı işğal etdi.[46] Döyüşlərdə şəhərin 155 müdafiəçisi şəhid olmuş, 167 nəfər yaralanmış, 20 nəfər itgin düşmüşdü.[47] Düşmən hücumu vaxtı Şuşanın 27 sənaye tikinti müəssisəsi, 103 mədəni-maarif ocağı, 31 qəsəbə və kəndi, 249 tarixi abidə və muzeyi dağıdılmışdı. İşğal zonasında Şuşanın 289 kvadrat kilometr ərazisi qalmış, əhalisinin 24009 nəfəri məcburi köçkünə çevrilmişdir.[48] Şuşanın süğutu ilə erməni faşistləri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğah başa çatdı.

Şuşanın süqutundan az sonra Azərbaycanın milli hərbi hissələri Laçını tərk etməyə başladı. Bu isə vəziyyəti daha da gərginləşdirdi. Hakimiyyəti ələ keçirmək üçün müxtəlif silahh dəstələrin Bakıya qaytarılması Azərbaycan xalqına xəyanətdən başqa bir şey deyildir. Moskvanın fitvası ilə A.Mütəllibov tərəfdarları Ali Sovetin 1992-ci il mayın 14-də keçirilən sessiyasında onu yenidən hakimiyyətə qaytardılar. A.Mütəllibov hakimiyyətdə möhkəmlənmək üçün dərhal fövqəladə vəziyyət tətbiq etmək, siyasi azadlıqları məhdudlaşdırmaq haqqında fərman verdi. Milli Şura buraxıldı və prezident seçkiləri ləğv edildi.[49] Demokratik qüvvələr isə mitinq keçirib parlamentin 14 may tarixli qərarının Konstitusiyaya zidd olduğunu bəyan edərək parlamentə bu qərarı ləğv etmək barədə ultimatum verdilər. Ultimatum müddəti qurtardıqdan sonra mitinqə toplaşanlar AXC liderlərinin başçılığı altında onların cəbhədən çıxarıb gətirdikləri hərbi qüvvələrin köməyi ilə Parlament binasına hücum etdilər. Parlament binası, Prezident sarayı, Teleradio Şirkəti və digər məntəqələr ələ

keçirildi. A.Müətllibov gizlicə Rusiyaya qaçdı.[50] Yaranmış böhrandan çıxmaq üçün mayın 16-17-də tərəflər arasında sövdələşmə oldu. Koalison hökumət yaradılması və İsa Qəmbərovun Ali Sovet sədriliyinə namizəd göstərilməsi qərara alındı.[51] Ali Sovetin 1992-ci il mayın 18-də keçirilmiş sessiyasında Ali Sovetin sədri Yaqub Məmmədovun istefasını qəbul edildi, İsa Qəmbərov Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Yeni seçkilərə qədər prezident səlahiyyətlərini yerinə yetirmək ona verildi. AXC və keçmiş kommunistlərdən ibarət Koalision hökumət yaradıldı.[52]

Bakıda hakimiyyət davası getdiyi vaxt silahlı qüvvələrin Laçından çıxarılmasından istifadə edən düşmən 1992-ci il mayın 18-də Laçını işğal etdi. Laçını ələ keçirmək Ermənistana hava kimi, su kimi lazım idi. Çünki Ermənistan Dağlıq Qarabağı daim, maneəsiz özünə bağlamaq istəyirdi. Ermənistan ilə Dağlıq Qarabağ arasında isə Laçın rayonu durur və əsas yol da Laçından keçirdi. Əgər Laçın rayonu varsa demək Ermənistanla Dağlıq Qarabağ arasında bilavasitə əlaqə yoxdur. Ermənilər isə bilavasitə əlaqə yaratmaq istəyirdilər və buna 1992-ci il mayın 18-də nail oldular.[53] Ümummilli liderimiz H.Ə.Əliyev çıxışlarından birində göstərmişdir ki, «böyük strateji əhəmiyyətə malik Şuşa və Laçın rayonlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi Azərbaycanın başında duran adamların xəyanətəinin, satqınlığının nəticəsində reallaşdı və bu xəyanəti xalqımız heç vaxt bağışlamayacaq».[54]

Laçının işğalı nətəicəsində Dağlıq Qarabağ separatçıları ilə Ermənistan arasında birbaşa əlaqə-dəhliz yarandı.[55]

Ermənistanın xarici dövlətlərdə Azərbaycana qarşı apardığı informasiya müharibəsinin nəticələrindən biri də Azərbaycanı ABŞ yardımından məhrum edən, ABŞ Konqresinin qəbul etdiyi «Azadlığı Müdafiə Aktı»na «907-ci düzəliş»-dir. «907-ci düzəliş» 1992-ci il oktyabrın 24-də ABŞ Konqresi tərəfindən qəbul edilmişdir. Konqresdə göstərəilmişdir ki, Azərbaycan hökuməti Dağlıq Qarabağ və Ermənistana qarşı bütün blokadaları dayandırmayınca ona yardım göstərilməyəcəkdir.[56] H.Ə.Əliyevin apardığı gərgin və uğurlu xarici siyasət



nəticəsində 2002-ci ilin yanvarın 28-də «Azadlığı Müdafiə Aktı»na «907-ci düzəliş»in qüvvəsi dayandırılmışdı.

1992-ci il iyunun 7-də keçirilən prezident seçkilərində AXC-nin sədri Əbülfəz Elçibəy prezident seçildi. Azərbaycanda AXC-Müsavat hakimiyyəti başlandı. Bəhs etdiyimiz dövrdə, SSRİ-nin hərbi əmlakının bölüşdürülməsi haqqında Daşkənd müqaviləsinə əsasən Azərbaycana verilən silah və hərbi sursat əsasında ordunun təchizatı nisbətən yaxşılaşdı.[57] Prezidentin 1992-ci il iyun Fərmanı ilə Orduda Vahid Komandanlıq yaradıldı. Bütün bunlar işğal olunmuş ərazilərimizin bir hissəsinin düşməndən təmizlənməsinə səbəb oldu.[58] Lakin Azərbaycanın MDB-yə qoşulmaması Moskvanı narahat etmiş və ona görə də Ermənistana hərbi yardımı gücləndirmişdi. 1993-cü ilin fevralında Ermənistan ordusu MDB-nin 7-ci ordusunun 128-ci motoatıcı alayının və muzdlu əsgərlərinin iştirakı ilə 1992-ci ilin ikinci yarısında düşmən işğalından azad edilmiş ərazilərimiz yenidən düşmən əlinə keçdi.[59] Kəlbəcər rayonu Ermənistan və Ağdərə tərəfdən güclü atəşə tutularaq blokadaya alındı. Bu zaman Moskvadan idarə olunan qüvvələr, hakimiyyəti ələ keçirmək üçün mübarizəyə başladılar. 1993-cü ilin iyununda Gəncədə hərbi qiyam baş Verdi. Həmin il «Talış Muğan Respublikası» və «Ləzgistan dövləti» yaratmaq cəhdləri edildi.[60] Azərbaycan bütövlükdə məhv olmaq təhlükəsi qarşısında idi. Bakı isə vahimə içərisində yaşayırdı. Xalqı və dövlətimizi belə bir çətin vəziyyətdən xilas edəcək səriştəli, təmkinli, dünyagörmüş rəhbər lazım idi. Azərbaycan xalqının tələbi ilə iqtidar H.Ə.Əliyevi Bakıya dəvət etdi. 1993-cü il iyunun 15-də H.Ə.Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Həmin gün doğrudan da xalqımızın «Milli Qurtuluş Günü» idi.[61] Çünki, H.Əliyevin Bakıya gəlişi ilə törədilən vətəndaş müharibəsinin, separatçılığın qarşısı alındı, Azərbaycanın parçalanması təhlükəsi aradan qalxdı.

1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı H.Ə.Əliyevi alternativ əsasda, səs çoxluğu ilə Respublikanın Prezidenti seçdi.[62] O, dövlət müstəqilliyini möhkəmləndirmək, ərazi bütövlüyünü və tam suverenliyi təmin etmək, əhalinin rifahını yaxşılaşdırmaq vəzifələrini həyata keçirəcəyini bəyan etdi. Tezliklə dövlət

intizamının, qanunçuluğun, ordunun möhkəmləndirilməsinə başlandı. Lakin keçmiş ordu quruculuğundakı əyintilər, səfərbərlikdən yayınma və fərarilik halları mövcud idi. Müxtəlif siyasi qüvvələrin sadiq hərbi hissələrinin döyüş bölgələrində törətdikləri təxribat nəticəsində 1993-cü il aprelin 3-6-da Kəlbəcər, iyulun 23-də Ağdam, avqustun 18-də Cəbrayıl, avqustun 23-də Fizuli, avqustun 31-də Qubadlı, oktyabrın 29-30-da Zəngilan düşmənin əlinə keçdi.[63] Ermənistan silahlı birləşmələri tərəfindən Azərbaycan torpaqlarının işğalı açıq-aşkar təcavüz aktı idi. Bundan dərhal sonra Azərbaycan, bölgədə yaranmış vəziyyətlə bağlı BMT Baş katibi və Təhlükəsizlik Şurasının (TŞ) sədrinə məlumat verdi. Azərbaycan dövlətinin tələbilə BMT TŞ-da Azərbaycan torpaqlarının işğalı və işğalçıların dərhal qeyri-şərtsiz ərazini tərk etməsi haqda qətnamələr qəbul edildi. Belə ki, BMT TŞ-nın 1993-cü il 30 apreldə 822 saylı, 29 iyulda 853 saylı, 14 oktyabrda 874 saylı, 12 noyabrda 884 saylı qətnamələrində işğal olunmuş Azərbaycan ərazilərindən işğalçı ordunun dərhal, tamamilə və qeyri-şərtsiz çıxarılması tələbi öz əksini tapsada Ermənistan müxtəlif bəhanələrlə onları yerinə yetirməkdən imtina etdi.[64]

Qətnamələrdə Ermənistana doğma, Azərbaycana ögey münasibət açıq-aşkar görünürdü. Bu Qətnamələrdən yalnız birincisində Ermənistanın adı çəkilir və ondan tələb olunurdu ki, Dağlıq Qarabağa təsir göstərsin. BMT TŞ-nın sənədlərində Azərbaycan torpaqlarının işğalını «yerli erməni qüvvələri»nin əli ilə aparılması vurğulanırdı.

Ümumiyyətlə, BMT TŞ-nın qəbul etdiyi qətnamələrdə Ermənistan təcavüzkar dövlət kimi tanınmadı. Qəbul edilən bütün bu sənədlərdə münaqişə Ermənistan-Azərbaycan münaqişəsi kimi yox, Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə kimi qiymətləndirildi. Təcavüzkara qarşı qətnamələrdə sanksiyaların nəzərdə tutulmaması Ermənistanın işğalçılıq siyasətini davam etdirməsinə və nəticədə, Azərbaycan ərazilərinin 20 faiz hissəsinin işğal edilməsinə gətirib çıxardı. Başqa sözlə, ABŞ, Rusiya, Fransa və dünyanın başqa aparıcı dövlətləri tərəfindən dəstəklənən Ermənistan, BMT TŞ-nın qətnamələrinin heç birinə məhəl qoymayaraq onları yerinə yetirmədi və təcavüzkar əməllərini azğınlıqla davam etdirdi.[65]



Belə bir çətin vəziyyətdə Azərbaycan Respublikasının Prezidenti H.Əliyev 1993-cü il noyabrın 2-də radio və televiziya vasitəsilə xalqa müraciət edib onu ana torpağı yağı düşməndən müdafiə və azad etmək üçün birləşməyə, səfərbər olmağa çağırdı.[66] Bu çağırış xalqda, xüsusilə, gənclərdə hərbi vətənpərvərlik əhvali-ruhiyyəsini xeyli artırdı, orduya axın gücləndi. Təcrübəli döyüşçülərdən ibarət könüllü hərbi hissələr yaradıldı.[67] Orduya xalq yardımı genişləndi. Səfərbərlik nəticəsində milli ordunun sıraları artdı. Ziyalılarımız cəbhə bölgələrinə gedərək əsgərləri qələbəyə ruhlandırdılar. Silahlı qüvvələrin maddi-texniki bazası möhkəmləndirildi.

1994-cü ilin əvvəllərində Azərbaycan Ordusunun müvəffəqiyyətli əməliyyatı nəticəsində Fizuli rayonunun strateji əhəmiyyətli Horadiz qəsəbəsi və 22 kəndi, Cəbrayıl rayonu ərazisində bir neçə kənd, Kəlbəcər rayonunda Bozlu, Təkəraya, Babaşlar, Qanlıkənd, Çənli, Susuzluq, Qasımbinəsi, Yanşaqbinə, Yanşaq, Bağırsaq, Qamışlı, Bağırlı yaşayış məntəqələri, Çiçəkli dağı və digər strateji yüksəkliklər ələ keçirildi, Kəlbəcər-Ağdərə yolunun Tunelə qədərki hissəsini nəzarət altına aldı.[68] Döyüşlərdə erməni faşistəlri və onların tərəfində vuruşanlar ağır itki verdilər. 1993-cü ilin dekabr – 1994-cü il yanvar döyüşlərində düşmən 4 min əsgər və zabit, 50 zirehli texnika, 15 artilleriya qurğusu və sair itirdi.[69]

Azərbaycan Milli Ordusunun möhkəmlənməsi, NATO-ya tərəf atılan əməli addımlar Respublikamızda müstəqilliyin əbədiliyinə şərait yaratdı. Bu isə, imperiyanın mənafeyinə uyğun deyildi. Azərbaycanı zəifədib özündən asılı vəziyyətə salmaq üçün Rusiya-Ermənistana hərbi yardımını daha da artırdı. Milli Ordumuzun qəhrəmanlıqla vuruşmasına baxmayaraq 1994-cü ilin əvvəllərində Kəlbəcər, Ağdam, Ağdərə istiqamətində gedən döyüşlərdə Rusiyanın böyük hərbi texnikası ilə hücum edən düşmən bir neçə kəndi yenidən işğal etdi. Tərtər-Bərdə istiqamətində hücuma keçən birləşmiş erməni quldur dəstələrinin hücumlarının qarşısı alındı.[70]

Beləliklə, Azərbaycan torpaqlarının 20 faizi, qeyri-qanuni olaraq, Ermənistan tərəfindən ələ keçirildi. «Torpağı viran qoymaq» taktikasından istifadə edən ermənilər işğal etdikləri ərazilərdə evləri, müəssisələri, koomunikasiya vasitələrini, təbii sərvətləri talan edir, dağıdır və yandırırdılar. Müharibədə 20 min Azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 5 min nəfər əlilə çevrilmişdir. Qaçğın və məcburi köçgünlərin sayı 1 milyon nəfəri keçmişdir. Erməni işğalçıları tərəfindən 4861 nəfər Azərbaycanlı, o cümlədən, 314 qadın, 58 uşaq, 255 qoca Əsir və girov götürülmüşdür. Girov götürülənlərdən 1357 nəfəri əsirlikdən azad edilmiş, 783 nəfəri isə bu gündə əsir qalmaqdadır. Beynəlxalq Qırmızı Xaç Komitəsinin məlumatına görə 439 nəfər azərbaycanlı əsirlikdə ağır işgəncələrələ öldürülmüşdür.[71] Erməni faşistləri əsirlərin sayını beynəlxalq təşkilatlardan gizlədir, onları alçaldır, təhqir edir və qul kimi işlədirdilər. Əsirlərin gözlərinin çıxarılması, dırnaqlarının çəkilməsi, bədən əzalarının-üzvlərinin kəsilməsi, dərinin soyulması, damğa vurulması, erməni qəbirləri üzərində başların kəsilməsi adi hala çevrilmişdi.

Tədqiqatlar göstərir ki, işğal nəticəsində Azərbaycana ciddi maddi ziyan dəymişdir. Hərbi təcavüz nəticəsində respublikamızın 17 min kvadrat kilometrlik ən məhsuldar torpağı işğal edilmişdir. Ermənistanın işğal etdiyi ərazilərdə 900 yaşayış məntəqəsi, 7 min sənaye və kənd təsərrüfatı obyekti, 131 min ev, 1025 məktəb, 798 səhiyyə ocağı, 800 km avtomobil yolu, 160 körpü, 23 min km su və 15 min km elektrik xətləri təcavüzün qurbanı olmuşdur. Bundan əlavə, 280 min hektar meşə 1200 irriqasiya sistemi işğalçıların əlinə keçmişdir. Təcavüzkarlar işğal edilmiş ərazilərdə olan 22 muzeyi, 4 rəsm qalareyasını, tarixi əhəmiyyəti olan 9 sarayı qarət etmiş və yandırmışdılar. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və ekspanatı talan olunmuş, 44 məbəd və 9 məscid dağıdılmışdır. 927 kitabxanada 4,6 milyon kitab və qiymətli tarixi əlyazmalar məhv edilmişdir. İşğalçılar tərəfindən 220 min baş iribuynuzlu mal-qara Ermənistana aparılmışdır.[72]

Ümumiyyətlə, sonadək dəqiqləşdirilməmiş məlumatlara görə mənəvi-psixoloji zərbələrdən əlavə, Azərbaycan öz iqtisadi potensialının 16 faizini itirmiş



və ölkəmizə 60 milyard ABŞ dollarından artıq ziyan dəymişdir.[73] Oğurlanmış və məhv edilmiş tarixi-mədəni sərvətlərimizin dəyərini isə pulla qiymətləndirmək mümkün deyildir. Təssüflər olsun ki, Ermənistan bu gün də işğal etdiyi Azərbaycan torpaqlarından yeraltı və yerüstü təbii sərvətlərimizi qəddarcasına talamaqda davam etdirir.

Ermənistanın Azərbaycana qarşı təcavüzünü, ilk dəfə, açıq şəkildə tanıyan və pisləyən beynəlxalq təşkilat İslam Konfransı Təşkilatı (İKT) olmuşdur. İKT-nın 1992-ci ilin iyun ayında İstanbulda, 1993-cü il aprelin 25-29-da Pakistanın Kəraçi şəhərində keçirilmiş konfranslarında və 1994-cü il dekabrın 13-14-də Mərakeşin Kasabulanka şəhərində keçirilmiş 7-ci zirvə toplantısında Ermənistanın Azərbaycana qarşı təcavüzü və Azərbaycan ərazisinin işğalı qətiyyətlə pislənmiş, BMT Baş Katibinin TŞ-nın Sədrindən Azərbaycanın işğal edilmiş ərazilərinin qeyri-şərtsiz boşaldılması haqda qətnamə qəbul edilməsi xahiş edilmişdir.[74]

1993-1994-cü illərdə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində 2 mühüm vasiətçi - ATƏM və Rusiyanın rolunun artması özünü daha qabarıq şəkildə göstərirdi. Rusiya münaqişəsinin «nizamlanması» planına daha çox üstünlük verir və canfəşanlıq edirdi. 1994-cü il fevralın 18-də Moskvada Rusiya, Ermənistan və Azərbaycan numayəndələrinin görüşündə Rusiyanın hazırladığı plan müzakirə edildi. Rusiyanın təklif etdiyi «Silahlı münaqişəyə son qoymaq və onun nəticələrini ləğv etmək haqqında» saziş tərəflərin müzakirəsəinə verildi.[75] Sənədin əvvəlində «tərəflərin BMT TŞ-nın 822, 853, 874, 884 saylı qətnamələrinin tamamilə həyata keçirilməsinə kömək göstərmək» nəzərdə tutulurdu. Sənəddə deyilirdi ki, Dağlıq Qarabağın hüququ statusu güzəştli zəmində sonralar müəyyən ediləcəkdir. Sənədin, işğal olunmuş ərazilərin boşaldılması ilə bağlı olan hissəsində Şuşa və Laçının adı çəkilmirdi. Boşaldılmış ərazilərə «nəzarət» Rusiya Müdafiə Nazirliyinin nümayəndəsinin başçılıq etdiyi Birləşmiş Qərargaha həvalə olunurdu. Rusiyanın erməniləri dəstəkləməsi, həm də özünü onda göstərdi ki,

«sülh haqqında» danışıqlarda Ermənistan və Dağlıq Qarabağın da nümayəndəsi iştirak etməli idi.[76]

1994-cü il mayın 4-5-də MDB Parlamentlərarası məclisinin təşəbbüsü ilə Bişkekdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair növbəti görüş keçirildi. Mayın 8-də Azərbaycan tərəfi Bişkek protokolunu imzaladı. Dağlıq Qarabağın erməni icması sənədə imza atsada, Azərbaycanlı icmasına bu hüquq verilmədi.[77] 1994-cü il mayın 12-dən ATƏM-in Minsk Qrupu ilə birgə əməkdaşlıqla Rusiyanın vasitəçiliyi ilə razılaşdırılmış atəşkəs qüvvəyə mindi.[78] Uğurlu xarici siyasət nəticəsində Azərbaycanın daxilində sabitliyin möhkəmləndirilməsinə şərait yarandı. H.Əliyev çıxışlarından birində göstərirdi ki, «Ermənistan-Azərbaycan müharibəsində atəşkəsə nail olunması ölkəmiz üçün çox böyük həyati əhəmiyyət kəsb edirdi. Çünki, müharibənin dayandırılması daxili vəziyyətin nizamlanmasını, ictimai-siyasi sabitliyin möhkəmləndirilməsini və regionda Azərbaycanla qonşu dövlətlər arasında yaranmış gərginliyin normal məcaraya salınmasını, Azərbaycanın müstəqil dövlət kimi yaşamasını və sonrakı inkişafını şərtləndirdi».[79]



# NƏTİCƏ

Azərbaycan tarixinin tərkib hissəsini təşkil edən DQMV-nin 1923-1991-ci illər tarixi, Mərkəzin diktəsinə əsasən məqsədli şəkildə RK(b)P-nin 1923-cü il 27 iyun, Azərbaycan MİK-nin 1923-cü il 7 iyul tarixli qərarları ilə Azərbaycan SSR-nin tərkibində DQMV-nin yaradılması, dövlətimizin dərin qayğısı nəticəsində bölgənin irimiqyaslı inkişafı, müxtəlif dövrlərdə Ermənistanın Azərbaycana qarşı DQMV-i ilə bağlı əsassız ərazi iddiaları və onun xalqımız üçün acı nəticələri, son nəticədə isə Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 26 noyabr tarixli qərarı ilə qondarma DQMV statusunun ləğv etməsi, bölgədə mühüm prinsipal əhəmiyyət kəsb edən mürəkkəb və çox ziddiyyətli, sosial-iqtisadi, ictimai-siyasi və digər proseslərlə zəngin olan hadisələrə həsr edilmişdir.

Ümummilli liderimiz H.Ə.Əliyev yeni 2001-ci, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində bəhs edilən dövrü səciyyələndirərək demişdir: «1922-1991-ci illər Azərbaycanda sovet hakimiyyətinin qurulması və 70 il ərzində Azərbaycanın sovet hakimiyyəti, sovet dövləti çərçivəsində yaşaması dövrünü əhatə edir. Bu illərdə Azərbaycanda çox zəngin iqtisadi və intellektual potensial yaranmışdı... 1920-1991-ci illərdə Azərbaycan iqtisadiyyatı ilə yanaşı təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmişdir... Məhz 70 ildə ölkəmizdə savadsızlıq ləğv olunmuş, tam orta icbari təhsil tətbiq edilmiş, təhsil müəssisələrinin inkişaf etmiş şəbəkəsi yaranmış, Elmlər Akademiyası formalaşmış, qadınların hüquqlarının qorunması və sosial-iqtisadi həyatda fəal iştirakı təmin olunmuş, teatr, kino inkişaf etmiş, minlərlə qəzet, jurnal çap olunmağa başlanmışdır. Təəssüflər olsun ki, həmin dövrdə yaradılmış bu böyük potensial hərc-mərclik illərində dağıntılara məruz qaldı. Dağlıq Qarabağ faciəsi vəziyyəti daha da gərginləşdirdi».

Bəhs etdiyimiz dövrün 20-30-cu illərinin tədqiqi göstərdi ki, bu illərdə DQMV-də ali hakimiyyət orqanlarının xalqımıza qarşı repressiyaları, təzyiqləri ilə yanaşı, xalq təsərrüfatının inkişafında, mədəniyyətin yüksəlişində, elmi-texniki potensialın tərəqqisində köklü tarixi uğurlar əldə edilmişdir. Dağlıq Qarabağda

1920-ci il may çevrilişindən sonra hakimiyyəti ələ keçirən qeyri-azərbaycanlılar tərəfindən bölgədə yayşayan müsəlmanlar nəinki kütləvi şəkildə həbs olunur və güllələnirdilər, habelə qarət və talan olunur, var-yoxdan çıxarılırdılar. Həmçinin Mərkəzin «sifarişli» erməni qiyamı, erməni quldurlarının bölgədə törətdiyi cinayət hərəkətləri Dağlıq Qarabağda milli - müqavimət hərəkatına səbəb oldu. Qüvvələr nisbətinin qeyri-bərabərliyi üsyanların məğlub olması ilə nəticələnsə də, polkovnik Zeynalovun, general Nuru Paşanın, S.Sultanovun, A.Sultanovun adları Azərbaycan xalqının istiqlal və azadlıq mübarizəsi tarixində çox mühüm yer tutmuş və gələcək nəsillərə örnək olmuşdur. Dağlıq Qarabağ üsyanları xalqımızm istiqlal ideyalarının hələ sönmədiyini, onun azadlıq uğrunda ölümə getmək əzmində olduğunu nümayiş etdirdi.

Xalqımızın tarixinə və taleyinə qara hərflərlə yazılan 7 iyul 1923-cü il tarixi – qondarma DQMV-nin yaradılması ərazi bütövlüyümüzə yeni qəsd olmaqla, Azərbaycan dövlətinə qarşı «parçala və hökm sür» imperiya siyasətinin davamı idi. DQMV-nin yaradılması, gələcəkdə Ermənistanın və onu himayə edənlərin Qarabağ kartından öz məqsədləri üçün istifadə etmələrinə imkan verdi. XX əsrin sonlarında baş verən hadisələr bunu tamamilə təsdiq etdi.

Dövlətimizin dərin qayğısı və zəhmətkeş xalqın gərgin əməyi nəticəsində 20-30-cu illərdə DQMV-nin iqtisadi və mədəni həyatında böyük uğurlar əldə edilmişdir. Təkcə 1923-1941-ci illərdə DQMV-də 42 sənaye müəssisəsi işə düşmüş, yeni sənaye sahələri tikilmiş, texniki cəhətdən yenidən qurulmuş, elektrikləşmə müvəffəqiyyətlə həyata keçirilmiş, yüngül və yeyinti sənaye məhsullarının həcmi artmışdır. Bu dövrdə fəhlə sinifi kəmiyyət və keyfiyyətcə dəyişilmişdir.

DQMV-nin kəndi də ciddi dəyişikliyə məruz qalmışdır. Zorakılıq və inzibatçılıqdan istifadə etməklə, əzablı və dəhşətli yollarla bölgədə «aqrar inqilab» - kollektivləşdirmənin həyata keçirilməsi nəticəsində 1930-cu illərin sonlarında bütün torpaqlar ictimailəşdirilmiş, 1940-cı ildə DQMV-nin kəndlərindəki təsərrüfatların 98 faizini birləşdirən 199 kolxoz, habelə 4 sovxoz təşkil edilmişdi. 1939-cu ildə DQMV-də 158 traktoru, 88 avtomaşını, 450 kotanı, 24 kombaynı, yüzlərlə toxumsəpəni özündə birləşdirən 3 MTS fəaliyyət göstərirdi. Kənd təsər-



rüfatında texnikadan istifadə istehsalı artırırdı. 1940-cı ildə DQMV-nin 2968 hektar torpaq sahəsində pambıq əkilmiş və həmin ildən çiyid səpini mexanikləşdirilmişdi. Tədricən ixtisaslı mütəxəssislərin sayı artmış, məhsuldarlıq yüksəlmiş və sənayeni canlandıra bilən xammal mənbəyi yaradılmışdır. Əmək düşərgəsini xatırladan kolxozlar xalqımızın milli-mənəvi dəyərlərinə yad bir qurum olmaqla dinsizlik simvolu və qadınlarımız üçün əzablı bir əmək düşərgəsi idi. Kolxoz üzvlərinin maddi-marağını yox edən, insan şəxsiyyətini alçaldan kolxoz quruluşu sosial-iqtisadi və inzibati sistem olmaqla Azərbaycan kəndlisinə yad bir siyasət idi.

1920-1930-cu illərdə böyük çətinliklərə, səhvlərə, bürokratiya və inzibatiamirlik sisteminin təsirinə baxmayaraq, xalqın ağır zəhməti və quruculuq qabiliyyəti hesabına DQMV-də kütləvi savadsızlıq problemi əsasən həll edilmiş, yeni təhsil sistemi yaranmış, elm, ədəbiyyat və incəsənət inkişaf etmişdir. Bu dövrdə mədəni inkişafın mühüm xüsusiyyətlərindən biri Azərbaycan mədəniyyətinin burada yaşayan bütün xalqların mədəni əməkdaşlığı zəminində inkişaf etməsində idi. Yeni yaranan mədəniyyət kommunist ideologiyasının tələbləri əsasında qurulduğundan, ciddi çətinlikləri, səhvləri, əyintiləri dəf edərək təşəkkül tapırdı. DQMV-də xalqımızın milli-mənəvi dəyərlərini öldürmək məqsədilə xalq musiqisinə, musiqi alətlərinə, çadraya, papağa, dilə, dinə qarşı çox böyük mübarizə kompaniyası başlamış, bu isə mədəni inkişafa öz mənfi təsirini göstərmişdir. Bütün bu və ya digər çətinliklərə və məşəqqətlərə baxmayaraq 1941-ci ildə DQMV-də təhsil, elm və mədəniyyət yüksək səviyyəyə qalxdı və zəhmətkeş xalq müasir mədəniyyət yaratdı.

Bəhs olunan dövrdə bolşeviklərin «mədəni inqilab» siyasətinin tərkib hissəsindən biri də dinə qarşı mübarizə, ateizmin təbliği olmuşdur. Təkcə 1928-1931-ci illərdə DQMV-də 24 məscid bağlanmış və yüzlərlə din xadimi təqiblərə məruz qalmışdı.

1920-1930-cu illərdə DQMV-də geniş müalicə-profilaktika müəssisələri şəbəkəsinin yaradılması, ana və uşaqlara qayğı göstərilməsi nəticəsində, yüksək doğum və ölüm hallarının azalması ilə səciyyələnmiş, bütün bunlar isə əhalinin

artımına səbəb olmuşdur. 1926, 1939-cu illər siyahıya alınmasına görə DQMV-də əhali 20,4 faiz artaraq 125,3 min nəfərdən 150,8 min nəfərə çatmışdı. DQMV-nin şəhər və kəndlərinin xarici görkəmi dəyişir, elektrik stansiyaları, klublar, məktəblər, xəstəxanalar, uşaq bağçaları, körpələr evi, hamamlar, ticarət və digər mədəni-məişət müəssisələri tikilirdi. Bütün bunların nəticəsində, repressiya və zorakılıqlara baxmayaraq, xalqın yaradıcı əməyi ilə müşayət olunan totalitar bürokratik rejim yaradıldı.

1941-1945-ci illərdə bütün Azərbaycan xalqı kimi DQMV-nin də, əhalisi SSRİ tərəfindən faşizmə qarşı mübarizədə həm ön, həm də arxa cəbhədə böyük fədakarlıq göstərmiş, bütün maddi və mənəvi sərvətlərini, xüsusilə qəhrəman oğul və qızlarını qələbə üçün səfərbər etmişdir. Dağlıq Qarabağdan 45 min nəfər cəbhəyə getmiş və 22 min nəfər sakin vətənin azadlığı uğrunda döyüşlərdə qəhrəmanlıqla həlak olmuşdur. DQMV-də anadan olmuş 15 min döyüşçü müxtəlif orden və medallarla təltif edilmiş, 18 nəfəri Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüşdür. Qələbənin əldə edilməsində DQMV-i əhalisinin də, əməyi olmuşdur.

1946-1950-ci illərdə DQMV-nin xalq təsərrüfatı bərpa edildi. 1940-cı illə müqayisədə 1950-ci ildə ümumi məhsul istehsalı sənayedə 74 faiz, kənd təsərrüfatında 32 faiz artdı. Dağlıq Qarabağın erməni rəhbərliyi siyasi rejimi daha da möhkəmləndirdi. Azərbaycanlılar sıxışdırılır, ermənilərə isə hər cürə şərait yaradılırdı.

1945-ci ilin ortalarında Sovet dövləti özünün «parçala və ağalıq et» siyasətini işə salaraq, Ermənistan vasitəsilə Azərbaycana qarşı əsassız ərazi iddialarını yenidən qızışdırdı. 1945-ci ilin payızında Ermənistan rəhbərliyi tərəfindən növbəti dəfə DQMV-ni onlara vermək haqqında Sovet hökuməti başçıları qarşısında məsələ qaldırıldı. M.C.Bağırov əhalinin əksəriyyəti azərbaycanlılardan ibarət olan Şuşa rayonundan başqa, Yuxarı Qarabağın Ermənistana verilməsinə bir şərtlə razılıq verdi ki, Zəngəzur bölgəsi bütövlükdə Azərbaycana qaytarılsın. Buna isə, nə Sovet rəhbərliyi, nə də ermənilər razı olmadılar, çünki Türkiyə ilə Azərbaycanın əsas ərazisi arasında yaradılmış



«erməni ərazisi» bununla ləğv edilirdi. Bununla da «Dağlıq Qarabağ məsələsi» müvəqqəti olsa da bağlanmışdı.

XX yüzilliyin 50-60-cı illərində Azərbaycan hökumətinin həyata keçirdiyi kompleks tədbirlər nəticəsində DQMV-də sənaye, kənd təsərrüfatı, mədəniyyət sürətlə inkişaf etdi və əhalinin maddi rifah halı yaxşılaşdı. 1950-1960-cı illərdə Azərbaycan hökuməti DQMV-də xalq təsərrüfatını inkişaf etdirmək üçün 20 milyon manat vəsait ayırmış, 5 milyon manat uzunmüddətli kredit vermişdir. Nəticədə, DQMV-də sənaye məhsulları istehsalı 1950-ci ildən 1969-cu ilədək 4,2 dəfə artdı. Elektrikləşmə isə 1950-ci ildəki 12 faizə qarşı, 1970-ci ildə 99,5 faizə çatdı. DQMV-də fəhlə və qulluqçuların əmək haqqı ümumrespublika göstəricilərini təxminən 3 dəfə üstələmişdi. Kənd təsərrüfatında üzümçülük, tərəvəzçilik, heyvandarlıq inkişaf etmişdi. 1950-ci ildən 1970-ci ilədək kənd təsərrüfatı məhsulları istehsalı 4,5 dəfə artmışdı. 1970-ci ildə DQMV-də 70 kolxoz, 12 TTS var idi. Onlar 977 traktora, 227 taxılyığana, 703 yük maşınına malik olmuşlar. 1950-1960-cı illərdə DQMV-də elm, təhsil, ədəbiyyat, incəsənət və kütləvi informasiya vasitələri «kommunizm» idealogiyasının təzyiqi altında olmada xeyli inkişaf edə bilmişdi. 1950-1968-ci illər ərzində DQMV-də 19 yeni tipli məktəb tikilmiş, kitabxanaların sayı 187-yə, klublar 190-a, kinoqurğular 150-yə çatmışdır. 1960-cı illərdə Vilayətdə 4 radio verilişləri studiyası yaradılmışdı. Qəzetlərin nəşri isə 2,7 dəfə artmışdır. 1950-1960-cı illərdə yeddillik, səkkizillik və orta icbari təhsilə keçid baş verdi. Ali təhsilin şəbəkəsi genişləndi və DQMV-də müxtəlif ixtisaslı erməni, rus millətindən olan kadrların sayı xeyli artdı. Vilayətin idarə orqanlarmda qeyri-azərbaycanlılar yerləşdirildi ki, bu da Mərkəzin bölgədə dayaqlarının daha da artmasına təsir etdi. «Milli bərabərlik», «beynəlmiləlçilik»dən danışan Mərkəzin şovinist rəhbərləri azərbaycanlılara qarşı diskriminasiya siyasəti həyata keçirir, DQMV-i ərazisində yaşayan azərbaycanlıların dədə-baba torpaqlarından deportasiyasına, əksinə bölgədə ermənilərin sayının artmasına və onların daha firavan yaşamasına şərait yaradırdılar.

1970-1985-ci illər vətənimizin tarixinə milli oyanış, iqtisadi və sosial tərəqqi dövrü kimi daxil olub. Çünki 1969-cu ildə müdrik siyasətçi H.Ə.Əliyevin

hakimiyyətə gəlişi ilə idarəçilik möhkəmləndirildi, işdə qanunlar öz yerini tutdu və korrupsiyaya qarşı ciddi mübarizə başlandı. Dərin düşüncəyə, orjinal təfəkkür tərzinə malik H.Əliyevin hakimiyyəti dövründə Azərbaycanın hər yerində və bütün sahələrdə irimiqyaslı inkişaf baş vermişdir. Xüsusilə DQMV-nin inkişafı həmişə dövlət başçısının diqqət mərkəzində olmuşdur. 1971-1985-ci illərdə Azərbaycan hökuməti tərəfindən DQMV-nin xalq təsərrüfatının inkişafına 483 milyon manat vəsait ayrılmışdır. Bu, son 15 ildəkindən 2,8 dəfə artıq demək idi. Həmin vəsait hesabına DQMV-də 15 yeni sənaye müəssisəsi tikilmiş və məhsul istehsalı 1923-cü illə müqayisədə 912 dəfə artmışdır. Kənd təsərrüfatının inkişafına isə 171 milyon manat vəsait ayrılmış, 24 milyon 803 min manat uzunmüddətli kredit verilmişdir. 1985-ci ildə DQMV-də 40 sovxoz, 33 kolxozun 1269 toraktoru, 250 taxılyığan kombaynı, 1096 yük avtomobili var idi. DQMV-nin iqtisadi və mədəni inkişafını daim diqqət mərkəzində saxlayan milli təssüfkeş və müdrik insan H.Ə.Əliyev Şuşa şəhərinin inkişafı üçün bir neçə qərar vermişdi. H.Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi altında həyata keçirilmiş tədbirlər nəticəsində Şuşa ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdir. 1973-cü ildə Xankəndində APİ-nin filialı əsasında Pedaqoji İnstitut açılmış, 1979-cu ildə Ağdam-Xankəndi dəmiryol xətti çəkilmişdir. H.Əliyevin ağıllı və uzaqgörən siyasəti nəticəsində partiya və sovet orqanları, ictimai təşkilatlar öz işini elə qurmuşdur ki, erməni separatçıları açıq çıxışlardan çəkinmişdilər. 1977-ci ildə «Dağlıq Qarabağ məsələsi» növbəti dəfə qaldırılsa da, qarşısı qətiyyətlə alınmışdır.

2000-cü ilin dekabrında Azərbaycan xalqına müraciətində ümummilli liderimiz H.Ə.Əliyev öz çıxışında, bəhs etdiyimiz dövrə bu cür qiymət vermişdir: «Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır».

1986-1987-ci illərdə Azərbaycan hökumətinin DQMV-də həyata keçirdiyi kompleks tədbirlər nəticəsində, özülü 1970-1985-ci illərdə qurulan sosial-iqtisadi



və mədəni həyat sahələri öz əvvəlki inkişaf tempini qoruyub saxladı. Lakin 1988-ci ilin qışından başlayaraq DQMV-də Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları qızışdırıldı. Erməni millətçilərinin təhriki ilə Dağlıq Qarabağda ermənilərin mitinq, nümayiş və küçə yürüşləri başladı. Bütün bunlar isə DQMV-nin iqtisadi, siyasi və mədəni həyatında böhranlı vəziyyət yaratdı. 1988-ci ildə SSRİ rəhbərliyinin antiazərbaycan siyasəti nəticəsində milli-münaqişə ocağı daha da alovlandı. 1988-ci il azərbaycanlıların kütləvi-etnik təmizləməsi əməliyyatına hazırlıq dövrü olmuş və ermənilərin separatçılıq hərəkətləri geniş xarakter almışdı. Mərkəzin planı əsasında 1989-cu ildə DQMV-də A.Volskinin rəhbərliyi altında XİK yaradıldı və bununlada DQMV-nin Azərbaycanla əlaqələri kəsildi, azərbaycanlılar bölgədən qovuldu, quldur dəstələri silahlandırıldı. 1990-1991-ci illərdə erməni silahlı birləşmələri açıq hərbi əməliyyatlara başladılar. 1991-ci il sentyabrın 2-də erməni separatçıları Yuxarı Qarabağda qeyri-qanuni bir qurum, oyuncaq «Dağlıq Qarabağ Respublikası»nın yarandığını və müstəqilliyini elan etdilər. Buna cavab olaraq 1991-ci il noyabrın 26 Azərbaycan Respublikası Ali Soveti Dağlıq Qarabağın Vilayət statusunu ləğv etdi və «Dağlıq Qarabağ Respublikası»nı tanımadığını bildirdi. 1992-ci ildə isə erməni silahlı birləşmələri Yuxarı Qarabağda irimiqyaslı hərbi əməliyyatlara başladılar. Erməni cəlladları tərəfindən tarixdə misli görünməyən Xocalı soyqırımı, Şuşa faciəsi törədildi.

Qarabağ müharibəsi maraqlı dövlətlərin Azərbaycanda mənafelərinin toqquşması, həmçinin Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi səbəbindən baş verdi və xalqımızı faciəyə düçar etdi. Azərbaycan bu müharibədə 20 mindən çox övladını itirdi. Ərazilərimizin 20 faizi düşmən əlinə keçdi. Bir milyondan artıq Azərbaycan vətəndaşı öz vətənində qaçqınlıq həyatını yaşamalı oldu. Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında 900-ə yaxın yaşayış məntəqəsi, 2389 sənaye və kənd təsərrüfatı obyekti, 131 min ev, 1025 məktəb, 798 səhiyyə ocağı təcavüzün qurbanı olmuş, 280 min hektar meşə, 1 milyon hektar məhsuldar torpaq, 1200 km irriqasiya sistemi, 220 min baş iribuynuzlu mal-qara düşmən əlinə keçmişdir. Erməni vandalları mədəni irsimizə dağıdıcı zərbə vuraraq 927 kitabxananı, 100 arxeoloji abidəni, 454 tarixi abidə və

muzeyi, 40 min muzey eksponatını qəddarcasına məhv etmişlər. İşqal olunmuş ərazilərdə nadir flora və faunaya malik meşə sərvətləri və çox qiymətli su mənbələri amansızcasına qarət edilərək Ermənistana daşınır. İlkin hesablamalara görə işğal nəticəsində Azərbaycan öz iqtisadi potensialının 16 faizini itirmiş və ölkəyə 60 milyard ABŞ dollarında ziyan dəyişmişdir. Oğurlanmış və məhv edilmiş tarixi mədəni sərvətlərimizin dəyərini isə pulla qiymətləndirmək mümkün deyildir. Ermənistan bu gün də, Dağlıq Qarabağ ərazisində öz işğalçılıq siyasətini davam etdirir. Onlar işğal olunan ərazilərədə yanğınlar törədir, narkotik maddələr yetişdirir, yeraltı və yerüstü sərvətlərimizi, mənimsəyirlər. Təkcə Kəlbəcər rayonu ərazisindəki «Söyüdlü» qızıl mədənindən çıxarılaraq satılan sərvətin dəyəri 600 milyon ABŞ dollarından çoxdur. Əlbətdə bütün bunların kökünü, Ermənistanın Azərbaycana təcavüzü zamanı Azərbaycanda mövcud olan daxili çəkişmələrdə, hakimiyyət uğrunda gedən mübarizədə, müxtəlif qüvvələrin təxribatlarında, Milli Ordunun olmamasında, səriştəsizliyin mövcudluğu və birliyin olmamasında axtarmaq lazımdır.

1991-1993-cü illərdə Azərbaycanda tez-tez dövlət cevrilişinə cəhd baş vermiş və terror hadisələri törədilmişdir. Xalqın təkidli tələbi ilə Heydər Əliyevin yenidən Azərbaycana rəhbərliyə qayıdışı daha böyük faciələrin qarşısını aldı, müstəqil dövlətçiliyimizin itirilməsi təhlükəsini aradan qaldırdı. Döyüş meydanlarında atəşkəs elan edilməsi, düşünülmüş tarazlı xarici siyasət aparılması, aparıcı dünya dövlətləri ilə fəal əməkdaşlıq yaradılması dövlətçiliyimizi qorudu, inkişaf etdirdi və Azərbaycan dünya birliyndə layiqli yerini tapdı. Dövlətimizdə siyasi sabitliyini əldə edilməsi, iqtisadi tənəzzülün qarşısını aldı və əhalinin maddi-rifah halı artaraq milli-mənəvi dəyərlərimiz bərpa və inkişaf etdi.

Bu gün Azərbaycan dövləti etibarlı əllərdədir. Heydər Əliyevin zəngin idarəçilik və siyasi məktəbini keçmiş layiqli davamçı, xalqın və dünyanın razılıqla qarşıladığı istedadlı dövlət xadimi, dərin biliyə, geniş dünyagörüşünə, yüksək idarəetmə qabiliyyətinə malik gənc və istedadlı lider İlham Heydər oğlu Əliyev atasının siyasi xəttini inamla davam etdirir. İ.H.Əliyev prezident seçildiyi vaxtdan keçən dövr ərzində Azərbaycan həm siyasi, həm sosial-iqtisadi, həm də



